# NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİ TARİXİNDƏN

03.5(5Н21)
R 99

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ
İNCƏSƏNƏT DİL VƏ ƏDƏBİYYAT İNSTİTUTU

FİRUDİN HƏSƏN OĞLU RZAYEV

116638

# NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİ TARİXİNDƏN

## E.Ə. VI-III MİNİLLİKLƏR
*(Naxçıvan oykonimləri əsasında)*

**I CİLD**

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

**NAXÇIVAN- 2014**

**Monoqrafiya Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin 25 yanvar 2013–cü il tarixli protokol №2, 2/11 №-li qərarı ilə çapa təqdim edilmişdir.**

**Tarix elmləri üzrə məsləhətçi:** **İ.M.Hacıyev**
*AMEA-nın həqiqi üzvü,*
*tarix elmləri doktoru, professor.*

**Elmi redaktor:** **A.M.Babayev**
*Filologiya elmləri doktoru, professor.*

**F.H.RZAYEV. Naxçıvan əhalisinin etnogenezi tarixindən (e.ə. VI-III minilliklər). Naxçıvan: Əcəmi NPB, 2014, 448 s.**

Kitabda indiyədək tədqiq olunmamış Naxçıvan əhalisinin etnogenezi, ərazidəki proto Azərbaycan tayfalarının (e.ə. VI-III minilliklər) tarixdəki yeri və bu tayfa adlarının daşıdığı mənalar, onların mifik inancları, əraziləri, əski salnamələrdəki yeri ətraflı tədqiqata cəlb olunmuşdur. Monoqrafiyada Naxçıvan Muxtar Respublikası ərazisindəki qədim tayfaların öz adları ilə yaratdığı etnooykonimlər arxiv və qaynaq məlumatları əsasında sistemləşdirilərək onların etimoloji təhlilləri verilmişdir. Adları əmələ gətirən sözlərin dövrləri tarixi məlumatlarla müəyyənləşdirilmiş, onların proto Azərbaycan dili elementləri olduğu elmi cəhətdən təsdiq edilmişdir. Oykonimləri formalaşdıran qədim sözlər türk dili sözlükləri ilə dil və tarixi baxımdan müqayisəli tədqiq edilmiş, dilimizin əski dövrlərinə dair yeni tarixi faktlar üzə çıxarılmışdır. Naxçıvan oykonimlərinin yayım arealı və areal türk onomastik vahidləri, eləcə də qədim salnamələrdəki mətnlər ilə müqayisəli təhlilləri zamanı dilimizin ilkin ifadə imkanlarına elmi istiqamətdən diqqət yetirilmişdir.

Kitab elmi tədqiqatla məşğul olan doktorant, dissertant və digər elm sahələrinin nümayəndələri, tələbələr, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

4700000000
053-2014

© "Əcəmi" 2014.

*Naxçıvan ulu tarixi keçmişi olan, qədim azərbaycanlıların yaşadığı bir ərazidir. Mən, bu qədim tarixin bütünlükdə öyrəniləcəyinə və əsl həqiqətin öz yerini tapacağına tamamilə inanıram!*

**Heydər ƏLİYEV,**
*Azərbaycan xalqının ümummilli lideri*

# NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİ, ONLARIN DİLİ VƏ TARİXİNƏ DAİR QİYMƏTLİ MONOQRAFİYA

*(Ön söz əvəzi)*

Bu gün bəşər tarixinə öz arxeoloji abidələri, qayaüstü rəsmləri və yazı nümunələri ilə qiymətli elmi yeniliklər verən qədim Naxçıvan torpağı, Bütöv Azərbaycanımızın bir parçası olmaqla yəhudi tarixçisi İosif Flavinin də dediyi kimi "...Bəşər nəslinin ilk beşiyi" olduğunu çoxsaylı qədim mədəniyyət nümunələri ilə bir daha təsdiq etməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun xüsusi səyi və əsl vətəndaşlıq mövqeyinin nəticəsi kimi əraziyə Amerika, Fransa, Türkiyə və s. dövlətlərdən dəvət olunan arxeoloqlar da bu tarixi qədimliyi təsdiq edirlər. Naxçıvanlı, eləcə də əcnəbi, arxeoloqların birgə səyi ilə yeni arxeoloji tapıntılar əldə edilməklə, qədim şəhər tikililərinin qalıqları üzə çıxarılmışdır ki, bu da hələ e.ə. IV minillikdən Naxçıvanda şəhər quruluşlu yaşayışın mövcudluğunu və ərazinin qədim mədəniyyət mərkəzlərindən biri olduğunu sübut edir.

Məhz bu mədəniyyəti yaratmış qədim Naxçıvanın tayfa ittifaqlarının inancları və dillərinin ən qədim dövrünü tədqiq edərək onların tarixi haqqında da faktları elmi cəhətdən əsaslandıran bu monoqrafiya Naxçıvan diyarının ən qədim dövr tarixini də aydınlaşdırmaqda mühüm elmi əhəmiyyətə malikdir. Assur, Hett, Urartu, Misir yazılı salnamələrini tədqiq edərək onlardan nümunələr göstərən F.Rzayevin bu monoqrafiyası Naxçıvan-Naxər ölkəsinə dair indiyə kimi tədqiq olunmamış tarixi faktları üzə çıxarmaqda, qiymətli əsər kimi dəyərləndirilə bilər. Qədim tayfa adlarını özündə daşıyan məntəqə adlarının etimoloji izahlarında dilimizin tarixi təkamülü, mifik inancları izlənmiş, bu tayfalara məxsus əlifba işarələri verilmiş və xalqımızın qədimliyini hələ e.ə. V-IV minilliklərdən əlifbaya sahibliyini təsdiq edən yeni elmi faktlar göstərilmişdir.

Bildiyimiz kimi müstəqillik əldə etdiyimiz hazırkı dövrdə bizə qısqanclıqla baxan bir sıra dövlətlər "itirdikləri" ilə barışa bilmir və azlıqda olan etnik qrupları tariximizin sahibləri kimi təbliğ etməyə çalışırlar. Məhz bu oyunun səyi nəticəsində yaradılmış xüsusi siyasi mərkəzlərin uydurmaları monoqrafiyada müəllif tərəfindən diqqətə alınmaqla bu yalanlara tarixi faktlarla tutarlı elmi təkziblər verilmiş, qədim yazılı salnamələrdən yetərincə tarixi sübutlar göstərilmişdir.

Təbii ki, hələ Çar Rusiyası və Sovetlər birliyi dövründə əsarətdə qalmağımız belə uydurmalara əngəl ola bilməmişdir. Lakin xalqımızı böyük vətəndaşlıq qeyrəti ilə müstəqilliyinə qovuşduran ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ümumi sabitliklə yanaşı elmi mərkəzlərin də işini nizama salmış, məhz onun uğurlu siyasi qətiyyəti nəticəsində tariximizə, dilimizə və mədəniyyətimizə istiqamətlənmiş soyqırımın qarşısı alınmaqla əsl tədqiqata münbit şərait yaradılmışdır. Bu monoqrafiya məhz Azərbaycan elmində tariximizə və dilimizə milli konsepsiyadan yanaşıldığı bir dövrdə qərəzsiz və əsl tədqiqatın bir nümunəsi kimi yeni tarixi və dil faktları ilə zəngindir.

F.Rzayev o dövrün tədqiqinə təkcə dilçilik baxımından yanaşmamış, qədim Naxçıvan ərazisində e.ə. VI minillikdən tarix səhnəsində olan yerli türk-Azərbaycan tayfalarının məişəti, siyasi hadisələrə təsiri, onların inancları və bu inancın Mesopotamiya mədəniyyətində də təkrarı haqqında xeyli nümunələr və dəlillər göstərmiş, bu mədəniyyət ortaqlığını elmi cəhətdən əsaslandırmışdır. Bu yeni faktlarla bərabər müəllif, Naxçıvan ərazisi prototayfalarının və onların mədəniyyətinin Dəclə və Fərat çayları arasındakı mədəniyyətin formalaşmasına birbaşa təsirinə də aid çoxsaylı tarixi dəlillər göstərmiş, Naxçıvanın ən qədim mədəniyyət beşiyi olduğunu xeyli mənbə məlumatları ilə təsdiq etmişdir.

Qədim Naxər ərazisində məskun olmuş yerli tayfaların hər birinə dair qiymətli fikirlər üçün müəllif, antik tarixçi və coğrafiyaşünaslar Herodot, Korneliy Tatsit, Qay Sallyustiy Krisp, Strabon, Klavdi Ptolomey, İosif Flavi, Arrian Marseli, Plutarx və digərlərinin əsərlərinə, eləcə də Assur, Hett, Misir yazılı mənbələrindəki tarixi məlumatlara istinad etmişdir. Xüsusi olaraq qeyd etmək istərdik ki, xalqımızın adına öz adını vermiş qədim As ər türkləri, eləcə də Naxər, Türükkü, Kuti, Lulubəy, Hürrü, Şu, Şubar, Tus, Tal kimi ən qədim tayfalarımızın Naxçıvan ərazisində yerli sakinlər olduğunu təsdiq etmək üçün müəllif təkcə 34 antik mənbəyə, eləcə də indiyə qədər Naxçıvanla bağlı araşdırılmamış Assur, Urartu, Het, Boğazköy, Dügər, Eblait yazılarına müraciət etmiş, beş yüzdən yuxarı mənbəyə istinadən müqayisəli təhlillər aparmışdır.

Monoqrafiyada ilk dəfə qədim Naxçıvan-Naxər ölkəsinin xəritəsi

də öz əksini tapmışdır ki, bu da mənbələrə və tarixi məlumatlara əsasən məhz müəllifin özü tərəfindən tərtib edilmişdir. F.Rzayevin tərtib etdiyi bu xəritələr tarixi məlumatlar nəzərə alınmaqla dövrlər üzrə işlənmiş, e.ə. VI-III minilliklərdə siyasi gücə çevrilən hakim tayfaların sahib olduqları ərazilər və dövrləri əhatə edən siyasi hadisələr də monoqrafiyada öz xəritə əksini tapmışdır. Misir firounu III Tutmosun salnaməsinə əsasən o dövr Naxər ölkəsinin ərazisi daxilində olmuş Iğdır, Ağrı, Kars, Ərzurum, Qağızman, Ərdahan, eləcə də Cənub Azərbaycanımızın torpaqlarında fars əsarəti altına keçmiş Poldəşt, Xoy, Səlmas və Urmiya gölünün şimalına qədərki sərhədlər, o cümlədən də hazırkı bütün uydurma "Ermənistan" torpaqlarının Göyçə gölü də daxil olmaqla Naxər ölkəsi halındakı xəritəsi də müəllif tərəfindən işlənmişdir. Bu ərazilərdə rus, fars siyasi oyununda itirilmiş torpaqlarımızdakı adlara qarşı aparılmış soyqırımı aktı da dil və tarixi yöndən tədqiq edilmişdir. Adların Rusiya, İran, uydurma "Ermənistan" və digər ərazilərdə kütləvi dəyişdirilməsi səbəbinin siyasi oyun olması da müəllif tərəfindən xeyli sayda tarixi məlumatlar, mənbə və dilçilik faktları ilə sübuta çatdırılmışdır. Beləliklə, bu ərazilərin Bütöv Azərbaycana aidliyi və ermənilərin bu torpaqlara gəlmə olması tarixi faktı monoqrafiyada elmi cəhətdən bir daha sübuta yetirilmişdir.

F.Rzayev yer adlarında tayfa birliklərinin adlarının mövcudluğuna dair çoxsaylı mənbələrlə kifayətlənməmiş, bununla bərabər arxeoloq və etnoqrafların elmi nəticələrinə də diqqət etmiş və nəticədə bu mədəniyyətin məhz Azərbaycanda, eləcə də Naxçıvanda yaşayan As, Naxər, Türükkü, Şu, Şubar, Koman, Tal, Kuti, Turdi, Hürrü və s. tayfalara məxsusluğuna dair xeyli tarixi, arxeoloji, etnoqrafik faktlar da göstərmişdir. Müəllifin istər tarix, etnoqrafiya və arxeologiya, istərsə də dil, ümumtürk və coğrafi aspektlərin vəhdətində ortalığa qoyduğu elmi faktlar qədim Naxər ölkəsi mədəniyyət abidələrinin e.ə. VI-III minilliklərdən bu ərazidə məskun olmuş avtoxton protoazərbaycanlılara məxsusluğunu qeyd şərtsiz sübut edir.

Firudin Rzayevin nəşrə təqdim etdiyi bu monoqrafiya daha bir tarixi gerçəkliyi təsdiq edir. Naxçıvanda hələ e.ə. VI minilliklərdə mövcud olmuş tayfaların ümumtürk arealında yayımı və bu siyasi prosesin aid olduğu dövrlərin müqayisəli təhlilləri rus ideologiyasında yer almış "türklərin ərazilərə gəlmə" konsepsiyasını da tamamilə rədd

etməklə, ilk tarixi köçlərin məhz bu ərazilərdən şimala doğru olduğunu bir daha sübut edir. Bu siyasi prosesin xəritə əksi də əsərdə yer alır ki, bu da Azərbaycan tarixşünaslığı ilə yanaşı Naxçıvan tarixi üçün də xüsusi elmi əhəmiyyət daşıyan məsələlərdəndir.

Monoqrafiyanı səciyyələndirən əsas cəhətlərdən biri də F.Rzayevin türk tayfa adlarının yaranmasına türk mifik təfəkkürü yönündən yanaşma üslubudur. Məlumdur ki, bu gün istər tarixşünaslıqda, istərsə də sözlərin etimoloji izahında türk tanrı adlarının və tayfa adlarının mənaları hələ də tam açıqlanmamışdır. Yeri gəldikcə türk inanclarında mövcud olan tanrı və tayfa adlarına linqvistik yanaşma, şumer-türk dil elementləri ilə mövcud oykonimlərə müqayisəli və yeni konsepsiyadan baxış da müəllifin ümumtürk mifik baxışlarına ciddi, elmi yanaşmasıdır.

Dilimizin təkamül yoluna ayrıca başlıq ayıraraq oykonimlərdəki komponentlərin türk dilləri ilə müqayisəsi də müəllifin peşəkar dilçi kimi müvəffəqiyyətinin nəticəsidir. Əski Subartu, Kuti, Kassi, Mitan dövlətlərinin çar və şəhər adlarının bir qisminin, o cümlədən qədim Şuşa şəhərinin Dəclə və Fərat çaylarının aşağı axarında da mövcudluğunu üzə çıxaran F.Rzayev ümumən bu ərazilərdə erməni olmadığını tarixi dövrlərin müqayisəsi ilə bir daha sübut edir.

Bütün bu elmi nəticələri, geniş və əhatəli tədqiqatı nəzərə alaraq müəllifə gələcək elmi yaradıcılığında uğurlar arzulayıram.

**İsmayıl HACIYEV,**
*AMEA-nın həqiqi üzvü,*
*tarix elmləri doktoru, professor*

# QƏDİM DÖVR DİLİMİZ VƏ ETNOGENEZİMİZİN TƏKAMÜL YOLUNU İZLƏYƏN ƏSƏR

*(Elmi rəy)*

XII-XV əsrlər bütün Rusiyada əhalinin daha sıx olduğu ticarət mərkəzləri və bazarlarında, o dövr kiçik bir ərazidə, knyazlıq dövrünü yaşayan Gürcüstanda, eləcə də az qala bütün Osmanlı imperiyası ərazisində ümumünsiyyət vasitəsinə çevrilən Azərbaycan dilinin bu geniş arealda yayılma səbəbi onun qədimliyindən və bir çox türk dilləri arasında ümumişlək dil olduğundan xəbər verirdi. Tezliklə bu dilin Osmanlı ləhcəsini yox edəcəyi narahatçılığı da Səfəvi Osmanlı dövlətləri arasındakı müharibənin əsas səbəblərindən biri idi.

Azərbaycanımızın rus – fars siyasəti ilə parçalanması dilimizin tənəzzülünə yol açmaqla bərabər onun assimilyasiya olunmaq təhlükəsini də ortalığa qoymuşdur. Lakin istər, XX əsrin əvvəllərində ziyalılarımızın ana dili uğrunda mübarizəsi, istərsə də Ulu öndər Heydər Əliyevin iki dəfə hakimiyyətdə olduğu dövrlər dilimizi Dövlət dili səviyyəsinə qaldırması onu yox olmaq təhlükəsindən çıxarmaqla bərabər əbədiyaşarlığının da təminatına çevrildi.

Bildiyimiz kimi dilin tarixi təkamülünü özündə yaşadan ən gərəkli mənbələrdən biri istənilən ərazidə mövcud olan coğrafi adlar sistemidir. Bu adların formalaşması o əraziyə sahib olan xalqların mövcud olduqları dövrdə hakim olan dilin imkanları hesabına baş verir.

"Naxçıvan əhalisinin etnogenezi tarixindən" monoqrafiyasının müəllifi Firudin Rzayevin e.ə. VI-III minilliklərdə Naxçıvan əhalisinin etnogenezinə və bu etnosların dilinə istiqamətlənmiş tədqiqatı elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Qədim Naxçıvanda yaşamış prototürk tayfalarının yaratdıqları etnooykonim qatının tədqiqində müəllif tərəfindən tarix, dil, etnoqrafiya, mifik təfəkkür, son dövr arxeoloji araşdırmaların nəticələri, dilin areal sözlükləri və s. amillər vəhdətdə götürülmüşdür. Bu isə sanballı və ağır bir zəhmət tələb edən əməyin nəticəsi olmaqla bərabər, irəli sürülən yeni konsepsiyanın xeyli sayda elm sahələri ilə təsdiqinin də bariz nümunəsidir.

Assur, Urartu, Hett, Eblait, Misir və digər salnamə və yazılara

müraciət edərək onlardan müəyyən bölmə və mətn hissələrinin tədqiqi, təhlil və müqayisələri zamanı xeyli sözlüklərə istinad edən müəllif, söz köklərinin mənalarına diqqət yetirmiş, tariximiz və dilimizin rus siyasəti nəticəsində necə saxtalaşdırıldığını da üzə çıxarmışdır. Bu müqayisəli təhlil və tərcümədən əldə olunan elmi nəticələr, təkcə Naxçıvan əhalisinin etnogenezi, prototayfaların dili, mifik inancı və s. yeni elmi dil və tarixi faktların təsdiqi deyil, ümum Azərbaycan dili və tarixi ilə yanaşı ümumtürk dili və tarixinə dair yeni elmi nəticələr toplusudur. Müəllif tərəfindən qədim mətnlər üzrə aparılmış tərcümələr itirilmiş tarixin bərpası, dilimizin təkamülünün izlənməsindən əldə olunan çoxsaylı elmi nəticələr, bu istiqamətdə gələcək tədqiqatçılar üçün qiymətli tədqiqat əsəridir. Xüsusi olaraq qeyd etmək istərdik ki, buradakı bir qurub tayfalar nəinki Naxçıvan əhalisinin, ümumiyyətlə Azərbaycan xalqının etnogenezi tarixində də araşdırılmamış, onların dili, tarix səhnəsinə çıxdıqları dövr və əraziləri də ilk dəfə F.Rzayev tərəfindən tədqiq olunmaqla müəyyənləşdirilmişdir. Qətiyyətlə demək olar ki, bu monoqrafiya əsl peşəkar tədqiqatçı bacarığının yüksək səviyyədə təzahürünün elmi nəticəsini əks etdirən əvəzsiz tədqiqat əsəridir.

Kitabda antik tarixçilər və coğrafiyaşünasların əsərlərinə ciddi və qərəzsiz baxış, 220- dən artıq rus, 40-a qədər türk, 140-a qədər Azərbaycan dilində, eləcə də fars, alman və digər millətlərin dillərində yazılmış elmi əsərlərin və tədqiqatların (574 elmi əsər) müqayisəli tədqiqi əsl tarixi həqiqətlərin üzə çıxarılmasında müəllifin vətəndaşlıq qeyrətinin və əhatəli elminin təcəssümüdür. Xüsusi olaraq qeyd etmək istərdik ki, F.Rzayevin tarix, coğrafiya, dil barədə əhatəli biliyi, eləcə də türk xalqlarının dili və onun mənşəyi haqqındakı yetərincə sahib olduğu bilgi elmi əsərlərin düzgün təhlilinə imkan yaratmış, qəti fikir söyləməkdə ona tarixi, coğrafi və dil faktları olaraq kömək etmişdir. Yeri gəlmişkən qeyd edək ki, müəllifin müraciət etdiyi 208 elmi əsər son 10 ilin nəşrləridir. Bu isə F.Rzayevin həm keçmiş, həm də müasir tədqiqat və mənbələri yetərincə izlədiyinin təkzibolunmaz sübutudur.

Monoqrafiyadakı etimoloji izahlar hər hansı təsviri etimologiyadan uzaq olmaqla bərabər qərəzsiz tarixi faktlara söykənmiş, müraciət olunmuş 34 müasir və qədim türk dili sözlüklərinin köməyi ilə tədqiq olunmuş sözlərin izahlardır. Təkcə onu demək kifayətdir ki, tayfaların bir türk boyları olmasının sübutu üçün onların yer məkan adları və çar

adları geniş tədqiq edilmiş, adların formalaşmasında iştirak edən morfemlər-söz kökləri areal türk dilləri ilə müqayisəli şəkildə tədqiq edilmişdir. Burada qədim türklərin mifik təfəkkürünə dair elmi baxışlar, ilkin yaranışda dilimizin bir və ya iki hecalı leksemlərinin mövcud olduğu dövrlərin izlənməsi, şivə, ləhcə fərqlərinin nəzərə alınması, etnoqrafik materiallara diqqət yetirilməsi, tarixi dövrlər, arxeologiyanın son elmi nəticələri ilə müqayisəli təhlillərin aparılması, elmi nəticələrin həqiqiliyini müəyyənləşdirən yüzlərlə elmi faktlara istinad hərtərəfli tədqiqatın göstəriciləridir.

Bununla kifayətlənməyən F.Rzayev Naxçıvan etnooykonimlərini əmələ gətirən söz köklərinin e.ə. VI-III minilliklərə aidliyini yetərincə elmi cəhətdən əsaslandırmaqla yanaşı, öz dövlətlərini yaratmış As, Türükkü, Kassit, Kuti, Lulubəy, Tal, Turdi, Şubar və b. prototürk boylarındakı adlar sistemi ilə müqayisələr aparmış, onların məna çalarlarındakı eyniliyi elmi istiqamətdən sübut etmiş, bu tayfaların vahid ittifaqda eyni dilə mənsub olduqlarına dair əsaslı elmi dəlillər göstərmişdir. Bununla bərabər qədim Naxçıvan-Naxər ölkəsinin yerli sakinləri olmuş adı çəkilən prototürklərin İkiçayarası mədəniyyətə birbaşa təsirini türk boylarının tarixi proseslərdəki iştirakı ilə əlaqələndirən müəllif, öz fikrinin təsdiqinə dair xeyli tarixi sübutlar göstərmişdir. Ərazinin Mesopotamiya ilə eyni dövr mədəniyyətə sahib olmalarına dair yeni elmi konsepsiya irəli sürən müəllif dil, mifik inanc, məişət və s. faktorları üzə çıxarmışdır. Belə ki, bu tayfa adları ilə yaranmış yer adları, eləcə də ərazidə əski tayfaların inancları ilə bağlı məntəqə dağ və su hövzələri də (oykonim, oronim, hidronimlər) müəllif tərəfindən aşkar edilmişdir. Tarixi baxımdan e.ə. VI-III minilliklərdə An/Anu, Kiur, Şar, Tal, Topk kimi proto Azərbaycan mifik tanrı adları Dəclə, Fərat arası mədəniyyətdə və mifdə təkrarlanmışdır. Bu və digər məsələlərə dair Naxçıvan adlar sistemindəki yetərincə ad faktlarına müraciət edən F.Rzayev, Naxçıvan mədəniyyətinin Mesopotamiya mədəniyyətinə təsir etməsi fikrində haqlı olduğunu bir daha sübut etmişdir. Burada bir məsələni xüsusi qeyd etmək istərdik ki, bu qədim Naxçıvan əhalisinin vahid dilə, mədəniyyətə və türk birliyinə sahib olmaqla böyük gücə də mənsubluğunu təsdiq edən tarixi faktdır.

Monoqrafiyada dilçilik yönündən diqqəti çəkən əsas amillərdən biri də 7 min il öncəki dilimizdə kök-şəkilçi münasibətlərinin müasir

dilimizin morfoloji və leksik qanunları ilə müqayisəsi, köklərin yaranma formalarının ibtidaidən aliyə doğru inkişafı qaydalarının elmi əsaslarla təsviridir. Burada əski dilimizdə az-az təsadüf olunan flektiv, amorf dil xüsusiyyətlərinin mövcudluğu da dil tariximiz üçün bir elmi faktı ortalığa çıxarır. Əgər bu gün xeyli sayda Avropa xalqlarının dili flektiv dil, Çin və s. xalqların dili isə amorf (kök dili) dil xüsusiyyətlərində mövcuddursa, deməli proto Azərbaycan dili bu prosesi 7 min il öncə adlamış, tarixi baxımdan ən qədim dil sayıla bilər. Bu tarixi faktın özü də monoqrafiya müəllifinin ciddi və elmi tədqiqatının xüsusi əhəmiyyətindən xəbər verir.

Monoqrafiyada yüzlərlə yazıyaqədərki dövr proto Azərbaycan dili elementləri və fonetik paralelliklərə dair müqayisələr, onların elmi cəhətdən təsdiqi bu istiqamətdə gələcək tədqiqatlar üçün əsaslı baza kimi böyük elmi əhəmiyyətə malikdir. F.Rzayev bu istiqamətdə geniş müqayisəli təhlillər aparmış, onların yazıyaqədərki dövr qədim türk dili elementləri olduğuna dair yetərincə elmi faktlar göstərmiş, e.ə. VI-III minilliklərdə Assur, Hett, Urartu yazılarına düşən türk dili elementləri ilə müqayisəli elmi nəticələr ortalığa qoymuşdur.

Əsərdə hər bir tayfaya dair xəritə tərtibatı da müəllifin öz yaradıcılığı olmaqla elmi cəhətdən xüsusi əhəmiyyət daşıyır. Bir sözlə aparılmış tədqiqatların ümumtoplusu olan bu monoqrafiyadakı bütün elmi nəticələri, geniş və əhatəli tədqiqatı nəzərə alaraq müəllifə gələcək elmi yaradıcılığında müvəffəqiyyətlər arzulayıram.

**Adil BABAYEV,**
*Filologiya elmləri doktoru, professor*

## MÜƏLLİFDƏN

*(Giriş əvəzi)*

Böyük mədəniyyətləri yaradan qədim tayfalar və onların məhdud zaman əhatəsində tarixi sivilizasiyaları bəşəri mədəniyyətin təkamülü üçün nə qədər yüksək bir əhəmiyyətə malikdirsə, onların bir-birini əvəzlədiyi dövrdəki yeni sivilizasiya "təşəbbüskarlığı"-dağıntılar, zaman-zaman qurulanların məhvi də tarixin bir qaralanmış səhifəsi yerindədir.

Son dövrlərin "siyasi gücünə" çevrilən, lakin əsl həqiqətdə bu gücü itirmiş, bir vaxtlar tabeliyində olan xalqların sərvətlərini əlindən çıxaran Rus dövləti yeni siyasi oyunlarına azlıqda olan xalqları qatmaqdadır. Burada azlıqlar müəyyən vədlərlə qıcıqlandırılır, onlar müstəqillik əldə etmiş dövlətlərlə qarşı-qarşıya qoyulur. Məhz belə siyasi cəhddə kiminsə tarixi, mədəniyyəti, etnoqrafiyası və s. oğurlanır, ərazilər qarşıdurma vəziyyətində saxlanılır, bu isə siyasi mahiyyətin ana xəttini təşkil edir. Qeyd edək ki, bu gün Rusiya, Fransa və Amerikada yaranan xüsusi "elmi mərkəzlər" məhz bu siyasətin "övladlarıdır". Son dövrlər bu istiqamətdə daha da fəallaşmış L.Məmməd, B.Acamatov, S.Qabiev, M.Ömərov, A.Qazıyan kimi erməni, fars, bəzən də gürcü, kürd, talış, ləzgi müəllifləri Moskvada "Dünya dilləri", "Dostani", "Yujdaq" və s. kimi mərkəzləşmiş jurnallarda Azərbaycan xalqının tarixi, dili, ərazisi haqqında təhriflər uydurmaqla ermənilərin siyasi oyunlarına dəstək verməkdədirlər. Onların yazılarında Azərbaycan türklərinin Kuti, Hürri, Kassi, Aratta, Mitan, Manna, Midiya və s. çarlıq və dövlətlərinin tarixi bu gün hələ də azlıqda olan xalqların "dövlətləri" kimi təbliğ edilməklə, bu xalqın etnogenezinin iştirakçıları olmuş As, Kuti, Hürri, Turukku (Türk), Kassi, Lulubəy, Subartu, Şu və s. türklər isə bu xalqların "ulu babaları" kimi təqdim olunmaqla xalqımızın tarixini saxtalaşdırmaqdadırlar (387, s. 35-37; 386, s. 65; 283; 319; 424, s. 94-101; 364, s. 168-184 ).

Bildiyimiz kimi hər hansı bir mədəniyyətin iflasında əsas amillərdən biri də hansısa bir sivilizasiyanın digər bir mədəni inkişafa qarşı, belə demək mümkünsə, sui-qəsdi ilə bağlıdır. Əgər tarixi izləsək, müəyyən ərazilərdə yayılan ümumxalq mədəniyyəti eyni dil və tarixin, eyni inanc və adətlərin, ən ümdəsi isə eyni mənşədən gələn tayfa ittifaqının göstəricisi olmaqla, öz müsbət

tərəfləri ilə bəşəriləşməyə doğru gedir. Sivilizasiyalar isə, hakim gücün istənilən mədəniyyət üzərində zor tətbiqi ilə mövcud mədəniyyəti-sivilizasiyanı tənəzzülə sürükləyən siyasi prosesin mahiyyəti kimi ortalığa çıxır (-F.R.).

Zaman-zaman siyasi proseslərin meydanına çevrilən qədim Naxçıvan ərazisi on minillər öncə yaşadığı mədəniyyəti tam olaraq öz üzərindən silib atmamış, onun müəyyən qatlarını dövrümüzə qədər daşıya bilmişdir. Təbii ki, bu da bir tarixi qanunauyğunluqdur və tarix heç nəyi öz səhifələrindən birdəfəlik silib atmır. Beləliklə, istənilən qurumların bir-birini əvəzləməsi qədim mədəniyyətləri tamamilə məhv edə bilmir, onların izləri torpağın hansısa bir qatında günümüzə qədər gəlməklə əski təkamüldən xəbər verir. Hər addımında belə bir mədəniyyətin izləri ilə dünyanı heyrətləndirən qədim Naxçıvan ərazisi də Azərbaycanımızın ayrılmaz hissəsi olmaqla, ümum Azərbaycan qədim mədəniyyətini, dövlətçilik ənənəsinə malik olduğu ulu keçmişini tarixi faktlar və izlərlə dünyaya göstərməkdədir. Bu gün e.ə. V minilliklərə aid arxeoloji tapıntıları, o dövrə aid Duz mədənləri, ibtidai insan mağaralarının aşkar olunduğu Naxçıvan öz tarixi ilə ərazisində mövcud olmuş ulu bir sivilizasiyadan xəbər verməkdədir.

Qədim sivilizasiyaların xarakteri haqqında danışan O.Şpenqler yazırdı: " Hər mədəniyyətin öz beynəlmiləl sivilizasiyası olmuş, o, öz imkanlarını tükəndirərək sonda məhvə məhkum olmuşdur" (193, s. 9-11). Heç şübhə yox ki, Sovetlər birliyi də hər hansı bir "sivilizasiya" kimi öz imkanlarını itirmiş bir qurum kimi son dövrlərdə istər siyasi, istərsə də iqtisadi baxımdan itkiləri ilə barışa bilmir. R.Mehdiyev, R.Ulusel və türk dilçisi Z.Gökalpın əsərlərinin geniş təhlilini verən Ə.Həbibbəyli, bu fikirlər kontekstindən çıxış edərək sivilizasiyanın türk konsepsiyasını irəli sürməklə, Türk Pravoslav, Türk Avropa sivilizasiyalarında bu amilləri geniş şəkildə şərh edir (193, s. 13-15, 74-79, 106-110).

Naxçıvan ərazisi də məhz belə bir sivilizasiya mərkəzlərindən olmuş, bu gün belə heyrətamiz qədim mədəniyyətin maddi sübutlarını daşımaqdadır. İstər arxeoloji, istər coğrafi adlardakı mifik işarətlər, istərsə də qədim etnogenezi baxımından bu qədim ərazi dünya alimlərini heyrətləndirməkdədir. Ən qədim maddi-mədəniyyət nümunələri ilə dünya tarixşünaslığının bəzi yanlış məqamlarına aydınlıq gətirən Naxçıvan torpağı arxeoloji mədəniyyət nümunələri ilə daş dövrü mədəniyyətinə qədər dayanır. Uzun illər bu istiqamətdə çalışan görkəmli arxeoloqlarımız O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev, Ə.Novruzlu, S.Aşurov, Q.Seyidov,

B.İbrahimov və digər görkəmli elm adamlarının qazıntılardan əldə etdiyi maddi mədəniyyət nümunələri bütün bu qədimliyi təsdiq etməkdədir (276, s. 10; 172, s. 11; 228, s. 5, 42, 60; 230, s. 77; 357 s. 21, 75).

Xüsusi olaraq qeyd etmək istərdik ki, təkcə son dövrlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun şəxsi təşəbbüsü və köməyi ilə ərazidəki arxeoloji araşdırmalar, qədim tariximizi yaşadan Gəmiqaya ekspedisiyaları beynəlxalq əhəmiyyətli elmi yeniliklərlə nəticələnmişdir. A.Seyidov, V.Baxşəliyev, S.Aşurov S.Məmmədov Amerika və Fransa arxeoloji heyətinin Qazma mağara, Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, Xələc, Maxta və s. ərazilərdə apardıqları tədqiqatlardan əldə olunan maddi-mədəniyyət nümunələrinin e.ə. V-IV minilliyə aidliyi, bununla bağlı bütün elm sahələrinin iştirakçılarının gəldiyi elmi nəticələr bu qədimliyi yekdilliklə təsdiq etdi (259, s. 11-16, 41, 73-74).

Bu faktorlar məhz qədim ərazinin böyük sivilizasiya mərkəzi, eyni dildə danışan tayfa birliklərinin yaratdığı mədəniyyət məkanı olduğunu, bu sivilizasiyanın e.ə. VI-III minilliklər Mesopotamiya mədəniyyəti ilə ortaqlığını da sübut edir. Bundan başqa arxiv sənədlərində hələ də izlərini itirməyən ərazidəki minlərlə məntəqə adının prototürk dilində olması, bu adlarda həm mifik təfəkkürümüzün, həm də əski dilimizin təkamülünün izləri ərazidəki mədəniyyətin prototürk-proto Azərbaycan mədəniyyəti olduğuna danılmaz tarixi faktdır.

Bütün bunlara baxmayaraq qədim Naxçıvanın e.ə. VI minilliklərdən, Nuh tufanı ilə başlayan mədəniyyət, şəhərsalma və etnogenezinin göstərilən tarixlə səsləşməsinin tədqiqi də, bu gün aktual məsələlərdən biri olaraq qalmaqdadır. Bəs bütün bu tarixi faktları təsdiq edən arxeoloji nümunələrlə yanaşı hər hansı digər bir tarixi sübut, amil, işarət mövcuddurmu? Bu suala aydınlıq gətirmək üçün bəzi tarixi müqayisəli təhlilləri də nəzərə çatdırmağı vacib hesab edirik.

Bildiyimiz kimi Nuh tufanı tarixi hadisəsi (bu bir əfsanə deyil, tarixi həqiqətdir -F.R.) qədim Şumer dastanı "Bilqamıs"dan dünya xalqlarına adlamışdır. Bu dastanda adı çəkilən xeyli sayda yer, tanrı adlarının Naxçıvan ərazisində təkrarı bir təsadüfdürmü? Gəmiqayaya ekspedisiya zamanı ərazinin toponimik sistemi tərəfimizdən tədqiq edilərkən, buradakı adların qədim şumer dastanındakı adları təkrarlaması faktları ilə qarşılaşdıq. Ərazidəki rəsmli daşlarda Nuhla bağlı gəmi, qaranquş, tufanı təmsil edən arxası üstdə düşmüş əjdaha rəsmi kimi xeyli sayda tarixi işarətlər mövcuddur

(142, s. 115-121). Ərazinin toponimik adlar sistemində Nuhla bağlı Nəbi yurdu, Qaranquş yaylağı, Qəzər yurdu, dastandakı Nisir dağı və Nəsirvaz zirvəsi, Kudur Enlil tanrı adı və Qudu yurdu, Bilqamıs dastan adı və Bilbil yer adı, İrnini tanrı məkanı və Nəbi yurdunda İrni yer adı, dastanda Saria dağ adı və ərazidə Sarı dağ kimi adların "Bilqamıs" dastanındakı adları təkrar etməsi bir təsadüfdürmü (5, s. 42, 44, 90)? Əlbəttə ki, bu qədər təsadüf olmur və heç şübhəsiz adlar Naxçıvan və Mesopotamiya mədəniyyətlərinin bağlılığından xəbər verməklə, bu əski mədəniyyətlərdə eyniliyin, əsl həqiqətin tarixi izlərini qoruyur. Əgər adların şumerlərdəki tarixi nəzərə alınarsa, qədim Naxçıvanın adlar tarixinin e.ə. IV minilliyə söykənməsi ərazi mədəniyyətinin 6 min illik tarixini təsdiq edir.

Bundan başqa biz qədim Dəclə və Fərat çaylarının yuxarı axarlarında əskilərdən məskunlaşmış prototürklərin-protoazərbaycanlıların tarixi proseslərdəki iştirakını sübut edən xeyli sayda yazılı məlumatlarla da rastlaşırıq. Bu yazılar Naxər (Naxçıvan əhalisinin ulu tayfaları), Hürri, Kuti, Lulubəy, Türk-Türük, Kaşşu, Şu, Şubar/Subar Koman və b., prototürk boylarının inancı ilə bağlı An/Anu, Kiur, Kaşşu, Harbe, Nuh/Nax, Tal, Kamulda, Şuxi, Şar, Sax kimi tanrı adlarını təqdim edir (23, II c., 23; 330, s. 84; 120, I c., s. 316, 379, 448, 457, 515; 271, s. 304-305). Biz qədim inanclarımızla bağlı tanrı adlarının sonralar prototürk boylarının adlanmasında-nominasiyasında iştirakını da izləyirik. KAŞŞU -Kas+it, Kaş+key, HARBE-Hürri, ŞUXI- Şu, Şubar, KAMUL-DA-Kom+an, SAX-Sak, İMMİRİYA-Kimmer/Kimmeriya, NUH-Nax şəkillərində tanrı və teofor adların tayfa adlarına çevrilməsi Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin təşəkkülü tarixinin ilkin çağlarına təsadüf edir. Bu adlanma sistemi Manna, Midiya Atropatena dövlətlərimizin mifologiyasında da eynilə təkrarlanır (208, s. 58-61, 79-85). Biz bu gün də İslamdan öncəki inanclarımızı yaşatmaqla Tanrı adı ilə Tanrıqulu, Tanrıverdi, Tanrıtay kimi adlara müraciət edirik.

Daha sonralar bu tanrı adları Sibir, Altay və Orta Asiya türklərinin də inanclarına adlamış və bu ərazilərin coğrafiyasında öz geniş əksini tapmışdır. Əski prototürk boylarında Tanrı adlarının o dövrkü tayfa və antroponimik-şəxs adlarının yaranmasında xüsusi rolu olması qaynaqların məlumatları ilə də təsdiq olunur. Əgər yadımıza salsaq Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Luma, Şumukan və b. (5, s. 12, 15, 56-58) sonralar bu xalqın Şu, Kuti, Lulubəy, Türükkü, Kassit tayfa

adlarında, daha sonra isə onların varisləri Kimmer, Şirak və b. prototürk boylarının Saralqab, Elilumeş, Kadaşman Harbe, Kudur Enlil kimi çar adlarında təkrarlanmışdır (349, s. 128; 208, s. 50-51, 61). Şumerlərdə Huma tanrı adı Altay türklərinə Umay şəklində, Şar tanrı adı taras, buryat, hunqar-macar miflərinə Şara-Tanqa, Şarkan, Ki tanrı adı isə yunan və slavyan miflərinə Kiy, Kibela kimi adlamışdır (105, I c., s. 647-648; 106, II c, s. 640). Bəs bu tarixi proses hansı dövrləri əhatə edirdi və Dəclə Fərat çaylarının yuxarı axarlarına qədər söykənən qədim Naxər ölkəsindəki e.ə. VI-III minilliklərdə hakim güc olan bu prototürk-Azərbaycan boylarının inancları göstərilən ərazilərə hansı dönəmdə yayıla bilmişdir?

Qədim mənbələr bu tarixi prosesin e.ə. V-II minilliklər arası baş verdiyini, qədim As, Türük, Kuti, Lulubəy, Hürrü, Koman və b. boyların zaman-zaman şimala doğru axınını göstərir. Biz bu haqda aşağıda hər bir proto Azərbaycan boyundan danışarkən məlumat verəcəyik. Göytürk yazılarındakı "Az budın", Etrüsk, Kuşay, Kutay, Türk kimi tayfa adlarının təkrarı (235, s. 345, 354, 380) qədim Naxər tayfa ittifaqlarının mövcud olduqları dövrlə müqayisədə ən azı 5 min illik tarixi əhatə edir. Bu tarixi fakt isə qədim proto Azərbaycan tayfalarının şimala köçlərin tarixdən silinməmiş izləridir. Aşağıda tərəfimizdən tərtib edilmiş bu xəritə, şimala doğru ilk qədim proto azərbaycan tarixi köçünün ifadəsidir.




*(Xəritə F.Ağasıoğlunun tərtib etdiyi xəritə üzərində yenidən tərtib edilmişdir)*

Beləliklə tərəfimizdən qədim inanclarımızla bağlı aparılmış araşdırmalar, şimala doğru aparılan tanrı adları həm də qədim türk tayfa adlarının əsasən teofor adlardan-Tanrı adları və müqəddəs adlardan yarandığını, bu mifik inancların isə ümumtürk arealında geniş yayıldığını da sübut edir (-F.R.). Qeyd edək ki, qədimdə və indi də antroponim və tayfa adlarının adlanmasında- nominasiyasında əsasən teofor adlar iştirak edir.

Bəs Naxçıvan coğrafi adlar sistemində də bu teofor adlardan yaranmış adlar mövcuddurmu?

Qədim Naxçıvan ərazisinin toponimik adlar sistemində biz tanrı adlarının bir qisminin məntəqə-oykonim və dağ, düzən və s. adlarda da təkrarlandığını görürük. Kiur tanrı adı və Kiır+na-"Kiur tanrısının verdiyi"- Kırna məntəqə adı (bu ərazidəki qayalıqda Nuhun rəddi-ləpiri versiyasını xatırlayaq), An/Anu tanrı adı və İl+An -"Anu yurdu"- İlan dağ adı, Tork tanrı adı və Tərək məntəqə adı, Şar tanrı adı və Şərur "Şar tanrısının qurduğu", Tal tanrı adı və Tal+in- "Tal yurdu" məntəqə və mahal adları, İmmer tanrı adı və Gümür məntəqə adı, Sax tanrı adı və Sak+uz-"İşıqlı Sak" məntəqə adı, Şuxi tanrı adı və Şuxyu məntəqə adı kimi yüzlərlə ad (77, s. 164-183) təbii ki, təsadüf deyil, ən qədim dövrlərə söykənən bir tarixi yaddaşdır. Əgər diqqət etsək, bu adlar həm mifik inanc daşıyıcısı, həm tayfa adı, həm dil təkamülünün izləri, həm də etnooykonim adları baxımından əsl tarixi mənbədir. İstər bu qədim türk tanrı adlarının Naxçıvan coğrafi adlar sistemində təkrarı, istərsə də bu adları daşıyan tayfaların 300-dən yuxarı məntəqə adı-oykonimə öz adlarını verməsi uzaq bir tarixdə Naxçıvan və Mesopotamiya mədəniyyəti və etnogenetik əlaqələrinin tarixi ortaqlığından söz açır.

Biz Naxçıvan ölkəsinin adına NAXARain yazılışında e.ə. XVI əsrdə, Misir fironu III Tutmosun dövründə (e.ə. 1504-cü il) tarixi siyasi hadisələrlə bağlı yazılmış salnamələrdə görürük. Naxərlərin tarixi proseslərdə iştirakı Misir fironu III Tutmosun salnaməsində xüsusi olaraq Naxarin (Mitan ölkəsi) kimi qeyd edilir (120, I c., s. 314-318, 344-346; 271, s. 174). Diqqət etsək, ad Misir dilində hələ e.ə. II minillikdə Hax ərən "Nuh ərənləri" yazılışında yer alırdı. Bundan sonra Naxçıvan-Naxər ölkəsi adının Urartu yazılarında MÂTU NAKRU yazılışında qeydə alınması və Lulubəy türkləri ilə yanaşı göstərilməsi (402, s. 21-29) onun ölkə halında mövcudluğunun birmənalı təsdiqidir. Bu məlumatla

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

bağlı bir məsələni xüsusi olaraq qeyd edək ki, mənbədə Naxər ölkə adı Lulubi ölkə adı ilə yanaşı çəkilməklə Q.A.Melikişvili tərəfindən rus dilində MÂTU NAKRU (strana vrajeskaya) - düşmən ölkə kimi tərcümə edilmişdir (yenə orada, s. 20-30 ). Lakin bildiyimiz kimi, mat/bat sözü qədim türk dillərində "ölkə", "yurd" kimi işlənmişdir. Bu tərkibə Ordubad, Aşqabad, Astabad, Qızıl Arbat, Ekbatan, Tolmat kimi qədim və müasir adlarda m≈b fonetik paralellikləri ilə rast gəlirik (266, s. 54, 81). Yeri gəlmişkən qeyd edək ki, Urartuları özlərinə ulu baba bilən ermənilər "Düşmən ölkə"- Naxər ölkəsini necə öz torpaqları hesab edə bilərlər ki, bu torpaq onların babalarının düşməni idi və bunu Urartu yazıları özü təsdiq edir. Ümumən tarixdə erməni tarixi yoxdur, Ərmən tarixi isə türklərə məxsus olmuşdur.

Bu tarixi faktlarla yanaşı qədim Naxçıvan ərazi adlarında əski türk sözlərinin e.ə. VI-III minilliklərdən bəhs edən Akkad, Assur, Het, Yunan, Misir salnamələrindəki prototürklərlə bağlı yazılarda da təkrarı qədim dil tariximizin 8 minillik bir dövrünün danılmaz təsdiqidir.

Bu səpkili məlumatların antik müəlliflər, salnamələr, Avropa, Rus və digər xalqların tədqiqatlarında səslənməsi, rus müəlliflərinin əsərlərində Naxəran ölkəsi əhalisinin etnik tərkibinin Naxar, Qiksos-Gök As, Kaskey, Kassit, Mentu, Türükkü, Su, Subar, Bulqar və s. prototürk-protoazərbaycanlılardan ibarət olduğunun göstərilməsi (540) fikrimizin doğruluğunu təsdiq edən elmi dəlillərdir.

Heç təsadüfi deyil ki, qədim sivilizasiya mərkəzi olmuş Naxçıvan mədəniyyətinin qaynaqlarda ən qədim mədəniyyət mərkəzi kimi mövcud olması faktları onu ətraf ölkələrdə də tanıtmışdır. Təbii ki, bu mədəniyyətin dünya xalqları tərəfindən hələ lap qədimlərdən izlənməsi faktorundan bu şəhər "bəşər nəslinin ilk beşiyi" kimi adlanmış və qədim mənbələrə düşmüşdür.

# I FƏSİL

# QƏDİM NAXÇIVANLA BAĞLI TARİXİ FAKTLAR VƏ TƏDQİQATLAR

## 1. ƏSKİ MƏNBƏLƏR NAXÇIVAN HAQQINDA

Hər hansı bir ərazinin qədimliyi bir neçə elmi aspektdən öz tarixi təsdiqini tapır. İstər qədim qaynaq məlumatları, arxeoloji mədəniyyət nümunələri, epiqrafik yazılar və etnoqrafik materialların, istərsə də toponimik adlar, qayalara həkk olunmuş qədim yazı nümunələri və antik rəsmlərin ortaq tədqiqində qədimlik faktı, əsl tarixi həqiqət öz təsdiqini tapır. Heç şübhə yoxdur ki, bu faktorların hər biri ayrı-ayrılıqda bütöv bir tarixi təsdiq etmək gücündə deyil. Bütün bunların tarixi müqayisəli təhlilləri, tarixi faktların bir-birini tamamlamağı və faktların ümum mahiyyət eyniliyi şübhəsiz ərazi haqqında ortaq fikir söyləmək imkanı yaradır. Tarixi qaynaqlar və antik müəlliflərin yazılarında Naxçıvanla bağlı məlumatlar onun qədimliyini sübut edən əsas şərtlər kimi areal tarixi tədqiqatda əsaslı amil kimi dəyərləndirilir.

Bildiyimiz kimi hələ I əsrin əvvəllərində şəhər haqqında ən erkən məlumat yəhudi tarixçisi İosif Flaviyə məxsus olmuşdur. Məhz o, Naxçıvanı bəşər nəslinin ilk beşiyi hesab etməklə, bu ərazini Nuhun saldığı ilk şəhər kimi təqdim etmişdir (13, I, s. 14; 14, t. II, s. 57, 93). Təbii ki, bu da Naxçıvandakı qədim ilkin sivilizasiya ilə bağlı bir işarət olmuşdur. Daha sonra bu ad e.ə. II əsr K.Ptolomeyin "Coğrafiya"sında "Naksuana" şəklində Cənubi Qafqazda göstərilmiş, bu coğrafi məkanda adı keçən şəhər təkcə Qafqazın deyil, bütün Şərqin ən böyük şəhərlərindən biri kimi təqdim olunmuşdur (29, s. XXII; 185, s. 10-12; 223, s. 20). Naxçıvan haqqında erkən məlumatlara V əsr tarixçiləri M.Xorenski, F.Buzənd və Eqişenin yazılarında, eləcə də XIII əsr Alban tarixçisi K.Gəncəlinin də yazılarında rast gəlirik. Qafqazdakı hadisələrin e.ə. VI əsr dövründən bəhs edən bu müəlliflər müəyyən tarixi hadisələrlə bağlı Naxçıvan şəhərinin adını çəkmişlər (11, s. 67-69; 15, s. 133-135).

Bir məsələni xüsusi qeyd etmək istərdik ki, bu müəlliflərin əsərlərini və oradakı tarixi hadisələri, adlar sistemini mütləq qəbul etmək mümkün deyil. Bildiyimiz kimi kitabları tərcümə edən erməni müəllifləri burada xeyli adları təhrif edərək dəyişdirməklə bərabər Nax-

çıvanın da adını "Vaspurkan", "Naxçivank" yazılışlarında təqdim etmişlər. Təkcə K.Gəncəlinin "Alban tarixi" kitabını "Erməni tarixi" kimi tərcümə edən L.A.Xanlaryan burada (seçilmişlər türk –Azərbaycan adları) Sabe-İzabella, Atabəy-İvane, Ökbəy-Uqedey, Səkmən- Şaxi Armen, Qurca xatun- Tamar, Surxan-David, Əltinə xatun-Altanak kimi 250-yə yaxın qədim türk şəxs adlarını, Qirkan(Xəzər)- Varkaniya , Cahan- Vaspurakan, Araz- Erasxi, Bərdə- Badzrberd kimi 300-ə qədər coğrafi adlar dəyişdirilmişdir (18, s. 76, 127-129, 130, 150). Sonrakı nəşrlərdə artıq türk adları deyil dəyişdirilmiş adlar yazılmışdır. Bütün bunlara baxmayaraq tarixi hadisələri müqayisəli şəkildə izləmək və ilkin adların etimoloji izahında azərbaycançılığın e.ə. VI əsrini öyrənmək baxımından bu kitablara müraciət etmək məcburiyyətindəyik. Yeri gəlmişkən xatırladaq ki, ermənilərin bu gün "Erməni tarixçiləri" hesab etdikləri M.Xorenli, F.Buzənd, K.Gəncəli, Eqişe və b. qədim Alban-türk tarixçiləri olmuşlar (-F.R.).

Biz V-VII əsr qədim gürcü mənbələrində də bu ərazinin çox əskilərdən qədim bir türk yurdu olması elmi faktları ilə qarşılaşırıq (168, s. 20-24). Şübhəsiz ki, bu mənbə məlumatları da ərazinin qədimliyinə dair əsaslı fakt kimi elmi cəhətdən xüsusi əhəmiyyətə malikdir.

Xeyli sayda ərəb mənbələri də Naxçıvanın bir türk-Azərbaycan şəhəri olması haqqında maraqlı məlumatlar verməklə yanaşı onun qədimliyini bir daha təsdiq edir. Orta əsr ərəb-fars müəlliflərindən Əl-Bəlazuri, İbn əl-Fəqih, Qudm ibn Cəfər, Həmdullah Qəzvini və digərlərinin əsərlərində "Nəşəva", "Nəxcəvan", "Nəqşi-cahan" və s. yazılışlarla rast gəldiyimiz qədim Naxçıvan, göstərilən bütün qaynaqlarda türklərin yaşadığı ərazi kimi vurğulanır (185, s. 10-12; 223, s. 23; 168, s. 31). Ad "Naxçivan", "Nəqsuan" yazılışları ilə İbn Xordadbeh və Şihabəddin Məhəmməd ən-Nəsəvinin də yazılarında Eldəgizlər dövlətinin paytaxt şəhəri kimi qeydə alınır (12, s. 120-124; 32, s. 120).

Naxçıvanın böyük mədəniyyət mərkəzlərindən biri olması faktı əski dövrlərin sikkələrində də öz əksini tapır. E.A.Paxamovun numizmatika sahəsindəki araşdırmaları yeni elmi nəticələr ortalığa çıxarır və sikkələrdə şəhərin adının "naxç" şəklində təqdimatı o dövr bu ərazinin özünəməxsus mədəniyyət mərkəzi olmaqla ətraf ərazilərlə siyasi və mədəni əlaqələrini bir daha sübut edən tarixi faktorlardandır (426, s. 45). Şəhərin böyük mədəniyyət mərkəzlərindən biri olması faktını Əbd ər- Rəşid əl-

Bakuvinin yazılarından da oxuya bilirik (1, s. 21, 49, 75).

Yüzlərlə bu səpkili tarixi qaynaqlar ərazinin proto Azərbaycan xalqına aidliyini birmənalı olaraq təsdiq etməkdədir. Göstərilən mənbə məlumatlarından istər-istəməz belə bir sual ortalığa çıxır. Əgər Naxçıvan bəşər sivilizasiyasının ilk beşiyi olmaqla, Qafqazın ən qüdrətli şəhəridirsə, bu ərazidə o tarixi qədimliyi qoruyub saxlayan hər hansı bir yerüstü və arxeoloji mədəniyyət nümunələri varmı?

Uzun illər bu tarixi faktı təsdiq etmək üçün geniş arxeoloji araşdırmalar aparılmışdır. Yuxarıda da qeyd etdiyimiz kimi bu istiqamətdə çalışan görkəmli arxeoloqlarımız O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev, Ə.Novruzlu, S.Aşurov, Q.Seyidov, B.İbrahimov və başqaları xeyli əmək sərf etməklə tariximiz və etnogenezimizin təşkili istiqamətində yeni elmi nailiyyətlərə sahib olmuşlar. Naxçıvanın I, II Kültəpə, Sədərək, Yengicə, Aşağı Daşarx, Şor təpə, Ovçular təpəsi, Xaraba Gilan, Qazançı, Ağ Sal, Şahtaxtı, Xoşkeşin, Xanağa, Xalac və s. ərazilərin arxeoloji abidələri məhz onların əməyi nəticəsində üzə çıxarılmışdır. Bütün bu bölgələrdə neolit, eneolit və dəmir dövrlərini əhatə edərək e.ə. V-III minilliklərdən eramızın XX yüzilliklərinə qədər gələn maddi-mədəniyyət nümunələrini özündə cəmləşdirən bu ərazidəki tapıntılar çoxminillik məskunlaşmadan, xalqımızın təşəkkül tarixindən məlumat verməklə bu mədəniyyəti yaradan əski türk boylarının izlərini də günümüzə qədər daşımışdır. Qeyd edək ki, Naxçıvanın qədim sivilizasiya mərkəzlərindən biri olmaqla öz maddi-mədəniyyət nümunələri ilə dünya tarixşünaslığının bəzi yanlış məqamlarına da aydınlıq gətirmiş, onun tarixi qədimliyi, bəşər nəslinin ilk beşiklərindən biri olması fikri arxeoloji faktlar əsasında təsdiq olunmuşdur. Eniolit və tunc dövrələrini tədqiq edən O.A.Həbibullayevin araşdırmaları məhz o dövləri təsdiq edən elmi nəticələrə dayanır (276, s. 10). Qədim Naxçıvan ərazisində e.ə. II minilliyə dair Sum qalasının, Şərurun Qarabulaq düzənliyində e.ə. III minilliyə aid kurqanların, Şahbuz bölgəsinin biçənək ərazisində e.ə. II minilliyə aid qədim şəhər yerlərinin araşdırılmasında V.Əliyevin böyük xidmətləri olmuş, xeyli elmi nəticələr əldə edilmişdir (175, s. 13-15; 172, s. 11). Xələc, II Kültəpə, Ovçular təpəsi, Şortəpə və digər ərazilərdə məskunlaşmaların tarixini maddi-mədəniyyət nümunələri əsasında tədqiq edən Q.A.Seyidov sonda bütün bu mədəniyyətin IV-III minilliklər Kür-Araz mədəniyyəti olduğuna dar əsaslı elmi faktlar göstərmişdir (448, s. 9-11,

17-19). Eyni elmi nəticələr S.H.Aşurov, Ə.I.Novruzlu və Ə.I.Baxşəliyevin araşdırmalarının yekununda da əldə edilmişdir. Sərur, Şahbuz, Culfa və digər ərazilərdə aparılan arxeoloji tədqiqatlar həm tariximiz, etnoqrafiyamız, həm də etnogenezimiz və dilimizin tarixi təkamülü yönündən qiymətli məlumatlar vermişdir. B.A. Kuftin, K.X.Kuşnareva, Q.N. Lisiçina, RM.Munçayev, N.Y.Merpert kimi rus, gürcü və s. alimlərin Naxçıvanda apardığı arxeoloji tədqiqatdan əldə olunmuş materialların e.ə. IV-III minilliyə aidliyi Azərbaycanın bu alimləri tərəfindən yeni elmi faktlarla təsdiqlənmişdir (228, s. 5, 42, 60; 230, s. 77). Qədim Ordubad bölgəsinin Xaraba Gilan deyilən sahəsində B.İ.İbrahimov tərəfindən aparılan arxeoloji tədqiqatlar da, uğurla nəticələnmiş və göstərilən minilliklərə dair qiymətli materiallar aşkar olunmuşdur. Bundan başqa müəllif, hələ çar Rusiyası və sovetlər dönəminin ilk illərində erməni "alimlərinin" Gürcüstan muzeyi adına ərazidən apardıqları qızıl sikkələr və yazılı daşlar haqqında əsaslı sənədlər göstərməklə yanaşı, bu oğurluqlara dair yetərincə iclas protokolları və sənədlərdən tarixi faktlar göstərmişdir (337, s. 21, 75).

Əgər arxeoloji araşdırmaların nəticələrini ümumiləşdirsək yekdil bir nəticə olaraq deyə bilərik ki, ərazi mədəniyyəti ən azı e.ə. V minilliklərdən başlayaraq ilkin sivilizasiya mərkəzlərindən biri olmuşdur.

Bəs bu mədəniyyətin yaradıcıları kimlər olmuşdur? Naxçıvanın qədim bir sivilizasiya mərkəzi olması, buradakı prototayfaların qədim türklərə aidliyini təsdiq edən hər hansı tarixi faktorlara təsadüf olunurmu?

Bildiyimiz kimi ötən əsrin 60-cı illərindən sonra Eblait, Boğazköy, eləcə də bir zamanlar Naxçıvan torpağı olub hazırda Türkiyə ərazisi daxilində olan Diqor-Dügər ərazilərindən arxeoloji araşdırmalardan aşkar edilən xeyli sayda gil lövhə yazılarının yeni tarixi məlumatları miladımızdan öncəki dövrləri əhatə edən tarixin, etnosların dili məsələsində xeyli sayda yanlış konsepsiyaların mövcud olduğunu da ortalığa çıxardı. Bundan başqa arxiv sənədlərində hələ də izlərini itirməyən ərazidəki minlərlə məntəqə adının prototürk dilində olması, burada As, Naxər, Turukku (Tür), Kassi, Subar, Şu, Kuti, Lulubəy, Hürrü, Koman, Tal, Turdi və s. prototürk tayfa adlarının oykonimlərdəki izləri, ərazidəki mədəniyyətin türk-Azərbaycan mədəniyyəti olduğuna danılmaz tarixi faktlar sayıla bilər. Sərhədləri Bəsrə körfəzindən başlayaraq qədim Dərbəndə qədər ərazini, Naxçıvan, İrəvan xanlığı,

Cənub Azərbaycan əraziləri daxil olmaqla bütöv Azərbaycan torpaqlarını birləşdirən Vətən torpağının coğrafi adlar sistemi də dilçilik baxımından qədim irsə malikdir. Cəmiyyətlərin, qədim sivilizasiyaların tayfa birliklərinin iştirakı ilə bu dilin inkişafı və bunları əks etdirən izlərin aşkarlanması istiqamətində əsas mənbələrdən biri olan məhz bu adlar tarixi yaddaşımız olmaqla oxunmamış kitabə halındadır.

Xüsusi olaraq qeyd edək ki, Naxçıvan torpaqlarından zorla qoparılan İrəvan xanlığı "xanlıq" statusu almamışdan öncə və ondan sonra da bu torpaqlar Naxçıvanın tərkibində olmuşdur. Əgər xatırlasaq İskəndər Munşi 1552-1612-ci illər arasında Səfəvi Osmanlı müharibələrini təsvir edərkən İrəvan, Zəngibasar, Nüvədi və s. əraziləri Naxçıvan əyalətinin torpaqları kimi verirdi (441, s. 66-69). Bundan başqa Naxçıvan 1828-ci ilə qədər İrəvan torpaqları, Zəngəzur, Zəngibasar, Nüvədi də daxil olmaqla Maku, Poldəşt, Xoy, İğdır, Ağrı, Diqor, Kars və s. əraziləri özündə birləşdirirdi (77; 110). 1828-1890-cı illərdən başlayaraq Naxçıvanın mahallarından olan Vedi 59, Ağcaqala 64, Karni 62, Bazarçayı 13, Məvaziyi-Xatun 11, Abaran 53, Şurabxan 15 (sənədlərdə adı təhrif olunaraq "Şərabxana" kimi düşmüşdür), Talin 21, Abnik 43, Zar 26, Zebil 31, Sisyan 34 kəndlə birlikdə 431 yaşayış məntəqəsi (77, s. 159-183) zorla bu əyalətdən qoparılmışdır. Bu məntəqə adları və İravan torpaqlarındakı digər yaşayış məntəqələri ilə birlikdə 1828-1990-cı illər ərəfəsində 853 kəndin adı dəyişdirilmiş, 254 kənd tamamilə məhv edilmişdir (270, s. 7-54 ). Üst-üstə qədim Naxçıvan-Naxər ölkəsinin 1109 kəndi ərazidən zorla qoparılmışdır. Bura Türkiyə və Cənub Azərbaycana da qatılmış kənd və qəsəbələri əlavə etdikdə Naxər ölkəsi 3500-ə qədər məntəqə itirmişdir. 1849-cu il 9 iyun tarixdə rus çarı I Nikolayn fərmanı ilə İrəvan quberniyasında yaradılan 9 min kv. km-lik uydurma "Erməni vilayəti" 1918-1920-ci illərdə Azərbaycanın tərkib hissəsi olan Naxçıvan torpaqlarından da Zəngibasar mahalı, Zəngəzur əraziləri zorla qoparmaqla 29,8 min kv.km. "Ermənistan dövləti"nə çevrilmişdir (198, s. 54).

Bütün bu ərazidə itirilmiş məntəqələrin adlarının dəyişdirilmə səbəbi izə onların TÜRK-AZƏRBAYCAN adlarında olması idi. Bu adlar yuxarıda qeyd etdiyimiz qədim prototürk tayfa adlarının daşıyıcıları olmaqla e.ə. VI-II minilliklərdə tarix səhnəsinə çıxmış qədim protoazərbaycanlılar idi.

Bütün bu tarixi faktlarla müqayisədə qədim NAXÇIVAN-NAXƏR ölkəsindən qoparılmış torpaqlar hazırkı Naxçıvan torpaqlarından alti dəfə böyük ərazi idi.

1918-1930-cu illərin siyasi proseslərində bolşevizmin siyasəti nəticəsində Naxçıvanda əhalinin üç payı aclıq və daşnaq qətliamından qırılmış, minlərlə kənd yandırılaraq tamamilə dağıdılmışdır ki, bu da ərazinin tarixsizləşməsi ilə nəticələnmişdir (361, s. 19-21, 40, 106-107). Bununla yanaşı İrəvan xanlığının bütün prototürk tayfa adları ilə yaranmış yer adları da dəyişdirilmiş, ərazi tarixsizləşdirilməklə qədim proto Azərbaycan dilinin yaranma üslublarını özündə saxlayan dil xəzinəmiz də məhv edilmişdir (Bütün bunları araşdırarkən xəcalətdən ölmədiyimə təəccüb edirəm -F.R.).

Hələ XVIII əsrdə erməniləri dost tutan I Pyotrun Azərbaycana hücumları zamanı onun qoşun başçıları Matyuşkov və Levaşova verdiyi "...yerli əhalini rədd edib onların yerlərinin xristianlar tərəfindən tutulmasını təmin edin" (170, s. 23) tapşırığı XRİSTİAN faktorunun yazılı sübutudur. İstər çar Rusiyası, istərsə də sovetlər birliyi dönəminin işğalı altında olduğumuz dövrlərdə bu tarixi yaşadan toponimik sistemə qarşı yürüdülmüş çirkli "Qafqazı xristianlaşdırmaq" siyasətinin nəticəsində minlərlə coğrafi adlarımız tamamilə dəyişdirilmiş, yaşayış məntəqələri dağıdılmışdır. Son dövrlər Ə.R.Xələfli, S.A.Əhmədli və b. müəlliflərin dilə və tarixə siyasi proseslərin təsiri haqqındakı publisistik yazılarında sovetlər siyasi dönəminin üç çirkli mərhələsi yer alır. Müəlliflər bura 1920-1930-cu illər demokratik mərhələ, 1930-1950-ci illər irtica mərhələsi, 1950-1990-cı illər liberal mərhələ bölgüsünü daxil etmişlər (201, s. 32-33; 169, s.18). Bu bölgünün reallığı səthidir və bunun bir adı var ki, o da imperializm irticasıdır. Bütün bunlar qədim bir sivilizasiya üzərində yeni hakim cəmiyyətin zor bölgüsü kimi mövcud olan keçmiş sivilizasiya üzərində yeni zorakılığın tarixi dönəmə qədər siyasi yol bölgüsündən özgə bir şey deyil. Bu kontekstin məğzində tariximiz, dilimiz demək olar ki, bütövlükdə siyasi oyunların obyektinə çevrilmiş, öncəki mədəniyyətin yeni qurum tərəfindən mənimsənilməsi prosesi getmiş, tarix, mədəniyyət, ərazi oğurluqları ayaq açmış, xalq zorla assimilyasiya prosesinə cəlb olunmuşdur. Mövcud siyasətdə torpaqlarımızın xristianlar arasında bölüşdürülməsi prosesi baş vermiş, ərazilərimiz tarixsizləşdirilmiş, milli varlığımızın bir parçası olan coğrafi adlara qarşı

da soyqırımı tətbiq edilmişdir. Düşünülmüş "əvəzləşdirmə" siyasəti nəticəsində tarixi təşəkkülümüzün iştirakçıları olmuş prototürk-protoazərbaycan tayfa adları tamamilə məntəqə adlarından götürülmüşdür. 1813-1828-ci ilə qədər Bütöv Azərbaycan torpaqlarının sənədlərdə hələ tam dəqiq olmayan və kəsrlə göstərilən sahəsi 4100 kvadrat km. idisə, işğaldan sonra bu torpaqlar yenidən bölüşdürmələrin qurbanı olmuşdur. 1813-1828-ci illərdə işğal olunmuş Azərbaycan ərazilərinin fars idarəçiliyi altına keçən Güney Azərbaycanın sahəsi 2800 kvadrat km., çar Rusiyası hakimiyyəti altına keçən Quzey Azərbaycanın sahəsi isə 1300 kvadrat km. idi (267, s. 68).

Sonralar gürcü və ermənilərə pay kimi verilən Azərbaycan torpaqlarının parçalanması nəticəsində dəyişdirilmiş məntəqə adlarını da nəzərə alsaq, bu proses yarım milyondan yuxarı milli elmi mənbə olan adlar sisteminin dağıdılması ilə nəticələnmişdir. Təbii ki, Azərbaycan dövlətinin bir parçası olan tarixi e.ə. VI-I minilliklərə söykənən qədim mədəniyyət beşiyi, Mesopotamiya ilə sıx mədəni və siyasi əlaqələrdə olan qədim Naxçıvan ərazisindəki adlar sistemi də bu vandalizmə məruz qalmışdır.

Qaynaqlardan da göründüyü kimi coğrafi adlar-toponimlər qrupu xalqımızın tarixi, dili, mifologiyası və etnoqrafiyasını yaşadan etibarlı və əvəzsiz tədqiqat obyekti kimi öz aktuallığını itirməsə də, xeyli sayda etnos adı tarixdən silinmişdir. İndi yalnız arxiv və qaynaq məlumatları əsasında bu adlar sistemli şəkildə tədqiqata cəlb olunmalı onlar üzərində əsaslı linqvistik və etimoloji təhlillər aparılmalıdır.

Azərbaycan xalqının eləcə də onun ən qədim diyarı olan Naxçıvan əhalisinin etnik mənşəyi, e.ə. V-I minilliklər və sonrakı dövrlərdə əski soylarımızın kimliyi, tarixi proseslərdə iştirakı məsələləri əsasən rus, sonrakı dövrdə isə sovet şovinist siyasətinin məngənəsində sistemli tədqiqatdan yayındırılmış, kiçik etnik qruplar etnogenezimizdə aparıcı etnoslar kimi təqdim edilmişdir.

Lakin müstəqillik əldə olunandan sonra tarix, coğrafiya, dilçiliyin qədim dövrlərinin öyrənilməsində əvəzsiz mənbə olan oykonimlərin üzərində Azərbaycan alimləri B.Budaqov, A.Axundov, Y.Yüzbaşev, S.Mollazadənin A.Qurbanov, A.Babayev, Q.Qeybullayev, Y.Yusifov, T.Əhmədov və b. Naxçıvan toponimlərinə dair araşdırmalardan, xüsusən də Naxçıvan toponimik arealının xeyli sayda qolunun tədqiqində

A.N.Bağırovun tədqiqatlarından xeyli elmi əhəmiyyətli nəticələr əldə olunmuşdur. Qeyd edək ki, E.Murzayev, V.Juçkeviç, V.Savina, O.Molçanova, V.Nikonov kimi bir qrup sovetlər birliyinin alimlər də Naxçıvanla bağlı yer adlarının etimoloji izahlarını verməyə cəhd etmiş, təbii ki, bu cəhddə siyasi motiv üstünlük təşkil etmişdir. Qeyd edək ki, bu istiqamətdə xeyli sayda qəzet, jurnal məqalələri çap olunmaqla bərabər, namizədlik və doktorluq dissertasiyaları da yazılmışdır ki, Naxçıvan əhalisinin etnogenezində iştirakı olmuş prototayfaların dili, inancları, məişəti haqqındakı bu yazılar xeyli sayda problemlərin həllinə yol açmışdır.

Xüsusi olaraq qeyd etmək istərdik ki, bu tədqiqatlar zamanı tarixi proseslərin izi, coğrafi məkan, əski dil elementlərinin mövcudluğu, bəzən əski inanc və etnoqrafik məlumatlar, arxeologiyanın son elmi nəticələri nəzərə alınmadığından obyektlərin tədqiqində fərqli yanaşmalar, səthi etimologiyalar yer almışdır. Elmi istiqamətlər, predmeti araşdırma prinsipləri, onların yaranma, formalaşma və bütöv bir adlanma-nominasiya üsulları, quruluşu, semantik məna çalarlığı və bu istiqamətlərin tədqiqi, son dərəcə maraqlı eyni zamanda mürəkkəb məsələ olduğundan, istisnalar nəzərə alınmaqla elmi nəticələr yekdil olmamışdır. Bütün bunları nəzərə almaqla doğru elmi nəticələrin əldə olunması üçün hər hansı bir toponimik ad tədqiqata cəlb olunarkən onun tarixi, coğrafiyası, addakı etnosun tarixi, dil ünsürləri, etnoqrafik əlamətləri, yeri gələrsə arxeoloji nümunələri də nəzərə alınmaqla məsələyə qərəzsiz yanaşılmalı, birtərəfli tədqiqat, xalq etimologiyası, "təsviri" izahlardan uzaq durmaqla, elmi aspektdən təhlil və tədqiqata üstünlük verilməlidir. Yalnız bu üsulla aparılmış araşdırmaların, areal müqayisəli təhlillərin, lüğətlərin tətbiqi ilə əldə olunan nəticələrin müqabilində elmi yenilikdən danışmaq mümkündür.

Bildiyimiz kimi coğrafi adlar digər adlar sistemi kimi özünəməxsus, xüsusi məna çaları daşımaqla bir coğrafi işarə olsa da, hər hansı bir ərazidə ümumişlək və hakim olan dildəki leksik vahidlərdən bəhrələnməklə adlandırma-nominasiya qanunları, model və quruluşlara istinadən formalaşmaqla sabit ada-nomenə çevrilir. İstənilən coğrafi ad modeli aid olduğu dilin fonetik, leksik, semantik, morfoloji, sintaktik xüsusiyyətlərinə tabedir və bu amillərin hər hansı birindən kənar deyildir. Lakin dilin keçdiyi tarixi təkamül yolu, əski adlandırma, sözyaratma və s. üsullar nəzərə alınmadan mövcud leksikona daxil olan

söz kökləri ilə tədqiqat üslubu şübhəsiz ki, yanlış elmi nəticələrin ayaq açmasına və səhv elmi konsepsiyaların meydana gəlməsinə də səbəb olur.

Bu gün Azərbaycan dilinin ayrı-ayrı sahələri üzrə toponimik adlara tətbiq olunan, etimoloji, linqvistik, tarixi və müqayisəli təhlillər, yazıyaqədərki dövr dil elementlərinin mənalarını açmaqda, eləcə də problem məsələlərdən olan etnogenez məsələsi və dilimizin inkişaf mərhələlərini müəyyənləşdirməkdə aktual mənbə sayılır. Qədim, orta son dövr etnoslara qoşularaq sözü bütün hala gətirmiş coğrafi adlar, əsasən oykonimlər-məntəqə adları təbii ki, dil tariximizin müxtəlif dövr göstəriciləri olmaqla, dilin dövrlərinin izahında da əsaslı amil sayılır.

Xüsusi olaraq qeyd edək ki, qaynaq sənədlərində çox qədimdən Naxçıvan əyalətinə aid olub əhalisi tamamilə Azərbaycan türklərindən ibarət olan Dərəşahbuz, Şərur, Ordubad, Əlincə, Sisyan, İrəvan, İğdır, Maku və s. (cəmi 25) nahiyələrdəki məntəqə adları tədqiqat obyekti olaraq götürülmüşdür (77, s. 164-183).

Əlbəttə yuxarıda sadalanan tarixi faktorlar əsl tariximizin yenidən bərpası üçün əvəzsiz amillər olsa da belə, qədim Misir, Assur, Hett, Akkad və s. dövlətlərin yazılı salnamələrində də izlərimizin yenidən tədqiqi də unudulmamalı, "sovetlər təlimində" yazılmış sitatlar müqayisəli şəkildə yenidən tədqiq olunmalıdır. Heç şübhə yox ki, mütləq Rus şovinizmində bu salnamələrlə bağlı yazılar da təhrif olunmuş, buradakı qədim etnogenezimizin də tarixi saxtalaşdırılmaqla bu ideologiya tərəfdarları olan etniklərin tarixinə yamanmışdır. Tədqiqat zamanı bu məsələlər geniş aspektdən diqqətə alınmış, əski yazı nümunələrindən müqayisəli təhlillər verilmişdir. İrəli sürdüyümüz konsepsiya dilçiliyə, tarixə, arxeologiya və etnoqrafiyaya, epiqrafik nümunələrin məlumatlarına və qaynaq məlumatlarına istinad olunmaqla müəyyənləşdirilmişdir.

## 2. NAXÇIVAN ETNOOYKONİMLƏRİNİN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

Qeyd edək ki, xalqımızın dili, tarixi, coğrafiyası, mifik inanclarının belə demək mümkünsə toplusu olan onomastik vahidlərin araşdırılması bəzən səthi tədqiqatların obyektinə çevrilmiş, yanlış elmi nəticələrlə monoqrafiyalara və dərsliklərə daxil edilmişdir. Bütün bu yanlışlıqlar isə yüzillər boyu ərazilərimizin tarixini oğurlamaq qəsdində olan erməni "alim və tədqiqatçılarının" istinad mənbəyi olmaqla, öz uydurmalarının təsdiqi yönündən "sübutlara çevrilmişdir". Məhz bu amillər, səthi araşdırma və "Sovet tarixşünaslığına" istinadlar, Azərbaycanın tarixi, dili, ərazisi haqqında ermənilərin siyasi oyunlarına dəstək verməkdədirlər.

Bidiymiz kimi keçmiş Naxçıvan torpaqları olmuş İrəvan xanlığı, Zəngəzur, İğdır, Diqor (Dügər), Kars, Ağrı, Poldəşt, Xoy, Səlmas və s. ərazilərində xeyli sayda etnooykonimlər-tayfa adı ilə adlanmış məntəqə adları bənzətmə və təsvirlərlə izah olunmaqla tariximiz müasir danışıq sözlərimizlə yaxın dövrlərə çəkilmiş və saxtalaşdırılmışdır. Təəssüflə qeyd edək ki, xalqları assimilyasiya etmək ideologiyasından gələn bu konsepsiyanı əksər tədqiqatçılarımız da "inkişaf etdirmiş", rus, erməni, gürcü, eston və s. millətlərdən olan İ.M.Dyakonov, V.V.İvanov, Q.Q.Qeorqadze, M.İ.Artamanov, E.A.Qrantovski, Q.A.Melikşvili, Q.A.Kapansyan, N.V.Arutunyan, V.A.Nikonov, N.Y.Maar, M.E.Matye və b. alimlərinin tədqiqatlarına istinad etməklə bu fikirləri təkrarlamışlar.

Bu problemlər ümumtürk, eləcə də Azərbaycan toponimiyasının üzləşdiyi problemlər olmaqla bərabər, Naxçıvan Muxtar Respublikası toponimik sisteminin öyrənilməsinə sədd olan problemlər məngənəsindən də kənarda deyil. Bəs areal türk, Azərbaycan, eləcə də Naxçıvan toponimik sisteminin tədqiqinə əngəl olan amillər nə ilə bağlıdır?

Bu gün elmi qəzet, jurnal, simpozium və konfranslarda dilçi, tarixçi, coğrafiyaçı alimlərimizin hər hansı bir toponimik vahidin linqvistik, etimoloji təhlilləri ilə bağlı fikirləri, elmi mübahisələrdən-polemikadan kənara çıxıb az qala şəxsi münaqişə və narazılıqlara çevrilməkdədir. Təəssüflər olsun ki, bu mübahisələr dilimizin yazıyaqədərki dövr elementləri, şumer, türk paralelləri ətrafında deyil, daha çox bu adlardakı tərkiblərin özgə dillərdə araşdırılması meylindən irəli gəlir. Naxçıvan MR toponimik sistemində məntəqə adları-oykonim qatının tədqiqi məsələsi də bu problemlərin obyektinə çevrilmişdir. Qeyd

etməliyik ki, Naxçıvan oykonimlərinin bir qismi tədqiqatçıların elmi məqalələri və monoqrafiyalarında ya "ərəb", "fars", "erməni", ya da "anlaşılmayan tərkibli" hesab olunmaqla, köhnə sovet ideologiyasından qurtula bilməyən yanlış mülahizələr formasında təqdim edilməkdədir. Bəs bütün bu yanlışlığın mayası haradan gəlir? E.ə. VI minillikdən IX əsr və sonrakı dövrlərdə Naxər-Naxçıvan ölkəsi Turuk, Şubartu, Aratta, Kassit, Mitan dövlətləri ilə eyni dövrlərin tarixi proseslərinin iştirakçısı olmuş, bütün bunlar qədim salnamə yazılarda qeydə alınmışdır. Daha sonra isə, ərazi Manna, Midiya, Atropatena Midiyası dövlətlərinin qüdrətli əyaləti olaraq tarixi qaynaqlarda qeydə alınır (185, s. 12-13). Bütün bu dönəmlərdə mifik inanc, etnoqrafik əlamətlər dilimizin leksik ifadə imkanlarına hopmaqla toponimik adlara da adlamışdır. Bəzi tədqiqatlara və qaynaqlara müraciət etdikdə bu qədim yurdun arxeoloji, etnoqrafik, qayaüstü yazı nümunələri qədim türk xalqlarına aid olmaqla toponimik adlarda təkrarı da bu faktı təsdiq etməkdədir (180, s. 20-23; 181, s. 112-119; 120, s. 329-330). İstər Gəmiqaya, Qobustan, istərsə də Təbriz, Nüvədi, Pirallahi və s. qayaüstü yazılardakı bu mədəniyyətin təsdiqi başqa xalqlara necə sırına bilər?

Mənbələrin qədim Naxçıvanı bəşər nəslinin ilk beşiyi kimi təqdim etməsi, araşdırmalarda bu fikrin bir daha öz təsdiqini tapması, arxeoloqların ərazidən qeyd etdiyimiz kimi e.ə. V minilliyə dair maddi-mədəniyyət nümunələrinin aşkarlaması kimi minlərlə tarixi faktlar mövcud olduğu halda bu yurdun yer adları, necə ərəb, fars, erməni mənşəli və ya anlaşılmayan tərkiblər ola bilər? Çox təəssüflə qeyd etməliyik ki, bəzən bu onomastik vahidlərin izahının fars, erməni dillərində axtarılması səbəbi ərazinin İran və "Ermənistan"la həmsərhəd olması ilə əlaqələndirilir. T.Əhmədov bu konsepsiyaya üstünlük verərək yazır: "Naxçıvan İranla yaxın olduğundan Disər, Əbrəqunus, Kirnə, Behrud Düdəngə kimi toponimlər buna misal ola bilər" (168, s. 74). Lakin hörmətli alimlərimiz nədənsə Naxçıvanın Cənubi Azərbaycan, İrəvan xanlığı və Türkiyə ilə həmsərhəd olduğu yaxın bir tarixi unudurlar.

Bu gün tədqiqatçılarımızın əlində əski yazılı dastanlarımız, türk dilləri lüğəti, şumer-türk leksik paralellərinə dair tədqiqat materialları və minlərlə elmi tədqiqat əsərləri olduğu halda, milli varlığımızın əleyhinə istiqamətlənmiş yanlış, köhnə sovet ideologiyasına "tam doğru" mənbə kimi istinad etmək yəqin ki, tarixi həqiqətin dürüst görünməsinə

yol açа bilməz. Odur ki, aparılan müqayisəli təhlillər Naxçıvan oykonimlərinin bir qisminin yanlış olaraq ərəb-fars, erməni mənşəli, təsviri xarakterlə araşdırıldığını ortalığa çıxarır. Bu cür izahların bir qisminə müqayisəli nəzər salmağı elmi cəhətdən əhəmiyyətli hesab edirik. Bütün bu dolaşıq təhriflər, tarix və dil oğurluqları içərisində yeni tarix və dil konsepsiyalarından tədqiqatlar aparmaq daha nələri tələb edir?

Qeyd etmək istərdik ki, əski türk dillərinin, türk tamğalarından inkişafını götürmüş As, Turdetan (dörd as), Osk, Etrüsk, İber, Alban əlifbalarının tədqiqi və öyrənilməsi (160, s. 91, 101) məqsədi ilə xüsusi kafedraların yaradılması, yunan, ərəb və s. mənbələri yenidən, qərəzsiz tədqiq edən mütəxəssislərin hazırlanması üçün xüsusi elmi müəssisə və şöbələrin təşkili günümüzün qaçılmaz zərurətidir. Yeri gəlmişkən M.Xorenlidə ayrıca vurğulanan qədim ərmən-türk dili və əlifbasının da tədqiqi üçün (11, s. 209) mütəxəssislərin hazırlanması da problem məsələyə çevrilən torpaq və tarix iddialarının qarşısını almaq üçün son dərəcə vacib məsələlərdəndir. Bu qədimliyə enmədən, müdafiə üçün bu cür mövzular seçilmədən biz "astarı-üzünə çevrilmiş" tariximizi, dilimizi, yer adlarımızın mənşəyini özümüzə qaytara bilmərik. İnanırıq ki, toponimik materialların tədqiqində bu sahələrə xüsusi diqqət yetiriləcək və tədqiqatlara bir qədər də milli konsepsiyadan yanaşılacaqdır.

## 3. ƏRƏB-FARS MƏNŞƏLİ HESAB EDİLMİŞ MƏNTƏQƏ ADLARIMIZ

Azərbaycan, xüsusilə də Naxçıvan toponimik sistemində, ən başlıcası isə oykonimik sisteminin tədqiqində "ərəb-fars mənşəli" konsepsiyası xeyli sayda alimlərimizin tədqiqatında yer alır. Məhz bu kontekstdən linqvistik təhlillərdə biz xeyli sayda Naxçıvan oykonimlərinin ərəb-fars dilində "olması" fikri ilə rastlaşırıq. Aparılmış qeyri-obyektiv tədqiqatların hər biri özlüyündə neçə-neçə suallar doğurmaqla həqiqətdən xeyli uzaqdır.

Naxçıvan adının etimologiyasını fars dilində nəxcirvan-"ov yeri" (141, s. 27-30), Əbrəqunus məntəqə adının birinci oura/ahura tərkibi ilkin əbrə/abra variantından təhrif olunaraq ərəb, ikinci kanis tərkibini fars sözləri kimi "aura+kanis"- "kilsə qala" şəklində, Disər oykonimini "iki baş" anlamında ərəb və fars sözləri ilə nataraz izah edilməsi (168, s. 74; 448, s. 60-69; 77, s. 53) elmilikdən uzaq konsepsiyalar olmuşdur.

Bundan başqa Behrud, Kirna və s. sözləri fars dilinə aid edilsə də, nədənsə mənaları haqqında izah verilməmişdir (168, s. 74). Halbuki, qədim qaynaqlar, türk dili lüğətləri və digər sözlüklərdə biz Naxçıvan sözünün türk dilləri üçün xarakterik sübər, xəzər, kəngər formalaşma qanununa uyğun Nax tayfa adı və ər komponentindən Nax+ər (254, s. 300-308.) formasında, Əbrəqunus məntəqə adının abra/əbrə morfeminə qədim türk dili sözlüklərində "xilaskar", "arxa duran, qoruyan" mənalarında rast gəlirik. Addakı qın tərkibi "qala", us/uz tərkibi isə "dağ keçidi" və "işıq" mənalarında türk dilindədir (37, s. 620; 355, s. 13). Bu əski türk dili elementləri adın müasir tələffüzünə tam uyğun olmaqla Naxər sözünü "Nax/Nuh gidləri, ərləri" Əbrəqunus məntəqə adını isə "Qoruyan işıqlı qala" mənalarında türk dilində izah edir. Əgər türk dillərinə məxsus h≈q fonetik hadisəsini də nəzərə alarıqsa (266 s. 86) o zaman məntəqə adı Abra+hun+us tərkibində "Zəkalı, xilaskar Hun" mənasında hun tayfa adı ilə bağlı etnooykonim olduğu təsdiqlənir. Bu tərkiblər Midiya, Manna, Atropatena toponimlərində Kintau, Kinqaruki, Kinzin kimi təkrarlanmaqla da "qala" mənasında dəfələrlə izah olunmuşdur (208, s. 90-91). Eyni linqvistik təhlili Disər oykonimində də izləmək mümkündür. Qədim türk dillərində di/ti tərkibi "tik" feli olmuş, Sər/Şir qədim Şir, Şirak türk tayfalarının adını bildirmişdir. Biz qeyd etdik ki, qədim türklərin inancında biz Kaşşu, Harbe, Nuh/Nax, Tal, Kamulda, Şuxi, Şar, Sax kimi tanrı adları ilə yanaşı Kiur tanrı adını da görürük (23, II 23; 331, s. 84; 120,t. I, s. 316, 379, 448, 457, 515; 271, s. 304-305). Qədim türk sözü na-"verdi, bağışladı" feli ilə Kiur+na məntəqə adı "Kiur tanrısının verdiyi, bağışladığı", Di+sər tərkibi isə, "Şiraklar, şirlər tikən" mənalarında izah olunur. Qədim türk-Azərbaycan xalqına məxsus məntəqə adlarını elə bir anlaşılmamazlıq olmadan tədqiqatçıların zahiri oxşarlığa üstünlük verib sovetlər ideologiyasından gələn fars sözləri ilə izah etməsi, bu yanlış konsepsiyaya üstünlük vermələri nə dərəcədə doğrudur? Son dövrlər aparılmış tədqiqatlarda da biz eyni halı müşahidə edirik. Yazılarımızın birində Şərur ərazisindəki Düdəngə və Kürçulu məntəqə adlarının qədim türk tayfaları Tudin və Çul proto Azərbaycan türklərinin adlarından yarandığına dair türk sözlükləri və qaynaqlardan gərəkli elmi faktlar göstərmişdik (271, s. 168, 191-195). Lakin, biz yenə də əvvəlki tədqiqat üsulunun təkrarına A.İmanlının yeni tədqiqatlarında rast gəlirik. Burada Düdəngə sözü

Dü-"iki" fars dilində, "döngə" sözü isə, Azərbaycan dilindəki eyni morfemlə "İki döngə" şəklində izah edilmişdir. Bununla bərabər mənbələrə Dizak-"Sak tikən" yazılışında türk dilində düşən bu məntəqə adının mənbə variantı nəzərə alınmadan müəllif tərəfindən ad Didi (?) yazılışında fars dilində "divar", Şəriyar-"İşıqlı şirlər, şiraklar" oykonimini isə yarı türk tayfa adı, yarı fars yar- "dost" mənasında izah edilmişdir (204, s. 67, 99). Doğrudanmı bütöv bir kənd didi-"divar" sözü ilə adlanar və bir məntəqə adı yarı fars, yarı türk dilində necə adlandırılmış-nominasiya edilmişdir? Təbii ki, etimoloji izahlar doğru deyil. Müəllif, burada heç bir tədqiqat aparmadan İ.M.Dyakonov və Q.Qeybullayevin tədqiqatlarındakı "farsmənşəli" konsepsiyasını təkrarlamış (349, s. 249; 325, s. 102), yeni fikir söyləməmişdir. Monoqrafiyada xeyli sayda belə səthi fikir və təkrarlara rast gəlirik. Türk Azərbaycan yer adlarının "etimoloji izahını verən" müəllif, bəzən öz dilimizdə qurduğu cümlələrdə belə dilimizdə ümumişlək olan sözü fars dilindəki (?) sözlə əvəzləyir. Müəllifin "Ə.Eyvazlı M.Seyidovdan iqtibas gətirməklə....", - ifadəsində nə məqsəd güddüyü bəlli deyil (204, s. 18, 99). Bildiyimiz kimi Azərbaycan dilində bu sözün "olduğu kimi köçürmə" mənası ümumişlək sözdür (38, s. 233).

Bu istiqamətdə yanlış tədqiqatlara V.Z.Piriyevin də yazılarında rast gəlirik. Müəllifin Gil/Gilak tayfa adından yaranaraq türk sözü olan qədim Gilan-"Gil yurdu" mənasındakı şəhər adını Giran/Kiran kimi izah edərək, onu fars çarı Kirin adına bənzətmək cəhdini anlamaq olmur (234, s. 16-23).

Yer gəlmişkən bir məsələni də qeyd etmək istərdik ki, Azərbaycan toponimlərinin, eləcə də etnogenezinin araşdırılmasında xüsusi xidmətləri olan Q.Qeybullayev öz tədqiqatlarında İ.M.Dyakonov, E.A.Qrantovcki, M.S.İvanov və digərlərinin fikirlərinə istinad etməli olmuşdur və buna görə də bəzi təhlillədə, bu təsiri görmək olur. Strabonun Azərbaycan ərazisində qeyd etdiyi Rutak məntəqə adını (31, XI III 2) müəllif, fars dili ilə izah edərək rut (tikili) leksik vahidini "çay", ak-"uca" tərkibinin isə "şəkilçi" kimi göstərmişdir. Bundan sonra o, Dərbənd ərazisinə aid olan Baruka şəhər adındakı "baru" sözü (böri-qurd) tərkibini iran dilində (yəqin ki, fars dili) "qala divarı", ka (şöhrətli sözünü) sonluq-şəkilçi kimi izah edir. Müəllif, burada Kalankat məntəqə adında kalan (ulu olan) sözünü "böyük", kat (qüvvə) komponentini isə "şəhər", Kilit

(kollar tayfası) məntəqə adını "dağ üstündə qala", Bist (Bus tayfaları) məntəqə adını "vadi" kimi bütövlükdə iran-fars sözləri kimi göstərir. Bir qrup "van, an, man, kan, ab, qiş, sanq, sar" kimi leksik mənalı sözləri və qrammatik şəkilçiləri bütövlükdə fars mənşəli söz kökləri kimi təqdim edən Q.Qeybullayev bu tərkiblərdən formalaşmış Türkan, Hunan, Çerikan, Naxçıvan, İrevan, Tusman, kimi məntəqə adlarını tamamilə fars dilinə və qədim İran dilinə aid edir (325, s. 97-104). Əgər bu adlara diqqət etsək tərəfimizdən seçilmiş Türk, Hun, Çoruk, və Tus sözləri bildiyimiz kimi qədim türk tayfa adları, -an isə qədim türk dillərində "mənsubluq" şəkilçisidir. Burada İrevan sözü isə Uru-"tikilmiş, qurulmuş", van-"uca", sözü olmaqla "Ucada tikilmiş yurd" mənasındadır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Naxçıvan toponimiyasının tədqiqi istiqamətində xeyli monoqrafiyanın müəllifi olan A.Bağırovun xüsusi xidmətləri olmuşdur. "Dədə Qorqud" kitabında Naxçıvanla bağlı toponimlərin, M.Kaşğarlının "Divan"ında Naxçıvanda oğuz boylarının izlərini araşdıran müəllif, onların etimologiyası haqqında, eləcə də Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili istiqamətində maraqlı elmi fikirlər irəli sürmüşdür. 1936-cı ildə bütöv Naxçıvanla bərabər Ordubad ərazisindəki məntəqə adlarının dəyişdirilməsi məsələsinə də toxunan tədqiqatçı, Ordubad ərazisində Qoşadizə, Mirzətağı dizə, Xanağa oykonimlərinin nominasiyasına-adlanma formalarına ayrıca diqqət yetirir. Müəllif, doğru olaraq etnooykonimlərdən Vənənd oykonimini bulqar tayfalarının bir qolu, Bist oykonimini Bus, Gənzə oykonimini Gəncək, Xurs oykonimini Gorus, Kilid oykonimini Kol türk tayfa adları ilə izah etmişdir. Lakin burada da fars adları ilə izah olunmuş sözlərə rast gəlirik ki, onların qədim türk dili sözlükləri və qaynaqlarla müqayisəsi zamanı adların bir qisminin prototürk tayfa adı, bir qisminin isə türk dili leksik vahidlərindən formalaşdığı təsdiq olunur. Onun monoqrafiyalarının birində "İranmənşəli toponimlər" yarımbaşlığında Tus+ər türk tayfa adından yaranmış Disər məntəqə adını deh+sər fars sözləri ilə "Zirvədə, başda yerləşən kənd" mənasında izah edir. Doray-Dor türklərinin adından olub mənbələrdə təhrif olunaraq Dırnıs yazılışında qeydə alınan məntəqə adının hələ tədqiqata ehtiyacı olduğunu yazan müəllif, addakı birinci dı komponentinə -h samiti artırmaqla sözü deh yazılışında V.V.Qriqoryevə istinadən fars dilində "kənd" kimi götürür

(154, s. 27, 53, 63, 89, 103, 114, 129 və s.). Bundan sonra digər tədqiqatlarında Çənnəb oykonimini fars dilində "behişt", Dərgəmələlik oykonimini farsca "Məliyin sarayı", Behrud oykonimini İran dillərində "yaxşı, sağlam, saf su", "yaxşı təbiəti, mədəni olan yer", Biləv oykonimini isə "mineral su mənbəyi", mənalarında izah edir (155, s. 23-68; 154, s. 36-39, 63, 89, 103, 114, 129; 156, s. 95-105, 136). Qeyd edək ki, Behrud, və Biləv oykonimləri "yaxşı, sağlam, saf su" və "su mənbəyi" mənasında Q.Qeybullayevdə də İran dillərində izah olmuşdur (325, s. 103-104).

Bir qrup qədim Azərbaycan türklərinə məxsus sözlərin ərəb- fars dilində izahına T.Əhmədovun tədqiqatlarında da rast gəlirik. O, ərəb-fars lüğətlərinə istinadən zahiri oxşarlıqlara üstünlük verərək Zeyvə məntəqə adlarının hamısını zaviyə yazılışında "guşə, künc, bucaq", Dər məntəqə adını "deyr" yazılışında "kilisə, monastr", Xanağa məntəqə adlarını "Xanəgah" yazılışında yenə də "guşə, künc, bucaq" kimi izah edərək Culfa rayonundakı Xanağa adının Şeyx Xorasan adlı ibadətgahla bağlılığını yazır. Bununla bərabər o, Zirə məntəqə adını isə Cəzirə yazılışında "ada" mənasında (?) izah edir. VV.Bartolda istinad edən müəllif, Xanağa sözünü həm də soqdi dilində "müqəddəs yer, məkan" mənasında olduğunu da qeyd edir (168, s. 74-77, 92).

Bütün bu yanlışlıqları təkzib edən bəzi məqamları da diqqətə çatdırmağı elmi cəhətdən əhəmiyyətli hesab edirik. Türk dillərinə məxsus yıldız-suldız, yabqu- sabqu kimi isimlərdə, varmaq-barmaq kimi fellərdə b≈v, s≈z, s≈y fonetik əvəzlənmələr nəzərə alınarsa Zeyvə məntəqə adı Sas+bi-"sas bəyləri"(Saspilər ayrıca tayfa da olub) Zirə məntəqə adı Sir+a/ak-"uca şirlər, şiraklar" mənalarında etnooykonimdir. Xan+ağa məntəqə adlarına gəldikdə isə, buradakı xan-"tanrı" komponenti qədim "Yaradılış" dastanımızda Qara xan-"böyük tanrı", "Dədə Qorqud" dastanımızda ağa/ağmaq- "yüksəlmək" felində təkrarlanmaqla proto Azərbaycan dilində "Tanrıya ucalmış" mənasını daşıyırsa bunların fars dili ilə izahı anlaşılmır.

Bildiyimiz kimi qədim türk dastanımız "Ərgənəkon" adının, eləcə də qədim türklərin sıx yaşadığı Ötükən, Orxon-Yenisey yazılarında Kadırkan kimi yüzlərlə onomastik vahidlərin formalaşmasında "kan"-"məkan", "yer" komponentləri işlənmişdir ki, o dövrdə farslar hələ tarix səhnəsinə çıxmamışdılar və onların dilinin formalaşması isə, ərəb

işğalından sonra VIII-IX əsrlərlə bağlı olmuşdur. Bu gün fars dilinin az qala bütövlükdə ərəb dili hesabına ifadəsi yalnız ərəb dilinin fars dialektidir və bu dil heç zaman e.ə. minilliklərə təsir edə bilməzdi (-F.R.). Q.Qeybullayevin fars mənşəli hesab etdiyi "van", "an", "man", "kan", "ab", "qiş", "sanq", "sar" leksik komponentləri də istər M.Kaşğarinin, V.V.Radlovun, istərsə də qədim türk dili sözlükləri və E.V. Sevortyanın "Türk dillərinin etimoloji sözlüyü" A.Battalın "İbni Mühenna lüğeti" kitablarında türk sözləri kimi izah olunur. Biz bu sözlüklərdə Naxçıvan, Şirvan, İrəvan, Talvan, Mincivan, Bədirvan kimi adlarda Nax, Şirak, Tal, Manq türk tayfa adlarına qoşulan "van" tərkibinin "yurd, məkan", Türkan, Hunan Çerikan adlarda Türk, Hun, Çoruk türk tayfa adlarına qoşulan "an" təkibinin "mənsubluq" şəkilçisi olduğunu görürük. Biz daha sonra bu sözlüklərdə "man" tərkibinin "ulu" (uzman, azman), "ab" tərkibinin "ev"(af, ab/eb, ef, ev), "sanq" tərkibinin "şan-şöhrət"(oğuz dillərində nq qovuşuq samiti ilə), "sar" tərkibinin "işıq" (sırak, çırak sözlərində) kimi mənalar ifadə etdiyini görürük. Əgər diqqət etsək göstərilən adlar bütövlükdə Nax, Türk, Hun, Tus, qıpçaqların Çoruk türk –Azərbaycan tayfa adlarından yaranmışdır. Bu adları göməzlikdən gəlmək və farslara aid etmək təbii ki, səthi tədqiqatın nəticəsindən özgə bir şey deyil. Nümunələrdən də göründüyü kimi onların türk tayfa adları ilə işlənməsi müəlliflərin tədqiqatlarının yanlış olduğunu birmənalı təkzib edir.

Tayfa adlarına gəldikdə isə mənbələrdən də bizə bəllidir ki Gil/Qul/Kol tayfa adı hələ e.ə. I minilliyin əvvəllərində Assur yazılarında qeydə alınmış, burada Kula şəhər adı və Kula ilahə adı göstərilmişdir. Daha sonra biz Qıpçaq türkləri arasında da Kol/Qul tayfa qolu adını görürük (177 s. 242-245). Naxçıvan ərazisində Qullar məntəqə adı da buradan gəlir. Əgər diqqət etsək, Gilan oykonimi ilə Kolan/ı oykonimləri də eyni yazılışdadır və bu heç zaman ərəb sözü olmamış, türk Kol tayfa adından yaranmışdır.

Bütün bu etimologiyalardan müxtəlif suallar da ortalığa çıxır. Əgər Naxçıvan-"ov yeri" mənasındadırsa o zaman heyvanat aləmi daha da zəngin olan, Kəlbəcər, Ağsu, Zaqatala kim rayonlarımız nəyə görə "Nəxcirvan"-"ov yeri" adlanmayıb. Digər bir tərəfdən xeyli ov yeri mövcud olan Cənub Azərbaycanda-uydurma "fars"larda nəyə görə heç olmazsa bir dağ, düz "Naxçıvan" adını daşımır? Eyni zamanda Azərbaycan

toponimik sistemində Gil tərkibli Gil (Xəzərdə ada), Gil, Gilan, Gil-Zirə, Giləzi, Gilvar, Gilak, Kilid, Kilzan, Kolan kimi yüzlərlə dağ, su hövzəsi, məntəqə, və s. adlar da yoxsa fars dilindədir (35, s. 58, 63)? Yəqin ki, Udmurt, Tatar, Komi, Qazax, Özbək, Qırğız və s. türk ellərində Türk boyu adı ilə Türkmən, Türkan, Nax tayfa adı ilə Yuxarı Naxər, Orta Naxər Xatınqnax, Kol və Gil boyları ilə bağlı Gilmənd, Gilyay, Kilemarı, Kilmez, Gilyurt kimi yüzlərlə yurd, qışlaq, çay, dağ və s. adlar və bunları əmələ gətirən "ay, xatın, ər, qurd, baş, yurt" kimi türk dili vahidləri fars dilində deyil türk dilindədir (103, s. 24-25, 52-53).

Naxçıvan Muxtar Respublikası ərazisindəki Ərəfsək, Culfa məntəqə adlarında qədim Sak, Çul, türk boylarının adları qaldığı halda bu oykonimlər də tədqiqatlarda ərəb-fars sözləri ilə "Üç ərəb", "Pambıqatan" kimi izah olunmuşdur (168, s. 76-120, 170; 324, s. 103-104). Bu cür yanlış izahlara Kilit, Dizə adlarının etimologiyasında da rast gəlirik. Eyni sözlər İ.M.Dyakonovun (347, s. 185) və E.M.Murzayevin əsərlərində də (416, s. 57) ərəb, fars dillərinə aid edilmişdir. Lakin 1590-cı ilin məlumatlarında bu sözlərin Çul, Gil türk tayfa adından, eləcə də Dizak (ti+sak-"saklar tikən" mənasında) yazılışında Sak tayfa adından olmasına tərkibin özü sübutdur (77, s. 24-28, 34-37, 42-45 və s.).

Yazıyaqədərki dövr türk dili elementlərinin də müşahidə olunduğu və qədim türk boyları Maq, Subi, Şirak türklərinin adlarından yaranmış Muğancıq Mehrab, Muğancıq Müslüm, Sirab- "Şir evi-Şirak evi", Zeyvə kimi etnooykonimlər qədim türk dilindədirlərsə onları ərəb-fars dillərinə aid etmək nə dərəcədə doğrudur? Zeyvə, Dizə, Xanağa, Əbrəqunis, Ərəfsə, Vəng kimi xeyli belə tərkiblər müasir və qədim türk dilləri sözlükləri ilə müqayisəli və əsaslı şəkildə təhlil edilmiş, elmi jurnallar və monoqrafiyada tərəfimizdən araşdırılmaqla onların qədim türk dilində olduqları sözlük və mənbələr əsasında təsdiqlənmişdir (240, s. 72, 94, 111).

## 4. TƏSVİRİ XARAKTERLİ ETİMOLOGİYALAR

Naxçıvan oykonimlər sisteminin tədqiqi zamanı xeyli sayda oykonimlər qədim türk tayfa adlarından yarandığı halda, onlar müasir danışıq dilimizin sözləri ilə təsviri izahlarla tədqiq edilmişdir. Bu isə dilimizin və tariximizin son dövrlər formalaşması fikrini yaratmaqla

erməni uydurmalarına və tariximizin saxtalaşdırılmasına da imkan yaradır. Biz bu cür çoxsaylı etimoloji izahlara istər əcnəbi, istərsə də Azərbaycan alimlərinin tədqiqatlarında rast gəlirik. Azərbaycan toponimiyasının tədqiqində xüsusi rolu olmuş B.Budaqov, Q.Məşədiyev, T.Hacıyev, Q.Qeybullayev, T.Əhmədov və başqalarının araşdırmalarında, eləcə də mənbələrdə qədim türk tayfalarının adları qeydə alınır. Müəlliflər özləri belə "dərə" sözünün bir çox oykonimlərdə anlaşılmadığını yazsalar da, Dor/Doray tayfa adından təhrif olunmuş "Darkənd", "Dərəkənd" adlı məntəqə adlarını "dərədə yerləşən kənd" sözü ilə izah etmişlər (158, s. 216, 234-237; 34, s.195).

Müstəqillik əldə etdiyimiz bir dövrdə, həqiqi tədqiqatların aparılmasına dövlət tərəfindən hər cür qayğı və şərait yaradıldığı bir mühitdə də bu cür yanlış izahlar son dövr tədqiqatlarda dəyişməmiş qalır. Biz yeni tədqiqatlarda da hər iki məntəqə adının "Dərədə yerləşən kənd", "Dar keçiddə salınan kənd" kimi təsviri etimoloji izahları ilə qarşılaşırıq (154, s. 123; 205, s. 28).

Toponimik adların tədqiqində coğrafi relyef qurulusu ilə adlanma halları bu elm sahəsindən kənar deyil. Lakin bunu insanlar yaşayan məntəqə adlarına şamil etmək səthi etimologiyaların nəticələridir. Hər bir ev o evin sahibinin adı ilə adlanır və bu mütləqdir. Məntəqələr isə tayfa birliklərinin məskun olduğu ərazilərdir. Təsviri adlar əsasən dağ-dərə, düzən adları- oronim, su hövzələri adları-hidronim və s. tipli adlar sisteminə aiddir. "Yarğan başı", "Dərə çəmən", "Kollu çeşmə" məhz belə adlardır ki, burada fitonim-bitki adlarının, zoonim- heyvanat adlarının da iştirakı qeydə alınır. Digər bir tərəfdən relyefinə görə dərəsi çox olan Naxçıvan ərazisindəki Biçənək, Nurs, Xanağa, Xoşkeşin, Buzqov, Bəyəhməd, Kırna, Teyvaz və s. məntəqələr haliyədə də mövcuddur. Belə olan təqdirdə bu cür dərəli, yarğanlı ərazilərdə yerləşən yaşayış məntəqələri göründüyü kimi "dərə" coğrafi ad-nomen göstəricisi ilə adlanmamışdır.

Belə təsviri etimoloji izahlara və xalq etimologiyasına biz Q.Budaqova, A.İmanlı, N.Əsgərov və b. tədqiqatlarında təsadüf edirik. Müəllif, bir neçə elmi məqalə və monoqrafiyasında "Aral övladları" mənasında türk tayfa adından nominasiya olunmuş (243, s.196-199), Aral+uk məntəqə adını "Aralıqda yerləşən kənd", peçeneq türklərinin Bulla qolundan yaranan Biləv oykoniminin birinci "bil" söz tərkibini

İran dilində "yer", ikinci "əva" sözünü isə öz dilimizdə "oba" mənasında "oba yeri" kimi yarı fars, yarı Azərbaycan (?) dilində izah etmişdir. Bundan sonra o, Sak tayfa adından formalaşan Tan+sak/Danzik məntəqə adını təsvirlə "Dan yeri", Günnüt oykonimini "Günlərin yaşadığı yer" kimi təqdim edir. Gün tayfa adı isə heç bir mənbə və tədqiqatlarda təsadüf edilmir (-F.R). Müəllif, türk tayfa adlarının adlanma-nominasiyasinda işlək ər-"igid, kişi" morfemini nədənsə al kimi fonetik dəyişikliklə təhrif edərək "uca", "hündür", yüksək" sözləri ilə zərf kimi təqdim etmişdir. Hələ e.ə. IV minilliklərdən tarix səhnəsində olan Şu/Subər tayfa adından yaranan Çomaxtur məntəqə adını təhrif edərək "Çomak tutar" kimi, Kas tayfa adından yaranan iki leksemdən ibarət Keş+taz "Kas düzü" etnooykonimini isə "Keşlə elinin düzü" və s. təsvirli izahlarla vermişdir. Bu monoqrafiyada Muğancıq Mehrab məntəqə adını -"kiçik muğan", Muğancıq Müslüm məntəqə adını "müti, itaətli müsəlman muğanı" kimi tam anlaşılmayan izahlar yetərincədir (205, s. 16, 24, 32; 204, s. 45, 47, 63, 87-89).

Halbuki, burada türk dilləri üçün xarakterik olan ç≈s, m≈b fonetik hadisəsi nəzərə alınarsa ad Sub+ak+tur- "Uca Sub oğlu" mənasında etnooykonimdir (208, s. 83). Əgər diqqət etsək Kas tayfa adlından yaranan Keştaz oyknimində "el" sözü yoxdur. Burada müəllifin hansı lüğətə istinad etdiyi bəlli deyil.

Bu cür təsviri etimoloji izahlara N.Əsgərovun yazılarında da təsadüf edirik. Elmi cəhətdən xüsusi əhəmiyyətli fikirlərlə yanaşı onun tədqiqatlarında Çul tayfa adı heç bir əsas olmadan "sul"-"su" mənasında açıqlanır (176, s. 311).

A.Bağırovun tədqiqatlarında etnooykonimlərin izahı elmi cəhətdən xüsusi əhəmiyyətə malikdir. Lakin bəzi hallarda burada da təsviri izahlara təsadüf olunur. As tayfa adından olan Aza, Azad, Azar-dey (As+ər) oykonimlərinin mənşəyi "çay kənarı məkan", Şangirey-Krım zədəganın oğlu Şahigireyin adı ilə, Axura- "aqru, sakit", Oğuz tayfa adlı Oğuz+bat+ər "Oğuz əri ölkəsi" mənasında məntəqə adı Öküzbatır-"öküz batır" zoonim səciyyəli, Midiyanın Budi tayfa adından olan Badaşxan etnooykonimi (Budi+as+kan- "qüvvətli Budi məkanı"-F.R.) insan adı, antroponim kimi izah olunmuşdur. Tədqiqatda Bənənyar-Bərə niyaz-"Çay sahilində Niyaza məxsus yer", Anaqut adını "ana kənd", Paralat skif-oğuz boyu adından yaranan Parağa məntəqə adının

"ağaya məxsus torpaq" kimi etimoloji izahlarına da rast gəlirik. Daha sonra Tus tayfa adından yaranan Tus+ti-"Tus tikən" Dəstə adı müasir "Alay", Dərənürgüt-"Nürgüt zonası", Ələhi -"nəsil, tayfa, sənət", Nürgüt –"təzə qala", Ordubad- "bahadırlar xanının sarayı", Danyeri-"günəş erkən çıxan yer", Danzik-"çöldə, vadidə salınan kiçik yurd" kimi etimoloji izahlarla təqdim etmişdir. Bundan başqa Nax tayfa adından yaranmış Göynük- "Göy Nax" məntəqə adı A.Bağırovun yazılarında "göylük, yaşıllıq" kimi izah edilmişdir (154, s. 36-39, 53, 63, 89, 91 - 114, 129, 141; 155, s. 23-68; 156, s. 95-105, 136, 142). Lakin biz qədim türklərdə Gök Türk, Gök As, Gök tanrı kimi adlardakı "göy/gök" lekseminin səma-göylə bağlılığını da izləyirik və bu halda Göynük-Göy Nax kimi də izah oluna bilər. Ərazidəki arxeoloji tapıntıların e.ə. III minilliyə aidliyi (bax, 228, s. 103) və bunun Naxər türkləri ilə eyni dövrlə üst-üstə düşməsi adi bir təsadüfün nəticəsi deyil tarixi keçmişimizin elmi təsdiqidir. Bunlar nəzərə alındıqda fikrimizin doğruluğu da öz təsdiqini tapır.

## 5. ERMƏNİ MƏNŞƏLİ HESAB EDİLMİŞ ETİMOLOJİ İZAHLAR YANLIŞLIĞI

Bir sıra oykonimlərin etimoloji izahında biz "erməni mənşəli" ifadələrinə təsadüf edirik və yuxarıda da qeyd etdiyimiz kimi müstəqillik dövründə Azərbaycanda nəşr olunmuş bir sıra müəlliflərin əsərlərində də biz bu konsepsiyaya üstünlük verənlərlə qarşılaşırıq.

Azərbaycan toponimiyasına dair tədqiqatlarda bəzi sözlərin ermənilərə aid edilməsi siyasi oyunu E.M.Murzayev, İ.M.Dyakonov, M.S.İvanov, V.V.İvanov və başqalarının tədqiqatlarından başlanmışdır. E.M.Murzayev qədim türk dili hesabına yaranmış Surikat- "qüvvətli Sirlər-Siraklar" oykoniminin kat-"qüvvə" morfemini, söz kökünün sonuna -s hərfi artırmaqla "kats" yazılışında erməni dilində -sək şəkilçisi kimi təqdim edilməsi, onun ilkin Sur/sir türk tayfa adının anlaşılmadığının göstərilməsi yanlış tədqiqatın nəticələridir. Daha sonra müəllif qədim türk sözləri ilə formalaşmış Arançav sözünü yeni samit əlavə etməklə "Harançov" kimi təhrif edərək "çov" leksemini "su", "haran" söz kökü -nü isə "daş" mənasında izah edir (416, s. 113). Lakin göstərilən birinci adda Sur/sir leksemi həm Sir/Sirak adında tayfa adı olmuş, həm də türklərdə Şar-işıq tanrısının adı idi. Şir/Şir+ak tayfa adının bu inancdan

yarandığını bilirik (120, s. 316, 379, 448, 457, 515; 271, s. 304-305). Eləcə də Arançav oykonimində aran sözünün həm "isti ərazi", həm də a≈ə səsəvəzlənməsi ilə ərən-"igid" mənalarında tamamilə türk dilində olması da məlumdur. Ada qoşulan "çav"-"sayılan seçilən" sözü də qədim türk dilindədir və söz "Şanlı igid" mənasını daşıyır. Ermənilərin türk söz köklərinin əvvəlinə -h samitini artırması bir çox tədqiqatlarda yer alır (210, s. 26). E.M.Murzayevin araşdırmalarında belə hallarla tez-tez rastlaşırıq. Məhz belə mənbələrə istinad edən Azərbaycan alimləri də öz tədqiqatlarında yanlış elmi nəticələrə gəlmişlər.

Q.Budaqovanın araşdırmalarında qiymətli elmi nəticələrlə bərabər "ermənimənşəli konsepsiyası" da mövcuddur. Burada Dor tayfa adı ilə bağlı xeyli sayda yer adlarını erməniləşdirməklə Der-"kilisə", "monastr" mənalarında təhrif edən müəllif, dorayların adını daşıyan Dar dağı oronimini "Monastr, Keşiş" dağı kimi izah etmişdir. Bundan başqa burada qədim türk kul-"ulu", "böyük" (37, s. 410), uk-"oğul, varis" (208, s. 143) sözlərinin sadəcə k≈q, k≈x səs əvəzlənməsi ilə ermənilər tərəfindən təhrif olunduğunu nəzərə almayan müəllif, "qlux" şəklinə salınmış qədim türk sözünü "baş, zirvə" izahları ilə erməni dilinə aid etmişdir (157, s. 25-31, 37).

Azərbaycan, eləcə də Naxçıvan coğrafi adlar sistemində "berd, kert, şen, zor, van, vəng" coğrafi adla-nomenlə formalaşan Naxçıvan, Əznəberd, Keçəzor/Gecəzur, Berdik, Aranberd, Qızıl Vəng kimi məntəqə adları necə "erməni mənşəli" (325, s. 97-104) ola bilər ki, türk dili lüğətləri bunların qədim türk dilində olduğunu qeyd edir. Əgər bu qədim sözlüklərə diqqət etsək burada "berd/bert"- "baş olmaq, çar, rəhbər", "qala", "kert/keld"-"keçid", "işarət", "şen"-"şenlik, elat", "zor/sır"-"işıq, şüa", "parıltı", "qızıl, "zər" və qeyd etdiyimiz kimi türklərin Şar-işıq tanrısının adı, "van/ban"-"uca yer" və "min sayı" mənalarını daşıyır (37, s. 81, 97, 297, 639). Biz van sözünün oğuz və Qıpçaq türk dillərində səğir nun-nq qoşa samiti ilə də işləndiyini dəniz-dəngiz, donuz-donquz sözlərində izləyirik. Bu türk dilləri üçün xarakterik haldır (482, s. 5-17; 273, s.106).

Əgər göstərilən sözlərin etimoloji izahlarına diqqət etsək Naxçıvan-"Uca Nax/Nuh yurdu", Əznəbrd "Asların çarı" və ya "Asların qalası", Aranberd – "Ərənlərin çarı" və "Ərənlərin qalası", Keçəzor-"Şar kasları" və ya "İşıqlı kaslar" və s. tamamilə türk-Azərbaycan

dilindədir. Qeyd edək ki, Azərbaycan türk tayfalarından birinin adı da Aran idi (209, s. 90).

Yeri gəlmişkən bir məsələ haqqında da fikrimizi açıqlamaq istərdik və bunun elmi cəhətdən də əhəmiyyətli olduğunu düşünürük. Coğrafi arealda "van" sözünün "vanq/vəng" kimi işlənməsi ilə qarşılaşırıq. Ərazilərimizdə mövcüd olmuş Vənglər qədim tariximizi yaşadan yazılı abidələr idi. 1960-1965-ci illərdə təkcə Culfa rayonu ərazisindəki Vənglərdən (2 məbəd) 13 yazılı daş ermənilər tərəfindən İrəvana aparıldı, oradakı qədim Tenqri məbədi isə ermənilər tərəfindən dağıdıldı. Bildiyimiz kimi Vənglər həm də "Bəngü taş" adlanırdı ki, bu da qədim türklərdə daş kitabələrin mövcud olmasını, bəngü taş "yazılı daşlar" mənalarını ifadə edirdi. Bu tarixi fakt vənglərin-yazılı salnamələrin azərbaycanlılara ümumtürklərə aid olduğunu sübut edir.

Qədim yazılarımızı araşdıran F.Ağasıoğlunun tədqiqatlarında, eləcə də, Orxon-Yenisey yazılarında "bəngü" sözünün "yazılmaq" mənasında olduğuna, "daş" sözü ilə işlənirkən "yazılı daş" mənası daşıdığına dair xeyli məlumatlar mövcuddur (235, s. 349; 165, s. 87). Biz Orxon-Yenisey yazılarında Bəngü taş tokıtdım, bitidim- "Abidə daşını tikdirdim, yazdırdım" ifadəsi ilə rastlaşırıq. Bu məsələ ilə bağlı türk tədqiqatçısı Çengiz Alyılmaz yazır: "Tikili daşlar üzərindəki təsvirlər, tamğalar bu mədəniyyət və sənət əsərlərinin həm eyni yaşayış və inanca sahib olduqlarını, həm də yazılara gəlincəyə qədər "bəngü daş dikəltmə adəti"nin keçirmiş olduğu mərhələləri diqqətə çatdırma baxımından da qiymətlidirlər" (571).

Göstərilən bütün nümunələrdə Vəng sözü qədim türklərin yazılı daşlarına aid olmuşdur. Lakin ermənilər bu yazılı tariximizə göz dikməklə onlara sahiblənmiş, yazılardakı tarixi də bizdən qoparmışlar. Nə qədər gec deyilsə bu adlara sahib çıxmağın da zamanı çatmışdır.

Unutmayaq ki, imtina etdiyimiz hər "vəng", "zeyvə", "berd", "dizə", "kert", "şen", "zor", "van" tərkibli qədim türk sözlərini və As, Hürrü, Kuti, Kas, Subi, Sak, Manq, Şir-şirak, Gel kimi türk boylarının adını daşıyan adlarımız bizim tariximizdən oğurlanaraq özlərinə qondarma tarix düzəldən erməni və digər azlıqda olan xalqların tarixinə çevrilir. Məhz bu adlar ermənilərin həm yer, həm də Asayan, Saakyan, Kasparyan, Manqaçuryan, Gilayan kimi soy adlarında əks olunmaqla onların tarixini "qədimləşdirir" və bizi sonralardan formalaşan bir xalq kimi dünya ic-

timaiyyətinə təqdim edir.

"Ərəb-fars", "erməni mənşəli" hesab edilmiş, təsviri etimologiya ilə izah olunmuş Aza, Culfa, Aral, Dor, Noraşen, Muğancıq Müslüm, Muğancıq Mehrab, Disər, Ərəfsə, Xanağa, Zeyvə, Dizə, Sirab və s. yüzlərlə etnooykonimin yad dillərə məxsus leksik vahidləri ilə izahı Naxçıvan MR ərazisində haliyədə mövcud olan şəhər, qəsəbə, kənd adlarına, onlardakı prototürk tayfalarının adlarına kölgə salmaqla bərabər, toponimik sistemdə mövcud olan problem məsələləri bir qədər də dərinləşdirir.

Buradakı etimologiyalarla bağlı bəzi fikirlərimizi də açıqlamaq istərdik. Əgər tədqiqatlarda yer alan oykonimlərə diqqət etsək, burada As, Tus, Subar, Budi, Oğuz, Paralat, Çol kimi qədim türk tayfa adlarını görməmək mümkün deyil. Bu tayfa adları ilə yaranmış oykonimlərin təsviri etimologiya ilə izahları həm dilimizin və tariximizin, həm də qədim türk mifik təfəkkürünün tariximizdən, dilimizdən uzaqlaşmasına səbəb olur. Adlardakı coğrafi nomen-ad göstəricilərinə biz qədim tarixdəki adlarımızda da rast gəlirik ki, bunlar bütövlükdə prototürk coğrafi adlarıdır. Türk dillərinə məxsus "kan/xan, van, şen" leksemləri ilə özlərinə Arzakənd-Arzakan, Astazur-Şvanidzor, Avdavağalı-Vağaşen, Axund Buzovan-Bzovan, Sarumlu-Sarapat, Samanqar-Geğakert, Kənkan-Hatiskap kimi adları yaradan ermənilər (270, s. 24, 35, 55, 56) gördüyümüz kimi tərəfimizdən seçilmiş əski türk etnooykonimlərinə cüzi dəyişiklik etməklə "ermənileşdirmişlər". Burada As, Bus, Şar/Şirak, Manq və s. türk tayfa adları ilə Azərbaycan türklərinin qədim toponimyaradan pat/bat (Astabat, Batabat, Ordubad), şen (Buğdaşen, Hürmeşin, Xoşkeşin) kimi leksik vahidləri də onların toponimlərində təkrarlanır. Əgər diqqət etsək ermənilər bu nomen-ad göstəricili Buğdaşen məntəqə adını Baqravan, Culoykan məntəqə adını Beniamin kimi adlarla şen, kan sözlərini də dəyişirlərsə (yenə orada, s. 13-14) deməli bu tərkiblər erməni dilində deyil. Bu prosesin son dövrlərdə həyata keçirilməsi erməni dilinin proto Azərbaycan türk dilindən formalaşdığını bir daha sübut edir. Bu gün fars dilinin az qala bütövlükdə ərəb dili hesabına ifadəsi yalnız ərəb dilinin fars dialektidir və bu dil heç zaman e.ə. minilliklərə təsir edə bilməzdir (-F.R.). Q.Qeybullayevin fars mənşəli hesab etdiyi van, an, man, kan, ab, qiş, sanq, sar leksik komponentləri də istər M.Kaşğarinin, V.V.Radlovun, istərsə də qədim türk dili sözlükləri

və E.V. Sevortyanın "Türk dillərinin etimoloji sözlüyü" A.Battalın "İbni Mühenna lüğeti" kitablarında türk sözləri kimi izah olunur. Biz bu sözlüklərdə Naxçıvan, Şirvan İrəvan, Talvan, Mincivan, Bədirvan kimi adlarda Nax, Şirak, Tal türk tayfa adlarına qoşulan van tərkibinin "yurd, məkan", Türkan, Hunan Çerikan adlarda Türk, Hun, Çoruk türk tayfa adlarına qoşulan an təkibinin "mənsubluq" şəkilçisi olduğu göstərilir. Biz daha sonra bu sözlüklərdə "man" tərkibinin "ulu" (uzman, azman), "ab" tərkibinin "ev"(af, av, ef, ev), "sanq" tərkibinin "şan-şöhrət" (-nq qovuşuq samiti ilə), "sar" leksik vahidinin "işıq" (sırak, çırak sözlərində) kimi mənalar ifadə etdiyini görürük. Diqqət etsək bu coğrafi ad göstəriciləri həm də qədim türk dastanımız "Ərgənəkon", eləcə də qədim türklərin sıx yaşadığı Ötükən, Orxon-Yenisey yazılarında Kadırkan kimi yüzlərlə onomastik vahidlərdə də "məkan", "yer" mənalarını ifadə edir. O dövrlərdə isə nə ermənilər, nə də farslar hələ tarix səhnəsinə çıxmamışdılar. Aşağıda hər bir etnooykonimin izahında bu komponentlər haqqında ətraflı məlumat verəcəyik. Bəs tədqiqatlarımızda bu cür yanlış fikirlərin meydana gəlməsi səbəbləri nə ilə bağlı idi?

Çar Rusiyası tərəfindən Azərbaycan xanlıqlarının işğalı, Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrindən sonra varidatımızın talanı, tariximizin saxtalaşdırılması, dilimizin "tatar", "türk tatar ləhcəsi", "Za-qafqaziya tatarları" kimi yamaq adlarda əridilməsi, yer adlarımızın isə təhrifi ilə nəticələnmişdir (190, s. 9). Lakin 1844-cü ildə A.Bakıxanovun rus dilindəki "Gülüstani-İrəm" kitabı və buradakı xeyli türk tayfa adları və toponimik adlar (277, s. 24, 34, 39- 42 və s.), M. Vəliyevin (Baharlı) "Azərbaycan" kitabında bu adların təkrarı və izahı (221, s. 30-35, 44-49 və s.), qədim türk dili lüğətləri, arxiv sənədləri və s. əsl həqiqətdə Azərbaycan toponimlərinin tədqiqi üçün əsaslı mənbə ola bilərdi. Lakin 1926-cı ildə Bakıda 26 fevraldan 6 marta qədər davam edən Türkoloji qurultay və ondan sonrakı dövr, 30-37-ci illər xalqımızın görkəmli türkoloq alımlərin təqibi və kütləvi məhvi bu problemin həllinə güclü zərbə vurdu. Milli yaddaşımızı əlimizdən almaq üçün elmimizin tarix, dil, türkologiya və coğrafiya yönlü Hənəfi Zeynallı, Bəkir Çobanzadə, Mirzədavud Bağırov, Müseyib İlyasov, Hüseyn Musayev, Vəli Xüluflu, Abdulla Tağızadə kimi 50-yə qədər korifeyinin güllələnməsi bu siyasətin bariz nümunəsi idi (146, s. 201, 233, 245, 253). Məhz bu siyasi dönəmdə 35-60-cı illərə qədər Azərbaycan, o cümlədən Naxçıvan oy-

konimlərinin türk dili baxımından tədqiqi demək olar ki, yox dərəcəsinə enmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 25 il ərzində bu istiqamətdəki tədqiqatlar bütöv Azərbaycan, eləcə də Naxçıvan üzrə ilə bir məqalə də deyildi. O dövrdə K.Ramazanovun "Salyan sözünün etimologiyası" (1953), Ə.Ələsgərzadənin "Xanəgah kitabələrinə dair bəzi qeydlər" (1942), A.Axundovun "Kür, Araz, Naxçıvan adlarının etimologiyası" (1953), M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" (1956), R.Yüzbaşovun, "Azərbaycan dilində coğrafi terminlər sistemi" (1957), E.Mehralıyevin "Azərbaycan SSR-də coğrafi adların öyrənilməsinin bəzi məsələləri" (1958) kimi əsərlər o dövr üçün böyük milli mücadilə idi (255, s. 126-128).

Naxçıvana gəldikdə isə ərazinin onomastik vahidləri tədqiq olunmamış, bu istiqamətdə yazılmış bir sıra məqalə və kitablarda türkçülük yönlü araşdırmalara imkan verilməmişdir. Qeyd edək ki, Naxçıvan toponimik sisteminin arxiv sənədləri hələ 1830 –cu illərdən "yeniləşmə" adı ilə əsasən qədim türk tayfa adlarını özündə qoruyan adlar xeyli dəyişdirilmiş, sonra isə rus siyasəti ilə ərəb əlifbasından köçürülməklə təhriflərə məruz qalmışdır. Bu sovetlər birliyinin ilk dövrlərində yenidən dəyişdirməklə tanınmaz hala gətirilmişdir. Nümunə olaraq qeyd edək ki, Şərur rayonunda "Oğuz oğullarının yurdu" adını daşıyan "Il+quz+aqay" kənd adı sənədlərdə Yalqızağac, Yalqızqaç, Yalquzaq şəkillərində qeydə alınmışdır. Bu qadağalar və represiyalar dövründə heç bir sərəncam və ya fərman olmadan Naxçıvan MİK-nin I çağırış IV sessiyasında 36 yaşayış məntəqə adı Şıxmahmud-Voroşilabad, Aliabad-Myasnikadab, Nehrəm-Stalinabad, Qulubəy Dizə-Aşağı Leninabad, Kərimbəy Dizə-Yuxarı Leninabad, Qaraxanbəyli-Stepanabad, Əznəberd-Mikoyanabad, Tırkeş-İşıqkənd, Cəhri-Bağırovabad, Nəcəflibəy Dizə -Budenabad, Kənd Şahbuz-Kalinabad, Ulya Noraşin-Şamuyanabad (bu sənəddə Şərur adı 2 dəfə dəyişilib), Dərvişlər-Maksimabad şəkillərində dəyişdirilərək sənədlərə düşmüşdür (137, s. 2-8). Adlar hələ sovetlər dönəmində xalqın təkidi ilə yenidən bərpa olunmuşdur.

Bütün bu tarixi faktlar yanlış elmi nəticələrə gəlmiş müəlliflərin tədqiqatlarına heç bir kölgə salmır və onların hər birinin onomologiya sahəsində xidmətləri danılmazdır. Buna baxmayaraq mövcud amillər məngənəsində öncəki arxiv sənədlərinə, qaynaqlara, əski türk dili sözlüklərinə müraciət etmək zərurəti qaçılmazdır. Təəssüflə qeyd edək ki,

qadağalar və sədlər dönəmində, dil, etnogenez, coğrafiya, tarix kimi sahələrin tədqiqi əsasən qeyri-millətlərə həvalə olunmuş, xeyli sayda yanlış mənbələr meydana çıxmış, onların ayaq açıb "həqiqətə" çevrilmələri əsl həqiqəti də bulandırmışdır.

Həmin dövrlərdə, yəni 1926-1960-cı illərdə B.Millerin "Tatlar, onların məskunlaşması və ləhcələri" (rus dilində, 1929), "Azərbaycan əyalətində xalqımızın dili" (rus dilində, 1930), Z.Korkotyanın "Araqaç" (Alagöz dağının etimologiyası" (1936), Q.Kapansyanın "Erməni toponimlərinin tarixi-linqivistikasına dair" (rus dilində, 1940) yazısında Danzik, Əznəberd, Noraşen, Naxçıvan sözlərinin erməni dilində etimologiyası, İ.M.Dyakonovun "Midiya tarixi" (1956), Yanovskinin "Qədim Qafqaz Albaniyasına dair" (1946), Zurkeviçin "Qədim Albaniya" (1937), S.T.Yeremyanın "Qafqaz Albaniyasının etnonimik və sosial quruluşu" (1958) kimi əsərləri Azərbaycan, o cümlədən də Naxçıvan tarixinin və onomastikasının, kimlər tərəfindən tədqiqinin canlı sübutları olmaqla xalqımızın tarixi və dilinə növbəti "səlib yürüşünün" də göstəriciləridir. Təbii ki, bu amillər günümüzdə bir çox tədqiqatçıların yanlış nəticələrə gəlməsinə də əsas verir.

# II FƏSIL

# NAXÇIVAN ƏRAZİSİNDƏ PROTOTÜRK-AZƏRBAYCAN BOYLARI

## 1. AS TÜRKLƏRİ

İstər bütöv Azərbaycanımızın, istərsə də onun qədim bölgəsi olan Naxçıvanın etnogenezi tarixinə və tarixi salnamələrə adını qətiyyətlə möhürləyən, özünün müstəqil yazısı, dövləti və böyük mədəniyyəti olmaqla e.ə. V minillikdən tarix səhnəsində olan tayfalarımızdan biri də As türkləri olmuşdur. Az qala gündoğan və günbatan əraziyə sahiblənən bu tayfa adı coğrafi adlar, areal toponimik sistemində öz izlərini yaşatmaqla, qədim və müasir ərazilərimizdə aparıcı tayfalar olmuşlar. Məhz bu amili və onun hansı tarixi proseslə bağlılığı məsələsini, eləcə də bu tayfa adının nədən yalnız bizim dövlətimizin adında Azərbaycan-Asərbaykan kimi mövcudluğu səbəbini nəzərə alaraq, asların tarixinə, onlarla bağlı məntəqə adlarının etimoloji mənalarına bir qədər geniş aspektdən baxmağı məqsədəuyğun hesab edirik.

Sovetlər birliyi dönəmində "Azərbaycan" sözünün mükəmməl bir şəkildə "atr, adr, atır, azr" şəkilində guya fars dilindən formalaşdığı "sübut olunmaqla" bu tayfa tarixi kökümüzdən uzaqlaşdırılmış, əski As soyumuzla bağlı həqiqətlər gizlədilmiş, tariximiz saxtalaşdırılmışdır. Bu siyasət bütün prototürk tayfalarına tətbiq edilən əsas siyasətin qayəsinə çevrilmiş, sifarişlə tariximizin başına keçib onun dövrlərini, fəsillərini yazan İ.V.Struqunov, Y.A.Tokarçevski, İ.M.Dyakonov, E.A.Qrantovski kimilərin əsərlərində vətənimiz Azərbaycanın adı gah "Atropatekan", "Adərbaqdan", gah da "Azərbayqan" yazılışlarında kitablara daxil edilmişdir. Beləliklə xalqımızın etnogenezi məsələsi saxtalaşdırılmış və kökümüzə yad etnoslar yamanmışdır (71, s. VIII-IX; 353; 349). Təəssüflə qeyd edək ki, öz əsarəti altına aldığı xalqları assimilyasiya etmək qəsdində olan bu siyasi sistem elmimizin inkişafında xüsusi xidmətləri olan bir qrup alimlərimizi də öz təsiri altına salmış, etnogenezimizlə bağlı tədqiqatlar bu istiqamətdə qurulmaqla, əldə olunan elmi nəticələr də məhz bu ideologiyanın təsiri altında formalaşmışdır.

Adımız və dilimiz e.ə. V-IV minilliklərin süzgəcindən keçib gələrək

bir təkamül prosesində təşəkkül tapsa da, əski qaynaqlar nəzərə alınmadan T.Hacıyev və K.Nərimanoğlunun da doğru olaraq qeyd etdiyi kimi XI əsrdə Xətib Təbrizinin həmyerlisi ilə danışığına maraq göstərən Əbül Ülanın "Siz hansı dildə danışırdınız" sualına "Azərbaycan dilində" cavabı ilə "Azərbaycan dili" və "Azərbaycan" sözü ifadəsi tariximizə yamanmışdır (190, s. 9). Rus ideologiyası bu xalqın XI əsrdən formalaşması kimi səhv bir elmi nəticəni kitablara daxil edərək həqiqəti gizləməyə çalışmış, bununla da Azərbaycan xalqının bu ərazilərə gəlmə olması və son əsrlər yaranması haqqında yanlış konsepsiya öz tarix kitablarımızda yer almışdır.

Təəssüflər olsun ki, yenidən nəşr olunan "Azərbaycan tarixi" kitabının I cildində I fəsildən IX fəslə qədər, Daş və Paleolit dövrləri, eləcə də Midiya və Manna dövrlərinin izahında da xalqımızın etnogenezində ayrıca yeri olan As boyları Azər türkləri haqqında heç bir məlumat verilməmişdir (69, s. 54, 213, 226). Bir sözlə tarixi e.ə. ən azı V-III minilliyə söykənən As türk boylarının adı Azərbaycan adını As+ər+bay+qan şəklində formalaşdırsa da, bu konsepsiya tarixə yaxın buraxılmamışdır. Halbuki, As tayfa adına qoşulmuş ər-"igid", bay-hökmdar titulu, qan/kan- "məkan" ifadəli söz tərkibləri və şəkilçilər bütün türk xalqlarının toponimik sistemində də geniş şəkildə yayılmışdır. Əgər müasir Azərbaycan toponimikasını izləsək, qeydə alınan Beyləqan, Bezirkan, Sakər, Arbatan, Bəydil, Bəyəhməd, Bəyimsar Baysal, Bayoba kimi "kan/qan", "bəy", "ər" tərkibli yüzlərlə adı formalaşdırmışdır (168, s. 163; 35, s. 10, 15-18). Eyni proses ümumtürk arealında, Özbəkistan, Türkmənistan, Qazaxıstan və Altaylarda da izlənməkdədir. Ərazilərdə Namanqan, Alqınkan, Sarkan, Kayrakan Aşkıkan bay, Bayqanın, Baymak, Arbat, Arkaşan kimi minlərlə şəhər, kənd, çay, dağ və s. adlar (103, s. 56-59, 217) buna misal ola bilər. Təbii ki, bu adlar İslamın yayıldığı tarixdən xeyli qabaq mövcud idi və onların ərəb-fars dili elementləri ilə heç bir bağlılığı olmamışdır. Göstərilən söz kökü Orxon-Yenisey yazılarında Kadırkan, Altun kan, Orkun, titul kimi Bars kan sangun, Tarkan sanqun (235, s.10,18. 124 s; 212, s. 32; 74, s. 60) və s. yüzlərlə toponim və antroponimlərdə də təkrarlanmışdır. Bunlar isə As türk dilinin bütün türk tayfa və dövlətlərinin dilinə təsirini ortalığa çıxaran tarixi fakt sayılmalıdır. Məsələ bundadır ki, vətənimizin adını formalaşdırmış xüsusi seçim bildirən "bay/bəy"

titul türk sözü ilə "məkan", bəzən isə "baş", "böyük" mənalarında omonimlik ifadə edən can/kan söz şəkilçilərinin qoşulduğu Asər tayfa adı "Azər" yazılışında ərəb-fars dilindəki "od" komponenti ilə izah edilmişdir (38, s. 15-16). Beləliklə də tarixi kökü e.ə. VI-IV minilliyə dayanan Asər türk boyunun adı soy-kökümüzdən uzaqlaşdırılmışdır. Lakin adımızın ərəb-fars dili sözləri ilə formalaşmadığını sübut edən tarixi faktlar yetərincədir. Ən əvvəl qeyd edək ki, əski türk dastanı "Ərgənəkon" adındakı "kan" tərkibi tarix səhnəsinə çıxdığı dövr farslar və ərəblər hələ tarix səhnəsində yox idi. Eyni hal "bay/be/pi" komponentinə də aiddir. Belə ki, söz "bəy" mənasında Şumer türklərində e.ə. V minillikdə işlənmiş, farslar isə etnik şəkildə Midiya tərkibində e.ə. VII əsrdə görünmüşlər. Bu isə Şumer tarixindən 4 min il sonradır (-F.R.).

Bir məsələni də xüsusi olaraq qeyd edək ki, türk dillərindəki bir çox sözlərlə yanaşı ("van"- məkan, "vəng"- yazılı daş, "berd"-qala və s.) adımızdakı "kan" tərkibi də türk dili və toponimikasından zaman-zaman qonşu xalqların, eləcə də türk imperiyalarının himayəsində artıb törəyən millətlərin, o cümlədən də ermənilərin dilinə adlamış, bu gün Axperqan, Kirovakan, Sarukan kimi adlarda işlənməkdədir. Göstərilən adlar qədim məntəqə adlarımız olan Qardaşlar, Gömrü (4 kənd) Başkənd kəndlərinin adı idi və 1837, 1924, 1942-ci illərdə dəyişdirilmişdir (270, s. 11, 16, 20; 35, s. 12).

Bəs As boyları kimdir, qədim qaynaqlar bu tayfaların dili, əraziləri və ünsiyyətdə olduqları tayfalar haqqında hansı məlumatları verir?

Tarixin "atası" sayılan Herodotun "Tarix" kitabında Asların adı çəkilməsə də, bir qrup antroponimik adda As komponenti söz kökü olaraq tayfa adını ifadə edir. Müəllifin yazılarında Sardda Asiada, Frakiyada Assa, Cənub Azərbaycan və qədim İrəvan torpaqları arasında Assiriya adında əyalət, şəhər, bölgə adlarını çəkir və onların aslara məxsusluğunu qeyd edir. Daha sonra bu tayfa adı e.ə. VI əsrdə Midiya çarı Astiaq, Astrabak və Astak şəxs adlarında, Traxina (Turxan-F.R.) ölkəsində Asop çay adı və yunanlarda Asmax (As maqı-şamanı-F.R.) kimi tayfa və şəxs adlarında təkrarlanır. (23, I 19, 46, 73, 95, 111; III 62; IV 45; VI 69; VII 122, 199).

Biz aslar haqqında daha bir məlumata Klavdi Ptolomeyin (IIəsr) yazılarında rast gəlirik. O, cənub Qafqazda Asturkan türk boylarının

adını qeyd edir (163, s. 12). Asların adına Roma tarixçisi Plutarxın məlumatlarında da rast gəlirik. O, e.ə. V-IV əsrin tarixi proseslərini qələmə alaraq Aqesilay, Pompey, Aleksandr Makedonski və başqalarının şərqə yürüşlərindən bəhs edərək o dövr ermənilərin "Böyük Ermənistan" uydurduğu ərazini "Asiya", eləcə də Azərbaycanın Midiya, Albaniya, Atropatena ərazilərini, Ön Asiya, bütöv Anadolunu Kiçik Asiya adlandırır, Latiyada Astura çayının adını çəkir, lakin asların kim olduqlarından bəhs etmir. Hətta e.ə. VI əsrdə qədim Azərbaycan ərazisində bu xalqın yazısı olduğundan, Ellin türk As soyundan olan sərkərdə Femistoklun (e.ə. 525-460-cı illər) məktub aldığını, yazılı olaraq özünü müdafiə etdiyini, qayalarda ioniyalılara çağırış və müraciətlər yazdırdığını xatırlatmaqla bununla da asların əlifbası olmasını, yazıya malik olduqlarını göstərir (28, II c., XX, s. 127-128, 236, XLVII s. 562). Bir xalqın xalq kimi formalaşması, dövlətini qurması və ayrıca sərhədlər daxilində mədəniyyətini yaratması təbii ki, minilliklərin tarixi prosesidir və xalq bu prosesdən adlayaraq yazısı olan sivil bir xalqa çevrilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi biz Herodot, Strabon, Ptolomeyyin yazılarından başqa A.M.Dovatur, D.P.Kallistov, İ.A.Şişovanın da yazılarında hazırda türk boylarının və onların yaşadıqları ərazilərin hələ e.ə. IV-I minilliklərdən (XXVII-IX əsrlər) Ön Asiya, Kiçik Asiya, Orta Asiya adlandırılmalarına dair xeyli tarixi faktlara rast gəlirik (343, s. 68; 271, s. 233). Bu məlumatlar da fikrimizin doğruluğunu bir daha sübut edir.

Tit Liviy "Romanın qurulması tarixindən" kitabında e.ə. III əsrdə Romada asların adına zərb edilmiş qızıl pullardan bəhs edir və onun məlumatında burada qədim Romanın ilkin 3 tayfa birliyinin Triba adlandırıldığı da göstərilir (33, s. 98-99). Əgər diqqət etsək buradakı "Triba" tayfa birliyi Tur bəyliyi mənasındadır və bu adlanma sistemi eynilə kaspi, silbi, tatabi kimi türk tayfa adlarında da təkrarlanır və bu ad göstərilən adlar ilə eyni quruluşa malikdir(-F.R.).

Bütün bunlara baxmayaraq Herodotun, Ptolomeyin, Plutarxın məlumatları bəzi məsələlərin həllində qiymətli mənbədir. Biz qeyd etdik ki, o, Yunan ölkəsində həmişə çarın sağında dayanan Asmax tayfalarının, yəni maq asların adını çəkir (23, II 30). Maqlar isə bildiyimiz kimi öncəni görə bilən qədim türk şamanlar idi və şaman aslar Yunan

çarlarına dövlət idarəçiliyində məsləhətlər verirdilər. Bildiyimiz kimi qədim Turdi türk boyları, eləcə də digər türk tayfaları Yunan tarixi və mədəniyyətinin yaranmasında iştirak etmiş və bu tayfalar aslarla ittifaqda olmuşdur. Biz Turdilər haqqında aşağıda danışacağıq. Tarixdən bizə e.ə. 519-cu ildə Qaumatanın-şaman atanın farslara qarşı üsyanı da məlumdur. Daha sonra müəllif, Midiyada Astiaq adında çarın, Azan adında sərkərdənin, Suriyada Askalon (As qalan) şəhərinin adlarını və s. qeyd edərək onların kim olduğunu göstərməsə də, bütün IX kitabında o dövr türk boyları kass, kuti, lulubi, trukki sak, kimmer, arizant, manq, bus və başqalarının yaşadığı ərazilərin Asiya adlandığını yazır. Bu tayfaların tarixi isə e.ə. V-III minilliklərə söykənir. Bu məlumatlarda əlavə olaraq Midiya çarı Deyyokun (əsərdə Deiok) əhalidən şikayəti yazılı şəkildə qəbul etdiyi də göstərir (23, I 100, II 17; III 62,105; IV 44, 198; V 97, 119; VI 45, 70; VII 11, 185; VIII 126,130; IX 116, 122). Buradakı yazı haqqındakı məlumata istinad etsək, "yazılı şikayət" ifadəsi Azərbaycan xalqının hələ 2800 il bundan öncə əlifbaya malik olduğunu, xalqımızda yazının qədimdən olması faktını ortalığa çıxarır (-F.R.).

As boyları haqqında məlumatlara Strabonun "Coğrafiya" əsərində də rast gəlirik. Azərbaycanın toponimiyası, etnogenezi və s. haqqında zəngin məlumat verən müəllif, xeyli türk etnoslarının, o cümlədən də As türklərinin adını çəkir, etrusk, turdetan bastul- turdetan və qarqarların As nəsli olduğunu, onlarla qarışıq yaşadıqlarını göstərir, lakin, nədənsə "Araz" hidronimini etnohidronim deyil, "bölən, ayıran" mənalarında izah edir (31, X I, X IV, s. 500-572). Buradakı məlumatlarda Araz çayı boyunda ayrıca Azar adlı ölkə olması, turdetanların-turdilərin (turuklərin ulu babaları F.R.) əlifbaya sahibliyi, Turdetaniya ölkəsi, buradakı türk-mənşəli Onoba, Asson oba, Menoba, Menlariya kimi vilayətlərin də mövcudluğu, turdilərin As birliyinə daxil olduqları və s. məsələlər ayrıca yer alır (31, XI, 14, 3, s. 137-138). Bu məlumatlarda vilayət adlarının hamısı Turdetan-"Turdi düzənliyi" On+oba, Ass+on oba, Men/min+oba şəklində türk dilindədir. Araz adının etimologiyasına gəldikdə isə bu sözün hələ II minillikdən də qabaq "Ares" yazılışında tanrı adı olması, sonralar isə "ululların birliyi", "birlik", "uca rəhbərlərin birliyi" mənaları daşıması haqqında da yetərincə mənbə məlumatları mövcuddur (120, I c., s. 671).

"Azər" adlı ölkənin olması tarixi məlumata Yunan coğrafiyaçıcı K.Ptolemeyin yazılarında da təsadüf edirik. O, Azər ölkəsinin adını çəkməklə bu tayfaya aid ölkənin olduğunu sübut edir (V, 8, 2). Təəssüflə qeyd edək ki, Azərbaycan xalqının etnogenezini geniş araşdıran Q.Qeybullayev Atropatena toponimlərinin etimoloji izahlarını verərkən birbaşa As tayfa adı ilə yaranmış Azərbad-"As ərlərin yurdu" ölkə adlı yer adını "ozar" kimi təhrif edərək onu türk dilində "əks tərəfdə yerləşən" kimi mənalandırmışdır (208, s. 217). Ölkə Araz çayının sağ sahilində yerləşirdi. Əgər bu söz Atropatena dövründə mövcud idisə, deməli Azərbaycan adı "Atropatena" sözündən yaranmamış, As tayfa adını daşımışdır. Təkcə bu məlumat Azərbaycan sözünün yaranma tarixinin K.Ptolemeyin dövrü nəzərə alınmaqla 1800 il bundan öncə baş verdiyini söyləməyə kifayət edir (-F.R.). Lakin xeyli sayda tarixi fakt Asların göstərilən tarixdən 6 min il qabaq mövcudluğunu və öz ölkələrinin olduğunu sübut edir.

Bu tayfaları geniş araşdıran F.Ağasioğlu "Azər xalqı" kitabında As boy adının Az boy paralelliyindən söz açaraq, adın özbək, altay, qaraqalpaq boyları arasında, Göy-Türk yazılarında yayıldığını qeyd etməklə, başqırdlar arasında as, assı (əsərdə başqort-katay kimi verilir) adında, Qaraçay-Çərkəz ölkəsində, Orta Asiyada, Sırdərya ətrafında isə, As kimi yayıldıqlarını göstərir. Müəllif M.V.Zəkiyevin, R.Q.Kuziyevin, L.S.Tolstovanın və İ.M.Miziyevin araşdırmalarına istinadən onların Volqaboyu türkləri, özbək, osetin, balkar və qaraçaylar arasında da mövcud olduqlarını yazır. Bundan sonra o, XIII əsr İsland müəllifi S.Sturlusona istinadən İsland yazılı abidəsi "Kiçik Edda" əsərindən maraqlı faktlar gətirməklə asların Trovadan çıxaraq Avropanın Saks ölkəsinə, oradan Norveç və İveç ərazilərinə yayılaraq burada Aslauq, Aslis, Asqard kimi etnooykonimlər və Eyrik, Gömül, Anar, Atlı kimi minlərlə çay, göl, yer, şəxs adları da yaratdıqlarını qeyd edir. As boy adının XVII əsrdə şəxs adlarının sonunda işlənməsinə nümunələr göstərən F.Ağasıoğlu A.Vamberi, Z.V.Toğan, Təbəri, M.Kaşğari və başqalarının araşdırmalarını diqqətlə izləyərək qədim "Kartlis" abidəsi, eləcə də azərbaycanlı alim C.Cəfərovun da yazılarını təhlil etməklə aslarla bağlı xeyli sayda coğrafi adları misal göstərmiş və geniş elmi təhlillər vermişdir. O, Assur yazılarına müraciət etməklə e.ə. VIII əsrdə II Sarqon dövrü Azari adlı

şəhərin də olduğunu, əvvəllər burada Lulu, Turuk, Zəngi, Koman türklərinin də yaşadığını elmi faktlarla əsaslandırmışdır (163, s. 12-15, 17-19).

Baxmayaraq ki, antik mənbələr asərlərin-azərlərin bir türk olduğunu onların e.ə. minilliklərə söykənməsini sübut edən tarixi faktlar yazırdılar, qeyd etdiyimiz kimi sovet ideologiyası ilə tariximizin başına keçmiş və tariximizi yazan İ.V.Struqunov, Y.A.Tokarçevski, E.A.Qrantovski, V.Tomsen, V.V.Bartold kimiləri tərəfindən, bu tayfalar "mənşəyi məlum olmayan", "sirli xalq", "qeyri-türk" və s. kimi yazıya alınmışlar (71, s. VIII-IX; 454, s. 20, 34, 51, 63). Halbuki, hələ VI əsrdə də bu tayfaların Göytürk imperatorluğunda türklərlə qarışıq yaşadığına dair yetərincə faktlar mövcuddur (236, s. 92).

Biz Kül Tigin, Tonyukuk, Bilgə xaqan kimi "Orxon-Yenisey" abidələrində "As çölü", "As eltəbər" ifadələrinə, onların qırğız və göytürklərlə birgə yaşadığına da təsadüf edirik (212, s. 79). Bununla yanaşı asların adına Az tayfa adı şəklində Kül Tigin abidəsi yazılarında (2-3-cü sıralarında) Az budun yağı boltı- Az xalqı yağı oldu, Az budun anta yok boltı - Az xalqı arada yox oldu (74, s. 20) kimi ifadələrdə rast gəlirik. Bu fikir S.E.Malovun araşdırmalarında da söylənilir. O, asların böyük tayfa olduğunu Eki asda ay iq tek er biz şəklində -Biz iki asda aydan arı tək ərik- cümləsi ilə göstərir (160, s. 63). Burada asların böyük güc olması, hakim tayfa kimi yurdlarının olması faktı da ortalığa çıxır. Az/as tayfa adına Orxon-Yenisey yazılarında Gökmən dağlarında yaşayan xalq adı (235, s. 389), Aza Tutuk, Oğul Asuğ və antroponim (yenə orada, s. 382-384), yenə həmin abidələrdə Az xalq adı, Az Eltəbər antroponimləri kimi təsadüf edirik (212, s. 79). Bu tərkib IV əsr Alban çarı Asay adında (208, s. 179), XVI əsrdə İrəvan xanlığının Karbi nahiyəsində Azarku (77, s. 159-182) kimi tayfa, antroponimik və oykonimik adlarda da rast gəlirik. N.A. Baskakovun yazılarında, noqay türklərində As tayfalarının olduğunu və onların "Qara as", "Ağ as" adlandıqları qeyd olunur (303, s. 130, 133-134). Bu isə asların doğrudan də böyük güc olması faktını bir daha sübut edir. As türklərinin adına M.Kaşqaridə də "Azık" şəklində "Azık için kaygı çekme" yazısında təsadüf edirik (42, I c., s. 65). Tərcümədə bu yazı "Azıq bəyi üçün möhkəm çəkmə" mənasını daşıyır.

VIII əsrin əvvəllərində əməvilərin VI xəlifəsi əl- Valid I ibn Əbd-əl

Malikin qardaşı Məslamın 40 minlik qoşunla türklər ilə vuruşub Arazı keçərək Culfanı və Lahicanı fəth etməsi məlumatı (277, s. 50), eləcə də Azərbaycanın ərəblər tərəfindən işğalı zamanı xəlifə Maviyənin Azərbaycan haqqında sualına sərkərdənin "Azərbaycan qədimdən türklər ölkəsidir və onlarla (azərbaycanlılarla) məskundur",- cavabı (308, s. 5-11) və digər bu kimi yüzlərlə fakt ərazinin çox qədimlərdən As övladları türk-azərbaycanlılara mənsubluğunu, onların xalq və dövlət kimi çoxdan mövcudluğunu bir daha təsdiq edir.

Asları dünya "türkoloqlarının" hansı xalq hesab etmələrindən asılı olmayaraq mənbə və antik ədəbiyyatlar bu tayfanın nə tarixinə, nə də yayım arealı və mədəniyyəti üzərinə kölgə sala bilməmişdir. Göstərilən nümunələrdən də göründüyü kimi onların hansı tarixi dönəmdə, hansı gücə, mədəniyyətə malik olmaları haqqında antik, qədim, orta əsrlər mənbələri yetərincə tarixi faktlar göstərməkdədir.


Bəs asların e.ə. ən azı VI-IV minilliklərdə yaşamalarına dair hansısa bir tarixi fakt mövcuddurmu? Bu faktlar VI-III minilliklərlə səsləşirmi? Bu suallara cavab vermək üçün mənbələrə diqqət edək.

Strabon "Coğrafiya" kitabında Turdi türklərinin ölkəsindən danışmaqla onları həm də "Tartes" adlandırır. Bundan başqa müəllif, İspaniyada da "Tartes" şəhər adını göstərməklə onun əhalisinin də "tartes" adlandığını qeyd edir. O Turdetaniya ölkəsindəki "Tartes" sözünü Tört As-Dörd As adlandırmaqla onların e.ə. VI minillikdə əlifbaya sahib olduqlarını və bunun ən qədim əlifba olduğunu qeyd edir (31, s. 137).

Biz bu məlumata qədim yazı nümunələri ilə məşğul olan İoqaness Fridrixin yazılarında da rast gəlirik. O da Turdetan sözünün izahı zamanı bu sözü Tört As kimi göstərir və onların əlifba tarixini e.ə. VI minilliyə aid edir (362, s. 119). Biz qeyd etdik ki, Strabon turdiləri As birliyinə daxil edir və turdiləri asların varisləri hesab edir (31, s. 137-138).

Bütün bu mövcud fikirlər haqqında C.Cəfərov geniş araşdırma apararaq, xeyli sayda mənbə məlumatları ilə bu tarixi faktları bir daha təsdiq edir (160 s. 91-63, 104-108). Öz araşdırmalarını genişləndirən müəllif, turdilərlə bərabər Asərlərin də çox əskilərə söykənən Osk-Ask əlifbaları olduğunu da qeyd etməklə öz kitabında bəzi əski yazı nümunələrini və qədim Osk əlifbasını göstərmiş, e.ə. V minilliklərdə yaşamış As türklərinin tarixini də açıqlamışdır (160, s. 92).

Aşağıda iki variantda göstərilən hərf-işarələr C.Cəfərovun kitabından götürülməklə əldə işlənmişdir.



M.Şahtaxtılının yeni əlifba konsepsiyası haqqındakı yazımızda biz As əlifbası ilə türk tamğa, hərf və işarələrini, ərazilərimizdən tapılan yazı nümunələrinin müqayisələrini vermiş, buradakı işarələrin eyni bir kökdən gəldiyinə, eləcə də başqa bir yazımızda asların hələ e.ə. VI minillikdə əlifbaya sahib olduqlarına dair elmi dəlillər göstərmişik. Bu işarələrin ən azı 7 min il bundan əvvəllər istifadə olunan qədim bir türk Asər-Azər soyunun işarələri olduğunu unutmamalıyıq (442, s.132-136; 244, s. 61-79).

Göstərilən bu mənbə məlumatlarını müqayisə edərək buradakı bəzi məqamlara bir qədər də ətraflı baxmaq istərdik. Göründüyü kimi Strabon Tört asların e.ə. VI minillikdə əlifbaya sahibliklərini göstərməklə As boylarının varisləri hesab edir və bu fikri İoqaness Fridrix də təkrar edir. Əgər Dörd aslar As türklərinin varisləridirsə o zaman aslar necə V minilliyə aid oluna bilərlər? Deməli As türkləri də ən azı Dörd asların yaşadığı dövrdə tarixi proseslərdə iştirak etmişlər (-F.R.).

As əlifbası yazı işarələrinə gəldikdə isə, bu işarələrin Finikiya, latın, gürcü, və başqa xalqların yazı sistemi ilə müqayisəsi əlifba işarələrin adı çəkilən xalqların yazı işarətlərinin də formalaşmasına təsir etdiyini göstərir. Əlimizdə olan bu əlifba sisteminə daxil olan işarələr Qobustan,

Kəlbəcər, Pirallahı, Təbriz, Nüvədi, Gəmiqaya və başqa ərazilərimizdən tapılan yazı işarələrində də öz əksini tapmaqdadır (464, s. 18). Nüvədi isə bildiyimiz kimi Naxçıvanın Şorlut nahiyəsinə daxil idi və 1920-ci ilə qədər bu tərkibdə qalmışdır (77, s. 179). Deməli Asərlər-Azərlərin əlifbası Naxçıvan ərazisində də mövcud olmuşdur. Lakin, bildiyimiz kimi keçən əsrin 20-ci ilində Zəngəzurun Azərbaycandan zorla alınması ilə də (218, s. 77) ərazi ümumas torpaqlarından qoparılmışdır.

Daha bir məsələyə diqqət yetirməyi də məqsədəuyğun hesab edirik. Biz Herodot, Strabon, K.Ptolomey və digərlərinin əsərlərində Azərbaycanın Ön Asiya, hazırkı Türkiyə ərazisinin Kiçik Asiya və Xəzərdən şərqə türklərin ərazisinin Orta Asiya adlandırdıqlarını qeyd etdik. Lakin müəlliflərin məlumatlarında bu adın haradan gəldiyi göstərilmir. Fikrimizcə, As türklərinin "Asay" (sonralar təhrif olunmaqla Asiya adlanmışdır) adlanması qədim türklərin Aya sitayişi və onu Allah bilmələr ilə bağlı olmuşdur. Qafqaz, Orta Asiya və Anadolu ərazilərinin (diqqət edək, hər üç ərazi Asiya adlanırdı F.R.) arxeoloji mədəniyyət nümunələrində və yerüstü abidələrində ay təsvirləri geniş yer alır. Herodot farsların hələ Midiya ərazilərinə gəlməmişdən öncə yerli türk tayfalarının Aya və Günəşə sitayişlərini qeyd edir (9, VII; 37, s. 326). Noqaylar haqqındakı yazılarında A.N.Baskakov da Ay inancı ilə bağlı Ak ay, Kızıl ay, Kara ay türk boylarının adını çəkir (303, s. 142). Azərbaycanda Kiş kəndi yaxınlığında e.ə. III minilliyə aid Ay Kurqan aşkar edilmişdir (160, s. 61).

Beləliklə mənbə və qaynaq məlumatlarında aslar haqqındakı fikirləri və faktları yekunlaşdıraraq aşağıdakı nəticələri söyləyə bilərik:

1. Əgər turdilər e.ə. VI minillikdə əlifba sahibi olmaqla asların varisləri idilərsə, deməli As türkləri ən azı e.ə. VI minillikdən tarix səhnəsində idilər.


2. As əlifba işarələrinin Turdi əlifba işarələrindən qədim olmaqla, Naxçıvan ərazisindəki Gəmiqaya, Nüvədi yazılarında təkrarı, ərazidə As türklərinin ən geci e.ə. VI minillikdən mövcud olduğunu göstərir.

3. Tarixi qaynaqlara Ön Asiya, Kiçik Asiya, Orta Asiya kimi düşən ərazilər türklərə mənsub olmaqla As türklərinin nəzarəti altında olmuş, Ay inancına sahib olmuşlar.

Qətiyyətlə demək mümkündür ki, tarixi e.ə. VI-III minilliyə söykənən As türk boyları Vətənimizi dövlət halına gətirmiş, bunlar Azərbaycan

xalqının ulu kökləri olmuş və Asər-Azər-Azərbaycan dilini yaratmaqla ölkənin adını da öz adları ilə əbədiləşdirmişlər. Qeyd etdiyimiz kimi əgər araşdırıcıların və qaynaqların məlumatlarını izləsək bütün Qafqaz, "aslar ölkəsi" adlanmış və onlar geniş ərazilərə yayılmaqla, Kiçik Asiya, Ön Asiya və Orta Asiya adı altında ucsuz-bucaqsız ərazilərdə böyük bir gücə çevrilmişlər. Tərəfimizdən tərtib edilmiş bu xəritədə qədim As türklərinin təsir dairəsində olan ərazilər geniş şəkildə eyni rənglə göstərilmişdir. Bu ərazilərin ASİYA-ASAY adlanması səbəbi asların AY ilahəsinə inancı ilə bağlı olmuşdur. Qədim türklərdə bu inanc As türklərindən e.ə. III minilliklərdə hunlara adlamışdır. Ay ilahəsinə inanc As türklərində As+ay, Naxər türklərində Nax+ay (Midiyada düzənlik Naxay düzənliyi adında), Tal türklərində Tal+ay, Dor tüklərində Dor+ay kimi digər türk inanclarında da təkrarlanmışdır. Bu haqda aşağıda ətraflı məlumat verəcəyik. Xəritədən də göründüyü kimi As türkləri ümumprototürk tayfalarının birliyində əsas güc kimi bütün Qafqazı, Kiçik Asiyanı və Mesopotamiyanı öz təsirləri altında saxlamışlar.

AS TÜRKLƏRİNİN AREAL TƏSİR DAİRƏSİ. AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ PROTOTÜRK BOYLARI (m.ö. VI-III minilliklər)



Adı çəkilən As türklərinin Naxçıvanda məskunlaşmasını göstərən tarixi faktlar bu ərazinin qədim prototürk tayfa ittifaqları ilə məskun olduğuna dair tutarlı tarixi faktdır.

Asər-Azər dilinin yayım arealı fantastik ərazi böyüklüyündə bu millətin əzəmət və vüqar tarixinin göstəricisidir. Ərazimizdən başlayaraq Bütöv Azərbaycan; İrəvan xanlığı və Cənubi Azərbaycan, Dəmir qapı Dərbənd, Gürcüstan ərazilərində aparıcı dil olmuş, bununla bərabər Doğu Anadolu, Dəclə və Fərat çaylarının yuxarı axarları, Suriya və İrak yaxaları, Orta Asiya, Altaylar və Kırım türkləri, Orxon-Yenisey yaxalarına daha sonra isə Avropaya qədər areal bir dil böyüklüyündə yaddaşlara hopmuş bu dil əski Asər-Azər dilidir. Fikrimizcə, bu dil bizdən, Azərbaycan türklərindən qoparaq türk xalqlarının ünsiyyət vasitəsinə çevrilmiş, burada sadalanan ucsuz-bucaqsız ərazilərin türklərini Oğuz dili ailəsində birləşdirmişdir.

Bütün bunlar isə əski As dilini daşıyan As-Oğuz yurdları idi. Sözün farsların iddia etdikləri azər-"od" sözü ilə heç bir bağlılığı yoxdur və azər-"od" ifadəsi xalqımızın min illərlə ölçülən tarixini bu xalqdan uzaqlaşdırmaq qəsdində siyasi uydurmadan özgə bir konsepsiya deyil (-F.R.).

Göstərilən bütün tarixi fakt və elmi nəticələri yekunlaşdıraraq demək olar ki, Asər türkləri yazılı nümunələrdən də göründüyü kimi özünün dili, yazı mədəniyyəti, gücü və ağlasığmaz qədim ərazisi olan türk boyları olmaqla, Naxçıvan ərazisində məskunlaşma tarixinə görə bütün türk tayfa birliklərini qabaqlayan ulu əcdadlarımızdandır. Bu boylar qədim Naxçıvanın xeyli toponimik adında (45 oykonim) özlərini əbədiləşdirmiş, ərazinin aparıcı güclü tayfalarından biri kimi etnogenezimizin təşəkkülündə əvəzsiz xidmətlər göstərmişlər.

As türkləri ilə bağlı adlar Azərbaycan ərazisində olduğu qədər bütöv türk ölkə və xalqları ərazilərinin heç birində yayılmamışdır. Ən qədim As icma mağaraları Azıx və Asabkəf (ad bu formada olmuşdur, -F.R.) məhz Azərbaycanda olmuşdur.

Asların adı Azərbaycan vətənimizin adında və burada Astara-"As törə, tayfası", Asxanakəran-"Tanrıya məxsus uca As ərləri", Astan-"aslara tən", Astaf-" Şöhrətli As", Ağastafa- "uca , şöhrətli As", Azad-"As məkanı", Azaflı-" As evi", Azaru-" as ərlərinin qurduğu", Azıx, Azok, Asok –"As ittifaqı, birliyi, nəsli", Asak-" uca aslar" kimi 1300-

dən yuxarı kənd, qəsəbə, çay, dağ adlarında etnotoponim kimi qalmaqdadır (35, s. 9, 11, 14, 80). Adların etimologiyası tərəfimizdən ilk dəfə olaraq verilir (-F.R) və buradakı "tapa/tafa", "tara", "ok/uk", "tan", "at" tərkiblərinin etimoloji mənaları qədim türk dili lüğətlərindən götürülmüşdür (ətraflı bax, 37; 64; 54, III c., I h.).

Bir çox mənbələr e.ə. V-III minilliklərdə Urmiya gölü ətrafı, Doğu Anadolu əraziləri və Altaylarda As tayfaları ilə bağlı Birask, Biryus kimi coğrafi adların olduğunu qeyd edir (160, s. 140). Biz As tərkibinə e.ə. VI əsrdə skiflərdə Aspak, kaspilərdə Azari (208, s. 124, 141,154), XIII əsr türk əmiri Azar antroponimlərində (30, s. 185) "qüvvətli, cəsur, qorxmaz" mənalarında, XVIII əsr Dağlıq Qarabağın Çilaberd mahalında Askana, Dizak mahalında Azuq, Xakas və s. oykonimlərdə isə tayfa adı kimi rast gəlirik (209, s. 149-151).

Bütün bu məlumatları müqayisə etsək və turdilərin asların varisi olması faktına dayansaq, As türklərinin tarixinin ən azı e.ə. VI minilliyin sonu və V minilliyin əvvəllərindən başlandığını söyləyə bilərik. Azərbaycanda aslarla bağlı Azıx-As+ok-"As övladları", Naxçıvanda isə Asabkəf-"As ölkəsinin evi" mağara adlarını da nəzərə aldıqda isə bu tarixin e.ə. VI minilliklərdən də öncə başlandığı göz önündədir.

Bəzən tədqiqatçılar yaşayış məskənləri adlarını yalnız xalq etimologiyasına uyğun tədqiq edirlər və oykonimlərin əsasən tayfa adlarından yarandığını unudurlar. Lakin məntəqə adlarının əsasən tayfa adlarından yaranması artıq bütün dünyada birmənalı olaraq öz təsdiqini tapmış tədqiqat üsuludur.

Bəs tayfa adı bildirən as tərkibi hansı mənaları ifadə edir? E.V.Sevortyanın lüğətində biz bu tərkibə "nəvazişli", "müdrik", "zəkalı" (64, s. 91), M.Kaşğarlının "Divani lüğəti it-türk" əsərində isə "bəlli olmayan ok-ittifaq", "cariyələrə verilən ad" kimi göstərilir (41, s. 41, 57). Ə.A.Quliyevin araşdırmalarında biz sözün "güclü", "qüvvətli" mənaları ilə qarşılaşırıq (212, s. 79). Bütün bu yozumları nəzərə alaraq demək olar ki, omonim xarakterli "güc", "qüvvət", "ağıl", "zəka" mənalarını ifadə edən "as/az" tərkibi "ər" -" kişi", "igid" sözünə qoşularaq "ağıllı, igidlər", "qüvvətli ərlər" mənasını ifadə etmiş, tarixdə böyük güc kimi tayfa adına çevrilib (Bilgə kağan, Bilqamıs, Biləndər adları kimi) qaynaqlara düşmüşdür. Məhz bu gücə görə onların yayılma və məskunlaşma arealı ağlasığmaz dərəcədə geniş olmuşdur.

Ümumtürk areâlında bu ad yüzlərlə Asis, Asbest, Asax, Askalan, Askam, Askara, Askino, Asti, Asuq, Assan, Astraxan, Aspindza və s. adlar (103, s. 28-29, 52-53, 57) kimi təkcə türk coğrafi arealında şəhər, qəsəbə, və kənd adlarında yaşayan tarixi izləridir.

Qaynaqlar eramızın XI əsrində Cənub Azərbaycan torpaqlarımızda Askaf, Aspas məntəqə adlarını göstərir (220, s. 39-40). Adlar "As yurdu" və "Baş as" mənalarında əski türk kap-"yurd, ölkə", pas-"baş" (160, s. 46) sözləri ilə etnooykonimə çevrilmişlər.

Naxçıvan ərazisində 1554-cü ildə Üsküb-Askab sancaq adı, 1590-cı ilə aid məlumatlarda isə, Asni kənd, dağ, çay, tayfa adı Sədərək kəndi ərazisində qeyd olunmuş və sonralar köçürülmüş, Qarabağlar kəndində Asni çay, Aza kimi (2 kənd) adlarda da As tayfa adı günümüzə qədər gəlib çatmışdır (111, s. 15; 110, s. 23-36).

Bəs qədim Naxçıvan diyarı ərazisində bu tayfa öz izlərini hansı adlarda qorumaqdadır?

Biz qədim Naxçıvan sancağında, səyyahların əsərlərinə daxil olan sənədlərdə bölgədə qaynaqlara və arxiv sənədlərinə daxil olan Asayaş, Asti, Azad, Aza, Asqəmər, eləcə də Naxçıvan ensiklopediyasına daxil olan Asabkəf, Asni, Astabad, Araz, Asak, Azadciran (nahiyə və kənd adı), Azadkənd, Azərku, Sas, Uybaz, Asnabert, Azad, Ərdalas, Azadək, Zabazadur, Çaqazur, Batevas kimi etnotoponim və etnooykonim-məntəqə adlarına rast gəlirik (109, s. 28, 35, 45-46; 110, s. 25-36). Qaynaqlara və arxiv sənədlərinə düşən, bu gün belə As adını daşımaqla fəaliyyətini dayandırmamış etnooykonimlərin etimoloji izahlarını verməmişdən qabaq bir zamanlar bəlkə də ilkin yaşayış məskəni olmuş Asabkəf mağara adının etimologiyasına diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

Əgər Azərbaycanda Azıx-Azok-as ittifaqı və ya as varisləri mağarası ilkin məskunlaşma ocağı idisə, Naxçıvan ərazisindəki Asabkəf mağarası da fikrimizcə ilk məskunlaşmanın izlərini qoruyan qədim bir müqəddəs məkandır. Öz etimoloji izahı və coğrafi quruluşunda hələ də sirrini qoruyan bu qədim mağara Xristianlıq, İslam və digər dinlərdən xeyli əvvəl ziyarətgaha çevrilmiş, ehtimal ki, ərazi əvvəl mağara kimi mövcud olmuş, sonrakı aşınmalar səbəbi ilə hazırkı parçalanmış vəziyyətinə düşmüşdür.

Tərəfimizdən aparılan araşdırma mənbə və tədqiqatlara "Asəfkəf",

"Asabkəf" kimi düşmüş bu sözün etimoloji izahı onun türk-Azərbaycan dilində olduğunu sübut edir. Adın aşağıda ilk dəfə verdiyimiz sözaçımında, biz çoxsaylı qədim və müasir türk dili lüğətlərinə, salnamələrdəki prototürklərə dair sözlərə, türk dili arxaizmlərinə və bu istiqamətdə tədqiqatçıların elmi nəticələrinə əsaslanmışıq.

Asafkəf sözündə As tərkibi qədim türk tayfasının adıdır. Ona birləşmiş f≈v səs əvəzlənməsi ilə işlənən əf/ev komponenti oy, əf, əv, uy, öy, üy və s. yazılışlarında başkurt, tatar, qazax, qırğız, türkmən və b. türk xalqlarının dillərində, eləcə də xalqımızın dialekt və şivələrində bu gün də ev mənasında geniş arealda işlənməkdədir (39, s. 229; 264, s. 80-81). Sözün üçüncü kəf/kaf tərkibi araşdırıcılar tərəfindən birmənalı qarşılanmamışdır. Qazaxda Kaftorı sözündə "kaf" tərkibinin tayfa adı kimi kaf törəsi, tayfası mənasında işlənməsi (F.R.), Qafqaz dağ adında bu tərkibin qədim türk kaslara aid edilməsi, Şəki ərazisində Qaflan toponiminin isimdən fel düzəldən - lan, şəkilçisi ilə formalaşmasına və s. (35, s. 31, 55) baxmayaraq onların qoşulduğu kaf/kap tərkibi səhvən ərəb-fars dillərinə aid edilmişdir. Buna etirazını bildirən prof. F.Səfərli doğru olaraq Azərbaycan dilindəki tərcümələrdə Asafkəf mağarasının yerini Efes və Tərsus şəhərlərində hallandırılmasını elmi cəhətdən təkzib etmişdir (263, s. 243)

Etimoloji baxımdan As+əf+kaf adı üç əski türk sözündən formalaşsa da müqəddəs kitab "Qurani-Kərim"ə istinad edən tədqiqatçılar onu ərəb dili ilə "mağara sakinləri" mənasında izah etmiş, (187, s. 18; 265, s. 47-55.) və söz də bu etimologiya ilə də ədəbiyyatlara daxil olunmuşdur. Alimlərimizi bu konsepsiyaya istiqamətləndirən "Qurani-Kərim"də "Kəhf" surəsinin 25-ci ayəsində adın "Əshabi-Kəhf"- "mağara sakinləri" şəklində yazılışı olmuşdur. Bu mənbəyə istinadən "kəf" tərkibinin ərəb-fars dilində mağara kimi qəbul olunmasına baxmayaraq (Qurani-Kərim. Bakı: Nurlan, 2006, 25 –ci ayə, s. 296), ərəb dili lüğətində "kəf" sözü əlin içi və köpük mənalarında verilmiş, ona bənzərliyi nəzərə alsaq belə "kap" şəklində söz bu dildə qeydə alınmamışdır (38, s. 273, 386). Mənbə və xalq deyimlərində, Naxçıvan Ensiklopediyasının I cildindən də, söz həm "Asabkəf", həm də "Əshabi-Kəhf" yazılışı ilə qeydə alınmışdır (109, s. 35, 196). Qeyd etdiyimiz kimi asların tarix səhnəsinə çıxdıqları dövr və mağaranın mövcud olduğu tarix islamdan ən azı 4500 il qabaq olmuşdur. Müqəddəs kitabımız "Qurani-Kərim"in isə ilk

ayələrinin miladın ən tezi 622- ci ilində gəlməsini nəzərə alsaq, burada 5 min illik bir tarix fərqi görürük. Ərəblərin Azərbaycanda islamı yayma tarixini VIII əsrin əvvəllərinə belə aid etsək, adın ərəb dili ilə heç bir bağlılığı olmadığı göz önündədir.

A.A.Bakıxanov "Gülüstani-İrəm" kitabında Qafqaz sözünün izahını verərkən kas tərkibini tayfa, "kaf" tərkibini isə dağ mənasında qəbul etmiş, bu fikirlər, eynilə Ə.Dəmirçizadə də təkrarlanmışdır (277, s. 19).

C.Cəfərov öz araşdırmalarında kaf/kap tərkibinin V.V.Latışev, R.K.Uslar, İ.Miziyev və b. əsərlərində "Kavkaz" sözünü formalaşdıran amil kimi işlənmə mənalarına diqqət yetirmiş, e.ə. VI əsrdə K.Miletski tərəfindən "Kap akas"ın "Kavkaz" şəklinə salındığını yazmış, nəhayət sözün türk dilində kap-yurd, vətən, beşik mənaları üzərində dayanmışdır (160, s. 46). Müəllifin bu etimoloji izahına diqqət etsək Qafqaz sözü "Kap ak+as"- "Uca As yurdu" mənasında açıqlanır. Onu da qeyd edək ki, bu istiqamətdə ilk elmi uğur S.Əlizadəyə məxsus olmuşdur. O, "kap" tərkibinin yurd, vətən, beşik mənaları üzərində ilk dəfə geniş tədqiqat aparmış, sözün İran-fars, slavyan, german və s. dillərə türk dilindən adlamasını elmi dəlillərlə sübuta yetirmişdir (161, s. 216-218).

Beləliklə Asafkəf sözündəki hər üç komponenti formalaşdıran tərkiblər ilkin tərkiblər kim tamamilə qədim türklərə aiddir və ən azı e.ə. V minilliklərdən söz As yurdunun evi mənasını daşımışdır. Qeyd etdiyimiz kimi As prototürkləri Bütöv-Şimal və Cənub Azərbaycanımızda, burada rusların əli ilə ermənilərin köçürüldüyü İrəvan xanlığı və zorla Gürcüstana verilmiş torpaqlarımız, Rusiya tərəfindən işğal olunan qədim Mahaçkala, Dəmirqapı Dərbənd ərazilərimiz, eləcə də Bəsrə, Kərkük, Mosul yurd yerlərimizdə öz adlarını etnooykonim kimi minlərlə coğrafi adda əbədiləşdirmişlər. Onların sıx-kompakt şəkildə həm də Naxçıvan ərazisində məskun olmaları qədim arxiv sənədləri və mənbə məlumatlarında yetərincə qalmaqdadır. Biz 1590-cı ildə qədim Naxçıvan ərazisinə daxil olan İrəvan xanlığı, eləcə də qədim Maku, Sürməli, İqdır, Aralıq kimi nahiyələrin ərazilərində 54 As türklərinin yaratdığı belə adlarla rastlaşırıq. Naxçıvan ərazisində təkcə aslarla bağlı 48 məntəqə adı etimoloji izaha cəlb olunmuşdur. Bütün bunları nəzərə alaraq ərazidəki antik qaynaqlar, tarixi əsər və sənədlər; eləcə də arxiv materiallarında qeydə alınan yalnız As türkləri ilə bağlı hazırda mövcud olan və hazırda əhali yaşamayan bütün bu etnooykonimlərin etimologi-

yasına diqqət yetirməyi lazım bilirik. Bunun istər qədim dilimiz, istərsə də tariximiz üçün xüsusi elmi əhəmiyyətə malik olduğunu düşünürük.

**İmadi-Açur.** Qədim Naxçıvan qəzasının Qırxbulaq nahiyəsində 1724-cü ilin siyahısında Keçili və Kənzək məntəqələri yaxınlığında göstərilən bu ad (77, s. 36), bütövlükdə əhalisi azərbaycanlılardan ibarət olmaqla qeydə alınır. Adın ikinci Açur-As+ur tərkibi bütövlükdə türk asların adından və ona qoşulan ur/uru- "qur, qurmaq", "bina etmək" felindən yaranmışdır. İkinci komponentin izahına və məna çalarına biz xeyli sayda lüğətlərdə təsadüf edirik (ətraflı bax, 37, s. 614; 64, s. 599; 208, s. 92). Sözün birinci hissəsi "imadi" tərkibinin mənasında isə biz bunun əksini, yəni birləşmənin uyğunsuzluğunu görürük. Belə ki, burada həm ərəb dilində "imad" –"dayaq, dirək, sütun", "xaç suyuna salınma" mənasında söz tərkibini, həm də -i izafət işarətini, ərəb dilinə xas olan təyini söz birləşmə üslubunu müşahidə edirik (38, s. 235, 240). Belə olduğu halda coğrafi adın nominasiyası ərb+türk formasında qeyri-real adlanmadır. Düzdür Azərbaycan toponimik sistemində biz mürəkkəb oykonimlərin yaranmasında Türkəkəran, Asxana kimi eyni nominasiya variantları ilə rastlaşırıq (168, s. 144-145), lakin bu adlanmanın milli aspektdən kənar və əsasən də etnos adını daşıyan adların kiçik xalqlar adına sırınması siyasətindən irəli gəldiyini düşünürük. Bu istiqamətdə Sovetabat, Kiran, Leninabad adlarında olduğu kimi təhriflər olmuşdur ki, burada Gənzək, Gel kimi əski türk boyu adlarının tarixdən uzaqlaşdırılması məqsədi güdülmüşdür. Lakin bizə belə gəlir ki, oykonimdəki "ölkə", "yurd" tərkibli birinci "bat" komponentin önünə və sonuna –i saiti artırılmış, "Asların qurduğu ölkə" mənasında olan etnooykonim yuxarıda qeyd olunan mənalarda təhrif olunmuşdur.

**Azad, Azadkənd.** Naxçıvan qəzasının Azadcirən nahiyəsində məntəqə adı kimi 1590-cı ilə aid məlumatlarda qeydə alınan bu ad (77, s. 179), müəyyən dövrlərdə "Aza", "Azad", "Azadkənd" kimi adlarla əvəzlənmiş, bu yazılışlarda 1724-cü ilə aid məlumatlarda yenə həmin nahiyədə (110, s. 31), daha sonra isə 1747-1833-cü illərin məlumatlarında iki kənd olaraq Yuxarı və Aşağı Aza adlarında Ordubad əyalətində rast gəlinir (25, s. 143). Etnooykonimlərin hər ikisi hazırda məntəqə adı kimi fəaliyyət göstərir. Epiqrafik abidələri araşdıran F.Y. Səfərli Aşağı Aza (Azadkənd) kəndində XV əsrlərə aid kitabələr aşkar etmişdir ki, bu da məntəqənin əskilərdən mədəniyyət ocağı olduğuna bir sübutdur (264, s. 101).

Naxçıvan oykonimlərinin tədqiqi istiqamətində xüsusi xidməti olmuş A.N.Bağırov tədqiqatlarında Aza, Azad oykonimlərinin mənşəyinə dair xeyli araşdırmalara diqqət etməklə oykonimləri "çay kənarı məkan" mənalarında izah etmişdir (154, s. 36-39). Lakin qeyd etdiyimiz kimi addakı omonimlik xarakterinə malik olan "at" komponenti qədim türk dillərində həm coğrafi nomen-ad göstəricisi "yurd, məkan" mənasında, eləcə də "ad", "şöhrət", "işıq saçmaq" mənalarında işlənmişdir (64, s. 197-200; 37, s. 64-65). Bəzən tərkibə həm də "cəmlik" bildirən şəkilçi kimi rast gəlirik (168, s. 247). Əgər qədim türk dili lüğətlərində "at" komponentinin daşıdığı mənanı nəzərə alsaq, oykonim "yurd" mənasını daşıyır. Bu baxımdan yerdəki Az/As tərkibinin canlı isim etnos olması danılmazdır və ad "As yurdu" şəklində açıqlanır. Sözün "Aza" formasını nəzərə alsaq burada As tayfa adına qoşulan -a hərfi həm kiçiltmə şəkilçisi, həm də "ali, uca" morfemi kimi işlənə bilir (168, s. 249; 256, s. 10). Bu halda adı "Uca As" kimi izah etmək mümkündür. Fikrimizcə hər iki adda məntəqə mövcud olmuşdur.

**Unus** (2 kənd). Hazırda fəaliyyətdə olan bu etnooykonimin adına ilk dəfə Azadcirən nahiyəsində 1533, 1590-cı illərə aid məlumatlarda təhrif olunmuş "Urnus", "Onus" şəklində rast gəlinir (111, s. 18, 24; 77, s. 179). Bundan sonra 1724-cü ildə ada Azadcirən nahiyəsində "Unus" (77, s. 147), 1728-ci ilə aid məlumatlarda isə yenə də "Unus" kimi həmin nahiyədə qeydə alınır (110, s. 31). İkinci eyni tərkibli ada yalnız -p hərfinin artırılması ilə "Punus" yazılışında Naxçıvan qəzasının Vedi nahiyəsində 1590-cı ilə dair sənədlərdə Gülkənd və Çardaklı kəndləri arasında rast gəlirik (77, s. 172). Fikrimizcə, birinci ad türk dilləri üçün xarakterik olan o≈u, a≈u səs əvəzlənməsi hadisəsi ilə qaynaqlara düşmüşdür. Biz As, Oğuz tayfalarının bir, dörd, on rəqəmləri ilə "bir As", "dörd As", "üç Ok", "doqquz Oğuz" kimi tayfa qollarında olmaları ilə də rastlaşırıq. Bu hallara Plutarxın yazılarında və tədqiqatlarda da rast gəlirik (27, I c., s. 255; 160, s. 124, 141). Belə olan halda ad "Onas" kimi bərpa oluna bilər. Fikrimizcə, adın "Unus" şəkli sadəcə dialekt deyimi olmuşdur. Türk boy adlarının rəqəmlərlə nominasiya-adlanmaların şərhinə biz M.Seyidovun da araşdırmalarında rast gəlirik. O, Oğuz türk qollarının adlanma sistemində "Üç ok", "Beş Ok", "Tokuz Oquz", "On oqur" (oğuz) kimi ifadələri mənbə və tədqiqatlara istinadən geniş təhlil etmişdir (260, s. 136-137). As tayfa adının bir, dörd, on rəqəmləri ilə

"bir As", " dörd As" kimi ifadəsini, və oğuzlarda da bunun təkrarının türk tayfaları üçün xarakterik olduğunu nəzərə alaraq adın "On As" şəklində nominasiya olunması-adlanması qənaətindəyik. İkinci Punus adındakı -p hərfinin artırılması nəticəsində "pun" formasını alan tərkib qədim türk dillərində b≈p səs əvəzlənməsi ilə bun yazılışında "kök, nəsil" ifadə edir (37, s. 125). As tayfa adına qoşulan bu tərkib oykonimi "As nəsli" mənasında izah edir.

**Nüsnüs**. Məntəqə adını araşdırmış tədqiqatçıların fars dili ilə "nist"-"yoxdur", "nəsa"- "gübey", "naos"-"məbəd" izahlarının yanlış olduğuna doğru olaraq elmi təkzib verən A.Bağırov adın hələ tam tədqiq edilmədiyini yazır (154, s. 175).

Biz bu adda "nüs" komponentindən sonra türk dilləri üçün xarakterik -u saitinin səsdüşümü hadisəsini izləyirik. Fikrimizcə, ad Nüs+un/on+us/as kimi bərpa olunmalıdır və onun ilk nominasiyası məhz bu cür olmuşdur. Bərpa yazılışında ad Unus etnooykonimi ilə eyni kökdən gəlməklə yalnız qədim türk dili morfemi "nus"-"əbədi" leksik vahidi ilə (37, s. 361) nominasiya olunmuşdur. Türk dilləri üçün xarakterik o≈u, a≈ü fonetik səsəvəzlənməsi ilə müşahidə olunan bu ada ilk dəfə Naxçıvan qəzasının Şorlut nahiyəsində 1590-cı ilə aid məlumatlarda (77, s.179), daha sonra 1724-cü ildə yenə də Şorlut nahiyəsində rast gəlirik (yenə orada, s. 148). Adın bərpası haqqındakı fikrimizin doğruluğu daha bir mənbə məlumatı ilə təsdiq olunur. Biz 1728-ci ilə aid məlumatlarda məntəqə adına "Unus" yazılışında yenə də göstərilən Şorlut nahiyəsində təsadüf edirik (110, s. 31). Hazırda da aktiv oykonomik sistemə daxil olan ad "On As" şəklində asların on tayfa ittifaqından xəbər verir.

**Palas.** Maraqlı quruluşa malik olan bu ad 1590-cı ilə aid məlumatlarda Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində bir adı "Həsənəvar" şəklində Qızılviran və Güllücə kəndləri arasında göstərilmişdir (77, s. 160). Biz Azərbaycan onomastik sistemində "pal" tərkibinin uyğur, altay, tatar dialektlərində "bal/mal"-"oğul" mənalarında rast gəlirik (64, I c., s. 48, 349). İlkin oxunuş variantında adın Pal tayfa adı ilə yarandığını (pallar haqqında biz aşağıda məlumat verəcəyik) ehtimal etmək mümkündür. Bununla bərabər etnooykonim həm də As tayfa adı ilə birlikdə "As palları" mənasında da oxuna bilər. Lakin, qeyd etdiyimiz kimi As boyları e.ə. V minilliyin sonları tarix səhnəsinə çıxmış, qədim Pal prototürkləri isə, mənbələrdə e.ə. III minilliyin əv-

vəllərində qeydə alınır. Aradakı 2 minillik zamanı nəzərə almaqla biz pal komponentinin "oğul" mənasına üstünlük verməklə etnooykonimin "As övladları, oğulları" mənasında olduğunu doğru hesab edirik.

**Astabad.** Bu şəhər Naxçıvan şəhərindən 12 km. cənub-şərqdə Araz çayı sahilində orta əsrə aid şəhər kimi göstərilir (108, s. 28). Adı formalaşdıran "bat" söz kökü 1590-cı ilə aid məlumatlarda Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasında "Arbad" kənd adında da qeydə alınır (77, s. 159). Bu gün də türk xalqlarının coğrafi adlar sistemində Ordubad, Aşqabad, Qızıl Arbat və s. adlarda "bad/bat" leksemi "ölkə yurd" mənalarında işlənməkdədir. Əgər nəzərə alarıqsa dilimizdə işlək formada olan "doğu-batı" söz kökündəki "batı" sözü də məhz bu mənanı daşıyır (-F.R.). Şəhər adını – polisonimi formalaşdıran "ta/ti" komponenti istər qədimlərdə, istərsə də dövrümüzdə türk dillərində "tikmək" (208, s. 80) mənasındadır. Polisonim-şəhər adı "aslar quran, tikən ölkə, yurd" mənasında izah olunur.

**Aseçe, Aseçeabad.** Məntəqə adları 1724-cü ilə aid məlumatlarda Naxçıvanın Karbi nahiyəsində Abi-Siyah kəndi yaxınlığında "Aseçe" yazılışında, Xanabad kəndi yaxınlığında isə "Aseçeabad" kimi göstərilmişdir (77, s. 36, 39). As tayfa adı ilə formalaşan sözün birinci "eçe" tərkibinin bolqar, çuvaş, Osmanlı türkcəsi, Azərbaycan və b. türk xalqlarının dialektlərində "kəçic-şəcic, gavalı-cavalı, keçe-çeçe, il-sul, cal" kimi q≈ç, ç≈s fonetik əvəzlənmələri ilə işlənməsini (266, s. 82, 96; 506, I c., s. 97-99) nəzərə alsaq qədim türk dillərində bu tərkib "böyük, ulu qohum" (64, t. I, s. 223) mənalarında işlənmişdir. Bununla bərabər eçe/ese tərkibində -n samitinin düşdüyünü-eliziyaya uğradığını da düşünmək olar. O zaman söz "esen" şəklində qədim türklərdə "sağlam", "güclü", "mətin" mənalarında da oxuna bilər (37, s. 183). Əgər M.Kaşğarinin məlumatlarına diqqət etsək burada "esende evak joq" ifadəsi (bax, 42, I c. s. 77) tərcümədə "o adam sağlamdır ki, tələsmir" şəklində sözü "sağlam" mənasında ifadə edilmişdir. Əski türk yazılı abidəsi Orxon-Yenisey yazılarında da biz "esinliqde kuç kara bodun", "esinsizde küç kara sub" ifadələrində də bu tərkibin "sağlam" mənasında işləndiyini görürük (74, s. 74). Bununla bərabər sözə Esen kaya, Esen tegin Alban çarı Esen Cəlal kimi antroponimlərdə də eyni mənada təsadüf edirik (243, s. 213). Beləliklə məntəqə adlarını "eçe" tərkibinin daşıdığı məna ilə "Ulu As" və "Sağlam as" mənalarında oxumaq mümkündür. Biz

adın bu variantda etnooykonim kimi formalaşdığını və "abad"- "abadlıq" mənalı komponentin tayfa adını daşıyan etnooykonimə sonralardan əlavə edildiyini düşünürük.

**Asti.** Bu etnooykonimin adı ilk dəfə 1590-cı ilə aid məlumatlarda qədim Naxçıvan qəzasının Vedi nahiyəsində kiçik Vedi kəndi yaxınlığında qeydə alınır (77, s. 172). Biz yuxarıda "ti" tərkibinin "tikən, quran" mənalarında olduğunu söylədik (208, s. 80). Etnooykonim "As quran", "As tikən" mənasını daşıyır.

**Əstük.** Qədim Naxçıvan qəzasının Zebil nahiyəsi daxilində göstərilən bu etnooykonim, 1590-cı ilə aid məlumatlarda Göyçə kəndi yaxınlığında rast gəldiyimiz As tayfa adını yaşadan məntəqə adıdır (77, s. 181). Tayfa adına qoşulan "tük" tərkibi qədim türk dillərində "çoxluq" və "min" sayını ifadə edirdi (37, s. 595). O zaman enooykonim "Min As", "Çoxlu As" mənalarını ifadə etmiş olur. Adda -r səsinin eliziyasını-səsdüşümünü, eləcə də a≈ə fonetik əvəzlənməsini müşahidə etmək mümkündür. Bu halda məntəqə adını "As türk" kimi də oxumaq olar. Lakin biz As türklərində yuxarıda da qeyd etdiyimiz kimi rəqəmlərin işləndiyini bilirik. Fikrimizcə, As tayfa adı qədim türk sözü "tük" tərkibi ilə nominasiya olunmaqla "Toplu As" şəklində etnooykonim kimi formalaşmışdır.

**Asqəmər.** Qədim As türklərinin adından formalaşan məntəqə adında türk mifik təfəkkürünün daşıyıcısı şamançılıq mifi ilə bağlı elementlərin olduğunu düşünürük. Ada ilk dəfə 1590-cı ilə aid məlumatlarda qədim Naxçıvan qəzasının Sisyan nahiyəsində bir adı da "Əşkəmər" yazılışında təsadüf edirik. Etnooykonim sənəddə Əlili kəndi yaxınlığında göstərilsə də (77, s. 182), 1728-ci ilə aid məlumatlarda yenə Naxçıvan qəzasının Sisyan nahiyəsində bu dəfə "Əskəmor" yazılışında ə≈o səs əvəzlənməsi ilə qeydə alınır (yenə orada s. 150).

Qam- şamançılıq mifi türklərin tarixində e.ə. IV minilliklərə təsadüf edilir. Biz "qam" tərkibini İnquş-Çeçen mifində "Qam, Qamçılıq" yazılışında dağlarda yaşayan mənfi, nağıllarda isə müsbət ruh kimi görürük. Turdi türkləri tərəfindən Romaya aparılan bu mif e.ə. III əsrdə Roma mifinə "Kamen" kimi daxil olur və o burada bir nəğməkardır (105, I c., s. 262, 619). Bundan sonra bu mifə monqol, buryat, oyrat-kalmık, yakut türklərində "manqat", "manqatay", "şaman" kimi, e.ə. VII-VI əsrlərdə Azərbaycan türklərində "Mazda-Maqda" kimi "Avesta"

yazılı abidəsində rast gəlirik. Onu da qeyd edək ki, Moskvada nəşr olunan "Dünya xalqlarının mifi" kitabında bu mifi türklərdən uzaqlaşdırma siyasəti güdülmüş, o yalnız Yakut və Amerikada yaşayan hindulara aid edilmişdir (106, II c., s. 88, 638). Türklərin bu mifoloji inamını geniş araşdıran türk araşdırıcısı B.Ögəl mifin "maq", "şaman" variantlarını təhlil etmiş, türk şamanlarda qurd, it, qartal ruhlarının olduğuna dair dastan və nağıllardan nümunələr göstərmişdir (500, I c., s. 48, 384, 466). Biz Kamlancu-"Qam, şaman ayrıcı" dağ, Qaumata, şəxs adlarında da bu tərkiblə qarşılaşırıq (504, II c., s. 384). Kəm/qam/maq/manq-şaman leksik vahidi Azərbaycan mifik təfəkküründə geniş yer almaqla e.ə. IX əsrdə Midiyada Maq, Maqtar, Armanqu, Maqta tayfa və şəxs adları (208, s. 92; 284, s. 93), eləcə də "Dədə Qorqud" dastanında Qamxan belə adlardan olmaqla şamançılıqla bağlı adlardır. Biz yuxarıda da qeyd etdik ki, Yunan çarlarının yanında hələ e.ə. III-II minilliklərdə Asmax tayfaları, yəni maq aslar dayanırdı (23, II 30). Azərbaycan toponimik sistemində Maqov-Uz, Qamlıca, Qamanı kimi xeyli sayda adlar da qam-şamanlıqla bağlı məntəqə adlarıdır (325,s. 50, 66). Azərbaycan oykonimlər sistemində ər -"kişi" sözü ilə yaranmış kəng+ər, xəz+ər, düg+ər kimi tayfa adlarını xatırlasaq məntəqə adının "As şaman əri" mənasında olduğuna heç bir şübhə yeri qalmır.

**Əbrəqunus.** Maraqlı etimoloji mənaya malik olan bu ada "Əbrəqanus" yazılışında 1590-cı illərin məlumat və arxiv sənədlərində Əlincə nahiyəsinin Kirnə və Bənəniyar kəndləri arasında rast gəlirik (77, s. 181). Daha sonra bu etnooykonimə eyni ərazi və eyni mahalda 1727-ci ilə aid Naxçıvan sancağında "Əbrəğunis" yazılışında təsadüf edirik (110, s. 26).Hazırda da fəaliyyət göstərən bu məntəqə Culfa rayonunun inzibati ərazi dairəsinə məxsusdur.

Məntəqə adının etimoloji mənası da istər tariximiz istərsə də dilimiz üçün yeni elmi bilgilər verir. Addakı "abra" söz kökü qədim türk dillərində "qüvvətli" mənasında işlənirdi. "Türk dillərinin etimoloji sözlüyü"ndə bu söz "qoruyan", "xilas edən" kimi verilmişdir (64, s. 59-60). Oykonimdəki "qın" lekseminə gəldikdə isə bu söz qədim türklərdə, eləcə də, altay, qazax, qırğız və s. türk dillərində "qala" mənasında işlənmişdir (48, s. 277). Bu söz kökü qədim Midiyada Kindutauş, Qinzin, Kuakinda, Kinqariku kimi xeyli sayda şəhər və qala adlarında da işlənmişdir. Q.Qeybullayev bu adlardakı "qın" leksemini "qala" mənasında

izah etsə də (208, s. 88-90) sonrakı tədqiqatlarında "abra" söz kökünü B.Budaqovla birlikdə "ahura" + "kanis" kimi "kilsə+dərə" mənalarında yarı fars, yarı ərəb sözləri ilə (?) izah etmişlər (240, s. 85-94). Eyni etimoloji izaha E.A.Qrantovskinin araşdırmalarında da təsadüf edirik ki, o, adətən bütün əski sözləri fars dili ilə izah etməyə çalışmışdır (331, s. 232-234). Əgər diqqət etsək "abra+qın" qədim türk sözləri "qoruyan, xilas edən qala" mənasında açıqlanır. Oykonimi formalaşdıran sön us/as komponenti qədim türk dillərində "ağıllı, zəkalı" mənalarını ifadə edir (355, s. 13). Əgər bu məna nəzərə alınarsa o zaman məntəqə adı "Zəkalı qoruyan qala" mənasında mücərrəd anlama gəlir. Biz son morfemin As tayfa adından təhrif olunduğunu düşünürük. Əgər burada türk dillərinə mənsub u≈a səsəvəzlənməsi hadisəsini nəzərə alsaq (266, s. 43-44), o zaman bu As tayfa adını bildirir. Bunlara istinadən oykonimin "Qüvvətli As qalası" mənası daşıdığına əminik.

**Kivas.** Bu etnooykonim yenə də qədim Naxçıvan qəzasının Sisyan nahiyəsində 1590-cı ilə aid sənədlərdə Bələk və Məzrə kəndləri arasında göstərilir (77, s. 183). Lakin bu ad 1728-ci ildə Naxçıvan qəzasının adı keçən nahiyəsində göstərilsə də o, bu dəfə Şəki və Əyləgürd kəndləri arasında siyahıya daxil edilmişdir (110, s. 33). Türk dillərindəki geniş şəkildə təsadüf olunan a≈i, v≈b səs əvəzlənmələrini nəzərə almaqla oykonimi "kiv/kab"- "ölkə", "yurd" tərkibi və As tayfa adı ilə birlikdə "As yurdu" mənasında izah edirik.

**Əznəberd.** Maraqlı semantik quruluşa malik olan bu etnooykonim ilk olaraq a≈ə, s≈z səsəvəzlənməsi ilə "Əznəmiri" yazılışında 1590-cı ilə aid məlumatlarda Ordubad qəzasının Dərənürgüt nahiyəsinə aid siyahısında Bist kəndi yaxınlığında qeydə alınır (77, s. 178). 1728-ci ildə məntəqə adına yenə də həmin nahiyədə eyni, "Əznəmiri" yazılışında rast gəlirik (110, s. 32). Əgər addakı As tayfa adına qoşulan "nə/na" morfemini omonim kimi "verdi, bağışladı" və "mənim" mənalarını (208, s. 80), ikinci "miri" komponentində isə m≈b, ö≈i səsəvəzlənmələrini nəzərə alsaq, qədim türklərin "böri" -"qurd" mifinin iştirakını görürük (260, s. 164). Bu halda ad "Mən qurd As" (mən qurd Asam) mənasında açıqlanır. Daha sonra ada həmin nahiyədə 1730-cu ilin məlumatında Aznaberd yazılışında təsadüf edirik (77, s. 47). Bu yazılışdakı qədim türk sözü "berd"-"qala" fikrimizcə, tayfa adına sonralardan birləşmişdir. Ada As+na+berd şəklində, bu leksik vahidlərin daşıdığı məna baxımından

yanaşsaq, o zaman məntəqə adı "Asların bağışladığı qala" mənasında izah olunur. Bundan başqa məntəqə adına 1833- cü il Ordubad əyalətinin Ordubad mahalı daxilində "Aznabat" yazılışında təsadüf edirik (25, s. 1). Burada məntəqə adının As-tayfa adı, "na"-"verdi bağışladı" və "mənim", "bat"- "yurd", "məkan" mənalarına üstünlük versək coğrafi ad-etnooykonim "Mənim As yurdum" mənasında açıqlanacaq. Beləliklə, bu üç yazılışda verilən adın hər birinin etimoloji izahına diqqət etsək, məntəqə adı bütün hallarda türk dili elementləri ilə formalaşmışdır. Biz bu yazılışlarda birinci Əznəmiri yazılışına, qurd mifinin qədimliyinə üstünlük verərək adın "Mən qurd As", yəni "Mən qurd asam" mənasını doğru hesab edirik.

**Asnabert.** "Əznəberd" məntəqə adı ilə eyni məna çalarına malik olan bu ada ilk dəfə Naxçıvan qəzasının Naxçıvan nahiyəsində 1590-cı ilə aid məlumatlarda "Əznəbürd" şəklində rast gəlirik (77, s. 165). Daha sonra 1727-ci ildə siyahı yenidən tərtib olunarkən məntəqə Naxçıvan qəzasının Qarabağ (hazırkı Qarabağlar) nahiyəsində "İznəberd" kimi hərflərin təhrifi və səsdəyişimi ilə siyahıya daxil edilmişdir (110, s. 29). Ad "As bağışlayan qala" mənasını daşıyır.

**Ervilas.** Etnooykonim ilk dəfə 1724-cü ilə aid məlumatlarda İrəvan əyalətinin Dərələyəz nahiyəsində Ervilas (77, s. 58), 4 il sonra isə, 1728-ci ilə aid məlumatlarda qədim Naxçıvan qəzasının Dərələyəz nahiyəsində əhalisi azərbaycanlılardan ibarət olmaqla Ərdalas şəklində böyük bir məntəqə kimi Əyrili və Çavuşcuq kəndləri arasında qeydə alınır (110, s. 31). Qədim türk dili lüğətlərində "bil/vil" tərkibinə "görən", "bilən", "düşüncəli" "tanınan" mənalarında rast gəlirik. Bu mənalarda söz qumuq, uyğur, türkmən, tatar, qazaq, başqırd və s. türklərin arxaizmlərində də qalmaqdadır (65, t. II, s. 137; 37, s. 98). Bu mənaları nəzərə alsaq etnooykonim "Tanınmış As əri" mənasında açıqlanır. Adın ikinci Ərdalas yazılışı da türk dili elementi "dal"- "budaq, qol" mənasında M.Kaşğarinin, V.V.Radlovun lüğətlərində izah edilmişdir (41, s. 563; 42, I c., s. 412). Bu halda məntəqə adı "As ərinin varisi" mənasını daşıyır. Biz birinci "Tanınmış As əri" etimoloji izahı doğru hesab edirik.

**Azadcirən.** Etnooykonim nahiyə adı kimi 1590-cı ilə aid məlumatlarında Naxçıvan qəzasında qeydə alınır. (77, s. 179). Daha sonra məntəqə adına 1724-cü ildə Naxçıvan qəzasına daxil olan Azadcirən

nahiyəsində eyni adda, ərazisi böyük olan kənd adı kimi, 1728-ci ildə isə ada göstərilən nahiyədə eyni adda yenə də məntəqə adı kimi təsadüf edirik (110, s. 31; 77,. s. 147). Mürəkkəb quruluşa malik olan bu etnooykonimin As tayfa adından başqa 3 əski türk sözü, "at+sır+an" komponentlərindən yarandığını düşünürük. Addakı omonimlik xarakterinə malik olan "at" komponentinin qədim türk dillərində həm coğrafi nomen-ad göstəricisi "yurd, məkan", həm də "ad", "şöhrət", "işıq saçmaq" mənalarında işləndiyini görürük (64, I c., s. 197-200; 37, s. 64-65). Yuxarıda tərkibin bəzi araşdırmalarda "cəmlik" bildirən şəkilçi kimi də işləndiyini qeyd etdik (168, s. 247). Sözdəki "cir/sir" tərkibinə qədim türk dillərində "sır/yır, yırak, yaru" yazılışlarında "işıq", "şüa" mənalarında rast gəlirik (54, III c. I h., s. 103; 55, III c., II h., s. 1864; 56, IV c. I h., s. 1051; 390, s. 6, 64). Sözün üçüncü -an tərkibi türk dillərində "mənsubluq" ifadə edən şəkilçidir. Bu tərkiblərlə etnooykonim "Aslara məxsus işıqlı yurd" mənasını daşıyır.

**Asayaş.** Etnooykonimin adına ilk dəfə Ağcaqala nahiyəsində 1590-cı ilə aid məlumatlarda "Əsayiş", "Əsayişli" kimi təhrif olunmuş şəkillərdə rast gəlirik (77, s.170). Biz sözün ikinci "ay" tərkibi haqqında yuxarıda danışdıq və onun türklərin mifik dünyagörüşləri ilə bağlı olduğunu bildirdik. Qədim hunlarda Ay tanrısı Günəşlə bərabər Meteni hakim təyin edir (500, s. 99). Biz qədim türk tayfa adlarından Mat+ay, Ay+qur (uyqur), Sak+ay (saqay), Tal+ay, İskut+ay (işquz+ay) kimi adlarda da bu mifik tərkiblə qarşılaşırıq (324, s. 54, 247, 472; 261, s. 154; 347, s. 242). Əgər xatırlasaq Doray tayfa adında da bu tərkib görünməkdədir. Hazırkı etnooykonimdəki "ay" komponenti Ay tanrısının adı ilə, daha doğrusu qədim türk mifik təfəkkürü ilə bağlıdır. Adı formalaşdıran üçüncü as- "güclü", "qüvvətli", "nəvazişli", "müdrik", "zəkalı" tərkibləri haqqında da yuxarıda qeyd etdik (64, I c., s. 91; 212, s. 79). Komponentlərin daşıdığı mənalar nəzərə alınmaqla etnooykonimi "Qüvvətli AyAsı" kimi izah etmək mümkündür.

**Ashablı.** Məntəqə adı 1590-cı ildə Naxçıvana daxil olan Karni nahiyəsində "Qəssablı" şəklində təhrif olunmaqla göstərilmişdir (77, s. 171). Daha sonra ada 1724-1836-cı və ondan sonrakı illərə aid məlumatlarda rast gəlinmir. Fikrimizcə, məntəqə müharibələr, basqınlar və s. proseslər nəticəsində ya dağıdılmış, ya da ki, boşaldılmışdır. Tayfa adına qoşulan "xab/kab"- "ölkə, yurd" tərkibi ilə məntəqə adı "As

yurdu" mənasında izah olunur. Adın tərkibindəki -lı "mənsubluq" bildirən şəkilçinin məntəqə adına sonralardan əlavə olunduğunu düşünürük.

**Astadingil.** Bu etnooykonimin adına ilk dəfə Abaran nahiyəsində 1590-cı ilə aid məlumatlarda Qarabulaq kəndi yaxınlığında rast gəlirik (77, s. 173). Sonrakı mənbələrdə bu əraziyə yaxın heç bir mahalın ərazisində ada rast gəlmirik. As tayfa adından sonra gələn mürəkkəb komponentlər birləşməsində "ta/tau" sözü "dağ", "tinq" sözü isə "düz dayanan", "məğrur" mənasını daşıyırdı (37, s. 561). Adın tərkibində "tinq" komponentini oğuz dillərinə məxsus -nq qovuşuq samiti ilə (tanrı-te-nq-ri kimi) işləndiyini düşünürük (168, s. 261). Buradakı "il"-"yurd, ilçə" mənalı söz kökləri bu gün də Osmanlı türklərində eyni mənanı daşımaqdadır. Etnooykonim "Məğrur as türklərinin yurdu" mənasındadır.

**Azadək.** Maraqlı etimoloji mənaya məxsus olan bu etnooykonim ilk dəfə İrəvan əyalətinin Dərələyəz nahiyəsində 1724-cü ilə aid məlumatlarda Boşadır və Əxili kəndləri arasında böyük bir kənd kimi qeydə alınır (77, s. 59). Daha sonra etnooykonim qədim Naxçıvan qəzasının Dərələyəz nahiyəsində 1728-ci ilə aid məlumatlarda Aza məntəqə adı kimi Əxili və Puşadiz (yəqin ki, Başaduz- "baş uzların məkanı" məntəqə adının təhrifidir) kəndləri arasında qeydə alınır (110, s. 36). As tayfa adına qoşulan at- "məkan" və ya "cəmlik" ifadə edən şəkilçi əsasən Hun, Göytürk, Abakan, Xakas türklərində aktiv şəkilçi kimi işlənmişdir (337, s. 87; 302, s. 13-18; 236, I c., s. 17). Ada sonda qoşulan ak-"uca" yazıyaqədərki söz kökündən formalaşan bu etnooykonim "Uca As Yurdu" mənasını daşımışdır.

**Astün.** Bu etnooykonim qədim Naxçıvan qəzasının Dərələyəz nahiyəsində ilk dəfə 1728-ci ilə aid arxiv sənədlərinin məlumatlarında böyük bir məntəqə adı kimi Ələyəz kəndi yaxınlığında qeydə alınır (110, s. 285). As tayfa adına qoşulan qədim türk dili elementi "tün" sözü türk dillərində "coğrafi məkan" mənasında işlənmişdir (37, s. 597). Məntəqə adı As tayfa adına qoşulan "tün" tərkibi ilə bir yerdə "As məkanı" mənasında etnooykonim kimi formalaşmışdır.

**Oşakan, Asaxan.** Asakan sözünün təhrifi olan I məntəqə adına a≈o, s≈ş fonetik əvəzlənməsi ilə İrəvan qəzasının Karbi nahiyəsində 1590-cı ilə aid məlumatlarda (77, s. 162), II Asaxan məntəqə adına isə 1724-cü

ildə Naxçıvana daxil olan Xınzirək mahalının ərazisində əhalisi Dünbili soyundan olan məntəqə adı kimi rast gəlirik (77, s. 46). Eyni adda olan bu etnooykonimlər 1590 və 1724-cü illərdə bildiyimiz kimi hazırkı Şərur rayonu (Karbi nahiyəsi) və Babək rayonu ərazilərinə (Xınzirək mahalı) daxil olan yaşayış məntəqələri idilər (yenə orada, s. 37). Bu mahallar o dövr Naxçıvan ərazilərinin az qala üçdən bir payını əhatə edirdi. As tayfa adı, a və xan qədim türk dili elementləri ilə formalaşmaqla "Həqiqi As xanı" mənalarını ifadə edirdilər.

**Tinas.** Naxçıvan qəzasının Vedi nahiyəsi daxilində qeydə alınan bu etnooykonimin adına ilk dəfə 1590-cı ilə aid məlumatlarda təsadüf edirik (77, s. 172). Sonralardan 1780-1890-cı illərə aid məlumatlarda Vedi nahiyəsinə yaxın olan Karbi, Dərəçiçək, Abaran, və digər nahiyələrin heç birində bu ada təsadüf olunmur. "Astün" məntəqə adı ilə eyni kökdən gələn bu məntəqə adı da əski dil imkanları hesabına "As məkanı" mənasını ifadə edərək qədim türk sözlərindən etnooykonim kimi formalaşmışdır. Ola bilsin ki, məntəqə adı XVI əsrin siyasi hadisələrində dağıdılmış, ya da ki, əhalisi deportasiya olunmaqla siyahılardan silinmişdir.

**Akaras.** Məntəqə adı Naxçıvan qəzasının Vedi nahiyəsində 1590-cı ilə aid məlumatlarda Xəmud kəndi yaxınlığında təhrif olunmuş şəkildə, ə≈a səsəvəzlənməsi ilə "Axirəs" yazılışında göstərilir (77, s. 172). Sonrakı mənbələrdə ada təsadüf edilmir. "Uca As əri" mənasını daşıyan bu məntəqə adı, yuxarıda izahlarını verdiyimiz "ak"-"uca", "ər"-"igid" əski türk sözləri ilə etnooykonim kimi formalaşmışdır.

**Batevas.** Bütövlükdə yazıyaqədərki dövr türk dili leksik vahidlərindən formalaşmış bu məntəqə adına 1727-ci ildə Naxçıvana daxil olan Əlincə nahiyəsində Əlincə mahalının Yuxarı Anzor və Aşağı Anzor kəndləri arasında əhalisi yalnız türk azərbaycanlılardan ibarət olmaqla böyük yaşayış məntəqə adı kimi rast gəlirik. Qaynaqlar məntəqə əhalisinin Dünbili əşirətindən olduğunu qeyd edir (110, s. 26). Ad Bat+ev+as şəklində "bat"-"yurd", "məkan" (284, s. 94), bəzən də "igid" (Batı xan) bildirən qədim leksik komponenti ilə hazırda dilimizdə işlənən "ev" isimi və As tayfa adından formalaşmaqla "İgid As evi" mənasında etnooykonim kimi sabitləşmişdir. Adlarda "bat" komponenti Qədim Naxçıvan ərazisində coğrafi nomen göstəricisi (adlara qoşulan kənd, qaya, oba kimi coğrafi ad) kimi geniş şəkildə işlənmiş, Astabad, Turbat, Saqiabat,

Oqurbat, Okuzbatr, Maqabat, Ekbatan, Ordubad və s. adlarda "yurd", "məkan" mənalarını daşımışdır (243, s. 143; 179, s. 39).

**Azərku.** Etnooykonimin adına ilk dəfə İrəvan qəzasının Karbi nahiyəsində 1590-cı ilə aid məlumatlarda təsadüf edirik. Məntəqə Yaşıllar kəndi yaxınlığında yerləşirdi (77, s. 163). Daha sonra 1727-ci ildə bu nahiyədə biz yuxarıda etimoloji izahlarını verdiyimiz Aseçe və Aseçebat məntəqə adlarına rast gəlirik, lakin bu ad siyahıda qeydə alınmır. Ola bilsin ki, nahiyədə qeydə alınan "Azərku" adı bu adlardan hər hansı birinin sonralardan təhrifi ilə verilmiş addır. Çox maraqlı leksik-semantik xüsusiyyətə malik olan Az+ər+ku şəklindəki tərkiblər də qədim türk dili elementləri ilə formalaşmışdır. Adın tayfa adı və ona qoşulmuş "ər"-"igid", "bahadır", "kişi" sözü ilə birgə, "ku"-"şan-şöhrət" və omonimlik xarakterli "qoruyan" mənaları (37, s. 323) yazı-yaqədərki dövr türk dili leksik vahidləridir. Bu tərkiblər etnooykonimi "Şöhrətli As əri" mənasında izah edir.

**Ayaslı** (2 məntəqə). 1728-ci ildə Naxçıvan qəzasının Karni nahiyəsinə daxil olan bu adda etnooykonim Böyük Ayaslı, Kiçik Ayaslı kimi iki çox böyük kənd olaraq Qulça kəndi yaxınlığında göstərilir (77, s. 49).Yuxarıda etimoloji izahını verdiyimiz "Asayaş" etnooykonimi ilə eyni kökdən olan bu adlarda yalnız morfemlərin yerdəyişməsi (Ay+As, As+ay kimi) müşahidə edilir. Keçmişdə və bu gün istər oykonimlərdə, istərsə də antroponimlərdə biz bu tipli adlanma-nominasiyalara Ay+gün, Gün+ay, Aka+sir, Sir+ak, An+sır, Sir+an şəkillərində təsadüf edirik. Hər iki ada qoşulan -lı "mənsubluq" bildirən şəkilçi sonralar bu nomi-nasiyanı formalaşdırmışdır. Məntəqə adları "AyAsı" teofor adlar olmaqla mifoloji inam daşıyıcısı Ay Tanrısının adı ilə etnooykonim kimi sabitləşmişlər.

**Əlkovas.** Adı çəkilən məntəqə 1728-cü ildə İrəvan qəzasının Göyçə nahiyəsində Zar kəndi yaxınlığında kiçik kənd olaraq göstərilir (77, s. 55). Sonrakı mənbələrdə ada rast gəlmirik. Tarixi proseslərdə məntəqənin dağıdıldığını və ya boşaldıldığını düşünmək olar. Biz ada qoşulan "kov/kab"- "ölkə, yurd" və "al"- "uca" qədim türk sözü haqqında yuxarıda məlumat verdik. Etnooykonim "Uca As yurdu" mənasında əski türk dili leksik vahidləri ilə etnooykonimə çevrilmişdir.

**Azadkaha.** Bu adda etnooykonimə yenə də İrəvan qəzasının Göyçə nahiyəsində 1728-cü ilə aid məlumatlarda Dəliqardaş kəndi yaxınlığında

rast gəlirik (77, s. 55). Mürəkkəb adlanma formasını özündə cəmləşdirən bu məntəqə adı As tayfa adı ilə yanaşı at- "yer, məkan" mənalı qədim türk dilinə aid komponentlə "As məkanı" mənasında izah olunur. "Kaha" coğrafi ad-nomen göstəricisinin ada sonradan qoşulduğunu düşünürük.

**Asəfi.** Söz kökü baxımından son dərəcədə elmi və maraqlı etimologiyaya məxsus olan bu etnooykonim ilk dəfə İrəvan əyalətinin Dərələyəz nahiyəsində 1724-cü ilə aid məlumatlarda Boşadır və Dədəli kəndləri arasında kiçik bir kənd kimi qeydə alınır (77, s. 58). Bundan əvvəlki məlumatlara daxil edilməyən məntəqə adının As tayfa adına qoşulan "əfi" komponenti "a≈ə, i≈a, f≈v" fonetik dəyişmələri ilə "ava" yazılışında qədim bir oğuz boyunun adı kimi göstərilir (37, s. 69). Söz sonundakı -i saiti nəzərə alınmazsa əf/ef sözü M. Kaşğari sözlüyündə "ol efke bardi"- "o evə gəldi" ifadəsində "ev" mənasını daşıyır (44, III c., s. 212). Bu mənanı biz qədim türk sözlükləri və türk xalqlarının arxaizmlərində də "öy", "ef", "ev", "əv" yazılışlarında geniş izləyirik. Bu gün eyni tələffüz və yazılış Azərbaycan dialektlərində də mövcuddur (37, s. 165; 61, s. 180; 39, I c., s. 228-229). Sözdəki -i saiti ayrıca "içində, daxilində" mənası da daşımışdı (256, s. 41). Ad "As evi" mənasında oykonimə çevrilmişdir. Ola bilsin ki, -i saiti adın sonuna ərəb işğalından sonra izafət kimi (i, vi, yi) artırılmışdır.

**Əsrik.** Qədim As türk boylarının adını daşıyan bu etnooykonimə 1728-ci ilin məlumatlarında insan yaşamayan, lakin ərazisi başqa kəndlərin əhalisi tərəfindən əkib becərilən boş kəndlər siyahısında, İrəvan qəzasının Zarzəmin nahiyəsində göstərilir (77, s. 58). T.Əhmədov Əsrük çay adının etimologiyasını verərkən bu tərkibi "əsəbi, qızğın, coşqun, sərxoş" mənasında izah etmişdir (168, s. 216). Eyni mənaya biz adın "esrük" yazılışı ilə "Qədim türk lüğəti" kitabında da rast gəlirik (37, s. 184). Fikrimizcə sadalanan məna məntəqə adlarının yaranmasında qeyri real görünür və təsviri xarakter daşıyır. Bu adlanma dil qanunlarında tayfa adlarının iştirakı daha mühüm amil sayılmalıdır. Biz hər bir mənzili evin sahibinin adı ilə adlandırırıq. Bu adda Əs/As komponenti tayfanın adı, ər-"kişi, igid", ik/uk türk dillərində "oğul, varis" (208, s. 143), ike yazılışında isə "sahib" və "böyük qardaş, qardaş" mənalarını daşıyır (37, s. 204). Bu halda məntəqə adı "As ər oğlu" mənasında izah olunur.

**Asni, Vahsni.** Bu iki eyni ada ayrı-ayrı nahiyələrin ərazilərində təsadüf edirik. Birinci ada 1728-ci ilin məlumatlarında Sədərək nahiyəsində -r hərfinin səsdüşümü və a≈ə səsəvəzlənməsi ilə Əsni yazılışında Kərkicik və Qovalıq kəndləri arasında rast gəlirik (110, s. 324). İkinci məntəqə adına isə Dərələyəz nahiyəsində Abana və Ağcavəng kəndləri arasında -v, h fonem-hərflərinin artımı ilə "Vahsini" yazılışında, təhrif olunmuş şəkildə rast gəlirik (110, s. 35). Bu məntəqə adını A.Bağırov doğru olaraq As tayfa adı ilə izah edir (154, s. 105). Hazırda bu ad Asni çay adı kimi Babək rayonu ərazisindəki Qarabağlar kəndində mövcuddur. As tayfa adına qoşulan "ni/na" tərkibi türk dillərində omonim kimi "verdi bağışladı" və "mənim" mənalarında təsadüf edilir (208, s. 80). Etnooykonim həm "Mən As", həm də "Asların verdiyi" mənasında izah oluna bilər. Biz birinci "Mən As" etimologiyasını doğru hesab edirik.

**Asak.** Naxçıvan qəzası daxilində 1724-cü ilin məlumatlarında Şərabxana nahiyəsində qeydə alınan etnooykonim (110, s. 34) ak-"uca", ər-"igid" əski türk sözləri və As etnos adı ilə "Uca As" mənasında etnooykonim kimi formalaşmışdır. Biz "ak" qədim söz kökünə "Dədə Qorqud" dastanında "ağdı çiçək topladı" və Nəsimi əsərlərində "kürre-yi-rəhmana ağdın" ifadələrində - "ucalmaq" feli kimi də rast gəlirik (238, s. 6-10 ).

**Üstüpü, Astap, Astafna.** Birinci ad Naxçıvan qəzasına daxil olan Azadcirən nahiyəsi daxilində 1590-cı ilin məlumatlarında Parağa və Çənnəb (bir adı da Səlnab) kəndləri arasında, 1728-ci ildə yenə həmin ərazidə bu dəfə Biləv və Çənnəb məntəqələri arasında qeydə alınır (77, s. 179; 110, s. 31). Bu adla eyni tərkibə malik olan Astap məntəqəsi isə, yenə də Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində Ələyəz və Ərdiş kəndləri arasında qeydə alınır. Astafna adına gəldikdə isə, bu ad Naxçıvan qəzası daxilindəki Sürməli nahiyəsinin Əvəzqışlaq və Tovuzgönlü kəndləri arasında 1590-cı ildə adı siyahıya alınmamış kənd kimi verilmiş, 1728-ci ilin məlumatına isə İstəfna yazılışında düşmüşdür (77, s. 64). Adlardakı a≈ü, a≈i, f≈p, səsəvəzlənmələri ilə yanaşı, "tap" komponentinin əski türk dilində işlənmiş "azad", "hörmətli" mənaları ilə də qarşılaşırıq (37, s. 533). Bunlar nəzərə alınmaqla birinci iki oykonim As etnos adı və "tap"-"azad" morfeminin iştirakı ilə "Azad As" mənasındadır. Sonuncu etnooykonimə əlavə olunmuş "na" leksemi

omonim kimi "verdi bağışladı" və "mənim" mənalarında (208, s. 80) adı "Mən azad As" ifadəsi ilə açıqlayır.

**Aştarak.** Ada Naxçıvan qəzasına daxil olan Karni nahiyəsində 1728-ci ilin məlumatlarında Yuva və Bəycivazlı kəndləri arasında rast gəlirik (77, s. 75). Elmi cəhətdən xeyli əhəmiyyətli leksik quruluşa malik olan bu məntəqə adı türklərin ilk ad formasını As tayfa adına qoşularaq saxlamışdır. As+türük şəkilindən Aştarak formasına təhrif olunmuş adda yalnız ü≈a və s≈ş səslərinin əvəzlənmələri (266, s. 82) müşahidə edilir. Məntəqə adı "As türkü" mənasını daşıyır.

**Qındevas.** 1728-ci ilin məlumatlarında Məzrəə (insan yaşamayan məntəqələr) nahiyəsində Axta və Qayalı məntəqələri arasında qeydə alınır (77, s. 60). Bu yaşayış yeri qədim türk dillərinə məxsus "qın/kin"-"qala", "dev/tap"-"azad" söz kökü ilə As tayfa adına qoşulmuşlar. Biz bu tərkiblərin yazılışında a≈e, k≈q, i≈ı, t≈d, v≈p səsəvəzlənmələri (264, s. 41, 54, 82) ilə qarşılaşırıq. Mürəkkəb coğrafi ad kimi formalaşan bu ad "Azad As qalası" mənasını daşıyır. Oykonimi formalaşdıran "qın"-"qala", "dev/tap"-"azad söz köklərinə Midiya, skif coğrafi və şəxs adları sistemində də Kinqaruki, Kintau, Tiptakzi, Tabay və s. adlarda da təsadüf edirik (208, s. 90, 102). Ad "Azad As qalası" mənasındadır.

**Çaqazur.** Qədim Naxçıvan ərazisi daxilində 1724-cü ilin məlumatlarında Dərələyəz nahiyəsində, Yaycı və Kələdək kəndləri arasında qeydə alınır (110, s. 25-36; 109, s. 28, 35, 45-46). Etnooykonim maraqlı prototürk leksik vahidlərindən olan Çaq/çauq-"qala", "ur"- "qurmaq" əski türk sözləri və As etnos adı ilə formalaşmaqla "As tikən qala" mənasında izah olunur.

**Ərdalas.** Maraqlı etimoloji mənaya məxsus olan bu etnooykonim 1724-cü ilə aid məlumatlarda ilk dəfə Naxçıvan sancağının Dərələyəz nahiyəsində Çavuşcuq və Əyirli kəndləri arasında qeydə alınır (77, s. 34). Daha sonra etnooykonim qədim Naxçıvan qəzasının Dərələyəz nahiyəsində 1728-ci ilə aid məlumatlarda da qeydə alınır. As tayfa adına qoşulan "dal/tal" komponenti M.Kaşqari sözlüyündə əski türk dilində "qol, varis" mənalarında işlənir (43, II c., s. 105). Ad As tayfa adı ilə Ər+dal morfemlərindən formalaşmaqla "As ər varisi" mənasında izah olunur.

**Ələyəz** (3 ad). Naxçıvan qəzasının Naxçıvan nahiyəsi daxilində qeydə alınan bu etnooykonimin adına ilk dəfə 1590-cı ilə aid məlumatlarda

Dendabad və Yəmxana kəndləri arasında, ikinci ada isə, Naxçıvan sancağına daxil olan Dərələyəz nahiyəsində təsadüf edirik (77, s. 34, 164). Məntəqə adlarında türk dilləri üçün xarakterik olan a≈ə, s≈z səsəvəzlənmələri (xalça-xəlçə kimi) müşahidə edilir (264, s. 40). Hər iki adda "al"-"uca", "ay"- mifik inanc sözləri və As tayfa adı təkrarlanmışdır. Dərələyəz nahiyə adına qoşularaq onu nahiyə adı kimi formalaşdıran "dər/dor" komponenti də sözə əlavə edilmişdir. Bu tərkib Q.Budaqova və digər müəlliflər tərəfindən "kilisə", "keşiş" mənasında izah olunmaqla fars, erməni dillərinə aid edilmişdir (157, s. 27-29). Lakin biz tərkibin uyğur dilində "çoxluq,, "tur" yazılışında isə "tayfa, törə" mənalarına təsadüf edirik (37, s. 158, 587). Bu söz-tərkib tamamilə türk dilində olmaqla birinci oykonimi "Uca Ay As tayfaları" mənasında izah edir. İkinci ad isə "Uca Ay As" mənasını daşımaqdadır. Məntəqə və bütöv bu ərazi rus-erməni işğalı nəticəsində 1989-cu ildə boşaldılmışdır.

**Sanasir.** 1590-cı ilə aid məlumatlarda Naxçıvan qəzasına daxil olan Vedi nahiyəsində Məngik və Qədli kəndləri arasında göstərilən bu məntəqə adı da maraqlı leksik quruluşa malikdir (77, s. 172). Məntəqənin adlanmasında iştirak edən "san" komponenti qədim türk dillərində "sayılıb seçilən", "şan-öhrət", "hörmətli" mənalarında açıqlanır (43, II c., s. 28; 37, s. 483). Adın son "ur"-"qurmaq" feli As tayfa adına "san" komponenti ilə qoşulmaqla məntəqə adını "Şanlı, mötəbər As quran" mənasında etnooykonimə çevirmişdir.

**Xarvas.** Bu məntəqə 1590-cı ilə aid məlumatlarda Naxçıvan qəzasına Aralıq nahiyəsində Cəkni və Anatan kəndləri arasında bir adı da Xaravaş kimi göstərilir (77, s. 180). As tayfa adına qoşulan "xarv" tərkibi qədim türk dillərində "axtarıb tapan", "qazanmış", eləcə də "dartılmış yay", "lənətlənmiş" kimi mənalarında işlənmişdir (43, II c., s. 274; 37, s. 426). Biz məntəqə adında bu mənalardan sözün "qazanmış" mənasına üstünlük verərək məntəqə adının "Qazanmış As" anlamında olduğunu qəbul edirik.

**Uybaz.** Bu etnooykonim Naxçıvan qəzası daxilində 1590-cı ilin məlumatlarında Azadciran nahiyəsinin Sorcu və Ələhi kəndləri arasında qeydə alınır (77, s. 179). Maraqlı leksik-semantik quruluşa malik olan oykonimdə As tayfa adına qoşulan "uyb" komponentinə qədim türk dillərində rast gəlmirik. Biz tərkibin "ub/eb/ev" morfemi olduğunu, -y hərfinin söz arasına sonradan artırıldığını düşünürük. Məntəqə adı "As

evi" mənasındadır.

**Kurtəş.** Naxçıvan qəzasının Abnik nahiyəsinə aid olan Sanıq və Dondarviranı kəndləri arasında qeydə alınan bu etnooykonimin adına ilk dəfə 1590-cı ilə aid məlumatlarda təsadüf edirik (77, s. 177). Adın ilkin varianda Kurt+as yazılışında olmasına şübhə etmirik. Qədim türk mifində biz kas və hürri tayfalarının inancında **Kur/Kiur,** qədim türklərdə isə Kuar allahının adını və onun məntəqə adı ilə eyniliyini görürük (349, s. 130-131; 208, 51). Burada -t samiti türk dillərində "cəmlik" ifadə edən şəkilçidir (168, s. 247). As tayfa adının məntəqə adı sonunda "əş" kimi yazılışı adın təhrif olunduğunu göstərir. Kiur+t+As tərkibində formalaşan bu etnooykonim "Kiur asları" mənasında teofor addır.

Beləliklə qədim Naxçıvan ərazisi tərkibində 55 məntəqə adı-etnooykonim aslarla bağlı olmuş, onların bir neçəsi ərəb-fars, bir neçəsi isə erməni mənşəli hesab edilmişdir. Lakin onların üzərində aparılmış linqvistik və etimoloji araşdırmaların yekunu olaraq deyə bilərik ki, istər dil, istərsə də tarixi baxımdan bu adlar protoazərbaycanlılara aid qədim məntəqə adları olmuş, və bunların bir qrupu hazırda da fəaliyyətini davam etdirməkdədir. Etnooykonimlərin hər birinin tərkibində As türk etnosunun adına qoşulmuş əski türk sözləri ümumtürk arealında m.ö IV-I minilliklərdən işlənməkdədir. Mənalarını əski türk dili lüğətləri, sözlükləri, dialekt və yazılı mənbə məlumatlarına istinadən açıqladığımız "at, ay, ni, bat, kap, ar/ər, sır, tey, əv/əf, Kiur, bi, ək/ak, ur, us, çaq, şad, tur" və s. kimi kəlmələr- morfemlər əski, yazıyaqədərki dövr türk dili elementləridir (diqqətlə bax, 48, s. 548; 284, s. 94; 208, s. 56, 78, 80; 353, s. 121; 54, III t., I h., s. 103). As boylarının inanc, məişət və mənşəyi məsələsini tamamilə əhatə edən bu leksik vahidlər digər türk tayfalarının da söz və adlar sistemində təkrarlanmışdır. Bütün bu komponentlər proto Azərbaycan türklərinin dil imkanları hesabına As türkləri ilə bağlı yer adlarının formalaşmasına xidmət etmişdir. Hələ e.ə. VI-III minilliklərdən qədim Mitan, Aratta, Manna, Midiya, Atropatena, Alban kimi dövlətlərimizin toponimik adlar sisteminin bütün sahələrində və antroponimlərdə yetərincə təkrarlanmaqla, bu əski dil elementləri Şumer, Akkad, Assur, Het, Misir və s. antik dövlətlərin salnamələrində də qorunmaqdadır.

Qeyd edək ki, bu məntəqə adlarından başqa xeyli sayda Araz, Asni,

Aza kimi hidronim (su mənbələri), teonim (müqəddəs yerlər), oronim (dağ, dərə, düzən) və s. toponimik adlar da ərazinin coğrafi adlar sistemində bu gün də qalmaqdadır.

Asər dili, yəni bizim ulu dilimiz olan Azər dilinin yayım arealı fantastik ərazi böyüklüyündə bu millətin əzəmət və vüqar tarixinin göstəricisidir. Ərazimizdən başlayaraq Bütöv Azərbaycan; İrəvan xanlığı və Cənubi Azərbaycan, Dəmir qapı Dərbənd, Gürcüstan ərazilərində aparıcı dil olmuş, bununla bərabər Doğu Anadolu, Dəclə və Fərat çaylarının yuxarı axarları, Suriya və İraq yaxaları, Orta Asiya, Altaylar və Krım türkləri, Orxon-Yenisey axarlarına qədər gedib çatan, daha sonra isə Avropaya qədər areal bir dil böyüklüyündə yaddaşlara hopmuş bu dil əski Asər-Azər- Oğuz dilidir. Fikrimizcə bu dil Asərlərdən qoparaq türk xalqlarının ünsiyyət vasitəsinə çevrilmiş, burada sadalanan ucsuz-bucaqsız ərazilərin türklərini Oğuz dili ailəsində birləşdirmişdir. Bütün bunlar isə əski As dilini daşıyan as-oğuz yurdları idi. Sözün farslara aid edilmə iddiaları xalqımızın ən azı 8 min illərlə ölçülən tarixini bu xalqdan uzaqlaşdırmaq siyasətindən özgə bir şey deyildir (-F.R.).

Bütün qaynaq məlumatlarının, tarixi fakt və elmi nəticələrin yekunu kimi demək olar ki, e.ə. VI minillikdən özünün dili, yazısı, gücü və ərazisi olan Asər türkləri Naxçıvan ərazisində məskunlaşma tarixinə görə Turdi boylarından əvvəl bütün türk tayfa birliklərini qabaqlayaraq, qədim Naxçıvan yer adlarında özlərini əbədiləşdirməklə, etnogenezimizin təşəkkülündə ilk iştirakçılardan olmuşlar.

## 2. NAXƏR TÜRKLƏRİ

Hələ e.ə. qədim Naxçıvan ərazisini "Naxarin"-Naxər yazılışında qaynaqlara salmaqla öz adı ilə bu qədim torpağı adlandıran, bu ərazini "Nuhun saldığı şəhər" kimi əbədiləşdirən, əhalisinin isə etnogenezində əsaslı iştirakı olsa da indiyədək tədqiqatdan kənarda qalmış əski prototürk-Azərbaycan boylarından biri də NAXƏR türkləri olmuşdur. Haqqında danışacağımız bu qədim prototürk -Azərbaycan boyları e.ə. III minillikdən zamanımıza qədər şanlı tarixi bir yol keçmiş, lakin bu boyların tarixi haqqında araşdırma aparılmadığından bu problem məsələ başqa millətlərin tədqiqat mövzusuna çevrilmişdir. Bəs tarixi qaynaqlar bu tayfalar və ölkə haqqında hansısa bir məlumat verirmi? Bu və digər

məsələlərə diqqət yetirmək üçün öncə adın etimologiyasına və qədim Naxər türklərinin tarixinə qısaca nəzər salmaq, tariximizin bir qaranlıq səhifəsinə, unudulmuş bir türk etnosumuzun adına, sahib olduğu əraziyə diqqət etməyi elmi cəhətdən əhəmiyyətli hesab edirik.

Tərəfimizdən aparılan araşdırmalar zamanı qədim türk boyları NAXƏRLƏRIN tarixi haqqında türk alimlərinin indiyədək heç bir tədqiqat aparmadığı və bu boyların kimliyinin də aydınlaşdırılmadığı ortalığa çıxır. Bu yazı Naxər prototürk tayfaları haqqında tərəfimizdən aparılan ilk araşdırma və verilən ilk elmi izahlardır.

Qeyd etmək istərdik ki, naxərlərin "Naxçıvan" şəhər adının yaranmasında iştirakı çoxsaylı mənbə məlumatları ilə birmənalı təsdiq olunur. Öncə adın etimologiyası barədə əcnəbi və yerli alimlərimizin fikirlərinə nəzər salaq.

Təbii ki, "Naxçıvan" coğrafi adının etimologiyası zamanı elm adamlarının diqqətini ilk olaraq cəlb edən sözün "nax" tərkibi olmuşdur. Bu tərkibdən sonra gələn "ç" hərfi bəzən "nax" tərkibi ilə birgə ç≈k fonetik paralelliyi nəzərə alınmaqla söz kökündə "naxç" tərkib kimi, bəzən isə "naxık" tərkibində son samit yenə də x≈k, x≈h fonetik variantlığında araşdırılmışdır. Məhz bu istiqamətdən bir qrup elm adamları bu addakı "naxç", "nax", "naxık" tərkiblərini etnos kimi qəbul etmiş, lakin, bu tayfaların kimliyini, harada məskun olduqlarını, ilk dəfə hansı ərazidə tarix səhnəsinə çıxdıqlarına dair elmi dəlillər və tarixi faktlar gətirməmişlər. Bu problem ətrafında bir qrup tədqiqatçılar onu Nuhun adı ilə bağlamış, digərləri isə "bərk yer", "ov yeri" mənasında müxtəlif konsepsiyalardan çıxış etməklə əsasən ərəb-fars sözləri ilə izah etməyə çalışmışlar. Biz öncə "Naxçıvan" sözünün etimoloji izahına toxunan elm adamlarımızın irəli sürdükləri konsepsiyaya, bu problemdə sözün hansı tayfa adı ilə bağlılığı məsələsində hansı aspektdən yanaşıldığına diqqət yetirməyi lazım bilirik.

1996-cı ildə keçirilmiş "Tarixi qaynaqlarda Naxçıvan" beynəlxalq konfransında məruzə edən A.Axundov Naxçıvanın Nuh tufanı ilə bağlılığı məsələsinə toxunmuş, "Nax" tərkibini "Nuh" sözünün təhrifi kimi qəbul etmiş, -çı şəkilçisinin türk dillərində isim düzəldən şəkilçi kimi versə də, "van" komponentinin qədim İran dilində "yer", "məskən" leksik vahidi olduğunu qeyd etmişdir (140, s. 47). Bu məsələ 1973-cü ildə İ.Mollayevin də mövzu obyekti olmuş, 1973-cü il "Şərq qapısı"

qəzetinin I nömrəsindəki məqalədə bu sözü "Naksuan", "Əfsəvan", "Arizant", "Nuhuvan" və s. yazılışlarda tədqiq etmişdir. Bununla bərabər o, orta əsr ərəb tarixçilərinin bu adın etimologiyası haqqındakı izahlarına toxunaraq xeyli maraqlı tarixi faktlara aydınlıq gətirmiş, lakin sözün etimologiyası haqqında qəti fikir bildirməmişdir.

"Naxçıvan" sözünün mənşəyini araşdıran bir qrup müəlliflərin yazılarında sözün fars dilində "nəxçirvan" mənası daşıması, bunun isə "ov yeri" olması fikirləri səslənir. Bu etimoloji izahlara L.Hüseynzadənin, yazılarında rast gəlirik. O, "Ağ yol" qəzetinin, 14 may 1999-cı il sayında çıxan "Nəxçir əfsanəsi"məqaləsində "Naxçıvan" sözünün bir neçə deyiminə nəzər salaraq onu "dağ keçisi", "ov yeri" kimi izah etməklə buranın ilk insan məskəni olması qənaətində dayanmışdır. Bundan sonra həmin tədqiqatı genişləndirən K.Allahyarov sözü "Nəxçirvan" yazılışında "ov yeri" mənasında izah etmiş, adın əski parfiya dilindən fars dilinə adlamış nəxcir-"ov heyvanı" və van-"məkan" tərkiblərində olduğunu yazmış, coğrafi adın "ov heyvanlarının bol olduğu yer" mənasında olduğunu, "van", "-çı" dil elementlərini birmənalı olaraq farslara aidliyini göstərmişdir. Əgər diqqət etsək müəllif P.Məmmədovun "Naxçıvan şəhərinin tarixi oçerki" kitabının 26-27-ci səhifələrini olduğu kimi təkrarlamış, V.S.Rastarquevanın qərəzli təhrifini dəstəkləmişdir (223, s. 27-30). Sonradan yenə bu mövzuya qayıdan müəllif, 20 oktyabr 2000-ci il "Naxçıvan" qəzetinin 12-ci nömrəsində sözü "naxçi" şəklində urartuların varisləri olan bir tayfa olaraq göstərmiş, çeçenlərin də özlərini "naxçi" adlandırmaqla "Naxçıvan" adının da buradan gəlməsi konsepsiyasından çıxış etmişdir. Bir sözlə müəllif daha çox özgələri təbliğ etməyə səy göstərmişdir.

Qədim Naxçıvan və onun yaranması haqqında danışan türk araşdırıcısı F. Kırzıoğlu buradakı "Nakçı" sözünün Kazıkumık dilində "yurdda qalan, köçməyən" mənasını verdiyi qənaətində dayanaraq, "Naxçıvan" adda yaşayış yerinin Türkiyənin Diqor-Dügər mahalında da olduğunu yazmışdır (512, s. 40). Təbii ki, bu etimologiya da yanlışdır. Naxərlər tarix səhnəsinə çıxdıqları dövrlər Kazıkumuk türkləri yəqin ki, bir tayfa kimi mövcud deyildilər və tarix səhnəsinə çıxmamışdılar. Daha bir türk tədqiqatçısı Y.Kalafat dağlı çeçen, inquşlar haqqında danışarkən onların Qıpçaq türkləri olduğunu Naxçıvan adındakı "çı/ço" tərkibinin morfem olaraq "adam" mənası daşıdığını qeyd edir və sözün mənasını "Noh

adamı" kimi izah edir (518, s. 43).

Bu fikirlərə öz münasibətimizi bildirməzdən öncə qeyd edək ki, müəlliflər hər izahında qeyri dilləri önə çəksə də, elmi əsası olmayan müxtəlif fikirlərlə öncə dediklərini təkzib edərək qəti söz deməmişlər. Bütün bunlara müqabil qeyd etmək istərdik ki, Naxçıvan Azərbaycanın başqa bölgələri ilə müqayisədə ov heyvanları ilə o qədər də zəngin olmayan bir ərazidir. Ərəb-fars coğrafi adlarında, eləcə də bu dilin lüğətində isə biz "nəxcir"-"ov heyvanı" və "van"-"məkan" tərkibli heç bir söz kökü və ya izaha rast gəlmirik. Burada sözün kökünə oxşar "naxon"- "dırnaq", -h samiti ilə "nəheyr/nəxeyr"- "xeyr, yox", "negər/nəcir" - "baxmaq" və s. kimi sözlər göstərilən mənaları daşımaqdadır Bir sözlə bu tərkibə fars dili lüğətlərində rast gəlmirik. Əlavə olaraq onu da deyək ki, farslarda ov yeri çox olsa da biz bu böyüklükdə ərazidə bir dənə də olsun "Naxçıvan" adlı coğrafi ada təsadüf etmirik. Deməli, bu etimologiya yanlışdır və onun heç bir elmi əsası yoxdur. Urartu məsələsinə gəldikdə isə onların tarix səhnəsində olduğu dövr aşağıda haqqında danışacağımız Naxər türklərindən xeyli sonradır və bu iddianın da elmi əsası yoxdur. Sözdəki "van" tərkibinin məna çalarına gəldikdə isə bu tərkib istər fars, istərsə də erməni coğrafi adlarından daha çox türk coğrafi adlar sistemində təkrarlanır. Biz bu tərkibə Türkiyədə Van, Vaskovan, Tatvan, Tavukvan (521, s. 102-103) kimi adlarda, Azərbaycanda o cümlədən də Rusiya tərəfindən 1828-ci ildə işğal olunmuş İrəvan xanlığı ərazisində İrəvan, Sevan, Ayqavan, İcevan, Bədrəvan Urmiya ətrafında qıpçaqlarla bağlı Dəştuvan, Şirvan (358, s. 469), Şimal Azərbaycanda Şirvan, Zərgəvan, Mincivan və s. yüzlərlə coğrafi adda təsadüf edirik. Bu adlarda əski türk tayfa adları və söz köklərindəki van tərkibi çuvaş, tunqus dialektlərində 10 sayını (37, s. 455-456), bəzən isə daha çox "yer, məkan", eləcə də b≈v fonetik səs əvəzlənməsi ilə ban-"uca" mənalarını ifadə etmişdir. Bildiyimiz kimi saylar türk tayfalarının ittifaqına daxil olan birlikləri ifadə etmişdir. Biz Oğuz və As tayfalarında On ok, On As , Üç ok kimi ifadələr və tayfa adları ilə rastlaşırıq (-F.R.). Bu onomastik vahidlərdə Şirvan - "on sir-siraklar" və ya "şirak yurdu", Mincivan - "uca manqlar" və ya "manq yurdu", Sevan -"Şu/Si boylarının yurdu" və ya "uca şular", Vaskovan "şöhrətli on buslar" və s. bu kimi ifadələr türk dili vahidləri ilə izah olunur. Fikrimizcə, bütün bunlar "Naxçıvan" sözünün etimoloji yöndən elmi

təhlilini vermək cəhdi olsa da, söz tərkibində istər fonetik, istərsə də leksik paralellər diqqətə alınmalı, real faktorlar elmi cəhətdən əsaslandırılmalı idi.

"Nuxa" sözü ilə bağlı Naxçıvan yaşayış məntəqə adının da etimologiyasına toxunan Ə.Fərzəli Şəki, Nuxa adlarının etimologiyasını araşdırarkən V.V. Radlovun lüğətinə istinadən "Azərbaycan gəncləri" qəzetinin 1985-ci il 16 yanvar nömrəsindəki "Bir gözəlin iki adı" məqaləsində "nax", "nağal", "naxıl", "naxçı" və s. tərkiblərin "sərt yer", "qayalıq ərazi" anlamlarından bəhs etmiş, onun məna yozumunu xalq etimologiyası ilə əlaqələndirib, "naqqal", "tərs" mənaları ifadə etdiyini söyləmişdir. Müəllif 1999-cu ildə yenidən S.Orbelianinin, Z.Çarkinskinin, H.Karpinskinin Naxçıvanın e.ə. 1539-cu ildə yaranmasına dair fikirlərinə diqqət yetirmiş, lakin onların və V.Nikonovun, V.Juçkeviçin "Naxçıvan" sözünü erməni dilinə bağlama cəhdlərinə elmi dəlillərlə tutarlı təkziblər verərək, bu üzdəniraq tədqiqatçıların yanlış konsepsiyalarını rədd etmişdir. Bundan sonra müəllif, öz məqaləsində Cəfər İsmayıloğlunun "Naxçıvan" sözünün etimoloji izahını əsas götürərək yer adının oğuz türklərində antroponim (şəxs adı) olan "Akçıbon" sözündən götürüldüyü qənaətində olduğunu bildirməklə ak-"günəş", çı-"üç", ob- "ev", on-"yetkin oğul" mənalarını daşıdığını söyləmişdir. "Ekpress qəzetinin" 1999-cu il 16 avqust tarixli 40 № -li sayındakı özünəməxsus izahda müəllif, qədim türk mifologiyasına da istinad etmiş, sözün od, atəş, günəşlə bağlılığı qənaətində dayanmışdır. Bu cür etimoloji izahlara biz Q.Budaqovanın da araşdırmalarında rast gəlirik və o, "Naxçıvan" sözünü "Naksuan" yazılışında təqdim edərək onu qədim türk sözü "xoş su" mənasında fars sözü ilə izah etmişdir (157, s. 9 ). 2004, 25 fevral , "Azərbaycan" qəzetində "Tariximizin daş yaddaşı" məqaləsi ilə çıxış edən Kamil Dərələyəzli bu problem ətrafında söhbət açmış, M.Nemət isə "Naxçıvan" sözünün mənbədəki adlarından danışsa da onun etimologiyasına toxunmamışdır.

Adların etimoloji izahlarında son dərəcə maraqlı və elmi fikirlər müəllifi olan C.Cəfərzadə "Naxçıvan" sözünün elmi şərhinə yeni aspektdən yanaşmaqla onu dörd hissəyə bölərək ak, üç, eb, on tərkiblərinə ayırmış, adın bu tərkiblərdən yarandığını, onun "otuz ağ ərlərin vətəni" mənası daşıdığını və oğuz türkləri ilə bağlığını qeyd etmişdir (160, s.17-23). Bu adın izahına çalışan M.Elli də iki dəfə mövzu ətrafında

araşdırma aparmış, 1983-cü ildə "Azərbaycan müəllimi", 1998-ci ildə isə "Xalq qəzeti" qəzetlərinin 18 dekabr sayında "Naxçıvan" sözünü qədim Şumer tanrısı "Nusku" adı ilə, qədim türk dilində "nax", "naxra", "nakra" sözlərinin "bərk", "möhkəm" mənaları ilə izahını verməklə Nuxa, Nəhəcir, Nüsnüs, Nügədi yer adlarının da bu addan yarandığını yazmışdır.

Naxçıvan ərazisi və adının Nuh tufanı ilə əlaqəsi haqqında yozumlara Ə. Hüseyni, S.Rüstəmxanlı və başqalarının da əsərlərində rast gəlirik (248, s. 6-14).

Göstərilən bu izahlar və elmi nəticələrlə bağlı bəzi məqamlara aydınlıq gətirmək istərdik. Ümumən yer adlarının, əsasən də oykonimlərin nominasiyasında tayfa adların iştirakının əsas amil olduğunu nəzərə alsaq böyük bir şəhər adının "sərt yer", "qayalıq ərazi", "naqqal", "tərs", "ov yeri" kimi mənaları elmi cəhətdən özünü doğrultmur. Digər tərəfdən tarixdə oğuz türklərinin cənub ərazilərimizdə yayılma faktları bir neçə tarixi mərhələdə müşahidə edilir. İlk öncə mənbələr "skif", "skit", "aşquzai", "işquzai" adlanan oğuzların Urmiya ətrafı bölgələrə, o cümlədən Naxçıvan ərazilərinə gəlmələrini e.ə. VII əsrə aid edir (23, I, s. 103-106; II 110, III 134; 271 s. 130-136). Bundan sonra biz eramızın VII əsrində yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanında, daha sonra isə Azərbaycan ərazisində X-XI əsrlərdə oğuzlarla rastlaşırıq (239, s. 4; 253, s. 151-159). Lakin, F.Rəşidəddinin "Oğuznamə" əsəri üzərində apardığımız araşdırmalar oğuzların ərazilərimizdə e.ə. II minilliyin ortalarında, daha doğrusu 1443-cü illərdən mövcud olduğunu göstərir (243, s. 133-134). Əgər tarixi fərqlərə diqqət etsək ən qədim e.ə. 1443-cü il tarixi ilə sonuncu tarix arasında tam 2600 il zaman kəsiyi mövcuddur. Əgər Ə.Fərzəli bu üç tarixi dönəmdə "Naxçıvan" sözünün etimologiyasını Dədə Qorqud oğuzları ilə bağlayaraq iç oğuzlardan bəhs edirsə, göründüyü kimi bu konsepsiya tarixi faktları müqabilində yanlışdır. Çünki Naxçıvan VII əsrdə deyil, hələ eramızın I əsrindən yunan səyyahı Strabonun "Coğrafiya" əsərinə, yəhudi tarixçisi İ.Flavinin yazılarına düşüb. Əgər biz F.Rəşidəddinin "Oğuznamə" əsəri və skif oğuzları-"işquzai"lərlə bu sözü izah etmək istəsək, təbii ki, onlarda "Akçıbon" antroponimi haqqında məlumata rast gəlməyəcəyik. Deməli, Ə.Fərzəli, C.Cəfərov, B.Budaqova, M.Elli və digərlərinin "Naxçıvan" sözünün etimologiyası ilə bağlı elmi konsepsiyaları istər

tarix və etnogenez, istərsə də dil komponentləri baxımından özünü təsdiq etmir.

1996-cı ildə Naxçıvanın tarixi ilə əlaqədar keçirilmiş beynəlxalq elmi simpoziumdakı məruzələr də ərazinin tarixi, "Naxçıvan" sözünün etimologiyasına dair elmi fikirlər baxımından uğurlu nəticələrlə zəngindir. Bu elmi toplantıda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov simpozium iştirakçılarını giriş sözü ilə salamladıqdan sonra, Naxçıvanın tarixi və şəhərin meydanagəlmə prosesi haqqında geniş məlumat verərək, Azərbaycan elmində, eləcə də qaynaqlarında və əcnəbilərin tədqiqatlarında Nuh və Naxçıvan əlaqələrinin mövcudluğuna, bu eyniliyin təsadüfi olmadığına dair xeyli elmi dəlillər gətirmiş, ərazinin e.ə. minilliklərlə bağlılığı ilə əlaqədar antik müəlliflərin əsərlərinə istinadən tutarlı tarixi faktlar göstərmişdir (269, s.12).

Naxçıvan tarixinin öyrənilməsi istiqamətində xüsusi əhəmiyyətə malik olan bu elmi simpoziumda çıxış edən akademik İ.Həbibbəyli tədqiqatçılar S.Zelinski, K.Nikitin, Y.Pasxalov, V.Devitski və digərlərinin əsərlərindən maraqlı məqamlara toxunaraq buradakı məlumatları simpozium iştirakçılarının nəzərinə çatdırmışdır. Göstərilən mənbələrdə Naxçıvanın yaşının əfsanəvi Nuhla bağlı olduğunu da ayrıca vurğulayan İ.Həbibbəyli, tarixi məqamlara toxunaraq şəhərin Nuh tərəfindən salındığına dair tədqiqatlardan nümunələr göstərmişdir (194, s. 120; 195, s. 9-13.). Bundan sonra daha bir məqaləsində bu mövzuya qayıdan İ.Həbibbəyli 20-dən yuxarı əcnəbi müəlliflərinin bu istiqamətdəki araşdırmalarını təhlil edərək şəhərin adını Nuhla bağlamaqla Naxçıvanı "Nuhçıxan" kimi təqdim edərək, onun yaşının 5 min ildən yuxarı olduğuna dair tarixi məlumatları diqqətə çatdırmışdır (196, s. 20-28).

Adın etnos adı ilə yarandığı haqda öz fikrini qəti bildirənlərdən biri də AMEA-nın muxbir üzvü V.V.Əliyev olmuşdur. Özünün "Naxçıvan Azərbaycanın tarixi diyarıdır" kitabında bu sözün etimologiyasına toxunan müəllif, e.ə. II minilliyin başlanğıcında ərazidə əhalinin tərkibində "naxç" tayfalarının yaşadığını ehtimal etməklə bu sözün bu tayfa adından gəldiyini və etnos adı ilə yarandığını qeyd etmişdir (172, s. 15). "Naxçıvan" sözünün etimoloji yozumu ilə bağlı keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materiallarında Naxçıvanın tarixindən maraqlı faktlar gətirən V.Əliyev bu simpoziumda da yer adının "naxç" tərkibindən gəldiyini, bu etnosun isə kaspi tipinə

məxsus tayfa olduğunu yazmışdır (174, s. 53). Bu simpoziumun daha bir iştirakçısı prof. N.Xudiyev adın tarixi qaynaqlardakı deyilişlərinə aydınlıq gətirməklə sözü "naxçi" tərkibi ilə bir qəbilə hesab etmişdir (202, s. 17).

Ali Məclis Sədrinin və son üç müəllifin bu sözü Nuhla bağlı tayfa adı və ya "naxç" yazılışında tayfa kimi qəbul etmələri bu istiqamətdə gətirdikləri elmi faktlar həqiqətən şəhər adının tayfa adından yarandığını sübut edən qiymətli elmi nəticələrdir.

"Naxçıvan" sözünün etimologiyası haqqında maraqlı elmi fikirlərə AMEA-nın muxbir. ü. Ə.Quliyevin də araşdırmalarında rast gəlirik. O, tarixi mənbələrə müraciət edərək "nəxiç" komponentini tayfa adı kimi götürmüş, orta əsr ərəb coğrafiyaşünaslarının bu adın səslənmə variantlarına aid fikirlərini təhlil etmiş, XIII əsr Rəşidəddin, XIV əsr H.Naxçıvani və XV əsr Ə.Bakuvinin əsərlərində sözün "Naqhçıvan", V əsr tarixçisi M.Xorenlinin məlumatında "Naksuvana" yazılışlarını təhlil etmişdir. Nuh tufanı ilə bağlı K.Nikitinin və "Nəqşi-cahan" yozumu ilə bağlı Ö.Çələbinin fikrilərini təkzib edən müəllif, bunların ərəb-fars dilindən gəlmədiyini yazmaqla M.Xorenlinin Qafqazda qədim Naxçı qəbiləsinin olması fikrin əsas götürərək, sözün bu tayfa adından yarandığını söyləmişdir (215, s. 27, 30). Tədqiqatçı sözün etnonim olması qənaətində doğrudur. Çünki yer adlarının yaranmasında öncə etnosların fəaliyyəti qeyd-şərtsiz qəbul olunmaqdadır.

Naxçıvan toponimlərinin tədqiqində ayrıca yeri olan A.Bağırovun tədqiqatlarında da "Naxçıvan" sözünün etimologiyası haqqında gərəkli elmi izahlarla rastlaşırıq. Müəllif, demək olar ki, son dövrə qədər bu söz haqqında mövcud olan izahların hamısını təhlil etməklə bir qrup versiyalara elmi təkzib vermiş, Naxçıvan, eləcə də Nəhəcir, Nuhdaban adlarının Nuh peyğəmbərin adından yaranması fikri üzərində dayanmışdır. A.Bağırovun bu qənaəti öncəki yazılarında, hələ 1991-ci ildə "Elm və həyat" jurnalında da verilmişdir (152, s. 28-29; 154, s. 172-173; 155, s. 98-102).

H.Qədirzadənin son dövrlər nəşr olunmuş monoqrafiyalarında da bu istiqamətdən maraqlı və əsasən də elmi fikirlərlə qarşılaşırıq. Müəllif Nuh tufanı ilə bağlı xeyli mənbələri izləyərək müqayisəli təhlillər aparmış, tufanın ərazisi, başvermə səbəbi, müddəti, gəminin ölçüsü və s. məsələləri geniş araşdırmaqla Naxçıvanın Nuh və Nəbi yurdu olması

fikrində dayanmışdır (189, s. 57, 107, 126-128).

2009-cu ildə Naxçıvanda keçirilən "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" adlı daha bir beynəlxalq simpozium bu mövzuya yeni aspektdən baxış yönündən xüsusi elmi əhəmiyyət daşımaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu simpoziumu giriş sözü ilə açaraq iştirakçıları salamlamış, daha sonra "Naxçıvan" sözünün etimologiyasına toxunaraq adın mənbə məlumatlarındakı "Naksuana", "Nəşəva", "Nəqşi-cahan" yazılışlarını iştirakçıların diqqətinə çatdırmışdır. Tarixi qaynaqlarda hələ e.ə. II yüzillikdən qeydə alınan bu adın məhz Nuh peyğəmbərlə bağlı olduğuna dair tutarlı elmi dəlillər göstərən Ali Məclisin Sədri, antik qaynaqların tarixi faktlarına müraciət edərək, hadisənin və adın elmi şərhini vermişdir (268, s. 10-16). Bu beynəlxalq simpoziumda iştirak edən akademik Y.Məmmədov, N.Cəfərovun məruzələri də şəhərin Nuhla bağlılığı məsələsi üzərində dayanmış, yetərincə tarixi faktlar sadalanaraq təhlillər verilmiş, sübut kimi göstərilən faktlar elmi cəhətdən əsaslandırılmışdır (219, s. 17-30; 162, s. 40-43).

Simpoziumun plenar və bölmə iclaslarında məruzə edən akademiklər İ.Həbibbəyli və İ.Hacıyevin bu istiqamətdə irəli sürdükləri konsepsiyalar həm elmi, həm də tarixi baxımdan xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu tufan və ərazi haqqında xeyli sayda mifləri, dünyada baş vermiş sivilizasiyaları geniş təhlil edən İ.Həbibbəyli, ondan artıq T.Çarev, V.Yakoveç, A.Toynbi, P.Şermetevski, D.Sileymanera kimi əcnəbi, eləcə də 20-dən çox türk Azərbaycan müəlliflərinin əsərlərindəki Nuh motivinə diqqət yetirmişdir. O, təhlil və müqayisələrin elmi nəticələrini ümumiləşdirərək Naxçıvan şəhərinin Nuh tərəfindən salındığına, adın isə Nuhla bağlılığına dair xeyli elmi və tarixi faktlar gətirmişdir (197, s. 55-68). Bu versiyanı tarixi qaynaqlar, miflər və tədqiqatların nəticələri kontekstindən tədqiq edən akademik İ.Hacıyev də öz məruzəsində xeyli sayda mənbələri, Sümer əfsanəsini və bu tufanla bağlı ərazidən toplanmış digər əfsanə və rəvayətləri geniş təhlil etməklə bərabər İ.Flavi, J.B. Tavernye, Dübüa-de-Monpere, İ.Şopen, K.Nikitin, V.Sısoyev, V.Qriqoriyev və başqalarına istinadən yetərincə tarixi dəlillər göstərmiş, adın Nuhla bağlılığını tarixi, dil, etnoqrafiya ortağında elmi cəhətdən əsaslandırmışdır (186, s. 40-43).

Xüsusi olaraq qeyd etmək istərdik ki, bu simpoziumda bölmələr

üzrə türk və azərbaycanlı alimləri Y.Kalafat, X.İvgin, G.Öz, N.Tan, T.Öcal, Ə.Quliyev, Q.Qədirzadə, V.Baxşəliyev, A.Bağırov, F.Səfərli, B.İbrahimov, V.Məmmədov, N.Bababəyli, N.Alıyev kimi akademik, elmlər doktoru və fəlsəfə doktorlarının Nuh tufanı ilə bağlı biri-birindən maraqlı elmi məruzələri dinlənilmişdir. Bu məruzələrdə tufanın müxtəlif sahələrinə tarix, dil, coğrafiya, etnoqrafiya və arxeoloji aspektdən yanaşılmaqla dünya elminin göstərilən sahələri üçün yeni elmi nəticələr əldə olunmuşdur (231).

"Naxçıvan" sözünün Nuhla bağlılığı A.Qədim, A.Gümürlünün 1999-cu il 16 iyun "Xalq" qəzetindəki yazılarında da tədqiqat obyektinə çevrilmiş, elmi faktlara müraciət olunmuşdur (211, s. 17, 35). Təbii ki, bütün bu araşdırmalarda ortalığa qoyulan elmi konsepsiyalar yeni fikirlərin ərsəyə gəlməsində əsl mənbə kimi çox qiymətlidir.

Əgər qaynaqlara müraciət etsək, şəhərin Nuh tufanı ilə bağlılığı haqqında ilk fikir İ.Flaviyə məxsus olmuş, lakin bildiyimiz kimi tufan haqqında ilkin məlumatlar isə şumerlərdən digər xalqların mifologiyasına daxil olmuşdur ki, (207, s. 178-179, 220) biz Naxçıvan və Nuh problemi ətrafında bəzi məqamlara toxunmuş, mövzu ilə bağlı bir neçə məqalədə bu problem ətrafında geniş məlumat vermişik (248, s. 6-14).

Adın müxtəlif mənalarda izahı müəyyən mənada həqiqətə yaxın və ya yanlış istiqamətin elmi nəticələri ilə müşahidə edilir. Onun "Nəqşi cahan" yozumuna gəldikdə isə, fikrimizcə, bu şəhərin gözəlliyinə istinadən, yalnız xalq etimologiyasından gələn bir etimoloji yozumdur. Göründüyü kimi bu problem ətrafında bütün araşdırmalardan ortalığa çıxan etimoloji izahları əsasən üç elmi konsepsiyada birləşdirmək olar.

**Birinci konsepsiyada** L.Hüseynzadə, A.Axundov, K.Allahyarov Ə.Fərzəli, İ.Mollayev və b. adın əsasən qədim ərəb-fars dilindən gəlməsi versiyasına və mifik söz tərkiblərindən yaranması izahına üstünlük vermiş, bəzən də Urartu dövlətinin etnik birliyinə (K.Allahyarov) istinad etməklə, bütün hallarda yad mənbə və dil elementlərinə əsaslanmışlar. Biz yuxarıda bunun yanlış, elmi əsası olmayan bir konsepsiya olduğunu söylədik.

**İkinci konsepsiya müəllifləri** F.Kırzıoğlu, C.Cəfərzadə, Q.Budaqova, M.Elli və b. bu adı əsasən türk dili və Şumer mifi ilə izah etmə cəhdləri milli baxımdan təqdir ediləsi hal olsa da, yenə burada qədim Şumer tanrısı "Nusku" adı, "nax", "naxra", "nakra" "nakç" sözlərinin "bərk",

"möhkəm", "xoş su" "yurdda qalan" mənaları tam olaraq elmi izahını tapmamış, etnosların iştirakı nəzərə alınmamışdır.

**Sonuncu üçüncü konsepsiyanın** müəllifləri Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun, AMEA-nın həqiqi üzvü İ.Həbibbəyli, İ.Hacıyev, Y.Məmmədov, AMEA-nın müxbir üzvlər V.Əliyev Ə.Quliyev, V.Baxşəliyev, Q.Qədirzadə daha sonra elmlər doktorları N.Xudiyev, A.Bağırov, F.Səfərli, A.Gümürlü və digərlərinin Naxçıvan və Nuh bağlılığı, o cümlədən "nax", "naxç", "naxçı" tərkibinin etnos-tayfa adı olması konsepsiyası həm tarixi, həm dil, həm də etnogenez baxımından xüsusi elmi əhəmiyyətə malik versiya olmaqla bərabər həqiqəti tapmaq istiqamətində daha doğru elmi fikirlərdir.

Bu üç versiyanın sonuncusuna bəzi tarixi faktları və qaynaq məlumatlarını da əlavə etməklə "Naxçıvan" sözündə "nax" tərkibinin bir prototürk-protoazərbaycan tayfası olduğunu, bu adın həm də Nuh adı ilə ilişgisini elmi dəlillərlə əsaslandırmağa çalışacağıq. İlk öncə "nax" tərkibli tayfa adının hansı mənbədə, hansı dövrdə və hansı ərazidə rast gəlindiyinə və bu istiqamətdə əsasən qeyri millətlərin apardığı tədqiqatlara da diqqət edək.

Yuxarıda da qeyd etdiyimiz kimi bu ölkənin ərazisi, etnik tərkibi və tarixi dövrü indiyədək heç bir Azərbaycan və digər türk alimləri tərəfindən araşdırılmamışdır. Q.V.Nosovski, A.T.Fomenko və A.N.Fomenko kimi rus tədqiqatçıları isə, Naxər ölkəsinin ərazisini siyasətə uyğun olaraq başqa ərazilərdə lokalizə etməyə çalışmışlar. Onlar öz tədqiqatlarında Naxər boyları haqqında müxtəlif fikirlər söyləməklə yanaşı elə bir məqalədəcə bu fikirləri təkzib edən sübutlara müraciət etmiş, bu konsepsiyanın doğru olmadığını öz yazıları ilə təsdiq etmişlər. Müəlliflər tərəfindən ortalığa atılmış bu yanlış ideyaya bir qədər ətraflı nəzər salmağı məqsədəuyğun hesab edirik. Müəlliflər "naxarain" sözünü naxa+rain kimi götürərək ikinci tərkibi "Rona" şəklində "çay" mənasında qəbul etməklə Volqa çayının əzəlki adına - "Ra" komponentinə uyğunlaşdırmaqla noqaylarla bağlamış və onu "noqay çayı" kimi izah etmişlər. Bu yozumda Naxər boylarının noqaylar olması siyasəti güdülürdü. Daha sonra ikinci "naxar" tərkibini "noqay" şəklində təhrif edən müəlliflər onları "məlum Noqay ordası" hesab etməklə XVII əsrə qədər Volqa çayı axarlarından Azov dənizinə qədər olan ərazilərdə kazax noqayları kimi göstərmişlər. Rus alimləri onları Vizantiya, Naxarin ölkəsi,

Noqay çayı və s. kimi tədqiq etməklə çarlıq şəklində Azov dənizi, Volqaboyu torpaqlarında "yerləşdirmiş", bu boyların II Yekaterina dövründə tamamilə məhv edildikləri qənaətinə gəlmişlər (540). Daha sonra bu müəlliflərin fikirləri haçalanmış, onların bir qrupu Naxər boylarının imperiya şəklində Yunan torpaqlarında lokalizə etməklə, Yunanların kənar bölgəsində Çar-Paytaxt ərazisi kimi göstərmişlər (540). Göstərilən məlumatların özü bu araşdırıcıların sabit konsepsiyadan çıxış etmədiklərini, fikirlərindəki ziddiyyətləri ortalığa çıxarır.

Öz araşdırmalarında Strabon, Pliniy Sekund, Ptolomeyə "Erməni coğrafiyas"ı əsərinə istinad edən çeçen tədqiqatçısı V.Astalov bu müəlliflərin əsərlərində çeçenlərin "qarqar", "sod", "xameket", "ksameteb" kimi xatırlanmaları ilə yanaşı "naxçamatep", "naxçamatyan", "noxçi/naxçi" kimi adlanmaları haqqında məlumat verməklə bərabər, XIV əsrdə Gürcüstan ərazisində "Naxçta" əyalətinin olduğunu da qeyd edir (293, s. 5-11).

Bir qrup Azərbaycan, rus, eləcə də Dağıstan xalqlarının elm adamları öz elmi məqalələri və monoqrafiyalarında tayfa adını Nax tayfaları deyil, Naxç tayfaları şəklində tədqiq edərək fərqli fikirlər söyləmişlər. Bu yazılarda Naxər boyları bəzən "Naxç", "Vaynax" adları altında tədqiq olunmaqla Qafqazın qədim əhalisi kimi Çeçenlərin ulu babaları hesab edilmişdir. Təbii ki, bu da tarixi faktlar müqabilində səhv bir versiyadır və biz bu fikrin doğru olmadığına dair bəzi faktlara və tədqiqatların nəticələrinə də diqqət etmək istərdik.

R.D.Arsanukayev naxçıların minilliklər boyu şimal ərazilərində necə məskunlaşması, sərhədlərinin harada bitdiyi haqqında məlumat verməklə, Alan tayfalarının naxçların varisləri olması məsələsinə toxunur, Qafqazda onlarla qohum tayfalar haqqında da məlumat verir (291, s. 97). Lakin, biz Alan tayfalarının bir türk tayfası olmaqla (324, s. 54), hələ e.ə. II əsrdə Şərqi Türküstanda Aral gölü və Xəzər dənizi Xarəzm və Cənub Ural arasında məskun olduqları zaman hunlar tərəfindən qərbə sıxışdırıldıqlarını, Neronun köçəri alanlara qarşı hücumunu görürük (121, II c., s. 444, 632, 672). Bu ərazi isə Qafqaz deyil və Alanlar böyük güc olmaqla təkcə ordu baxımından müasir çeçenlərdən qat-qat çoxdurlar.

Bu məsələyə öz fikirlərini bildirən gürcü tədqiqatçısı V.N.Qamrekeli L.Mrovelinin fikirlərinə əsaslanaraq Qafqazda naxç tayfalarının, eləcə də onlara qohum tayfa etnosların etnogenezinin formalaşması və tarixi

dəyişikliyini üç əsas proseslə izah edir. O, ilk olaraq bu tayfaların xəzərlərə (kitabda çöl tayfaları) məğlubiyyətini və bunun nəticəsi kimi şərq və qərb dağlılara parçalanmasını, ikinci isə e.ə. III əsrdə as-xəzər ittifaqının möhkəmlənməsi ilə yeni "düzən" xalqlarının-naxların yüksəlişini qeyd edir. Müəllif, üçüncü mərhələni Teymurun hücumu ilə bağlayaraq XIII-XIV əsrlə əlaqələndirir (320, s. 29). Müəllifin fikrinə diqqət etsək, burada naxçların ilk görünüş tarixi xəzərlərin dövrünə (e.ə. III əsrə) təsadüf edir və bildiyimiz kimi qaynaqlar Naxər türklərini xəzərlərdən xeyli əvvəllərin tarixi proseslərində göstərir.

Bu baxımdan R.D.Munçayevin də fikirləri maraqlıdır. O, Vaynaxların təşəkkülünün neolit dövründən orta əsrlərə qədər davam etdiyini göstərir (414, c. 137). Bu problem ətrafında Y.S.Vahabovun fikirləri bir qədər həqiqətə uyğundur. Məsələyə diqqətlə yanaşan müəllif, naxların əvvəllər Şimali-Qafqazda yaşamadığını, Qafqaza yaxın düzənlərdə məskun olmaqla sarmatlar arasında yayıldıqlarını, Nax dilinin burada aparıcı dil olmaqla, genetik cəhətdən sarmatlarla əlaqəli olduqlarını qeyd edir. O, sarmat dilinin Nax dilindən gəldiyini bu tayfaların e.ə. V əsrdə Midiya tərkibində olduqlarını yazır (312, s. 174-182; 313, s.170).

Ümumən Nax tayfalarının dili və onların əraziləri haqqında geniş tədqiqat aparan Y.S.Vahabov Nax tayfa adının Nuh adından gəldiyini qeyd edir N.Semyonova istinadən Naxç tayfalarının əcdadlarının Naxçıvan ərazisindən gəldiyini, əvvəllər İraq ərazilərində olduqlarını, bir müddət Naxçıvanda yaşayaraq şimala doğru yayıldıqlarını yazır. Sonra Y.S.Vahabov e.ə. III minillikdə Hürrüt yazılarında Nax tayfa adının olduğunu, bu tayfaların həqiqətən də Naxçıvandan Çeçen ərazilərinə gəldiklərini elmi cəhətdən əsaslandırır. Müəllif Naxçıvan ərazisini qədim mədəniyyət mərkəzi kimi e.ə. III minilliyin əvvəllərindən mövcud olduğunu qeyd edir (313, s. 159, 160).

Bu versiyalarla bağlı bəzi məqamlarda həqiqətə uyğunluqla yanaşı yanlışlıqlarla da rastlaşırıq ki, qədim qaynaqların yetərincə məlumatları, eləcə də Herodot, Strabon, K.Ptolomey, Plutarx kimi antik tarixçi və coğrafiyaşünasların yazıları Nax boylarının ana yurdunun elə Naxçıvan-Naxər ölkəsi olduğunu təsdiq edir. Biz yuxarıda III konsepsiya müəlliflərinin doğru olaraq NAX morfemini "naxç", "nax", "naxçı" yazılışlarında tayfa adı kimi qəbul etdiklərini yazdıq. Qaynaq məlumatlarına əsasən biz Naxər tayfalarının bir türk boyu olduğuna dair bəzi faktlara

da müraciət etmək istərdik.

Naxər türklərinin və ölkəsinin adı e.ə. XVI əsrdə, Misir firounu III Tutmosun dövründə (e.ə. 1504-cü il) yazılmış salnamələrdə qeydə alınır və buradakı tarixi proseslərdə ərazi Mitan dövlətinin şimal-qərbində göstərilir. Salnamədən oxuyuruq: "O, mənfur Kadeşli rəqib, keçmişdə Misirə itaət edən bütün ölkələrin hakimlərini öz ətrafına toplamışdır. Hamını-Naxarinadan (Mitan ölkəsi) tutmuş ta Suriyaya kimi..." (120, I c., s. 344-346; 271, s. 174).

Məlumatdan da aydın olduğu kimi Naxçıvan qədim Midiyanın qüdrətli əyaləti olduğu kimi, Naxər də Mitan dövlətinin ölkəsi idi. Heç şübhə yoxdur ki, Naxərlər Misir firounu III Tutmosun salnaməsində yer alana qədər ölkə halında xeyli əvvəl formalaşmış, bu proses isə təbii ki, hadisələrdən ən azı 1500 il qabaqkı bir dövrdə baş vermişdir. Qaynaqlar Mitan dövlətinin hürrülər tərəfindən e.ə. XVIII əsrin əvvəllərində Mesopotamiyanın şimalında yarandığını, elə o dövrdə də Naxarin-Naxərən (Nax igidləri, ərənləri -F.R.) ayrıca bir ölkə kimi onun şimal sərhəddində yerləşdiyini göstərir. Şübhəsiz ki, Assuriya torpaqları və ətraf ölkələrdən vergi alan Azərbaycanın ən qədim Mitan dövləti qədim türk Naxər ölkəsini də öz təsiri altında saxlamışdır. Qədim Azərbaycanımızın e.ə. III minilliklərə aid bu qədim türk dövlətlərinin torpaqlarında sonrakı minilliklər tariximizdə xüsusi yeri olan Aratta, Manna, Midiya, Albaniya və Atropatena kimi dövlətlər yaranmışdır. Bəs bu ölkə adı araşdırmalarda hansı ərazidə lokalizə edilirdi?

Herodotun məlumatlarına görə Matiena-Mitan süqut etdikdən sonra Midiyanın şimal-qərbində bir əyalət kimi Dəclə və Fəratın yuxarı axarlarından Urmiya gölü ətrafına qədər bir əraziyə dayanırdı və müəllif, Araz çayının məhz Matean dağlarından Naxarin ölkəsinə axdığını yazır (9, I 202;. V 52). Eyni fikir ümumdünya və şərq tarixinə dair məlumatlarla da təsdiq olunur (120, t. I, s. 315-320; 271, s. 223-235 ). Naxərən ölkəsi isə bu antik müəlliflərin və III Tutmosun məlumatına əsasən onun şimalında yerləşməklə, sərhədləri hazırkı Naxçıvan ərazisi və onun əzəli torpaqları ilə birgə Araz çayı hövzəsi olaraq göstərilir (120, I c., s. 344-346; 271, s. 174; 540).

Çoxsaylı araşdırmalar eləcə də digər əhəmiyyətli bir fakt da ərazinin qədim mədəniyyətin başlandığı bir sivilizasiya mərkəzi olduğunu təsdiq edir. Biz müqəddəs kitab Bibliyada Avraam oğlu İsaaka Xanaan

ölkəsindən deyil, Mesopotamiya ərazisində Naxər (kitabda Naxor) şəhərindən arvad alması üçün qulunu bu şəhərə göndərməsi hadisəsini oxuyuruq. Burada hadisələrin davamı olaraq İsaak İakovu yanına çağırıb onu Harrana-Arana (kitabda Xarran) göndərir və bu da Mesopotamiya ərazisində Naxər şəhərinə yaxın ərazidir və o, şərqə doğru gəlib Naxər övladlarının yurdu Harrana-Arana çatır (4, 24, 10, s. 32; 4, 29, 4-5, s. 39).


Kitabda verilən bu məlumatlar təsadüfdürmü? Əlbəttə yox. Naxçıvan ərazisindən keçən Araz çayı və Arpaçayı vadiləri qədim mənbələrdə Arran-Muğan adlanmışdır (243, s. 86-92). Araz çayının bir adının isə Bibliya kitabında "Qixon" olduğu haqda məlumatlar mövcuddur. Çoxsaylı mənbələri izləyən Q.Qədirzadə Recinad Artur Uelkerə istinadən Araz adının Bibliyada adı çəkilən Qixon çayı olduğunu və bunun qədim mədəniyyət beşiyi dörd çaydan biri olduğunu yazmışdır (ətraflı bax, 188).

Mənbə məlumatlarından biri də Naxçıvanın ərazisi və ölkəsinin yeri baxımından xüsusi əhəmiyyət daşıyır. Biz Ammian Marselinin yazılarında Nişaa adında Midiyada Araz ətrafında ölkə adı ilə rastlaşırıq (3, XXIII,6, 30). Əgər xatırlasaq bəzi mənbələr Naxçıvanın adını "Nəşəva" yazılışında, Büsütun qaya yazıları isə "Niseya", "Nisa" yazılışında verirdi. Yuxarıda da qeyd etdiyimiz kimi orta əsr ərəb-fars müəlliflərindən Əl-Bəlazuri, İbn əl-Fəqih, Qudm ibn Cəfər, Həmdullah Qəzvini və digərlərinin əsərlərində biz ada "Nəşəva", "Nəxcəvan", "Nəqşi-cahan" və s. yazılışlarla rast gəlirik (185, s. 10-12; 223, s. 23; 168, s. 31). Məlumatdan da göründüyü kimi ərazi ölkə kimi Midiya dövlətinin tərkibində də mövcud olmuşdur.

Bundan sonra Naxçıvan-Naxər ölkəsi adının Urartu yazılarında MÂTU NAKRU yazılışında qeydə alınması və Lulubəy türkləri ilə yanaşı göstərilməsi (202, s. 21-29) onun ölkə halında mövcudluğunun digər birmənalı təsdiqidir. Bu məlumatla bağlı bir məsələni xüsusi olaraq qeyd edək ki, mənbədə Naxər ölkə adı Lulubi ölkə adı ilə yanaşı çəkilməklə Q.A.Melikişvili tərəfindən rus dilində MÂTU NAKRU "strana vrajeskaya" - düşmən ölkə kimi tərcümə edilmişdir (yenə orada, s. 20-30 ). Lakin bildiyimiz kimi, "mat/bat" sözü qədim türk dillərində "ölkə", "yurd" kimi işlənmişdir. Bu məlumat da tarixi baxımdan xüsusi əhəmiyyətə malikdir. Bildiyimiz kimi ermənilər Urartuları özlərinin

ulu babaları hesab edirlər. Məlumatdan da göründüyü kimi Urartular Naxər ölkəsini düşmən ölkə hesab edirlər. Bu məlumat ermənilərin əsassız uydurmalarını bir daha təkzib edir.

Tərəfimizdən tərtib olunmuş bu xəritədə e.ə. III minillikdə prototürklərin tam mərkəzində yerləşdirdiyimiz təsvir etdiyimiz Naxər- Naxərərən ölkəsi Herodotun və III Tutmosun məlumatlarına əsasən göstərilən əraziləri əhatə edirdi. Əgər xəritəyə diqqət etsək buradan da göründüyü kimi Naxər ölkəsinin ərazisi Naxçıvanın əzəli torpaqları olan İrəvan, Sisyan, Zəngəzur, İğdır, Ağrı, Kars, Kağızman, Ərzurum Van gölü ərazilərinə qədər dayanmış, Maku, Xoy, Poldəşt və s. bölgələrlə, əsasən Araz hövzəsi boyunca Göyçə-Sevan gölü də daxil olan sərhədlərlə məhdudlaşmışdır (ətraflı bax 77, 110), etnik tərkibində isə xəritədən göründüyü kimi prototürk tayfaları ilə birlikdə Naxər türkləri də As türklərinin təsiri altında olmuşdur (-F.R.).



Bütün bu məlumatlar rus müəlliflərinin Naxəran ölkəsini yanlış yerdə lokalizə etdiklərini göstərir. Lakin buna baxmayaraq rus müəllifləri doğru olaraq ölkə əhalisinin etnik tərkibini naxar, qiksos-gök as, kaskey, kassit, mentu, türükkü, su, subar, bulqar və s. prototürk-protoazərbaycanlılardan ibarət olduqlarını göstərmişlər (540). Bu tayfalar əski türk boyları olmaqla Manteana-Mitan, Aratta, Manna, Midiya və Atropatena dövlətlərində yaşayan xalqların ulu babaları olmuş və onlar öz izlərini bu günkü Naxçıvan toponimik sistemində günümüzə qədər qoruyub saxlamışlar. Naxəran ölkəsinin ərazi bütövlüyü istər Manna, Midiya və Atropatena dövlətləri zamanında, istərsə də XIX əsrin əvvəllərinədək XII-XVII əsrin tarixini əks etdirən Osmanlı qaynaqları və digər sənədlərdə də qalmaqdadır (111, s. 24,31, 73; 77, s. 35-41, 182; 121, I c., s. 260-261; 271, s. 339).

Əski Misir salnaməsində Naxər boylarının və ölkəsinin Misirə qarşı dayanması, bu adın xüsusi qeyd olunması onların böyük güc olduqlarından da xəbər verir. Tarixi məlumatlar da bunu təsdiq etməkdədir. Naxərlər istər öz ölkələri və Mitan dövlətində, istərsə də bu ölkəyə tabe olan ərazilərdə əsas ordu dəstələrini özündə birləşdirirdi. Sonralar Midiya kimi qüdrətli Azərbaycan türk dövlətinin tərkibinə qatılan Naxər türkləri massagetlərlə bərabər burada da ordu işlərində fəallıq göstərmiş, bəzən isə çarın belə yürütdüyü siyasətə təsir edə bilmişlər. Qaynaqlar Aleksandr Makedonskinin Midiyanı süquta uğratdığı və Atropatenanın yarandığı dövrlərdə naxərlərin türk massagetlərlə bərabər makedoniyalılarla mübarizəsi haqqında məlumat verir (121, II c., s. 425; 271, s. 400). Lakin qeyd etmək lazımdır ki, keçmiş Mitan dövlətinin Urmiya ətrafı və Naxarin ölkəsi İsgəndərin hücumuna məruz qalmamışdır, onlar öz həmvətənliləri protoazərbaycanlılara kömək məqsədi ilə bu döyüşlərdə iştirak edirdilər. Bunu Strabon, Arrian Marselli və Plutarxın yazıları və bəzi araşdırmalar da təstiq edir (31, VII, 16, 1; 27, s. 380-383; 271, s. 399-403; 321, s. 49, 157, 191). Lakin bir məsələni də xüsusi olaraq qeyd etmək lazımdır ki, tarixi qaynaqlar naxərləri əsasən türk massagetlərlə və saklarla birgə xatırladır. Lakin naxərlər Misir fironu III Tutmosun salnaməsində bu tayfalar olmadan qeyd olunur (271, s. 397-404).

Azərbaycan, Qazaxıstan, Özbəkistan, Yakutiya, Xakas (Xa Kaslar) ərazilərində naxərlərin məskunlaşması bu etnosun iri tayfa ittifaqı olduğundan xəbər verir. Naxçıvancıq yer adının Ağcaqala mahalında

(Uca saklar) olması, qədim sak şəhəri olan Şəkinin sonradan "Nuxa-Naxa" adlandırılması təsadüfi deyil, bu tayfaların bir yerdə fəaliyyətindən, ittifaq birliyindən xəbər verir. Naxçıvan ərazisində Sak və Naxər türklərinin kompakt şəkildə yaşaması yer adları ilə də təsdiq olunur ki, bu da bu tayfaların bir yerdə fəaliyyətindən sakların güclü naxərlərlə birgə ittifaqından xəbər verir. Yeri gəlmişkən xüsusi olaraq qeyd etmək istərdik ki, mənbələrdə e.ə. IV minilliyin sonu, II minilliyin əvvəllərində tarix səhnəsində olan Şu türkləri ilə Sak türklərinin birgə fəaliyyəti ("Şu Saka" dastanını xatırlayaq) "sakların e.ə VII əsrdə siyasi meydanda olması" versiyasını da tamamilə təkzib edir. Biz saklar haqqında danışarkən bu barədə aşağıda geniş məlumat verəcəyik.

İkinci onomastik vahidlərdəki e.ə. II-I minilliklərə dair şəxs adları və toponimlərdəki "es/is" – "zəka", "ağıl" sözünə xeyli prototürk toplumlarının adlar sistemində də rast gəlirik. Qədim Kas türklərində "es/is" – "zəka", "ağıl" tərkibinə aşrak/esrak sözündə, toponimlərdə, eləcə də, I Burna-Buriaş və II Burna-Buriaş (e.ə. 1375-1347), Yanzi Buriyaş kimi çar və şəxs adlarında (208, s. 58.), sak tayfalarında isə, Tomris, Eskarkapit, Kartazes, Eskolot, Eslak (e.ə. 503-530) (355, s. 13, 228 c) çar və şəxs adlarında rast gəlirik. Mənbələr bizə yuxarıda qeyd etdiyimiz Nukus (Naxas) və Naxçedəniz adlarını da "Naxis-Naxış" yazılış formalarında təqdim edir (ətraflı bax, 77).

Qədim -cı,-an "məxsusluq", "mənsubluq" şəkilçisi də (53, II c., I h., s. 1451) əski tayfa adlar sistemində geniş şəkildə təsadüf edilir. Kaslarla bağlı Azərbaycan və Orta Asiya ərazilərində Qazançı, Qazancıq, Kazan, Kasan yaşayış məntəqə adları, bununla yanaşı Naxçıvan, Naxçıvancıq (Nax) yer adlarında da bu tərkiblə rastlaşırıq. Bütün bunlarla bərabər qədim türk sözü olan "çaq"-"böyük qüvvətli" və "çauq" yazılışında "qala" leksik vahidlərinin Naxçıvancıq toponimində, "Qüvvətli Naxlara məxsus", "Qüvvətli Nax qalası" (208, s 140-166) skiflərdə Taksak-"qüvvətli oğlan", (e.ə. 513), saklarda Pisak-"qüvvətli başçı" şəxs adlarında (284, s. 64) qorunması ərazi adlarının çox qədim dövrlərlə səsləşdiyini sübut edir. Araşdırmalar "nax" morfemi ilə işlənmiş "ər"-"kişi" komponentinin (Nəhəcir, Naxara adlarında), Manna hakimlərindən e.ə. VII əsrdə yaşamış Axşeri, e.ə. 719-cu ilə aid Erisin (yenə orada s. 117) kimi adlarda da müşahidə olunduğun göstərir. Qədim arxaik tərkiblərdən olan "van", "aq", "bay" komponentlərinin Tabay, Rayukki

kimi adlarda (314, s. 627-638) e.ə. IX-VIII yüzilliklərdən Midiya və Manna toponimlərində mövcudluğu və Naxçıvan MR ərazisindəki adlarda da təkrarı, adlarda qədim bir tarixin yaşadığını göstərən dil faktlarıdır.

Tarixi mənbələr Naxər türklərinin həm də qədim Alban ərazisində güclü tayfa və ordu birliyi kimi çar Arşak-Sak ərinin (sonralar Turidat adlanmışdır) hakimiyyəti dövründə (e.ə. 247-ci il) saray mühafizəsinə xidmət etdiyini sübut edir. Bu məlumatlara K.Qanzakski-Gəncəlinin məlumatlarında rast gəlirik (18, s. 49-51; 120, I c., s. 425; 271, s. 400). Herodot Midiya ərazisində e.ə. IX-VIII əsrlərdə böyük Nisay düzənliyini xatırladır, burada qeyri-adi iri at ilxılarının yetişdirildiyini yazır (23, VII, s. 327). Buradakı Nisay-Naxay düzənliyi Naxərlərə aid bir düzənlikdir və söz yunan dilində təhriflə qeydə alınır. Bu fikrimiz Yaqut əl-Həməvinin "Mucəm əl-Buldan" əsərində də dolayısı ilə təsdiq olunur. Müəllif, "Nəqcuan" və o kökdən olmayan "Nəşəva" (Niseya-F.R.) sözü Naxçıvan adının bəziləri tərəfindən deyimidir" (185, s. 10-12,18-21), - deməklə bu adın təhrif olunduğunu göstərmişdir.

Bəs tayfa adının III Tutmosun yazılarında daşıdığı "naxərin"-naxər tərkibinin adlanma - nominasıya üslubu hansı dil qanunları əsasında baş vermişdir? Tədqiqatlarda "ər" sözünün "igid, ərən, kişi" mənalarında işlənməsi haqqında dəfələrlə deyilmişdir. Bu gün də biz leksikonumuzda "ərlik", "ərən", "ər" sözlərinin elə "kişilik", "igid", "igidlik" mənalarında işləndiyini müşahidə edirik. Bu əski "ər" türk sözü, dil vahidindən ulularımız qədim türk boylarının, hətta ən qədim prototürklərin adlarının yaranmasında istifadə etmiş, onu bəzən tayfa adlarının sonuna as-Ər, (Asərbaycan-Azərbaycan adını öz adları ilə ad-landıran As boyları) kas-ƏR, sub-ƏR, bulq-ar/ƏR, kimm-er/ƏR, xəz-ƏR, kəng-ƏR, kənəs-Ər, dög-Ər, hunq-ar/ƏR, av-ar/ƏR, kati-ar/ƏR şəkillərində, bəzən isə ƏR-tus, ƏR-sak, ƏR-alat, ƏR/ar-suk və s. şəkil-lərində tayfa adlarının əvvəlinə artırmaqla tirə, boy adlarını öz dil imkanları hesabına formalaşdırmışlar (235 s. 339; 212, s. 82; 508, s. 91; 221, s. 30-31; 300, s. 226). Bu tip adlanma üslubu türk dilləri üçün xarakterik bir hal olmuşdur.

Tayfa adlarından göründüyü kimi "ər", türk dilinə məxsus komponent bütün hallarda canlı isimlərə, toplumlara aid olunmuşdur və "Nax" tər-kibinin artıq bir türk tayfa adı olması heç bir şübhə doğurmur. Belə

olan halda bu tərkib hansı məna çalarına malik olmuşdur və nə ifadə edirdi?

Biz qədim türk dili lüğətlərində "nax" tərkibinin k≈h≈x səslərinə uyğun bütün fonetik paralelliklərini nəzərə alsaq da, heç bir tərkiblə rastlaşmadıq, yalnız tərkibin "nek" yazılışında "böyük", "nük" yazılışında "varis" və "döyüş dostu", mənaları ilə qarşılaşdıq (37, s. 354, 357, 361; 41, s. 418-420). Bu sözlərin müəyyən mənada etnos adına keçmə ehtimalı olsa da, biz tərkibin Nuhla bağlı olması qənaətindəyik. Bu fikrimizin təsdiqi üçün bir tarixi prosesə də diqqət etmək yerinə düşərdi.

Araşdırmalar qədim türk tayfalarının adlandırılmasında mifik düşüncə və əsatirlərin təsirini ortalığa çıxarır. Qədim qaynaqlarda As, Türükkü, Kuti, Lulubi, Hürri, Naxər, Şu, Subar, Bulqar, Kas, Sak kimi yüzdən yuxarı prototürk boylarının adlanma prosesində o dövr, yəni e.ə. V-I minilliklərin mifik təfəkkür təsirini müşahidə etmək o qədər də çətin deyil (271, s. 251, 305; 120, I c,. s. 192, 299, 304, 457). Bildiyimiz kimi bu tayfa adlarının bir qismi antik müəlliflərdən Herodotun, Strabonun əsərlərində (23, I 153; III 93; 31, s. 137-138), digər bir qismi isə tarixi qaynaqların məlumatları, Assur, Het, Misir salnamələri və yüzlərlə tədqiqat əsərlərində xatırlanır.

Araşdırmalar belə türk tayfa adlarının əsasən teofor adlardan-Tanrı adlarından yarandığını və mifik inanclarla bağlı olduğunu sübut edir (-F.R.). Əski prototürk boylarında Tanrı adlarının o dövrkü tayfa və antroponimik- şəxs adlarının yaranmasında xüsusi rolu olmuşdur. Əgər yadımıza salsaq Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Luma, Şumukan və başqaları (5, s. 12, 15, 56-58) sonralar bu xalqın Şu, Şirak tayfa adlarında, daha sonra isə, onların varisləri Kuti, Lulubəy, Türükkü, Kassit və s. prototürk boylarının Saralqab, Elilumeş, Kadaşman Harbe, Kudur Enlil kimi çar adlarında təkrarlanmışdır (349, s. 128; 208, s. 50-51, 61). Şumerlərdə Huma tanrı adı Altay türklərində Umay şəklində, Şar tanrı adı taras, buryat, hunqar-macar miflərində Şara-Tanqa, Şarkan, Ki tanrı adı isə yunan və slavyan miflərində Kiy, Kibela kimi müqəddəs adlarda təkrarlanmışdır (105, I c., s. 647-648; 106, II c., s. 640). Bu Tanrı adları müasir Humay, Umay, Sara adlarımızda qalmaqdadır. Burada "Türk" tayfa adımızın da mənşəyi məsələsinə toxunmaq istərdik. Biz e.ə. IV-III minilliklər Tork tanrı adını qədim Mitan və türükkülərdə görürük (106, II c., s. 521). Lakin rus siyasəti

"Ümumdünya tarixi" kitabında Tork tanrı adını "ermənilərin babası" və tanrısı kimi qələmə vermişdir (yenə orada, II c., s. 521, 606). Halbuki, bu dövrdə ermənilərin ulu babaları friqlər hələ tarix səhnəsinə çıxmamışdır. Bildiyimiz kimi yüzlərlə mənbə, qaynaq və hətta erməni müəlliflərinin tədqiqat "əsərlərində" onlar e.ə. VII-V əsrlərdə Frakiyadan Hetlərin Hayasa ölkəsinə gələrək assimilyasiyaya uğramış və "hayasa" adlanmış, daha sonra isə e.ə. V əsrdə türklərin Ərmən yaylasına köçərək yenidən türklər tərəfində assimilyasiya olunaraq "hayasa" adını dəyişib "erməni" adını qəbul etmişlər. Onların mifologiyası və adları digər xalqların tarixlərindən oğurlandığından, Topk tanrı adı ermənilərə türklərdən adlamışdır (404, s. 6-10; 434, s. 26-34; 427, s.140; 210, s. 39-41).

Ümumən e.ə. V-I minilliklər prototürk tayfa adlarına diqqət etdikdə biz Ki və Utu Şumer tanrı adından Ki+utu-Kuti türk tayfasının, Şar tanrı adından Şir+ak, Şir tayfasının, Şumukan tanrı adından Şu+mu+kan-Şu tayfa adlarının yarandığını görürük. Bu eynilik Nuh və "Nax" türklərində də nax+ər kimi təkrar olunmuşdur (-F.R.). Bu isə bir təsadüf deyil, qədim bir xalqın adlanma-nominasiya prosesində onun mifik təfəkkürünün rolunun göstəricisidir.

Bir daha qeyd edək ki, Nuh obrazı Şumer-türk dastanından dünya mifinə adlamışdır (207, s. 178-179, 220; 5, s. 6) və əgər "Nuh" obrazının bu qədimliyi nəzərə alınarsa, o zaman bu addan adını götürən Naxər türklərinin də tarixi o dövrə dayanır. Bunu digər bir məlumat da təsdiq edir. E.ə. III minilliyin hadisələrini əhatə edən "Bilqamıs" dastanında Nuh adının həm Utnapişti, həm də Untapişti kimi yazılışını yadımıza salaq (5, s. 78, 83). Burada dilimizin fonetik hadisələri ilə bağlı, səslərin yer dəyişməsi-metateza və səs artımı-proteza hadisələrini müşahidə etmək mümkündür (222, s. 79-80). Bu dil hadisəsi nəzərə alınarsa "n" "u" səslərinin metateza və -h səsinin eleziyası-səsdüşümü hadisəsi Un-Nuh və Naxər türklərində "nax" komponentinin eyni dövrlə səsləşdiyini də ortalığa çıxarır. Nuh-Untapişti adından formalaşan Naxər boyları e.ə. VI- IV minilliklərdə yaşamış şumerlərin "Biqamıs" dastanı ilə eyni tarixi dövrə aid olur ki, o dövrdə bu tayfaların Nuh mifi ilə adlanması-nominasiyası üst-üstə düşür.

Digər bir tarixi faktor da Nuh-Haxçıvan paralelliyinin tarixi həqiqətinə canlı sübutdur. Ərazidə ilk Tunc dövrü ilə səsləşən Gəmiqaya tarixi məkanı, buradakı türk mifologiyasından gələn rəsmlər və yazı

işarələri, kromlex qəbirlər, onların ümumtürk yazı və rəsmləri ilə eyniliyi ərazini ən qədim mədəniyyət mərkəzi-sivilizasiyanın başlandığı bir məkan kimi təsdiq etməkdədir. Buradakı yazı və rəsmlərin ümumtürk yazı və rəsm nümunələri ilə müqayisədə eyniliyi də fikrimizin təsdiqi üçün yetərlidir (241, s. 113-122; 149, s. 16-21). Ərazinin toponimik sistemi tərəfimizdən tədqiq edilərkən buradakı adlar da Nuhla bağlı xeyli sayda tarixi məlumatı təsdiq etdi. Gəmiqayadakı rəsmli daşlar ərazisindəki Nuhla bağlı Nəbi yurdu, Qaranquş yaylağı, Qəzər yurdu və Nəsirvaz-Nisir, Qudu yurdu- Kudur Enlil, Bilbil yer- Bilqamıs, Nəbi yurdunda İrni yer-tanrı məkanı İrnini, Sarı dağ-Saria dağı kimi adların "Bilqamıs" dastanında da təkrarı (bax, 5, s. 42, 44, 90) təbii ki, hər hansı bir təsadüfün deyil, buradakı tarixi həqiqətin izləridir (Ərazidəki adlar haqqında məlumat verməklə ərazini bizə tanıdan o dövr Respublika Müəllimlər Şurasının sədri 81 yaşlı Babaxan Sultan oğlu Muradova və Cahangir Alhümbət oğluna dərin minnətdarlığımızı bildiririk).

Adın Nax+ər forması Şumer türklərinin Ki, Utu, Şar, Şumukan tanrı adlarından formalaşan Kuti, Sir, Şu, Şubar-Subar tayfa adlarının ar/ər-"igid", "kişi" komponenti ilə (324, s. 53-57) yuxarıda da qeyd etdiyimiz kimi Sub+ər, Xəz+ər, Bulq+ər və s. tayfa adlarının "Nuh+ər", "Nax+ər" yazılışında təkrarıdır. Heç şübhəsiz "Nuh" adı e.ə. VI-III minilliklərin advermə-nominasiya prinsipinə uyğun olaraq etnos adına çevrilmişdir. Bu isə ümumilikdə türk tayfalarının adlanma ənənələri ilə tamamilə eynidir. Bu problem ətrafında biz Naxçıvan və Nuh mövzusu ilə bağlı bir neçə məqaləmizdə geniş məlumat vermişik (184, s. 303-312; 248, s. 6-14).

Mənbədən aydın göründüyü kimi ərazi Mitan dövləti yaxınlığında onun ölkəsi kimi verilir. O dövr bu ərazidə adlarını yuxarıda qeyd etdiyimiz dövlətlərimizin tərkibindəki yuxarıda da qeyd etdiyimiz quti, lulubi, su-şu, hürrü, subar, türükkü kimi protoazərbaycan boyları naxərlərlə birgə tarixi proseslərə qatılırdı və onlar Urmiya, Van gölləri, Araz, Dəclə və Fərat yaxalarında, qarşısı alınmayan güclü tayfa hesab olunurdu (120, I c., s. 192, 286, 311, 550; 353, s. 109, 116; 343, s. 50-55).

Daha bir maraqlı faktı da nəzərinizə çatdırmaq istərdik. Hürrit tayfaları haqqındakı mənbələrdən birində hələ e.ə. IV minillikdə, hələ Mitan ayrıca dövlət halına gəlməmişdən Hürritlərlə naxərlərin Naxura

("Naxların qurduğu"-F.R.) adında çarlıqları olduğu göstərilir. Bunu son dövrlər Kiçik Asiya deyilən müasir Türkiyə ərazisinin Kamışlı şəhərindən 30 km. aralı Çakar Bazardan e.ə. II minilliyə aid tapılan sənədlərdəki hürritlərin Urkiş, Eluxat, Naxura çarlıqları da sübut edir). -

Türk dili qanunları əsasında nominasiyanı-adlanmanı biz qədim Kas türk tayfalarında da izləyirik. Tarixi qaynaqlarda e.ə. III minillikdə kassit, kaşşu, kaskeylər adları kimi proseslərin iştirakçıları olan (120, I c., s. 299, 316, 379) Kassi türklərinin - protoazərbaycanlıların mifologiyasında Kaşşu, Harbe, Şixu, Sax, Kamulda, İmmiriya kimi tanrı adlarına rast gəlirik (349, s. 129-132). Sonrakı tayfa adlarının müqayisəsi də teofor adların tayfa adına keçmə ənənəsini bu tayfalarda da müşahidə edildiyini bir daha sübut edir. Elə o dövr və sonrakı dövrlərdə biz Kaşşu tanrı adı ilə Kaşşu, Kas+it, Kaş+key tayfa adlarını, Harbe tanrı adı ilə Hürri tayfa adının yarandığını görürük (271, s. 251). Bundan başqa bu prosesi digər prototürk boylarının mifologiyasında da təkrarlanır. Kas tayfalarının mifindəki Şuxi tanrı adı və yenə də həmin dövrdə Şu, Şubar tayfa və sülalələri (120 I c., s. 448, 515, 316, 379; 271, s. 304-305), Kamulda tanrı adə və Kom+an tayfa adı (324, s. 355; 120, I c., s. 515), Sax tanrı adı və Sak-Saka türkləri (23, II 23; 120, I c., s. 457; 330, s. 84), İmmiriya tanrı adı və Kimmer (kimmeriya yalnız əvvəlinə k/ku-"şanlı" sözü artırılmaqla) türkləri (23, I 6, 103; IV 11-13; VII 20) və s. bu cür teofor adların tayfa adlarında təkrarının təkzibolunmaz sübutlarıdır. İ.M.Dyakonov sonuncu kimmer boylarını irandilli hesab etməyə çalışsa da (349, s. 96-98), iranşünas alim R.Fray bunun yanlış olduğunu elmi cəhətdən əsaslandırmışdır (472, s. 102-106).

Gətirdiyimiz tarixi fakt və nümunələrdən ortalığa çıxan yekun nəticə bu advermə-nominasiya hadisəsinin əski Azərbaycan türklərinin mifoloji düşümlərində xüsusi yer aldığını bir daha təsdiq edir. Zaman-zaman Naxər türkləri şimala doğru hərəkət etmiş, ümumtürk arealının coğrafi adlar sistemində öz izlərini "Nax", "Nak", "Naxar/ər", "Nah" şəkllərində əbədiləşdirmişlər.

Hazırda Yakutiyada Xatınqnax şəhər adı xatın-"qadın", "xanım" (dilimizdəki xanım-xatın ifadəsi kimi) türk dili komponenti ilə yaranmaqla oğuz dili ailəsi üçün xarakterik -q/nq- "sağır nun"la formalaşmaqla "Nax xanımları" mənasını daşımaqdadır. Şəhər adının Möminəxatun türbə adı ilə müqayisə etmək olar. Şəhərin yalnız qadınlara məxsusluğu

hadisəsinə biz əski tarixi qaynaqlarda Amazonlarla bağlı adətlərdə də rast gəlirik (31, XI. 5, 1). Buradakı digər bir şəhər adı Orto Naxara "orta" coğrafi nomen göstəricisi və ya orda-"əsgərlərin məkanı, yeri" (bax "Qızıl orda") mənasında coğrafi ada qoşulmaqla "Naxərlərin ordası" mənasını daşıyır.

Şərqi Qazaxıstanda Şemonaixa şəhəri, Qazaxıstanda Balxaş gölündən cənubda Çıqanax şəhəri, Xakasların sərhəddində Çuqunaş şəhəri, daha sonra Nakru, Naksos, Naxtankan, Nakuru kimi adlarda (103, s. 70-71, 73, 76, 99) "nax" tərkibinin müxtəlif fonetik paralelliklərlə oymak, yurt, çay, göl adlarında qorunması komponentin makrosistem təşkil etdiyindən xəbər verir. Bu tərkibdə yüzdən yuxarı ada biz keçmiş sovetlər birliyinin xəritəsində, eləcə də Qazax tarixinə dair kitablarda da rast gəlirik (ətraflı bax, 93, II c.). Nenlərdə Talnax şəhər adı da "tal/tel" qədim türklərdə "qoçaq, cəsur" sözündən olub (266, s. 67-68) "Nax" tərkibi ilə "cəsur naxlar" anlamını verir və Mannada toponim olan Talusin (e.ə. 729) sözü ilə müqayisə oluna bilir.

Özbəkistan ərazisində bu tayfa adını "nak/nax" şəklində yaşadan Nukus Muynak şəhər adları ilə rastlaşırıq. Əgər diqqət etsək adlarda Qıpçaq tipli dillərdəki türk dillərinə məxsus a»u, k»x, b»m fonetik paralelliyi müşahidə edilməklə (236, II c., s. 129-133) "muy" –"bəy", "us"- "zəka, ağıl" komponentləri (65, II c., s. 168-169; 45, s. 239-248) adları "Nax bəyliyi" və "zəkalı naxlar" mənasında etnooykonimə çevrilmişlər. Bu cür adlanma ənənəsi tarixdə türkdilli xalqların dövlətçilik ənənəsinə uyğun formalaşmış Xəzər çarlığı, İzmir bəyliyi, Danışməndli bəyliyi dövlət qurumu adları ilə paralellik təşkil edir. Bundan başqa ərazidə "nak/nax" tərkibli xeyli sayda toponimik adların digər qruplarına da rast gəlirik (99, s. 29, 148, 223). Biz bütün adların etimoloji izahlarına vermək niyyətində deyilik, yalnız bu adlardakı "Nax" tərkibinin etnos olduğunu diqqətə çatdırmaq istədik.

Naxərlərin adı Azərbaycanda Nuxa, Naxmatabad, Nahrexəllil, Naxand kimi xeyli yer adlarımızda qalmaqdadır (35, s. 74-77).

Orta Asiya, Altaylar və Sibir türklərində Naxər türk adlarının aslar, türükkülər, subarlar, kutilər və digər türk boyları kimi izlərinin mövcudluğu və bu tarixi proseslərin zaman fərqi e.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində ilk tarixi köçlərin şimala doğru olduğunu bir daha təsdiq edir. Eyni izləri biz Gürcüstan və Dağıstan

ərazilərində yaşayan azərbaycanlıların torpaqlarında da görə bilərik ki, Nixani, Nixandağ, Naxra, Nuxbat, Nuxbatı adları bu izlərin danılmaz sübutlarıdır (117, s. 232; 324, s. 164, 274; 103, s. 28, 40-41, 54-55, 74).

Naxçıvan MR və ona aid əski Dərəkənd, Sair Məvazi, Ağsaqlı və b. mahal və nahiyələrindəki ərazilərində biz "nax" tərkibli xeyli yer adlarına təsadüf edirik. Nəsəncan, Naxçedəniz, Naxçıvancıq, Nahdam (77, s. 28-29), müasir dövrümüzə gəlib çatan Nehrəm, Nəhəcir, Naxşı Nərgiz, Naharbaşı məscidi, Nağdı bulağı, Nahaq kimi 50-yə yaxın məntəqə, çay, bulaq, və s. adlarda türk boyları "Naxər" türklərinin adı yaşamaqdadır. Bu da naxərlərin qədim Naxçıvan diyarının yerli sakinləri olduğunu bir daha təsdiq edən tarixi faktlardır (184, s. 303-312).

Yuxarıda müxtəlif türk dilli dövlətlərin və bütöv Azərbaycan ərazilərində toplanıb etimologiyası verilən naxərlərlə bağlı onomastik vahidlərin toponim kimi formalaşma xüsusiyyətləri dilimizin eradan sonrakı və mövcud dövrümüzdəki toponim yaratma prosesindən əsaslı surətdə fərqlənir. Burada etnosun yayılma arealı və tərkiblərdəki arxaizmlər diqqəti daha çox cəlb edir.

Ən əvvəl "Nax" tayfalarının məskun olduqları ərazi həm də kuti, hürrü, kas, koman, sak və digər prototürklərin yayıldığı, yaşadığı ərazilərdir. Bu tayfalar isə e.ə. IV-II minillikdə Naxçıvan ərazisindəki yer adlarında öz adlarını yaşatmaqla bərabər arxeoloji qazıntılardan əldə olunmuş ınaddi-mədəniyyət nümunələrində və kurqan abidələrdə də öz izlərini qorumuşlar (243, s. 37-38, 73-74 ). Biz yer adlarının hansı türkdilli xalqlarda olduğunu yuxarıda qeyd etdik. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Yakutiya, Xakas (Xa Kaslar) ərazilərində naxların məskunlaşması bu etnosun iri tayfa ittifaqı olduğundan xəbər verir.

Bütün bu tarixi faktlardan sonra yuxarıda nümunə üçün verdiyimiz sözlərin tərkiblərindəki "nax" komponentinin etnos olması ehtimalını yoxlamaq üçün ilk olaraq "Naxçıvan" sözünün etimoloji izahına nəzər salaq. Öncə xüsusi olaraq qeyd etmək istərdik ki, türk tayfalarının adverma ənənələrində düşərgə, qəsəbə, məntəqələrin adlanmasında tayfa etnosların adları ilkin amillərdən biri idi. İlkin olaraq bu coğrafi adları öz adları ilə adlandıran tayfa etnoslar, sonra həyat üçün zəruri olan su mənbələrinə-hidronimlərə, dağlara, təpələrə-oronimlərə öz adlarını vermiş, daha sonra isə, digər adların adlanma prosesi baş

vermişdir. "Naxçıvan" sözünün etimoloji təhlili zamanı da onun etnos xarakterli olması bu adı formalaşdıran bütün yazıyaqədərki dövr türk dili elementləri ilə də sübut olunur. Belə ki, tarixi qaynaqlardan və antik müəlliflərin məlumatlarından göründüyü kimi nomenləşmə-adlanma əsasən tayfa adları və o tayfaların dil imkanları hesabına baş vermişdir. Yuxarıda qeyd etdiyimiz "Naxçıvan" sözünün müxtəlif formalarda işlənməsi və "nax" tərkibinin bu adlarda tayfa adı kimi birinci komponent olması istər qədim, istərsə də müasir dövr bütöv Azərbaycan və Naxçıvan MR ərazisində çoxlu yer adlarında rast gəlinməkdədir. Naxçıvan ərazisində bu tərkibli 16 məntəqə adı qeydə alınır. Onların etimoloji izahlarına da diqqət etməyi elmi cəhətdən əhəmiyyətli hesab edirik.

**Naxçıvan.** Biz yuxarıda Naxçıvan adının xeyli sayda qədim mənbələrdə adı çəkilməsinə dair mənbələri sadaladıq. Adın "nax" tərkibindən sonra yerdə qalan "çı" və "van" komponentləri ilə polisonim-şəhər adı (51, s. 112) kimi formalaşması zamanı komponentlərin daşıdığı mənalar birinci tərkibin canlı ismə aid olduğunu sübut edir. Bildiyimiz kimi türk dillərində "çı" məxsusluq, mənsubluq şəkilçisi, "van" komponenti isə adlara qoşulmaqla "yer", "məkan" ifadə edir. Əgər qədim türk dilləri üçün xarakterik olan b»v fonetik hadisəsini nəzərə alsaq "van" tərkibi "bun", "ban" yazılışlarında həm "nəsil, tayfa, tirə, soy", həm də "uca" mənalarını ifadə etmişdir (19, s. 94; 57, IV c., 2 h., s. 1813; 37, s. 81). Tayfa etnos adlarına qoşularaq yer adlarını yaradan "çı" şəkilçisinə biz peçeneqlərdə Kuerçu (508, s. 91), Bulqar türklərində Qazançı (300, s. 226) Alban tayfalarından Quşçu, Türkəçi (168, s. 149) və s. tayfa adlarında rast gəlirik. Sözdəki "van" tərkibinə isə yuxarıda da qeyd etdiyimiz kimi yalnız türk torpaqlarında Van, Vaskovan, Tatvan, Tavukvan, Turkavan İrəvan, Sevan, Ayqavan, İcevan, Bədrəvan, Dəştuvan, Şirvan Zərgəvan, Mincivan kimi yüzlərlə adda rast gəlirik (521, s. 102-103; 103; 358, s 469). Yekun olaraq deyə bilərik ki, adın tərkibindəki bütün komponentlər türk dilində olmaqla "Naxçıvan" adını "nax tayfası" mənasında izah edir.

**Nəhəcir.** Etnooykonim 1590-cı ilin arxiv sənədləri əsasında tərtib olunmuş məlumatlarda qədim Naxçıvan qəzasının Naxçıvan nahiyəsində "Nəhəcur" yazılışı ilə Göynük kəndi yaxınlığında göstərilmişdir (77, s. 164). Bundan sonra ad 1724, 1728, 1830 və digər dövrlərə aid

tarixi sənədlərdə Sair Məvazi nahiyəsində yenə də "Nəhacur" yazılışında göstərilir (110, s. 27). "Nax" tərkibinə qoşulan ac/ak- "uca" tərkibində biz türk dilləri üçün xarakterik k≈c fonetik hadisəsini izləyirik. Bu səsəvəzlənmə həm Azərbaycanın Naxçıvan, Şamaxı, Qazax, İsmayıllı dialektlərində, həm də Ərzurum dialektlərində "çəkic-kəkic, çeçə-keçə" variantlarında işlənməkdədir (266, s. 82; 507, s. 183-187). Tərkibdəki "ur"-"qurmaq, tikmək" komponenti isə qədim türklərdə və şumerlərdə də işlənmişdir. Etnooykonim "Uca naxların qurduğu" mənasında izah olunur.

**Nehrəm.** Bu coğrafi ada ilk dəfə 1590-cı ilin arxiv sənədləri əsasında tərtib olunmuş məlumatlarda qədim Naxçıvan qəzasının Naxçıvan nahiyəsində rast gəlirik (77, s. 165). Bundan sonra ad 1724-cü ilin məlumatlarında Qışlağat nahiyəsində Didabad kəndi yaxınlığında qeyd olunur (77, s. 145). Bu söz ərəb-fars mənşəli "nəhr"-"axar su, çay" sözü ilə ifadə olunsa da (168, s. 74, 170; 38, s. 476) burada "əm/em" sözü qədim türk dillərində "mən" və "xalq" (37, s. 41), M.Kaşğaridə, eləcə də, 45-dən yuxarı müasir türk dillərində "əmmək" "yaşamaq" felləri kimi işlənmişdir (41, s. 178; 64, II c., s. 271; 62, s. 712). Addakı ikinci "rəm/ram" morfemi qədim türk dillərində "ilk", soqdi uyğur təqvimində isə "ilin ilk ayı", "ilk ay" (37, s. 476) kimi təsadüf edirik. Göründüyü kimi sözü formalaşdıran digər komponentlər bütövlükdə qədim türk dili ilə izah olunur və onun yeganə "amm" variantı ərəb-fars dilində "xalq", "ümumxalq" kimi verilir (38, s. 21,) ki, bu da "ümumxalq çay, su" mənasında heç nə izah etmir. Bu tərkibdə arxasıra saitlərin önsıra saitlərlə əvəzlənməsi hadisəsi isə Azərbaycan, eləcə də türkmən, başqırd, tatar və s. dillərdə fonetik təzahürlərdir (168, s. 40-42, 86) ki, bu da adın ərəb-fars sözü ilə heç bir əlaqəsi olmadığını sübut edir. Söz bütövlükdə türk dillərinə məxsus a≈e, e≈u, h≈x fonetik hadisəsi ilə qədim türk tayfa adı olan "Heh/nax" sözü və "əm/em" qədim türk dillərinə məxsus "mən" və "xalq" komponentlərindən formalaşmaqla "Nax xalqı", "mən naxam" mənalarında qədim türk sözləri ilə izah olunur. Addakı Neh/Nuh tsözü isə bəlkə də adın ən qədim nominasiya-adlanma variantıdır.

Naxçıvancıq. Etnooykonim Naxçıvan qəzasının Ağcaqala nahiyəsində Qamışlı, Soruncuq kəndləri yaxınlığında 1590-cı ilin məlumatlarında göstərilir (77, s. 169). Sonrakı mənbə məlumatlarında ada təsadüf

etmirik. Toponimin "Nax" tərkibi etnos, -çı "məxsusluq şəkilçisi", "van/ban"-"uca, yüksək" (208, s. 69) və yuxarıda qeyd etdiyimiz kimi "tayfa, soy" bildirmişdir. Buradakı "çıq/çaq" morfeminə gəldikdə isə bu leksik vahid "şak" yazılışında qədim elamca və türkcə "uşaq" mənasını ifadə etmiş (353, s. 103), qədim Azərbaycan dilində "böyük", "əzəmətli" mənalarını daşımışdır (168, s. 160-163). Biz qədim türk dilləri və sözlüklərdə tərkibin "çauq"-yazılışında "qala" mənasında işləndiyini, Oğlanqala qədim yaşayış məskəninin ilkin adının da Çauq olduğunu görürük (260, s. 85). Beləliklə, sözün etimologiyası əski türk dilində "Əzəmətli nax soyu" və ya "Uca nax qalası" mənalarında izah olunur. Məntəqə adlarının yaranmasında etnosların rolunu nəzərə alaraq biz "Əzəmətli nax soyu" mənasına üstünlük veririk. Əxinəkiğ. Bu etnooykonim 1590-cı ilin arxiv sənədləri əsasında tərtib olunmuş məlumatlarda qədim Naxçıvan qəzasının Abaran nahiyəsindəki Lələ və Yaqubdərviş kəndləri yaxınlığında qeydə alınır (77, s. 174). Fikrimizcə, adın tərkibindəki "Əxi" sözü Nax+ağ tərkiblərinə sonralardan qoşulmuş, etnooykonim ilkin variantında "Naxağ" yazılışında "Uca naxlar" mənasından təhrif olunaraq bu şəklə düşmüşdür. Çunki "Əxi" cəryanı, əxilik fəlsəfi düşüncəsi, onun yayılması və inkişafı mənbələrə görə e.ə. IX əsrlərdə türk şamançılığı ilə başlamış, daha sonra hürufiliklə vəhdətdə X-XI əsrlərdə daha da inkişaf etmişdir. Biz bu barədə geniş məlumatlara əski dövr müəllifləri İbn əl-Asir, Əbu Əli Həsən ibn Əli Xacə, sonralar isə A.V.Saqdıyev, M.Boys, Z.A.Quluzadə və digərlərinin əsərlərində rast gəlirik (ətraflı bax, 7; 376; 79, t.1; 447).

**Əşnək.** Maraqlı quruluşa malik olan bu etnooykonimin tərkibi qədim türk dili elementi "as"- "güclü, qüvvətli" komponenti və Nax tayfa adından yaranmaqla "Güclü, qüvvətli naxlar" mənasını daşıyır. Məntəqə adı ilk dəfə 1590-cı ilə aid sənədlərdə Naxçıvan qəzasının Talin nahiyəsində, Talin kəndi yaxınlığında qeydə alınır (77, s. 175). Sözün tərkibində türk dillərinə xas olan ə≈a, k≈x fonetik əvəzlənmə hadisəsi izlənməkdədir. Azərbaycan, o cümlədən də Naxçıvan ərazisində bu səsdəyişimi Culfa və Ordubad dialektlərində "xalça-xəlçə, qəmiş-qamış-kamış" və s. şəkillərdə müşahidə olunur (266, s. 40). Ada sonrakı mənbələrdə rast gəlmirik.

**Nəhri-Ənus.** Qədim Naxçıvan ərazisində Karni nahiyəsi daxilində göstərilən bu etnooykonim də ilk dəfə 1590-cı ilin məlumatlarında Mu-

sahacılı kəndi yaxınlığında qeydə alınır (77, s. 171). Fikrimizcə, ad ilkin variantında "Naxərənus" şəklində olmuş, daha sonra tərkib səsdüşümü nəticəsində təhrif olunaraq "Nəhri-Ənus" adı ilə verilmişdir. Etnooykonimin bərpa olunmuş variantı -an-"mənsubluq" şəkilçisi və "us"-"zəka, ağıl" tərkiblərindən formalaşmaqla adı "Ağıllı naxərlərin yeri" mənasında izah edir.

**Nəhadək.** "Uca naxların məkanı" mənasında olan bu etnooykonimin tərkibində türk dilləri üçün xarakterik olan ə≈a, h≈x fonetik əvəzlənməsini müşahidə edirik (266, s. 86). Bu səsəvəzlənmə ilə "nax" tərkibi qədim türk dili elementləri olan "at"-"yer, məkan" və "ak"-"uca" komponentləri ilə formalaşmaqla "Uca naxların məkanı" mənasında izah olunur. Naxçıvan qəzasının Zar nahiyəsində 1590-cı ilə aid arxiv sənədlərdə Qızılca kəndi yaxınlığında qeydə alınan bu məntəqə adı (77, s. 180), sonralar 1724-cü illərə dair məlumatlarda Sisyan nahiyəsində tam təhrif olunmaqla "Kələdək" yazılışında verilmiş (77, s. 151), 1728-ci ilin məlumatlarında isə məntəqə Dərələyəz nahiyəsində yenə də təhrif olunmuş şəkildə "Kələdək" yazılışında qeydə alınmışdır (110, c. 34). Fikrimizcə, bu sadəcə o dövr İslam dininin təsiri nəticəsində məntəqə adlarının ideologiyaya uyğunlaşdırılması prosesinin işarətidir.

**Nuhdaban.** Bu məntəqə adına heç bir mənbədə rast gəlinmir. Lakin K.N.Smirnovun Naxçıvan haqqındakı yazılarında bu ad məntəqə kimi deyil qədim Abbasabad qalası yaxınlığında göstərilir (454, s. 16). Bundan başqa 2005-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məslisin Sədri cənab Vasif Talıbovun xüsusi sərəncamı ilə Gəmiqayaya ekspedisiya zamanı Nəsirvaz kəndinin, eləcə də ölkəmizin El Ağsaqqalı Babaxan müəllim Nuhdaban ərazisini kəndin qərbində qayalıqların altında göstərdi. O, burada dağıdılmış məzar qalıqlarının son dövrlərə qədər mövcud olduğunu da qeyd etdi. Ərazidə saxsı və keramik qablar qalıqları buranın qədim yaşayış yeri olduğunu sübut edirdi (şəxsi müşahidə -F.R.). Daha sonra 2009-cu ildə keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumda Naxçıvan folklorundakı nümunələrdən bəhs edən akademik İ.Həbibbəyli bu yer adı haqqında yazırdı: "Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Oğlanları həmin yerdə yurd saldılar, adını da Nuhdaban qoydular". Bu ifadə ilə folklordan göstərilən nümunəyə əsasən müəllif, ərazini "Nühün dabanı dəyən yer" kimi izah etməklə onu məntəqə kimi

təqdim edir (197, s.55-68).

Biz A.Bağırovun tədqiqatlarında da bu yer adının məntəqə qalığı kimi qeyd olunduğuna rast gəlirik. Burada müəlliflər Nuhtaban sözünü "Nuhun düşdüyü dağın aşağı yeri" kimi izah etmişlər (154, s. 173). Lakin bu etimoloji izahların müasir leksikonumuzdakı "daban" sözü ilə əlaqələndirilməsi bu qədim tarixlə (8 min il) müqayisədə bir qədər özünü doğrultmur. Fikrimizcə, məntəqə adı Nuh/Nax tayfa adı ilə qədim türk sözü ta/tau-"dağ", "tərəf", "ban" isə "uca" mənalarında qədim türk sözləridir. Söz tərkiblərinin bu mənaları E.M.Murzayev, Y.B.Yusifov, T.Hacıyev, M.Kaşğari və b. tədqiqatçıların tədqiqatları və sözlüklərində də öz əksini tapır (48, s. 548; 489, s. 21-22; 44, s. 158, 244). Biz sözün "Nuhun uca dağı" mənasında olduğunu düşünürük.

**Naxçedəniz**. Ad Naxçıvan sancağına tabe olan Sair Məvazi nahiyəsində 1727- ci ilə aid məlumatlarda yaşayış məntəqə adı kimi qeydə alınır (77, s. 180). Məntəqə adını geniş araşdıran A.Bağırov bu istiqamətdə Z.Bünyadov, K.Nikitinin ad haqqındakı fikirlərini təhlil edərək doğru olaraq "naxç" komponentini Naxçıvan adındakı "Naxç" komponenti ilə bağlamışdır (154, s. 33).

Ad Nax etnos adından, eləcə də yazıyaqədərki dövr türk dili elementlər olan -çı "mənsubluq şəkilçisi", "ten" -"düzən", "iz/es" -"zəkalı ağıllı" mənalı leksik vahidlərdən formalaşdır (243, s. 61). Midiya toponimlərində e.ə. 728-ci ildə "Tanza" yer adı olub və burada "tan" – "düzən" mənasındadır (208, s. 169). Qeyd edək ki, A.Bağırov bu sözün etimologiyasına toxunaraq addakı ikinci "dəniz" tərkibini türk dilləri sözlükləri ilə izah etmişdir (153, s. 167). "Naxçedəniz" məntəqə adıoykonimini müasir leksikonumuza uyğun olaraq etimoloji baxımdan "Naxlara məxsus dəniz" anlamında da izah etmək mümkündür. Lakin, bu etimologiya coğrafi əraziyə uyğun deyil və bizə belə gəlir ki, birinci halda "Naxçedəniz" sözünün "Ağıllı Nax düzənliyi" mənası həqiqətə daha uyğundur.

**Göynük.** İlk dəfə olaraq Naxçıvan qəzasına tabe olan Naxçıvan nahiyəsində 1590-cı ilə aid məlumatlarda Nəhəcir yaşayış məntəqəsi yaxınlığında qeydə alınan bu məntəqə eyni yazılışla 1728, 1830, 1924-cü illərin sənədlərinə də müxtəlif nahiyə, rayonların əraziləri daxilində göstərilməklə, qədim yaşayış məskəni kimi günümüzə qədər də öz fəaliyyətini dayandırmamışdır (77, s. 180; 110 s. 27). Tayfa adı və "göy-

gök" sözündən formalaşan etnooykonim "Göy naxları" mənasında "gök türklər", "gök aslar" kimi adlanmalarla eynilik təşkil edir.

**Bornax.** Sözün ilkin variantda Börinax olması qənaətindəyik. Burada o≈ö fonetik əvəzlənmə ilə bərabər "i" saitinin də eleziyası-səs-düşümü olduğunu düşünürük. Bu halda "Böri" sözü qədim türk mifində "qurd" mənasını daşıyır. İlk dəfə olaraq Naxçıvan qəzasına tabe olan Maku nahiyəsində 1728-ci ilə aid məlumatlarda Ərəbli və Qarğılı kəndləri arasında rast gəlinən bu məntəqə adı (77, s. 42) "böri"-"qurd" komponenti nəzərə alınmaqla iki morfemlə formalaşmışdır. Biz qədim türk oğuz dastanı "Oğuznamə"də "böri"-"qurd" leksik vahidi ilə dəfələrlə qarşılaşırıq (486, s. 37) və bu qədim türk mifinə mənsub leksik vahid etnos məntəqə adının nominasiyasına-adlanmasında iştirak etməklə onu "Qurd Nax" mənasında izah edir.

**Xunax.** Bu ad ilk dəfə 1590-cı ildə Naxçıvan qəzasına tabe olan Abnik nahiyəsində Qurdluca və Abana kəndləri arasında Kiknav kimi (77, s. 177), daha sonra isə Dərələyəz nahiyəsində 1728-ci ilə aid məlumatlarda Kərinüd və Abana kəndləri arasında Xunax şəklində təsadüf edirik (yenə orada, s. 58). Biz sonrakı məlumatlarda bu ada rast gəlmirik. Etnooykonimin tərkibi yuxarıda qeyd etdiyimiz kimi qədim türk sözü olan "ku"-"şanlı, şöhrətli" komponentindən və "nax" tayfa adından formalaşmaqla "Şöhrətli Nax" mənasında izah olunur.

**Panix.** Naxçıvan qəzasına tabe olan İğdır nahiyəsində 1733-cü ilə aid məlumatlarda Elin və Ağaverdi kəndləri arasında rast gəlinən bu ad da (77, s. 66) etimoloji baxımdan və elmi cəhətdən xüsusi əhəmiyyətə malikdir. Qədim şumer türklərindən sonrakı prototürk boylarının adlanma sisteminə adlayan yazıyaqədərki dövrün "pi/pa"- "bəy" qədim türk leksik vahidi (208, s. 56) etnos adına qoşulmaqla sözü "Bəy naxlar" kimi formalaşdırır. Ad Kaspi, Subi, Silbi, Tatabi kimi tayfa adlarının quruluşu ilə müqayisə oluna bilər. Əgər diqqət etsək, yuxarıda da qeyd etdiyimiz kimi çeçenlər "nax" sözünü "naxç" və "vay+nax" kimi təqdim edirlər. Ola bilsin ki, naxların bir qolu Pinax adı altında Şimal Qafqaz ərazilərində məskunlaşmış, çeçenlərin ululları olmuşdur (-F.R.)

**Punus.** Naxçıvan adının "nəşəva", "niseya" yazılışları formasında qeydə alınan "nax" tərkibi -an "mənsubluq " şəkilçisi və qədim türk sözü "can/san" -"şan-şöhrət" ifadə edən sözlə formalaşmışdır. "Şanlı naxlara mənsub" yer mənasını ifadə edən bu məntəqə adının ilk qaynaq

məlumatı 1590-cı ilə təsadüf edir. Məntəqə o dövr Naxçıvan qəzasına tabe olan Vedi nahiyəsində aid məlumatlarda Çardaqlı və Qaraca Abbas kəndləri arasında göstərilir (77, s. 172).

**Nahdam.** Etnooykonim 1728-ci ilin məlumatında İrəvan əyalətinin Məzrə nahiyəsində Döyürək kəndi yaxınlığında göstərilir (77, s. 61). 1590-cı ilin məlumatlarında bu ada təsadüf etmirik. Mənbələrin özü qeyd edir ki, ilkin qeydə alınma səthi aparılmış və Naxçıvanın məntəqə adları bu məlumatlarda bütünlüklə əks olunmamışdır (yenə orada, s. 120). Etnooykonimin tərkibində "nax" tayfa adından əlavə "dam/tam" tərkibi ilə qarşılaşırıq. Mənbələr bu tərkibi üzərində bürclər olan "qala", "dam", "divar" isimləri və "qazmaq" fel kimi qədim türk dili leksik vahidi olaraq təqdim edirlər (42, I c., s. 153, 176; II c., s. 22, 108; 37, s. 529). "Nax qalası" mənasında olan bu etnooykonim türk dilinin qanunlarına uyğun nominasiya olunmuşdur. Ola bilsin ki, bu gün leksikonumuzdakı ümumişlək "dam" sözü əski "dam"-"qala" sözündən dilimizə adlamışdır.

Qaynaq məlumatları və adların etimoloji izahlarındakı əski prototürk leksik vahidləri bu tayfaların qədim tarixi ilə (e.ə. V minillik) tam səsləşməklə bu tarixi dövrü də təsdiq edir. Etimoloji izahlar zamanı Azərbaycan və Naxçıvan ərazisinin, eləcə də digər türk yurdlarının yer adlarında Nax etnos adı ilə işlənən "can/san"- "şan-şöhrət", "cıq/çauq"- "qala", "quvvətli", "cir/şir"-"işıq", "di/ti"-"tikmək", "ər"-"kişi", "kal, ak"-"uca, ulu, böyük", "bat"-"ölkə, yurd", "us"-"zəka, ağıl", "sit/sat"- "şad, zədagan", "tan"-"düzən", "tanq"-"dağ", "tam"-"qala", kimi yazıyaqədərki dövr dil elementləri, -an-"mənsubluq", -a-"kiçiltmə" şəkilçilər, öncə bu sözlərin canlı bir ismə, ada, tayfaya aid olduğunu təsdiq etməklə həm də, bu tərkiblərin türk dillərinə məxsusluğunu göstərən təkzibolunmaz dil faktlarıdır. Göstərilən türk dili leksik vahidləri bütün türk dilləri lüğətlərində, eləcə də E.V.Sevortyanın, V.V.Radlovun əsərlərində, "Qədim türk dili lüğəti" sözlüyündə geniş izahlarla verilmişdir (64, I c., s. 607; 52, I c., I h., s. 191, 676; 54, III c. I, h., s. 1616; 37, s. 410; 67, s. 138, 261).

Beləliklə, mənbə məlumatlarından və 16 məntəqə adının etimoloji izahlarından, eləcə də areal türk onomastikasında naxərlərin mövcud olması faktından ortalığa çıxan aşağıdakı elmi nəticələri qeyd etmək mümkündür:

1. Qədim Naxçıvan əhalisinin etnogenezi tarixində ayrıca yeri olan Naxər türk boyları e.ə. IV-III minilliklərdən qədim Azərbaycan, eləcə də Naxçıvan torpaqlarında yerli-aborigen sakinlər olmuş, bu ərazini Naxər ölkəsi adında öz adları ilə adlandırmışlar.

2. İstər adların etimoloji izahları, istərsə də tarixi məlumatlar və tədqiqatların tarixi faktları bu ərazinin qədimdən prototürklərə məxsusluğunu tam olaraq təsdiq edir.

3. Adlardakı yazıyaqədərki dövr türk dili morfemləri, elecə də fonem işarələrdəki eleziya, metateza və c. təzahürlər yalnız aqlyutinativ dillər üçün xarakterik hal olmaqla, prototürk dil imkanlarının e.ə. V minillikdən günümüzə qədər tarixi təkamül göstəriciləridir.

4. Etnooykonimləri yaradan əski dil leksik vahidləri və fonetik hadisələrin ümumtürk arealında yayımı, qədim salnamələrdə də təkrarı bu dilin prototürk-Azərbaycan dili olduğunu tam təsdiq edir.

5. Tayfa adının formalaşması-nominasiyası əski mifik türk inancına əsasən teofor xarakterli olmaqla Nuh adından qaynaqlanmışdır. Bu cür teoforik nominasiya əski türklərin demək olar ki, hamısında müşahidə olunmaqdadır.

6. Nax tayfaları zaman-zaman qurulmuş Mitan, Aratta, Manna, Midiya, Atropatena, Alban türk dövlətlərindəki türk boyları ilə bərabər naxçıvanlıların etnogenezində iştirakçı olmuş, qədim əzəli türk yurdu Naxçıvan yer adlarında zamanımıza qədər öz izlərini saxlamışlar.

## 3. TURUKKU-TÜRÜKKÜ BOYLARI

Bütün türk tayfalarını öz adı altında birləşdirməklə tarixə TÜRK möhürünü vurmaqla Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin etnik tərkibinin formalaşması və bütöv xalq kimi təşəkkülündə iştirakı olmuş xeyli sayda prototürk boylarından biri də Turukku (bundan sonra türükkü, türk) tayfaları olmuşdur. Qeyd etmək istərdik ki, bu tayfaların da tarixi, siyasi proseslərdə iştirakı, məskun olduqları əraziləri, dili, əsasən də Naxçıvanla bağlılıqları tədqiqatçılar tərəfindən tam tədqiq edilməmiş, buna görə də problem mübahisəli şəkildə qalmaqla, yekun elmi nəticə əldə olunmamışdır. Qədim qaynaq məlumatları və tədqiqatlardakı elmi nəticələrin Türükkü tayfa adını, dilini və tarixini fərqli dövrlərə və dillərə aid etməsi nəticəsində bu istiqamətdə elmə biri-birini təkzib edən fikirlər ayaq açmışdır. Belə səthi tədqiqatlarda

türklərin bir xalq kimi formalaşması əsasən eramızın IV-XI əsrlərinə aid edilmiş, onların vətənləri Altaylar hesab edilməklə qurduğu imperiyaların ərazisi, tarixləri və dili haqqında xeyli sayda təhriflər Avropa və rus, fars tədqiqatçılarının əsərlərində siyasətlərə uyğun olaraq yer almışdır.

Bütün bunlara baxmayaraq tərəfimizdən ilk dəfə Naxçıvanla bağlılığı, ərazisi və tarixi istiqamətində aparılan bu araşdırmada sadalanan problemlərin həllinə diqqət məqsədi ilə qədim qaynaq və antik müəlliflərin əsərləri yenidən tədqiqata cəlb olunmuş, nəticədə bu xalqın mənşəyi, dili və tarixi haqqında yeni tarixi faktlar aşkarlanmışdır. Əldə olunan faktlar təkcə onların tarixi, dili deyil, mifi və ərazisi, haqqında da məlumatlar verməklə, bu tayfaların İkiçayarası mədəniyyətlə daima təmasda olmasını, qədim Naxçıvanla bağlılığı ilə yanaşı türükkülərin bu ərazidə avtoxton sakinlər olduqlarını da sübut edir. Buna baxmayaraq tədqiqatçıların monoqrafiya və elmi məqalələrində, Naxçıvan əhalisinin etnogenezində iştirak edən bu prototürk-Azərbaycan boylarının e.ə. minilliklərdən zamanımıza qədər keçdiyi tarixi yol haqqında konsepsiyalar müxtəlif olmuşdur. Biz mənbələrə müraciət etməzdən əvvəl türükkülər haqqında məhz Avropa, rus, Azərbaycan və türk araşdırıcılarının yazılarında mövcud olan konsepsiyaya diqqət etməyi, bu versiyalara qısaca nəzər salmağı lazım bilirik.

Rus tədqiqatçısı S.Q.Klyaştornı və V.A.Livşiç XVIII əsrdə Sibir əraziləri və Minusiy hövzəsindən aşkarlanan qədim arxeoloji nümunələri "skif", "tatar", "orta əsr" türkdilli xalqlar mədəniyyəti kimi təqdim etmişlər (371, s. 40). Çin sülalələrinin tarixini tədqiq edərək Altay Minusiy arxeoloji mədəniyyəti və yazılarını qədim və orta əsr türk yazıları ilə müqayisə edən V.V.Radlov, V.Şot və N.Y.Biçurinin elmi nəticələri isə, bu tarixin dürüst öyrənilmədiyini ortaya çıxarmışdır (306, I h., s. 220-300; 440, s. 472).

Mərkəzi Asiya runi yazılarını oxunmasına bir daha səy göstərən S.Q.Klyaştornı və V.A.Livşiç mətnləri ümumiləşdirərək istər yazılar, istər onun tarixi, istərsə də hansı xalqa aid olmaları haqqında yenə də qəti fikrə gələ bilməmişlər (371, s. 42-46). Qədim türk abidələrinin orta əsrlər dövrünün dəfn mərasimləri digər əcnəbi alimlər S.V.Kiselyev, A.N.Bernştem və b. tərəfindən də tədqiq edilmişdir. Burada da bu xalqın dil və tarix istiqamətində yeni bir fikir söylənməmiş, hətta bu

adətlərin qədim türklərə aid olmadığı, onun IX əsrə aidliyi barədə yanlış bir konsepsiya irəli sürülmüşdür (305, s. 87-89; 369, c. 277-314). Nəhayət 1920-ci ildə V.V.Bartoldun və S.A.Teplouxovun arxeoloji mədəniyyət nümunələri və aşkarlanmış runi yazılar haqqında elmi nəticələri digər araşdırmalarla müqayisədə türklərin dili və tarixinin qədimliyi haqqında müəyyən müsbət elmi nəticələrə gəlməyə əsas versə də, "nədənsə" bu tarix miladdan öncəki minilliklərə aid edilməmişdir (299, s. 377-396: 458, IV c. II h., s. 55). Bu problem ətrafında tədqiqat və elmi nəticələr Avropa alimi V.Tomsenin tədqiqatlarında da özünə yer alsa belə TÜRK tayfa adı qədim tarixdən uzaqlaşdırılmış, onlar e.ə. tarixi proseslərə yaxın buraxılmamışdır. Təbii ki, burada işğal altında olan xalqların assimilyasiya siyasəti önə çəkilmiş, cild-cild yazılan əsərlər bu tayfaları miladdan sonra formalaşmış xalqlar kimi təqdim etmişdir.

Bütün bunlara baxmayaraq biz xeyli sayda qaynaq məlumatlarında e.ə. VII yüz ildə qədim türk yazılı abidəsi "Avesta"da xeyli sayda sak, massaget və s. qədim türk tayfa adlarının əsasən "tura" və Orta Asiya köçəri tayfalarının da "tur"- sürətli atlı tayfalar kimi adlandıqlarını görürük (382, s. 150). Avestada dəfələrlə qeydə alınan türk tayfa adının Tur yazılışında təqdimatına baxmayaraq rus-fars siyasətinin nəticəsi kimi bu türk boyunun adı farslara aid edilməklə, e.ə. IV-III minilliklər qədim Mitan və türükkülərin Tork tanrı adı isə yenə bu siyasi mövqedən "ermənilərin babası" və "tanrısı" kimi ermənilərə aid edilmişdir (106, II c., s. 521). Məhz bu konsepsiyanın təsiri nəticəsində bir qrup tədqiqatlarda bu məqsədlə tarixə siyasi yöndən yanaşılmış, "tura" sözünü necə olursa olsun ari tayfalarına aid etmək məqsədi güdülməklə yanlış konsepsiyalarda əsl həqiqət bir qədər də dolaşdırılmışdır. R.N.Fray "türk" adını Tür+k şəkilində hissələrə bölərək -k hərfini cəmlik şəkilçisi kimi götürmüş, "tur" kəlməsinin Mərkəzi Asiyada totem kimi işləndiyini, bunun isə arilərə aid olduğunu ciddi cəhdlə sübut etmək üçün yanlış faktlar göstərmişdir (472, s. 66-68).

Türk tarixinə ayrıca kitab həsr etmiş və onu "qədim" tarix kimi qələmə almış L.N.Qumilyev də özünün "Qədim türklər" əsərində heç də türklərin qədimliyindən danışmamışdır. O, bu əsərində yanlış fikirlərə daha çox yer verərək yazır: "Türklər-türükkülər bəşər tarixində cahanşümul əhəmiyyətlərinə baxmayaraq VI əsrdə yarandılar və azsaylı olduqlarından

da yoxa çıxdılar" (217, s.11-13). Müəllifin bu fikri bir daha Türk-türükkülərin e.ə. minilliklərdə tarix səhnəsində olmadıqları haqqında söylənmiş yanlış elmi nəticə idi və mövcud hakim quruluşun siyasəti ilə üst-üstə düşürdü.

Cənub Azərbaycanın daha qədim tarixindən, onların etnik tarixi və dilindən bəhs edən M.S.İvanov da e.ə. III-II minilliklərin hadisələrini siyasətə uyğun olaraq şərh edərək yazırdı: "E.ə. III-II minilliklərdə ərazidə oturaq həyatla bağlı Elam dövləti mövcud idi, onlar Şumer, Assur, Vavilon və Akkadla siyasi mədəni əlaqələrə malik idilər. Burada Suz çarlığı və onun paytaxtı Suz şəhəri olmuşdur əhali isə arilərdən ibarət idi. Mərkəzi Asiyadan gələn iran tayfaları ilə arilər-perslər birləşdilər" (358, s. 6-7). Qaynaqlarda tez-tez Urmiya gölü ətrafında o dövrlər məskun olan türükkü, subartu, koman, as, kuti, lulubi tayfalar əsas güclər kimi göstərilsə də, onlar siyasi proseslərin əsas iştirakçıları olsalar da belə, müəllif, nədənsə bu prototürklərin adını belə çəkməyə səy etmir. Halbuki, elə o dövrə aid qaynaq məlumatları, Hett, Assur yazıları ərazidə hürrü, turukki, şu, şubartü, kuti, lulubi və s. boylar haqqında məlumat verir (120, t.I, s. 310, 480, 514, 590). Bu səpkidən olan məlumatlara İ.M.Dyakonovun yazılarında da təsadüf edirik. O, Assur-Vavilon mənbələrini araşdırarkən buradakı həm ölkə, həm də tayfa kimi işlənmiş "turukki" sözünü "mât tu-ru-ki-i" yazılışında yalnız tayfa adı kimi qəbul etsə də onların prototürklər olduğunu qəbul etmək istəmir (347, s. 265-266). Məsələ burasındadır ki, bu müəlliflər həqiqəti nə qədər gizlətməyə çalışsalar da onu öz yazılarında belə tamamilə yox edə bilməmişlər. Əgər "mat" sözünün m≈b səsəvəzlənməsi hadisəsi nəzərə alınarsa ümumtürk arealında bu tərkib yuxarıda da qeyd etdiyimiz kimi "bat"- "ölkə", "yurd", "məkan" "vətən" mənalarında Astabat- "Aslar ölkəsi", Kasabet- "Kas ölkəsi", Akbatan-"uca yurd", Ordubad- "ordu məkanı" kimi xeyli sayda adlarda təkrarlanırdı (284, s.173, 205; 358, s, 10-11). Əlbəttə ki, sözlər Türükki yurdu, vətəni mənasında tamamilə türk dilində o dövrlər də işlənirdi. Bu tayfaların tarixi, ərazisi və dili haqqında qaynaq məlumatlarının təkzibolunmaz faktlarla zəngin olduğunu təsdiq etmək üçün onların bir qisminə diqqət etməyi elmi cəhətdən əhəmiyyətli hesab edirik.

Türükkü prototürk boyları haqqında geniş məlumat verən "Ümumdünya tarixi" türükkülərin adını çəkməsə də e.ə. IX əsr hadisələrindən bəhs

edərkən Tarkvin şəhər adının eyni adlı etnoslardan gəldiyini, onların Tarxan nəslindən olduğunu və bu adın Tarku-Türki (-F.R.) tanrı adından yarandığını deyərək onları turdilərin varisi olan etrusklarla bağlamışdır (120, I c., s. 632-633).

Biz K.Riemşnayderdən başqa, C.Myürrer, V.Erenberq, V.P.Yaylenko kimilərin tərcümələrində də belə yanlışlıqlarla qarşılaşırıq. Rus alimi V.P.Yaylenko türüklərin e.ə. XIII-XII əsr Yunan mənbələrindəki izlərinə toxunmaqla C.Myürrer, V.Erenberq və b. məqalələrinə istinad edərək onların ilkin dövr tarixini "qaranlıq əsrlər" adlandırmış, "trichaik"-"turkik" sözünü doray kimi 3 qol-boy olaraq (fila, tuqma, qalluy) oxumuş, türkləri doraylarla qohum qəbilə saymaqla onların öz dillərini və fila qolunun dilini isə Şimali Balkan- hind-avropa dilli, illiriya mənşəli hesab etmişdir. Müəllif, Tribul-"turu düzəni" sözünü Triphyl-"uç qol", şamanlıqla bağlı "agetas"-"uca atəş, od" sözünü (şamanlarda od, atəşi yadımıza salaq -F.R.) "predvoditel"-"başçı", "türeik"-"türk" sözünü "ueik" şəklində "plemya"-"tayfa", "obai"-"oba" "derevnya", "posyolka"-"kənd, qəsəbə" "komai" "koma, daxma" sözünü "xijina"-"daxma", "selskiy posyolok"-"kənd qəsəbəsi", "tas komai"- "daş koma" sözünü "kamennaya xijina"-"daş koma" kimi tərcümə etməklə özünün türk dilindən xəbəri olmadığını göstərmiş və bu sözləri türük-doray dilinə aid etsə də hind-avropa mənşəli hesab etmişdir (495, s. 3-14).

Əgər diqqət etsək burada sözlərə -i, u, e, saitlərinin artırılması, "turi"-"tayfa" sözünün "türeik"-"ueik" şəkillərində təhrifi, areal türk dillərində işlənən bütün bu sözlərin başqa dillərdə axtarılması təbii ki, səthi araşdırma və siyasi baxışların elmi nəticələrinə söykənən konsepsiya idi. Göründüyü kimi tədqiqatçılar sanki "türk" sözünü dilə gətirməyə ehtiyat etmiş, beləliklə də bir xalqın qədim dili və mədəniyyəti gizlədilməklə həqiqi tarixdən uzaqlaşdırılmışdır. Miladdan əvvəlki minilliklərə aid tarixin siyasi hadisələrində fəal iştirakı olmuş bu tayfalar haqqındakı səthi tədqiqatların aparılması, onların bütöv tarixini, ərazisini, mədəniyyəti və mifologiyasını dürüst əks etdirməyən faktlara istinadlar tədqiqatların elmi nəticələrini yanlış tərəfə istiqamətləndirmiş, beləliklə də türükkülərin Bütöv Azərbaycanla, eləcə də onun ayrılmaz bir parçası olan Naxçıvanla tarixi bağlılığı son dövrlərə aid edilmişdir. Bu adətlərin və mədəniyyət nümunələrinin eynilə Qədim Azərbaycan ərazilərində təkrarlanmaqla Kiçik Asiya-Türkiyə ərazilərində də hələ e.ə. IV minilliyə aid olması,

eyni köklü türk sözünün az qala gündoğan və günbatan bir ərazidə qədimlərdən belə təkrarına da fikir verilməmiş, bu tarixin hər yöndən gizlədilməsinə meyl göstərilmişdir. İstər antik müəlliflərin əsərlərində, istərsə də Assur, Hett, Yunan və s. dövlətlərin yazılarındakı məlumatların nəzərə alınmaması, türükkü boylarının kuti, lulubi, şu, şubar, naxər, hürri boyları ilə siyasi tarixi hadisələrdə ittifaqının və eyni dildə danışmalarının diqqətdən kənarda qalması siyasi motivlərin nəticələri idi.

Lakin yetərli tarixi, arxeoloji faktlar türükkülərin-türklərin Urmiya ətrafı-Cənub Azərbaycan, Kiçik Asiya, Şimal Azərbaycan, o cümlədən də Naxçıvanla bağlılığını bu ərazidə yerli-avtoxton sakinlər olduğunu təsdiq etməkdədir. Bunun sübutu üçün bir qrup Azərbaycan, türk və əcnəbi müəlliflərinin də yazılarına müraciət etmək istərdik.

Z.Bünyadov Turuk-Turukki tayfaları haqqındakı yazılarında onların ərazi məsələlərinə toxunmuş, e.ə. XX – XIX əsrlərdə Xəzərin cənub hissəsində məskunlaşdıqlarını göstərmişdir. Bu məsələyə ayrıca diqqət yetirən B.Q.Qeybullayev türklərlə bağlı İssık-Kul gölü yaxınlığından tapılan və sovet türkoloqları tərəfindən də oxunan runi yazıların e.ə. V əsrə aid olduğunu və onların imperiyalarının uzaq bir tarixi prosesləri ötüb gələrək yarandığını elmi cəhətdən əsaslandırmışdır (208, s. 36-39). Məsələyə bir qədər geniş aspektdən yanaşan müəllif daha sonra türükkülərin arilərlə bağlılığı konsepsiyasına da etiraz edərək bu yöndən olan tədqiqatlarda "türrük, turukku, turk" yazılışlı müəyyən qaynaqları müqayisə edərək onların türklərə aid olduqları haqqında yetərincə tarixi faktlar və elmi nəticələr göstərmiş, bu boyların e.ə. III minillikdə Cənubi Azərbaycanda Xəzərin cənub hissəsi və Urmiya gölü ətrafında yerləşdiklərini yazmaqla bərabər, Quti dövlətinin parçalanmasından sonra onların Midiya dövlətinin formalaşacağı yerdə kiçik çarlıqlar yaratmalarından da bəhs etmişdir (324 s. 25, 56, 93, 321).

Qədim şərq tarixini mənbələr əsasında araşdıran Y.Yusifovun tədqiqatlarında isə, bu prototürklərin həm ərazisi, həm də tarixi haqqında ətraflı elmi məlumatlara rast gəlirik. O, e.ə. III minillikdə yaranmış qədim Aratta türk-Azərbaycan dövlətinin siyasi tarixini şərh edərkən onun etnogenezində şu/su, kuti, lulubilərlə yanaşı türükküləri xüsusi qeyd etməklə onların dil yaxınlığından da bəhs etmişdir (489, s. 33-38). Xüsusi olaraq qeyd etmək istərdik ki, qədim türk tarixi və dilinin araşdırılmasında F.Cəlilovun xidmətləri danılmazdır. Mənbələrə istinad

edən müəllif, türükülərin bir qolunun e.ə. II minilliyin sonlarında Türküstan tərəfə köçdüklərini, digər qolunun isə Urmiya ətrafında qaldıqlarını qeyd edir. O, şərqə gedən türklərin V əsrdən sonra böyük Göytürk İmperiyasını qurmaqlarından, bu türklər haqqında Çin mənbələrində, Orxon-Yenisey türk abidələrində və digər qaynaqlarda kifayət qədər məlumat olduğundan bəhs edir. Daha sonra müəllif Ata yurdda qalan türklər haqqında tədqiqat aparılmadığından bəhs edərək, yalnız akkad yazılarında bu adın "turukki "şəklində oxunmaqla tayfaların türk olması fikrinin vurğulandığından bəhs edir. K.Riemşnayderin "Akkad dili" kitabındakı mətnlərə diqqət edən F.Ağasıoğlu burada türk adının fonetik oxunuşunun tu-ru-ki olduğunu, assuroloqların isə onu Turukku şəklində transkripsiya edərək assur ləhcəsinə uyğun geminat (qoşa) samitlə oxunduğunu yazmışdır. Müəllif, bu adın Adadnerari (XIV əsr) yazısında da Turuki ölkəsinin tu-ru-ki-i şəklində qeyd olunduğunu, bu səhvin alman aliminin dərsliyində də Tu-ru-ku-tum şəklində özünü göstərdiyini qeyd edərək 25 №-li tabletin 9 və 10-cu sətirlərinin (9) Li-da-a-ia awilum Tu-ru-ku-u, (10) u awilum Tu-ru-ku-u şa it-ti-şu şəklində türklərə aid olduğunu qeyd edir (163, s. 40-46).

Türk elm adamlarından Kılç Kökten, Oktay Belli, Muvaffak Uyanık, Ersin Akok və başqalarının arxeoloji araşdırmaları Şimali Mesopotamiya, Doğu Anadolu arasında olan e.ə. VII-III minilliyə aid mədəniyyət abidələrinin Altaylarla eyniliyini sübut etmişdir. Bu faktlara və əski qaynaqlara istinadən 40 ilə yaxın araşdırmalar aparmış Osman Nedim Tuna və Kazım Mirşan kimi elm adamları isə e.ə. IV minillikdən günümüzə doğru şu, kuti, lulubəy, türük, subar, və b. türklərin Doğu Anadoluda yaşadığını bu ərazinin "Türklərin ana yurdu" olduğunu yazırlar (565). -

Tədqiqat əsərləri və mənbə məlumatlarında biz qədim dövrlərdə istər Mesopotamiya, Ön və Kiçik Asiya, istər qədim Naxçıvan ərazisi, istərsə də Avrasiya çöllərində prototürklərin böyük rol oynadığı haqqında bilgilərlə rastlaşırıq. Bu tayfalar e.ə. IV minilliklərə aid qaynaqlara "turukki", "türküt", "türk", "türkay", "turkiş", "tur" və s. adlarla Qafqaz, İkiçayarası, Urmiya, Van gölü ətrafı ərazilərdə böyük güclər şəklində qeydə alınırlar. Tarixi qaynaqlar Turukku boylarını Aratta, Kuti, Lulubi, Mitan dövlətləri ərazilərində qeyd edir (271, s. 338, 496).

Miladdan öncə III minilliyə aid Akkad çarı Naram Sinin yazılarını

təhlil edən Luis Delaporte və N.Q.Quterbok bu yazılarda "tourki" və "turki" tayfa adlarını oxuyurlar. Qədim Assurların e.ə. II minilliyə aid yazılarını təhlil edən Q.Dossi və C.F.Çarls isə, bu yazılarda Turukku boy adını aşkar edirlər. I Adadnerarinin yazılarında da adı keçən turukku boyları kassit, kuti, lulubilərlə bərabər siyasi hadisələrdə iştirak edirlər (120, I c., s. 319; 566; 567). Bu isə bildiyimiz kimi e.ə. IV-III minilliklərin əhatəsində olan tarixi dövrlərdir. Arxeoloji abidələrin tədqiqi ilə məşğul olan N.B.Yanovskaya isə Naxçıvanın Arpaçay vadisi və Kültəpə ərazilərindən e.ə. V minilliyə, eləcə də Bağdaddan 80 km. cənuba Ras-Əl-Amiyə yaşayış məntəqəsindən aşkarlanmış arxeoloji nümunələri və buradakı qədim yazılarda oxunan "turukki" sözünü e.ə. IV minilliklərlə bağlamışdır. Bu elmi nəticəyə baxmayaraq müəllif, "türk" sözünü bu sözlə təsadüfi oxşarlıq kimi qəbul edərək türklərin tarix səhnəsinə çıxdıqları dövrü eramızın I minilliyinə aid etmiş, onların ərazilərini isə, Mərkəzi və Orta Asiya olaraq göstərmişdir (494, s. 80-84). Təbii ki, burada türk tarixinin I minilliyinə aidliyi məsələsi yanlış olaraq göstərilir, lakin müəllif nə qədər bu tarixi gizləməyə çalışsa da bu tapıntı Naxçıvan maddi mədəniyyət abidələrinin e.ə. V minilliyə, Ras-Əl-Amiyə məntəqəsindən aşkarlanmış qədim yazılardakı "turukki" sözünü e.ə. IV minilliklərlə bağlılığını qədim Naxçıvan ərazisinin də bu tarixi hadisələrin mərkəzlərindən biri olduğunu bir daha sübut edir (-F.R.). Bundan başqa bu yazı Yunan səyyahı Strabonun da bir fikrinin doğruluğunu tam təsdiq etmiş olur. O, öz kitabında türükkülərin ulu babaları turdetanların-turdilərin əlifbaları olduğunu, onların isə qonşu iberlərdən daha sivil xalq kimi e.ə. 6 minillikdə qanunnamə və poeziyaya sahib olduqlarını və bunun e.ə. I əsrə qədər gəldiyini qeyd edir (31, s. 137-138). Bu fikir turdilərin varisləri olan türklərin e.ə. IV minillikdə əlifbaya sahibliklərini bir daha təsdiq etmiş olur ki, bu da qədim türklərin demək olar ki, hamısının yazıya sahib olduqlarını bir daha sübut edir (-F.R.).

Bu məsələlərin təsdiqində bir qrup arxeoloqların əldə etdiyi maddi mədəniyyət nümunələri də yeni tarixi faktlar verməkdədir. Biz tədqiqatlarda e.ə. IV minillikdə türklərin bir qisminin Araz və Dəclə Fərat arasından şimala Kuma-Manıç çökəkliyi ərazilərinə yayılması və buranın onlara ilkin vətənlərini xatırlatdıqları haqda məlumatlara rast gəlirik. Kuma-Manıç çökəkliyi, şimali-qərb Kaspi ərazilərinin arxeologiyası

ilə 20 ildən artıq məşğul olan N.İ.Şişlin buradakı mədəniyyətin e.ə. IV minilliyə aid olduğunu və Kür-Araz mədəniyyəti ilə eyni olduğunu, onların Anadoluda da təkrar olunduğunu göstərir (483, s. 17-39; 484, s. 63-71). Göstərilən bu tarixi faktlar "türük" adlanan bu boyların e.ə. IV minillikdə tarix səhnəsində sivil bir xalq kimi mövcudluğunu ortalığa çıxarır.

İlk dəfə Azərbaycan ərazisində "türk" etnosunun adını çəkən müəlliflərdən biri Z.İ.Yampolski, hələ e.ə. XIV əsrdə Dərbənddən Urmiya gölü ətrafına qədər Turuki boylarının məskunlaşdığını qəti olaraq bildirməklə, onların daha qədimdən bu ərazilərdə Azərbaycanın qədim tayfaları olduğunu qeyd edir. Müəllif Urartu dövlətində də bir tayfanın "turux" adlandığını, bütün bunların qədim mənbələrdə də qeyd olunduğunu yazır (490, s. 62-64; 491, s. 150).

Əgər yadımıza salsaq bu tayfa adı het, assur, çin, monqol, fars, erməni və s. müxtəlif xalqların dili və qaynaqlarında, eləcə də tədqiqat əsərlərində "türük, turukku, türküt, tukyu, tork" yazılışlarla öz əksini tapmış, son nəticədə müəlliflər bu tayfaların ayrı-ayrı boylar-xalqlar olması qənaətində dayanmışlar ki, bu da arxeoloqların aşkarladığı runi yazı və mədəniyyət nümunələri ilə tamamən təkzib olunur. Lakin biz yuxarıda bu adın Mərkəzi və Orta Asiya türklərində totem olması variantının "Ümumdünya tarixi" kitabında qeyd olunduğundan danışdıq (121, II c., s. 158). Bu cür siyasi xarakterli yazılara və mənbələrə baxmayaraq hələ e.ə. IV-III minilliklərdən Türükkü, Türküt, Turan, Turkan, Türkmən, Turkak, Turut, Türkeş və s. tayfa adları Dəclə və Fərat çaylarının yuxarı axarları və Kiçik Asiya-Doğu Anadolu, Qafqaza ərazilərində məskunlaşmış, II minilliyin sonlarında isə, onların şimala doğru axınları başlanmışdır. Biz qaynaqlarda bu tayfaların Hun, Qıpçaq, Uyğur türkləri arasında da Çinə qədər yayıldıqlarını görürük.

Azərbaycan, eləcə də Naxçıvan əhalisinin etnogenezi tarixində ayrıca yeri olan türükkülər-prototürklər Herodot və Strabonun yazılarında e.ə. VI minilliklərin hadisələrində tirsen, tirit, Turas, kimi xatırlansalar da (31, s. 137-138; 23, I 94; IV 51; V 49), I cild "Dünya tarixi" və "Qədim şərq tarixi" kitablarında, eləcə də əski mənbələrdə Urmiya gölü hövzəsində ilk dəfə e.ə. III minilliyin sonları II minilliyin əvvəllərində tarixi proseslərə asanlıqla təsir edən bir güc kimi göstərilir.

Herodotun "Tarix" əsərində daha maraqlı bir faktla da rastlaşırıq. O,

skiflərin tayfa adları içərisində "yirk" boylarının da adını çəkir (9, IV 22). Bu tayfa adını V.V.Latışev Uraldakı Madyar tayfaları hesab edir (380, I bur., II c., s. 178). Əgər türk dillərində t≈d≈y fonetik səsəvəzlənmə hadisəsinin Qazax dialektində yumruq-dumrux, qaraqalpaq, qazax, türk balkar dillərindəki tulduz-yulduz, dulduz-ulduz, şəkillərini xatırlasaq (266, s. 85-86; 39, s. 454-455) bu tayfa adı "turk-türk" kimi oxunacaqdır. Bunlara söykənərək qeyd edə bilərik ki, P.İ.Şafarik, E.Eyxvald, İ.Pototski, A.Herman, Z.Y.Yampolski və digərləri də bu tayfa adının "Türk" olduqlarını yazmaqda yanılmamışlar (-F.R.).

Tarixi Assur yazıları və qaynaqlar Urmiyanın cənubunda türk prototürklərinin qədim "Turukki ölkəsi" olduğunu, Assur hökmdarı I Şamşi-Adadın isə Tukriş (Turkeş -F.R) ölkəsindən xərac aldığını yazır (271, s. 254). Beləliklə tarixdə Turukki, Tukriş ölkəsi adında iki ölkə göstərilir və hər iki ölkə Urmiya gölünün cənub sərhəddi ilə Mesopotamiyanın şimalında əski Mitan türk dövləti sərhədləri arasında göstərilir. İ.M. Dyakonov onları türk qəbul etməsə də bu tayfaların tarixinin Aratta, Kuti- Lulubi dövlətləri ilə sıx bağlı olduğunu yazir (347, s. 265-266).

Ölkə kimi e.ə. II minilliyin əvvəllərində tanınan turukkilər- prototürk azərbaycanlılar şübhəsiz ki, göstərilən ərazilərdə hələ e.ə. IV-III minillikdən avtoxton sakinlər olmuşlar. Türükkülərin Aratta, Kuti-Lulubəy dövlətlərinin tərkibində Su (Suv) etnosu ilə ittifaqda Assuriyalılarla Ravandüzün şərqində Aşağı Zab çayı sahilindəki Ranni düzənliyi, hazırkı Dəşti Batvan (Qıpçaq torpaqları - F.R.) uğrunda mübarizəsi də tarixdə qeydə alınır. Bu dövlətlərinin tənəzzülündən sonra Türükkülər müstəqil olaraq Mesopotamiyada, Dəclə və Fəratın yuxarı axarlarında siyasi hadisələrə təsir edən böyük bir qüvvə kimi Assur yazılarında öz əksini tapmışdır. Bu yazılarda Assur çarı I Şamşi-Adad (e.ə. 1813-1781-ci illər) türükkülərin sərkərdəsi Lidayın e.ə. 1797-1757-ci illərdə Assuriyaya mənsub olan Aşağı Zab çayı ətrafı torpaqları və yenə həmin ərazilərdə Şuşşara hökmdarı I İşmə-Daqanla Nurruqum və Akazim torpaqları uğrunda vuruşub o ərazilərə sahibləndiklərindən bəhs olunur (271, s. 254, 304-305; 120, I c., s. 314-318).

Onlar tarixi proseslərdə kuti, lulubi, şu, su (suv), subar türk boyları ilə ittifaqda Şuşşara uğrunda Assurlara qarşı birgə mübarizə aparırdılar. Bu ölkə əvvəllər türk Mitan dövlətinin tərkibində olmuşdur. Şuşarra hakimi I İşme-Daqan Assur çarına yazdığı məktubunda "su-tu-

rukkilərin böyük güc olduqlarını, bu bölgələrdə onlara nəzarət edə bilmədiklərini" qeyd edir. Lakin 1307-1275-ci illərdə turukki, kuti, lulubi və şubarlarla (subərlərlə) döyüşən Assur çarı I Adadnirari döyüşdə onları məğlub edərək bu tayfaları assurların təsiri altına salır. Bütün bunlar haqqında M.E.Matye, V.V.Struve, İ.M.Lure Y.B.Yusifov və başqalarının yazıları, eləcə də "Dünya tarixi" kitabı ətraflı məlumat verir (271, s. 254, 304-305; 120, I c., s. 314-318; 223, s. 45-75; 456, s. 63-81; 384, s. 9-18).

Bu məlumat isə türklərin e.ə. III minilliyin sonlarından çarlığa malik olduqlarını sübut edir. Turukkuların su, kuti, lulubi, subarlarla birgə apardıqları mübarizənin səbəbi isə qədim Azərbaycan torpağı olan Urmiya gölü hövzəsində əski türk ölkəsi Şuşarranın Assurlar tərəfindən işğalı idi. Bu məlumatlardan da göründüyü kimi turukki türkləri e.ə. IV-III minilliklərdən Mesopatomiyanın Dəclə və Fərat çaylarının yuxarı axarları, qədim Azərbaycan torpaqlarında Mitan türk dövlətinin cənub şərq bölgəsində öz ölkəsini qurmuş, Midiya və Atropatena Midiyasının qüdrətli əyaləti olan qədim Naxçıvan ərazilərinin, o dövr Naxçıvan əyalətinin torpaqlarına daxil olan İrəvan, Maku, Kars, Ərzurum bölgələrində Araz çayı yaxalarında geniş şəkildə məskun olmuşlar (-F.R.).

Qədim Azərbaycanın Mitan türk dövləti dövrünə təsadüf edən bu tarixi hadisələr Herodotun "Tarix" əsərində də öz əksini tapmışdır. Skiflərdən danışan müəllif onların çarı Tarqitay haqqında yazır "Bu ucsuz-bucaqsız ölkədə (Skif-Oğuzlar ölkəsi) ilk məskun olan adam Tarqitay idi. Skiflər öz xalqlarının mənşəyi haqqında bunu söyləyirlər. "Onlar ilk çarları Tarqitayın zamanından skiflər ölkəsinə Daranın hücumuna qədər 1000 il keçdiyini söyləyirlər" (23, I, 72; III, 94; IV, 5, 7; V, 49, 52).

Tarixi qaynaqlarda Azərbaycan ərazilərində e.ə. III minillikdə qurulan Aratta, Quti, Lulu dövlətləri zamanında "türk" adlı boylar üzdə olmasalar da, həmin dövlətlərin qurulmasında digər türk boyları ilə birlikdə iştirak etmişlər. Quti sülaləsinin hakimiyyətdə olduğu çağda (XXIII əsrdə) Akkad qoşununun quzey bölgələrdə vuruşduğu 17 tayfadan biri də "tourki" və ya "turki" şəklində xatırlanan boydur və onların Tarku adda tanrıları mövcud idi. III minilin sonlarında (2104-cü ildə) kutilərin taxtında da türk-turk boyundan olan Tirikan oturmuşdur (270,

s. 85). O dövr Dəclə çayının yuxarı axarlarında Subar prototürklərinin Turxu adlı şəhəri də sonrakı Assur yazılarında qeyd olunur. Mari sənədlərində adı keçən türklər isə, Dəclənin sol yaxalarında, Urmiya gölü yaxınlığında yaşayırdılar. Quti dövləti dağılandan sonra üzə çıxan "türk" boyları bu ərazilərdə quti, lulubəy, subar, kuman prototürkləri ilə bərabər III-II minilliklər ərzində Aratta, Hurri-Mitanni, Kassi dövlətlərinin tərkibində, Asur, Het, Babil və Elam dövlətlərinə qarşı siyasi proseslərdə birgə iştirak etməklə əski türk yurdları uğrunda bərabər vuruşmuşlar. (120, I c., s. 633).

İndiki İraq – Suriya sərhədi yaxınlığında Fərat çayının qərbində fransız alimləri qədim Mari şəhərindən mixi yazılar aşkar etmişlər. Heç şübhə yox ki, bu tabletlər (gil lövhələr) əski türk dilində idi və bu mətnlər 1950-ci ildən başlayaraq, Georgies Dossin tərəfindən Luvr muzeyi xəbərlərində seriyalarla dərc olunmuşdu. İyirmidən artıq mətndə "turukku" sözü işlənməklə bu boyun adı müasir türklərlə bağlanmışdır. İlk dəfə bu adın türklərlə aid olduğunu söyləyən H.Z.Koşay iki tabletdə "turukku" sözü olan sətri 1982-ci ildə Buxarestdə nəşr olunan bir elmi bülletendə çap etdirmişdir. 1989-cu ildə S.Bayram "turukku" sözü olan daha 11 tablet olduğunu qeyd etmişdir. Azərbaycan və tarixçilərindən Y.Yusifov, S.Əlyarov, Z.Yampolski (1996) da Assur mətnlərində xatırlanan turukku və ya turukki boyunu türk hesab etmiş və bu adın müxtəlif zamanlarda və müxtəlif dilli yazılarda türük//török//turuk//türki şəklində işləndiyini yazmışlar (270, s. 254; 568).

Assuriyanın Midiya və kimmer, skif, sak türk boyları tərəfindən işğalından sonra bu ulu prototürk boyları əzəli vətənləri olan Bəsrə körfəzi, Kərkük türkmən oymaqları, Urmiya gölü ətrafı, qədim Naxçıvan diyarı, Doğu Anadolu oymaqlarından başlamış Dərbənd qapılarına qədər olan qədim Azərbaycan torpaqlarından şimala doğru axın etməklə Volqaboyu axarlarından Orta Asiyanın ucqarlarına qədər yayılmışlar. Onlar 200 il keçməmiş e.ə. VI əsrdə sərhədləri Kamçatkadan Qara dənizə, Baykal gölü, Tibet silsiləsinin şimalına dayanmaqla tərkibinə Şivziy, Xuse, Bəykurku Bəy, Ediza, Basman, Terqeşi, Çula, Xarəzm, Soqdi, Quz, Uqrlar ölkələrini qataraq ucsuz bucaqsız Türküt imperiyasını qurmuşlar ki, bu tarixi izlər də dolayısı ilə L.N.Qumilyovin əsərlərində öz əksini tapmışdır (217, s. 39).

Baxmayaraq ki, Assur dövlətinin e.ə. III minilliyə dair siyasi

hadisələrlə bağlı yürüşlərində hadisələr assurların öz xeyrinə qabarıq şəkildə verilir, lakin protoazərbaycanlıların tarixi və dil baxımından bu yazılar çox qiymətli tarixi sənədlərdir. Bu proseslər Dəclə sahillərində və daha çox indiki Urmiya gölünün güney-batı tərəflərində Araz hövzəsi boyu və hurri, kassi, türk bölgəsi Arrapha (Ar-Apa) adlanan Kərkük-Ərbil bölgəsində cərəyan edir. Assurlar bu turuk-türk ərazilərində Axa-zim-Akasim-"Mən uca Asam" və Katanum –Kutianum-"Mən Kutiyəm", Hirbazanim-"Baş hürrülərə məxsus" və Tiqunanim- "Tiqinə məxsus, Aşahitim- "uca asların tikdiyi", Şuşşara – "işıqlı Şu ərləri" (etimoloji izahlar tərəfimizdən ilk dəfə verilir-F.R.) Lidaya, Zaziya/Sasiya, Ziliya/Si-liya bölgə, şəhər və su kanalı adları xatırlanır. Bu adlardakı -ım, -im, -um sonluqları assurların adlıq hal şəkilçiləridir (-F.R.). Turuk axınlarının qarşısının alınmasında assurlar çox vaxt barışıq üçün "İşme-Dağan Zaziyə başlıq gümüş, qızıl göndərdi" kimi pul ödəmək siyasətinə əl atırdılar (75, s. 196).

Turukku-türklərin ayrıca dövlətlərinin olması da Assur yazılarında öz əksini tapır. B.A.Turayevin və Stiven Bertmanın yazılarında e.ə. II minillikdə Assur çarı Adad-nirarinin zamanında assurların kuti və lulubiləri məğlub etmələri və Turukku ölkəsinin, eləcə də Nineva şəhərinin bütövlükdə işğalından bəhs olunur (ətraflı bax, 464; 455). Yeri gəlmişkən qeyd edək ki, Nineva şəhəri hələ e.ə. V minillikdə mən-bələrdə göstərilməklə Azərbaycan türklərinin (indiki türkmən) məskun olduqları hazırkı Mosul şəhəridir və göstərilən minilliklərdə də türk-turukku boylarının məskun olduğu şəhər idi. Aşurbanipal dövründə bu şəhərdə məşhur Kuncik çar kitabxanası yaradılmış və burada 30 mindən çox mixi tablet yazılar toplanmışdır. Nineva şəhəri Vavilon və Midiya dövlətləri tərəfindən 612-ci ildə dağıdılmışdır (492, s. 174-197). "Kuncik" kitabxana adına gəldikdə isə xüsusi olaraq qeyd etmək lazımdır ki, bu ad qədim türk dilində olmaqla kun/kujn-"lülə şəklinə salınmış yazılar" və "cik/caq"-"özü, əsli" mənalarında (37, s. 138, 322 ) "lülə şəklinə salınmış yazıların özü" mənasını daşıyırdı ki, bu da o dövr yazı formasından irəli gəlirdi (-F.R.).

Mənbələrdən də göründüyü kimi uzaq dövrlərdən siyasi proseslərin fəal iştirakçıları olan bu türk boylarının dili dünya və Şərq tarixşünaslığında gizlədilmiş, fərqli konsepsiyalardan fikirlər söylənilmiş, bir sözlə tarix saxtalaşdırılmışdır. Lakin, xeyli sayda antroponimik (şəxs adları) və to-

ponimik (coğrafi) adların etimoloji izahları onların dilinin yalnız proto-türk-proto Azərbaycan dili olmaqla, türk dillərinin bütün fonetik, leksik qanunları şəklində qədim türk dialekt, şivə, ləhcə xüsusiyyətlərini daşıdığını sübut edir. Türükkü - Lulubi ittifaqına daxil olan və eyni bir dilə məxsus Turibul, Turxu Axazim, Katanum, Hirbazanim, Tiqunanim, Aşahitim, Şuşşara, Lidaya, Zaziya/ Sasiya, Ziliya/Siliya kimi şəxs və yer adlarındakı söz kökləri, əski dil elementlərinin türklərə aidliyini sübut etmək üçün biz yuxarıda ilk dəfə olaraq onların izahlarını verdik. Buradakı bir qrup söz köklərinin quruluşu və mənalarını E.V.Sevortyan, L.Y.Tuquşeva, İ.M.Dyakonov, E.M.Murzaeva, V.V.Radlov, V.V.Bartold və b. da türk dillərinə aid etmişdilər (462, s. 341; 64, I c., s. 607; 349, s. 132-144 ; 48, s. 55, 64, 580, 628)..

Qədim Naxçıvan diyarının yerli, aborigen sakinləri olmuş Türükkü- protoazərbaycan boyları, əski qaynaqlarda ötən əsrlərin 1590-1832-ci illərinə qədər Cənub və Şimal Azərbaycan ərazilərində, eləcə də özündə böyük bir ərazini birləşdirərək qədim Naxçıvana aid olan Maku, İrəvan, İğdır və onun Xınzirək, Abaran, Dərəşahbuz, Bazarçayı, Ağcaqala kimi qəza və nahiyələrində məskun olmuşlar. Buradakı Türkan, Turk, Tukur, Terqit-Türkid, Terekevit, Türkəlı, Türqtaq, Tirkeş, Türküt, Tərgil, Türk, Türkembur, Türk kəndi, Türkən Behşi, Türkedari kimi xeyli sayda məntəqə adları onların izlərini günümüzə qədər daşımaqdadır. Bu adlar rus, fars rejimi altında qalan, Gürcüstana qatılan torpaqlarımızda da fars, çar və sovetlər Rusiyasının siyasəti ilə dəyişdirilsələr də belə 1680-1922-ci illərin və bu günün toponimik sistemində izlərini sürdürməkdədirlər (77, s. 159, 167, 174; 510, s. 176-177; 358, s. 470).

M.E.Matyenin araşdırmalarında türükkü türklərinin Aratta, Mitan dövlətlərinin boyları quti, lulubi, su-şu, naxər, hürrü subarlar və başqaları ilə eyni kökdən gəlməsinə dair tarixi faktlar göstərilir (399, s. 26, 41, 45-48, 61. 75 ). Bundan sonra biz Doğu Anadolu, Orta Asiya və Volqaboyu türk torpaqlarında da Türgit, Taraklı, Turgütlü, Turkhal, Türkoğlu, Taurak, Terek, Turka, Turki, Turkistan, Turkmenkala kimi minlərlə adlarda da öz yayım areallarını göstərməklə geniş coğrafi ərazilərini tarixə möhürləmişlər (521, s. 94, 102; 17, s. 2).

Əski qaynaq sənədləri, qonşu dövlətlərdə 1590-1728-ci illər və sonrakı dövrlərə aid arxiv məlumatları, o dövr Naxçıvan əyalətinə daxil

olan və əhalisi bütünlükdə Asər-Azər türklərindən ibarət olan 25 nahiyədə (biz yuxarıda adlarını qeyd etdik) olan məntəqə adları da etnogenezimizin tədqiqində mühüm elmi və tarixi əhəmiyyəti olan amillərdəndir (77, s. 164-183). Bu qaynaq məlumatlarında Qədim Naxçıvan ərazisində prototürk boy adları ilə adlanmış 12 etnooykonim qeydə alınır ki, bu da turukku-türklərin bu ərazidə aborigen sakinlər olmasını bir daha sübut edir.

**Terekevit (3 kənd).** Qədim Naxçıvan ərazisində bu adda 3 etnooykonimə fərqli yazılışlarla təsadüf olunur. O dövr Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsinə daxil olan birinci məntəqə adı 1590-cı ilin məlumatlarında Hacı İlyas kəndi yaxınlığında Terekevit yazılışında qeydə alınır (77, s. 159). Digər bu tərkibli məntəqə adına isə Naxçıvan ərazisi tərkibində olan Qırxbulaq nahiyəsində 1728-ci ilə aid sənədlərdə Tirekvit yazılışında Uluxanlı və Armus kəndləri arasında rast gəlirik və bu etnooykonim ərazidəki ən böyük Azərbaycan kəndi kimi göstərilməklə əhalisinin yalnız türk-azərbaycanlılardan ibarət olduğu bildirilir (yenə orada, s. 75). Bundan sonra daha bir məntəqə adı da Terenevit yazılışında 1730-cu ilə dair məlumatlarda Sürməli mahalında Haramlı və Qatıruçan kəndləri arasında göstərilir. Əgər diqqət etsək birinci hər iki Terekevit, Tirekvit sözlərində kök "terek/tirek" yazılışında eyni olmaqla "türük" etnos adının təhrifidir. Burada sadəcə türk dilləri üçün xarakterik ü≈e, ü≈i səsəvəzlənmələri müşahidə edilir. Sonuncu Terenevit sözündə isə "tiren" yazılışında k≈n oxşar yazılışlı samitlərinin siyahıya alınma zamanı qarışdırıldığını düşünürük. Etnos adı və "vit/bat"-"yer, məkan, ölkə, vətən" (284, s. 94) mənalı qədim türk dilinə mənsub tərkiblərdən yaranan etnooykonimlər "Türk yurdu" mənasında açıqlanır.

**Tirkeş.** Etnooykonim ilk dəfə Naxçıvan qəzasına daxil olan Dərəşahbuz nahiyəsinin Sələsuz kəndi yaxınlığında 1590-cı ilə aid arxiv sənədlərinə dair məlumatlarda qeydə alınır (77, s. 166). Ada 1728-ci ilin məlumatlarında yenə eyni nahiyədə Tirkəş yazılışında rast gəlirik (110, s. 28). Bu oykonimdə də ü≈i səsəvəzlənməsini müşahidə edirik. Məntəqə Türk tayfa adı ilə yanaşı "es/eş" -"zəka, ağıl", "dost" mənalı (355, s. 13; 37, s. 184) söz tərkibləri ilə "Zəkalı Türk" tayfası mənasında açıqlanır. Məntəqə hazırda da fəaliyyətini davam etdirir.

**Türkan** (2 kənd). İlk dəfə bir etnooykonim kimi 1730-cu ilə aid məlumatlarda qədim Naxçıvan torpağından 1828-ci illərin siyasi pro-

seslərində zorla alınaraq İrəvan mahalına qatılan Sürməli nahiyəsində Taşburun kəndi yaxınlığında qeydə alınır. Sonrakı məlumatlarda məntəqə adı Tukan yazılışında 2 kənd olaraq Tukan şah Qacar, Tukan şah Bayat adları ilə 1780- 1828- ci illərə aid arxiv sənədləri və mənbələrin siyahılarında göstərilir (210, s. 68). Etnooykonim
-an-mənsubluq" şəkilçisi ilə "Türk kəndi "mənasında etnooykonim kimi formalaşmışdır.

**Türküt.** Məntəqə adına ilk dəfə 1590-cı ilin mənbə məlumatlarında Naxçıvan qəzasının Bazarçayı nahiyəsində, Bazarçayı və Qızılcakilisə kəndləri arasında rast gəlirik (77, s. 167). Qeyd edək ki, bu etnooykonim bəzi qaynaq məlumatlarında olduğu kimi Türküt variantında prototürk tayfa adını təkrarlamaqla sənədlərə düşmüşdür. Ada qoşulan omonimlik xarakterli "ut, at"- "yer, məkan" eləcə də qədim türk dillərində "cəmlik" ifadə edən komponentin (Sev. ESTY, s. 284) iştirakı ilə nominasiya olunmuşdur. Məntəqə adı "Türk məkanı, yurdu" mənasında etnooykonimə çevrilmişdir.

**Türkəlı.** Maraqlı leksik mənaya malik olan etnooykonim ilk dəfə Naxçıvan qəzasına daxil olan Abaran nahiyəsinin Kosalar kəndi yaxınlığında, 1590-cı ilə aid arxiv sənədlərinə dair məlumatlarda bir adı Təkənli olmaqla sonralar Tərkəli və Təkərli yazılışlarında göstərilmişdir (77, s. 174). Təbii ki, ad siyahıya alınarkən "Türkil" yazılışından təhrif olunaraq Təkənli, Tərkərli şəkillərinə düşmüşdür. Fikrimizcə adın nominasiyasında ü≈ə, ə≈i səsəvəzlənmə hadisəsi baş verməsi nəticəsində əski türk sözü olan "il/el"-"bölgə", "ərazi" komponenti "əl" formasını almışdır. Bu sinonim sözlər tayfa adına qoşulmaqla məntəqə adını "Türk bölgəsi" və ya "Türk eli" mənalarında etnooykonim kimi formalaşdırmışdır. "İl" komponenti hazırda da ümumtürk arealında "el, il" yazılışında, eləcə də Osmanlı türkcəsində dialekt və şivələrlə yanaşı ədəbi dildə də hazırda "il" yazılışında eyni mənanı daşımaqla işlənməkdədir.

**Türklü.** Etnooykonim ilk dəfə Naxçıvan qəzasına daxil olan Karni nahiyəsinin Xudabənd kəndi yaxınlığında "Tüklü" yazılışında 1590-cı ilə aid arxiv sənədlərinə dair məlumatlarda qeydə alınır (77, s. 171). Təbii ki, məntəqə adının bu formada, heyvani əlamətlə adlandırılması qeyri-realdır. Fikrimizcə, məntəqə adının tərkibindən -r hərfi düşmüş, -lü şəkilçisi isə sözə sonralardan artırılmışdır. Etnooykonim birbaşa tayfa adından yaranmışdır.

**Tinkan.** Bu məntəqə adı 1590-cı ilə aid arxiv sənədlərinə dair məlumatlarda Naxçıvan qəzasına daxil olan Dərəşahbuz nahiyəsinin Kərdəsər və Üzsüz kəndləri yaxınlığında "Tinkan" yazılışında qeydə alınır (77, s. 167). Fikrimizcə, adda -r hərfinin səsdüşümü hadisəsi olmuş və ya ad siyahıya alınarkən təhrif olunmuşdur. Biz adın Türkan yazılışında olduğunu düşünürük. Bu tərkibdə biz yuxarıda 2 məntəqə adının olduğunu qeyd etdik və bunların hər biri ayrı-ayrı nahiyələrdə qeydə alınır. Ad "Türkə məxsus" və ya "Türk kəndi" mənasındadır.

**Tərəkə.** 1590-cı ilin məlumatlarında bu məntəqə adına Naxçıvan qəzası ərazisindəki Ağcaqala nahiyəsində Çıraq və Uluqlu məntəqələri arasında təsadüf edirik (77, s. 169). Bu adı Xəzər türklərinin Tərkə tayfa adı ilə də izah etmək mümkündür (221, s. 32). Lakin, biz burada ü≈ə səsəvəzlənmələrinin baş verdiyini düşünürük. Bu halda yuxarıda da qeyd etdiyimiz kimi mənbələrə bu adın bəzən Türükü yazılışında düşmüş variantı ilə qarşılaşırıq. Heç şübhəsiz məntəqə adının ilkin variantı da məhz bu şəkildə olmuşdur və oykonim birbaşa tayfa adı ilə adlanmışdır.

**Yürəkir.** Xüsusi elmi əhəmiyyətə malik olan bu məntəqə adına biz ilk dəfə 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında Naxçıvan qəzasına daxil olan Zebil nahiyəsinin Mərcimək kəndi yaxınlığında həm məntəqə, həm də yaylaq adı kimi rast gəlirik (77, s. 181). Maraqlı leksik mənaya malik olan etnooykonim özünün qədim "türük-yürük" yazılışını təkrarlayır. Biz yuxarıda da qeyd etdik ki, Herodotun "Tarix" əsərində də bu maraqlı dialekt fərq təkrarlanmış, müəllif skiflərin içərisində əski tayfa adlarından birinin "yirk" olduğunu yazmışdır (9, IV 22). Fikrimizsə, qaraqalpaq, qazax, türk balkar dialektlərindəki "yumruq- dumrux, tulduz-yulduz", kimi t≈d≈y fonetik səsəvəzlənməsi (266, s. 85-86; 39, s. 454-455) eynilə bu adda da təkrarlanmış, ad qədim deyiliş formasını günümüzə qədər qoruyub saxlamışdır. Əgər adda ü≈ə, u≈i səsəvəzlənmələrini nəzərə alsaq, məntəqə adı Türük+ur şəklində bərpa olunur. Bu halda "ur"- "qurmaq" feli və tayfa adından formalaşan məntəqə adı "Türkün qurduğu" mənasında açıqlanır.

Antik müəlliflərin əsərlərində, eləcə də mənbələrdəki Türük-Türk tayfaları haqqındakı tarixi məlumatları, adların etimoloji izahları zamanı əski türk leksik vahidlərinin nominasiyasındakı türk dillərinə məxsus iltisaqilik-aqlyutinativlik əlamətlərini ümumiləşdirərək aşağıdakı

nəticələr üzərində dayanırıq.

1. Türük-türk tayfaları m.ö ən azı IV minilliklərdə tarix səhnəsinə qüdrətli tayfalar kimi çıxmış, digər türk boyları ilə bərabər o dövr Naxçıvan ərazisində məskunlaşmaqla buradakı prototürk tayfaları ilə bir ittifaqda olmuşlar.

2. Bu tayfaların dili, Naxçıvan ərazisindəki prototürk ittifaqına məxsus ümumtürk dili olmuşdur.

3. Məntəqə adları bu tayfaların mövcud dil imkanları hesabına iltisaqi-aqlyutinativ dil üslubunda nominasiya olunmuş-adlandırılmışdır.

4. Buradakı qədim türk dili elementləri e.ə. V-III minilliklərdə fəaliyyətdə olmuş proto Azərbaycan dilində bütün tayfaların coğrafi adlarında, məişət, inanc və şəxs adlarında geniş şəkildə ümumişlək halda fəaliyyət göstərmişdir.

## 4. KUTİ BOYLARI

Azərbaycan türklərinin etnogenezi tarixində ayrıca yeri olan Kuti türklərinin tarixi, dili və məkanı haqqında danışmazdan öncə onu qeyd edək ki, bu tayfaların Naxçıvan əhalisinin etnogenezi tarixindəki yeri, onların dili və Naxçıvan ərazisi ilə əlaqəsi haqqında əsaslı və sistemli araşdırma aparılmamış, bu dilin mənşəyi dəqiqləşdirilməmişdir. Kuti tayfalarının tarixi, məskunlaşdığı əraziləri, tarixi proseslərdə iştirakı da digər prototürk boyları kimi fərqli konsepsiyalardan araşdırılmaqla həqiqətə yaxın və müəyyən qədər yanlış elmi fikirlər söylənmişdir. Azərbaycan xalqının etnogenezinin formalaşmasında kutilərin iştirakı və yer adlarında onların izləri haqqında müəyyən elmi fikirlər olsa da, Naxçıvan ərazisində bu tayfaların yaratdığı yer adları da araşdırılmamış, onların etimologiyası verilməmiş və buradakı yazıyaqədərki dövr dil elementlərinin prototürk dillərindəki dil elementləri ilə müqayisələri aparılmamışdır. Lakin son dövrlərdəki arxeoloji, etnoqrafik, toponimik araşdırmalar, əsasən də qədim Assur, Hett, Akkad yazılarına yenidən müraciətlər istər bütöv Azərbaycan, istərsə də qədim Naxçıvan ərazisində onların məskunlaşması tarixi, dili, mifik təfəkkürü haqqında problemə yeni kontekstdən yanaşmaq zərurəti yaratmışdır.

Qeyd etmək lazımdır ki, Şumer-Akkad dilində olan yazılara Kuti-im, Gutebu-um, Babil salnamələrinə Gutu-um, Guti-u, yeni Babil dili və yazılarına Quteu, Assur yazılarına isə Guti kimi düşən bu

tayfalar təbii ki, adı çəkilən dövlətlərin tarixi dövründə siyasi proseslərin iştirakçıları olmuşdur. Bir sıra mənbələr Qədim Kuti-Quti tayfalarının Kuti-Zaqros dağları və onun hüdudlarından kənarda, müasir Cənub Azərbaycanımızın cənub qərbində III minilliklərdə Mesopotamiyanın əsas ərazilərini nəzarət altında saxlayan böyük güc kimi təqdim edir. Bu məlumatlarda ən geci e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərindən tarix səhnəsinə çıxmış, siyasi hadisələrə təsir edən son dərəcə böyük güc olan Kuti türklərinin qədim salnamələrdə, qaynaq və araşdırmalarda qeyd etdiyimiz "kuti", "quti", "kutum" və s. yazılışlarla düşmə səbəbi isə bildiyimiz kimi göstərilən xalqların dil imkanlarının və ifadə üslubunun nəticəsi ilə bağlı olmuşdur. Bu və digər məsələlərə aydınlıq gətirmək üçün ilk öncə bu tayfanın dili haqqında mövcud olan konsepsiyalara diqqət yetirməklə "kuti dili" probleminə də öz münasibətlərimizi bildirməyi elmi cəhətdən əhəmiyyətli hesab edirik.

Müxtəlif millətlərin tarixçiləri və dilçilərinin bu yöndən aparılan araşdırmaları Quti dilini ayrı-ayrı dil qruplarına aid etmiş, fərqli elmi nəticələr irəli sürmüşlər. Bir qrup araşdırmalarda Mesopotamyada Diyala çayı vadisindən Urmiya gölünə qədərki ərazidə yaşayan kutilərin dilinin şumer, semit, hind-avropa dilindən fərqli olduğu və hürrit dilinə qohumluğu vurğulanmışdır. Bəzi araşdırmalarda isə Kuti tayfalarının dili şimal-şərqi Qafqaz dillərinə aid edilərək bu dil qrupunun e.ə. I minillikdə Azərbaycanın şimalında yaşamış albanların dilinə uyğun olduğu, Qafqaz Albaniyasında yaşayan utilərlə, eləcə də müasir udinlərlə qohumluğu vurğulanmışdır (551). Burada bir məsələni xüsusi qeyd etmək istərdik ki, kutilərin ərazisi və tarixi proseslərdə hürrilərlə birgə iştirakı onları eyni əraziyə və eyni, dilə-protoazərbaycan dilinə malik olan tayfalar kimi səciyyələndirmişdir.

Rus tədqiqatçısı İ.M.Dyakonov bu tayfanı Qafqaz dillərinə aid etməklə fikir bildirməmiş (353, s. 88) başqa bir kitabında yenə də onların tarixi və ərazilərinə, dilinə tam aydınlıq gətirmədən kuti dilinin elamit, kassit, lulubi və kaspi dilləri ailəsinə daxil olduğunu yazmışdır (349, s. 109-111,121,133-135). Avropa tədqiqatçıları R.Girşman, Q.Hüzinq, E.Hersfeld və digərlərinə istinad edən İ.Əliyev də bu problemə toxunmaqla Ön Asiya dillərini "Kaspi dil ailəsi" və "Zaqro-Elam" dili qruplarına bölmüş, Kiçik Asiya prototürkləri hürri, lulubi, elam, o cümlədən də Şərq xalqları dilləri ilə bərabər kuti dilini də bu qrupa aid

etmiş, öz elmi nəticələrində İ.M.Dyakonovun fikirlərini təkrarlamışdır (284, s. 64-71). Müəllifin onların tarixi haqqındakı bəzi elmi fikirləri tariximiz üçün əhəmiyyətli olsa da fikrimizcə, dil məsələsi tam olaraq öz həlini tapmamışdır.

İ.Markvart, N.Y.Marr, İ.M.Dyakonov, İ.Əliyev, M.N.Poqrebeva və digərlərinin kuti dili haqqındakı "Kaspi", "Zaqro-Elam", "Hürritdilli" kimi elmi fikirlərini müqayisəli şəkildə təhlil edərək onların irəli sürdükləri ziddiyyətli elmi nəticələri ortalığa çıxaran Q.Qeybullayev, Cənub Azərbaycan ərazisindəki qədim tayfaların türk tayfaları olmaqla elə bu dildə danışdıqlarına, bu ərazi arxeoloji mədəniyyət nümunələri ilə tarixi bir dövrə düşən Altay mədəniyyətinin eyniliyinə dair tutarlı faktlar göstərmiş, yanlış olan bu mövcud fikirləri tutarlı elmi dəlillərlə təkzib etmişdir (324, s. 25, 34, 144: 208, s. 15-19).

Biz xeyli sayda mənbə məlumatlarında kutilərin Cənub Azərbaycan ərazisində prototürk-protoazərbaycan tayfaları olduğuna dair tarixi faktlarla qarşılaşırıq. Kutilərin, eləcə də digər prototürklərin dili və tarixi haqqında maraqlı məlumatlara tarixi qaynaqlarla yanaşı Y.Yusifovun Şərq tarixi üzrə tədqiqatlarında da rast gəlirik. Müəllifin bu yazılarında Akkad çarı Sarqonun dövründə (2316-2261) onun "Yuxarı ölkəyə"-kuti, subərlər yurduna hücumundan, lulubi kuti-quti birliyindən, Kutium, Kutik Zaqros dağları və ölkələrinin işğalından bəhs olunur. Bununla bərabər Kutium-kuti-quti boylarının 2225-ci ildə Şumeri akkadlardan azad edərək onların tərəfini saxlaması, Şumer allahlarına ibadəti, şumerlərin Nippur, Sippar, Umma, Ur şəhərlərində Kuti çarlarının şərəfinə Akkad dilində yazılı abidələri qoyulması və nəhayət Kuti sülaləsinin süqutu və s. məlumatlar da bu tədqiqatlarda genişliyi ilə yer almışdır (270, s. 79-85).

Azərbaycanlıların qədim tarixi və dilinə dair elmi cəhətdən xüsusi əhəmiyyətə malik tədqiqatlar aparmaqla, qədim yazı nümunələrinin oxunmasında da böyük zəhməti olan F.Ağasıoğlu, qədim Azərbaycan ərazisində Aratta eli, dövləti qurumundan sonra Kuti-Quti elini ilk ən qüdrətli türk dövləti kimi göstərir. Kuti elinin paytaxtı Kərkük (Arapxa) şəhəri haqqında, çarları və ərazisi haqqında yeni elmi məlumatlar verən F.Ağasıoğlu, kuti çar adlarının Sarlaq-Sarı-kan, Elulumeş-Elalmış, İnim Abaqeş-İnim Kültegin kimi ümumtürk arealında invariantlığını da nümunələr göstərmişdir. Bu adların qədim dastanlarımızla bərabər "Dədə

Qorqud" dastanı, eləcə də Orhun yazılarında, qaynaq, ümumtürk tarixi və tarixi proseslərdəki şəxsiyyətlərin adında geniş yer aldığına dair gətirilən elmi sübutlar kutilərin bir türk boyu olduğunu tamamilə təsdiq edir. Müəllif, Akkad və Elam salnamələrinə istinadən Dəclə çayı ilə Urmiya gölü arasında 70 bəylik olduğunu və bars, börü, qarqar, azər, zəngi və b. boyların e.ə. III minilliyin II yarısında Kuti-quti adı altında fəaliyyət göstərməsi haqqında yeni konsepsiyasından da çıxış edir (163, s. 147-153).

Bütün bunlarla yanaşı kutilərin çar adları, şəhər adlarının bir qismi üzərində tərəfimizdən aparılan tədqiqatlar da bu dilin prototürk dili olduğuna şübhə yeri qoymur. Kutilərin tarixi və dili problemi ətrafında tədqiqata cəlb etdiyimiz bəzi qaynaq məlumatlarını və etimoloji faktları da nəzərinizə çatdırmaq istərdik. Öncə onu qeyd etmək istərdik ki, mənbələrdə Kuti türklərinə aid çar adları və yer adları bu adların türk dili imkanları hesabına yarandığını təsdiq edir. Biz B.A.Turayev, Stiven Bertman və başqalarının tədqiqat materiallarında e.ə. III minillikdə Kuti dövlətində Eridupizir (Enridavazir e.ə.2230-2202), İmta (e.ə. 2202-2197), I İnkeşuş- İnqeşuş (e.ə.2197-2191), Sarlaqab (e.ə. 2191-2185), Şulme (e.ə. 2185-2176), Elulmeş (e.ə. 2179-2173), İnimabaqeş (e.ə. 2173-2168), II İqeşauş (İqneşauş e.ə. 2168-2162), Yarlaqab (e.ə. 2162-2147), İbate (e.ə. 2147-2144 ), Yarlanqab (Yarlaqan I, e.ə. 2144-2141), Kurum (e.ə. 2141-2140), Xabilkin (e.ə. 2140-2137), Laerabum (Laxarab e.ə. 2137-2135), İrarum (e.ə. 2135-2133), İbranum (e.ə. 2133-2132), Xablun (e.ə. 2132-2130), Puzur-sin (Puzur-Suen e.ə. 2130-2123) Xablunun oğlu, Yarlaqanda (Yarlaqan II, e.ə. 2123-2116), Sium (e.ə. 2116-2109), Tiriqan (e.ə. 2109) kuti çar adlarına rast gəlirik (ətraflı bax, 464; 455).

Qədim tayfalarımızın tarixi və dilini tədqiqində ayrıca yeri olan və xeyli yeni elmi nəticələrə gələn Q.Qeybullayev yuxarıdakı İmta, Eridupizir (Enridavazir), İnimabaqeş, İnqeşuş, Elulmeş, Sarlaqab, Tiriqan, Kurum kimi kuti çar adlarının etimoloji izahlarına toxunmaqla onların türk dilində olduğuna dair xeyli sayda dil elementləri ilə yanaşı bu antroponimik adların prototürk dilinə aidliyini təsdiq edən istər dil, istərsə də türk mifik təfəkkürü və inanclarından əsaslı elmi faktlar göstərmişdir (208, s. 52-55).

Tədqiqatdan kənarda qalmış çar adları Şulme, Yarlanqab, Xablun, Xabilkin, İbate, Puzur-sin, Laxarab, İbranum, İrarum adları üzərində də

tərəfimizdən aparılan araşdırma adların bütövlükdə qədim türk mifologiyasına daxil olan teofor-tanrı adları və qədim türk dillərinə aid elementlərlə şəxs adlarından formalaşdığını bir daha təsdiq edir. Bu çar adlarının etimoloji mənalarına qısaca nəzər salmaq da məqsədəuyğun olardı.

Şulme çar adı şumerlərdə Şu tanrı adından, "ulm/ulam"- "arxa, dayaq", "məkan" qədim türk sözündən (37, s. 608) və -a kiçiltmə şəkilçisindən formalaşmışdır (256, s. 40). Ad teofor xarakterli antroponim olmaqla "Şu allahının dayağı" mənasında şəxs adı kimi formalaşmışdır. Ad müasir Allahqulu və hələ də bu gün dilimizdə işlək halda olan Şulan adı ilə sinonim mənaya malikdir. Ada peçeneq türklərinin bir qolu Çulum adında da təsadüf edirik (508, s. 91).

**Yarlanqab.** Adın "yar/sır"-"işıq, od" tərkibi şumer, akkad və kutilərdə Sar/Şar Günəş tanrısının adı idi (353, s. 49-51). Sözə qoşulan "lan/lanq" tərkibi isə qədim türklərdə "tanrıya xas əlamət", "nişan", "bəlgə" mənalarında işlənmiş (DTS, s. 332), türk dillərində tez-tez rastlaşdığımız "dəniz- dəngiz, donuz-donquz" kimi -nq qovuşuq yazılışı ilə işlənmişdir. Dilimizdə l≈m≈n≈r sonor samitlərin əvəzlənməsi nəzərə alınarsa o zaman "manq" tərkibi "igid", "bahadır" mənalarında da izah oluna bilər (208, s. 59). Sözün son komponenti "qab/kab" tərkibi isə yuxarıda da qeyd etdiyimiz kimi türklərdə "ölkə, yurd" mənalarında işlənmişdir. Biz Xəzər tayfalarında Kabar, peçeneq türklərində Yazı Kapan, Kapuksin Çula, Orxon-Yenisey türklərində Kabay, Bolqar türklərində Kubyar kimi tayfa və şəxs adlarına rast gəlirik (212, s. 86-88, 125; 508, s. 91; 300, s. 226). Əgər diqqət etsək, burada Kabar/Kəbər-"igidlər ölkəsi", Yazı Kapan-"Sas ölkəsi tayfaları", Kabuksin Çula-"Şanlı Çul övladlarının yurdr", Kabay-"Ay tanrısı ölkəsinin övladları", Kubyar-"Şar tanrı yurdunun ərləri" adlar və onları formalaşdıran əski dil leksik vahidləri prototürk dilində olmaqla eyni mənada işlənmişdir. Beləliklə Yarlanqab çar adı "Şar tanrı yurdunun seçilən igidləri" mənasında inancla bağlı-teofor addır. Qeyd edək ki, "kap" tərkibli bu tayfa adlarının etimologiyası da tərəfimizdən ilk dəfə verilir (-F.R.).

**Xablun, Xabilkin.** Eyni "kap" tərkibinin daşıyıcıları olan bu adaların birincisinə qoşulan Ulun/ulum/ulam –"arxa, dayaq" (37, s. 608), eləcə də "ulu", ikinci addakı "kan"-"kağan, xan" tərkibləri (64, I c., 519) Xablun adını "Ulu yurdun dayağı", Xabilkin adını isə "Ulu

kağan yurdu" mənasında izah edir. Bu gün dilimizdəki Elbəyi, Elsevər, Elyar, Eldost sözləri ilə sinonim adlardır.

**İbate.** Qədim şumer və kutilərdə "iba/aba"-"əcdad, ata", M.Kaşğaridə isə "ana" mənalarında işlənmişdir (37, s.1; 42, I c. s. 86). Müasir Altay, Teleut, Cağatay, Şor dillərində də bu məna qalmaqdadır (353, s. 430). Bizim bu gün də leksikonumuza daxil olan "abi", "abla", "aba", "baba" kimi sözlərimizdə ab/aba komponenti bu qədimliyin daşıyıcısıdır. Çar adındakı "te/ute/uti" sözü şumerlər və kutilərdə "Uti" yazılışında yaradan, bəxş edən tanrı idi. Söz qədim türk inancının daşıyıcısı olan "Atam Uti" mənasındadır.

**Puzur-sin.** Sözdəki puzur tərkibini Q.Qeybullayev "allahın sirri" kimi izah etmişdir (208, s. 53). Lakin diqqət etsək "puz/pus" sözünün qədim türk dillərində "baş" mənasına da rast gəlirik. Addakı "qur, qurmaq" feli kimi işlənən "ur" tərkibi və bu tərkibə qoşulan "sin" leksik vahidi titul kimi işlənmişdir. Onun qovuşuq -nq samiti ilə (191, s. 131), "sinq" kimi yazılışı M.Murzayev tərəfindən "şiş, çətin alınan zirvə" mənasında izah edilmişdir (48, s. 397). Biz çar adının "Şöhrətli baş yaradan" mənasına üstünlük veririk. Bu ada eynilə şumerlərdə də antroponim olan Puzursun-"Şöhrətli baş yaradan" (kuti çar adı ilə eyni kökdə), Puzur-Saxan-"Baş yaradan Sax tanrısı" adlarında da təsadüf edirik (208, s. 52).

**Laxarab.** Adda işlənən "lax/laq" morfeminin qədim türk dillərində "əlamət", "nişan", "bəlgə" mənalarında işlənməsindən yuxarıda bəhs etdik. Mənbələrdə bu tərkib "san"-"şan-şöhrət" sözünü də özünə birləşdirməklə "lakşan" yazılışında "tanrıya, buddaya xas əlamətlər" mənasını daşımışdır (37, s. 332). Əgər yadımıza salsaq Şumerdə Laqaş-"tanrı gücünün əlaməti" şəhər adı, Luqalinda-"uca işıq əlamət" Urukan şəhərinin rəhbəri adlarında da bu tərkib eyni mənanı daşıyırdı (120, I c., s. 205-206). Addakı "ab"-"möhkəm, mahir" (64, I c., s. 287), türk dillərinə məxsus "ər" komponenti Laxarab-Laqarab çar adını "Mahir ər nişanlı, əlamətli" mənasında izah edir.

**İbranum, İrarum.** Bu sözlərdə də "ab"-"möhkəm, mahir" sözü (64, I c., s. 287) təkrarlanır. Bundan başqa adı əmələ gətirən "inim"-"qərarına görə", "razılığına görə", "nam"-"allah" (353, s. 430), "mak/manq"-"igid, bahadır", "ar"-"kişi, igid" qədim türk sözləri İbranum adını "Ur allahının verdiyi igid ər", İrarum adını isə "Ur allahının

verdiyi" mənalarında izah edir. Tərəfimizdən ilk dəfə etimoloji izahları verilmiş Kuti çar adlarını formalaşdıran və qədim türk dillərinə məxsus "ulm/ulam" - "arxa, dayaq", kur –"coşqun", "kab" –"yurd, ölkə", "yar/sır" - "işıq, od", "uk" –"oğul, varis" "manq"- "igid", "bahadır", "qab/kab"-"ölkə, yurd", "lax/laq" "tanrıya xas əlamət", "nişan", "bəlgə" kimi xeyli sayda qədim türk dili leksik vahidləri, eləcə də sözlərin formalaşmasında Şar, Suen, Ur, Kur/Kiur kimi tanrı adları ilə bağlı mifik əlamətlər bu boyların qədim türklər olduğuna dair tarixi faktlar sayıla bilir.

Bütün bunlarla bərabər qaynaq və salnamələrə "kuti", "quti", "kutium" kimi düşən bu tayfa adının mənası və mənşəyinin haradan gəlib nə məna ifadə etdiyi haqqında da fikrimizi açıqlamağı gərəkli hesab edirik. Qeyd edək ki, qədim türk dillərində "qut"–"qüvvə" mənasında işlənmiş, xalqımızın "yeməsən qutun olmaz", "ürəyində qut qalmayıb" kimi deyimlərində də bu tərkib eyni mənanı günümüzə qədər daşımışdır. Sözü "ku" yazılışında qəbul etsək, yenə də tərkib qədim türk dillərində "şan-şöhrət", "qoruyan" "hakimiyyət" mənalarında işlənmişdir (37, s. 322; 446, s. 398). Ona qoşulmuş –t hərfinə gəldikdə isə bu hərf "cəmlik" ifadə etmişdir ki, bu da sözü "qüvvətlilər", "hakim olanlar", "şöhrətlilər" mənalarında izah edir. Lakin biz qədim türklərin advermə-nominasiya ənənəsində teofor-tanrı adlarından o dövrə məxsus tayfa və antroponimik-şəxs adlarının yarandığını və bu cür adlanma üsulunun qədim türklərə xas olmaqla xüsusi rol oynadığını görürük. Əgər yadımıza salsaq Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Luma, Şumukan və b. tanrı adları (5, s. 12, 15, 56-58) sonralar bu xalqın Şu, Şirak tayfa adlarında, daha sonra isə onların varisləri Kuti, Lulubəy, Türükkü, Kassit və b. prototürk boylarının Saralqab, Elilumeş, Kadaşman Harbe, Kudur Enlil kimi çar adlarında təkrarlanmışdır (349, s. 128; 208, s. 50-51, 61). Şumerlərdə Huma tanrı adı Altay türklərinə Umay şəklində, Şar tanrı adı isə, taras, buryat, hunqar-macar miflərində Şara-Tanqa, Şarkan kimi yer almışdır. Bu şəkildə türklərin Kuti-quti tayfa adının yaranmasında iştirakı olmuş Ki, Uti tanrı adının yunan və slavyan miflərinə Kiy, Kibela kimi (120, Ic., s. 647-648; 121, II c., s. 640) adlandığının da şahidi oluruq (-F.R.). "Türk" tayfa adımızın mənşəyi qədim türklərin Tork tanrı adından gəldiyi və bu adın e.ə. IV-III minilliklərə söykəndiyi də qaynaqlarda öz əksini tapır. Biz Kuti

tayfa adının qədim Şumer türklərinin Ki, Utu tanrı adlarından meydana gəldiyini düşünürük. Bu adın "qüvvətli", "hakim olan", "şöhrətli" etimoloji mənaları da tanrıya xas olan əlamətlərdir. Qədim dövrdə göstərilən tanrı adlarının Kuti, Sir, Şu, Şubar-Subar tayfa adlarına çevrilməsi türklərin adlanma ənənəsindən irəli gəlirdi (121, II c, s. 521). Ümumən e.ə. IV-I minilliklər prototürk tayfa adlarına diqqət etdikdə biz Ki və Utu Şumer tanrı adından Ki+utu, Kuti türk tayfasının, Şar tanrı adından Şir+ak, Şir tayfasının, Şumukan tanrı adından Şu+mu+kan, Şu tayfa adlarının yarandığını görürük. Bu isə bir təsadüf deyil, qədim bir xalqın adlanma-nominasiya adətlərinin areal türk adlanma sistemində eyniliyini və bütün bunların nominasiya prosesində məhz türk mifik təfəkküründən qaynaqlandığının göstəriciləridir.

Bu istiqamətdə bəzi faktlara da diqqət edək. Gürcü alimi Q.A.Melikişvili Urartu tarixinə dair araşdırmalarında assurların urartuları "kuti" adı ilə adlandırdıqlarını, "urartu" sözünün isə "uruatru" şəklində hürrü dilində olduğunu yazmaqla, kutiləri bu ərazidə əsas aparıcı etnoslar kimi göstərmiş, urartu dilinin isə Qafqaz mənşəli olduğunu qeyd etmişdir (404, s.7-8)

Bununla yanaşı kutilərin dilinin prototürk dili olması haqqında bəzi fikirlərimizi də elmi cəhətdən əsaslandırmaq istərdik. Q.A.Melikişvili digər bir kitabında III Salmansarın, Asarxaddonun və II Sarqonun yazılarında da kutilərin xatırlandıqlarını, bu adın ümum Urartu xalqı üçün işlək söz olduğunu da qeyd edir (403, s. 119). Bu məlumatlardan istər-istəməz belə bir məntiqi nəticəyə gəlmək olar ki, əgər Urartu xalqları arasında kutilər üstünlük təşkil edirdilərsə və bu dövlətin ərazisindəki xalqların ümumi adı "kuti" adlanırdısa deməli bu xalqın ünsiyyət vasitəsi olan dilində də Kuti dili aparıcı mövqedə olmuşdur (-F.R.). Bu fikrimiz digər tarixi faktlarla da öz təsdiqini tapır.(404, s. 247-248, 279, 345; 76, s. 11-12).Q.A.Melikişvili (292, s. 76; 474, s. 19, 27-28). Onların bu uydurmalarına tutarlı elmi təkziblər İ.Hacıyevin yeni nəşr olunmuş "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri" kitabında da geniş yer almışdır (183, s. 22, 26, 77)

Bütün bunlarla yanaşı Kuti tayfalarının hansı mənşədən gəlməsi, dil problemində olduğu kimi onun ərazisi də tədqiqatlarda mübahisələrə səbəb olmuş, fərqli məkanlarda lokalizə edilmişdir. Lakin qeyd edək ki, bu tayfalar əksər mənbələrdə Urmiya ətrafında və ondan qərbə doğru

Kutik-Zaqros dağları ərazilərində məskun olmuşlar. Tədqiqatlar və qaynaqlarda bu tayfaların ərazisinə diqqət etmək üçün əcnəbi və ümum türk araşdırıcılarının bu tayfaların əraziləri haqqındakı fikirlərinə də qısaca nəzər salmaq istərdik.

Son dövrlər tarix və dil araşdırmalarına diqqət etsək tez-tez "Tarixi qədimlik" problemi və bu məsələdə isə, xristian faktoru ilə qarşılaşırıq. Bu siyasətə ən qabarıq şəkildə XVII-XIX əsrlər çar Rusiyası və sovetlər dövrünün siyasi baxışlarında təsadüf edirik. Xristian faktorunun himayədarlıq etdiyi və arxa durduğu kiçik azlıqlar "yeni tarix" uydurmuş, qədim tarixin saxtalaşdırılmasında əsaslı rol oynamış və hazırda da oynamaqdadır. Lakin bildiyimiz kimi Kuti dövləti və tayfalarının Cənub Azərbaycanımızın ərazilərində ən azı e.ə. III minillikdən başlayan tarixi xeyli sayda salnamə yazıları, mənbə və qaynaqlarda öz əksini tapır. Bu salnamələr göstərilən minilliyin ortalarında kutiləri qüvvətli dövlət kimi tarixi proseslərdə iştirakını göstərir. Buna baxmayaraq Rus-İran siyasətinin sifarişi ilə siyasi motivdə İranın qədim tarixini yazan M.S.İvanov, "İran tarixi xülasəsi" kitabında Cənub Azərbaycan ərazisini "İran" adlandırmaqla e.ə. VI-II minillikdə mövcud olan Şumer, Elam, Akkad, Vavilon, Assuriya dövlətlərinin adını göstərsə də nədənsə bu dövlətləri işğal edərək 100 il idarə etmiş Kuti-Quti dövləti və tayfalarının adını çəkməmişdir. Ərazinin qədim tarixini e.ə. X əsr Midiya tarixindən başlayan müəllif onun etnogenezi məsələsinə toxunmamış, kiçik gəlmə köçəri tayfalardan "İran" adının yarandığını göstərmişdir (358, s. 7-12). Əsərdəki əsas fikirlərin qayəsi və istiqaməti bu ərazi tarixinin saxtalaşdırmaqdan ibarət olduğunu ortalığa çıxarır. Xüsusi olaraq qeyd etmək istərdik ki, kutilərin ərazisi siyasi baxışlar amilindən fərqli konsepsiyalarla fərqli ərazilərdə göstərilmişdir. Bu amil əsasən Rus, fars siyasətində onların himayəsi altına sığınmış xristian azlıqların torpaq iddiaları ilə bağlı yazılarda öz əksini tapır.

I cild "Azərbaycan tarixi" kitabı bu tayfaların Turukku və Su türklərindən sonra tarix səhnəsinə çıxdıqlarını yazmaqla onların Urmiya gölü hövzəsində yaşayan turukku, lulubi, cubar və s. tayfalar ilə bir ittifaqda olmasından, adının Diala çayından yuxarı Tukriş ölkəsi ilə birgə çəkilməsindən bəhs edir (69, s. 81)

Roma tarixçisi Tit Liviy "Romanın yaranması tarixi" əsərində İlerqet tayfa adını çəkərək onu Liviya, Assuriya ərazilərində yaşayan

Afrikanın Lerqet tayfası hesab edir (33, s. 140-142). Halbuki, Assuriya daima kutilərin nəzarəti altında olmuş, Afrika xalqları isə son dövrlərə qədər heç bir tarixi sənəddə Mesopotamiyada görünməmişlər. Sözün etimoloji mənasına gəldikdə isə İl-"yurd, məkan", ər-"igid, kişi", Qet/qut isə tayfa adı olmaqla "Kuti ərlərinin yurdu" mənasında türk kutilərlə bağlı ərazi adıdır.

Miladdan öncə IV-III minilliklərin siyasi hadisələrini şərh edən "Ümumdünya tarixi" kitabında kutilərin qədim Azərbaycan torpaqlarında göstərilməsi faktı (120, I c., s. 314-318; 121, II c., s. 21, 283, 653, 776), M.E.Matye, İ.M.Lure, V.V.Struve və digərlərinin yazıları ilə yanaşı, bir sıra tarixi mənbələr də Naxçıvanın ərazisində Araz çayının sağ və sol axarları boyu Kuti türklərinin yaşadığını qeyd edir. Daha sonra onlarla yanaşı Azərbaycan xalqının təşəkkülündə iştirakı olmuş prototürk boyları tüpükkü, су, лулуби, субар, şubartu, kaskey, kassit, massaget bulqar, lulubəy və b. türklərin də kutilərlə kompakt şəkildə yaşadıqları göstərilir (384, s. 9-18; 399, s. 45-75; 456, s. 63-81).

Mənbələr e.ə. III minillikdə qaynaqlara "kuti", "kutium", "kutu", "quti" bəzi hallarda isə -k samitinin düşümü ilə "uti" kimi də düşən kutilərin dövlətinə daxil olan ərazilərin və onun sərhədlərinin çox geniş olduğunu yazır. Bu mənbələrdə Kuti dövlət ərazisi, mərkəzi Kuti-Zaqros dağlarından Akkad sərhəddinə, aşağı Diyaladan başlayaraq Xabur, Aşağı Zab çayının yuxarı axarlarına, onun cənub sahilləri Ninevanın şimalından Kuman ölkəsinin cənubuna, müasir Daxuka rayonuna qədər olan torpaqları, Araz axarları boyu geniş ərazini əhatə etdiyi göstərilir. İkiçayarasında isə e.ə. III minillikdə Kut və Kutu şəhər adlarının olduğu da bu məlumatlarda qeydə alınır (549). Erməni tədqiqatçısı Y.A.Manandyan Urmiya gölü hövzəsindən Van gölü ətrafına qədər Zaqro-Elam qrupuna mənsub elamit, kuti, lulubi, kassit tayfalarının məskun olduqlarını qeyd edir (394, s. 10-12) İ.Əliyev bu tayfaların Arazdan cənubda yaşadığını, sonralar isə bu ərazilərdə Uti boylarının məskunlaşdığını göstərmişdi (284, s. 64-66). Bəzi mənbələrdə isə e.ə. III minillikdə Kuti dövlət sərhədlərinin Urmiya sahillərindən Bəsrə körfəzinə qədər ərazini əhatə etdiyi, onların şümer və akkadları öz əsarətləri altına alsalar da, bu dövlətlərdə idarəçilikləri dəyişmədiklərini, şumer şəhər hakimlərinin əzəlki kimi "ensi" adlandırdıqlarını yazır. Akkad yazılarının kiçik bir mətnində Kuti çarları haqqında akkad

dilində məlumatlar verilir və kutilərin 100 illik hakimiyyəti müddətində Şumerdə şəhər çəkişmələrinin səngiməsi göstərilir. Bu məlumatlarda yeni məbədlərin tikintisinin davamı, şəhərlərin şumer və akkadlar içlərindən seçilmiş çarlar tərəfindən idarə edilməsi haqqında da faktlara rast gəlirik. Daha sonra yazılarda e.ə. XXII əsrin sonlarında Mesopotamiyada Utuxeqalın başçılığı ilə baş verən qiyam nəticəsində Kuti çarı Tirikanın (Türkan-F.R.) əsir götürülərək buradakı Kuti hökmranlığına son qoyulduğu, III minilliyin sonunda Kuti dövlətinin süqut etdiyi də göstərilir (551).

Adətən bütün prototürk boylarını "İrandilli" olaraq təqdim edən E.A.Qrantovski Herodota istinad edərək uti-kutilərin Kürdən cənubda, Arazın aşağı axarında və qərb bölgələrdə məskun olması, Andiya ərazisində hürrilərlə bərabər yaşadıqları haqda məlumat verməklə onların irandilli olduqlarını yazır (33, s. 280)

Kuti prototürklərinin tarixi haqqında məlumat verən Tamerlan Vəlixanlı bu tayfaların e.ə. III minilliyin II yarısında Urmiya gölünün cənub qərbində dövlətlərini yaratdığından bəhs etməklə, onların III minilliyin sonlarında Mesopotamiyaya hərəkət edərək Akkad çarlığının mövcudluğuna son qoyduqlarını qeyd edir (552).

Əgər məlumatlara diqqət etsək, Kuti prototürklərinin ərazisi əsasən bu gün fars hakimiyyətinin belə adını dəyişdirə bilmədiyi Cənub Azərbaycan ərazisindəki "Urmiya Azərbaycan ostanı" ərazilərində göstərilməklə, Araz çayı axarlarını, o cümlədən də qədim Naxçıvan torpaqlarını əhatə etmişdir. Təbii ki, kutilər e.ə. III minillikdə Şumer və Akkad dövlətini işğal etməmişdən xeyli əvvəl bir güclü tayfa şəklində fəaliyyət göstərmiş, bu proses isə ən geci e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərində Urmiya və Naxçıvana aid ərazilərdə təşəkkül tapmışdır. Onların ərazilərimizə "gəlmə" olması haqqında heç bir qaynaq və araşdırma məlumatı olmadığından, tarixi qaynaqların bu tayfaların ərazisi haqqındakı məlumatları üst-üstə düşdüyündən qətiyyətlə demək olar ki, çox böyük gücə malik olan kutilər vətənimizin ərazilərində prototürk tayfalarımızdan biri olmaqla avtoxton-yerli sakinlər olmuşlar. Onların böyük güc olduqları Akkad çarı Salmansarın salnamə yazılarına istinadən "göydə ulduzlar qədər miqdarı bilinməyən kutilər" ifadəsi ilə də təsdiq olunur (347, s. 265-266). Əgər göstərilən tarixi faktları nəzərə alsaq, bütün bu hadisələr və tarixi proseslər e.ə. III minilliklərdə baş

verir ki, bu tarix də hələ xristian təqvimindən çox öncəki minilliklərə təsadüf edirdi.

Yuxarıda da qeyd etdik ki, bir sıra tarixi qaynaqlara "kuti" tayfa adı "uti" yazılışında düşmüşdür. Kutilər haqqında məlumata və onun "uti" şəklində yazılışına biz Herodotun (e.ə. V əsr) "Tarix" əsərində də təsadüf edirik. Müəllif e.ə. I minilliyin ortalarında II Pers satraplığında Qiten şəhərini göstərərək onun əhalisinin "qitennlər" adlandığını qeyd edir. Bundan sonra Saqar, Saran, Miki, Faman tayfaları ilə yanaşı utilərin də adını çəkən müəllif, həm Midiya qədim türk ərazisində, həm də Atropatenada iki əyalətdə kuti-utilərin yaşadığını göstərir (23, III, 90, 93; VII, 68). Şübhə yoxdur ki, "uti, qiten" adları müxtəlif ərazilərdə kutilərin fərqli adlarla adlanması idi. Burada Faman tayfa adı bir qədər anlaşılmasa da, f≈b səs əvəzlənməsinə istinadən birinci tərkibi "ba"-"bəy" qədim türk sözü ilə izah etmək olar. Adı formalaşdıran "man" "ulu, qədim, qoca" əski türk sözü "azman", "uzman", "qocaman" kimi sözlərimizdə günümüzə qədər gəlmişdir. Bu halda Faman tayfa adı "ulu bəylər" mənasında açıqlanır. Bununla yanaşı digər Saqar-"Sak+ər", Saran-Sar/Şir+an yəni "şirlərə, şiraklara məxsus", Miki –Miki, Dondar qədim türk boylarının adları, onların əski türklər olmasını bir daha sübut edir. Bu tayfa adları müxtəlif qaynaqlarda və tədqiqatlarda öz təsdiqini tapmaqla geniş araşdırılmış, onların yayılma arealı tədqiqatlarda öz əksini tapmışdır (260, s. 47-51; 365, s. 47; 317, s. 108; 168, s. 18).

Yunan coğrafiyaşünası Strabon e.ə. V əsrdəki hadisələri şərh edirkən Midiya ərazisində utilərin yaşadığını göstərir (31, s. XI, 7,1; XI, 8, 8). Daha maraqlı və xüsusi tarixi əhəmiyyətə malik olan məlumatlara İ.M.Dyakonovun da araşdırmalarında rast gəlirik. O, e.ə. 2202-2201-ci minilliklərin hadisələrini təsvir edərkən kuti-utilərin Dəclə və Fərat çayları arasında yerləşən Şumer-Akkad ölkəsini işğal etdiklərini xüsusi olaraq qeyd edir (349, s. 110; 353, s. 266). Bu yazılışda adın e.ə. III minillikdə həm də UTİ kimi işlənməsi utilərin elə kutilər olmasına dair təkzibolunmaz sübutdur.

Kutilər haqqında Alban tarixçiləri M.Kalankaytuklu və Mxitar Qoşu yazıları maraqlı tarixi faktlarla zəngindir. Onların yazılarında xristianlığın yayılması ilə bağlı Uti əyalətinin adı çəkilir və Uti-Kuti boylarının çox qədimlərdə cənubdan Albaniyaya gələrək burada əyalət yaratdıqları qeyd olunur. Bundan başqa müəlliflər Albaniyada il-ituer

mənsəbi məqamı olduğunu da yazırlar (24, s. 13, 161). Bu isə kuti yurdu və adət-ənənəsi, eləcə də ayrıca kuti qanunundan xəbər verir. Göstərilən məlumat Urartu çarlığı dövründə, e.ə. 760-cı illərin mənbələrində verilən məlumatlarla da öz təsdiqini tapır. Biz o dövr Urartu yazılarında qədim Midiya və Atropatena ərazilərində Etiuni əyalətlərinin olması haqqında ayrıca tarixi məlumatlara rast gəlirik (208, s. 46).

Bütün bu tarixi faktlar nəzərə alınmaqla biz aşağıdakı yekun nəticə üzərində dayanaraq deyə bilərik ki, tarixi faktların geniş şərh etdiyi müxtəlif yazılışlı və müxtəlif tarixi dövrlərdə dövlət, ölkə, əyalət adı kimi çəkilən "kuti" və "uti" yazılışlı bu iki tayfa adı eyni mənşədən gəlməklə qədim türklər olmuşdur. Qeyd etdik ki, İ.M.Dyakonovun tədqiqatlarında Kuti boyları Dəclə və Fəratın yuxarı axarlarında "kuti-uti" kimi iki adda göstərilir. Əgər tarixi prosesləri, kutilərin Urmiya ətrafı və ondan qərbə doğru məskunlaşdığını, eləcə də Herodot, Strabon və digərlərinin utiləri Şimal Azərbaycan ərazilərində göstərdikləri tarixi faktları nəzərə alsaq, o zaman bu məlumatlara istinadən Uti boylarının kutilərin varisi olduğun da qətiyyətlə söyləmək mümkündür. Bu varislərin kutilərlə eyni dövrdə fəaliyyəti də İ.M.Dyakonovun tədqiqatlarına əsasən təsdiq olunmuş olur. Bütün bunlarla yanaşı bu qədim tarixə qısqanclıqla yanaşanlar da az deyil. Ümumən fars tarixi bu tayfaları özlərininki saymaqla bəzən öz tərəfdaşlarının da etnogenezinə daxil etməyə çalışırlar.

Qeyd edək ki, qədim Ön Asiya və Kiçik Asiya xalqlarının mədəniyyəti, tarixi dili və etnogenezində öz tarixlərini axtarmaq erməni və gürcü alimlərinin həmişə maraq dairəsində olmuş, hələ indi-indi 3 milyona çatan bu xalqlar bütün Mesopotamiyanı öz təsiri altında saxlayan kutilər, eləcə də hürri, subər-şubər, mitan, lulubi, turukku və s. tayfaların tarixini, dilini ya özlərinə aid etmək, ya da prototürk tarixindən kənarlaşdırmaq marağı güdmüşlər. Onlar öz tədqiqatlarında Cənub Azərbaycan əhalisini ya irandilli, ya da urartuların içərisində olan kiçik xalqlar kimi göstərməyə çalışmaqla özlərinə aid xalq kimi göstərirlər (401, s. 14).

Azərbaycan tarixi və təşəkkülündə iştirakı olmuş prototürk tayfalarının bir çoxuna qərəzli niyyətlə yanaşan "erməni tarixçiləri" və "erməni alimləri" kutiləri özlərinin babaları kimi iddia etməkdə Kuti tayfalarının dili və tarixini də öz tarixləri və dillərinə yamamağa cəhd

etməklə uydurma "Böyük Ermənistan" niyyətlərindən bu gün də əl çəkmirlər. Xalatyans, Qəribyan, Movsesyan kimi "erməni tarixçiləri" burada da öz mənafeləri üçün tarixi saxtalaşdırmaqda maraqlı olmuş, Subər, Lulubi, Türükkü prototürkləri ilə bir ittifaqda olan qədim Kuti dövlətinin ərazisini Urmiya sahillərindən Van gölü ətrafındakı Zaqros dağlarına (onlar bu dağı "erməni dağları" adlandırırlar -F.R.) qədər "Ermənistan ərazisi kimi göstərməyə çalışmaqla kuti tarixini və dilini "erməni tarixinin bir hissəsi" kimi təbliğ edirlər (553).

Təbii ki, bütün bunlar ermənilərin tarix oyunu olmaqla heç bir elmi əsası olmayan fikirlərdir. Çünki onların istinad etdikləri Urartu yazıları və qaynaq məlumatları, eləcə də digər salnamələr bunun əksini yazır. Biz Urartu çarlarının yazılarında Kuti ölkəsinin adına fərqli yazılışlarla da olsa müstəqil dövlət adı kimi rast gəlirik ki, bunun da VII əsrdə Frakiyadan qaçqın düşən friqlərlə - müasir ermənilərlə heç bir əlaqəsi yoxdur. Bu hadisələr m. ö. XI-VII əsrlərdən gedir ki, o zaman hələ friqlər- "hayasa" və "erməni" adlarına sahiblənməmişdilər. Bunun üçün hələ e.ə. VII əsrdə Hetlərin Hayasa ölkəsində "Hayasa", e.ə. V əsrdə isə Ərmən yaylasına köç edərək assimilyasiya olunmaqla "ərmən" adlanmalı idilər. Məhz bu assimilyasiya onların "friq" adlarını itirməyə məcbur etmişdir. Bu tayfalar-friqlər özlərinin də yazdıqları kimi hələ türklərin "Ərmən" yaylasına köçüb (e.ə. V əsrlər) "ermənileşməmiş", Urartu ərazilərinə yayılmamışdılar (120, I c., s. 513-514; 367, s. 163). Buna görə də erməni "tarixçilərinin" tarixi belə qaralamaq cəhdlərinin, uydurmalarının heç bir elmi əsası yoxdur və bu iddialar tarixi faktlara söykənmir. Urartu yazılarına diqqət etdikdə bu tarixi faktorların erməni uydurmalarının ziddinə olduğunu açıq görürük.

Urartu çarı I Argiştinin yazılarında o, kutilərə məxsus olan Kutan ölkəsi haqqında salnamədə belə yazır: "... mən Bia ölkəsinə... Xuşani ölkəsinə qədər çatdım. Üç ölkəni yerindən qoparıb onların torpaqlarını və əhalisini öz ölkəmə qatdım" (404, s. 247-248). Burada Kutan-"kutilərə məxsus" ölkə adı "Xuşan" yazılışı ilə Urartuya aid olmayan müstəqil ölkə kimi verilir ki, bu da ermənilərin tarix oğurlama cəhdlərinin uydurma olduğunun birmənalı sübutudur. Eyni məlumata biz II Argiştinin yazılarında da rast gəlirik. Onun salnaməsində deyilir: "Xaldi allahının böyüklüyü ilə mən Qirduni, Qituxani ölkələrinə qalib gəldim" (yenə orada, s. 279, 345). Bu məlumatdan da göründüyü kimi salnamədə

kutilərin ölkəsi Urartuya tabe olmayan müstəqil Kutuk-"kuti övladları" ölkəsi kimi qeyd olunur. Yazıdakı –ani komponenti Urartu dilində söz sonluqlarına artırılan şəkilçidir (-F.R.). Bu hadisələr olduğu kimi rus tarixi mənbələrində də qeyd olunur (73, s. 14; 76, c. 11-12). Yeri gəlmişkən qeyd edək ki, Urartu dövlətində aparıcı güc olan Kuti boylarının Kuti ölkələrinə hücumu sadəcə ümum Kuti hakimiyyətini qurmaqdan ibarət idi. Əgər biz bu gün Dərbənd, İrəvan xanlığı, Cənub Azərbaycan, Gürcüstana qatılmış torpaqları özümüzə qaytarmaq istəsək, o dövr tarixi proseslərin təkrarı ortalığa çıxır.

Mənbələrin məlumatlarına diqqət etsək, Urartu ərazisini özlərinin yurdu hesab edən ermənilər (tarixi faktlar bunun tamamilə yanlış olduğunu bir daha sübut edir) yazıdakı məlumatları da saxtalaşdırmağa cəhd edirlər. Bu məsələdə ermənilərin uydurmalarının elmi əsası olmadığını və bunun onların növbəti tarix oyunu olduğunu göstərmək üçün mənbə məlumatlarını, antik müəlliflərin yazılarındakı bəzi məqamları da nəzərdən keçirməyi tarixi və elmi baxımdan məqsədəuyğun hesab edirik.

Bundan başqa daha bir elmi əsası olmayan iddialar Sasanilər sülaləsi və kürd tayfalarından bəhs edən Lətif Məmmədovun yazılarında qeydə alınır. O, Cənub Azərbaycanda atəşpərəstliyin müqəddəs kitabı Avestanı kürdlərə aid dastan kimi verməklə Ərdəbil, Zəncanı şimal "Kürdüstan" yazmaqla Midiya tərkibindəki Parsua əyalətini midiyalı kürdlər ölkəsi adlandırır. Bununla kifayətlənməyən müəllif heç bir tarixi fakt göstərmədən Elam dövlətinin şimalını (Anşan) və Şu proto-türklərinin adını daşıyan qədim Suz şəhərini Şiraz və Zaqros dağlarını Pars-Kürd əyaləti kimi qələmə alır. Burada e.ə. III minillikdə Elam dövlətinin etnik tərkibini kürdlərə bağlayan L.Məmmədov avan-abant, car, avdey, cəlali, camaldın, gelom-gel tayfalarını kürdlər hesab etməklə onların Urmiya, Van, Sevan, Ağrı ərazilərində məskun olduqlarını qeyd edir. Avdoylardan ayrılan Şakkak tayfalarını Sak türkləri ilə eyniləşdirən müəllif, qədim Pal türklərini də "Pale" yazılışında kürdlər hesab edir. Bununla kifayətlənməyən L.Məmmədov Kuti rpototürklərini də kürdlərin babası sayır (554).

Karol Adab Liqalamund Şərq və Qərb ölkələri haqqındakı məlumatlarında Kuti ölkəsinin Elam və Subər ölkələrindən qərbə doğru ərazilərdə yerləşdiyini, Assur yazılarında isə Adadnerari I (1307-1275)

kassit, kuti lulubi tayfalarından söz açaraq onların sürətli və kəskin hücum taktikasını qeyd edərək, Mesopotamiya düzənliyindən sonra "Kassi ölkəsinin", onun sərhəddində "Kuti ölkəsinin" və onlardan sonra isə "Lulubi ölkəsinin" yerləşdiyini göstərməklə bu ölkələrin bir –birinə yaxın ərazilərdə olmaqla kutilərin ölkəsinin Urmiya və Van gölləri arasını əhatə etdiyini yazır (120, I c., s.192, 212-215, 319). Bu fikirlər Naram-Sinin, I Salmanasarın, I Tukulti-Ninurtanın (1275-1245) salnamə yazılarında da təkrarlanır və sonuncu I Tukulti-Ninurta şimala hücumu zamanı "Kuti" ölkəsi və kutiləri məğlub edən çar kimi özünü təqdim edir. Əgər yadımıza salsaq İ.M.Dyakonov da öz yazılarında II Sarqon (1275-1245) və VI Salmansarın (781-772) salnaməsinə istinadən Ağrı ətrafındakı çarlığı "Kuti ölkəsi", Korduen dağlarını "Kuti dağları" adlandırır (347, s. 265-266). Yeri gəlmişkən qeyd edək ki, (bu bizim şəxsi fikrimizdir) Kuti dağ adı sonralardan Cudi adlanmışdır. Biz türk dillərinə məxsus "cübbə"-çubbe-kübbe, "kətan"-çitin-kitin, "qılınc"-qılınk-qılıng kimi uyğur tatar, türkmən dillərinə xas olan c≈k fonetik səsəvəzlənməsi nəticəsində (507, s. 183-187, 238-240; 39, s. 472, 475) Cudi yazılışında təhrif olunmuşdur və İslamın müqəddəs kitabı "Quranda" da bu şəkildə öz əksini tapmışdır (-F.R.).

Göründüyü kimi salnamə məlumatlarında bir dəfə də olsun "friq", "hayas" və ya "ərmən" adlarına təsadüf edilmir. Sonuncu Ərmən tayfalarının türklər olması haqqında M.Xorenli də öz yazılarında məlumat verir (11, s. 209). Bu faktlar isə bir daha "erməni tarixçilərinin" yazılarının uydurma olduğunu göstərir.

Beləliklə, mənbə məlumatlarını ümumiləşdirməklə qeyd etmək olar ki, xalqımızın minillər boyu keçdiyi tarixi yolda кutilər qədim azərbaycanlıların yaşadığı torpaqlarda aborigen-yerli sakinlər olmuş, e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərində Cənub Azərbaycanın Urmiya gölü ətrafında yaşamaqla etnogenezimizin təşəkkülündə yaxından iştirak etmişlər. Siyasi hadisələr zamanı onun sərhədləri Van gölü ərazilərinə, Kərkükdən şərqə doğru genişlənmişdir. Cənub torpaqlarımızda öz dövlətlərini quran кutilər, hürrü boyları ilə bərabər böyük hərbi gücə malik olmuşlar. Akkad çarı Naramsinin dövründə e.ə. 2259-cu ildə bu dövlətin varlığına ciddi təhlükə yaratmışlar. Onlar e.ə. təqribən 2200-ci ildə əsirlikdə olan prototürk həmvətənlilərini qurtarmaq üçün Akkad dövlətini süquta yetirib onların qüdrətli şəhərlərini dağıdaraq Laqaş

şəhərini özlərinə paytaxt etməklə 100 ildən artıq bir dövrdə bütün Mecopatomiyanı əsarətdə saxlamaqla onları özlərinin idarə sisteminə tabe etmişlər (120, I c., s. 214).

Tarixşünaslıqda kuti-qutilər prototürk boyları hesab olunmaqla hələ e.ə. III minilliyin II-ci yarısında Mesopatomiyanın şimalından, əsasən Dəclə və Fəratın yuxarı axarlarından şimal-şərqə doğru yayılmış qədim Azərbaycanın Bəsrə (sonralar İran) körfəzindən Dərbənd ellərinə qədər bütün ərazilərdə məskən salmışlar (120, I c., s. 192; 121, II c., s. 283, 776; 271, s. 53; 218, s. 8-9). Bu qədim türk boyları bütöv Azərbaycanımızın əraziləri ilə bərabər qədim Naxçıvanda da məskun olmaqla ərazinin toponimik sistemində öz izlərini günümüzə qədər daşımışlar.

Bütün qaynaq məlumatlarından sonra Kuti türklərinin tarixini, dilini özündə yaşadan bir qrup yer adlarını yeni konsepsiyadan, qaynaqlara müraciətlə araşdırmaq bu tayfaların keçmiş və müasir Naxçıvan əyaləti və ərazilərində hansı məntəqə adlarında qaldıqlarına diqqət etmək, o cümlədən də onların yayım arealını izləməyi də elm cəhətdən əhəmiyyətli hesab edirik. Onu da qeyd edək ki, qaynaq sənədlərində çox qədimdən əhalisi tamamilə türklərdən ibarət, Sisyan, İrəvan, Iğdır, Maku, Kars və s. nahiyələrin Naxçıvan ərazisi daxilində göstərilməsi tarixi sənədlərdə bu gün də qalmaqdadır (77, s. 164-183).

1590-cı illərdə hələ Naxçıvan ərazisinə daxil olan Maku nahiyəsində Hati (sonralar sənədlərə Hato kimi düşmüşdür), Sisyan nahiyəsində Ketenus (kuti+an+ us), Vedi nahiyəsində Kütüs, Kətili, İrəvan nahiyəsində isə Ketuze məntəqə adları ilə qarşılaşırıq. Bundan başqa Xınzirək, Sürməli, Karni və s. nahiyələrin adı qeyd olunan qaynaqlarda Kutiltavr, Keytaz, Kütüs məntəqə adları da kuti türklərinin Naxçıvan ərazisində izlərini qoruyan etnooykonim məntəqə adları olmaqla həm də tarixi yaddaşımızdır (77, s. 41-42, 63, 159, 172-173, 183).

Qədim Naxçıvan əyalətinin 1774-1828- ci illərə aid sənədləri Dərəşam nahiyəsində kutilərlə bağlı Küt və Kütan (sonralar Kotanlı) adlı iki, Abaran nahiyəsində isə Tuquti (sonrakı sənədlərdə Tuqut ) adda bir məntəqə adını qeydə alır (125, s. 11).

Azərbaycan ərazisinin müxtəlif bölgələrində Kuturqan, Qutudağ, Qutarlık, Quton, Kutuar kimi etnooykonimlər kutilərin bu qədim torpaqda geniş yayıldığının canlı sübutlarıdır (35, s. 35-36). Bu adlar sisteminə Azərbaycan ərazisindən zorla qoparılaraq Gürcüstan torpaqlarına

qatılmış Kutaisi, Kutauta, Keda, Yakutiyada mövcud olan Kudu göl, Qırğızlarda Kuduara, Başqırdlarda Kudımkar, Komilərdə Kueda kimi 60-a yaxın məntəqə adları türk ərazilərində Kuti türklərinin yayım arealını sübut edən təkzibolunmaz coğrafi adlar sistemi və tarixi faktordur (103, s. 30-31, 42-43, 52-53).

Bütün bunları nəzərə alaraq Naxçıvan ərazisinə daxil olan Hati, Ketenus, Kətli, Ketuze Kutiltavr, Kütan, Kotam, Tuquti kimi (cəmi 23 məntəqə) yer adlarının etimoloji izahına, onlardakı prototürk dili elementlərinə də diqqət etməyi elmi cəhətdən əhəmiyyətli hesab edirik.

**Kiti.** İrəvan xanlığının 1828-ci ildə boşaldılan və ermənilər yerləşdirilən Dərəkənd-Parçenes mahalında əhalisi bütünlükdə azərbaycanlılardan ibarət olan kənd (210, s. 70). Məntəqə 1828-ci ildə tamamilə boşaldılaraq bura 31 erməni ailəsi yerləşdirilmişdir (26, s. 60-64). Heç bir nomen göstəricisinin iştirakı olmadan tayfa adı ilə etnooykonim kimi fəaliyyət göstərən bu məntəqə adı yalnız u≈i fonetik hadisəsi ilə Kut tayfa adından "kit" yazılışında təhrif olunmuşdur. Bildiyimiz kimi, türk dillərində kut/qut "qüvvə", "güc" mənalarında işlənmişdir və günümüzdə "Yeməsən canında qut olmaz"- qüvvə olmaz ifadəsində də qalmışdır. Ada qoşulan "i" hərfi M.Kaşğari, V.V.Radlov, Cafəroğlu və b. tədqiqatçıların yazılarında qədim türk dillərində əsasən "ir" şəklində işlənmişdir. Bu morfem hərəkət bildirən fel kimi "irdi, erdi" formasında zaman şəkilçiləri ilə yazılı mətnlərdə, şifahi nitqin dialekt və şivələrində ümumişlək fel olmuşdur (42, I c. 164). Bundan sonra biz sözün e≈i fonetik səs dəyişimi ilə ir/er yazılışlarında "kişi", "ər", eləcə də "möhkəm", "güclü, "dağıdan", "sökən" mənalarında işləndiyini də görürük (64, I c., s. 288-289; 37, s. 175-176). Əgər tarixi qaynaqların "göydə ulduzlar qədər miqdarı bilinməyən kutilər" ifadəsində (347, s. 265-266) bu tayfaların gücü haqqındakı məlumatlara üstünlük versək, o zaman tayfa adının "qüvvə", "i/ir" sözünün isə "hərəkət edən" fel ilə yarandığını görürük. Bu halda məntəqə adı "Hərəkətli qüvvətli kutilər" mənasını daşımaqla Kuti prototürklərinin qədim yurd yerlərindən biri olmuşdur.

**Xudabad.** Məntəqə adının quruluşundan da göründüyü kimi, Kuti tayfa adı təhrif olunmaqla dini amilin təsirindən "Xuda" kimi qeydə alınmışdır. Lakin biz Qıpçaq türklərində Xuda tanrı adına təsadüf edirik ki, türk inancında bu mifoloji hadisə Xristian dinindən 7 yüz il əvvələ

gedir. Məntəqə adında qədim türk dili komponenti olaraq "yer", "məkan" ifadə edən "bat" tərkibi göründüyü kimi dəyişilmədən qalmışdır. Biz "bat" komponentinə e.ə. VI-III minilliklərdə tarix səhnəsində olan As türk boylarının adını daşıyan qədim Astabad şəhəri, e.ə. IX əsr Midiya dövlətimizin Ekbatan (müasir Həmədan) paytaxt şəhəri adlarında, (358, s. 10; 284, s. 94), eləcə də sak tayfaları ilə bağlı Sakabat, müasir dövrümüzdə də aktiv fonda daxil olan Ordubad, Aşqabad və s. adlarda (103, s. 54-55) rast gəlirik.

Məntəqə adı ilk dəfə qaynaq və arxiv sənədlərində 1590-cı illərdə Naxçıvan qəzasına daxil olan Karni nahiyəsində (sonralar Aralıq) təhrif olunmuş şəkildə "Xudabandə" yazılışında qeydə alınır (77, s. 171). 1728-ci ilin məlumatlarında isə Naxçıvan qəzasına daxil olan Karni-Aralıq nahiyəsində "Xudaabad" formasında bu dəfə Kiçikli və Qaravəli kəndləri arasında təhrif olunmuş şəkildə görürük (yenə orada, s. 47). Az bir müddətdən sonra isə 1733- cü illərə dair sənədlərdə məntəqə adı həmin qəza və nahiyə daxilində Xudabad yazılışında sənədlərdə qeyd olunur (77, s. 70 ). Əgər diqqət etsək, bütün hallarda etnooykonim qeydə alınarkən türk dilləri üçün xarakterik olan k≈x, d≈t, h≈k, a≈u, a≈i fonetik hadisələri ilə müşahidə edilmişdir (266, s. 41, 86). Bu cür təhriflərlə fəaliyyət göstərən məntəqə adının ilkin variantda Kutibat yazılışında olduğuna şübhə etmirik. Kuti tayfa adı və "bat" qədim türk sözündən sabitləşmiş etnooykonim "Kuti yurdu" mənasını daşıyır.

Biz bu ada bənzər Kudulyurd məntəqə adının Naxçıvan şəhəri yaxınlığında olmasına A.Bağırovun araşdırmalarında rast gəlirik. Müəllif, Maara istinadən məntəqə adının doğruluğunu göstərmiş, birinci Kudu tərkibini "küdür" kimi götürərək "təpəcik" mənasında izah etmişdir (154, s. 154). Lakin burada "yurd" coğrafi nomeninin ada sonradan əlavə olunduğunu düşünürük. Çünki adın özü Kuti+il kimi olmaqla "Kuti yurdu" mənasındadır (-F.R.).

**Hati.** Bu məntəqə adı da İrəvan xanlığının 1828-ci ildə zorla boşaldılaraq ermənilər yerləşdirilmiş Dərəkənd-Parçenes mahalında qeydə alınır. Sənədlər kənd əhalisinin bütünlükdə Azərbaycan türklərindən ibarət olduğunu göstərir (210, s. 70). Oykonim türk dillərinə məxsus h≈k, a≈u fonetik paralelliyi ilə işlənməklə (266, s. 41, 86) Hati≈Kuti tayfa adının birbaşa ifadəsidir. Bu ad Kiti məntəqə adı ilə quruluş və mənaya görə eynilik təşkil edir. Oykonimdəki bu fonetik paralellik ha-

disəsini dilimizdəki "kağan", "kadın", "xalq" və s. sözlərin Osmanlı, kazak, qırğız, başqırd, uyğur və digər türklərdə "hakan", "kağan", "kan", "halk", "kalk", "hatun", "katın", "kotun" yazılışlarında da izləmək mümkündür (39, s. 299, 301, 321). Məntəqə adı "Kuti" mənasındadır.

**Kudulu.** Başqa adları Kudulu, İlicaq, Xudulu kimi də qeydə alınmaqla 1590-cı illərdə Naxçıvan ərazisində Naxçıvan qəzasına daxil olan Aralıq nahiyəsi daxilində qaynaq və arxiv sənədlərinə düşən bu məntəqə adı Novruzlu və Kürviranı kəndləri arasında göstərilir (77, s. 178). Məntəqə adında Kuti tayfa adına qoşulan "ulu" komponenti qədim türk dillərində də "ulu", "böyük" "əzəmətli", "güclü", "uca", eləcə də "saray rütbəsi" mənalarında işlənmişdir (37, s. 610-611; 42, I c. s. 304, III c. 90). Məntəqə adı bütün bu sözlərlə "əzəmətli kuti", "güclü kuti", "saray rütbəli kuti" və s. mənalar ifadə edir. Lakin, biz etnooykonimdəki "ulu" komponentinin qədim "ulu" variantına üstünlük verməklə, məntəqə adının "Ulu Kuti" mənasında formalaşdığını düşünürük.

**Kitikian.** Məntəqə adı torpaqlarımızın çar Rusiyası tərəfindən işğalından (1822-1823) sonra, 1828-ci ildə Naxçıvan ərazisindən zorla qoparılaraq İrəvan quberniyasına qatılan Qırxbulaq mahalında qeydə alınır (210, s. 70). Əhalisi bütünlükdə Azərbaycan türklərindən ibarət olan bu kənd rusların əli ilə boşaldılaraq əraziyə 23 erməni ailəsi yerləşdirilmişdir (139, s. 23). Bəzən az sayda erməni ailəsi yerləşməsinə baxmayaraq dini amilə görə əhali onlarla birgə yaşamaqdan imtina edərək kəndi birdəfəlik tərk etmişdir. Məntəqə adı Kuti+kian tərkiblərindən formalaşmışdır. Tayfa adına qoşulan "kan" komponentinə -i hərfinin sonradan əlavə olunduğunu düşünürük. Bu komponent omonimlik xarakterinə malik olmaqla "kan" - "xan, kağan", eləcə də a≈u fonetik paralelliyi ilə "kun" şəklində "yurd, məkan", "kın/qın" yazılışında isə "qala" mənalarında işlənmişdir. Biz Herodotun məlumatlarında Erikin (Ərkin-F.R.) torpaqları ifadəsi ilə qarşılaşırıq (23, V 44-47; VI 21, 127; VIII 47). Burada Sibaris şəhəri bu ərazidə olmaqla söhbət qədim türk subərlərin yurdlarından gedir. Biz "kun" –"məkan, yurd", "qala" komponentinə "Ərgənəkon" türk dastanı adında da rast gəlirik. F.Rəşidəddinin tarix haqqındakı məlumatlarında bu tərkib "Ergine-Kun" kimi (30, s. 153-154) "Kağan ərlərin yurdu", ola bilsin ki, "qalası" mənasını daşıyırdı

(-F.R.). Tərkibə "qala" mənasında Midiya, Manna, Atropatenaya aid adlar sistemində Qinzin, Kintau, Kinqaruki toponimlərində (208, s. 90), "məkan" mənasında Kadırkan, Xəzər dənizinin əski adı Qirkan, Midiyada Uşukkan hövzə adlı (349, s. 201) toponimlərdə təsadüf edirik. Komponentin "kan"- "xan, kağan" mənalarına isə "Dədə Qorqud" dastanımızda Qamxan, Xəzər kağanı Bulcan (289, s. 25) adlarında bu leksik vahid geniş işlənmişdir. Məntəqə adı "Kuti yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Kedas.** İlk dəfə 1590-cı illərdə Naxçıvan ərazisində Naxçıvan qəzasına daxil olan Karni nahiyəsində (sonralar Aralıq) qaynaq və arxiv sənədlərində rast gəlirik (77, s. 171). Sonralar 1728-ci ilin məlumatlarında yenə Karni-Aralıq nahiyəsinə daxil olan Duman və Kərəm Məhəmmədəli kəndləri yaxınlığında "Ketus" yazılışında bir adı da Gülbudaq olmaqla qeydə alınır. 1733- cü ildə isə bu ad o zaman Naxçıvan qəzasına daxil olan Aralıq nahiyəsinə aid Dürrənli və Qalacıq kəndləri yaxınlığında qeydə alınır (77, s. 71). Maraqlı etimoloji məna çalarına malik olan bu məntəqə adı Kuti tayfa adından və "as"-"qüvvətli, güclü" mənalı qədim türk dili leksik vahidindən etnooykonim kimi formalaşaraq "Qüvvətli kutilər" mənasında izah olunur. Qeyd edək ki, "as" sözü "əziz", "sevimli", "ağıl, zəka" və tayfa adı kimi E.V.Sevortyan, Q.Qeybullayev, C.Cəfərov, Ə.Quliyev tərəfindən geniş tədqiq edilmişdir (243, s. 212-215).

**Keyti.** Məntəqə adı ilk dəfə Naxçıvan ərazisinə daxil olan Sürməli nahiyəsində 1728-ci illərin arxiv və qaynaq məlumatlarında bu nahiyəyə daxil olan Sürməli və Ağcaqışlaq kəndləri arasında qeyd olunur (77, s. 63). Fikrimizcə, adda metateza-hərflərin, səslərin yerdəyişməsi hadisəsi baş vermiş (144, s. 225), ad siyahıya alınarkən Kut+yi yazılışından (vağzal-vazğal kimi) hazırkı Keyti yazılış şəklinə təhrif olunmuşdur. Qədim "yi/ye"-"sahib olmaq", "sahiblənmək" türk fel kökündən (37, s. 252) və tayfa adından formalaşmaqla məntəqə adına çevrilən bu etnooykonim "Kutilərin sahib olduğu kənd" mənasındadır.

**Hato.** Yuxarıda qeyd etdiyimiz Hati adı ilə eyni yazılışda türk dillərinə məxsus h≈k, i≈o fonetik səs dəyişmələri ilə 1590-cı illərdə hələ Naxçıvan ərazisinə daxil olan Maku nahiyəsində qeydə alınır. Sonrakı arxiv sənədləri və bu əsasda tərtib olunmuş kitablarda məntəqə "Hato" yazılışında 1727- ci ilin sənədlərində yenə həmin nahiyədə

Ağbulaq və Sevdik məntəqələri arasında qeydə alınır (77, s. 41). İlk baxışda adın birbaşa Kuti tayfa adından formalaşdığı görünür. Lakin məntəqə adında tayfa adının ilkin Kut yazılışını əsas götürərək –i fonemini yuxarıda qeyd olunan "ir"-"qurmaq" leksik morfemi ilə qəbul etsək, etnooykonimi "Kuti quran" məntəqə kimi izah edə bilərik. Biz adın bu mənasını daha doğru hesab edirik.

**Kutultəvr.** Qədimdən Naxçıvan ərazisinə daxil olan Maku nahiyəsində, Osmanlı sənədləşmələri zamanı 1590-cı illərə dair arxiv materiallarında qeydə alınmadığı göstərilir. Lakin 1728- ci ilin sənədlərində bu nahiyə 88 kəndlə Naxçıvan ərazisi daxilində qeydə alınır (77, s. 42). Bu sənədlərdə Qarğılı və Kosalı məntəqələri arasında yalnız azərbaycanlılar yaşayan məntəqə olaraq göstərilən oykonim Kuti tayfa adı ilə yanaşı qədim və müasir türk dillərinə aid "ul" leksik vahidi ilə işlənmişdir. Tərkibi Q.Qeybullayev söz sonlarına qoşulan şəkilçi kimi götürür və "monqol" sözündə işləndiyini bildirir, lakin onun leksik və ya qrammatik şəkilçi olması haqqında heç nə yazmır (208, s. 68). Biz haliyədə "ul" sözünün Sibir tayfaları və xakas, şor, tuvin dillərində "ulus", "aul", "kənd" mənalarını daşıdığını görürük (52, I c., I h., s. 350, 357). Biz müasir leksikonumuza daxil olan "el", "aul", eləcə də hazırda türklərdə işlənən "il" leksik vahidinin qədim türk dillərində işlənən "al/el"-"yurd, vətən" sözündən gəldiyini düşünürük. Bu gün də Sibir, Altay türklərində, eləcə də tuvin, xakas, şor və b. türklərdə bu leksik vahid "kənd", "ulus", "aul" deyimləri kimi işlənməkdədir (52, I c., I h., s. 350, 357). Məntəqə adındakı digər "tavr" sözü qədim türk dillərində "var-dövlət", "düşərgə", "möhkəmləndirilmiş qala" mənalarında işlənmişdir (37, s. 542; 208, s. 98). Biz Strabonun məlumatlarında Midiyanın paytaxtı Ekbatan (müasir Həmədan) yaxınlığında Tavr dağ adına rast gəlirik (31, XI, 4, 13). Bu tərkibdə e.ə. VII əsr və sonrakı dövrlərdə olan çoxsaylı şəhər və məntəqə adları Q.Qeybullayev tərəfindən nümunə olaraq göstərilmişdir (208, s. 98-99). Etnooykonim "Kutilərin möhkəm qala məntəqəsi" mənasında izah olunur.

**Qədili.** Bu məntəqə adı 1590-cı illərdə Naxçıvan ərazisində Naxçıvan qəzasına daxil olan Vedi nahiyəsində Sənasir və sak boylarının adını daşıyan Tizəkü kəndləri arasında qeydə alınır (77, s.173). Etnooykonimin tərkibindəki "il" (Kutil məntəqə adındakı kimi) komponenti "yurd, vətən" mənasında bu gün də Osmanlı və türkmən türklərinin dil-

lərində işlənməkdədir (39, s. 379). Adın sonundakı -i hərfinin fel olaraq M.Kaşğari, V.V.Radlov, Cafəroğlu və b. tədqiqatçı alimlər tərəfindən araşdırıldığını və "ir" yazılışında hərəkət bildirən fel kimi mənbələrdə "irdi, erdi" şəklində felin keçmiş zaman şəkilçiləri ilə işləndiyini yazdıq (42, I c., s. 164). Bu tərkiblərin məna çalarlarını nəzərə almaqla məntəqə adının "Qüvvətli Kuti yurdu" mənasında olduğuna əminik.

**Xudulu.** Naxçıvan qəzasının Aralıq nahiyəsində 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında o dövr Novruzlu və Qurdvirani kəndləri arasında göstərilən bu adda (77, s. 178) türk dillərinə məxsus qut-"qüvvət" sözü ilə qarşılaşırıq. U hərfinin səsdüşümü hadisəsi ilə müşahidə olunan məntəqə adının tərkibində k≈x, t≈d, i≈u səsəvəzlənmə hadisələri müşahidə olunur. Türk xalqlarının dilində x≈k fonetik hadisəsi (qadın-xatın-hatun-katın kimi) qumık, çuvaş, özbək, tatar, qazax dillərində də müşahidə olunmaqdadır (342, s. 15; 39, s. 442-443). Bu amillər nəzərə alınmaqla məntəqə adını kuti+ulu şəklində bərpa etmək mümkündür. Bu ada qoşulan qədim türk sözü "ulu"-"böyük, hörmətli" (37, s. 610) leksik vahidi nəzərə alınmaqla etnooykonim "Böyük küti" mənasında izah olunur.

**Kutumqışlaq.** 1728-ci illərdə Naxçıvan qəzasına daxil olan, Sürməli nahiyəsində Kağin və Əyrək kəndləri arasında "Xədimqışlaq" yazılışında qeydə alınan bu məntəqə adı (77, s. 64), yazılışından da göründüyü kimi kobud şəkildə təhrif olunmuşdur. Təbii ki, cinsindən məhrum olmuş heyvani hal və vəziyyətlə insan yaşayan məntəqə adının adlanması qeyri-realdır. Ad k≈x, u≈ə, t≈d fonetik səsəvəzlənmələrinə uğramaqla, coğrafi ad-nomen göstəricisi olan "qışlaq" leksik vahidi ilə məntəqə adına çevrilmişdir. Biz yuxarıda adın Şumer-Akkad dilində olan yazılara Kuti-im, Gutebu-um, Babil salnamələrinə Gutu-um, Assur yazılarına isə Guti kimi düşdüyünü yazdıq. Əgər diqqət etsək Kut tayfa adına qoşulan "um" komponenti onu məntəqə adı kimi formalaşdırmışdır. Biz "um" tərkibinə qədim türk dillərində "güvəncli", "etibarlı", "uma" yazılışında isə, "yolçu", "qonaq" mənalarında rast gəlirik (37, s. 611). Bu adın "Güvəncli kuti" mənasında olduğunu düşünürük

**Teqit.** Qədim Naxçıvan ərazisinin Naxçıvan qəzası daxilində 13 məntəqəni əhatə edən Abaran nahiyəsində qeydə alınan bu məntəqə adı 1590-cı ildə Naxçıvana aid olsa da, sənədlərə düşməmiş, yalnız 1728-ci ilə aid sənədlərdə göstərilmişdir (77, s. 54). Göstərilən nahiyənin

Karvansara və Ələyəz kəndləri arasında sənədlərə düşən bu məntəqə adında k≈t, e≈a, u≈i fonetik səsəvəzlənməsi və **i** saitinin düşümü qeydə alınır ki, bu da şübhəsiz qeydiyyat zamanı ortalığa çıxan təhrifin nəticəsidir. Adın ilkin formasının "Taquti" yazılışında olduğuna əminik. Qədim türk dilləri və şumerlərdə "ta"- "yer", bu komponentin "ti" yazılışı isə "tikmək" feli kimi işlənmişdir (412, s. 81). Kuti tayfa adından yaranan bu məntəqə adı "Kuti tikən" və ya "Kuti yeri" mənasında etnooykonim kimi formalaşmışdır.

**Kütam.** Qədim Naxçıvan qəzasına daxil olan Azadciran nahiyəsində "Kühtam", "Kotam", adları ilə 1590 və 1728-ci illərin məlumatlarında hazırkı Anaqut və əski Kol boylarının adını daşıyan Kilid kəndləri arasında qeydə alınır (77, s. 179). Tədqiqatlarda məntəqə adı İran dilində küh-"dağ" və Azərbaycan dilində "dam" sözləri ilə "dağdakı tikili" mənasında izah edilərək ərazidə talış tayfalarının yaşadığını yazmışlar (154, s. 154). Lakin ərazi tarixən türk-azərbaycanlılara məxsus olmuş, məntəqə adı isə Kuti tayfa adından formalaşmışdır. Ada qoşulan "am" tərkibi şumer və türk dillərində "bu, budur" mənalarını ifadə edirdi (208, s. 52). Bununla bərabər qədim türk dili lüğətlərində biz sözün "sadə xalq", "rəiyyət" mənalarına da rast gəlirik (37, s.41). M.Kaşğaridə bu sözün "em" yazılışında "illac, dərman" və "qüvvət" mənaları ilə də qarşılaşırıq (43, II c. s. 363). Göstərilən məna tərkibləri nəzərə almaqla məntəqə adını "Kuti xalqı" və ya "Quvvətli Kuti" kimi izah etmək mümkündür. Hər iki halda məntəqə adı qədim türk dili imkanları hesabına yaransa da biz "Kuti xalqı" mənasının daha düzgün olduğunu düşünürük.

**Kütüs.** Qaynaq və arxiv sənədlərində bu məntəqə adı ilk dəfə 1590-cı ildə qədim Naxçıvan ərazisinə daxil olan Naxçıvan qəzasının Vedi nahiyəsində Ağcakilisə və Bakir kəndləri arasında qeydə alınır (77, s. 159). Məntəqə adının formalaşmasında u≈ü fonetik səsəvəzlənmə izlənilməklə Kuti etnos adından və "us"-"zəka, ağıl" qədim türk dili leksik vahidindən (64, I c., s. 607) formalaşan bu etnooykonim "Ağıllı kutilər" mənasında Uşkakkan, İzartu Midiya toponimi və şəxs adları ilə (349, s.201) müqayisə oluna bilər. Burada yalnız tayfa adında -i saitinin səsdüşümü müşahidə edilir.

**Çətan.** Biz 1728-ci illərə aid arxiv sənədlərində 65 məntəqə adının insan yaşamayan məntəqələr kimi siyahısı ilə rastlaşırıq. Məntəqə

adlarının içərində adı çəkilən bu "Çətan" adının Kuti+an yazılışında olduğunu düşünürük. Ad göstərilən tarixdə Naxçıvan ərazisinə daxil olan Zərzəmin nahiyəsində Qaragöz və Bəntə kəndləri arasında qeydə alınır (77, s. 120). Adın ç≈k, u≈ə fonetik səsəvəzlənmələri ilə türk dilləri üçün xarakterik olan çəlik-kəlik, "cay-kay" şəkillərində təhrif olunduğunu düşünürük. Məntəqə adı omonimlik xarakterli -an "mənsubluq" şəkilçisi və "məkan" mənalı leksemlərlə "Kuti məkanı" və ya "Kuti yeri" mənalarında açıqlanır.

**İtlicə.** 1728-ci illərə aid arxiv sənədlərində Naxçıvan ərazisinə daxil olan Şurəgəl nahiyəsində Şiştəpə və Qoşayataq kəndləri arasında qeydə alınan bu məntəqə (77, s. 120) Kuti tayfa adının Uti yazılışı ilə verilir. Heyvan adından məntəqə adının yaranması fikrimizcə real deyil. Ad Uti+il+izi yazılışından u≈i, c≈z, i≈ə fonetik səsəvəzlənmələri ilə təhrif olunmuşdur. Biz adın Uti/Kuti tayfa adı ilə bərabər "il"-"yurd" və "izi"-"işıq" leksik vahidlərindən formalaşmaqla "İşıqlı Kuti yurdu" mənasında olduğunu düşünürük.

**Ketuze.** Bu məntəqə adı 1590-cı illərin məlumatlarında Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində Nork və Arizant prototürklərinin adını daşıyan Ərzni kəndləri arasında qeydə alınır (77, s. 159). Məntəqə adında e≈u və u≈i fonetik səsəvəzlənməsi nəzərə alınarsa, o zaman oykonim Kuti kimi bərpa olunur. Tayfa adına qoşulan "ze/sa" tərkibinə gəldikdə isə, bu komponent qədim türk dillərində "ürək" mənasında işlənmişdir. Biz e.ə. III minillikdə qədim Lulubi türklərinin Satuni çar adına təsadüf edirik ki, burada ad "sa"- "ürək" komponenti ilə formalaşmışdır (208, s. 57). Mənbələr Kas türklərinin tanrı adlarından birinin Sa(x) olduğunu göstərir (349, s. 129-132). Əgər qədim şumerlərdə, kas, hürrü, lulubi və b. prototürklərdə teofor-tanrı adlarından tayfa adlarının nominasiya-advermə adətlərini nəzərə alsaq Sa(x) tanrı adından Sak tayfa adının da formalaşdığını görərik (-F.R.). Bundan başqa biz Midiya toponimlərində Zakurti dağ adına da rast gəlirik ki, burada Sa tanrı adı "kur/kür"- "əzəmətli", ti-"tikmək" (208, s. 80; 209, s. 24-26) feli ilə işlənmişdir ki, bu da oronimi "Əzəmətli Sa tanrısının tikdiyi" mənasında izah edir. Bu amillərə istinadən biz məntəqə adının miflə bağlı olmaqla teofor ad olduğunu, "Sa tanrısının kutiləri" mənası daşıdığını düşünürük.

**Kütan.** 1728-ci illərin məlumatlarında Naxçıvan qəzasının Dərələyəz

nahiyəsində bir adı da "Kotanı" olmaqla Hərhər və Qoçubəy kəndləri arasında qeydə alınan bu məntəqə adı (77, s. 59) Kuti tayfa adı və -an "mənsubluq" şəkilçisi ilə etnooykonim kimi formalaşmışdır. "Kutilərin yurdu" mənasında olan bu məntəqə adı türk dilləri üçün xarakterik olan u≈ü fonetik səsəvəzlənməsi ilə müşahidə olunur.

**Ketenus.** Məntəqə adına Naxçıvan qəzasına daxil olan Sisyan nahiyəsinə aid Tal prototürklərinin adını daşıyan Tulus və Əxlatiyan kəndləri arasında rast gəlirik (77, s. 183). Kütan etnooykonimi ilə eyni kökə malik olan bu məntəqə adı yalnız tərkibindəki "us/us"- "ağıl, zəka" qədim türk dili leksik vahidi ilə fərqlənir. Qədim türk dili lüğətlərində və mənbələrdə istər "us/us"- "ağıl, zəka", istərsə də -an "mənsubluq" şəkilçisi geniş izah edilmişdir (64, I c., s. 607; 355, s. 13). Məntəqə adı qədim türk dili leksik vahidlərinin nominasiyada iştirakı ilə "Zəkalı kutilərin yurdu" mənasında etnooykonim kimi sabitləşmişdir.

**Qutyol.** Bu məntəqə adına 1728-ci ildə Naxçıvan qəzasının Dərələyəz nahiyəsində Qız qalası və Sədərək qışlağı (məzrəəsi) arasında rast gəlirik (110, s. 34) Oykonimə qoşulan "yol" tərkibinin müasir leksikonumuza daxil olan "yol" sözü ilə heç bir əlaqəsi yoxdur. Qədim türk dillərində "yol" komponenti "bəxt tanrısı", bəzi hallarda isə "qurtarmaq", "yardım etmək", "yul/yulu" şəklində isə "işğal etmək" mənalarında işlənmişdir (37, s. 271, 277; 44, III c., s. 811). Kutilər tərəfindən şumerlərin Akkad işğalından azad edilməsi faktını nəzərə alsaq məntəqə adını "Xilaskar kutilər " mənasında izah edə bilərik.

**Kətli.** Bir adı da Qədli olmaqla 1590-cı ilin məlumatlarında, o dövr arxiv sənədləri əsasında tərtib olunmuş kitablarda Naxçıvan qəzasının Vedi nahiyəsinə daxil olan Tizəkü və Sənasir kəndləri arasında qeydə alınan bu məntəqə adında i≈ı səslərinin vağzal-vazğal, yatsıq-yastıq sözlərində olduğu kimi yerdəyişməsi-metateza hadisəsini müşahidə edirik (144, s. 225). Eyniköklü bu yer adlarının tərkiblərindəki "il" (Kuti+il+tavr, Kuti+il adlarındakı kimi) komponenti "yurd, vətən" mənasında bu gün də türk xalqlarının dillərində işlənməkdədir (39, s. 379). Məntəqə adı tayfa adına qoşulmuş "il"-"yurd, vətən" komponenti ilə "Kuti yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Qutbi.** Göstərilən məntəqə adı 1724-cü illərdə Naxçıvan ərazisində Naxçıvan qəzasına daxil olan Şürəgəl nahiyəsində Gölkənd və Abibülbül kəndləri arasında qeydə alınır (77, s. 125). Burada türk dillərinə

məxsus k≈q səs dəyişimini nəzərə alsaq, Şumer və qədim türk dillərində də işlənən "be"- "bəy, cənab" morfemi (208, s. 56) tayfa adına qoşularaq adı "Kuti bəyi" mənasında izah edir. Biz yuxarıda Subər türklərindən danışarkən "bi"- "bəy" komponenti haqqında ətraflı məlumat verdik.

Tədqiqatların, müqayisəli təhlillər və etimoloji izahların elmi nəticələrinə əsaslanaraq birmənalı demək olar ki, kutilərin adlarından formalaşan bu etnooykonimləri əmələ gətirən qədim türk dili elementləri əski türk dillərinə mənsubdur və onlar türk dili imkanları hesabına yaranmışdır. Digər bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, adlardakı istər fonetik, leksik, qrammatik dil elementləri və hadisələri, istərsə də mənaların qədim türk dövlətlərinin adlar sistemində təkrarı bu qədimliyin doğruluğunu, adların birbaşa kutilərdən gəldiyini tamamilə təsdiq edir.

Beləliklə qədim Naxçıvan əhalisinin etnogenezinin təşəkkülündə ayrıca yeri olan Kuti türk tayfaları e.ə. IV-III minilliklərdən qədim və Bütöv Azərbaycan, eləcə də Naxçıvan torpaqlarında yerli-aborigen sakinləri olmuş, mənbələrə "kuti", "uti", "kutbi" yazılışları ilə düşmüş, e.ə. II minilliklərdə şimala doğru hərəkət edərək Orta Asiya və digər türk dövlətlərinin ərazilərinə yayılmışlar. Kuti türk tayfaları zaman-zaman qurulmuş qədim Azərbaycan dövlətlərinin etnogenezindəki prototürklərlə bərabər tarixi proseslərə birgə qoşulmuş, əzəli türk yurdu olan Naxçıvan yer adlarında zamanımıza qədər öz izlərini qorumuşlar.

## 5. LULUBƏY TAYFALARI

Qaynaqlarda e.ə. IV-III minilliklərdə adı Lulu, Lulubbum, Lulubi, Lulube, yazılışlarında çəkilən Lulubəy tayfalarının mənşəyi, dili, xalqımızın tarixi təşəkkülündə yeri müəyyən qədər tədqiq edilmiş, Bütöv Azərbaycan arealında bu tayfalarla bağlı bir qrup coğrafi adların izahları verilmişdir. Buna baxmayaraq Lulubəy tayfalarının Bütöv Azərbaycan, eləcə də onun bir parçası olub 1733-cü ilə qədər özündə İrəvan sancağını, Maku, Poldəşt, Xoy, İğdır, Kağızman, Kars, Diqor, Ağrı kimi əraziləri birləşdirən qədim Naxçıvan bölgələrində onların yaşamaları haqqında heç bir sistemli araşdırma aparılmamış, bir türk Azərbaycan boyları olması hərtərəfli tədqiq edilməmişdir. Məhz bunun nəticəsində də xeyli sayda əcnəbi alimləri hələ də onlarla bağlı tarixi başqa xalqların ünvanına yamamaqla bu tarixi saxtalaşdırmağa çalışırlar. Bununla bərabər lulubəy tayfalarının Naxçıvan ərazisi ilə bağlılığı, buradakı

əhalinin etnogenezi tarixində yeri haqqında da indiyədək heç bir tədqiqat aparılmamış, bu qədim ərazidə Lulubəy prototürklərinin yayım arealına aydınlıq gətirilməmişdir. Qədim tarixə malik olan bu ərazidə hazırda fəaliyyətdə olan və qaynaq məlumatları, arxiv sənədlərində adı keçən etnooykonimlərin nominasiyası-adlanması prosesində lulubəylərin iştirakı da elmi cəhətdən təsdiq olunmamışdır. Məntəqə adlarının leksik-semantik xüsusiyyətləri, oykonimlərin etimoloji izahları, eləcə də buradakı əski dil elementlərinin areal türk dillərində paralelliyi məsələsi də tədqiqatdan yayınmışdır. Göstərilən bütün bu problem məsələlər tədqiqat obyektinə çevrilmədiyindən tayfa adlarından yaranmış etno-oykonimlərdə qədim dilimizin keçdiyi tarixi yol və təkamül prosesi də elmi yöndən izlənməmişdir. Təbii ki, hər etnooykonimdəki qədim dil elementlərinin işlənmə dövrlərinin aydınlaşdırılması, etnosların kimliyini ortalığa çıxarmaqla bərabər, bu dilin tarixi dövrü, ona sahib olan xalqın mifik təfəkkürü, etnoqrafiyası və s. problemlər haqqında da müəyyən qədər elmi məlumat vermək istiqamətində xüsusi əhəmiyyət daşıyır.

Ümumiyyətlə, qədim qaynaq məlumatları, Şərq tarixinə dair araşdırmalar və onların elmi nəticələri, eləcə də tərəfimizdən aparılan dil və tarixi müqayisəli təhlillər Lulubəy boylarının qədim Naxçıvan ərazilərində məskun olduqlarını tamamilə sübut edir. Əsasən tayfa adları ilə adlanmış coğrafi adlarda izlərini yaşadan lulubəylər, proto Azərbaycan dilinin imkanları hesabına yer adlarını yaratmaqla, bu coğrafi məkanda öz izlərini əbədiləşdirmişlər. Bu və digər problem məsələlərə aydınlıq gətirmək, fikrimizi elmi cəhətdən əsaslandırmaq üçün öncə bu tayfaların dili, ərazisi, prototürklərlə ittifaqı məsələsinin tədqiqini məqsədəuyğun hesab edirik. Qeyd edək ki, əcnəbi alimlərinin araşdırmalarında irəli sürülmüş yanlış və müəyyən qədər həqiqətə uyğun elmi nəticələri yaxından izləmək, müqayisəli təhlillər aparmaq da, tarixi həqiqətin ortalığa çıxarılmasında əsaslı amillərdəndir. Bildiyimiz kimi, tarix nə qədər saxtalaşdırılsa da belə, Şumer, Akkad, Assur, Hett, yazılı salnamələrindəki dil ünsürlərinin oykonimik adlardakı izləri də, əsl həqiqətin ortalığa çıxmasında elmi faktordur. Bütün bu problem məsələlərin həllində tarixi məlumatlara və tədqiqatlardakı yekun nəticələrə, qədim türk dili lüğətlərinə, müqayisəli təhlillərə və bu elementlərin areal yayımına yenidən, mənbələrə istinadən nəzər salmağı elmi cəhətdən əhəmiyyətli hesab edirik. Öncə əcnəbi alimlərinin bu is-

tiqamətdəki araşdırmalarına diqqət edək.

Bildiyimiz kimi Rus, Avropa, istərsə də digər qeyri millətlərin araşdırmalarında əsl tarixi tədqiqata meyl az olmuş, daha çox milli konsepsiyaya üstünlük verilmişdir. Bu amil əcnəbi müəlliflərin yazılarında lulubəylərin haqqında müxtəlif konsepsiyalı tədqiqatlara yol açmış, tayfaların mənşəyi və dili barəsindəki fikirlər də yekdil olmamışdır. Mesopotamiyanın şimalı, Urmiya hövzəsindən Vana qədər, eləcə də Araz boyu ərazilərdə yaşamış Lulubəy prototürkləri haqqında rus alimi I.M.Dyakonov müxtəlif fikirlər irəli sürmüş, bəzən yazılarında ziddiyyətli fikirləri ilə tam aydın olmayan elmi nəticələrə gəlmişdir. Lulubəylərin adının namәlim "lul" komponentindən yarandığını göstərən müəllif, "be/bi" komponentini yalnız "b" yazılışında elam dilində cəmlik şəkilçisi kimi göstərmiş, lulubəylərin dili məsələsinə toxunmaqla bu dilin elam dilinə yaxın olduğunu yazmışdır. Daha sonra o, kuti, elam, hürrü və kassit, kaspilərin mənşə və dil baxımından lulubəylərin dili və mənşəyinə yaxın olduqlarına dair konsepsiyadan çıxış etmişdir. Yekun olaraq lulubəyləri elamlarla (əsərdə elamit) qohum tayfa hesab edən İ.M.Dyakonov onları elam, kassit, kaspi dil ailəsinə daxil etmişdir (349, s .99-112, 121; 353, s. 11). Əgər diqqət etsək bütün bu fikirlərində müəllif hər vəchlə "türk dili və tayfası" ifadəsini işlətməməyə çalışmışdır.

Söylənilmiş bu fikirlərə istinadən qeyd edək ki, müəllifin lulubəy, kassit, kaspilərin eyni coğrafi məkanda siyasi hadisələrdə birlikdə iştirakını, bu prototürk boylarının eyni dil qrupuna və mənşəyə malik olduqlarını göstərməsində müəllifin fikri ilə razıyıq. Tərəfimizdən əlavə olaraq deyə bilərik ki, bu tayfaların onomastik vahidlər sistemindəki təkrarlar, sözlərin formalaşmasındakı eyni prototürk dil elementlərinin iştirakı, mifik inanclarında tanrı adlarının eyniliyi və s. lulubəylərlə müəllifin sadaladığı tayfaların mənşə və dil etibarı ilə eyni tayfa birlikləri olduğunu bir daha sübut edir.

Lulubəylərin yaşadığı ərazi məsələsini bir qədər də dəqiqləşdirən İ.M.Dyakonov, e.ə. III-II minilliklərdə onların kutilərdən cənub-şərqdə, cənub Azərbaycan torpaqlarında, Araz hövzəsi boyu ərazilərdə məskun olduqlarını göstərir (349, s. 104). Bu da qədim Naxər-Naxçıvan ölkəsinin Mesopotamiya ilə istər etnogenetik, istər mədəni, istərsə də mifik inanc baxımından ortaq bir əlaqədə olduğunu sübut edir. Miladdan öncə IV-III minilliklərdə əski tayfa etnoslarla bağlı siyasi hadisələri şərh edən

"Ümumdünya tarixi" kitabı Lulubəy prototürklərini Hürrüt, Kuti, Subar tayfaları ilə bərabər qədim Azərbaycan torpaqlarında, Urmiya ətrafında məskun olduqlarını, Cənub Azərbaycan dağlarına doğru yayıldıqlarını göstərir. Bu tayfaların qohum dildə danışması məsələsini şərh edən mənbə nədənsə dil məsələsində rus siyasətinə uyğun olaraq lulubəylərin dilinin hələ də tam öyrənilmədiyini "xüsusi" olaraq qeyd edir (120, I c., s. 192).

Bu istiqamətdə V.İ.Avdiyevin qədim Şərqlə bağlı araşdırmaları da elmi cəhətdən maraqlıdır. O, Mesopotamiyada Dəclə və Fərat çaylarından yuxarı məskun olan prototürklər haqqında məlumat verməklə, lulubəylərin elamlardan şimala doğru dağlıq ərazidə məskun olduqlarını göstərmiş, bu tayfaların şumer-akkad-Mesopotamiya mədəniyyəti ilə əlaqəsi haqqında da açıqlama vermişdir. Bundan sonra müəllif, Bağdad və Həmədan arası Sarpul yaxınlığında Lulubəy yazılı abidələrinin aşkarlandığını, burada çar Anubaninin adının çəkilməsi və təsviri, eləcə də ilahə İnninanın çara əsirləri təqdim etməsi haqqında yazı olduğunu qeyd edir. Daha sonra o, bir məlumatında Karun və Kerxa çaylarının qədimlərdə Ulai və Uyutu adlandığını da qeyd edərək, lulubəy yazılarının həm də Persepol və Suz arasında tapıldığını göstərir (280, s. 23-27, 219).

Qədim Lulubəy tayfaları haqqında Cənub Azərbaycanın Ahvaz şəhərinin şimalında Suz şəhərində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan yazı nümunələri, eləcə də Naramsinin büstündəki yazılardan əldə olunan məlumatlar onun lulubəylərə qalib gəldiyi haqqında bilgi verir (yenə orada, s. 212). Onu da qeyd edək ki, sonralar Şu tayfalarının adını daşıyan Suz şəhəri farslar tərəfindən Şuş şəklinə salınmışdır (358, s. 469-da xəritə). Bu şəhər, eləcə də Azərbaycan coğrafiyasındakı Şuşa, Şüvəlan, Şurut kimi əlliyə yaxın məntəqə adı yuxarıda haqqında danışdığımız Şu tayfalarının ərazilərimizdə saldığı şəhərlərdir və biz aşağıda bu haqda ətraflı danışacağıq.

Əgər diqqət etsək, burada göstərilən ərazi və aşkarlanan Lulubəy yazıları e.ə. III minillikdə qədim türk-Azərbaycan dövləti olan Mitan dövlətinə məxsus idi və onun ölkəsi olan Naxarin də bu ölkənin etnik və mədəni inkişafı ilə vəhdətdə idi (9, V 52). Lakin müəllif bu haqda məlumat versə də, onun lulubəylərin dili haqqındakı fikirləri konkret deyildir. Bir məsələni də qeyd edək ki, V.İ.Avdiyevin məlumatında

Karun çayının qədimlərdə Ulai adlanması, fikrimizcə, burada lulubəy tayfalarını avtoxton sakinlər olmasını və onların adı ilə ərazidəki hidronimin nominasiyası variantını da təsdiq edir. Əgər yadımıza salsaq gürcü alimi Q.Q.Qiorqadze bir yazısında Hett yazılarından nümunə verərkən burada hürrü boylarının Hett ölkəsinə hücumundan bəhs edir və Hett çarı Xattusili tərəfindən hürrülərin tabesində olan Xattusa, Nenassı, Salaxsuvı ölkə adları ilə yanaşı Ulmı-Ullaummı ölkə adını da çəkir (326, s. 78-83). Heç şübhə yox ki, Ulmı-Ullaummı adı lulubəylərə məxsus ölkə idi.

İlk Elam çarı Kutik haqqındakı yazılı mənbələr də bu haqda oxşar məlumat verir. Bu çarın işğalçılıq siyasətindən bəhs edən məlumatda çar Kutikin Kuti tayfaları arasından çıxdığı, özünü gah işşaku Suz, gah da şakkanakku Elam adlandırdığı qeyd olunur. Onun Zaqros dağlarına qədər gələrək Mu-Turan, Şilvan, Kutu, Kaşşen, Xumurtum, Ulmı, Xuxnuri, Kimaşkimi kimi 81 kassi, lulubəy şəhərini tutduğunu yazır. Bundan başqa mənbədə kuti-lulubəy cəmiyyətində baş verən sosial-siyasi hadisələr şərh olunmaqla, III minillikdə çar Anubaninin rəhbərliyi ilə iri lulubəy ittifaqının yaranması və bu tayfaların Mesopotamiyanı yüz ilə yaxın öz hakimiyyəti altında saxlaması da geniş şəkildə qeyd olunur (555). Əgər bu məlumata diqqət etsək 81 məntəqə kassi və lulubəylərə malikdir, cəmiyyət isə "Kuti-Lulubi" adlanır. Bu isə kuti-lulubəy-kassilərin eyni mənşə və dilə aidliyini bir daha sübut edir. Bundan başqa bu məlumatda Ulmı adı şəhər adları arasında çəkilir ki, bu bir daha o dövr üçün xarakterik olan şəhər-ölkə, şəhər-dövlət amilini təsdiqləmiş olur.

İstər kuti, hürrü boylarının, istərsə də türük-turukku və şubar boylarının tarixi və dilini özlərinin tarixi hesab edən gürcü və erməni "tarixçiləri" də lulubəy tayfalarının tarixi və dilinə özlərinin milli mövqelərindən yanaşmış və tarixi uydurmalara əl atmışlar. Gürcü alimi Q.A.Melikişvili e.ə. III minillikdə Lulubəy çar adlarının yerli lulubəy dilində deyil Babil dilində olduğunu, lulubəy çarı Anubaninin Naramsin haqqındakı eposunun isə, akkad dilində yazıldığını qeyd edir. O, bu yazı üslubunun lulubəylərə Babil dilindən adladığını, onların allahlarına səcdə etdiyini göstərir. Daha sonra müəllif, Kərkükdən tapılan mətnlərin assur-Babil dilində olduğunu yazaraq, lulubəylərin Nuzi şəhər adından da bəhs edir (403, s. 96, 125, 129). Daha bir monoqrafiyasında

lulubəylərin mənşəyi, dili və ərazisi məsələsinə yenidən toxunan Q.A.Melikişvili, onları elam, quti-kuti, kassitlərlə bərabər Urmiya ərazisində yanaşı yaşayan tayfalar kimi göstərməklə dillərini "zaqro- elam" dil qrupuna aid edərək mannalıları da bu qrupa daxil edir (324, s. 27). O, sonrakı tədqiqatlarında Zaqro-elam dil qrupunu Urartu dilinə bağlayaraq bura daxil olan bütün tayfaları gürcülərin əcdadları hesab edir. Lakin istər Q.A.Melikişvilinin, istərsə də Q.Q.Qiorqadzenin Urartu və Hett yazıları haqqındakı araşdırmalarında biz lulubəy-hürü şəxs adı Arip-Hurra, çar adı Anum-hirbi və onun ölkəsi Mama adını, eləcə də tanrı adı Katiti/Nikatiti, dağ adları AranHapilanni, Ulum/Ulamma/Ullumma ilə qarşılaşırıq (326, s. 78-83). Qətiyyətlə deyə bilərik ki, bu adların heç biri onların yazdığı kimi akkad, assur-vavilon, Hett, Urartu dillərində deyil. Əgər adların etimologiyasına diqqət etsək bu adlar bütövlükdə prototürk- Azərbaycan dilindədir AripHurra-"hörmətli hürrü igidi", Anum-hirbi-"mən uca hürrü bəyi", Mama-"ana" (qədimdə gəlin yanınca gedən yengə), Aran Hapilanni- "yaraşıqlı ərənlər ölkəsi", Ulum/Ulamma/Ullumma- Lulubəy tayfa adının - L hərfi olmadan Hett dilinə uyğun yazılışı və s. tamamilə protoazərbaycan dil elementləri ilə formalaşmışdır (37, s. 334; 44, III 235; 210, s. 24).

Qeyd edək ki, "Lulu" tayfa adını tarixdən çıxarmağa çalışan sovetlərin tarixi ensiklopediyası da bu tayfa adını "lullu, nullu, lullubum, lullumme" yazılışlarında verməklə onu e.ə. III minillikdə etnik qrup kimi təqdim edir, e.ə. II minillikdə Mitan dövlətində xeyli lulubəy (əsərdə lullu) köləsi olduğunu yazaraq, assur mənbələrinə istinadən e.ə. IX əsrdə onların kiçik şəhər dövləti olduğunu, urartuların dilində isə "lulu"-"düşmən, yadelli" mənasında işləndiyini qeyd edir (115, s. 413).

Yeri gəlmişkən qeyd edək ki, Lulubəy tayfa adının - L hərfinin eleziyası-səsdüşümü ilə yazılışı və tam yazılışının mətnlərdə ayrı-ayrı mənalarda izah edilməsi də siyasi və milli mənafeyə xidmət etmişdir. Əgər biz Q.Q.Qiorqadzenin Urartu və Hett yazıları haqqındakı araşdırmalarında bu tayfa adına Ullum/Ulamma/Ullumma şəklində rast gəliriksə, sovetlərin tarixi ensiklopediyasında bu tayfa adı -L hərfinin yazılışı ilə verilib L+ullu, n+ullu, L+ullubum, L+ullumme və burada yalnız səslər uzun tələffüz xarakterli qoşa yazılmaqla a≈u fonetik əvəzlənməsi ilə təhrif olunub. Biz aşağıda Naxçıvandakı lulubəylərlə bağlı yer adlarının qədim Hett, Urartu və Assur yazılı mətnlərindəki adlar ilə müqayisəsini

verərkən bu haqda daha ətraflı məlumat verəcəyik.

Lulubəy tayfalarında Anubanini çar adı Azərbaycan tarixinə dair məlumatlarda da öz əksini tapır. Burada Manna dövlətini yaradan tayfaların e.ə. III-II minilliklərdə bu ərazidə yaşamış kuti-lulubəy tayfa ittifaqlarının varisləri olması fikirləri ilə qarşılaşırıq. Daha sonra isə gələcək Cənub Azərbaycan torpaqlarının şimal-qərbində ilk qüdrətli Midiya dövlətinin yaranmasında bu ittifaqın mövcudluğu başlıca amil kimi göstərilir. Siyasi proseslərin təhlili verilən bu mənbədə gələcək dövlətin yaranma səbəbi güclü kuti-lulubəy tayfa ittifaqında baş verən sosial-siyasi hadisələr və onun başında duran çar Anubanini ilə əlaqələndirilir. Bu faktın təsdiqi üçün mənbə lulubəylərin kutilərlə bərabər Mesopotamiyanı yüz ilə yaxın hakimiyyətləri altında saxlamaları tarixi prosesini əsas fakt kimi qəbul edir (112, s. 64-65).

Y.Mosenkis öz araşdırmalarında lulubəylərin inancından bəhs etməklə onlara qohum tayfa olan xalqlardan danışaraq kutilərlə lulubəylərin eyni inanca və dini adətlərə mənsub olduqlarını, Assur mifologiyasında mövcud olan tanrı panteonunun və tanrı adlarının bütövlükdə Lulubəy və Kuti mifik inanclarından assurlara adladığını qeyd edir (556) .

Dağlıq Qafqaz xalqlarının etnik mənşəyindən söhbət açan B.F.Qroznı, öz tədqiqatlarında e.ə. II minillikdəki tarixi proseslərdə Lulubəy tayfalarını göstərməklə onların şərqi - Qafqaz qrupunun bir qolu naxç-vaynaxların qohum tayfaları kimi təqdim edərək bu tayfaların eyni mənşədən gəldiyini göstərir. Burada o, lulubəylərin adını "lula-bi-bu" yazılışı ilə hissələrə ayıraraq bu prototürk tayfasını müasir ləzgilek xalqlarının uluları hesab etmiş, "bi" tərkibini şəkilçi qəbul edərək, hürrü-urartu-naxç tayfalarının inkişafından söhbət açmışdır. Ön Asiya Qafqaz xalqları olan bu tayfa ittifaqının e.ə. VI əsrdə Urartu dövlətinin süqutundan sonra dağıldığını göstərən müəllif onların uluları olan lulubəylərin bu tarixi prosesdən 2 min il əvvəl yaşadıqlarını və Qafqazda məskun olduqlarını qeyd etmişdir (333, s. 28, 29 ).

Düzdür müəllifin e.ə. III minilliklə bağlı lulubəylərin tarixi haqqında verdiyi məlumatın elmi nəticəsi qədim qaynaq məlumatları ilə bir qədər üst-üstə düşür. Bununla bərabər müəllifin, tarixi qaynaqlarda tez-tez təsadüf etdiyimiz lulubəylərin e.ə. IV minillikdə tarix səhnəsində olması, onların naxər, hürrü boyları ilə eyni mənşə və dilə mənsub

olmaqla eyni ərazidə məskunlaşması fikri də bəzi yanlışlıqları çıxmaqla həqiqətə uyğundur. Lakin lulubəylərin müasir ləzgi-lek xalqlarının uluları hesab olunması elmi cəhətdən təsdiq olunmur. Yəqin ki, Mesopotamiyanı 100 il idarə edən lulubəylər oradakı Şumer Akkat, Hett, Assurlara qarşı böyük gücə malik olaraq dayanmışlar. Qaynaqlar bu tayfaların tamamilə qırılması haqqında heç bir bilgi vermir və bu gün belə bir milyona çatmayan ləzgi-leklər də yəqin ki, o qədər böyük bir gücün varisləri deyillər. Dil məsələsinə gəldikdə isə biz, aşağıda bu dilin türk-Azərbaycan dili olduğuna dair yetərincə əlavə faktlar göstərəcəyik.

Lulubəy tayfalarının Lek-Ləzgi tayfaları ilə qohumluğu və bu tayfaların uluları, əcdadları olması məsələsi Cambulat Süleymanovun da yazılarında öz əksini tapır. Bu qədim proto Azərbaycan boyları haqqında maraqlı fikirlər söyləyən müəllif, Qafqaz xalqları haqqında müxtəlif nəzəriyyələrin mövcud olduğunu qeyd etməklə, bu nəzəriyyələrdən birində iki qohum tayfa nəzəriyyəsi olması haqqında məlumat verir. Müəllifin fikrincə elmdə "Qərbi Qafqaz" və "Şərqi Qafqaz" nəzəriyyələri mövcuddur ki, bunlardan birinci "Urartu-Naxçi", ikinci isə "Lulubəy- Lekan" adlanır. Bu fikrin yanlış olduğunu bildirən müəllif, haqlı olaraq ləzgi dilinin naxç (naxər-F.R.) və lulubəy dili ilə heç bir əlaqəsi olmadığını qeyd edir. Lakin müəllif, skif dövrü tarixinə "urartu-naxç" qohum tayfalarını aid etməklə onları "mərkəzi Qafqaz" qrupuna aid edir. Lulubbəy-lekan tayfalarını isə qohum tayfalar hesab etməklə bunları "Şərqi Qafqaz" qrupunda birləşdirir). Təbii ki, müəllifin bu fikirləri elmi faktlara söykənmir və bu dil bölgüsü, qohumluq əlaqələri də C.Süleymanov tərəfindən elmi cəhətdən əsaslandırılmır. Əgər tarixi qaynaqlara diqqət etsək istər naxərlərin, istərsə də lulubəy boylarının tarixi proseslərə qoşulduqları dövrlə "skif" və "urartu" dövrləri üst-üstə düşmür. Bundan başqa əgər müəllif "lekan" adı altında "leg" tayfalarını nəzərdə tutursa, lulubəylər və naxərlər dövrü də Leg tayfaları dövründən tamamilə fərqli dövrlərdir (-F.R.). Bu dövrlərin tarixi müqayisəsi qədim qaynaq məlumatlarında e.ə. müxtəlif əsrlərə təsadüf edir və bu tayfa ittifaqlarının tarix səhnəsinə çıxdıqları dövrlər arasında 1500-2500 ilə qədər zaman fərqi olduğunu görürük (120, I c., s. 516, 216, 296; 9, IV, 13-14; 252, s. 178-184). Onların dili və qohum tayfalar olması məsələsinə gəldikdə isə bu yalnız dillərdəki arxaizmlərin, antroponim və toponimlərin

(çar adları və coğrafi adlar) etimoloji izahları, eləcə də dil xüsusiyyətlərinin bütün istiqamətləri ilə müqayisədə konkret fikir söyləməyə imkan verə bilər.

Lulubəylər haqqında antik müəlliflərin əsərlərində də elmi əhəmiyyətə malik məlumatlarla qarşılaşırıq.

Xüsusi elmi əhəmiyyətli belə bir məlumata Antik Roma yazıçısı Tit Livinin yazılarında rast gəlirik. O, özünün "Romanın yaranma tarixi" kitabının XXI başlığında hələ e.ə. IV əsrdə Siciliyada lulubəylərin məskun olduğunu və buradakı müasir Marsala şəhərinin Lilibey adlandığını qeyd edirdi. Müəllif kitabında İtaliyadan gələn 20 gəminin qədimdən bir ittifaqda olan yerli əhalinin Lilibey şəhərini tutmasından da bəhs etmişdir (33, s. 169). Bu məlumat lulubəylərin təkcə qədim Azərbaycan ərazilərində, İkiçayarasında deyil, İkiçayarası ilə yanaşı Xəzər ətrafı, Kərkük türkmən torpaqları, Doğu Anadolu kimi ərazilərlə bərabər Siciliya adasında da məskun olduqlarını və böyük güc sahibləri kimi adı çəkilən ərazilərdə tarixi proseslərə təsir etdiklərini bir daha sübut edir. Yeri gəlmişkən qeyd edək ki, hələ bu gün də belə Siciliya adasında Şakka-"şöhrətli saklar", Sirakuz-"işıqlı şiraklar" və ya "şirak oğuzlaı", Alkomo-"uca komi" kimi türk tayfa adlarından yaranmış şəhər adlarının səbəbi araşdırılmamış, bu problem məsələ diqqətdən kənarda qalmışdır (-F.R.). Bu adada qədim türk dili elementləri ilə yaranmış xeyli sayda belə şəhər adlarına təsadüf etmək mümkündür (bax, 103, s. 86-87).

Bəs Azərbaycan alimlərinin prototürk lulubəylər haqqında fikirləri necə olmuşdur və hazırkı tədqiqatların bu istiqamətdə elmi nəticələri nəyi deyir?

Biz yazılarımızda hər dəfə təəssüflə qeyd edirik ki, 1989-cu illər milli dirçəlişin başlandığı bir dövrdə də dilimiz və tariximizə dair nəşr olunan əsərlər də hələ sovet siyasi baxışından qopa bilməmişdir. "Azərbaycan tarixi üzrə qaynaqlar" kitabı yuxarıda da qeyd etdiyimiz kimi e.ə. IX əsrdən qabağa getməmiş prototürk lulubəy boyları ilə bərabər, as, naxər, hürrü, türükkü, kuti, şu, şubar, kassit, koman və s. boylar haqqında da heç nə yazmamışdır (73, s. 9-25).

Öz fikirlərini İ.M.Dyakonovun fikirləri ilə oxşar şəkildə izah edən, bir qədər fərqli versiyadan çıxış edərək tədqiqatlarında lulubəylərin dili və mənşəyini kaspilərlə bağlayan İ.Əliyev də, elam (əsərdə elamit),

kassit, lulubi və kaspilərin lulubəylərlə qohum dilə malik olduqlarını yazmış, onları "kaspi" dil qrupuna aid etmişdir. Daha sonra isə kaspilərin kassitlərlə qohum olduğunu yazaraq bu tayfalar arasında vahid kaspi dili olduğu qənaətinə gələn İ.Q.Əliyev, bu fikirləri 1995-ci ildə nəşr etdirdiyi "Azərbaycan tarixi qədim dövrlərdən XX əsrə qədər" kitabında da geniş şəkildə izah etmişdir (80, s. 43 52; 284 s. 71-73, 79, 80-85, 106). Son dövr bir qrup müəlliflər öz yazılarında İ.Əliyevin Azərbaycan tarixi haqqındakı fikirlərini təhlil edərək onun əcnəbi müəllifləri E.Hersfeld, B.A.Turaev, S.P.Tolstov və başqalarının yazılarına istinad edərək lulubəylərin elam dilinə, bu dilin kaspi dil ailəsinə, bütün bunların isə Ural-Altay dilləri ilə qohum olduğuna dair tutarlı dəlillər də gətirdiyini qeyd edirlər (558).

Lulubəy tayfaları haqqında qısa məlumata F.Ağasıoğlunun araşdırmalarında rast gəlirik. Bir çox proto Azərbacan tayfalarının dili, tarixi və ərazilərindən bəhs edən müəllif, lulubəylərin (kitabda lulu tayfaları-F.R.) Ərbil ilə Urmu gölü arasında Şuşşara bölgəsində yaşadıqlarını göstərir (163, s. 41). Bununla yanaşı biz protoazərbaycanlıların dili, tarixi, ərazisi və mifik düşüncəsi haqqında maraqlı elmi fikirlərə A.S.Sumbatzadənin tədqiqatlarında da rast gəlirik. Müəllifin bəzi fikirləri ilə razılaşmasaq da o, Şumer, Akkad çarlıqlarının oturaq həyatından bəhs edərkən Akkad hakimiyyətinin süqutuna qədərki dövrə nəzər salmışdır. Sonrakı əsrlərdə Zaqros dağlarında (Cənub Azərbaycan dağları) yaşayan elamut, kassit, kuti və lulubəy tayfalarını da qeyd etmişdir. O, e.ə. III minillikdə bu ittifaqın Mesopotamiyanı işğal edərək kutilərin və lulubilərin başçılığı ilə bu ərazini yüz il idarə etdiklərini də öz monoqrafiyasında qeyd etmişdir. Onların dil məsələsinə gəldikdə isə, müəllif, Lulubəy dilini kuti, elamut, kassit və hürrüt dilləri ilə qohum dil hesab etsə də qəti dil faktlarına müraciət etməmişdir (457, s. 23).

Lulubəy prototürklərinin dili, mənşəyi, ərazisi haqqında daha geniş tədqiqata Q.Qeybullayevin monoqrafiyaları və elmi məqalələrində rast gəlirik. Onun təkcə lulubilərin deyil, bildiyimiz kimi subar, hürrü, kuti, koman və b. prototürk boylarının mənşəyi və dilləri haqqındakı araşdırmalarının da elmi əhəmiyyəti böyükdür və bəlkə də bu istiqamətdə ilk müstəqil konsepsiyadan çıxış edənlərdən biri Q.Qeybullayev olmuşdur. O, bu boyların dil məsələsinin təhlilinə geniş aspektdən yanaşmaqla, öz

yazılarında, İ.Q.Əliyev, S.Y.Qasımova, S.Qaşqay, E.Hersfeld, R.Girşman, H.Hubşman, Y.A.Markvart, İ.M.Dyakonov, E.A.Qrantovski, M.N.Poqrebeva, Q.A.Melikişvili, B.A.Turaev, S.P.Tolstov, S.T.Yeremyan, Q.Kapantsyan kimi Azərbaycan, Avropa, rus, erməni və s. tədqiqatçıların irəli sürdükləri "zaqro-elam", "kuti-qafqaz", "kuti-lulubi", "kaspi", "subar-hürrü", "hürrü-lulubi", "elam-kaspi", "şimali-qafqaz" kimi xeyli sayda dil konsepsiyasını müqayisəli təhlil etmiş onların bir prototürk-azərbaycanlılar olduğunu yazmışdır. Müqayisəli təhlillərlə bu versiyaları araşdıran müəllif, yanlış konsepsiyaların hər birinə dair tutarlı, elmi faktlar göstərməklə bunların eyni mənşədən və dildən gəlməsi qənaətində dayanmışdır. Q.Qeybullayev, tədqiqatçıların yazılarını təhlil edərək Lulubəy boylarının Elam, Akkad və Urartu dillərində adlanma formalarını izləmiş, çoxsaylı şəxs - antroponimik adların etimoloji izahlarını da verməklə bərabər, lulubəylərin şumerlər tərəfindən "Lullu", akkadlar tərəfindən "lulubum" adlandırılma səbəblərinə toxunaraq müqayisəli təhlillə əldə etdiyi elmi nəticələrə istinadən Altay dil elementləri ilə lulubəylərdəki bir neçə şəxs adlarının müqayisələrini də vermiş, əski dil elementlərindən də nümunələr göstərmişdir. Müəllif, bu tədqiqatlarında Satuni (e.ə.XXIII əsr) və İmaşkun (e.ə.XXIII əsr) lulubəy çar adlarının etimoloji izahlarına da toxunmaqla onların türk dilində olmasına dair tutarlı elmi faktlar göstərmiş, yekun olaraq yuxarıda qeyd etdiyi boyların eyni mənşəyə və dilə malik olması fikrində dayanmışdır. (208, 15-19, 55-57; 324, s. 24-38). Ayrıca qeyd etmək istərdik ki, protoazərbaycanlılar haqqında onun araşdırmaları digər tədqiqatçılarımızın fikirləri ilə müqayisədə elmi cəhətdən daha cəsarətli fikirlərdir.

Lulubəy tayfalarının dilinin protoazərbaycan dili olması məsələsi görkəmli tarixçimiz Y.Yusifovun elmi məlumatları ilə də təsdiq olunur. O, bu tayfaların tarix səhnəsində həmişə kutilərlə bərabər izləndiyini, lulubəylərin e.ə. III minillikdə su/şu, turukku, kutilərlə birlikdə Aratta dövlətinin müxtəlif adlı tayfaları olduğunu, Cənub Azərbaycanımızın qərbində yaşadıqlarını və e.ə. III minilliyin sonunda burada dövlət yaratdıqlarını göstərmişdir. Daha sonra müəllif, lulubəylərin dillərindən bəhs edərək kuti, lulubəy dillərinin elam dili ilə heç bir əlaqəsi olmadığını yazmış, onların bir türk olaraq Altay mənşəli olduğu qənaətində dayanmışdır. Müəllifin araşdırmalarında Altay mənşəli etnosların Ön Asiya ərazilərində mövcudluğu e.ə. III minilliklərə aid edilir (271, s. 52-54;

489, s. 19, 33, 38). Tərəfimizdən bu fikrin doğruluğunu sübut edən, lulubəylərin qədim Naxər-Naxçıvan ərazisində avtoxton sakinlər olmasını bir daha təsdiq edən bəzi dil və tarixi faktları da diqqətə çatdırmağı lazım bilirik. Qeyd edək ki, yuxarıda göstərilən mənbə məlumatlarında lulubəylərin adı keçən çar Anubanini, Simaş, şəhər və tanrı adı Nuzi, bu boyların kuti və hürrülərlə bərabər yaşadıqları Mu-Turran (indiki Bağdad yaxınlığında), Şilvan, Xumurtum, Xuxnur, Kimaş (indiki Kərkük yaxınlığında) kimi şəhər adları (403, s. 96) ilk oxunuşdan da göründüyü kimi türk dili elementləri ilə yaranmaqla hazırda da leksikonumuza daxil olan Turan, Şirvan yer adlarını təkrar edir. Adları yaradan söz köklərinə Naxçıvanın Ordubad, Culfa toponimik sistemində Anuban-Anabat, Banan+yar, Xumurtum-Xumurut suyu, Kimaş-Kimaş dağ, Kəmki dağ, Nizi şəhər və tanrı adına Nizi/Nisə piri (İlan dağın şimal-şərq ətəyində) adlarında rast gəlirik (239, s. 118-123). Adlardakı "ban"-"uca" və "naxış", "turu"-"düşərgə", "törə-tayfa", "mu"-"su", Silbi türk tayfa adı, "ki"-"şöhrətli", "maş"- "igid, qəhrəman" kimi qədim proto-türk-protoazərbaycan dili elementləri bu gün də arxaik formada həm bizim həm də ümumtürk dillərində işlənməkdədir (37, s. 81; 462, s. 57; 66, s. 541).

Əgər diqqət etsək, xeyli sayda tədqiqatçılarımızın əsərlərində və Assur, Akkad, qədim Babilistan yazıları və digər mənbələrdə e.ə. III minilliklərdə kuti, lulubəy, kassit, mitan çarlıqlarının tarixi proseslərə təsiri belə öz əksini tapmışdır (271, 82-88, 104-112; 120 I c., 214-215, 299-301). Bildiyimiz kimi, onların çarlıqları məhz Azərbaycan xalqının ən qədim dövlət qurumları olmaqla min illər davam etmişdir.

Azərbaycan tarixi haqqında nəşr edilmiş tarix kitabları və tədqiqatçıların bu tayfalar haqqında irəli sürdükləri fikirlər də lulubəylərin dili və tarixi, ərazisi və mifi haqqında elmi cəhətdən əhəmiyyətli məlumatlarla zəngindir. Qədim prototürk-protoazərbaycanlılar haqqında belə məlumatlara biz "Azərbaycan tarixi" kitabında da rast gəlirik. Burada e.ə. III-I minilliklərdə lulubəy tayfalarının adı "Lululər" şəklində yazılmaqla onun kənardan verilmiş ad olduğu, hunların bir sülaləsinin Lulu, qaraçılarda bir qrupun "lulu" adlandıqları, qədimdə isə bu adın Azərbaycan əhalisini bildirdiyi göstərməklə onların dilinin hürrü, elam, kassi və Qafqaz dillərinə yaxın olduğundan bəhs olunur. Bundan sonra burada Hürrü boylarının (kitabda "Hurru" yazılışındadır) lulubəyləri

"nullu", "nullahi" kimi "özgə, yadelli" mənalarında çağırmalarından, "be/bi" tərkibinin isə "cəmlik" ifadə etdiyindən də bəhs olunur (70, s. 79-80). Heç şübhə yox ki, bu tayfaların dilinin eyni olması məsələsində kitabı hazırlayanların elmi fikirləri doğrudur. Göstərilən tayfaların eyni mənşə və əraziyə malik olması, onların bütövlükdə qədim türk dövlətləri Aratta, Mitan, Manna, Midiya, Atropatena, Albaniya proto dövlətlərimizin ərazilərində avtoxton-yerli sakinlər olmaları da buna tarixi bir faktdır. Lakin Lulu tayfa adındakı (Lulu+bi şəklində) "bi" sözünün cəmlik şəkilçisi deyil titul ifadə etdiyini biz su+bi, kas+pi, sil+bi, tata+bi kimi proto Azərbaycan və digər türk tayfa adlarının nominasiyasında da müşahidə edirik. Əgər yadımıza salsaq "be/bi/pi" yazılışları ilə bu tərkibin "bəy"-titul kimi işlənməsi hələ e.ə. şumerlərdə, eləcə də proto azərbaycanlılar – proto türük, kassit, kaspi, şubər, hürrit boylarının dilində də müşahidə edilmişdir (65, II c., s. 96-97; 41, s. 78-79; 208, s. 56). Hürrü boylarının lulubəyləri "nullu", "nullahi" kimi "özgə, yadelli" mənalarında çağırmaları məsələsi də, fikrimizcə, tam aydın deyil. Müəlliflər təbii ki, bu versiyanı digər araşdırma materiallarına istinadən irəli sürmüş, təkrarlamışlar. Öncə də qeyd etdiyimiz kimi bu məsələ, yəni lulubəylərin Assur yazılarında "lullu, nullu, lullubum, lullume" kimi yazılışına dair fikirlərə bir də qayıdaq. Bildiyimiz kimi bu konsepsiya ilk öncə Q.A.Melikişvili və İ.M.Dyakonovun araşdırmalarında özünə yer almışdır (401, s. 367, 415; 349, s. 121). Daha sonra keçmiş sovetlərin tarixi ensiklopediyasına tayfa adı bu müəlliflərin irəli sürdüyü konsepsiyaya əsasən daxil edilmiş, tayfa adı"lullu, nullu, lullubum, lullume" yazılışları təqdim olunaraq "lulu" kəlməsinin Urartu dilində "yadelli, düşmən" mənalarında olduğu qeyd edilmişdir (115, s. 401). Təbii ki, bu sovet ideologiyasından gələn "kiçik xalqların etnik qurup" prinsipini təsdiqləmək variantı idi və bildiyimiz kimi siyasətin təqdim etdiyi "kiçik qurup" uzun müddət Mesopotamiyanı öz təsiri altında saxlamışdır. Fikrimizcə, azərbaycanlı müəlliflər də bu mənbələri əsas götürərək eyni fikri təkrarlamışlar.

Qədim qaynaq məlumatları və xeyli sayda mənbələr bu fikrin doğru olmadığını sübut edir. Biz yazılı mənbələrdə dəfələrlə hürrü-lulubi ittifaqında, hürrülər dedikdə lulubəylərin başa düşüldüyünün də şahidi oluruq ki, bu da bu tayfaların eyni kök və dilə mənsub olduğunu sübut edir. Hürrü tayfalarının lulubəyləri "Nullu" kimi adlandırmalarına

gəldikdə isə biz qədim türk dillərində "nu" tərkibinin e≈u≈o fonetik səsəvəzlənməsi ilə "ne/nu/no" yazılışlarında "var olan, mövcud olan", "nabi/nəbi" yazılışında isə-"var olan elçisi, peyğəmbər" mənalarında işləndiyini də görürük (37, s. 355-356). Fikrimizcə, bu halda hürrülər lulubəyləri "yaşayan", "var olan" mənasında çağırmışlar. Əgər xatırlasaq qədim Urmiya ətrafındakı tayfalarda Nabu- "əbədi su", "su allahı" var idi və bu tanrı adı və mif sonralar Şamaş, Nerqal, Belu tanrıları ilə bərabər Misirdə yaşayan yəhudi, vavilon, aramey, finikiya və başqalarının da tanrı panteonuna daxil olmuşdur (341, s. 301). Bu isə lulubəylərin, hürrülərin Mesopotamiya mədəniyyətinə və mifinə güclü təsirini bir daha sübut edir. Eyni tərkibə biz qədim Naxçıvan oykonimlərində Nubi/Nuvi yazılışı ilə Nüvədi –"əbədi su mənbəyi, tikilisi" (etimoloji izah tərəfimizdən verilmişdir, -F.R.) mənasında rast gəlirik.

Lulubəy çarı Anubanini yazılarında Naramsin dövründə Kərkük yaxınlığında hürrü və lulubəylər yaşayan Nuzi şəhər adı göstərilir (403, s. 96). Bu şəhərin adında da "nu"- "yaşayan", "var olan" komponenti şəhər adını "Əbədi, var olan işıq" mənasında izah edir. Addakı ikinci "izi" tərkibinə qədim türk dillərində "izi/issi-isti, işıq" və "uz/zu" şəklində isə "hər şeyi bilən, bacaran" mənasında rast gəlirik (37, s. 620). Buradakı sonuncu məna tanrıya xas əlamətdir və qədim türk dilində Oğuz-ok+uz tayfa adında da işlənməklə "od övladı" mənasını daşıyır. Bütün bunları nəzərə alsaq bu tayfaların hürrü boyları tərəfindən "yadelli, özgə" mənasında çağırılmaları birbaşa xristian faktoru, rus siyasətində gürcü və erməni amili ilə bağlı olmuş, mənbələrdə isə belə fikir yer almamışdır.

Lulubəylərin dili məsələsində mənbələr daha bir tutarlı tarixi fakt təqdim edir. Əgər Akkad çarı Naramsini yazılarına diqqət etsək burada lulubəylər ölkəsinin adı "Maqan", hökmdarının adı isə "Manum" adlanırdı (120, I c., s. 212). Biz isə Azərbaycan ərazisində böyük bir düzənliyin, eləcə də Naxçıvanın Arpaçay vadisinin qədim qaynaqlarda "Muğan" - "maqlara, muğlara məxsus" ərazi adlandığını, bu ərazidə Muğancıq məntəqə adının da günümüzədək gəldiyini görürük (243, s. 86-89). Lulubəy çarları Maqan ölkəsində adamları və qulları saymaq üçün Şumer dilində "saq"- baş kəlməsini işlədirdilər və bir baş-"bir saq" adlanırdı (271, s. 92). Bu günümüzdə işlənən bir sayı, iki sayı üç sayı türk dilləri üçün xarakterik q≈y səsəvəzlənməsi ilə deyilir və

qədim türklərdə də "saq"- "saymaq" mənasında işlənmişdir "qonuq körüp qutqa saqar"- "Qonaq görmək (qəbul etmək) xoşbəxtlik sayılar" (42, I 85 ; 37, s. 486).

Mənbələrə diqqət etsək e.ə. III minillikdəki Akkad çarı Sarqonun hakimiyyəti dövründə apardığı işğalçılıq müharibələri zamanı tarixi proseslərin şərhini verən yazı lulubəylərin nəinki bütün İkiçayarasına, eləcə də Ön Asiyanın yeganə hegemonuna çevrildiyini qeyd etmişdir. Elə çarı Sarqonun dövründə Cənub Azərbaycanda lulubəy və kutilərin fəallığının daha da artdığı göstərilir (271, s. 80). Əgər xatırlasaq Plutarx da qədim Azərbaycan torpaqlarını "Ön Asiya", "Asiya" adlandırırdı (28, II c., s.128). Qədim Naxər ölkəsi o dövr Ön Asiya və Kiçik Asiya ərazilərinin ortasında yerləşdiyindən Sarqon dövründə Naxçıvan ərazisinin İkiçayarası, yəni Dəclə və Fərat arası Mesopotamiya mədəniyyəti ilə etnogenetik baxımdan sıx əlaqəsi mövcud olmuş, məhz bu ərazidəki əski prototürk boyları qədim mədəniyyətimizin sahibləri və yaradıcıları olmuşlar.

Lulubəylərin bir prototürk boyları olması Q.A.Melikişvilinin urartulara dair bir yazısında da özünü göstərir. O, qədim Urartu mənbələrindəki yazı nümunələrini araşdırarkən bir məqaləsində urartuların lulubəyləri Lulu-in-a adlandırdıqlarını bunun isə "düşmən ölkə" mənası verdiyini qeyd edir. Məqaləni 3 yarımbaşlığa bölməklə "Lulların urartularla düşmənçilik münasibətləri" I yarımbaşlığında lulubi və Urartu ölkə adları keçən yazının transkripsiyasını MÂTU LUİU (ini/a)- (strana Lulu-Lulu ölkəsi) и MÂTU NAKRU (strana vrajeskaya-düşmən ölkə)- yəni MATU LUİU (Lulu ölkəsi) və MÂTU NAKRU (düşmən ölkəsi) şəklində təqdim edir. Lakin, digər EAİ $^{MÂTU}$ BİAİNİŠE EAİ $^{MÂTU}$ LU-LUİNİŠE yazı nümunələrində isə (Bianilərə məxsus ölkə və Lulu bəylərinə məxsus ölkə-F.R.), müəllif, lulların-lulubəylərin ayrıca ölkəsi olmadığını yazmaqla burada yaşayanların da lulubəylər olduğunu qəbul etmir "lulu" sözünü ümum düşmən ölkələrə verilən ad hesab edir (402, s. 21-29).

Öncə qeyd etmək istərdik ki, Urartu mətnlərini diqqətlə izlədikdə buradakı LUİU (ini/a), BİA (ini/a), ARDİN (ina/ú/e) kimi söz köklərinə qoşulan -ini/a Urartu dilində şəkilçi olmaqla mətnlərdə ayrı-ayrı yer ad-larında tez-tez rast gəlinir. Q.A.Melikişvilinin "lulu" tərkibini "düşmən" mənasında qəbul etməsi fikrinə gəldikdə isə bu versiya tamamilə

yanlışdır. Qədim yazılar Akkad çarı Naram-Sinin dövründə (e.ə. XXIII əsr) Lulubəy tayfalarının onun əsarəti altına keçdiyini, tezliklə bu tayfaların Akkad hakimiyyətini devirərək Mesopotamiyanın cənubuna qədər öz hakimiyyətlərini bərpa etdiklərini göstərir. Bununla bərabər e.ə. XXII əsrdə çar Anubaninə aid mixi yazıların aşkarlanması, II minillikdə onların Hürrü çarlığında qul kimi istifadə olunması, lakin, e.ə. IX əsrdə artıq lulubəylərin şəhər dövləti olması haqqında da məlumatlar mövcuddur (563) Bütün bunlar isə onların çox güclü, vahid xalq olmaqla ayrıca ölkəyə sahib olduqlarını birmənalı sübut edir.

Mətnlərlə ətraflı tanış olan B.B.Piotrovskinin gəldiyi nəticə də fikrimizin doğruluğunu təsdiq edir. O, II Sardurun yazısındakı MÂTU LUİU (ini/a) ifadəsini əsas götürərək burada konkret olaraq ölkədən söhbət getdiyini vurğulayır və çarın məhz hücum etdiyi ölkəni nəzərdə tutduğunu qeyd edir (433, s. 84)

B.B.Piotrovskinin gəldiyi elmi nəticəyə əlavə olaraq tərəfimizdən bəzi faktları da diqqətə çəkmək istərdik. Urartu yazısından da tam aydın göründüyü kimi söhbət konkret olaraq lulubəylərin ölkəsindən və əhalisindən, ayrıca ölkəsi olan bir xalqdan gedir. Ölkə adı isə sözsüz ki, tayfa adı ilə nominasiya olunmuşdur. Əgər diqqət etsək ümumtürk toponimik sistemində b»m, b»p fonetik paralelliyi ilə yazıda göstərilən "mat" komponenti mat/mati/mit, bat/bati/bit, pat/pati/pit yazılışlarında "ölkə, yurd" mənalarında ancaq türklər yaşayan ərazilərdə dialekt və şivələrlə mövcud olmuş və olmaqdadır. Qədim qaynaqlarda biz e.ə. III minillikdə kassitlərin sıx yaşadığı Elam dövlət adını Elammit, e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərində Midiyanın paytaxtı Ekbatan –"ucaların ölkəsi", e.ə. VIII əsrdə Midiyada Saqbat-"sak yurdu", (120, I c., s, 192 593; 331, s. 230), qədim Midiya dövlət adının Matay – "Ay tanrısının yurdu",eləcə də Midiya toponimik adlar sistemində Kilim-bat-"uca ulu ların ölkəsi", Aratbat-"ərlər, igidlər ölkəsi", Kitbatay-"kutilərin ay tanısı yurdu" kimi yer adları ilə rastlaşırıq (64, I c., s. 589; 44, III c., s. 174). Lulubəylərlə bağlı mətndəki sözlərin etimoloji izahları ilk dəfə tərəfimizdən verilir (-F.R.). Biz Q.Qeybullayevin araşdırmalarında "Kitbatay" adının izahına "əsaslı, qüvvətli ölkə" mənasında rast gəlirik (208, s. 98). Lakin coğrafi adların nominasiyasında tayfa adlarının üstünlüyünü və o dövr mifologiyasını nəzərə alaraq biz burada Kuti tayfa

adını və Ay mifini görürük.

Herodotun məlumatları da "bat" komponentinə dair tarixi mənbə kimi qiymətlidir. Tarixçi bu tərkibi ancaq prototürklər yaşayan ərazilərin yer adlarında təqdim edir. O, skiflərdə Meotiddən şərqə Savramat-"subər yurdu" əyalət adını, Kaspatir-"kas ərlərinin yurdu"(indiki Peşəvar) şəhər adını, Mitan ərazisində Zabat-"Si yurdu" çay adını, yunanlarda türklər yaşayan ərazidə e.ə. IX yüz ildə Patum –"mənim yurdum" şəhər adını və skiflərdə Tabat- "dağlar yurdunun tanrısı" tanrı adı və s. göstərir (9, II 158; III 102; IV 59, 123; V 52). Hazırda cənub Azərbaycan ərazisində As türklərinin məskəni Astabat, Astrabat (indiki Xalxal), Hürrü yurdu Xurobat, Sak yurdu Sakabat (indiki Şaxabat), Məşhəddən cənubda Azərbaycanın əski Turdi tayfa adından yaranan və hazırda türklərin yaşadığı Turbet-"Turdi yurdu", Kanqabat-Qonabat- "kəngər yurdu", (358, s, 469), türkmənlərdə As yurdu Aşkabat, Arbat-"igidlər yurdu", Azərbaycan torpaqlarından zorla qoparılaraq gürcülərə "hədiyyə" edilmiş torpaqlarımızda Batum-"mənim yurdum, ölkəm", Kaxetiya ərazisində rayon adı Axmat-"uca ölkə", Şumata-"kiçik Şu ölkəsi" (117, s. 54, 174, 307) və s. buna misal ola bilər.

Biz türk tayfa adlarının yaranmasında da bu komponentin iştirakını görürük. Qədim hunlarda Tibet (337, s. 87), qıpçaqlarda kol tayfa adının yaranmasında Kolmat (324, s. 355), peçeneqlərdə Bartolmat, (508, s. 91 ), Abakan xakas türk tayfa adlarında Qoybat (236, I c. s. 17), Skiflərdə Axvat-Akbat (Baharlı.Az-n, s. 30-31) kimi adlar bu komponentin prototürk dil elementi olmasına canlı sübutdur.

Erməni və gürcü müəlliflərinin öz "tarixləri" haqqındakı uydurmalarına və bu tayfalar haqqındakı qərəzli fikirlərinə ətraflı cavaba biz son dövrlərdə rus dilində nəşr olunmuş "Cənubi Qafqaz ölkələri tarixi oçerklərinin çarpaz təhlili " kitabında rast gəlirik. Rauf Rəcəbov, Stepan Qriqoryan və Vaxtanq Kolbainin redaktorluğu ilə nəşr olunan bu kitabda erməni və gürcü alimlərinin uydurduqları "qədim tarixlərə və prototayfalara" tutarlı elmi təkzib verilmişlər. Kitaba daxil edilmiş Aydin Aslanov, Bahadur Bəxtiyarov, Rauf Hüseynov və Rauf Rəcəbovun elmi təkzibləri erməni və gürcü tarixçilərinin uydurduqları "tarixlərin" əsl mahiyyətini ortalığa çıxarır (114, s. 13, 79, 98, 128).

Şərq tarixi haqqında bəzi tarixi hadisələrə M.E. Matye, İ.M. Lure, V.V. Struve və digərlərinin tədqiqatlarında da rast gəlirik. Buradakı

tarixi müqayisəli məlumatlar qədim Naxçıvanın ərazisində Araz çayının sağ və sol axarları boyu Lulubəy türklərinin kutilərlə kompakt şəkildə yaşadığını qeyd edir. Mənbələr bu boylarla yanaşı Azərbaycan xalqının təşəkkülündə iştirakı olmuş digər as, naxər, hürrü, türükkü, şu, şubar, kassit, massaget, bulqar, koman kimi prototürk boylarını da lulubəylərlə birliyini, tarixi proseslərə birgə iştirakını qeyd edir (271, s. 254, 304-305; 399, s. 45-75; 456, s. 63-81; 384, s. 9-18).

Lulubəylərin tarixi dili və ərazisi haqqında bütün yuxarıda göstərilən mənbə və tədqiqat materiallarının məlumatlarını müqayisə etsək burada əcnəbi və Azərbaycan alimlərinin, eləcə də antik və digər mənbə məlumatlarının lulubəylərin dili, mənşəyi və məkanı haqqındakı mövcud konsepsiyanı aşağıdakı formada təqdim edə bilərik. Burada İ.M.Dyakonov və İ.Əliyevin araşdırmaları Lulubəy boylarını kuti, elam, hürrü, kassit və kaspilərlə mənşə, dil baxımından qohum olaraq göstərir. Q.A.Melikişvilidə lulu, elam, quti-kuti, kassitlərlə bərabər Urmiya ərazisində yanaşı yaşayan tayfalar olmaqla "zaqro- elam" dil qrupuna aiddirlər, A.S.Sumbatzadə isə Cənub Azərbaycan Zaqros dağlarında yaşayan elamut, kassit, kuti, hürrütləri mənşə və dil baxımından qohum tayfalar kimi təqdim edir. Bundan sonra Y.Mosenkisdə bu tayfalar kuti-lulubəy inanc və dini adətlərdə eyniləşir, Q.Q.Qiorqadzedə lulubəy-hürü ittifaqı şəklində, V.İ.Avdiyevdə lulubəy- elam birliyi kimi, B.F.Qroznıda və Cambulat Süleymanovda isə, Qafqazda naxç-vaynax-hürrü-urartu qohum tayfaları kimi şərh olunmaqla skif dövrü tarixinə aid edilir. Y.Yusifov və Q.Qeybullayevin fikirlərinə gəldikdə xüsusi olaraq qeyd etmək istərdik ki, Y.Yusifov lulubəyləri həmişə su, hürrü, turukku, subər, kutilərlə bərabər götürmüş, dilinin Altay mənşəli olduğunu, Urmiya ətrafı və şimala doğru yaşadıqlarını göstərmiş, eyni fikir paralel olaraq Q.Qeybullayevin tədqiqatlarında inkişaf etdirilmiş, elam, kuti, lulubi, kaspi, subar, hürrü, şimali Qafqaz boylarının eyni mənşəyə və dilə malik olduğu vurğulanmışdır. F.Ağasıoğlunda isə lulubəylər prototürklər kimi Ərbil ilə Urmu gölü arasında göstərilmişdir.

Əgər biz mənbələri də müqayisə etsək burada da fərqli konsepsiyaların şahidi oluruq. Belə ki, "Ümumdünya tarixi" qədim Azərbaycan torpaqlarında, lulubəy hürrüt, kuti, subar birliyini, yuxarıda qeyd olunan digər mənbələr isə yenə həmin ərazidə kassi və lulubəy ittifaqını göstərməklə cəmiyyəti "Kuti-Lulubi" kimi təqdim edir. Bu konsepsiyaların

yekun nəticəsi istənilən variantda Bütöv Azərbaycan ərazisinə türklərin gəlmə konsepsiyasını tamamilə rədd etməklə ərazidə hələ e.ə. VI minillikdən prototürk tayfalarının avtoxton-yerli sakinlər olduğunu birmənalı təsdiq edir.

Ümumiyyətlə Şərq tarixi haqqında çoxsaylı qaynaqlar, mənbə məlumatları, əcnəbi tarixçilərinin müəyyən təhriflərə baxmayaraq, siyasi hadisələrdəki tayfa münasibətlərinin təsviri zamanı müraciət etdikləri mənbələrdəki elmi dəlillər və yuxarıda müqayisəli şəkildə verdiyimi konsepsiyaların ümumi göstəricisi prototürklərin kuti-lulubi, lulubi-hürrü, turukku-kuti, kuti-kassit, lulubi-kassit, hürrü-subartu, şubar-koman, naxər-mitan mitan-koman, subər-naxər, hürrü-naxər və s. yazılışlarında tez-tez təkrarı, bu tayfaların birgə ittifaqını ortalığa çıxarır. Təbii ki, bu da göstərilən tayfaların eyni məkana, dilə mədəniyyətə malik olduğunu sübut edən danılmaz faktdır.

Q.A.Melikişvilinin tərcüməsində bir məsələni də xüsusi olaraq qeyd etməklə "LULU" sözünün etimologiyasını vermək istərdik. Yuxarıda qeyd etdiyimiz kimi, bu sözün "düşmən", "düşmən ölkə" mənaları Q.A.Melikişvilinin II Sardura aid mətni bu variantda oxumasından irəli gəlmiş, B.B.Piotrovski isə buradakı MÂTU LUİU (ini/a) ifadəsini əsas götürərək onu konkret olaraq ölkə kimi qəbul etmişdir (433, s. 84) Belə olan halda mətnə bir də diqqət edək. Burada MÂTU LUİU (ini/a) yazılışı "Lulu ölkəsi", MÂTU BİA (ini/a) yazılışı "Bianili ölkəsi", MÂTU ARDİN (ina/ú/e) yazılışı "Ardin ölkəsi", MÂTU NAKRU yazılışı isə "düşmən ölkəsi" kimi verilmişdir (402, s. 21-29). Lakin burada bir məsələ müəllif tərəfindən bilərəkdən gizlədilmişdir. Biz yuxarıda "mat", "bat" tərkiblərinin qədim türk dillərində "ölkə" mənasında işləndiyini dedik (284, s. 94) və Astabat, Ordubat, Aşqabat, Arbat kimi yüzlərlə türk coğrafi adlar sistemində bu tərkib hələ də qalmaqdadır. Bunu nəzərə aldıqda ortalığa qəribə bir sual çıxır. Əgər Q.A.Melikişvili və digərləri göstərilən adlara qoşulan "bat" komponentini ölkə kimi oxuyursa, o zaman heç bir yazılış fərqi olmayan MÂTU NAKRU ifadəsi nəyə görə "düşmən ölkəsi" şəklində oxunmuşdur? Əgər biz MÂTU NAKRU yazısını "Nakru ölkəsi" kimi oxusaq, o zaman söhbət Naxər olkəsindən getmirmi? Burada EAİ- "məxsus" sözünü və MÂTU NAKRU yazısını "Naxərlərə məxsus ölkə" kimi açıqlayır. Əgər II Sardur yazılarında ona düşmən olan MÂTU LUİU

(ini/a) -"Lulu ölkəsi" əvəzinə onu özünə düşmən qəbul edirsə, söz yox ki, lulubəylərlə eyni mənşəyə malik olan Naxər türkləri və ölkəsi də onun düşməni idi.

Deməli, istər LULUBİ, istərsə də NAKRU-NAXƏR ümumi "düşmən" mənasında deyil, tayfa adıdır və bu tayfa adları ilə adlanmış II Sardura düşmən olan ölkələrin adları idi (-F.R.).

Lulubəy Hürri ittifaqı nəinki Mesopotamiyada böyük bir mədəni dirçəlişə təkan vermişlər hətta işğal etdikləri ərazinin mədəniyyətinə toxunmamış, türk humanizmini əski tarixə də diktə etmişlər. Bunu əcnəbi arxeoloqları da öz araşdırmaları ilə təsdiq edirlər. "Qədim dünya tarixi" kitabı lulubi-hürritlərin Ön Asiyaya yayıldığı dövrləri belə xarakterizə edirlər: "Lulubi-hürritlər" yayıldıqları ərazilərdə heç bir yerdə ( bunu Maykop arxeoloji mədəniyyəti də təsdiq edir) yerli əhalini qırmamış, sıxışdırmamış, hər şeyi dinc yolla həll etmiş, onların işğal etdiyi ölkələrdə mədəniyyət abidələrinin biri də dağıdılmamışdır" (88, I c., s. 185). İngilis arxeoloqu Leonard Vulli bu tayfa birliyini xarakterizə edərək yazır: "İşğal etdikləri ərazilərdə yerli xalqlarla tez qaynayıb qarışan hürrit-lulubi boyları öz mədəniyyətləri ilə yerli mədəniyyətə misilsiz xidmət göstərirdilər. Onların mədəniyyəti e.ə. III minillikdən şumer, Akkad mədəniyyəti və inancları ilə qədim köklərlə bağlı idi və Mesopotamiya adətləri və mədəniyyəti şaxələrini, qoruyurdu" (451, s. 11, 64).

Hürrit-lulubəy boylarının Fələstinin şimalı və Suriya ərazilərini işğal etməsi e.ə. III minilliyin ortalarında (e.ə. 2300-cü il) baş vermişdir ki, bunu da Ras-Şamar (qədim Uqarit) ətrafındakı dəfn adətləri sübut edir. Buradakı dəfnlərin lulubəy hürritlərə aidliyi kurqanlara xarakter olan qızıl sikkələrin aşkarlanması ilə təsdiq olunur (82, I c., s.185; 405, s. 166) . İngilis arxeoloqu Qrey Con qətiyyətlə bildirir ki, e.ə. II minillikdə sadalanan ərazi və Nablusa yaxınlığında Tel-Əl-Fara kurqanlarının arxeoloji araşdırmaları lulubəy hürritlərə aid gümüş xəncər kəmərləri aşkar etmişdir ki, bu da eynilə Qafqazdan aşkarlanan mədəniyyət nümunələrini təkrarlayır (332, s. 34). Göründüyü kimi istər arxeoloji nümunələr, istər xarakter, istərsə də etnogenetik baxımdan Mesopotamiya Qafqazla sıx əlaqədə olmuş, bu tayfalar arxeoloqların da yazdığı kimi qədim Azərbaycan ərazilərində məskun olmuşlar.

Bütün bu mövcud konsepsiyaların məğzində adı tarixi qaynaqlarda

tez-tez çəkilən lulubəylərin daha çox əski prototürk-azərbaycan tayfaları olmasını söyləməyə əsas verir. Tərəfimizdən Naxçıvan etnooykonlmləri üzərində aparılan araşdırmaların nəticələrinə əsasən öz fikirlərimizi də açıqlamaq istərdik. Biz yuxarıdakı mənbə və tədqiqatların danışarkən qeyd etdik ki, lulubəylərin dili və mənşəyi haqqındakı bütün variantlarda onlar kutilərlə birlikdə göstərilir. Mənbələr e.ə. IV-III minilliklərdə onların Cənub Azərbaycanımızın qərbindən şərqə doğru Suz, Qaur təpə, Arpaçay, Turəng təpə, Tel xələf, Sialk təpə kimi ərazilərdə əkinçilik və oturaq mədəniyyətə sahib olmuş, bəzi hallarda Şumer mədəniyyətini qabaqlamışlar (120, I c., s. 192). Bu mədəniyyət nümunələri, m. ö. IV-III minilliklərdə Naxçıvan ərazisi arxeoloji nümunələri ilə eynilik təşkil edir. Naxçıvanın göstərilən ərazidə, yəni Dəclə və Fərat arası Mesopotamiya mədəniyyəti ilə arxeoloji nümunələrin eyniliyi buradakı tarixi mədəni, etnogenetik əlaqələrin mövcudluğunu bir daha təsdiqləyir. Bu mədəni əlaqənin ərazidəki qədim Naxçıvan, Kültəpə, Sədərək və s. arxeoloji abidələrindən aşkarlanan mədəniyyət nümunələri də təsdiq edir. Burada saman qarışıq saman üzlü və Erkən Tünc dövrünə aid keramika məmulatları, qədim Naxçıvanın Şərqi Anadolu yəni Mesopotamiyanın e.ə. VI-IV minilliklərdəki mədəniyyəti ilə eyniliyini qəti olaraq təsdiqləyən maddi sübutlardır (276, s 15. 179-186; 257, s. 61-64). Sarıdərə, Haqqıxlıq, Şahtaxtı, Ağsal, Xoşkeşin, Ovçulartəpə nekropollarının arxeoloji mədəniyyət nümunələri ilə Urmiya hövzəsi abidələrinin eyniliyi və bunun e.ə. III minillikdən öncə oturaq həyatın mədəniyyəti kimi mövcudluğu (148, I c., s. 96-99) Ümum Azərbaycan mədəniyyətinin proto tarixi mədəniyyətini, o dövr bu ərazidə məskun olan prototürk boylarının vahid inanca və məskənə sahibliyini səciyyələndirməklə, onların böyük güc şəklində şəhər mədəniyyətinə malik olmasından da xəbər verir.

Təbii ki, bundan sonra bizi maraqlandıran əsas məsələlərdən biri də "lulu" sözünün mənası və onun haradan gəlməsi məsələsidir. Yuxarıda göstərilən bütün tədqiqatların və qədim mənbələrin ümumi nəticəsi hürrütlərlə lulubəy, kuti, turukku və s. prototürklərin ittifaqını bir ərazidə eyni mifik inanclara malik olduqlarını ortalığa çıxarır. Əgər yadımıza salsaq Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Şumukan və b. (5, s. 12, 15, 56-58) sonralar bu xalqın Şu, Kuti, Türükkü, Kassit, Kimmer, Şirak və b. prototürk boylarının adlarında da

təkrarlanır. Biz yazılarımızın birində bu haqda ətraflı danışmaqla (254, s. 300-308). Bilqamıs dastanında tanrı adları içərisində biz Luma adı ilə qarşılaşırıq (5, s. 56-58) və Lulubəy tayfa adına da qaynaqlarda "lullume", lullubum yazılışlarında təsadüf edirik. Bundan başqa hürrü boylarının tanrı adları içərisində, Kummarve, Teşşub, Şavuşka tanrılarının qarşısında aciz qaldıqları Улликума tanrı adına da rast gəlirik (478, s. 38). Qədim Hürrü dastan "Ullukkummi haqqında nəğmə" dastanında devrilmiş-hakimliyini itirmiş Kumbari Teşşub və digər düşmənlərindən qisas almaq üçün qayalardan hürrü dilində Ullukkum adlanan oğul doğur. Ullukkum hürrücə "Lull/ull" adlanan Teşubaya, "Ullulsh" adlanan Kummiiyə zərbə endirmək istəyir. Hetlər qayadan doğulan və az müddətdə bütün canlıları öz boyu ilə ötən bu nəhəngi "nəhəng daş qatil"-Kunkunnusi adlandırırlar. O, səmadakı bütün tanrılarda qorxu yaradır (90, I c., s. 118-130). Mətndən göründüyü kimi burada o , qarşısıalınmaz, sərt qaya kimi bir böyük gücdür və bütün tanrılar onun qarşısında acizdir.

Bu məlumatlara istinadən biz qədim türk dili lüğətlərinə də nəzər saldıqda burada "lu/ulu" tərkibinin "böyük", "əzəmətli", "nəhəng", "sərt", "güc-qüvvət" və "əjdaha" mənaları ilə qarşılaşırıq (37, s. 334; 64, I c., s. 593). Bu məna və lulubəy-hürrü boylarının tarixdəki işğalları, güc kimi mövcudluğu tayfa adının "böyük", "əzəmətli", "nəhəng" mənalarında olduğunu söyləməyə əsas verir. Tayfa adının nəhəng tanrı adından nominasiyası isə e.ə. IV-III minilliklər üçün prototürklərin inancından irəli gələn bir xarakterik hal idi.

Bəs Lulubəy tayfalarının Azərbaycan ərazilərində hansı adlarda izləri durmaqdadır? Qədim Naxçıvandakı etnooykonimlərdə eləcə də qaynaqlarda əski dövrlərdən günümüzədək qədimlərdə "Ön Asiya" adlanan Azərbaycanımızdan zorla qoparılmış torpaqlarımızda xeyli sayda Lulubəy tayfa adlarından yaranmış məntəqə adları ilə rastlaşırıq. Cənub Azərbaycanda XI əsrdə Maluli, XV əsrdə Lalə (220, s. 47, 201), daha sonralar Lularak, Uluman, Badlu, İdeluhan (200, s. 128; 510, s.167), Naxçıvanın əzəli torpaqlarından olan İrəvan xanlığı ərazisində Lalabəyli, Lulucan, Lalaçı kimi onlarla etnooykonim (77, s. 161) qədim torpaqlarımızda Lulubəy prototürk - Azərbaycan boylarının izləridir. Hazırda Azərbaycan toponimik sistemində Lələkar, Lələdulan, Luləkeran, Lulpar, Lölükkar və s. məntəqə adları (35, s. 66-68) lulubəy türklərinin

sovetlər dönəmində təhriflərlə sənədlərə düşən adları olmaqla, eyni zamanda areal coğrafi göstəricilər kimi də qəbul oluna bilər. Qədim qaynaqlar və arxiv sənədləri keçmiş Naxçıvan ərazisinin 14 oykonimimməntəqə adında bu tayfaların adları qalmışdır. Fikrimizcə, onların etimoloji izahlarına diqqət etmək istər tarix, istərsə də dil baxımından xüsusi əhəmiyyətə malikdir.

**Lalabəyli.** Qədim Lulubəy tayfa adını özündə yaşadan bu məntəqə adı ilk dəfə olaraq əzəli Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində Qaraqışlaq və Dəmirçili kəndləri arasında 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında göstərilir (77, s. 161). Lulubəy sözü özündə yalnız türk dilləri üçün xarakterik olan **a≈u** fonetik səsəvəzlənmə hadisəsi ilə tayfa adını tam olaraq qorumuşdur. Buradakı -lı dörd cür yazılan isimdən sifət düzəldən şəkilçi etnooykonimə sonralardan əlavə olunmuşdur.

**Uluqlu.** Bu məntəqə adı 1590-cı ilə aid məlumatlarda Naxçıvan qəzasına daxil olan Ağcaqala nahiyəsində Tərəkə və Cüre kəndləri yaxınlığında qeydə alınır (77, s. 169) Bu adın tərkibində türk dillərinə məxsus eliziya-səsdüşümü hadisəsinin olması qənaətindəyik. Türklərdə "abla" qazaxlarda "aba, apa", türklərdə "yüce", azərbaycanlılarda "uca", "naxış" özbəklərdə "nakş" kimi hadisələr bu fonetik əlamətlə bağlıdır (39, s. 3, 638-639, 998,). Bu hadisə dilçilikdə samit səslərin səsdüşümü hadisəsi kimi (apokopa) izah olunur. Bunun əksinə olaraq türk dillərində sait səslərin düşümü hadisəsi (eliziya) də Əli ağa-Əlağa, Əli Əkbər-Ələkbər kimi müşahidə edilməkdədir (222, s. 78-79). Türk dilləri üçün xarakterik olan bu hadisələri nəzərə almaqla oykonimi Lulu+uk+lu şəklində bərpa edərək elə bu yazılışda olduğunu düşünürük. Burada tayfa adına qoşulan qədim türk "uk"-"oğul, varis, nəsil" sözü S.E.Malov, V.V.Radlov, N.A.Baskakov və b. araşdırmalarında bu gün də altay, qazax, tuvin, çuvaş və s. dillərdə göstərilən mənalarda işlənməkdədir (64, I c., s. 582-584; 392, 1951, 14, 37, 42 c.). Məntəqə adı "Lulların varisləri" mənasında izah olunur. Burada -lu sonradan artırılmış şəkilçidir.

**Uluxanbəyli.** Tayfa adından formalaşan bu etnooykonim ilk dəfə 1590-cı ildə əzəli Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının Karbi nahiyəsindəki Sələpürd və Şeyxzadəli kəndləri arasında, bununla bərabər 138 ildən sonra, 1728-ci illərin məlumatlarında yenə həmin

qəzada bu dəfə Qırxbulaq nahiyəsində Ərmus və Terekevit kəndləri yaxınlığında qeydə alınır (77, s. 75, 163). Bu adda da "Uluqlu" kənd adında olduğu kimi səsdüşümü (eleziya) hadisəsi müşahidə olunur. Məntəqə adının ilkin variantının Lulu+kan tərkiblərindən olduğunu düşünürük. Addakı "bəyli" komponenti sonrakı illərin leksikon göstəricisidir. Biz adın tərkibindəki birinci "kan" komponentinə qədim türk dillərində "məkan, yer, bölgə" mənalarında rast gəlirik. Naxçıvan toponimik sistemində qədim Midiyanın 6 tayfa adından biri budilərin adını daşıyan Badaşkan, peçeneqlərin bir qolu Bula tayfa adını daşıyan Bulqan kimi adlar (156, s. 397-398), Azərbaycan toponimik sistemində Astraxan, Beyləqan, Balakən, Mərdəkan (35, s. 11, 15, 71), Oxon-Yenisey yazılarında Kadırkan, Ötükən və s. adlar (235, s. 387) bu qədim komponentin daşıyıcılarıdır. Oykoni "Lulu yurdu" mənasında formalaşaraq sonralar "bəyli" komponenti ilə birləşmişdir. Eyni zamanda həm "xan", həm də "bəy" titul bildirən komponentlərin adı formalaşdırması qeydə alınmır (-F.R.).

**Yollu.** 1590-cı ildə həm qəza həm də nahiyə kimi fəaliyyət göstərən Naxçıvanın Tumbul və Bulğan kəndləri arasında yerləşdiyi bu məntəqə adı (77, s. 164) fikrimizcə "yol" leksik vahidi ilə bağlı deyil. Qənaətimizə görə adın ilkin yazılışı o≈u səsəvəzlənməsi və -l sonor samitinin səsdüşümü ilə Su+lulu şəklində olmuşdur. Biz türk dillərində y≈s fonetik dəyişməni yay-say, ulduz-yıldız-sıldız, il-yıl-sıl şəklində qazax, qırğız dillərində müşahidə edirik (39, s. 760, 978). Əgər lulu tayfa adına qoşulan su/sa-"şöhrət", "dirilik, sağlam" (37, s. 478, 512) sözlərini nəzərə alsaq, o zaman etnooykonim "sağlam, şöhrətli lulular" mənasında açıqlanır.

**Hacı Laləli.** Naxçıvan qəzasının Şərur nahiyəsində 1590-cı illərin məlumatlarında Ərbatan kəndi və Qarahasarlı qışlağı arasında məntəqə kimi qeydə alınır (77, s. 168). Məntəqə adına "hacı" komponenti islamdan sonrakı əlavədir. Əgər sözü fitonim-lalə kimi qəbul etsək bu zaman hacı komponenti fitonimi (bitki adını) izah etmir. Bir qadın adı ilə məntəqə adının nominasiyası da toponimik sistemdə çox təsadüf olunmur (bəlkə də mövcuddur). Burada dil arxa və dil önü saitlərin a≈u, ə≈u şəklində əvəzlənməsi ilə məntəqə adı Lulu yazılışında etnooykonimə çevrilmişdir.

**Lulu.** Maraqlı tarixçəyə malik olmaqla Lulubi tayfa adından ya-

ranan və təhrif olunaraq bəzi qaynaqlara bir adı da "Palu" şəklinə düşən bu məntəqə adı ilk dəfə 1590-cı ilə aid məlumatlarda qədim Naxçıvan ərazisinin İrəvan qəzasının Karbi nahiyəsində başqa adı "Mulu" olaraq keçən Xəzaviz və Xockəri kəndləri arasında göstərilir (77, s. 163). Məntəqə adı birbaşa tayfa adından etnooykonim kimi formalaşmışdır.

**Lalə.** Bu məntəqə adı ilk dəfə olaraq əzəli Naxçıvan ərazisinə daxil olan Naxçıvan qəzasına Abaran nahiyəsində Əxinəkiğ və Kosalar kəndləri yaxınlığında 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında qeydə alınır (77, s. 174). Oykonimlərin formalaşmasında iştirakı olan nomen göstəricilərinin (kənd, qışlaq, məzrə və s.) heç bir olmadan məntəqə adının fitonimdə (lalə) yarandığını düşünmürük. Fitonimlər-bitki adları, əsasən oronimik adlara xas olan xüsusiyyətlərdir. Məntəqə adlarının formalaşmasında isə başlıca olaraq tayfa adlarının iştirakı beynəlxalq aləmdə yekdil qəbul olunmuş nominasiya üslubudur. Bu oykonimdə Hacı Laləli məntəqə adında müşahidə olunan a≈u, ə≈u şəklində səsəvəzlənmə hadisəsi olduğunu düşünürük. Məntəqə adı Lulubəy tayfa adından birbaşa, nomen göstəricisi olmadan etnooykonim kimi nominasiya olunmuşdur.

**Lalaçi .** Bu məntəqə adı Lalə və Hacı Laləli məntəqə adları ilə eyni kökə malikdir və Lulubəy tayfa adından formalaşmışdır. Ada ilk dəfə əzəli Naxçıvan ərazisinə daxil olan qədim Şürəgəl livasının Şürəgəl nahiyəsində kimmer türklərinin adını yaşadan Gömrü kəndi və Vələd qışlağı arasında 1728-ci illərin məlumatlarında rast gəlinir (77, s. 125). Məntəqə adı 1590-cı ildəki ilk siyahıya alınmada qeydə alınmamışdır.

**Ulucan.** Qədim Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində Sultan xaslarına daxil olan Zərzəmin nahiyəsində Heydərxan və Məhəmməd qışlağı arasında heç kimin yaşamadığı kənd kimi 1728-ci illərin məlumatlarında rast gəlinir (77, s. 121). Bu ad da ilkin siyahıda (1590) qeydə alınmır. Məntəqə adında "Uluqlu" və "Ulu-xanbəyli" kənd adlarında olduğu kimi -l hərfinin səsdüşümü hadisəsi müşahidə olunur. Oykonimi Lulu+san şəklində bərpa etməklə onun "Şöhrətli lulular" mənasında olduğunu düşünürük. Can/san- komponentinə gəldikdə isə bu qədim söz tərkibi istər prototürklərdə, istərsə də müasir türk dillərində omonimlik xarakter daşımaqla M. Kaşğaridə "anuq utru tutsa joqqa sanmas" (42, I s. 68)- "hər şey ortalıqdadırsa yox sanılmaz" (-F.R.) şəklində "say, miqdar, hesab", "bükün buldunq emti kişiler

sanu" (37, s. 483)- "sən bu gün hörmət qazandın" (-F.R.) şəklində isə "hörmət, şöhrət, ad-san" mənasında işlənmişdir. Bu gün biz "ad-san sahibi", "ada-sana çatdı", "şan-şöhrət qazandı" ifadələrimizdə də bu komponentdən istifadə edirik.

**İləçi.** Məntəqə adı 1590-cı ildəki siyahıya düşməmiş, lakin ərazi baxımından qədimliyi ilə seçilir. Etnooykonimə 1728-ci illərin məlumatlarında Naxçıvan ərazisinə daxil olan qədim Azadcirən nahiyəsində Bus prototürklərinin adını yaşadan Bist və Şumer dastanında Nisir dağ adının eyni olan Nəsirvaz kəndləri arasında rast gəlinir (77, s. 147). Hazırda əhali yaşamayan bu məntəqə adı Lulu+çu şəklində bərpa olunur. Tayfa adına qoşulan -çu mənsubluq ifadə edən şəkilçisinin ada sonradan qoşulduğunu düşünürük. Lakin bu komponenti ç≈z fonetik hadisəsi nəzərə alınmaqla "zu" şəklində qədim türk sözü "müdrük" mənasında (353, s. 78) da oxumaq mümkündür. Biz oykonimin məhz bu quruluşda Lulu+zu yazılışında və "müdrük lulubəylər" mənasında olduğunu düşünürük. Qədim türklərdə istər yer adlarının, istərsə də antroponimlərin yaranmasında bu komponentin iştirakını biz şumer, lulubəy və kassitlərdə Kiur tanrı adı ilə yaranmış Kuri+qal+zu- "Ulu, müdrük Kiur" (e.ə.III minilliyin sonu) Tiptakzi-"əbədi müdrik olan", Mannada İranzu-"müdrik ərən" Midiyada Silxazi-"müdrik və şöhrətlilərin suyu", Aqazu- "böyük müdrik" və s. çar və yer adlarında izləyirik (208, s. 62, 91).

**Cudulu.** Bu məntəqə adı 1728-ci illərin məlumatlarında keçmiş Naxçıvan ərazisinin daxilində Naxçıvan qəzasının İğdır nahiyəsində Rəşidəli və Qarahacılı kəndləri arasında bir adı da Sutullu olmaqla qeydə alınır (77, s. 68). Yalnız ç≈k səs əvəzlənmə hadisəsini müşahidə edildiyi bu iki etnooykonim "Qüvvətli lilibəylər" mənasındadır. Bu cür fonetik səs əvəzlənməsi hadisəsinə biz Doğu Anadolu Ərzurum, Kars, eləcə də Azərbaycan, Krım tatarlarının dialektlərində çeşmə-keşmə, çəkic-kəkic, çelik-koliç, çadır-katır-şatır çeçe-keçe, keçi-çeçi yazılışlarında rast gəlirik (507, I c., s. 183-187; 39, s. 111; 266, s. 82).

**İlar.** 1590-cı illərin məlumatlarında keçmiş Naxçıvan ərazisi daxilində olan İrəvan qəzasının İrəvan qeydə alınan bu məntəqə Pürtaq və Yelqovan kəndləri arasında qeydə alınır (77, s. 159). Bu adın quruluşundakı ilkin varianta "ər" komponenti İl-"yurd" sözü ilə "Yurd əri" mənasında izah oluna bilər. Lakin biz sözün əvvəlindən -L samitinin düşdüyünü və

söz ilkin variantında Lul+ər şəkilində olduğunu düşünürük. Belə ki, əgər diqqət etsək "ər" komponenti həmişə konkret olaraq sub+ər, ərsaq, kəng+ər, xəz+ər, dög+ər kimi birbaşa tayfa adlarının sonu və əvvəllərinə qoşulmuşdur. Bu adda hər hansı tayfa adının olmaması adın Lul+ər şəklində olması fikrini yaratmaqla sözun "Lulu əri" mənasında olduğunu deməyə əsas verir.

**Bulalı.** Fikrimizcə, məntəqə adında əsaslı səs dəyişimi və əvəzlənməsi baş verməklə bütünlükdə təhrif olunmuşdur Əgər xatırlasaq əski türk dilləri və Orxon-Yenisey abidələrində həm "xalq", həm də "Vətən" kimi işlənmiş "budın" leksik vahidi Vətən sözüylə müqayisədə b≈v, ə≈u, t≈d, ə≈ı səsəvəzlənməsi ilə işlənmiş, yalnız "n" samiti dəyişilmədən qalmışdır. Biz bu məntəqə adında da türk dilləri üçün xarakterik olan belə bir i≈u, b≈p, a≈u, ı≈u səsəvəzlənmələrinin baş verdiyini və adı Bi+lulu yazılışında, "Lulu bəy" mənasında olması fikrindəyik. Ad ilk dəfə 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında Naxçıvan qəzasının Ağcaqala nahiyəsində, Qüllə və Qamışlı kəndləri arasında göstərilir (İƏİD, s. 168).

**İliçaq.** Ada ilk dəfə 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında Naxçıvan qəzasının Aralıq nahiyəsində, bir adı da "Xudulu" olmaqla Novruzlu və Kürvirani kəndləri arasında rast gəlirik (77, s. 168). Fikrimizcə, sözün əvvəlindən

-L samiti düşmüş və söz ilkin variantında Lulu+caq şəkilində olmuşdur. İlk dəfə Biz caq komponentinə qədim türklərdə "özü, əsli" və "çaq"-"böyük, qüvvətli" mənalarında rast gəlirik (37, c. 138,322; 208, s 140-166). Bununla bərabər "çaq" komponenti "çaq/çauq" yazılışında əski türk sözü "qala" leksik mənasını daşımışdır (260, s. 85-87).

Əgər bütün adlardakı əski dil elementlərinə diqqət etsək biz "kan" –"məkan, yer, bölğə" , "su/zu"- "şöhrət", "müdrük", "dirilik, sağlam", "can/san"-"say, miqdar, hesab", "hörmət, şöhrət, ad-san", "qut"-"qüvvət", "çat"-"şad", "çauq"-"qala", "caq" "özü, əsli" və s. komponentlərin yazıyaqədərki dövr prototürk dil elementləri olaraq lulubi, kassi, Manna, Midiya toponim və antroponimlərində yetərincə işləndiyini görərik. Bu amillər isə bir daha Naxçıvan-Mesopotamiya etnogenetik əlaqələrinin, dili, tarixi və mədəniyyətinin eyniliyini sübut edir.

Ümumiyyətlə, Lulubəy tayfaları haqqında tarixi faktlar kimi

Assur, Hett, Akkad, Urartu yazıları, qaynaq məlumatları, arxeologiyanın yekun nəticələri linqvistik təhlillər və s. tarixi dəlillərdən əldə olunan məlumatları ümumiləşdirərək bu tayfalar haqqında aşağıdakı elmi nəticələri söyləmək mümkündür:

1. Qədim naxər-Naxçıvan ərazisi Mesopotamiya mədəniyyəti və etnogenetik birliyin ayrılmaz bir tərkibi olmuşdur.

2. Lulubəy tayfalarının inancları və tanrı panteonu Hürrit, Kuti, Turukku, Şubar, Naxər, Koman, Kaşşu/Kassit prototürkləri ilə eyni mənşədən gəlməklə eyni tayfa ittifaqının birliyini təsdiq edir.

3. Assur, Hett, Akkad, Urartu yazılarında Lulubəy boylarının ayrıca "Matu Lullu" adlanması Urmiya hövzəsindən başlayaraq Arazboyu ərazilərdə onların Lullu ölkəsi və Lullu dövlət qurumlarının mövcudluğunu təsdiq edir.

4. Lulubəylərə aid tanrı, şəhər, çar, antroponimik adların prototürk dil elementləri və protoiltisaqi dil imkanları hesabına formalaşması bu tayfaların ümumprototürk birliyində vahid dil ailəsinə mənsubluğunu ortalığa çıxarır.

5. Gürcü, erməni, kürd, talış və s. xalqların "tarixçilərinin" uydurmaq istədikləri "tarix" e.ə. VI-I minilliklərin heç bir tarixi faktı ilə təsdiq olunmur və bu qədim tarixdə onların tarixi yoxdur!

## 6. HÜRRÜ BOYLARI

Qədim naxçıvanlıların etnogenezi tarixində xüsusi yeri olan, lakin bu qədim ərazi ilə bağlılıqları ayrıca tədqiq edilməyən əski türk boylarından biri də tarixi e.ə. IV minilliyə söykənən prototürk Hürrü boyları olmuşdur. Qeyd edək ki, ayrıca tədqiqat obyektinə çevrilməmiş bu prototürk boylarının yaratdığı oykonimlər üzərində də geniş linqvistik, etimoloji, müqayisəli təhlillər aparılmadığından, ərazidə Hürrü boylarının adlarından yaranmış etnooykonimlərin yaranma formaları, onların leksik-semantik quruluşu və bu adlardakı əski dil elementləri də tədqiqat obyektinə çevrilməmişdir. Əski qaynaqlar və Xett çarlarının kitabələrində tarixi hadisələrlə bağlı e.ə. IV-III minilliklərin tarixi, siyasi proseslərinə təsir etmək gücündə olan bu boylar qaynaqlarda "hürri", "hürrüt", "Hürrü", "xurri" və s. şəkillərdə qeydə alınsa da biz adın "Hürrü" yazılışında olduğunu sözün əsasən "hür/kür" tərkibindən yarandığını düşünürük. Qədim kassi və lulubi türklərində və şumerlərdə biz Kiur

tanrı adına təsadüf edirik (208, s. 51). Əski türklərin advermə ənənəsində və tayfa adlarının nominasiyasında tanrı kultunun rolunu nəzərə alaraq bu tayfa adının da Kiur tanrı adından yarandığını düşünürük (-F.R.) Şumer və türk dillərində "Kur/kür/xür" tərkibi "əzəmətli", "cəsur", bəzən isə omonim kimi "hür"- "mərtəbə, rütbə", "qurmaq" mənalarında işlənmişdir (500, s. 105; 208, s. 51; 37, s.322, 328; 41, 213, 378-380). Bu gün də dilimizdə işlənən "qur"-"qurmaq, tikmək", "kür"-"coşqun, cəsur" mənalarında "kür uşaq", "bu nə kür adamdır" ifadələrinə rast gəlirik. Bəs bu tayfalar tarixi qaynaqlarda necə xatırlanmış, hansı ərazilərdə məskun olmuşlar? Onların Naxçıvan əraziləri ilə bağlılığı olmuşmu? Bu suallara cavab vermək üçün tarixi hadisələrə, qədim yazılara və qaynaq məlumatlarına nəzər salaq.

Hürrü boyları mənbə məlumatlarında çox erkən tarixlərdə, əsasən Mesopotamiyanın şimal hissəsində, Tiqr-Dəclə çayının şimal axarlarında qeydə alınırlar (120, I c., s. 192). Biz e.ə. III minillikdə Hürrü boylarını mitan, türükkü, naxər, subar, kaşk-kassi, tayfalarının əhatəsində görürük və qaynaqlar subər və hürrüləri bir ittifaqda qohumdilli tayfalar kimi göstərirlər (271, s. 52). Bu tarixi məlumata baxmayaraq Hürrü boylarının tarix səhnəsinə çıxması dövrü tədqiqatlara əsasən e.ə. IV minilliyə təsadüf edilir.

Bu məlumata biz Hürrü, Akkad, Hett mətinlərinin bilicilərindən sayılmaqla Hett yazılarını geniş tədqiq edərək Hürrülərin Zaqafqaziyadan Yaxın Şərqə gəlişlərini e.ə. IV minilliyin ortalarına aid etmiş, Alman alimi Q.Vilhelmin yazılarından oxuyuruq. O, Hürrü boylarının böyük güc olmaqla e.ə. II minilliyin əvvəllərindən Kiçik Asiya, eləcə də Suriya, Fələstin, Şimali Mesopotamiya və Zaqros dağlarına qədər ərazilərdə məskunlaşdıqlarını da qeyd edir. Müəllif, "Ulukkum" Hürrü nəğməsinin mifoloji sxemini tədqiq etməklə, baş tanrı Alal tanrısını tayfanın əsas inancı hesab etmiş, onu şumer tanrısı Anu ilə əlaqələndirmiş və Hürrü mədəniyyətinin Şərq və Qərb Aralıq dənizi mədəniyyəti ilə bağlılığını göstərmişdir (316, s. 27).

Q.Vilhelimin tərcümələrinə istinad edən V.V.İvanov Alal tanrısını şumerlərin tanrıları Enlil, Teşşupa, Kumarbi ilə eyniləşdirmiş onu Anunun varisi kimi qədim tanrılar sırasına daxil etməklə ata Neriqalla eyniləşdirmişdir (359, s. 118-130.). Bu məlumat Hürrü, lulubəy, subar, şumer boylarının eyni mənşə və inanca malik olduğunu bir daha sübut

edir.

Qədim yaxın şərqin tarixində Hürrülərin böyük güc olduğunu yazan Q.V.Sinilo bu sözün Akkad dilində olduğunu və "Hürrü" sözünün "səhər, şərq" mənalarında olduğunu bu tayfaların dilinin isə Qafqaz-İber dil qrupuna aid olduğunu göstərir (451, s.11). Yeri gəlmişkən qeyd edək ki, "İber" sözünün müasir gürcülərlə heç bir bağlılığı yoxdur. Qədim türklər olan iberlər turdi türklərinin varisləri idi (160, s. 91-63, 104-108).

Bəzi mənbələr Hürrü boylarının e.ə. III minilliyin birinci yarısında Mesopotamiyanın şimalında Mitan dövlətini yaratdıqlarını, bu ərazinin isə mərkəzinin "Kumme" adlanmaqla Zab çayının yuxarı axarında yerləşdiyini qeyd edir. Bundan sonra e.ə. III minilliyin ortalarında onların bir qisminin Zaqros dağları ətrafına köçərək burada-Qərbi İran Azərbaycanında (qədim Naxçıvan əraziləri ətrafında -F.R.) Simessi, Simmuru, Simaşki, Tukriş, Karaxar adda dövlətlərini yaratdıqlarını yazır. Daha sonra isə 2200 ildə onların Şimali Mesopotamiyaya yayıldıqlarını mərkəz şəhəri Urkeşi salmaqla yerli əhalini assimilyasiya edərək subərlərlə birləşdiklərini qeyd edir. Bu şəhərdə Kumarbi Hürrü tayfalarının baş tanrısı idi və ətrafdakı Hürrü boyları Ur çarına tabe idilər. Bu çarlıq yıxıldıqdan sonra hürrülərin Urkeş çarı Tigadal güclənməklə bu boyları öz ətrafında birləşdirmiş və Assuriyadan Diyala (Namar) çayının yuxarı axarlarına qədər əraziləri öz təsiri altına almışlar (543). Bundan başqa onların bir güc kimi xeyli əraziləri işğal etmələri də tarixi qaynaqlarda özünə yer almışdır. Biz əski yazılarda e.ə. II minilliyin əvvəllərində heyvandarlıqla məşğul olan Fələstin ölkəsinin ərazisinə şimaldan daxil olan Hürrü tayfalarının onları işğal etməklə uzun bir tarixi dövrdə onları idarə etdikləri haqqında da məlumatlara rast gəlirik (120, I c., s. 316, 392).

Hürrü boylarının adı bir tayfa kimi Herodotun "Tarix" əsərində çəkilməsə də, burada Harit şəxs adı qeydə alınır və o, əfsanəvi "gözəllik ilahəsi" kimi təqdim olunmaqla hürrülərin yaşadığı ərazilər göstərilir (23, II 50; IV 175).

Tarixi qaynaqların məlumatlar bizi hürrülərin Mitan dövlətini yaratdıqları və başqa dövlətləri özlərinə tabe etdikləri haqda da gərəkli məlumatlar verir. Biz Hürrü boylarının Mitan ərazilərindən başqa o dövr Hett, Assur, Elam, Vavilon, Kaskey ərazilərində də geniş yayıldığına,

özlərinin "Arapxi" – "Şanlı qardaş ərlər" cəmiyyəti, birliyi adı altında Mitan hakimiyyətinə tabe olan hazırkı Kərkük türkləri-azərbaycanlıları arasında da çoxluq təşkil etdiklərinə dair qaynaq məlumatlarına da rast gəlirik. Bütün bu siyasi hadisələr Kərkükdən bir neçə min nüsxədə aşkar olunan xüsusi sənədlərin verdiyi məlumatlarla da təsdiq olunur. Bu böyük ərazidə sənədləşmə və ünsiyyət Hürrü dilində həyata keçirilmişdir (120, I c., s. 316).

Son dövrlər Kiçik Asiya ərazisi olan Boğazköy (keçmiş Hattuşa) arxivindən aşkarlanan mixi yazılar, dünyanın bir çox tarixçi və dilçi alimlərinin Ön və Kiçik Asiya xalqlarının dili və tarixi haqqındakı faktları dəqiqləşdirməsində xüsusi elmi əhəmiyyət kəsb edir. Mətnlər Akkad və Hett dillərində tərtib edilmiş və burada Hett çarlığının ilkin dövrləri haqqında yazılar öz əksini tapmışdır. Bu qaynaqda onların Hürrü boyları ilə əlaqələri və e.ə. III minillikdə hürrülərin bütün Kiçik Asiyada böyük tayfa birliyi olmaları xüsusi qeyd olunur (544).

Hürrü boyları haqqında tarixi qaynaqlarla yanaşı biz Avropa, Rus və Azərbaycan alimlərinin də əsərlərində maraqlı elmi fikirlərə rast gəlirik. İ.Q.Əliyev və Q.A.Melikişvili bir sıra araşdırmalarında hələ e.ə. III minillikdə Hürrü tayfalarının Mesopotamiyanın şimalında, Urmiya gölünə qədərki ərazilərdə Mitan çarlığını yaratdıqlarını, sonralar Mesopotamiyaya dair qaynaqlarda onların "subarlar" adlandığını qeyd edir (284, s. 67; 401, I c., s. 124).

Fikrimizcə, bu tarixi məlumatlara İ.Q.Əliyev və Q.A.Melikişvili heç bir mənbədən rast gəlməmiş, sadəcə yanlış tədqiqatların "elmi nəticələrinə" istinadən söyləmişlər. Çünki Şərq tarixi haqqında xeyli sayda qaynaqlar hurrüləri e.ə. IV-II minilliklərdə Qafqazdan cənuba doğru yayıldıqlarını göstərir (316, s. 27). Subir-Subərlərə gəldikdə isə onlar e.ə. III-I minilliklərdə Şimali İkiçayarasının qədim sakinləri olmaqla Hürrülərin varisləri sayılmış, şumer mənbələrinə Subir, akkad mənbələrinə isə Şubartu kimi düşmüşlər. Bunlar hürrülərə (əsərdə hürrit) qohum etnoslar və etnik, dil baxımından yaxın olmaqla bərabər fərqli xüsusiyyətlərə də malik idilər (271, s. 52; 120, Ic., s. 311). Şübhə yox ki, bu yanlış məlumatlar siyasi yönlü tədqiqatların nəticələridir. Xeyli sayda mənbələr Şubər prototürklərinin ayrıca tayfa olmaqla özlərinin çarlıqlarını yaratmaları haqqında məlumat verir və tarixi qaynaqlarda "Şübir", "Şubarti" adda iki ölkə qeydə alınır. Biz aşağıda Subər türklərinin

məskun olduğu ərazilər, yayım arealları və dilləri, bu tayfalar və onların Naxçıvan ərazisində də məskun olmaları haqqında "Subər türkləri" başlığında aşağıda ətraflı danışacağıq.

Məhz belə səthi tədqiqatların nəticələri, müəlliflərin istinad obyektinə çevrilməklə yeni yanlış elmi versiyalara da yol açmışdır ki, bu bir çox araşdırıcıların əsərlərində təkrarlanmaqdadır. Belə qeyri-obyektiv tədqiqatlardan biri də N.B.Yankovskinin apardığı səthi araşdırmalarından ortalığa çıxan elmi nəticələrdir. Hürrü boylarının ərazisi və tarixi məsələlərinə diqqət yetirən müəllif, Q.A.Melikişvili, B.B.Piotrovski, I.M.Dyakonov və başqalarının yazılarını müqayisə edərək Manna dövlətini "Nairi" ölkəsi kimi təqdim etməklə ərazi olaraq Gürcüstanı göstərir. Tarixi qaynaqlardan da məlum olduğu kimi o dövrlər gürcülər hələ xalq kimi formalaşmamış, tarix səhnəsində siyasi hadisələrə qoşulmamışlar. Bu ərazi bütövlükdə protoazərbaycanlılara aid torpaqlar olmuş, yalnız XIV əsrdə Metix qalası ətrafında kiçik gürcü knyazlığı yaranmışdır. Bu da hələ mübahisəli məsələ kimi qalmaqdadır.

Bundan sonra ərazinin Hürrü boylarının ərazisi olduğunu vurğulayan N.B.Yankovski, Hürrülərin məskun olduğu bütün ərazilərin assurlar tərəfindən "Nairi" adlandırıldığını yazır. O bununla kifayətlənməyərək Q.A.Melikişvilinin "...Nairi Assur dilinə qədim Hürrü imperiyaları Mitan, Naxria, Naxarina ərazilərinin adı kimi düşür", ifadəsinə istinad etməklə mannalıların-hürrülər olduğunu və gürcülərə aidliyini qeyd edir (493, s. 133). Təbii ki, araşdırmalarını bu yanlış istiqamətdə davam etdirən müəllif, Hürrüləri gah subər, gah protogürcülər hesab etməklə qədim Azərbaycan dövləti olan Mitan, Aratta, Manna dövlətinin tarixinə də kölgə salmağa çalışmışdır. Xüsusi olaraq qeyd etmək istərdik ki, gürcü və rus alimlərinin tez-tez qabartdıqları Nairi ərazi adı qədim Naxər türklərinə mənsub olmuş və bu ad yuxarıda da qeyd etdiyimiz kimi salnamələrdə Lulubəy ölkəsinin adı MÂTU LUİU (ini/a) ilə yanaşı, MÂTU NAKRU/NAXRU Naxər ölkəsi, kimi yazıya alınmışdır (402, s. 21-29; 433, s. 84). Sonralar gürcü tədqiqatçıları NAKRU yazılışını NAİRU yazılışına təhrif edərək K hərfini İ hərfi ilə əvəz etmişlər. Bildiyimiz kimi gürcü və ermənilər Urartu dövlətini özlərinin babaları hesab edirlər. O zaman belə bir sual ortalığa çıxır. Əgər urartular gürcü və ermənilərin babalarıdırlarsa nəyə görə Q.A.Melikişvili Urartu yazılarında MÂTU NAKRU ifadəsini "DÜŞMƏN ÖLKƏ" kimi

tərcümə edir? Bu sadəcə tarixi saxtalaşdırma oyunu olmuş, gürcülərin hazırda "sahibləndikləri" ərazi və 1912- ci ilə qədər əhalisi tamamilə Azərbaycan türklərindən ibarət olan Tiflis şəhərinə yaxın torpaqların bir qismi isə, qədimdə Naxər-Naxçıvan ölkəsinin torpaqları olmuşdur. Çar Rusiyasi və Stalin hakimiyyəti dövründə "Qafqazı xristianlaşdırma" siyasətində o torpaqlar gürcülərə pay verilmiş, Tiflis onların paytaxtına çevrilmişdir. Tarixi sənədlərə diqqət etsək 1915-1920-ci illərdə bu şəhəri paytaxt etmək üçün gürcü və ermənilərin bu istiqamətdə mübarizələrinin də şahidi oluruq (-F.R.).

Beləliklə ərazilərin gürcü, erməni, bəzən də kürd torpaqları kimi təqdim etmə cəhdləri və uydurmalarına Hürrü boyları haqqındakı mənbə məlumatları, eləcə də Hett, Assur yazılı abidələri tutarlı, elmi təkziblərdir.

Hürrülərin qədim tarixini, dilini və Akkad və Hett mixi yazılarını geniş tədqiq edən Q.Vilhelim qeyd edir ki, Hürrülər elə qədim bir xalqlardır ki, tarixi yaddaşsızlığa görə onlar az xatırlanmışdır. Əgər XIX əsr Boğazköy arxeoloji tapıntısı olmasaydı biz yalnız onun müqəddəs "Əhdi-Ətiq"dəki (Vetxiy Zavyot-Qədim çağırış) "hori(m)" yazılışından başqa bir şey bilməyəcəkdik. Bu sözün mənası indiyədək açıqlanmayıb. Günümüzədək bu ad haqqında təqdim olunan Hurozny (1931), Ungnad (1936) kimi variantlar inandırıcı deyil. Əsas diqqəti çəkən "huradi" -"gözətçi" sözüdür ki, onu yeni Akkad, Assur, Urartu dilində hesab etsələr də ad Hürrüt dilindədir. Hərbi termin kimi təqdim olunan bu sözün kökü "hur" olmaqla etnosa çevrilmişdir ki, bu da Hürrülərin Buri tanrı və Xurra şəhər adına daha çox uyğundur (316, s. 23, 29, 37).

Əgər diqqət etsək və türk dilləri üçün xarakterik olan h≈k, o≈u, a≈u fonetik hadisələrini nəzərə alsaq "huradi" sözü nədənsə türk dilində "qorudu" felinə daha çox uyğundur və bu da gözətçi sözü ilə sinonimdir.

Q.Vilhelim, Y.Yusifov, V.V.İvanov, M.N.Poqrebeva və b. tədqiqatlarının elmi nəticələrindən də göründüyü kimi Q.A.Melikişvili, B.B.Pbotrovski, İ.M.Dyakonov, N.B.Yankovski və başqalarının yazılarındakı elmi nəticələrin "Nairi -Mitan, Naxria, Naxarina", "Hürrüləri protogürcülər", "Manna dövləti-Nairi ərazisi" kimi variantlarını qəbul etmir və adı çəkilən ərazilər istər qədim, istərsə də müasir dövrdə türklərə məxsus ərazilərdir. Bundan başqa mətnlərdəki Buri tanrı adı qədim kassitlərdə Ulamburiaş, Burna Buriaş, oğuzlarda Gök Bori, Böri

Alp kimi adlarda geniş işlənmiş, "Dədə Qorqud" dastanında Bəybura, Burlaxatun, XIII əsrdə Orta Asiyada Buritay, orta əsrlərdə Xorasan türk hakimi Buribaş və s. adlarda prototürklərə aid olmuşdur (19; 97, I c., s. 268). Bu adlar haqqında geniş tədqiqatı Q.Qeybullayevin də araşdırmalarından izləyirik (208, s. 58;). Biz əlavə olaraq aşağıda bu adların arealı və yaranma səbəbi haqqında ətraflı danışacağıq.

Hürrülərdən ətraflı məlumat verən "Qədim şərq tarixi" kitabı e.ə. III minilliyin birinci yarısında Hett padşahlığının şərqində Mitan dövlətini yaradan hürrülərdən bəhs etməklə, hələ prototürk Kassi sülaləsinin e.ə. II minilliyin əvvəllərindəki (1742-ci il) hakimiyyətləri dövrü burada hürrütlərin böyük güc olduqlarını qeyd edir. Onlar Assur, Babil, Elam dövlətləri ilə aparılan müharibələrdə fəal güclər sayılırdılar (271, s. 104-110, 234).

Problem ətrafında geniş araşdırma aparan Q.Q.Qeorqadze belə bir nəticəyə gəlir ki, bu Hürri tayfaları tarixinin elə bir ilkin dövrüdür ki, o dövrdə onlar böyük güc olmuş, lakin şərq mənbələri bəziləri bu dövrləri zəif əks etdirmişdir. Buna görə də onlar haqqında geniş məlumat əldə etmək üçün yalnız Boğazköy mətnlərinin Alalax bölümündə əsasən VII qata müraciət etmək zərurəti yaranır. Burada Hürrü boylarının yayım ərazisi haqqında da məlumat verən müəllif, onların təsiri altında olan Xupisna, Tuvanuv, Nenas, Landa, Çallara, Parsuxand və Lusna şəhər və ərazilərinin adlarını çəkməklə bu torpaqlara Hett çarı Labarnanın ayağının dəymədiyini qeyd edir (326, s. 71).

Maraqlı elmi fikirlərə Q.Bruqşin Hürrü boyları haqqında araşdırmalarında da rast gəlirik. Müəllif, bu tayfaları III Tutmosun salnaməsinə əsasən tədqiq etməklə Mitannanın ərazisini və onun şimalında yerləşən Naxarin (hazırkı Naxçıvan) ölkəsini bu etnosların vətəni sayır. Müəllif o dövr hadisələrini təsvir edərək yazır ki, "...Xananda eyni kökdən gələn xalqların ittifaqı yaranır, bu birliyi qədim abidələr "Mitan-mentu Hürrü boyları" adlandırır" və bütün Hürrü boyları, onların varisləri Qiksos tayfa ittifaqında birləşirlər (311, s. 203, 272). Başqa bir mənbədə də göstərilən tarixi hadisələr öz geniş əksini tapmış və yenə də Hürrü boyları Qiksos tayfaları-Gök As boyları ilə bir ittifaqda verilmişdir (89, s. 168). Bütün bu hadisələr III Tutmosa qədər olan dövrün siyasi hadisələrini əhatə etməklə yanaşı onların böyük güc olmaları da III minilliyin hadisələrində geniş təsvir olunur. Lakin III Tutmosun dövründə

biz Hürrü boylarının zəiflədiyini tarixi proseslərin onların əleyhinə olduğunu görürük.

Qədim tarixi proseslərlə bağlı III Tutmosun himnindən nümunə göstərən B.A.Turayevin araşdırmalarında o dövrkü tarixi proseslər hərtərəfli əks olunmaqla elmi cəhətdən qiymətli məlumatlarla da zəngindir. Müəllif İkiçayarasındakı o dövr prosesləri ətraflı tədqiq edərək mətndəki nümunəyə əsasən yazır: "...aziatların başı kəsilmiş, onlardan kimsə qalmamış, onların knyazlarının uşaqları iqtidardan salınmış, Mitan və Hürri boyları qorxu içərisində qalmışlar" (463, s. 179).

Bütün bu hadisələrlə yanaşı, Hürri, Naxər, Kuti, Lulubi boyları haqqında tarixi məlumatlara biz Strabon, Plutarx Arrian Marselli və b. yazılarında da rast gəlirik və onlar prototürklər kimi qeyd olunur (31, VII, 16, 1; 28, II c., s. 270).

Bu əski tayfalar haqqında İ.Q.Əliyev və M.N.Poqrebeva da geniş tədqiqatlar aparmış və maraqlı elmi nəticələrə istinadən yeni konsepsiyadan çıxış etmişlər. Onlar Hürrü tayfalarının Mesopotamiyanın şimalından başqa həmı də davamlı olaraq, əsasən Urmiya gölünün qərb və şimal rayonlarında yaşadıqlarını, buradakı tayfaların Hürrü dilində danışmaqla bu dilin azsaylı xalqların da dilinə güclü təsir etdiyini, onların hürrüdilli olduqlarını qeyd edirlər (284, s. 64; 286, s. 136).

Göründüyü kimi, hadisələri şərh edən müəlliflər ərazi məsələsinə toxunsalar da Hürrü dilinin hansı dilə aidliyi məsələsində tərəddüd edərək, bu haqda fikir söyləmirlər. Eyni ərazi məsələsinə İ.M.Dykonovun araşdırmalarında da təsadüf edirik. O, hürrüləri Mannada, Urmiya gölü ətrafında lokalizə etməklə onların dil məsələsinə də toxunur və bu dilin Qafqazın cənub bölgələrində yaşayan xalqların dili ilə yaxınlığını qeyd edir (349, s. 225-227). Lakin göründüyü kimi, tədqiqatçı alim qəti olaraq dilin hansı xalqa aidliyində fikrini açıqlamır. Biz yuxarıda da qeyd etdik ki, tarixi qaynaqlar, yazılı abidələr və Misir fironlarının kitabələri də bizə bu prototürk boylarının hələ e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərində güclü Mitan dövlətinin yaradıcıları olduğunu və burada idarəçiliyin tamamilə Hürrü dilində aparıldığını açıqlayır.

Bu istiqamətdə tədqiqatlarını quraraq Azərbaycan xalqının etnogenezi məsələsinə ayrıca yer ayıran A.S.Sumbatzadə də Hürrü boyları və onların dili haqqında maraqlı elmi fikirlər söyləmişdir. O, araşdırmalarında

Hürrü boylarının yerinin hələlik mürəkkəb məsələ olmaqla tam aydınlaşdırılmadığını, dillərinin özlərinə məxsus bir dil olduğunu qeyd etməklə (457, s. 24) bu istiqamətdə qəti fikir söyləməmişdir.

İndi "Qərbi Azərbaycan" adlandırdığımız Azərbaycanın İrəvan xanlığının tarixi coğrafiyası haqqında məlumatlarda da Hürrü boylarının tarixi e.ə. III minilliyə aid edilmişdir. Buradakı əski mədəniyyətin Xalaf mədəniyyəti olduğu göstərilməklə Zaqafqaziya, Şərqi Anadolu xalqlarının Hürrü dilli olduğu göstərilməklə, onların eyni mədəniyyətə malik olduqlarına dair faktlar göstərilmişdir (78, s. 13). Məhz bu problemə toxunan İ.M.Dyakonov "...areal Kür-Araz mədəniyyəti, areal Hürrü mədəniyyəti ilə yaxındır" ifadəsi ilə onu təsdiq etmişdir (352, s. 17-18). Təbii ki, belə bir mədəniyyətin yaranmasında isə mədəni kökləri, tarix və dilləri, inanc, adət və məişətləri tam yaxın, bir-biri ilə eyni və bağlı olan xalqların xüsusi rol oynaya bilərlər.

Əgər qaynaqlar və tədqiqatların məlumatlarını ümumiləşdirsək və tarixi proseslərə diqqət etsək, Mitan ərazilərindən başlayaraq daha sonra Kaskey, Manna, Midiya, Atropatena, Albaniya və Kərkük ərazilərində, eləcə də qədim Döğu Anadolu ellərində, avtoxton sakinlər olan Hürrü boyları o dövr Hett, Assur, Elam, Banil, Fələstin bir sözlə Mesopotamiyanin şimal dövlətləri və s. ərazilərə yürüşlər etməklə geniş bir ərazidə məskun olmuş, bu əraziləri öz knyazları ilə idarə etmiş, bütün idarəçiliklər Hürrü dilində aparmışlar. Burada diqqəti çəkən əsas məsələlərdən biri onların kuti, lulubəy, subar, türükkü, naxər və s. prototürk boyları ilə birgə tarixi proseslərdə iştirak etmələri, bu ittifaqda Mitan, Manna, Midiya, Atropatena türk dövlətlərinin qüdrətli əyaləti olan Naxçıvan əyalətinin də aborigen xalqlar olması idi. Bu faktlar qədim Naxçıvanın e.ə. IV və III minilliklərdəki ərazilərində və sonrakı dövr nahiyə və qəzalarında Hürrü adı ilə çoxsaylı məntəqə adlarının mövcudluğu ilə də təsdiq olunur. Azərbaycan ərazilərində başlanğıc məskənləri Mitan, Urmiya ətrafı, Kiçik Asiyanın Naxarin-Naxçıvan ərazilərini əhatə edən bu boyların adı, Bütöv Azərbaycan torpaqlarında; işğal altında olan və hazırkı torpaqlarımızın coğrafi adlar sistemində günümüzə qədər gəlib çatmışdır.

Biz Hürrü boylarının dil məsələsinə yuxarıdakı məlumatlarda qismən toxunsaq da, bu məsələyə bir qədər də geniş nəzər salmaq istərdik. Ümumən bir çox tədqiqatçıların araşdırmalarında hürrülərin

dili haqqında fərqli mülahizələr, fikir müxtəlifliyi də qeydə alınmaqdadır.

Avropa tədqiqatçıları Q.Hüzinq, R.Girşman, C.Kameron və digərlərinin araşdırmalarına istinad edən İ.Əliyev Ön Asiya xalqlarının qədim ortaq bir dildə ünsiyyət qurduqlarını vurğulayır və buraya Hürrü boylarını da daxil edir (284, s. 63-66). İ.M. Dyakonov kuti, lulubəy, elam, Hürrü, daha sonra isə mannalıların da bu dildə danışdıqlarını yazmışdır (349, s. 10-14). Müəllif sonralar "ermənilərin ilkin tarixini" araşdırarkən, Urmiya dağlarını "Ərmən" dağları adlandıraraq e.ə. III minillikdə ərazidəki dilləri təhlil edərək "İran Azərbaycanı"nın əski dilini Kuti dili adlandırmaqla bunların sonradan əsas ünsiyyətinin Midiya dili olduğunu qeyd etmiş, onu Hind-Avropa dili kimi təqdim etmişdir. O, Çorox çayından Urmiya gölü ərazilərinə qədər Hürrü boylarını göstərməklə onların e.ə. XI-IX əsrlərdə yox olduqlarını yazmışdır (352, s. 17-18).

Təbii ki, Hürrülər haqqında bu yazıda İ.M.Dyakonovun tədqiqatlarından gətirdiyimiz nümunələri diqqətlə izləsək müəllifin öz fikirlərində sabit olmadığını və ümumi sözlərlə fikir yürütdüyünün şahidi olarıq. Hürrülərin II minilliyin sonları və I minilliyin əvvəllərində "yoxa çıxma" elmi nəticəsi də tamamilə yanlış bir fikirdir. Biz Hürrü boylarının Mitan ərazilərindən başqa o dövr Hett, Assur, Elam, Vavilon, Kaskey, Arrapxa ərazilərinə qədər geniş yayıldığını mənbələr əsasında söylədik və bu əraziləri idarə etdiklərini yazdıq. Bu fantastik bir ərazini idarə etmək gücündə olan bu sayda xalq doğrudanmı birdən birə yox oldular? Əlbəttə yox. Məsələ bundadır ki, ümumrus ideologiyasına xidmət edən xeyli sayda bu cür tədqiqatçıların əsərlərində də biz "As boyları yox oldular", "Türükkü boyları yox oldu", "kutilər yoxa çıxdılar", "hürrülər e.ə. I minillikdə yox oldular" ifadələrini görürük. Bunun əksinə isə indi-indi 1, 3, 5 milyona çatmayan xalqlar haqqında isə "qədim tarix" uydurulur. Bütün bunlar siyasi oyun olmaqla, elmi əsası olmayan tamamilə yanlış bir fikirlərdir (-F.R.)

Məhz sovetlər birliyi dönəminin 30-80-ci illərində bu cür siyasi motivlər və xristian faktoru üzərində öz tədqiqatını quran erməni və gürcü alimləri Azərbaycandan qoparılan torpaqların hələ e.ə. minilliklərdə onlara aid olduğuna dair uydurma faktlara əl atmağa başlamışlar. İkiçayarası və onun şimalındakı əski prototürkləri gürcü və ermənilərin "cəddə babaları" kimi iddia edən bu xalqların "tarixçiləri", yeni tarixi

yalanları monoqrafiya və elmi yazılarına daxil etməklə, tarixi uydurmalara meydan açmışlar.

Bu istiqamətdə tədqiqatını quran Q.A.Melikişvili Manna və Midiya dövlətlərində əhalinin xeyli hissəsinin hürrülərdən təşkil olunduğunu qeyd edirdi və ərazinin ümumilikdə gürcülərə məxsus Nairi adlandığını yazır (404, s. 114-118). Mənbələr də o dövr Kiçik Asiya, yəni qədim Doğu Anadolu xalqlarının da Hürrü dilində danışdığını göstərir (120, I c., s. 380). Bu fikirlərə biz Q.M.Avetisyanın yazılarında da rast gəlirik. O, adətlərinə uyğun olaraq Mesopotamiyanın şimalında e.ə. VI-II minilliklərdə tarixi proseslərə qatılan bütün prototürk tayfa və dövlətlərini "erməni tarixinin" bir hissəsi saymaqla yazır: "tarixdəki mövcud faktlar "Mitan", "Xanniqalbat", "Hürri" sözlərinin termin olduğunu, sonuncu terminin isə (hürrülərin-F.R) xeyli mənada işləndiyini göstərir" (281, s. 10). Göründüyü kimi müəllif hər vəchlə hürriləri bir tayfa kimi hesab etməməyə, sonda isə onu ermənileşdirməyə çalışır. Bu isə az bir zaman keçməmiş bu adların "ermənileşdirilməsi" prosesinə hazırlıq xarakteri daşıyırdı.

Öz monoqrafiya və məqalə yazılarında bu konsepsiyadan ruhlanaraq Hürrü dili məsələsinə toxunan M.L.Xaçikyan onu Mitan, Boğazköy, Vavilon, Uqarit, Urkeş kimi dialektlərə bölməklə bu tarixi e.ə. III minilliyə aid etmişdir. Bu dilin Urartu dili ilə yaxınlığını qeyd edən müəllif, onu Hürrüt-Urartu kimi vahid dil qəbul etməklə qədim türk ellərinin dillərini Hürrü, Urartu, Vavilon, Urkeş dialektlərinə bölmüş, sonda hürrülərdən vavilon (Babil), vavilondan Mitan, Boğazköy, Uqarit dilinin, Urartu dilindən isə, Van, Musasir-Erməni dilinin formalaşdığını yazmışdır (475, s. 37, 63; 476, s. 137; 545).

Təbii ki, Hürrü dili az qala ondan yuxarı ölkənin ümumişlək dilinə çevriləndə Urartu nə dövlət, nə də, xalq kimi hələ formalaşmamış, tarix səhnəsinə çıxmamışdır. Urartu yazılarını araşdıran Q.A.Melikişvili "Urartu" adının Hürrü dilində olduğunu bu xalqın inancında Kuera tanrısının yerini və üç coğrafi adda bunun təkrarlandığını qeyd edir. Bundan başqa bu yazılarda Urartu ərazilərində Uti-Kuti tayfa adından gələn Etiuni, Kuerai Taşe kimi tayfa və tanrı adları çəkilir (404, s. 6-7, 115, 175, 427). Bildiyimiz kimi Kiur tanrısı türk tayfaları kutilər və lulubəylərin tanrısı idi və bu ad urartulara türk inancından adlamış, tayfa adı Kuti-Uti isə onların etnik tərkibindən biri olmuşdur. Bundan başqa

İ.İ.Meşaninov Urartu dilində "terai"-törə, adət, "bia"- su, "şani"- su çəni, çən, "e"- ev, "ərşə"-ərgən, "tara"-dərə, "ti"- de, danış kimi yüzlərlə qədim türk sözlərinin bu adlarda mənasını açıqlayır ki, (46, s.15, 52, 210, 263-267, 290) bu sözlərin hamısı türk dili kökləri hesabına yaranmışdır.

Urartuların etnik tərkibində digər türklərin olmasına və üstünlük təşkil etmələrinə gəldikdə isə Urartulara aid bir yazıya da diqqət çəkmək istərdik. Rus dilində olan çar I Arqiştiyə aid yazını Q.Melikişvilinin tərcüməsində olduğu kimi veririk: "дошел я до страны Биа…до страны Хушани. Царя Джабухи я поработил. Вот какую дань царю Аргищти преподнес: 41 мину чистого золота, 37 мин серебра …десят тысяч мин меди" (76, s. 11; 404, s. 247-248). Yazının tərcüməsinə diqqət edək: "Mən Bia ölkəsinə...Xuşani ölkəsinə çatdım. Mən Cəbuxi xanını qul etdim. Bax çar Arqiştiyə hansı xəracları verdi: 41 min təmiz qızıl, 37 min gümüş, 10 min min mis". Əgər salnamənin məlumatına diqqət etsək "min" sayları türk dilindədir və sonuncu "min" sözünü Q.A.Melikişvili rus dilində "тысяч мин" şəklində iki dəfə "min" sözünü işlətməklə tərcümə edir. Əgər bunun ikinci tərcümə olduğunu da (əvvəl gürcü, sonra rus dilinə) nəzərə alsaq müəllifin Urartu dilindən gürcü və rus dillərinə öz xeyirləri üçün nə qədər "düzəlişlər" etdikləri göz önündədir. Bundan başqa Arqiştinin işğal etdiyi ərazi "Bia" türk dilində "Su ölkəsi" və Urartu ölkə adı da öz dillərində Biana ölkəsi adlanır. Biz Urmiya gölü ətrafında da Biya çay adına təsadüf edirik və bu ad eyni yazılışda Altay, Tatarıstan ərazilərində də Buya və Biya, Muya kimi, Bolqar türklərinin ərazilərində Baya iki çay adlarında, Başqırdıstanda isə Buyur-Nur göl adı kimi qeydə alınır (103, s. 24-25, 69, 98 ). Burada Başqırdıstan Orta Ural şəkildə təqdim olunur. Ərazidə Hürrü, kuti subar və s. türklərin də etnik birlikdə olduğu qeyd olunmaqdadır. O zaman belə bir sual ortalığa çıxır. Əgər dövlətin dilində türk sözləri, etnik tərkibində türk tayfaları üstünlük təşkil edirsə və dövlətin adı yerli xalq dilində türk dilindədirsə, o zaman bu dövlət hansı əlamətinə görə erməni və gürcülərə məxsus ola bilər? Təbii ki bu bir tarix və mədəniyyət oğurluğundan özgə bir şey deyildir.

Heç şübhə yoxdur ki, qədim yazı nümunələrinə ilk sahib çıxanlar xristian aləmi olmuş, nəticədə qədim Mitan dövləti və Hürrü boylarının dili və mədəniyyətini gürcü alimləri "protogürcü", ermənilər isə "pro-

toerməni mədəniyyəti və dili" kimi təhrif etmişlər. Əgər internet saytlarına diqqət etsək, bu istiqamətdə hazırda da kütləvi şəkildə işlər aparıldığının şahidi oluruq (546).

Bəzi mənbələr hadisələri qismən doğru şərh etsələr də sonluqda tarixi faktları saxtalaşdırmağa cəhd göstərirlər. Hələ e.ə. III minillikdə böyük təsir gücünə malik olan Hürrüt boyları şümer-akkad hakimiyyətinə belə təsir edir, Hürrü çarları özlərini "Tanrı" adlandırırdılar. Lakin cənubdan gələn dəniz xalqları II minilliyin əvvəllərində Urkeş çarlığına son qoymuş, onların knyazları Aşşurdan (As ur-asların qurduğu -F.R.) qovulmuşdur. Bundan sonra Hürrülərin "ümum Hürrü birliyi" konsepsiyası yaranmış və Xurri çarlığı meydana gəlmişdir. Bu vasitə ilə onlar dəniz xalqlarını sıxışdıraraq yenidən (1775-1675-ci illər) Şimali Mesopotamiyaya, Assuriyanın xeyli hissəsinə, Kiçik Asiyaya, Fələstinə, Tiqr (Dəclə) çayının cənub-şərqinə (Hürrü Arrapxa) və Ön Asiya-Azərbaycana qədər fantastik bir əraziyə yenidən sahiblənmişlər. Bütün bu məlumatlara baxmayaraq sonda mənbə Hürrü, Subar boylarının "qalığından" kürdlərin və farsların yarandığını qeyd edirlər (543).

Məlumatlardan göründüyü kim Hürri boyları əsasən əski türk tayfaları ilə kompakt şəkildə yaşamış, Manna, Midiya, Kərkük ellərində, daha sonra isə Kiçik Asiya-qədim Doğu Anadolu xalqları arasında məskun olmuşlar. Təbii ki, o dövr ümum ünsiyyət vasitəsi prototürk dili olmuşdur. Tədqiqatçılar isə bunu "Kaspi", "Hürrü", "Kuti" dilləri kimi ayrı-ayrılıqda sıralamışlar ki, bu da vahid prototürk dilinin mövcudluğunu danmaq ideyasından irəli gəlirdi.

Təəssüflə qeyd edək ki, uzun müddət əsarətdə qalmağımıza görə əski mixi yazılarını oxuyan əsl mütəxəssislərimiz yetişmədiyindən və ya tək-tək olduğundan hər hansı bir tapıntıya ilkin olaraq xristian aləmi maraq göstərmiş, və təbii ki, bu tarixi tapıntılara öz maraq dairələrindən yanaşan "mütəxəssislər" bu tarix və mədəniyyətdən, dil ünsürlərindən yararlanmağa çalışmışlar. Alman alimi Q.Vilhelim kimi az bir qisim mütəxəssislər cüzi dəyişikliklər nəzərə alınmazsa, həqiqəti olduğu kimi ortalığa qoymağa üstünlük vermişlər. Lakin zamanın siyasi oyununda xüsusi güc olan dövlətlər bu mətnlərdə əvvəl öz mənafelərinə üstünlük vermiş, sonra isə onlara qul olan və siyasi oyunlarda istifadə etdikləri xalqların dili və tarixini irəli çəkməyə cəhdlər etməklə bu yazıları əsaslı şəkildə təhrif etmişlər. Çünki zaman və tarixi şərait onların xeyrinə ol-

madıqda və bu kiçik xalqlar başqa dövlətlərin maraq dairəsinə keçmək istədikdə istənilən variantda bu tarixin mövcud şəraitdə havadarlıq etdikləri azlıqlara saxta verildiyini ortalığa çıxara bilmək imkanı da əsarətin bir tərəfi kimi hesablanmışdır.

Boğazköydən tapılan mətnlərin oxunuşundan sonra bu yazı ətrafında yenə də xeyli sayda erməni və gürcü alimlərinin "tarixi düzəlişlərinə" rast gəlirik. Yuxarıda da qeyd etdiyimiz kimi onların yazılarında adlar təhrif olunur, mətinlərdən götürülmüş nümunələrdə əlavələr və ixtisarlar yer alır, nəticədə isə ilkin variant tanınmaz şəklə salınmaqla əsl kökündən uzaqlaşdırılır. Bu qədim türk Alban tarixi haqqında ermənilərin apardığı təhriflərin Boğazköy variantıdır. Təəssüflər olsun ki, bu "tədqiqatlarda" Qazax, Qırğız, Türkmən, Türkiyə Azərbaycan və b. türk xalqlarının alimlərinin qatqısı, düzəlişləri nəzərə çarpmır. Biz Xett və Hürrü dilinin mütəxəssisi olmasaq da bu yazı nümunələrində adların və cümlələrdəki bəzi sözlərin müasir və qədim türk dilləri ilə müqayisəsini verməyi, tərcümədən əldə olunan nəticələri də olduğu kimi təqdim etməyi məqsədəuyğun hesab etdik.

İlk olaraq qədim Azərbaycan torpaqları olan Urmiya ərazisi, Bütöv Azərbaycan, hazırkı Kərkük elləri və Doğu Anadolu ərazilərindəki türklərin ulu babaları prototürk Hürrü boylarının sahib olduğu və Avropa, rus, erməni və gürcü alimlərinin də qeyd etdiyi kimi öz adları ilə adlandırdıqları yer adlarına diqqət etmək istərdik.

**Yer adları:** Tukrişa, Urkəşa (Urkeşa), Navara, Nineva, Karaxar, Burundum, Elaxuta, Xaburatuma, Azuxinuma, Mardamana, Urşuma, Xaşşuma, Alalax, Varsava, Urşu, Xalpa, Suppi Xanikalbat, Anal, Saxut, Salna, İkakal, Kusar, Kassar, Xursam, Nenass, Salaxsu Ullam , Xurrum, Hurama, İnsalux, Xanti. Bu tarixi ərazilərin adları mənbələrdə hürrtmənşəli hesab edilmiş, onlara qoşulan -a, -uma şəkilçiləri isə Assur dilinə aid adlıq hal şəkilçisi olmaqla artırılmışdır (-F.R.). İndi isə adların mənalarına da diqqət edək. Müqayisədə ilk olaraq qara hərflərlə seçilmiş adlar Hurri çarlarının mərkəzi şəhərləri və sahib olduqları ərazi adları, sonra isə türk ərazilərindəki eyni quruluşlu yer adları nümunə olaraq verilmişdir.

**Tukriş** (Tukrişa). Burada türk dillərinə məxsus k=r hərflərinin yer dəyişməsini (metateza) nəzərə alsaq (144, s. 225) Azərbaycan ərazilərində Türkeş, Türküt, Türkan, Türkədi, Türklər, Tükəçi və s. (77, s.

166; 35, s. 93,96), Türkiyə ərazilərində Turgit, Türkeli və s. (521, s. 94, 102), Orta Asiya, Sibir, Altay və s. türk ərazilərində Türkə, Turki, Turkü, Türküstan, Türkmən və s. kimi yüzlərlə ad (103, s. 26, 37, 54-55, 74- 75).

**Urkəş, Urşu, Urşuma.** Qədim şumer, türk sözü Ur-"qurmaq", "qur" tərkibli adlara "Bilqamıs" dastanında Uruk, İrkal (5, s. 8, 61), Azərbaycan ərazilərindəki hazırkı coğrafi Urku, Urumcu, Urmiya, Urakəran, Urmu, Urakçay kimi adlarda (77, s. 176; 35, s. 96), Türkiyə ərazilərində Uruş, Urla, Uruqköy (521, s. 94, 102), Orta Asiya, Sibir, Altay və s. türk ərazilərində Uroş, Uruşa, Urqal, Urqala, Uray, Ural, Urak, Urkaş, Urman, Uroşevaç, Urumçi kimi xeyli sayda adda rast gəlirik (103, s. 30-31, 33, 42, 54, 57, 73, 313).

**Hurama, Xursam, Xurrum.** Prototürklərdə "Hur/xur" sözü yuxarıda da qeyd etdiyimiz kimi "əzəmətli", "cəsur", "mərtəbə, rütbə", "qurmaq" və s. mənalarındadır (500, s. 105; 208, s. 51; 37, s. 322, 328; 42, I c., 213, 378-380). Bu tərkibləri özlərində daşıyan Hürrü adları "Hur/xur" tərkibli olmaqla Azərbaycan ərazilərində Xorni, Xirik, Xurs, Xuray, Xuram, Xursan, Hıram, Hornu, (77, s. 165; 35, s. 103), Türkiyə ərazilərində Hora, Horasan, Harza, Harput, Horsunlu (521, s. 90-99, 102), Orta Asiya, Sibir, Altay və s. türk ərazilərində Xurzuk, Xırov, Xırlov, Xırşova və c. adlarda qeydə alınır (103, s. 28, 48, ,-31, 33, 42, 54, 57, 73, 313).

**Kusar, Kassar, Xaşşum.** Bu adlar Hürrü boyları arasında yaşayaraq onlarla bir ittifaqda olan prototürk kassi-kassitlərin adlarından yaranmışdır. Bu tərkibli adlara ümumtürk arealında yüzlərlə Kasqalen, Ərkass, Kasil, Kaskan, Kasabat, Kasturu, Kasmaq kimi coğrafi adlarda rast gəlirik (ətraflı bax, 103; 35; 521).

Bundan başqa qalmış adların ayrı-ayrılıqda deyil, ümumilikdə hər birinin türk adları olduğuna müqayisəli diqqət edək; Navara-Navarin, Navar, Navabad, Navari, Navahi, Navçe, Nineva, Nenass-Nensik, Nen, Ninbin, Ninkan, Karaxar-Karakal, Karaxars, Karakan, Burundum-Burın, Burunday, Burdur, Burundi, Bursu, Azuxinuma-Azıx, Azaxnam, Azıkman, Elaxuta/Alalax-Alalkul, Alalak Alat, Alalas, Anal-Analka, Analut, Varsava-Varese, Varsaqa, Varsi, Varsa, İkakal -İk, İkkal, İka, İkariya, Salna-Salonta, Salsk, Salda, Saltaq, Saxut- Saxi, Saxak, Saxab, Sakil, Suppi-Supbaul, Subsa, Supxan, Ullam-Ulanqom, Ulyumçay

Ulambat, Ulan-ud və s. minlərlə belə adlarla biz Azərbaycan Türkiyə, Orta Asiya, Yakutiya, Qazaxıstan, hətta kiçik türk xalqları Komi , Nen, Tuvin, Xantı Mansı və b. ərazilərin coğrafi adlar sistemində də təsadüf edirik. Bunun üçün həmin bölgələrin xəritə əksinə diqqət etmək kifayətdir (103 s. 44,-45, 58-59, 69, 229, 279, 295; 35, s.10, 75, 96; 521, s. 86-103).

Hürrü çarlarının adları, bu antroponimik sistem də qədim Kassi çarlığı, Manna, Midiya Atropatena, Alban dövlətləri və Orxon-Yenisey yazılarında eləcə də müasir türk adlar sistemində də təkrarlanmaqdadır. Bu antroponimik tərkiblərdə qədim türk tanrı adlarının və dil elementlərinin təkrarlanması da çar adlarının türk antroponimik sisteminə mənsubluğunu bir daha sübut edir. Burada da bəzi müqayisələrə diqqət etməyi lazım bilirik.

**Şadu Şarri, Şarra El, Abba El, -** bu adlarda Şar, şumerlərdə Umma şəhərinin tanrısı olmuş, kassi çar adı Şaqarakti-Şuriaş, Şarsin, Şatibarzan, Orhun yazılarında Apa tarkan, El İnançı, El Toğan, Ulun Şad, Kür Şad adlarında da təkrarlanır (349, s. 130-131; 235, 385; 208, s. 124). Sözlərdəki Şad-"zədəgan", El-"vətən, yurd", Abba/Apa-"ulu ana", "böyük bacı", "ucalıq" titul ifadə edən türk sözləri və skiflərdə Api yer ilahəsi (409, s. 75-77) adları "Şad Şarri", "uca Şarra", "uca ulu ana" mənalarında izah edir (37, s. 1, 47). Kiklip Atal, Tiş Atal, Atal şenni adları da müasir ümumtürk və qədim kuti, lulubəy, kassit, Manna və Midiya antroponimik adlar sistemində Ata, Ullusunni, Etil, Atilla, Edalı, Atalay, Sanqiu, Musasin kimi adlarda işlənmişdir (524, II c., s. 468; 208, s. 79-80, 84). Parrattarna, Parsatatar, Artatama, Artaşumara adları da e.ə. IV-III minilliklərdə prototürk adlar sistemində Partaken, Partamaziris, Parsin, Paralat, Tatar kimi türk tayfa, Artasirar, Artaq, Artıqmac, Artasir, Epartu, Metitar kimi kuti, lulubi, manna, midiya, skif şəxs adlarında işlənməkdədir (9,.I, 101; IV, 6; 208, s. 101, 147; 524 II c., s. 468, 592). Hürrü şəxs adları içərisində olan Şuttarna, Şunaşşura, Sauştatar, Şukrum Şatarmat, adlarındakı Şu sözünə qoşulan "ar"-"kişi, igid", "na"-"verdi, bağışladı", "mat/bat"-"ölkə, yurd", "us"-"zəka, ağıl", "urum/irim"-"nişanə, əlamət", "tar/tör"- "tayfa, törə, duracaq" kimi komponentlər əski türk dilindədir (52, I c., s. 666; 208, s. 75). Fikrimizcə bu sözlər elə Hürrülərin dövründə İkiçayarasının prototürk ittifaqında olan Şu türklərinə aiddir və bunlar Hürrülərlə bir ittifaqda siyasi

hadisələrə qoşulurdular. Əgər yadımıza salsaq "hürrü döyüşçülərinin hökmdarı" rütbəsini daşıyan Şu əsilli Sausadatar-Şauşşatar Aşşur və Arapxanı, Suriya və Fələstini Mitannaya tabe etdirmişdir. Şu, kuti, türükkü tayfaları Şuşarra və Şemşara ərazilərində hakim güc idilər (271, s. 255). Buradakı bütün şəxs adları da təbii ki, prototürk adları idi (-F.R). Midiya tayfa adı Struxat-Sutruxat, ərazidəki Sus şəhər adı, kaslarda və kutilərdə Şuriaş tanrı adını daşıyan Şuriaş Şato, Şutkul şəxs adları, mannada Şulsin, midyalılarda Şuma, (9, I, 101; I, 188; 208, s. 82; 524, II c., s. 284,286) kimi adlar təbii ki, təsadüfi deyil. İlimilimma, Niş Ulme-kassilərdə Ulamburiaş şəxs, Ulamxala çar adlarında, Orxon-Yenisey adlar sistemində İlbilgə, İltəriş (208, 58; 235, s. 384), və hazırda Ulam, İlım, İliman kimi adlarda işlənməkdədir. Pilliy şəxs adı qədim lulubi, türükkü və kutilərdə Pulli, Palay, Bulluk, Piliçay, Piliçtay Piliçtal, midiyalılarda İpulliya, Orxon-Yenisey adlarında Billik, Bilgə Şanun, Buluk, VI əsrdə türk kağanı Pulli xan, müasir adlarda, Pullu, Bullunaz adları kimi təkrarlanır (524, II c., s. 175,188; 212, s. 83; 235, s. 383; 208, s.123; 98, I c., I kit., s.70). Yazılardakı Anuş Xurri və Şabri- Subri-Subar şəxs adının müqayisəsinə ehtiyac duymuruq, çünki qədim türklərdə və Altay mifində Anu tanrısı və Hürrü, subar tayfa adları tədqiqatlarda geniş izah olunub. Exeya-Akay şəxs adı "uca ay" mənasında əski türklərdə, əsasən də hunlarda ay mifi ilə bağlı qədim türk adıdır və biz Doray türklərindən bəhs edərkən aşağıda bu haqda ətraflı danışacağıq. Müqayisələrdən də göründüyü kimi bu adlar ümumtürk arealında da geniş yayılmış, hazırda da türk adlarında işlənməkdədir.

Bütün bu adlar Hürrü, Subar, Kuti, Türükkü, Naxər, Lulubəy tayfalarının prototürklər olduğunu onların etnogenez baxımından eyni kökə malik olmalarından xəbər verir. Tarixi proseslərdə öz yurdları uğrunda Hürrü boylarının Hett etnoslarına qaşı apardığı mübarizələri şərh edən erməni və gürcü müəllifləri hürri boylarını "qədim gürcülər" və "qədim ermənilər" kimi tədqiqat əsərlərinə salmaları yalnız bir tarix oğurluğudur. Halbuki, mənbələr aydınca göstərir ki, o dövrlər nə erməni, nə də gürcülər tarix səhnəsində yox idilər. Hürrülər isə gök aslar (qiksoslar), mitanlar, naxərlər kassitlər, kutilər, lulubəylər, şular, şubarlar və başqa prototürklərlə eyni dildə danışmaqla eyni ittifaqda idilər.

Avropa alimlərinin mixi yazıları tərcümə etdiklərindən sonra bu

mətnlər ətrafında yenə də erməni və gürcü alimlərinin "düzəlişlərinə" rast gəlirik. Bu baxımdan biz Hürrü yazılı mətnləri ilə bağlı bəzi nümunələri misal gətirməklə onlardakı ifadələrə diqqət yetirməyi də lazım bilirik.

Avropa alimi Y.Levinin Hürrü yazılarını tərcüməsindən sonra Q.Q.Qeorqadze ona istinad edərək yuxarıda göstərilən adların və Hurama adının Hürrü dilində "hürra" sözündən yarandığını qeyd edir. O, Hett mətnlərində hürrülərlə bağlı olan Aran Hapillanni və Ulma/Ulamma dağ adlarını, Nuzi, Arip-Hurra, Anum Hirbi şəxs adlarını, Katiti tanrı adını göstərir və bu adlarda təbii ki, "gürcü dili" elementlərini axtarır (326, s. 71-168). Sadalanan bu adlarda tərəfimizdən seçilmiş adların yuxarıda ümumtürk arealında müqayisələrini verdik. Bundan başqa müəllifin Amarna lövhəsindən və qədim Hett mətnindən gətirdiyi nümunələrə də diqqət etmək və onların mənalarına qədim türk dili lüğətləri əsasında baxmaq istərdik.

LUGAL.HI.A *ša* LUGAL ERÍN.HI.A HURRİ- "цари царя войска Хурри". LUGAL ERÍN.MEŠ HUR-RI BA-ÚŠ- "царь войска Хурри скончался". (326, s. 71-168). Bu yazılarda birinci nümunəni müəllif "çarların çarı hürrü ordusu", ikinci nümunəni isə "hürrü ordusunun çarı öldü" kimi tərcümə etmişdir. Əgər birinci LUGAL. HI.A *ša* LUGAL ERÍN. HI.A HURRİ ifadəsinə diqqət etsək burada iki dəfə təkrarlanan "LUGAL" sözü "çar", yenə iki dəfə təkrarlanan HI.A sözü "ordu", HURRÜ sözü isə tayfanın adı kimi verilmişdir. Bəs ERÍN sözü nədən tərcümədə öz əksini tapmır və əgər bu türk dilindəki "əsgər", "ərən" mənalı sözlərlə eyni yazılışa və mənaya malikdirsə onda buradakı HI.A tərkibi nə anlamdadır?

Biz qeyd etdiyimiz kimi Hürrü dilinin mütəxəssisi olmasaq da sadəcə hər söz kökünün əski türk dilləri ilə müqayisə etməklə mənalarına diqqət etmək istərdik.

**LUGAL.** Bu söz qədim türk dilində sonuncu samit -n hərfi ilə LUGAN yazılmaqla qədim türk dilində "yerin Allahi" (yəni çarı-F.R.) və "Allahın bədəninin yeri" yəni " onun- çarın bədəni allahın yeridir"(-F.R.) kimi mənada işlənmişdir (37, s. 334). Bu sözə "ilkin", "ilk yer" mənalarında da rast gəlirik (64, I c., s. 347). Sözün tərkibindəki "kal" komponenti də qədim türk dillərində "ulu", "başçı" mənalarında işlənmişdir və "ağsakkal" sözündə də qalmaqdadır. Fikrimizcə dilimizdəki

"qala/kala" sözü də ululuğa işarətdir (-F.R.). Biz türk dillərində sonor-burun samitlərinin qəhrəman-gəhnaman mübarək-nübarək, gilənar-gilələr, enli-enni, şəklində l≈n, n≈m, r≈n sonor samitlərinin bir-birini əvəzləməsi hadisəsi ilə də rastlaşırıq (266, s. 86; 39, s. 991).

**ERIN/EREN.** İstər qədim, istərsə də müasir dövrümüzdə "erin/eren" sözü türk dillərində "igid", "kişi", "ərən" "döyüşçü" mənalarında işlənib (37, s. 176; 19, s. 126; 42, I c. s. 104). Bu söz günümüzdə də çuvaş dilində "arçın/erçın" (62, s. 317), Azərbaycan dilində "ərən, ərlik" və s. kimi işlənməkdədir.

**BA-ÚŠ.** Bu sözdəki birinci BA/Bİ tərkibi "Qədim türk dili lüğəti", və M.Kaşğari, V.V.Radlov, Q.Qeybullayev, E.V.Sevortyanın araşdırmalarında prototürk dillərində "kök", "nəsil", "bəy", titul kimi (bax, tusba, kaspi/bi, silbi, tatabi və s), ikinci **ÚŠ** komponenti isə "ağıl, zəka" mənalarında işlənmişdir (37, s.86; 64, I. s. 11, 85-88; 44, III c., s. 151). Bu komponentin ba:ş, pi:eş yzılışları isə şumer və qədim türklərdə "baş", "başçı", "oğul" mənalarını daşımışdır (500, s. 61; 52, I. s. 11, 87-88).

**MEŠ.** Qədim türk dili, E.V.Sevortyan və M.Kaşğarinin sözlüklərində, eləcə də tədqiqatlara istinadən tərəfimizdən aparılan bir sıra araşdırmalarımızda ortalığa çıxan elmi nəticələr bu tərkibin türk dilində olduğunu sübut edir. Qədim türk dillərinə aid bu söz "meş/moş/moz" yazılışında "sona çatmış", "ağbaş", "qoca", "mişir" yazılışında "qara qaranlıq", "qara qız", "muş" yazılışında "ağuşunu açmaq" (37, s. 346; 208, s. 54), "biş" yazılışında qədim türk dilində "işi bitmiş", "sona çatmış" (37, s. 105-106) mənalarında izah olunur. Qədim sözlüklərdə söz rus dilində zakonçennıy-"bitirilmiş, tamamlanmış, sona çatdırılmış", yəni ölmüş (-F R.), raskayanie- "ərimə", "üzülmə", "peşmanlıq" mənalarında izah olunmuşdur (49, s. 584; 58, s. 385; 59, III c., s. 44). Biz MEŠ sözünə şumer dilində "muş" yazılışında "torpaq altda yaşayan"-(ilan) mənasında (500, s. 105), altay dillərində "mej"-"yataq" "mejik"-"beşik" (64, I. s. 122) mənalarında rast gəlirik. M.Kaşğaridə Meş- kara, "qaranlıq" kimi işlənmiş meşiç uzum-"kara üzüm" kimi göstərilmişdir (42, I. c., s. 412). Bu gün dialektlərimizdə "gördüm ki "meş düşüb" yəni ölüb (-F.R.) ifadəsi ilə də qarşılaşırıq.

**HI.A.** Sözdə nöqtə işarələri nəzərə alınmazsa tərkib -L hərfi ilə birgə HIAL/HAL şəklinqə qədim şumerlərdə "sök, dağıt", "devr" mə-

nalarında (500, s. 81) qədim türklərdə "xila/hila"-"əsir edən", "hiyləgərlik" məna və yazılışlarında təsadüf olunur (37, s. 200). Bundan sonra biz h≈k səsəvəzlənməni nəzərə alsaq sözə KİA yazılışında "tutan", "yaxalayan" və "cəsur" mənalarında da təsadüf edirik (37, s. 305, 422).

Mənbələrə əsasən türk dilində olan sözlərlə Hürrü LUGAL.HI.A *ša* LUGAL ERÍN.HI.A HURRİ yazısının tərcümə mənasının müqayisəsinə diqqət edək.

LUGAL- "yerin Allahi"-çarı, HI.A- "əsir edən, tutan", "cəsur" LUGAL- "yerin Allahi"-çarı, ERÍN- "igid", "kişi", "ərən" "döyüşçü" HI.A- "əsir edən, tutan" HURRİ. İndi isə I variant "цари царя войска Хуррu" Türk Azərbaycan dilinə tərcümədə "hürrü ordusu çarlarının çarı". Tərəfimizdən aparılmış cümlə şəklinin Türk dilində ifadəsi- "Yerin Allahi, əsir edən, tutan, Hürri əsgərlərinin çarı". Cümlənin quruluşu və ifadə formasına da diqqət edək. Hər iki halda; türk dilində və rus dilində cümlə Adlıq cümlədir. Tərcümədə "erín" sözünün əlavəsi ilə alınan mənalar eynidir və türk dilində daha tamdır.

İkinci LUGAL ERÍN.MEŠ HUR-RI BA-ÚŠ- cümlənin də qədim türk dilində olan sözlərlə tərcümə mətninə diqqət edək. LUGAL- "yerin Allahi"-çarı+ ERÍN- "igid", "kişi", "ərən" "döyüşçü", + MEŠ "sona çatdırılmış", "işi bitmiş", "torpaq altda", "ərimiş", HUR-RI+ BA-ÚŠ- "HÜRRİ bəyi" , "başçı" .

İlkin olaraq yuxarıdakı kimi cümlənin rus və Azərbaycan dilində tərcüməsinə baxaq. Rus dilində "царь войска Хурри скончался". Azərbaycan dilinə tərcüməsi "Hürrü ordusunun çarı öldü". İndi bu cümlənin tərəfimizdən aparılmış tərcümə mətninə diqqət edək. "Yerin Allahi (çarı), hürri əsgərlərinin, (ərlərinin) başçısı, çarı sona çatdırılmış, işi bitmişdi-ölmüşdür" (-F.R.) Cümlənin quruluşu və ifadə vasitəsinə diqqət edək. Hər iki halda türk və rus dillərində cümlələr Nəqli cümlədir və tərcümədə "başçı" sözünün əlavəsi ilə alınan mənalar eynidir. Türk dili sözlükləri ilə tərcümədə də baş üzvləri yerində olmaqla tam cümlədir. Bütün bunlar bir təsadüfdürmü? Təbii ki, yox! Göründüyü kimi mətn yazları tamamilə qədim türk dilindədir.

Biz L.A.Qindinin "Troyan müharibəsi və axxiyava hettlərin mixi yazısı" məqaləsindən də bir parçanı oxucuların diqqətinə çatdırmaq istərdik.

TUR-an-na-aš-mu LÚ *KAR.TAP.PU A.NA*$^{GIŠ}$GI GIR// GAM-an

ti-iš-ki-iz-zi *A.NA*.ŠES.KA- iha-aš-kán *A.NA*[1] ta-uha-ka-la-uha (*A.NA*-$^{GIŠ}$GIGIR? // GAM-an ti-iš-ki-it... «...с юности (со мной) в качестве начальника царской конюшни (?) он на колесницу как обычно ступает вместе с твоим братом — с Тавакалавасом как обычно ступал» (327, s. 28). Tərcüməsi (... gənclikdən (mənimlə) çar at tövlələri sifətində (?) o, cəng arabasında adətinə görə getdi, sənin qardaşınla birgə- Tavakalavasla adətinə görə getdi).Ümumən tərcümədən də göründüyü kimi fikir anlaşılmır və mətn düzgün tərcümə olunmayıb.

Burada TUR-an- ümum türk dünyasına işarət, LÚ-"çar", KAR-"əziz sevimli", TAPPU-"xidmət" ANA-Türk tanrısının adı, GIGIR-"gedir" fel, KA- "oğul", Aka-"qardaş", kán-"kağan, xan" GAM – "qam", "şaman" və s. (41; 19; 37, s. 413, 535), zahiri bənzərlikdən çox uzaqdır. Cümlə "Anu tanrısının Turan ölkəsinin sevimli çarı özünün şöhrətli şaman qardaşı ilə atlı arabada getdi" ifadəsində bütöv bir məna kəsb etməklə tam cümlədir. O zaman təbii olaraq bir sul ortalığa çıxır. Bu yazı hansı dildədir? Qeyd-şərtsiz demək lazımdır ki, yazı əski türk dilindədir.

Hürrü tayfalarında səfirlər "sukkal" adlanmışdır. Doğrudanmı dilimizdəki "ağsakkal" sözü ilə "sukkal" təsadüfü oxşarlıqdır? Burada yalnız ağ-"uca" sözü işlənməmişdir. Bununla bərabər coğrafi adlar sistemində Nuza, Uqarti (bəzən Uqarut), Karkamiş (120, I c., s. 317-319) və digər adların tərkibində əcki "ni"- "verdi", "bağışladı" və omonim olaraq "mənim", "za/sa"- "ürək", "uq/uk"- "övlad", "varis", "oğul", "ti/di"- "tikmək, qurmaq" feli, bundan başqa sözlərdə "kar/karu"-"əziz", "sevimli", "qam"-"şaman" və "is/es"- "ağıl", "zəka" (64, I c., s. 607; 355, s. 13; 208, s. 57, 146) kimi türk sözlərinin yazılı mətnlərdə eyni mənalarda əski türk dili komponentləri kimi işlənməsi adi söz oxşarlığı ola bilməz. Qeyd edək ki, Uqarti coğrafi adındakı "uqar" tərkibi oğuzlara verilən "oqur" sözündən (302, s.13-18) heç nə ilə fərqlənmir və buradakı "ti/di"- "tikmək, qurmaq" feli də yuxarıda da qeyd etdiyimiz kimi qədim türk dillərində işlənirdi (208, s.80). Biz Nizi/Nisi coğrafi adına isə şumerlərdə qurban kəsilən Nisir dağının, Midiyada Nisay/Nisey düzənliyinin adlarında təsadüf edirik (23, VII 40; 5, s. 90).

Bu yazılardan ortalığa çıxan elmi nəticəyə diqqət etdikdə I mətndəki cümlələr, buradakı söz köklərinin Şumer və ümumtürk dilində

eynilə təkrarı, məna eyniliyi, cümlə quruluşu və ifadə formalarının müasir dil quruluşundan elə də fərqlənməməyi, eləcə də ikinci mətndən seçdiyimiz sözlərin məna çalarları bütün bunların bir təsadüf deyil, Hürrü dilinin prototürk dili olduğunun canlı sübutlarıdır.

Hürrülərin türk boyları olduğunu onların dili ilə yanaşı inancları da təsdiq edir. Bəzi mənbələr Hürrülərin çox qədim bir xalq olmaqla naməlum bir dilə mənsubluğunu qeyd edirlər. Mənbələr onların öncə Tiqir (Dəclə) çayından şərqdə məskun olduqlarını yazır. Son dövrlər Kiçik Asiya deyilən müasir Türkiyə ərazisinin Kamışlı şəhərindən 30 km. arali Çakar Bazardan e.ə. II minilliyə aid tapılan sənədlərdə Hürrülərin Urkiş, Eluxat, Naxura çarlıqlarının olduğu 542). -

**Hürrü-Kuti boylarının prototürk ittifaqında hakimiyyəti (m.ö.IV-III minilliklər)**



Tərəfimizdən ilk dəfə tərtib olunmuş bu xəritədə Hürrü boyları göstərilən bütün ərazilərin yerli-avtoxton sakinləri olmaqla yuxarıda da qeyd etdiyimiz kimi çoxsaylı ölkələri idarə etmişlər. Xəritədə öz əksini tapan və onlarla bütün tarixi proseslərdə bir olmuş prototürk boyları e.ə. VI minilliyin ortaları III minilliyin əvvəllərində Hürrü - əski prototürk dilini bu ərazilərin ünsiyyət dilinə çevirmişlər. Hürrü-prototürk dilinin Ön Asiya, Kiçik Asiya və yuxarıda qeyd etdiyimiz ölkə ərazilərində ünsiyyət dilinə çevrilməsi onların eyni kökə, mədəniyyətə və dilə aid olmaqla bu ərazilərə sahibliyinə də birmənalı sübutdur.

Tərtib etdiyimiz bu xəritədə prototürk tayfa adları və onların əraziləri antik müəlliflərin əsərləri, qaynaqlar, və bir sıra müəlliflərin elmi araşdırmalarındakı məlumat və elmi nəticələrə əsasən sıralanmışdır. Bu ərazilərin arxeoloji nümunələri, şəhər mədəniyyətinin e.ə. IV-III minilliyə aidliyi məsələləri də fikrimizin doğruluğunu sübut edən əsaslı dəlillərdən biridir. Bütün bunları nəzərə alaraq qədim Hürri türk boylarının adını özündə yaşadan qədim Naxçıvanda 26 məntəqə adı-etnooykonimin müqayisəli şəkildə etimoloji izaha cəlb etməyi istər dilimiz, istərsə də tariximiz baxımından əhəmiyyətli hesab edirik.

**Huremeşin (2 kənd).** Tədqiqatlarda Yuxarı və Aşağı Remeşin məntəqə adları "Hurilər, gözəl qadınlar yaşayan yer", "Təpəlikdə yerləşən kənd" mənalarında izah olunmuşdur (154, s. 180-181). Lakin adın qədim Hürrü türk adından formalaşdığını düşünürük. Məntəqə adı göstərilən yazılışda 1590-cı ilə aid məlumatlarda Naxçıvanın Dərəşahbuz nahiyəsində, qeydə alınır (77, s. 167). 1727-ci ilə aid digər bir mənbədə isə Naxçıvan sancağına daxil olan eyniadlı nahiyədə məntəqə adı "Hurceşin" kimi Əyrik, Kükü kəndləri arasında göstərilir (110, s. 27; 106,s. 27). Etnooykonimin hər iki yazılış variantı türk dilindədir. Lakin adın "Hurceşin" şəkilində yəni ikinci variantda düzgün olduğunu düşünürük. Məntəqə adında Hür tayfa adına qoşulan "ce/sa" qədim türk dili leksik vahidi bir çox qədim sözlük və tədqiqatlarda "sayılan", "seçilən", "sən" mənalarında (37, s. 478; 44, III c., s. 208), "şin" isə "taxt-tac", "ad-san", "şan-şöhrət" (yenə orada, III c., s. 557) mənasında etnooykonimi "Şan-şöhrətli hürlər-Hürrülər" mənasında açıqlayır.

**Hurenduz.** Naxçıvanın Sisyan nahiyəsinə daxil olan bu məntəqə adı 1728-ci ilə dair məlumatlarda qeydə alınır (77, s. 151). Bundan sonra kəndin adına biz yenə Naxçıvan sancağının Sisyan nahiyəsində

"Horenduz" yazılışında rast gəlirik (110, s. 33). Hür tayfa adına -an "mənsubluq" şəkilçisi və qədim türk dillərində "tus/duz" komponenti "düz" mənasında, "tüş" yazılışında isə "mötəbər" mənasını tərkibə qoşulmaqla (37, s. 590, 600; 210, s. 19) etnooykonimi "Hürrülərin düzü" və ya "mötəbər" Hürrülər mənasında izah edir.

**Hurevadik.** Məntəqə adı 1727-ci ilin mənbə məlumatlarında Naxçıvan sancağının Dərələyəz nahiyəsində Qaraqaya kəndi yaxınlığında eyni adda göstərilir (110, s. 35). Qeyd edək ki, bir qrup adlar siyahıya alınırkən unudulduğundan sənədlərə sonrakı illər daxil edilmişdir. Adın tərkibində "eva/ova" –"oba" sözü ilə yanaşı işlənmiş dik/dük komponenti qədim türk dillərində ədatı kimi işlənmişdir. Biz M.Kaşğaridə "dük mingğ" və "dük mingğ yarmaq" yazıları ilə rastlaşırıq ki, burada I ifadə "min arası", II ifadə isə "su qədər min para" kimi açıqlanmışdır. Elə həmin səhifədə sözün "dik" yazılışı -"dik, düz durmaq" mənalarında da işlənmişdir (42, I c., s. 334). "Qədim türk dili" lüğətində "dük" yazılışlı komponent təqribi ədat kimi verilmişdir. Fikrimizcə bu tərkib təsdiq ədatı olmaqla adı "Hürrülərin öz evi" və ya "Hürrülərin düz öz evi" mənasında açıqlayır.

**Horadiz.** Adı 1727-ci ilin mənbə məlumatlarında Naxçıvan sancağının Dərələyəz nahiyəsində göstərilir (110, s. 36). "Hürrülərin kiçik düzü" mənasında olan bu məntəqə adı –a "kiçiltmə" şəkilçisi (243, s. 221) və "düz" leksik vahidi ilə etnooykonim kimi formalaşmışdır.

**Xorni.** Etnooykonim ilk dəfə olaraq 1590-cı ilə aid arxiv məlumatlarında Naxçıvan qəzasının Dərəşahbuz nahiyəsində Külüs kəndi yaxınlığında göstərilir (77, s. 166). 1727-ci ilə aid digər bir mənbədə isə Naxçıvan sancağına daxil olan Sair Məvazi nahiyəsi daxilində ad "Horni" yazılışında təqdim olunur (110, s. 27). Türk dillərinə məxsus x≈h fonetik səsəvəzlənmə hadisəsini nəzərə alsaq (266, s. 86), eyni tərkibə malik olan bu ad Hürrü tayfa adı və qədim türk dillərində omonim kimi işlənmiş "ni"-"verdi", "vermiş" feli, və "ni"-"mənim" şəxs əvəzliyi (208, s. 80) ilə oykonim kimi sabitləşmişdir. M.Kaşğaridə bu tərkib sual sözü və ədatı kimi verilir (44, III c., s. 131, 215). Etnooykonimin "mən Hürrüəm" mənasında olduğunu düşünürük.

**Herarus.** 1590-cı ilə aid məlumatlarda Naxçıvan qəzasının Vedi nahiyəsində qeydə alınan bu etnooykonim (77, s. 173). Sonrakı mənbə məlumatlarında ada təsadüf etmirik. Ola bilsin ki, siyasi proseslərdə öz fəaliyyətini dayandırmışdır. Oykonim Hürrü tayfa adı

ilə yanaşı "ni"-"igid", "kişi" leksik vahidi və "es/us"-"zəka", ağıl qədim türk sözlərindən formalaşmışdır. Məntəqə adı "zəkalı Hürrü ərləri" mənasındadır.

**Xirik.** Hür tayfa adını özündə daşıyan bu məntəqə adı ilk dəfə 1590-cı ilə aid məlumatlarda Naxçıvan qəzasının Ağcaqala nahiyəsində Yenicə kəndi yaxınlığında qeydə alınır (77, s. 169). Daha sonra bu ada Herik yazılışında 1728-ci ilə aid arxiv sənədlərində o zaman Naxçıvan ərazisindən qoparılıb İrəvan qəzasına qatılan Şürəgəl bölgəsində Söyüdlü və Dərviş Əli kəndləri arasında göstərilir (yenə orada, s. 124). Her tayfa adına qoşulan "uk"-"övlad varis" mənalı qədim türk dili leksik vahidi (208, s. 143) məntəqə adını "Hürlərin övladı, varisi" mənasında etnooykonimə çevirmişdir.

**Hərdaz.** Horadiz məntəqə adı ilə eyni mənaya malik olan bu məntəqə heç kimin yaşamadığı kənd kimi qeydə alınmışdır. 1727-ci ilin mənbə məlumatlarında əzəli Naxçıvan ərazisi daxilində İrəvan qəzasında Sultan xaslarına daxil olan Zərzəmin nahiyəsində Salaməleyk və Bəntə kəndləri arasında rast gəlinir (İ77, s. 120). "Hürrülərin düzü" mənasında olan bu məntəqə adı "düz" leksik vahidi ilə etnooykonim kimi formalaşmışdır.

**Haratlı.** Hürrü tayfa adı və omonim olmaqla "at"- "məkan", "yer", "at"- "cəmlik" şəkilçisindən (65, s. 284; 243, s. 221) oykonim kimi formalaşmışdır. Bu ada –lı "mənsubluq" ifadə edən şəkilçinin sonradan qoşulduğunu düşünürük. Əhalisi türk Dəguli tayfasından ibarət olan bu məntəqə adına 1728-ci ilin mənbə məlumatlarında Naxçıvan ərazisinə daxil olan Karni nahiyəsində Saatlı Sabunçu və Xarni kəndləri arasında rast gəlinir (77, s. 49). Etnooykonim "Hürrülərin məkanı" mənasındadır.

**Hurtüz.** 1967-ci ilə qədər xarabalıqları Zəngəzurun Ərəfsaq və Comartı kəndləri arasında qalırdı. 1590-cı ilin məlumatlarında əhalisi olmadığında qeydə alınmamışdır. Kəndin qəbiristanlığında üstü ilan, toğan quşu, qazma üsullu insan rəsmli daşlardan tutmuş qoç daşları və ərəb dilində yazılı sinə daşları ilə zəngin idi (şəxsi müşahidə-F.R.). 1978-ci ilə qəbiristanlıq ermənilər tərəfindən ağır texnika ilə tamamilə məhv edilərək düzənlənmişdir. Hürrüt tayfa adı və üz/uz-"işıq" sözu ilə formalaşan etnooykonim "İşıqlı hürrülər" mənasında açıqlanır.

**Xordegir.** Etnooykonim 1590-cı ilə aid qaynaq məlumatlarında Naxçıvan qəzasının Zebil nahiyəsində Yenicə və Nəhiyəyi-Məşəd

kəndləri arasında qeydə alınır (77, s. 181). Biz Azərbaycan bölgələrindən Ordubad və Cəbrayıl dialektlərində xırman-"hırman", başqirt, kazax, türkmən və b. dillərdə isə "xanım", "haram", "xarab", "xərclik" kimi sözlərin "hatın", "hanım", "xaram", "harap", "harclık" kimi səsəvəzlənmələrlə (266, s. 86; 39, 309-311) işləndiyini bilirik Türk dillərinə məxsu x≈h və o≈ü səsəvəzlənmələrini nəzərə alsaq ad Hür tayfa adı, "de/di/ti"- "tikmək, qurmaq" feli, "kur/kür" "əzəmətli" sifət tərkibindən formalaşmışdır. (208, s. 80; 210, s. 24). Bu qədim leksik vahidlərdən türk dillərinə məxsus sözlərin iştirakı ilə formalaşan etnooykonim "əzəmətli hürrülərin tikdiyi" mənasında izah olunur.

**Hərkəs.** 1728-cı ilə aid arxiv sənədləri və məlumatlarında qədim Naxçıvan ərazisinin Zərzəmin nahiyəsində eyni adda 3 kənd olaraq Quzey Hərkəs, Güney Hərkəs və Hərkəs kimi qeydə alınmaqla (77, s. 120-121) bu kəndlərdə insan yaşamadığı göstərilir. Təbii ki, bu məntəqələr yaşayış məskəni kimi göstərilən tarixdən xeyli əvvəl fəaliyyət göstərmiş, sonrakı illər müharibələr nəticəsində dağıdılmışdır. Hür tayfa adından formalaşan bu oykonimlərə qoşulmuş "kəs" tərkibini M.Kaşğari "sərtlik, qatılıq" kimi izah edir. (41, s. 275). Digər mənbələrdə biz "Kəs/kas" tərkibinə e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərində "kaskey", "kaş", "kaşşu", "kassi" yazılışlarında tayfa, etnos adı kimi də rast gəlirik. Onlar tarixi proseslərdə kuti, lulubi, hürri boyları ilə birgə hadisələrə təsir etmək gücündə olmuşlar (243, s. 34-46; 120, I.c, s. 217, 299-301, 379). Etnooykonim hər iki tayfa adının daşıyıcısı olmaqla "hürri kas" mənasında da ola bilər. Bu onların ittifaqından xəbər verir və bu bir tarixi həqiqətdir. Adın bu şəkildə formalaşması ola bilsin ki, kuti hürrü, şu, sak, kuman, qıpçaq, bulqar subər ittifaqları kimi bir göstərgədir.

**Harunburun.** Son dərəcə maraqlı Hür+un+ burun kimi əski türk sözlərindən formalaşan bu ada ilk dəfə 1590-cı ilə aid arxiv sənədlərinə aid məlumatlarda Naxçıvan qəzasında, Karni nahiyəsinin Əliqırıq kəndi yaxınlığında, daha sonra isə İrəvan əyalətinin yenə həmin nahiyəsində Yengicə və Dumanlı kəndləri arasında rast gəlirik (77, s. 50, 171). Hür tayfa adına qoşulan qədim türk dillərində "un" sözü "on" sayı (61, s, 167), "un" və oğuz dillərinə məxsus -nq qovuşuq səsi ilə "unq" yazılışında "mümkün olan" mənasını daşımışdır (37, s. 612; 42, I c., s. 238, 44, III c., s. 102; 65, II c., s.597 ). Omonim kimi işlənən "burun" sözü qədim türk dillərində "öncə", "əvvəl", "başlanğıc", "burun", və "öncül", "öndə

olan" mənalarında işlənmişdir (37, s. 126; 42, I c., s. 398). O zaman etnooykonim "öncül on Hürrü" mənasındadır. Əgər "burun" sözünü Böri+un yazılışında götürsək bu tərkib türk mifində "böri" -"qurd" (243, s. 216) mənasında da işlənir. O zaman məntəqə adı "Öndəki on qurt Hürrü " mənasını daşıyır və biz adın qədim qurd mifi ilə bağlı olduğunu düşünməklə bu etimoloji mənaya üstünlük veririk.

**Hərədur.** Tayfa adı və qədim türk sözü olan "dur/tur"- "duracaq", "qala", "düşərgə", "möhkəmləndirilmiş istehkam" mənalarında işlənmişdir (37, s. 586-587). Ad tayfa adı və qədim türk sözündən formalaşmaqla "Hürrülərin qalası, düşərgəsi" mənasında etnooykonim kimi nominasiya olunmuşdur. Məntəqə adına ilk dəfə 1724-cü ilə aid arxiv məlumatlarında İrəvan əyalətinin Dərələyəz nahiyəsində, Muğanlı kəndi yaxınlığında rast gəlirik (77, s. 60). Lakin bu ad 1727-ci ilə aid məlumatlarda "Urnut" kimi yenə həmin ünvanda qeydə alınmışdır (110, s. 34).

**Qara Xorzatlı.** Hür tayfa adını daşıyan bu etnooykonim 1728-cı ilə aid arxiv sənədləri və digər məlumatlarda Naxçıvan qəzasının Şərur nahiyəsi daxilində, Hedel kəndi yaxınlığında qeydə alınır (77, s. 73). Qədim türk sözü qara-"ulu", "böyük" və s. (20-yə qədər məna) mənalara malik olmaqla Hürrü tayfa adına qoşulmuşdur. Məntəqə adında x≈h, ü≈o səsəvəzlənmələri müşahidə edilir. Adın ikinci tərkibində "zat/şat"- "zadəgan" Ulun Şad, Kür Şad adlarında da təkrarlanır (349, s. 130-131; 235, s. 385; 208, s. 124). Sözlərdəki "Şad"-"zədəgan" rütbə bildirir (409, s. 75-77). Biz türklərdə "Şad Şarri", "uca Şarra", "uca ulu ana" mənalarına da təsadüf edirik (37, s. 1, 47). Məntəqə adı "Ulu hürr şadı" mənasındadır. Etnooykonimin tərkibindəki -lı "məxsusluq, mənsubluq" şəkilçisi ada sonralardan qoşulmaqla adı "Ulu hürrü şadına məxsus" mənasında açıqlayır.

**Hərhər.** Maraqlı quruluşa malik olmaqla Hür tayfa adından formalaşan bu ada 1728-ci ilə aid arxiv sənədləri əsasında tərtib edilmiş məlumatlarda Naxçıvan qəzasının Dərələyəz nahiyəsində Soyulan və Kotanı kəndləri arasında rast gəlirik (110, s. 36). Məntəqə adında "hür/hər" (ə≈ü səsəvəzlənməsi ilə) komponentinin iki dəfə təkrarlanması tədqiqata yanaşma və etimoloji izah baxımından maraq doğurur. Fikrimizcə buradakı ikinci komponent təhrif olunmuş, h≈k, a≈ə səsəvəzlənməsi baş vermişdir. Biz türk dili dialektlərində "xəlçə-xalça, qəmiş-qamış" kimi çoxsaylı nümunələrdə (266, s. 40) bu dil hadisəsi ilə

qarşılaşırıq. Fikrimizcə ikinci tərkib qədim "kar"-" sevimli, əziz", "qar" yazılışında isə "qarışıq" mənasında qədim türk sözləridir (37, s. 422; 208, s. 146). Bunlar nəzərə alındıqda məntəqə adı "Sevimli Hürrülər" və "Qarışıq hürrülər" mənalarında açıqlanır. Biz birinci "Sevimli hürrülər" etimoloji mənanı daha doğru hesab edirik.

**Hork.** Hür tayfa adından formalaşan bu ada 1590-cı ilə aid arxiv sənədləri əsasında tərtib edilmiş məlumatlarda qədim Naxçıvan torpağı daxilində olan İrəvan qəzasının İrəvan nahiyəsində Ərinc və Ketuze kəndləri arasında rast gəlirik (77, s. 159). Bu adda -u saiti düşmüş, ü≈o səsəvəzlənməsi ilə işlənmişdir. Məntəqə adındakı "uk" tərkibi qədim türk dillərində "oğul, varis" mənalarında işlənmişdir (208, s. 143). Adı Hür+uk kimi bərpa edə bilərik. Bu tərkiblərlə ad "Hürrü övladları" mənasını daşıyır.

**Herik.** Hork məntəqə adı ilə eyni quruluşda olan və hürrü tayfa adından formalaşan bu ada 1728-ci ilə aid arxiv sənədlərində qədim Naxçıvan qəzasının Şurəgəl nahiyəsində Söyüdlü və Dərviş Əli kəndləri arasında rast gəlirik (77, s. 124). Hork məntəqə adı ilə eyni kökə malik olan bu adda e≈ü, i≈u səsəvəzlənmələri hadisəsi baş vermişdir. Etnooykonim "Hürrü övladları" mənasındadır.

**Hərkeçi.** Maraqlı quruluşa malik olmaqla Hür tayfa adından formalaşan bu ada 1590-cı ilə aid arxiv sənədlərinin verdiyi məlumatlarda Naxçıvan qəzasının Dərəşahbuz nahiyəsində Şükar kəndi yaxınlığında həm kənd, həm də yaylaq adı kimi rast gəlirik (77, s. 167). Hür tayfa adı və "ke/ku"-"şan şöhrət" leksik vahidindən formalaşan ad "Şöhrətli Hür" mənasındadır. Tərkibdəki –çı şəkilçisinin ada sonralardan əlavə olunduğunu düşünürük.

**Xuregid.** Hür tayfa adından formalaşan bu ada 1590-cı ilə aid arxiv sənədlərində Naxçıvan qəzasının Şorlut nahiyəsində Canan və Yenicəyi-Polad kəndləri arasında rast gəlirik (77, s. 180). Məntəqə adı h≈x, u≈ü, e≈ü səsəvəzlənmələri ilə Hürü+qut yazılışından Xure+gid şəklinə təhrif olunmuşdur. Tayfa adına qoşulan "gid" komponenti türk dillərində "qid" yazılışında "buraxılmış" mənasında təsadüf olunur (37, s. 440). Lakin sözün "qut" yazılışı qədim türk dillərində "qüvvə, güc", "xöşbəxtlik, rahatlıq, xöşbəxt tale" və s. mənalarında açıqlanır. Biz məntəqə adının "Qüvvətli Hürrü" mənasına üstünlük veririk.

**Hürəvan.** Bu məntəqə adına 1590-cı ilə aid arxiv sənədləri

əsasında tərtib edilmiş məlumatlarda qədim Naxçıvan qəzasının Vedi nahiyəsində Daşlıqaya və Yuxarı Çadırqan kəndləri arasında rast gəlirik (77, s. 51).Hür tayfa adından formalaşan bu adın Hürrü+van yazılışından ü≈ə səsəvəzlənməsi, -r hərfinin düşümü ilə təhrif olunduğunu düşünürük. Biz yuxarıda van komponentinin türk dillərində "uca məkan", oğuz dillərinə məxsus -nq qovuşuq səslə "vanq" yazılışında isə, bəngü "yazılı" mənaları daşıdığını qeyd etdik. Bunlar nəzərə alınmaqla məntəqə adı "Uca hürrü məkanı" mənasında açıqlanır.

**Haramlı.** Maraqlı quruluşa malik olmaqla Hürrü tayfa adından formalaşan məntəqə adı Hürrü+əm- "Mən Hürrü" adından tamamilə mənfi bir ada təhrif olunmuşdur. Təbii ki, haram olan yerdə kiminsə yaşamağı qeyri-realdır. Məntəqə adına 1728-ci ilə aid arxiv sənədlərində Naxçıvan qəzasının Sürməli nahiyəsində Ternevit kəndi yaxınlığında rast gəlirik (77, s. 63). Ad bütövlükdə tayfa adı və əski türk leksik vahidindən formalaşmışdır.

İstər mənbə məlumatları, istər siyasi hadisələrdə Hürrü boylarının ittifaqında olan tayfa etnoslar və bunların ümumilikdə sahib olduqları ərazilər istərsə də, onları adlarının coğrafi adlarda təkrarlandığı ümum areal bu tayfaların eyni kökdən gəldiyini sübut edir. Onların dil məsələsinə gəldikdə isə, bu sahəyə maraq göstərən sonralar siyasi oyunlardan formalaşmış kiçik xalqlar mətn yazılarından öz tarix və dilləri üçün yararlanmaq, istər tarixlərini, istərsə də dil tarixlərini bu aspektdən "qədimləşdirmək" istəyirlər. Təəssüflə qeyd edək ki, onlar buna qismən nail ola bilmişlər. Lakin qədim mətnlərdə sözlərin mənaları, cümlələrdə söz sırası və cümlələrin ifadə formaları, eləcə də xeyli sayda coğrafi adlar sistemində təkrarlanan oykonimik adlardakı yazıyaqədərki prototürk dili elementləri onların bir türk olduqlarını birmənalı təsdiq edir (250, s. 78-83; 251, s. 163-173).

## 7. KAS TÜRKLƏRİ

Son dövrlər tarixi keçmişi, dili və ərazisi əcnəbi "alimləri" tərəfindən daha çox təhrif olunan və bu istiqamətdə yanlış konsepsiyaların mövzusuna çevrilən, Naxçıvan ərazisində də yerli sakinlər olmuş proto Azərbaycan tayfalarından biri də, Kas boyları olmuşdur. Mənbələr və tədqiqatlar bu tayfaların e.ə. II minillikdə Mesopotamiyanın şimalında Dəclə və Fərat çaylarının yuxarı axarlarında, Diyala çayı hövzəsində,

Urmiya gölü ətrafında məskun olduqları haqda müxtəlif məlumatlar verir. Daha sonra onların e.ə. II minilliyin tarixi proseslərində iştirakını qeyd edən mənbələr onların əski türk tayfa ittifaqlarının bir qolu olması, Kas boylarının böyük güc kimi tarixi proseslərə təsiri haqqında da xeyli sayda tarixi faktlar göstərilir. Biz monoqrafiya və bir sıra məqalələrimizdə bu qədim türklərin etnogenezimizdəki yeri haqqında məlumat vermiş, eləcə də onların qolları kaspi, xəzər, qazaq boyları haqqında ətraflı danışmışıq (243, s. 34-46; 250, s. 78-83; 251, s. 163-173.). Lakin hazırda əcnəbi tədqiqatçılarının uydurmalarından dolayı onların tarixi və dilinə istiqamətlənmiş oğurluqlar və uydurmalarla bağlı, Kas türklərinin tarixinə, onların dili və ərazilərinə yenidən tarix, dil, coğrafi aspektdən yanaşmaq zərurəti yaranmışdır. Xüsusi olaraq qeyd etmək istərdik ki, ötən əsrin son onillikləri ərəfəsində Boğazköydən (Ankara yaxınlığında), Azərbaycan türklərinin kompakt şəkildə qədimdən məskun olduqları Kərkük elindən, ondan şimala doğru türklərin yenə də sıx məskun olduqları Hələbdən şərqə doğru aşkarlanan Eblait yazıları, eləcə də digər yazılar (ətraflı bax, 94) təbii ki, özlərindəki tarixi faktlarla tarixin bəzi uydurmalarının da tarix olmadığını ortalığa çıxardı. Bütün bu yeni elmi məlumatlar, eləcə də arxeologiyanın yeni elmi tapıntıları bəzi məqamlara da yeni aspektdən yanaşmaq zərurəti yaratdı. Məhz bu istiqamətdən prototürk-Azərbaycan boyları olmuş Kas türklərinin kimliyi istiqamətində müqayisəli araşdırmalarda bəzi əlavələrimizi də diqqətə çatdırmaq, fikrimizi əsaslandırmaq üçün qədim və müasir qaynaqlara bir daha diqqət etməyi məqsədəuyğun hesab edirik.

Herodot "Tarix" əsərində xeyli sayda Kasiy, Kasamb, Kaspii, Kaspatir, Kissii kimi oronim, antroponim etnonim adlarını çəkməklə bərabər, mərkəzi Zaqros dağlarının şərq silsiləsinin Kissi adlandığını bu tayfaların kassi və kaşşi, qədim mənbələrdə isə kissi və kossei kimi də tanındıqlarını qeyd edir. Onların Kserksin Elladaya hücumunda ənənəvi Midiya geyimində midiyalılarla bərabər 13 min oxçu ilə iştirakı və "zərbə qüvvəsi" olduğu da əsərdə xüsusi olaraq vurğulanır (23, VII, 62, 210).

Bu fikirlər dolayısı ilə Strabonun da yazılarında yer almış, Midiya ərazisində "Kassi ölkəsi" qeyd olunmaqla onların elam (əsərdə elim) və partagenlərlə qonşu olduğu, ərazilərinin Kaspi qapılarına qədər çatdığı, eləcə də kassi çarlarının Ekbatanda dincələnlərdən vergi aldıqları göstərilmişdir. Yalnız Makedoniyalı İsgəndərin bu xalqı silah gücünə ram

etdiyi əsərdə yer alır. Bundan başqa məlumatlarda onların İştar ilahəsi haqqında məlumat verməklə bərabər, bu ilahənin rəsmlərdə sidr ağacı ilə qoşa təsvir olunduğu da göstərilir. Müəllif, sonda bu ölkənin adını "Kosseya- balaca, kasıb ölkə" kimi etimoloji izahla təqdim edir (31, XI, XII, 4; XI, XIII, 6; XVI, I, 13, 17; XVI, I,18).

Qeyd edək ki, Kas türklərinin ərazisi, mənşəyi, dili məsələsi xeyli sayda tədqiqatların mövzusuna çevrilmişdir. Bir qrup tədqiqatçılar bu tayfa adının "kassii" şəklində ilk dəfə e.ə. II minillikdə Assur mənbələrində təsadüf edildiyini, assurlarda o dövr üçün "s" səsi və hərfinin olmadığından bu tayfa adının "kaşşu" yazıldığını, əsl həqiqətdə isə onun "kassii" olduğunu qeyd edirlər. Belə elmi fikirlərə daha çox rus tədqiqatçılarından İ.M.Dyakonovun, E.A.Qrantovskinin, M.İ.Artamanovun, L.N.Qumilyevin, Azərbaycan və Türkiyə alimlərindən İ.A.Əliyevin, B.Kamalın, A.S.Sumbatzadənin, F.Kırzıoğlunun və başqalarının əsərlərində rast gəlirik. Təbii ki, bu məsələlər Avropa alimlərinin də əsərlərində problem məsələlər kimi öz əksini tapmış xeyli sayda bir-birini təkzib edən fikirlər söylənilmişdir. Biz yeri gəldikcə onların bu tayfalar haqqında irəli sürdükləri elmi konsepsiyalar haqqında fikirlərini açıqlamağa çalışacağıq.

Rus dilində yazılmış I cild "Ümumdünya tarixi" xeyli sayda səhifələrində bu tayfanın tarixinə dair maraqlı məlumat verərək onların dağlıq ərazidə döyüşkən tayfalar kimi e.ə. II minilliyin əvvəllərində - 1741-ci ildə şimaldan gələrək Samsiulun dövründə Babilistan ölkəsinə (əsərdə Vaviloniya) basqınlarından bəhs edir. Burada kassilərin qədim kuti, lulubəy, turukku, subərlərlə bərabər 1518-ci ildə göstərilən ərazini tutaraq burada çarlıq yaratdıqları, 300 ilə qədər (1204-cü ilədək) bu ərazini idarə etdikləri haqqında da maraqlı faktlar göstərilir (120, s. 299). Lakin bütün bu faktlarla yanaşı siyasətə uyğun olaraq rus müəllifləri öz məqalə və monoqrafiyalarında onların dilinin, etnik mənsubiyyətinin hələ də aydınlaşdırılmadığını göstərmiş, kassilərin (kitabda kassitlər) ali təbəqələrinə mənsub olan torpaqların "bitu"-"ev" kimi ifadə olunduğunu, yazılı daşların "kudurru", çarların "xan" adlandığını göstərsələr də bu sözləri başqa dillərə aid etmişlər (yenə orada s. 300). Eyni fikirlərə biz digər mənbələrdə də təsadüf edirik.

Öz yazılarında bu yanlış konsepsiyalardan çıxış edən İ.A.Ladının türk dilinə aid olan kaslara məxsus sözləri təhrif etmiş, bu prototürklərin

dilini başqa yönə istiqamətləndirməyə çalışmışdır. O, kassilərin Vavilonu işğalı tarixini II minilliyin əvvəllərinə aid etməklə bu məlumatların Kassi çarı II Aqumun (e.ə. 1595-1571) yazıları ilə də təsdiq olunduğunu yazaraq, daha sonra Kas türklərində (əsərdə kassi) çar rutbəsinin "xan", "bat/bati" leksik vahidinin "ev, yurd" mənalarında olduğunu söyləsə də, bu qəbildən olan sözləri, onların çar adlarını və digər Kas sözlərini Hind - Avropa dillərinə aid etmişdir (378, s.102).

Mənbələr kassilərin akkadlar tərəfindən "kaşşu" adlandığını, dağlıq ərazidə heyvandarlıqla məşğul olub qədimdən mərkəzi Urmiya dağlarında (Zaqros) yaşadıqlarını, cins atlar yetişdirən, hərbi cəng arabaları ilə məşhur olan qudrətli ordu sahibləri kimi göstərərək döyüşçülərini insanbaşlı at kimi təsvir edirdilər. Bu məlumatda onların e.ə. XVIII əsrin II yarısında Mesopotamiyanın şimalına, XVI əsrdə isə Vavilonun süqutundan sonra cənubuna hakim olaraq paytaxt şəhərləri Terke olmaqla qədim Xanan çarlığını yaratdıqları, çarların "Xan" adlandıqları da qeyd olunur. Bu ərazidə onların hakimiyyətinin XIII əsrdə dağıdıldığı 7 ildən sonra dirçələrək Mesopotamiyanın cənubunu da ələ keçirdikləri göstərilir. Kassitlərin Vavilonda hakimiyyəti ələ alandan sonra bu dövləti evlərə-"bitulara" böldükləri, evin böyüyünün "Biti" adlandığı da məlumatlarda yer alır (318, s. 141, 237; 83, s.91; 84, I c., s. 351-369, 490-504, 562-577; 561).

Təbii ki, Kas sülaləsinin tarixi qaynaqlardakı hakimiyyət uğrunda mübarizəsi e.ə. XVIII-XVII əsrlərə aid edilsə də, onların sülalə şəklinə düşdüyü dövr e.ə. III minilliklərdən də qabağa getmişdir. Biz, bu məsələyə dair aşağıda tarixi faktlara müraciət edəcəyik.

İ.A.Ladının və Şərq tarixinə dair qaynaqların sözləri təhrifinə gəldikdə isə, fikrimizcə, burada kassilərlə bağlı "xan, bitu"-"ev", "kudurru" ifadələrinin böyük şərhə ehtiyacı yoxdur. Əgər alimlər Babilin işğalı dövründə bu leksik vahidlərin yarandığını və onların Hind - Avropa dillərinə aid olduğunu iddia edirsə, təbii ki, bunlar yanlış versiyalardır. Bildiyimiz kimi, işğallar zamanı işğalçı dövlətin dil elementləri işğal olunan xalqlara adlayır və təbii ki, bu bir tarixi prosesdir. Deməli, bu cür xeyli sayda kəlmələr başqa xalqlarda olduğu kimi Babil dilinə də türk dilindən adlamışdır ki, buradakı "xan, bitu, kudurru" ifadələri də bu prosesin nəticəsidir. Bu gün belə min illər adlamasına baxmayaraq biz a≈i səs əvəzlənməsi ilə "Bit/Bat"- "ölkə yurd" mənalı sözlərin bir

çox türk dillərində Asta+bat, Aşka+bad, Kasa+bat, Ulan+bat+ər, Ordu+bat kimi yer adlarında eyni məna daşıdığının şahidiyik. Bu gün dilimizdəki "abadanlıq", "abad" kimi sözlər də bu mənanı qorumaqdadır. Eyni halı "kud+ur+ru" sözunə də aid etmək olar. Sözun birinci "kud" yazılışında olan "qut/kut" tərkibi yuxarıda da qeyd etdiyimiz kimi "qüvvə", "güc" mənalarında işlənmiş və işlənməkdədir. Həmçinin bununla bərabər türk dillərində d≈z səsəvəzlənməsi hadisəsinin də Osmanlı türkləri və Azərbaycan dilində zərbə-"dərbə", "qadar", "qədər" sözunun başqırd dilində "kazər", "ədib" sözunun "əzip" kimi yazılışlarının da şahidi oluruq (39, s. 148, 196, 420). Bu halda "kad" sözu "kaz, qaz" kimi "qazmaq" felini təkrarlayır. Biz Şümer dilində "ur" - "qurmaq, yaratmaq" feli və bunun nəticəsi olaraq "ur+uk" -"yurd", "şəhər" mənalı sözlərlə tez-tez qarşılaşırıq (5, s. 8). Əgər fel koklərinin mənaları ümumiləşdirilərsə, o zaman "kud+ur+ru" sözü "qazıb yaratmaq, qurmaq" anlamında salnamədə göstərilən ifadələri ortalığa çıxarır. Bu tərkiblər haqqında biz aşağıda daha geniş danışacağıq. Xüsusi olaraq qeyd edək ki, hər iki söz tərkiblərinin səs dəyişimi, eləcə də areal türk dillərində yayımı, kasların prototürk tayfaları olduğuna bir elmi fakt sayıla bilər.

Son dövrlər istər rus, fars, istərsə də kurd, erməni, gürcü müəlliflərinin Azərbaycan tarixini, protoazərbaycanlıların tarixi və dilini saxtalaşdırmaq istiqamətində siyasətləri daha da fəallaşmışdır. Bildiyimiz kimi hazırda xüsusi himayə altına alınmış kicik xalqların xeyli sayda "müəllifləri" siyasi mənafedən mühafizə olunmaqla xüsusi tərtib olunmuş jurnallarda bir-birini təkzib edən tarixi faktlar uydurur və hadisələri təhrif edirlər. Əgər yadımıza salsaq, bir zamanlar E.A.Qrantovski öz yazılarında türklər haqqında qərəzli və yanlış fikirlər uydurmaqla hürritlərin lulubilər və kassilərlə bərabər dil mənşəyi etibarı ilə irandilli olduqlarını yazır, hürritlərin Qafqaz, Elam və kassi dillərinə mənsub olduğunu ehtimal edirdi (330, s. 340). Bu gün isə bu konsepsiyadan bəhrələnən bir qrup "tədqiqatçılar" birbaşa Azərbaycan tarixinə sahiblənmək siyasəti yürüdürlər. Sözün əsl mənasında geniş, hərtərəfli tədqiqatın elmi nəticəsi olmayan belə fikirlərə biz təkcə E.A.Qrantovskinin yazılarında deyil, M.N.Poqrebevanın, Q.A.Klimovun, İ.M.Artamanovun və digərlərinin əsərlərində də rast gəlirik.

Sovet ideologiyası və təbliğatından irəli gələn, yəni Cənub və Şimal Azərbaycan ərazilərində əhalinin ya irandilli, ya da Qafqazdilli

tayfalar olması kimi yanlış konsepsiyalardan çıxış edən müəlliflərin uydurmaları qədim və böyük bir xalqın tarixdəki rolunu cılızlaşdırmaq, əsasən, yox etmək siyasətinə xidmət etməkdədir. Bütün bu məsələlərə zamanında toxunan Q.Qeybullayev tariximizə, dilimizə və mənşəyimizə istiqamətləndirilmiş bu cür qondarma yazıları geniş təhlil edərək, onlara elmi dəlillər əsasında tutarlı təkziblər vermiş və uydurulmuş bu yanlış konsepsiyaların əsl mahiyyətini açıqlamışdır (208, s. 15-18).

Belə təhriflərin yayılmasına isə ilkin mənbə kimi İ.M.Dyakonovun yazıları yol açmış, məhz onun əsərləri əsas istinad mənbəyi kimi göstərilmişdir. Müəllifin yazılarında Kas/kassi tayfaları haqqında məlumatlar tam aydın deyil və xeyli mübahisəlidir. Əgər diqqət etsək, İ.M.Dyakonov kasları kassitlərdən ayrı tutub, onların məişətini, adət-ənənəsini tədqiq etmiş, kasların tarixdə adları tez-tez çəkilən kassitlərlə eyni kökdən gəldiyini söyləsə də, bu tayfanın türklərə mənsubluğu məsələsində tərəddüdlü olmuş, onların dilini Elam dil qrupu daxilində göstərmişdir (353, s. 87). Tədqiqatçı doğru olaraq kasların kassit, kaspi, elam və lulubilərlə dil, adət qohumluğunu əsas götürərək, geniş tədqiqatın nəticəsi kimi onların inanc, adət və məişətlərində biri-birini tamamladığını söyləyir. Kas tayfalarında Şikamuna, Şimaliya, Kaşşu, Dur, Harbe, Şixi, Sax-Şuriaş, Qida və başqa tanrı adlarından geniş tədqiqat aparan İ.M.Dyakonov tayfa icərisində bu adlarla şəxslərin adlandırılmasından bəhs etmiş və bəzən şəxs adlarına bu adların qoşulduğunu da qeyd etmişdir (349, s. 130-131). Təbii ki, tədqiqatçının bu istiqamətdə fikirləri doğrudur və türk dillərində teofor adların antroponimlərin nominasiyasında iştirakına dair yetərincə faktlar mövcuddur. Biz bu gün də onomastik sistemdə Tanrıqulu, Tanrıverdi, Xudakərim, Allahyar və s. teofor antroponimik adlara təsadüf edirik. Lakin bütün bunlara baxmayaraq müəllif kas və kassitlərin dillərinin fərqli olduğu qənaətində dayanmışdır (347, s. 265). Tədqiqatını bir qədər də genişləndirən müəllif, kassitləri-kasları Elam dil qrupuna mənsub edərək, iranmənşəli olduğunu elmi dəlillərlə sübut etməyə çalışmışdır. İ.M.Dyakonov atı ilk əhilləşdirənlərin də kassilər olduğunu ehtimal etməklə bərabər, onların bir qolu luriləri kürd tayfaları hesab etmiş, ərazilərini isə Urmiya gölü hövzəsində yerləşdirməklə "indiki Kürdüstan" ərazisi kimi göstərmiş, Kas çarı II Aqumun özünü Kakrama (sonda –n hərfinin səsdüşümü ilə "qəhrəman" türk sözü) adlandırmasını yazmışdır. O, bu sözü "qanlı qılınc" kimi

tərcümə etmişdir (349, s. 121-122,126).

İ.M.Dyakonovun yuxarıda verilmiş bəzi fikirləri üzərində dayanmaqla onlar haqqında fikrimizi qısaca da olsa, açıqlamağı lazım bilirik. Öncə qeyd edək ki, at kultu bütün türklərin inanclarında ayrıca yer almış, onlar göy və yer allahlarına at qurbanı kəsmişlər. Bu isə türklərdə atın özünün müqəddəs bir varlıq kimi qiymətləndirildiyini sübut edir. Doğu Anadolu, Cənub və Şimal Azərbaycan əraziləri Urmiya, o cümlədən Naxçıvan və s. bölgələrdən başlayaraq Orta Asiya və Altaya qədər kurqan tipli arxeoloji abidələrdən at dəfnləri aşkar olunmaqdadır. Bu adət kas türklərindən tutmuş skif, sak, massaget, hun, oğuz, sarmat və s. türklərdə də geniş yayılmışdır. At kultu mədəniyyətinin yalnız ümumtürk arealında bu qədər geniş yayılması atın ilk dəfə türklər tərəfindən əhilləşdirildiyini, onun bir onqon kimi türk mifologiyasındakı yerini də sübut edən tarixi faktdır. Kas türklərinin Naxçıvan ərazisində də sıx yaşadığını və qədimdən aborigen tayfalar olduğunu buradakı kurqanlardan aşkarlanan at skeletləri də sübut edir. Biz bu mövzu ilə bağlı faktlara A.P.Potopovun, Ə.İ.Novruzlu və V.B.Baxşəliyevin, eləcə də başqalarının arxeoloji araşdırmalarını əhatə edən monoqrafiyalarda rast gəlirik (208, s. 19; 229, s. 40-41; 437, s. 20; 438, s. 170).

Bəs bu qədər maddi sübutlar və tarixi məlumatlar mövcud olduğu halda, yanlış konsepsiyalar haradan qaynaqlanır? Əgər tarixi qaynaqlara diqqət etsək, bu versiyalar əsasən Avropa tədqiqatçıları Q.Huzinq, E.Hersfeld, C.Kameron, Y.Markvart, R.Fray, rus tədqiqatçıları İ.M.Dyakonov, E.A.Qrantovski, V.V.Yemelyanov və digər araşdırıcıların "təlimlərindən" qaynaqlanmış, rus tədqiqatçılarının əsərlərində isə siyasi məqsəd əsas rol oynamışdır. Təbii ki, bu yanlış nəticələrə istinad edən bir qrup müəlliflər də Kas tayfalarının heç bir tayfa ilə bağlı olmadığını yazmış, bu tayfalar haqqında verilən məlumatları bir qədər dəyişik formada təkrarlayaraq onların ərazilərini Diyala çayı axarlarında göstərməklə, kasların o ərazidə yaşayan qədim prototayfalarla genetik yaxınlığını tamamilə təkzib etmişlər (564). Lakin biz yuxarıda da tarixi mənbələrə istinadən göstərdik ki, bu tayfaların ilkin məskəni Urmiya gölündən şimalda, Qafqazın cənub yamacları, qədim Naxçıvan əraziləri olmuş, buradan onların e.ə. III-II minilliklərdə Mesopotamiya ərazilərinə yürüşləri başlanmışdır.

Qədim qaynaqlar, eləcə də bəzi araşdırmalar kasların tərəfimizdən

göstərilən ərazilərdə avtoxton-yerli sakinlər olduğunu bir daha sübut edir. Hett çarı II Tuthaliya dövrünün (e.ə. 1450-1420) siyasi hadisələrini şərh edən Stefano de Martinonun yazılarında hazırkı Malatiyanın güneyində, Doğu Anadolu ərazisində hetlərin kaşk və hürrü boylarına qarşı vuruşduğunu görürük. Burada kaşk və hürrü boyları yerli əhali olaraq göstərilir (514 s. 45). Əsərdə tarixi məqamlar açıqlanmaqla sözlərin mənşəyi məsələsi haqqında heç nə deyilməsə də, bu mövzu başqa mənbələrdə də özunə yer alır.

Əgər biz İ.M.Dyakonovun kaslar haqqında tədqiqatlarını ümumiləşdirsək yuxarıda da verilən nümunələrdən aydın göründüyü kimi burada bir-birini təkzib edən faktlarla üzləşirik. Buna baxmayaraq müəllif bəzən həqiqəti tam olaraq gizlədə bilmir. Onun tədqiqatlarında kaslar-kassitlər elam, lulubi və kaspilərlə qohumdur, eyni zamanda gəlmə olmaqla yanaşı iranmənşəlidir. Bəzən isə onlar adətlərinə görə türklərə cox yaxındır fikrində olan müəllif, "Kaslar, elamlar, kutilər, lulubilər adətlərinə və dillərinə görə qohum idi və eyni soya bənzəyirdilər", - ifadəsi ilə həqiqəti etiraf etmək məcburiyyətində qalır (347, s. 265).

Ümumiyyətlə bir məsələni xüsusi qeyd etmək istərdik ki, rus və Avropa alimlərinin "iranmənşəli" ifadəsində nəyi nəzərdə tutduqlarının tam aydın olmadığını görürük. Əgər burada alimlər fars dilinə üstünlük verirlərsə, bu dil Midiya dövründə hələ ortalığa çıxmamışdır və kaslarla fars-Parsua arasında 3 min illik zaman məsafəsi var ki, təkcə bu fakt irəli sürülmüş konsepsiyaların yanlışlığını sübut edir.

Məhz bu cür səhv fikirlərə istinad edən və rus müəlliflərinin siyasi fikirləri himayəsində olan kiçik xalqların "alimləri" bu gün Azərbaycan türklərinə aid tarixi, bu dilə məxsus sözləri mətnlərdə dəyişdirməkdə davam edirlər. V.V.Yemelyanov Mesopotamiya adətlərini şərh edərkən kasların (əsərdə kassi) e.ə. XVI-XI əsrlərdə Vavilonda hakimiyyəti ələ aldıqlarından və onları idarə etməklə bərabər bütöv Mesopotamiyanı da idarə etdiklərini yazsa da, onların dilində olan sözləri köklü şəkildə təhrif edir. O, Vavilon ərazisində kassitlərin bu dövləti "evlərə"-"bitulara" böldüklərini, evin böyüyünün "Biti-xan" adlandığını qeyd etməklə bərabər mənbədəki adları dəyişdirərək "biut rumki"-"xan evi" şəklində təqdim edir (354, s. 33). Əgər biz onun təhriflə yazdığı "rumki" -"xan evi" ifadəsinin kökünə də diqqət etsək bu komponent də qədim türklərdə "uru+um+ki"-"mənim şöhrətli evim"(-F.R.) ifadəsinə dayanmaqdadır

ki, biz bu tərkiblə qədim türk dili sözlüklərində də qarşılaşırıq. Proto-türklərdə "ur" komponenti "məskən, qurmaq" mənalarında olmuş, bu tərkibə -di şəkilçisi artırıldıqda isə, tərkib "urdi"- "məskunlaşdı", "torpağa əyildi" kimi mənalarını daşımışdır (42, I c., s. 164). Sözün "urdi" ifadəsi bəlkə də tarixdə ilkin oturaq həyat işarəsi yerində olmuşdur (-F.R.). Biz "um" komponentinin əski dilimizdə "mən" mənasını yuxarıda qeyd etdik və bu tərkibin "uri" şəklində "oğul, varis" mənasına "urim uc erti"-"mənim üç oğlum var" ifadəsində eləcə də başqa ifadələrdə rast gəlirik. "Ur" komponenti o≈u səsəvəzlənməsi ilə də eyni mənanı daşımaqla ona qoşulan xeyli sayda "ur+am/or+am" "kücə", "ur+du/or+du" –"saray", "iqamətgah", "ur+ay+ut" –"evin işığı- qadın", "ur+il+an"–"yurda övlat gətirmək" "ur+paq"- "geyim" (bədənin məskəni yurdu-F.R.) kimi sözlərdə də bu mənanı daşımışdır (42, I c., s. 138; 37, s. 370, 614). Qədim şumer mətnlərində "Ur+uk" - "yurdun oğlu", şəhər", Orxon-Yenisey yazılarında "Ur+uq"- "yurda sahib", "qəbilə", ur+un-"bayraq"-qəbilə simvolu, "Ur+qu"-"şöhrətli yer", "Ur+unq beg, Urı bəg"-"yurdun bəyi", - "Ur+unu"-"yurda məxsus", "Urunq"- "sıxılmaq, birləşmək" kimi yüzlərlə toponim, şəxs adları və fel kökləri ilə olan komponentlərdə təsadüf edirik (212, s. 48; 235, s. 381). Bu gün də biz çuvaş, başqırd dillərində "saray" sözünün "urum"-"mənim evim", "urt"- "yurd", "ku+ur+ak"- "şöhrətli uca ev", saray gözətçisinin "xeraram" adlandığını görürük (61, s. 160; 62, s. 125).

Bundan sonra V.V.Yemelyanov şər ruhlara qarşı mübarizə aparan maqların-şamanların mətndə olan Маклу/maklu-"ulu şaman" adını "Шурп/Şurp" kimi yenə də tamamilə fərqli bir söz köku ilə əvəz edərək, "Такулыпу/takulıpu" sözünü də "qonaqlıq, yeyib içmək" kimi izah edir, bunların bir türk sözləri olmadığını, bu sözlərin Vavilon dilində işləndiyini yazır (354, s. 33). O, sözləri rus dilində "pir-pirşest-vo-pirşestvovat" - "qonaqlıq", "kef etmək" kimi tərcuməsində verməklə mənaları Vavilon dilinə aid edir (60, II c., s. 462-463). Lakin müəllif azca diqqət etsəydi, bu gün də osmanlı türkcəsində "gedək bir takılak"- "kef edək", Takılıp-"kef edir" ifadələrinə rast gələrdi və bu sözlərin ta əskilərdən dilimizdə işləndiyini görərdi. Yeri gəlmişkən bir məsələni də xüsusi olaraq diqqətə çatdırmaq istərdik ki, Cənubi Mesopotamiya öncə Şümer adlandırılmış, sonra bu ərazi Şümer və Akkad adlandırılmaqla iki dövlətə parçalanmış, nəhayət e.ə. I minilliyin sonlarında bu ərazi

yunanlar və Roma tarixçiləri tərəfindən Vaviloniya adlandırılmışdır (120, I c., s. 289-291). Göründüyü kimi ərazi və etnik tərkib sabit qalmaqla burada sadəcə yer adları – dövlət adları dəyişdirilmişdir ki, bu da yerli əhalinin etnik tərkibinin dəyişməsi demək deyil. O zaman bu adlar və sözlər qədim Şümer, Akkad, Babil "dilində" olsa da belə, bunun prototürk-protoazərbaycan dilində olması danılmazdır (-F.R.).

Qaynaq və tədqiqat əsərlərində bu tayfaların tarixi, mənşəyi, dili, məskunlaşma əraziləri haqqında da müxtəlif, bir-birini təkzib edən elmi fikirlər irəli sürülmüşdür. Bu tayfa adı Kas, kaşk, kassit, kassi, kaşşu yazılışlarında ayrı-ayrı tayfalar kimi tədqiq edilmişdir. Fikrimizcə, bu sadəcə məlumatları verən, eləcə də qədim mətnləri yazan xalqların dilinə uyğun olaraq fərqli yazılışlarla qeydə alınmışdır. Alman alimləri Q.Huzinq və Fridrix Delic kassit dilinin II minillikdə Qərbi İranda yayıldığını qeyd edirlər. Müəlliflər bu dildə yüzə qədər söz kökünün, bir neçə qrammatik şəkilçinin olduğunu, onların Elam dilinə qohumluğunu, lakin bunun üçün gərəkli fakt olmadığını yazırlar (525, s. 29-38, 51-54; 208, s. 16-18).

Bu məsələ F.A.Brokauz və İ.A.Efronun "Ensiklopedik luğət"ində də öz əksini tapır. Burada tayfanın adı Vavilon dilində Kaşşu, Kissio şəklində göstərilir, bu tayfaların mənşəyinin bilinmədiyi, e.ə. XVIII yüzilliklərdə Kandaş və I Aqum dövründə Vavilonun ələ keçirilməsi, onun 400 il idarə edilməsi də qeyd olunur. Daha sonra bu yazıda onların dağlıq tayfa birliyi kimi Cənub Azərbaycanın qərbində (mənbədə müasir İranın qərbi) məskunlaşdıqları da göstərilir (560).

Rus tədqiqatçısı İ.A.İlimişin də öz araşdırmalarında Vavilonu işğal etmiş Kas çarlarının hakimiyyətdə olduğu dövrləri astronomik hesablama ilə müəyyənləşdirərək onlarının Vavilonu ələ keçirməsi tarixinin Xammurapi dövründə, e.ə. 1795-ci ildə olduğunu yazır (370, s. 113, 243).

Əgər bu araşdırmalara diqqət etsək, tədqiqatların ümumi nəticəsində kasların tarixi e.ə. II minillik, onları ərazisi, Urmiya ətrafı, Diyala çayı hövzəsi və elə o dövrdə də Vaviloniya əraziləri olmuşdur.

Bəs Azərbaycan alimlərinin yazılarında bu tayfalar necə tədqiq edilmişdir? Son dövrlər nəşr olunmuş "Azərbaycan tarixi" kitabında Kas tayfa adının kassi, kaşşi kimi Diyala çayının cənubunda turukku və lulubəylərlə qonşuluqda yaşadıqları vurğulanmaqla, onların e.ə. II minilliyin ortalarında İkiçayarasında hakimiyyətdə olduqları göstərilir.

Burada kassilərin Mesopotamiya ərazilərinə Xəzər sahillərindən gəldikləri, kassi, kissi, kossey adları ilə Urmiya ərazilərinə qədər yayıldıqları da qeyd olunur (70, s. 85). Bu məlumatlara baxmayaraq, kitabda dəqiq tarix göstərilmir.

Y.Yusifov Kas sülaləsinin (əsərdə kassi) e.ə. II minilliyin əvvəllərində Babilistanın şərqində Zaqroş dağlarında yaşadıqlarını qeyd edir. Onalrın Akkad mənbələrində kaşşu, kassi, kissi, kosay adlandıqlarını yazan müəllif, bu tayfanın bəziləri tərəfindən kaspilərlə eyniləşdirildiyini də göstərir. Daha sonra o, kasların e.ə. 1742-ci ildə Babilistana hücumunu, 1595-ci ildə isə oranı işğal edərək Kassi çarlığı yaratmaqla 1155-ci ilədək bu ölkədə hökmranlıq etdiklərinə dair tarixi faktlar göstərir. Müəllif, kas hakimiyyətinin ərazidəki 500 illik tarixi dövründə həm də Assur, İkiçayarası ölkələrə hücumları haqqında da tarixi faktlar göstərir (271, s. 104-105).

Yeri gəlmişkən Y.Yusifovun kas-kaspilər haqqında fikrinə, onların kaşşu, kassi, kissi, kosay adlandırılan Kas türklərinin kaspilər adlanmasına dair konsepsiyasına da, bəzi fikirlərimizi əlavə etmək istərdik. Öncə onu qeyd edək ki, Kaspi boylarının türk tayfası olması və türk dillərinə mənsubluğu, adın törənmə səbəbi və s. V.V. Bartold tərəfindən birmənalı olaraq kaslarla bağlanmışdır. Bu fikrə biz digər bir rus tədqiqatçısı V.V. Radlovun yazılarında da rast gəlirik (297, II c., I h., s. 662; 52, I c., I h., s. 88). Əgər yadımıza salsaq, hələ e.ə. IV-III minilliklərdə prototürklərin lulubi, subbi, kombi kimi qolları özlərinin nominasiyası-adlanmasında bi/pi-"bəy" komponentindən istifadə etmişlər (120, I c., s. 192, 311). Kaspi türkləri də məhz bu tayfaların o dövrdə bir qolu olmuş və "kas-pi"- "kas bəyi" adlanmışlar. Bu fikrin doğruluğunu sübut edən bəzi tarixi faktlara diqqət edək.

Kaspi tayfa adı Strabonun yazılarında Alban və Midiya-Atropatena ərazilərində iki əyalət kimi (31, XI 4,5, XI, 14, 5), İ.Flavi, Korneli Taçsit, Kirakos Gəncəli, M.Kalankaytuklu və başqalarının məlumatlarında isə "Kaspi torpağı", "Kaspi əyaləti", "Kasrov torpağı", "Kaspi" dəniz adı, "Kaspi qapısı" - Dərbənd, (13, I c., s. VIII, 4, 98; 18, s. 217, 254, 266). "Kaspi yolu" kimi çoxsaylı coğrafi adlarla göstərilir. Məlumatda Kaspi və Skif tayfalarının Kaspi körfəzində məskun olduqları da qeyd olunur. (21, II c., II kit., VI 33). Bu məlumatlarda Alban dövlətində sarmatların arasında kaspilərin də yaşadığı qeyd olunur.

Bütün bunlar ətraflı olaraq Qeybullayevin araşdırmalarında da elmi cəhətdən əsaslandırılmışdır. O, IX əsrdə Kartli çarlığının mənbələrində "Kaspi" tayfa adının şəhər adı kimi qeydə alındığını, 1991-ci ilədək 48 km. Tiflisdən şimal-şərqdə "Kaspi" adının rayon olduğu, mərkəzinin isə "Kaspi şəhəri" adlandığını da göstərir (324, s. 69, 190-191, 213-216). Biz kaspilərin kasların varisləri olmaqla, onlardan ilk qol kimi ayrıldıqlarını, kas türk mədəniyyətinin daşıyıcıları kimi hələ e.ə. II minillikdən belə siyasi hadisələrdə fəal iştirak etdiklərini düşünürük. Bu tarixi faktlar isə, yuxarıda da qeyd etdiyimiz kimi hazırkı Gürcüstan ərazisinin yarıdan çoxunun Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxər ölkəsinə aid olduğunu bir daha sübut edir (-F.R.).

Bu istiqamətdə geniş araşdırma aparan Q.Qeybullayev antik müəlliflərin əsərlərinə diqqət yetirməklə Pliniyin yazılarında da "Kaspi" tərkibi ilə bağlı iki keçid adını göstərməklə yanaşı adın "pi" sonluğunu "cəmlik" şəkilçisi kimi göstərir (324, s. 193; 210, s. 123, 125; 208, s. 65). A.S.Sumbatzadənin də kaspilər haqqında araşdırmaları maraq doğurur. O, e.ə. III əsrin yarısında yaşamış (e.ə. 250-200) Apollon Rodosska istinadən kaspiləri farslara yaxın ərazidə göstərir. Bu fikri e.ə. I əsrdə yaşamış Dionisi də təsdiq edir və bütün variantlarda kaspilər cox geniş ərazidə əyalətlərlə mövcud olmuşlar (457, s. 57).

Biz yuxarıda da "pi" tərkibinin e.ə. III minillikdə yaşamış Cənubi Azərbaycan ərazisindəki prototürklərin adlanmasında iştirakını qeyd etdik. Skiflərdə Traepi (221, s. 30-31), Alban dövlətində Silbi (225, s. 4-5), Peçeneq türklərində Suri Kulbey, Karabay (508, s. 91), Hun tayfalarında Syanbi (337, s. 87), göytürklərdə Tatabi, Kabay (212, s. 86-88) tayfa adlarının da sonunda "bi/pi" komponenti ilə qarşılaşırıq ki, bu şumer və qədim türk dillərində "bəy" mənasını daşıyırdı. Biz tərkibin "cəmlik" ifadə etmədiyini başqa bir monoqrafiyamızda bir qrup tayfa adlarının etimoloji təhlili ilə bağlı olaraq da göstərmişik (243, s. 34-46, 215). Qeyd edək ki, Q.Qeybullayev "bi/pi" tərkibinin "bəy" anlamında işləndiyini qeyd etsə də, bu etnos sonluqlarında "pi" tərkibini "bəy" leksik vahidi kimi qəbul etmir (210, s.18,21).

Öncəki yazılarımızda da, qeyd etdiyimiz kimi kaspilər kas-türk tayfalarından ayrılmış, bununla yanaşı, elamlar da "kaspi" dil qrupuna aid olmuşlar. Bunlar bütövlükdə , A.P.Paşuto, A.Q.Novoseltsev, V.T.Cerenin araşdırmalarında da təsdiq olunur (348, s. 23; 422, s. 41).

Xüsusi olaraq qeyd etmək istərdik ki, bu tayfaların ərazisi, mənşəyi, dili, inancı və s. haqqında daha geniş tədqiqatlara Azərbaycan alimi Firudin Ağasıoğlunun da araşdırmalarında rast gəlirik. F.Ağasıoğlu kas prototürklərinin ərazisi və dili haqqında danışmazdan əvvəl türklərin "gəlmə" konsepsiyasını elmi dəlillərlə rədd etmişdir. Öz yazılarında e.ə. III-I minilliklərdə Kas türklərini "yaxın qonşu" kimi göstərən müəllif yazır: "Urmi ətrafı bölgələrdə subar, kuman, lulu, quti, turuk, kassi (kassit) kaspi və s. xalqlar yaşayırdı. Onların qüzey batısında qafqazdilli (tərəfimizdən seciliblər -F.R.) hürri-urartular gəlib məskunlaşmışdı" (163, s.143). Daha sonra müəllif Kas dilində işlənən sözlərin və çar adlarının geniş müqayisəli təhlillərini vermiş, bu tayfaların bir türk boyu olduğuna dair tutarlı elmi dəlillər göstərmişdir (yenə orada s. 144-145). Ümumən Azərbaycan xalqının qədim yazı nümunələrinə, etnosların tarixi və mənşəyi, ərazisi və inanclarına dair qiymətli əsərlər müəllifi F.Ağasıoğlunun yazısında seçilmiş ifadələr fikrimizcə, bir qədər dolaşıqlıq yaradır. Bu tayfaların sadalanan tayfalar ilə mənşə dil və ərazi baxımından eyni kökə malik olması barədə yetərincə elmi faktlar mövcuddur. Kasların kaspilərlə eyniliyi məsələsi, onların elam, hürrit, kuti, lulubəy, turukku boyları ilə inanc, məişət ortaqlığı və adların yalnız cüzi səs fərqləri ilə təkrarı (271, s. 104-105; 120, I c., s. 299-302; 208, s. 57-61) bu tayfaların prototürklər olduğunu və eyni kökdən gəldiyini, ayrı-ayrı xalqlar olmadığını ortalığa qoyur.

Əgər xatırlasaq, Azərbaycan xalqının etnogenezi məsələsini geniş araşdıran Q.Qeybullayev kasları şumer, kuti və lulubəylərdən sonra istər cənub, istərsə də şimal bölgələrimizdə ən qədim türk tayfası hesab etməklə yanaşı, onların e.ə. II minillikdə fəaliyyətdə olduğuna dair yetərincə faktlar göstərmişdir. Onun istinad etdiyi amillərdən biri də kaslardakı Ulamburiaş, Burna-Buriaş, Kandaş, Kadaşman, Kareintaş və s. kimi şəxs adları idi. Bu adların geniş etimologiyasını verən tədqiqatçı sözlərdəki arxaik komponentləri daha qədimə aid edərək kasların e.ə. III minillikdə fəaliyyətdə olduğunu da ehtimal etmişdir (208, s. 58,59). Öz tədqiqatlarını genişləndirən müəllif, kaslarda adlar sisteminə və buradakı dil məsələlərinə geniş toxunmaqla, onlarda antroponimik-şəxs adlarının əsasən elam, hürrit, kuti, lulubəy və kassilərdə səs fərqi ilə qeydə alınan Kuri-Kiur, Burnaş, Harbe, Mirizir, Kaşşu, Sax, Qidar, Dur və b. teofor adlar - türk tanrı adlarından yaranmasına

dair faktlar göstərmişdir. Bu fakta istinad edən müəllif, Şaqaraktu-Şuriaş, Kuriqalzu, Harbaşipak, Kudur-Enlil kimi adların belə adlara aidliyini əski, türk dili elementləri və tarixi dəlillərlə sübut etmişdir (yenə orada, s. 57-61).

Biz kas türkləri haqqında bəzi fikirlərə türk araşdırıcılarının yazılarında da təsadüf edirik. Kas tayfalarının e.ə. I minillikdə Azərbaycan ərazilərində mövcudluğu məsələsinə toxunan Balkan Kamal onların miqrasiya-köçetmə nəticəsində Mərkəzi Asiyadan ərazilərimizə gəlməsi konsepsiyasından çıxış edir. O, Urmiya və Van gölü ətrafına, On Asiyanın bir çox ərazilərinə, o cümlədən, Kars bölgəsinə bu tayfaların gəlişlərini və bu ərazidə məskunlaşmanı miqrasiya ilə izah edir (505, XII c., s. 48). Buna bənzər fikirlər F. Kırzıoğlunun da yazılarında öz əksini tapmışdır (511, I c., s. 37-39). Təbii ki, bu fikirlər yanlışdır və biz kasların göstərilən ərazilərdə avtoxton sakinlər olmasına dair aşağıda ətraflı danışacağıq.

Qeyd edək ki, doğu Anadolu ərazisindəki qaya yazıları və arxeoloji araşdırmaların nəticələrinə əsaslanan araşdırmalarda Assur çarı Tikultu Ninurtaya aid yazılar (e.ə. 1244-1208) çarın geniş Subər ölkəsi eləcə də Alzi, Nihani, Alaya, Tepirzu, Purulimzi ölkələri ilə yanaşı Kassit kralı Kastilaşı da özunə tabe etdiyini göstərir (519, s.18-19).

Bu fikirləri rus dilində yazılmış "Ümumdünya tarixi" tamamilə təkzib edir. Buradakı məlumatlarda biz istər kassiləri, istərsə də kasskeyləri e.ə. III-II minilliklərdə Urmiya gölü ətrafında, Arazboyu axarlarda, o cümlədən də qədim Naxçıvan torpaqlarında, bununla bərabər Kiçik Asiya-Doğu Anadolu bölgəsi və Qara dəniz sahillərində yayıldığını görürük (120, I c., s. 216, 317). Bu isə kiçik bir krallıq deyil, böyük bir gücün tarixi hadisələrdəki yeridir.

Bundan başqa bir qrup türk tarixçilərinin əsərlərində, o cümlədən də Ali Dincolun yazılarında da biz e.ə. II minillikdə Kas boylarını Doğu Anadolu ərazisində görürük. Müəllif, e.ə. XIII yüzillikdə Hett krallığının gücləndiyini və Kaşk ölkəsinin müqəddəs şəhəri Neriki işğal etdiyini yazır (498, s. 44). Müəllif, bu yazıda onların ölkəsi haqqında məlumat versə də, kasların dili, prototürk tayfaları ilə əlaqəsi və s. haqqında heç bir bilgi vermir.

Əgər əcnəbi, eləcə də Azərbaycan və türk araşdırıcılarının əsərlərində yekun nəticələrə diqqət etsək, burada kaslar əsasən e.ə. III-II minillikdə

tarix səhnəsində olmuş, onlar II minilliyin əvvəllərində Qafqazın cənub yamaclarından, Urmiya dağlarından Mesopotamiya ərazilərinə yayılmışlar. Bu məlumatlar dolayısı ilə kasların kuti, lulubəy, turukku, hürrü, koman, şu, subar, kaskeylərlə eyni kökə, inanca malik tayfalar olduğunu da vurğulayır. Onlar sadalanan bütün bu prototürklərlə bəzən "qohum", bəzən "yaxın", bəzən isə "eyni kökə", inanca malik tayfalar kimi təqdim olunurlar.

Yuxarıda istinad etdiyimiz araşdırmaların nəticələrindən də göründüyü kimi Kas tayfalarının dili məsələsi mübahisəli və tam təsdiq olunmamış məsələlərdəndir. Əgər diqqət etsək onların dil məsələsi əcnəbi araşdırıcıları, o cümlədən də yuxarıda da qeyd etdiyimiz kimi Avropa tədqiqatçılarının əsərlərində tədqiqat obyektinə çevrilmiş, lakin qəti fikir söylənilmədən bu məsələ ziddiyyətli elmi nəticələrdə öz əksini tapmışdır (324, s. 25). Təbii ki, bu tədqiqatlara müraciət edən alimlərin də kasların dili haqqında fikirləri müxtəlif olmuş, irəli sürülmüş elmi nəticələrin məğzi də məhz e.ə. II minillikdə Cənubi Azərbaycan ərazisində və Qafqazda kasların yaşamasından, onların "Zaqro-Elam" və ya "Kaspi" dil ailəsinə mənsub olmasından ibarət olmuşdur (284, s. 70, 72, 79, 85). Beləliklə də əldə olunan yanlış konsepsiyalar heç bir tarixi fakta və elmi mənbəyə istinad olunmadan İ.M.Dyakonov, E.A.Qrantovski, eləcə də M.N.Poqrebeva, Y.A.Manandyan Q.A.Klimov, İ.M.Artamanov, kimi tədqiqatçıların əsərlərində təkrarlanmış, yanlış konsepsiyalar imkan yaratmışdır (245, s. 10-15).

Əgər Avropa alimlərinin əsərlərində keçmiş sovetlər birliyindəki xalqların tarixi rus tarixindən qabarıq verilməklə bu qurumun dağıdılmasına xidmət edirdisə, keçmiş SSRİ dövlətində etniklərin tarixi qabardılmaqla, işğal altında olan xalqları münaqişə vəziyyətində saxlayıb idarəetmə siyasəti güdülürdü. Məhz əcnəbi alimlərinin bu cür səthi araşdırmalarındakı fərqli konsepsiyalar, daha doğrusu uydurmalar daha sonralar siyasi məqsəd güdən rus, fars, erməni, gürcü, kürd "tarixçilərinin" əsərlərində qabarıq şəkildə ortalığa çıxmağa başlamışdır. Təbii ki "qədim tarix yaratmaq" ideyasından çıxış edən Q.A.Kapansyan, Y.A.Manandyan, S.T.Yeremyan, Z.Qorqudyan və s. erməni müəllifləri milli məqsəd baxımından əski ərazilərimizə, prototürk tarixi və dilinə, o cümlədən də Kas türklərinin tarixinə siyasi məqsəddən yanaşmışlar. Q.A.Kapansyan öz yazılarında digər tayfalarımızla bərabər kaşk və kassitləri də fərqli

tayfalar kimi göstərmiş, lakin onların arasında bəzi əlaqələrin olduğunu yazmışdır (366, s.132-136).

Təkcə son dövrlər Moskvada mərkəzləşən və Rusiyanın xüsusi himayəsində olan Yazıki mira - "Dünya dilləri" və Drujba-"Dostani" jurnalları Azərbaycan tarixini və dilini saxtalaşdırmağa xidmət etməkdədir. Əgər jurnalın adına diqqət etsək, başqırd, çuvaş, türkmən, uyğur, qırğız, özbək və s. türk dillərində "tus", "dus", "döst", "dos", "duç" və s. yazılışlarla işlənən "dost" sözü (61, s.187; 62, s.154; 39, s. 24-25) kürdləşdirilərək "Dostani" şəklində kürd sözü kimi təqdim olunmuşdur. Moskvanın xüsusi "qayğısı" altında nəşr olunan bu jurnal qeyri-millətlərin tariximiz və dilimiz haqqında təxribat dolu yazıları ilə yayımlanmaqdadır.

Burada kürd müəllifi L.Məmmədin kas prototürkləri haqqındakı "Karduena- kolıbel kyurdskoqo naroda" - Karduena kürdlərin vətənidir" məqaləsində e.ə. V-III minilliklərdəki Kuti, Lulubəy, Hurri, Subər, Kas, eləcə də Midya tayfası Partagen, Şirak prototürkləri kurd tayfaları kimi təqdim edilir. Müəllif, bununla kifayətlənməyərək qədim Midiya dövlətimizin paytaxt şəhəri Ekbatanı, eləcə də Şiraz, İsfahan ərazilərini kürdlərə aid Luristan kimi göstərilməklə bərabər, Kas tayfalarına məxsus çar adları, inancları, türklərə məxsus olan "Xıdır Nəbi" bayramına belə sahiblənməklə, Kaspi qapısına qədər ərazilərimizi kürdlərin torpaqları kimi təqdim edir və kasların öz ərazilərini "strana Karda- Kurd ölkəsi" adlandırdığını göstərir (386, s. 70-71). Bununla kifayətlənməyən müəllif daha bir məqaləsində qədim torpaqlarımız olan türk yurdları Bəsrə, Bağdad ellərini kürd elləri, Kərkük şəhərini isə kürdlərin paytaxt şəhəri kimi göstərməklə bərabər, dahi Azərbaycan şairi M.Füzulinin də kürd olması haqqında uydurmalara əl atır (388, s. 65). Əgər diqqət etsək müəllif ermənilərin ilkin tarix oğurlamaq cəhdlərini təkrarlayaraq Q.A.Kapansyanın "Hayasa kolıbel Armyan-Hayasa ermənilərin beşiyi" əsərinin "Korduena kolıbel kyurdskoqo naroda"-"Korduena kürd xalqını beşiyi" variantında erməni oyunbazlığını təkrarlayır.

Kas dilini araşdıran P.V.İosad kas sözünün eyni adlı etnosdan gəldiyini və Akkad dilində bu adın "kaššū", orta Vavilon cağında "kuuš-šu, kunšu" yazılışları ilə qarşılaşdığını yazmaqla, onun yunan dilində Κοσσαίοι, latın dilində isə (Cossa)ei, Cossaiaei kimi yazıldığını göstərir. Daha sonra o, Kas prototürklərinə aid mətnlərdə G/Kal' kökünə rast

gəlindiyini, bu tərkibin "galzu, galdu" formalarında söz və adları formalaşdırdığını yazaraq mənşəyinin isə bəlli olmadığını qeyd edir (363, s. 184-187).

Elə həmin jurnalda M.L.Xacikyanın 4 "məqaləsi" az qala bütöv Mesopotamiya dilləri- elam, hürrit, urartu dillərini "araşdırmış", onları ermənileşdirməklə bura digər prototürklərin dillərini də əlavə etmiş, heç bir elmi əsası olmayan "yeni elmi fikirlər" irəli sürmüşdür (477, s. 95-168). A.S.Kaziyan adlı digər bir erməni müəllifi isə Hett yazılarını yenə bu siyasi motivdən təhlil etmişdir (364, s. 168-184). Bununla kifayətlənməyən erməni müəllifləri özlərindən əvvəl bir neçə rus müəlliflərinin də adlarını da məqalə başlığına əlavə etməklə Dəclə Fəratın yuxarı axarlarında prototürklərə aid qədim mixi yazıları təhrif etməyə çalışmışlar (374, s. 197-223). Əgər diqqətlə izləsək 233 səhifəlik bir "İSBN kodlu "elmi" jurnalın 119 səhifəsi 2 erməni müəllifinin uydurmalarına, qalmış 113 səhifəsi isə 7 müəllifin yazılarına həsr edilmişdir. Heç şübhə yox ki, bu faktlar jurnalın siyasi oyunbazlığa xidmətini ortalığa çıxarır.

Ümumiyyətlə, tarixə yeni bir fakt gətirmədən öz uydurmalarını dünyaya yaymağa çalışan erməni "alimləri" haqqında Musa Mərcanlı geniş tarixi faktlara müraciət etməklə, onların yazdığı tarixin, dil, mədəniyyətlərinin necə oğurluqla əldə olunmasına dair xeyli sayda tarixi faktlara söykənməklə geniş elmi şərhlər vermişdir (395, s. 38-39, 89).

Əgər İ.M.Dyakonov, ondan bəhrələnən E.A.Qrantovski, M.N.Poqrebeva, P.V.İosod, Q.A.Klimov və başqalarının da yazılarına diqqət edərək fikirləri ümumiləşdirsək, burada adların rütbə bildirən sözlərin, mətnlərin oxunuşu zamanı qəsdən aparılan təhriflər və yanlış izahlar təbii ki, bu problem ətrafında dolaşıqlıq yaratmışdır. Bu amilləri nəzərə alsaq yuxarıda göstərdiyimiz araşdırma nəticələrinin və bütün tədqiqat materiallarının əsas qayəsi kasların "irandilli" olmasını və bu əraziyə e.ə. II minilliyin ortalarında "gəlməsini" isbatlamaqdır. Bütün bunlara baxmayaraq Azərbaycan dilçi alimləri, tarixçilər göstərilən yanlış fikirlərə və uydurma konsepsiyalara öz elmi məqalə və monoqrafiyaları ilə, tutarlı təkziblər verməklə gərəkli tarixi faktlar göstərmişlər. Göstərilən tarixi dəlilləri ümumiləşdirərək qeyd edə bilərik ki, istər Y.Yusifovun əsərlərində bu istiqamətdə təkzibolunmaz tarixi faktlar və müəllifin qəti fikirləri, istər Q.Qeybullayevin, F.Ağasıoğlunun bu tayfaların tarixi və dili haqqındakı dəyərli elmi araşdırmaları, istərsə də İ.Əliyev,

A.S.Sumbatzadə və digər alimlərimizin tədqiqatlarındakı belə tarixi faktlar yeni elmi nəticələr ortalığa çıxarmağa və yeni fikir söyləməyə əsas verir.

Bəs bu qədər tədqiqat obyektinə çevrilmiş Kas tayfa adındakı "kas" sözünün mənası nə ilə bağlıdır?

Qeyd etdiyimiz kimi Kas tayfa adının etimologiyası göstərilmiş araşdırmaların nəticələrində "kassi, kaşşu, kossei, kassit" və s. yazılışlarda izah olunsa da, biz burada sabit kökün kas/kaş kimi qaldığını görürük. Əgər diqqət etsək, "kas/ş" tərkibindən sonra gələn -şu, -sei, -sit, -si komponentləri şəkilçilər olmaqla müxtəlif dillərin söz sonluqlarıdır ki, müəyyən fonetik dəyişikliklərlə işlənməklə, o dövr bu tayfaları öz salnamələrində qeyd edən xalqın dil imkanları hesabına "kas" tərkibinə qoşulmuşdur. Kök isə sabit olaraq "kas/ş" tərkibindən formalaşmışdır. Bəs bu tərkib araşdırıcılar tərəfindən necə izah olunmuşdur. Yuxarıda da qeyd etdiyimiz kimi tayfa adı "kaş, kiş, koş" kimi qeydə alınsa da onlar "kassitlər" kimi qəbul edilmişdir. Kəşmir şəhəri sakinləri öz ölkələrini Kaşir adlandırmaqla (diqqət edək kas+ər, sav+ər/ir, sub+ər, dög+ər və s.-F.R.) dillərinin də "koşur dili" olduğunu qeyd edirlər (562; 86, s.125, 192, 266).

Əgər diqqət etsək, qədim və müasir türk ərazilərində kaş/kas tərkibli Kaşqar, Kaşan, Kaskalen, Kaşband, Kasbat, Kasan, Kasur, Kaşmar kimi təkcə çoxsaylı şəhər adı ilə qarşılaşırıq ki, bunların əksəri Urmiya, Türkmənistan, Qazaxıstan və b ərazilərlə yanaşı Naxçıvan ərazisindəki oykonimik sistemdə də qeydə alınır (103, s. 58-59, 116-117; 77; 110). Sözün etimoloji izahına gəldikdə isə biz bu tərkibə türk dillərində bir çox mənaları ilə yanaşı "kaş"-"ləkəsiz ağ", "keş"- "parıltılı qızıl ox qabı", "qaş"- "işıq, şüa" mənalarında da rast gəlirik (44, III c., s. 152, 224; 37, s. 303, 431). Burada "parıltılı", "işıq, şüa" mənalarının daşıdığı "kaş, keş, qaş" yazılışlı söz kökünə Kas türklərində Kaşşu "işıq allahı" tanrı adında da rast gəlirik (208, s. 62; 349, s.130-131). Bu tanrı adının etimoloji izahı verilməyib. Biz onun günəşə işarə anlamında "işıq" mənası daşıdığını düşünürük (-F.R.). Əgər yadımıza salsaq istər elamlarda, istərsə də Kas türklərində dakaş -"ulduz" mənasında idi. Ulduz da parlaq və işıqlıdır. "Dakaş" sözünün tərkibindəki "da/ta" tərkibi isə qədim türklərdə "insaf, xeyirxah, yaxşı" mənalarında da işlənir (37, s.158). O zaman Dakaş- "zərər verməyən, xeyirxah işıq"

anlamına gəlir. Biz türk dillərində "ta" sözünün – n samiti ilə "tan" yazılışında "dan yeri" mənasında da işləndiyini görürük (208, s. 62). Bu da işıqlanma ilə bağlı işlənən sözdür. Bu gün dilimizdəki köz-parıltılı od, günəş-Koyaş, sözlərinin də bu tərkibdən gəlməsi şübhə doğurmur. Biz kaslardakı Kaşşu/Koyaş tanrı adının "xeyirxah işıq" mənasında olduğunu və tayfa adının da bu tanrı adından gəldiyini düşünürük (- F.R.).

Bildiyimiz kimi N.Y.Maarın yazılarında qədim tayfa etnoslar əsasən gürcü dili ilə müqayisəli tədqiq edilib və müəllif kas türkləri ilə bağlı fikirlərində də bu konsepsiyadan çıxış edib. O, Kas türklərinin adının yazılış formalarını (əsərdə kassitov, kosseev, kussiev) gürcü sözü "kaci" ilə eyniləşdirərək sözü gürcü dilində "qul" və "kəndli" mənalarında izah edir. Bundan sonra müəllif "buri"-"hökmdar" (sa-burveli), Harbe tanrı adını "öküz" (xari), Gidar döyüş tanrısının adını "əlbəyaxa" (icid), "dakaş" -"ulduz" (gigi-goy), Sah günəş tanrısı adını (sicxe-qızmar, "cx-eli" -isti), "kukla" -"qul" sözünü (qlexi-"qul") sözlərini də gürcü sözləri ilə izah edərək onların bu dildə olduğunu sübut etməyə çalışıb (396, V c., s. 156, 430, 465). Nümunələrdən də göründüyü kimi mötərizələrdəki seçilmiş gürcü sözləri kaslarda işlənən nümunə kimi verilmiş sözlərdən (qədim türk sözlərindən,- F.R) tamamilə fərqli köklərə malikdir və bunun bir yamaq olduğu da göz önündədir.

Öncə qeyd edək ki, N.Y.Maarın etimoloji izaha cəlb etdiyi bütün sözlərin, eləcə də kaslara məxsus çar və tanrı adlarının demək olar ki, xeyli hissəsi qeyd etdiyimiz kimi Azərbaycan alimləri tərəfindən qədim türk dilləri lüğətləri, dastan və miflərdə arxaikləşmiş sözlər əsasında türk dillərində olduğuna dair əsaslı elmi faktlar göstərilmişdir. Bir qrup çar adlarının isə etimoloji izahları verilməsə də, bu adlara diqqət edən hər bir mütəxəssis, onların türk dili elementləri hesabına formalaşdıqlarını asanlıqla görə bilər. İndiyədək mənaları tədqiq edilməmiş və tərəfimizdən ilk dəfə etimoloji izahları verilən aşağıdakı Kas çarlarının da adları qədim türk dilindədir. Bunu türk dili lüğətləri və qədim qaynaqlardakı mətnlər də təsdiq edir. Fikrimizi əsaslandırmaq üçün adların etimoloji izahlarına diqqət edək.

**I Böyük Aqum** (e.ə. 1726-1704-cü illər). Bu adda kaslarda 3 çar adı qeydə alınır. Türk dillərində "aqım" "ucalmış", "yüksəlmiş" mənalarında işlənmişdir (42, I c., s. 9). Adın etimoloji izahı onu "mən ucayam" mənasında açıqlayır.

**I Kaştiliaş** (e.ə. 1704-1683-cü illər). Mənbələr bu adda 2 çar adını göstərir. Bu çar adını iltisaqi dil formasında kas-til-as kimi hissələrə bölən F.Ağasıoğlu sözün etimologiyasına toxunmamışdır (163, s. 12-17). Lakin biz türk dillərində yuxarıda da qeyd etdiyimiz kaş-"xeyirli işıq", til/tal-"budaq, qol-varis" sözlərindən başqa şümerlərdə as-"bir", qədim türklərdə isə "qüvvətli" və tayfa adı mənalarına da rast gəlirik (212, s. 79). Çar adındakı kaş tərkibindən başqa qalan komponentlər Orxon-Yenisey yazılarında Aza Tutuk, Azğanaz, Az, Tolmış, Toliş Tirik Talakım, Taluy (235, s. 383-389) kimi şəxs (antroponim), çay (hidronim) və tayfa (etnonim) adlarında təkrarlanır. Biz Göytürk boylarında Tilias/talas, Tolus (212, s. 98-108), Avar hunlarında Talan, Tolu, Peçeneq türklərində Boru Tolmac (508, s. 91) kimi tayfa adlarında da bu tərkiblərin eyni məna daşıdığını görürük. Ad qədim türk leksik vahidləri ilə "xeyirli işığın qüvvətli varisi" mənasında açıqlanır.

**Nazi-Buqaş** (e.ə. 1346-1346-cı illər). Çar adının ilk komponenti Nazi a≈o, z≈s fonetik hadisəsi ilə qədim türk dillərində "nosi" yazılışında "əbədiyyət, ölməzlik iksiri" (37, s. 361), "nizi" şəklində "aşağı yer" mənalarında işlənmiş, -n hərfi olmadan isə "izi" tərkibi ilə türklərdə "issi", tuva dilində "iziq", altayca "uzu", uyğurca "izik", dilimizdə "isti" və s. yazılışlarında işıq, od ifadə edir (208, s. 77). Adın ikinci "buqaş" tərkibinə isə türk şəxs adlarında monqollarda Esen Buqa, göy-türklərdə Bars Buqa, Buğak Tutuk, "Dədə Qorqud"da Buğac (235, s. 383; 19, s. 132), Ər Buğa, Aq Buqa və s. adlarda təsadüf edirik. Əgər sözu Buq+as yazılışında götürsək belə, yenə də qədim türk dillərində buqa-"bahadır", "qüvvətli, əyən, sındıran", "igid" mənaları ilə qarşılaşırıq (37, s. 116, 125). Ad istənilən formada türk dilində "Əbədi güclü işıq" və ya "əbədi qüvvətli bahadır" mənalarındadır.

**Uşşu.** Mənbələr bu çarın hakimiyyət dövrü haqqında məlumat vermir. Yuxarıda qeyd etdiyimiz "issi", "iziq", "uzu", və s. yazılışlı "işıq, od" sözü ilə eyni kökdəndir. Biz türk adlar sistemində Bütöv Azərbaycan türklərində Odər, Elgün Oday, Odatay, Odkut kimi şəxs adlarına rast gəlirik (524, II c., s. 125-130) ki, bu adların formalaşmasında da qədim türk mifik təfəkkürünün izləri qalmaqdadır.

**Atra.** Bu çar adının da hakimiyyət dövrü bəlli deyil. Ad "adra" yazılışında "Adra atliy biliq", yəni "seçib ayıran, fərqləndirən" (37, s. 13), bir sözlə "ayıq adam" mənasında tam əski türk dilindədir. Biz e.ə.

IV əsrdə Atropatena hakimi Atropat adında (349, s. 260-262), Adar, Adra şəxs adlarında da (524, II c., s. 120) bu ada təsadüf edirik.

**Kxarbaşikxi.** Bu adın çarlıq dövrü təqribən e.ə. II minilliyin ortalarına aid edilsə də, dəqiq tarix məlum deyil. Fikrimizcə, bu çar adı "kxar+baş+uk+ki/u" komponentlərindən formalaşmışdır. Birinci tərkib "kar" komponentinə x≈h səsinin sonralar artırıldığını düşünürük. Bu hərfin sözlərə artırılmasını M.Kaşğari başqa dil (hind dili) təsiri olaraq dəyərləndirir (266, s.101). "Kar" komponentinin məna çalarına gəldikdə isə bu tərkib əski türklər və əski monqol türklərinin dillərində "əziz", "sevimli" mənalarında işlənmişdir (208, s. 146). Leksik komponentə həm də qədim oğuzlarda "həmişəlik, əbədi durmaq", "daşmaq" mənalarında təsadüf edirik (42, I c., s. 432; 43, II c, s.. 197; 44, III c., s. 182). İkinci "baş" komponentinə türk dillərində "sultan", "baş", "uca", "hakim" və s. mənalarda (37, s. 86 ), ayrıca başik/başak yazılışında isə "oxçu", "ox ucu" mənalarında da rast gəlirik (42, I c., s. 378; 43, II c., s. 220). Son "ki/xi"- "şöhrətli" sözünü nəzərə almaqla ad "Şöhrətli, sevimli sultan" mənasını daşıyır. Əski türk şəxs adlarında biz bu komponentləri daşıyan Karabaş, Karabay, Karabuğra, Başalıq, Basmancu, Başğu, Toğan Tutuk, Ku Cakul və s. adlarda eyni mənada təsadüf edirik (524, II c., s. 157, 739; 235, s. 383-384).

**Adad-şum-ucur** (e.ə. təqribən 1219-1188-ci illər). Adın ilk tərkibi "ada" komponentinə qədim türk dillərində "təhlükə", "bədbəxtlik" mənalarında rast gəlirik (37, s.7). Lakin biz sözdə a=d səslərinin yerdəyişməsi hadisəsinin baş verdiyini düşünürük. Fikrimizcə söz "dada" şəklində bərpa olunmalıdır. Bu isə qədim türklərdə "ulu", "ağsaqqal", "müdrik" mənalarında işlənmiş və Dədə Qorqud adında da bu mənanı daşımışdır. Ustadlara "dədə" titulu ilə müraciət son dövrlərə qədər qalmaqdadır. Oğuzlarda dede-"baba" mənası da geniş işlək söz olmuşdur (44, III c., s. 220). Bu tərkiblə bağlı Q.Qeybullayev türklərdə Daday, Datan, Dədə bəy kimi xeyli tarixi şəxsiyyət adını nümunə göstərmişdir (208, s. 51, 103). Bu cür düşünməyimizin bir səbəbi də adı formalaşdıran qalan hər iki komponentin türk dilində olmasıdır. Adın ikinci "şum" tərkibindən -a saitinin düşdüyünu-eleziyasını görürük. Əgər yadımıza salsaq şumer, akkadlarda "şu"-"məxsus", Uma isə ilahənin adı idi və tərkib "Uma ilahəsinə məxsus" mənasındadır. Qaynaqlar şumerlərdə "sum-şam-sam" tərkibli Sumukan, Şamxat şəxs adlarına, Şamaş –"su tanrısı" adından

məlumat verir. Biz Midiya adlar sistemində Şuma şəxs adına da təsadüf edirik (5, s. 12, 78; 330, s, 138). Adın son "ucur" komponenti, qədim kaslarda Mirizir "İldırım Allahı"nın adında təsadüf edirik. Q.Qeybullayev "oçir-osir" sözünü "ildırım şəxs" kimi izah etmişdir. Bu tərkibi biz qədim türk adlarından Manqacur, Bayancur, İmaducur, Kuluq-cur kimi adlarda izləyirik (324, s. 272; 208, s. 62, 82, 144). Adın nominasiyasında iştirak edən komponentlər onu "Ulu Umanın işığı" mənasında izah edir.

**Meli-Şixu** (e.ə. təqribən 1188-1174-ci illər). Bu adda -k səsinin düşdüyü (eleziyası) şübhə doğurmur. Onun "melik" forması qədim türklərdə, o cümlədən də Qıpçaq türklərində "hökmdar", "hakim" bəzən də "tanrı" mənalarında işlənmişdir (37, s. 339). "Dədə Qorqud" dastanında Şöklü Melik, Ağ Melik, Sandal Melik adları buna misal ola bilər (19, s. 48, 50). Qeyd edək ki, adı çəkilən bütün məliklər oğuzlarla eyni kökdən gələn türklər olmaqla yalnız tenqrianlıq (sonralar xristianlıq) və İslam dini ayrılığında fərqlənirdilər. Sözün "şixu" tərkibinə gəldikdə isə, bu ad kasların inancındakı Şikamuna tanrı adından gəlir (349, s. 130-131). Bu leksik vahidlər birlikdə antroponimi-çar şəxs adını "tanrı Şuki-Şikamunaın təyin etdiyi hökmdar" mənasında izah edir. Biz göy-türklərdə də Sağu/Saku şəxs adına, Sak prototürk tayfa adına, "Şu-Saka" dastanında da eyni tərkibə rast gəlirik.

**Marduk- apla-iddin** (e.ə. 1174-1161-ci illər). Adın "mar" tərkibi qədim prototürklərdə "inandıran", "təqdim edən", "müəllim", "rəhbər" mənalarını daşımışdır (37, s. 337). Əgər tərkibə m≈b fonetik paralelliyindən yanaşsaq, o zaman bor/bori/bori yenə də qədim türk mifologiyasında "qurd" mənasında açıqlanır (260, s. 164; 486, s. 34). Biz ikinci "duk/doq" tərkibinə də prototürk dillərində "əzib doyan", "döyüb doyan", "doymuş", "sakitləşmiş", "apla" tərkibinə isə, "vəhşiləri ram edən", "vəhşiləri ovlayan" mənalarında rast gəlirik (37, s. 3, 576). Sözün sonuncu tərkibi -iddin komponentinin şəkilçi olması fikrindəyik. Belə ki, tərkib adların sonuna əlavə edilməklə dəfələrlə təkrarlanır. Əski türk dili imkanları hesabına formalaşan ad "vəhşiləri ovlayıb, ram edən hakim" mənasında qədim türk sözüdür.

**Cababa-şum-iddin** (e.ə. 1161-1160-cı illər). Adın "cab" komponenti qədim türk dillərində "adlı-sanlı", "tanınmış", "aba/apa" isə "ata", "ulu baba" mənalarında Altay, Teleut, Saqay, Şor, Cağatay dillərində işlən-

məkdədir (37, s. 138; 42, I c., s. 1; 52, I c., I h., s, 26). Hazırda Osmanlı türklərində bu söz "abi" yazılışında "böyük qardaş" mənasını daşıyır. Addakı "şum" tərkibi isə, yuxarıda da qeyd etdiyimiz kimi, Şuma-Uma tanrı adından gəlir. Əgər çar adına diqqət etsək, ad bütövlükdə türk dili komponentləri hesabına "Ulu Umanın tanıdığı ulu ata" mənasında formalaşmışdır. Etimoloji izahları verilən çar adları qaynaq məlumatları, İ.M.Dyakonov, A.A.Oparinin monoqrafiyaları və internet məlumatlarından götürülmüşdür (349, s. 126, 132; 279, III, IV, XVI; 426, s. 43-47; 559).

Qeyd edək ki, xeyli sayda çar adının etımoloji izahına toxunan Q.Qeybullayevin onların türk adları olması fikri və kasların türk tayfaları olması haqqındakı ehtimalları tərəfimizdən müraciət olunan yeni tarixi faktlar və göstərilən çar adlarının ilk dəfə verilən etimoloji izahları əsasında tamamilə təsdiq olunur. Bu adlar qədim türk mifik təfəkkürü və yazıyaqədərki türk dili elementləri hesabına formalaşmışdır.

Qəti fikir bildirməzdən əvvəl kasların tarixi haqqında bəzi tədqiqatlara və məlumatlara da diqqət etməyi bu istiqamətdə bir neçə məlumatı da nəzərdən keçirməyi lazım bilirik.

Yuxarıda qeyd etdik ki, İ.M.Dyakonov kasları e.ə. II minilliyə aid edir. Halbuki, müəllif öz yazılarında Akkad çarlığnın e.ə. 2329-cu ildə süqutundan sonra Mesopotamiyanın ərazisini işğal edən elam, lulubi, kuti turukku tayfaları arasında kassitlərin də olduğunu qeyd etməklə bərabər, onların elamlardan sonra, ikinci böyük və qüdrətli tayfa olduğunu göstərir. İşğaldan sonra 120 illik hakimiyyətdən məcburi əl çəkən (e.ə. 2104-cü ildə) bu türklər, İ.M.Dyakonovun fikrincə Cənubi Azərbaycan ərazisinə yayıldı (349, s, 114). Əgər kaslar e.ə. III min - illikdə dövlət qura bilirdilərsə, deməli, onların tarix səhnəsinə çıxma prosesi çox qədimlərdən başlamışdır və ən azı e.ə. IV minillik bu prosesə uyğundur. Bu tarix həm də elam, kuti, lulubi türk (turukku) tayfalarına şamil edilməlidir.

İkinci tərəfdən bunların dil məsələsini geniş tədqiq edən Avropa alimlərinə istinad edən İ.Əliyev kasların Altayda da yaşadığını və kuti, lulubi, elamlarla dil, adət, eləcə də məişətcə oxşar olması məsələsini xüsusi qeyd edir (285, s. 69). Bununla bərabər mənbələr "Parsua" adına sahiblənmək istəyən farsları bu adın tarixi dövrünə belə aid etsək onlar e.ə. IX əsrin sonlarında tarix səhnəsində görünürlər (368, s. 35). Bu faktları nəzərə almaqla qeyd edə bilərik ki, kasları yaxın dövrlərə aid

etməklə onların dilini müxtəlif azsaylı xalqların dillərinə yamamaq cəhdləri yalnız siyasi motiv daşımaqla tarixi əks etdirmir. Bu uydurmalar həm də qeyri-real məlumatların müqabilində təbii olaraq ortalığa xeyli sayda suallar da çıxarır.

1. Altaylarla qohumluğu olan kaslar, e.ə. IV minillikdə (gərəksə III minilliyə aid edək...) Mesopotamiyada Elam ölkəsində idisə, bəs onlar hansı minillikdəki köçlərlə Altay ərazilərinə gəlib çıxmışlar?

2. Əgər kaslar ərazicə kuti, hurri, koman, türükkü-turukku, lulubəy və s. tayfalarla müxtəlif qütblərdə olmuşlarsa o zaman onların qohumluğu hansı tarixi "koçlə" bağlıdır və onlar necə ittifaq bağlayaraq bərabər şəkildə işğallara qatılmışlar?

3. Assur mənbələrində ilk dəfə e.ə. IX əsrdə (840-835) adı çəkilməklə çox kiçik əraziyə mənsub olan "Parsua xalqı" öz dilini hələ dünyaya gəlməmişdən, özlərindən 3 min əvvəl tarix səhnəsinə çıxan və bütün Mesopotamiyaya hökm etmək qüdrətində olan Kas türklərinə necə və hansı gücə arxalanaraq öyrədə bilərdilər?

4. Əgər bu tarixi faktlar minilliklərlə bağlıdırsa, bu dil necə "iranmənşəli" adlana bilərdi? "İran" sözünün özü qədim türk "Aran" sözünün təhrifi deyilmi (-F.R)?

Təbii ki, bu sualları cavablandırmağa heç bir ehtiyac yoxdur. Sualların hər biri özlüyündə mövcud konsepsiyaların yanlışlığını sübut edir. Digər tərəfdən "irandilli" məsələsinin yanlışlığını bir qədər də elmi və məntiqi cəhətdən əsaslandırmaq mümkündür. İstər, qaynaqlar, istərsə də antik müəlliflərin yazıları, eləcə də o dövr Assur mənbələri Parsua ərazisində bir dənə də olsun "İran dilində" nə şəxs, nə də yer adı olmadığını qeyd edir. R.M.Bomer Parsua (muasir dildə fars) ərazisini Lamunenin qərbində göstərir. Bu ərazi isə midiyalılarındır və parslara məskunlaşmaq üçün hədiyyə kimi verilib. Deməli, onlar kiçik etnik qrupdur. Tədqiqatçıların fikrincə isə, Parsua yer adı Midiya dilində "bölgə", "əyalət" mənasındadır (353, s. 90-91). Fikrimizcə "parsua" sözü farslara türklərdən adlamaqla onlara türklər tərəfindən verilmiş addır və bu söz müasir dilimizdə "parça", "bölük" sözləri ilə eynilik təşkil edir. Bizə belə gəlir ki, bu ərazi pay verilmiş torpaq parçası kimi nəzərdə tutulub və "parsua/parsa" sözü o dövr prototürk dilində bu sözün işlənmə variantıdır (-F.R). Məhz bu variantları diqqətlə izləyən görkəmli dilçi alim A.Babayev istər Hündüşah Naxçıvani, C.İbn

Mühənna kimi görkəmli şəxsiyyətlərin tərtib etdikləri "Fars sözlükləri" və ona verilən qrammatik izahları, istərsə də H.Zərinəzadə, M.Məmmədov və b. fikirləri fars dilinin sonralar ortalığa çıxdığını qeyd edir. A.Babayaev A.Bakıxanovun fars dilinin yaranması dövrünü tam doğru göstərən fikirlərini ümumiləşdirərək müəllifin dilindən yazır: "...sırf fars dili üçün qanun axtarsaq, onun XIX əsrdə yarandığını yazmaq lazım gəlir" (143, s. 60-61). Bu ifadəni "fars dilinin" yaranması haqqında bir nümunə olaraq qəbul etmək lazımdır.

Belə olan halda bu gün özlərini kənardan verilmiş "parsua"/"fars" adlandıran farsların kimliyi, hansı tayfa qoluna aidliyi də, sual altında qalır. Təbii ki, bu problem günümüzə qədər həll olunmamış, onların hansı mənşədən gəldiyi hələ də açıqlanmamış problemdir. Fikrimizcə, bu istiqamətdə geniş tədqiqata da böyük ehtiyac var və o zaman Azərbaycanla fars tarixi və dili arasındakı 5 minillik zaman fərqi özünü açıq göstərər (-F.R.).

Kaslara aid olan faktlara əlavə olaraq deyə bilərik ki, bu gün təkcə uyğur türklərinin əski tarixini varaqlasaq, burada Kas adlı altı tayfa adının olduğunu da görərik (289, s. 113-115). Mənbələrdə Qırğız dövlətinin bir zamanlar Xa+kas- "şöhrətli kaslar" kimi mövcudluğu (-F.R.), onlardakı bir tayfa adının isə, Kasal-"Uca, işıqlı kaslar" adlanması kimi elmi dəlillər də təsadüfi ola bilməz. "Kas" tərkibli bu tayfalar haqqında digər məlumatlara "Sibir tarixi" kitabının I cildində geniş şəkildə rast gəlirik (96, I c., s. 297; 377, s. 60-64). Orxon yazılarında Abakan türkləri içərisində də Xakasların olduğuna dair faktlar mövcuddur (236, I c., s. 17). Bunu antik müəlliflərin əsərlərində kassit tayfa adının "kaspi" formasında yazılışı da təsdiq edir (457, s. 33). Hələ XVIII əsr məlumatlarından Sibirin Udin mahalında (diqqət edin, ermənilər Azərbaycanda yaşayan udinləri erməni hesab edirlər-F.R.) Kara-Kas, Sarıq-Kas və Kaş tayfaları məlumdur (344, s. 247, 252).

Biz bu ada hazırda Qazaxıstan dövlətinin adında I komponentində, bu ərazidəki Kasqalen-"ulu kaslara məxsus" qəsəbə adında, Volqaboyu türk tayfalarının Qazan şəhər adında, Türkmənistanda Kaşqay-"möhkəm, qüvvətli kaslar" şəhər adında "qaz", "kas", "kaş" komponentlərində rast gəlirik. Hazırda Özbəkistanda Kasan, Kasansay hidronim və qəsəbə adları da buna misal ola bilər (103, s. 52-53, 56, 58-59). Bu əski tayfa adının kas tərkibini qırğızların dövlət adının ikinci komponentində

Kır+kıs/kas şəklində də görürük və bir çox tədqiqatçılar da bunu kaslarla bağlı olduğunu birmənalı qarşılayır (377, s. 61-63). Kassi tayfalarının izi Gürcüstanda qədim azərbaycanlıların yaşadığı Kaspi, Kazbeqi, Kasbeq Xaşur/Kaşur, məntəqə və dağ adlarında da qalmaqdadır (103, s. 52; 117, s. 91, 138 ). Bütün bunlar qədim türk kasların yayım arealını sübut edən təkzibolunmaz göstəriciləridir.


Son dövr araşdırmaların elmi nəticələrində yeni mühüm faktlarla qarşılaşırıq ki, bu faktlar tərəfimizdən kaslar haqqında irəli sürülmüş bütün fikirləri bir daha təsdiq edir. Bəzi yeni tarixi faktlar, Kas türklərinin tarix səhnəsinə çıxma tarixinin e.ə. V minilliyə dayandığını, onların Naxçıvan ərazilərində mövcudluğu tarixinin də V minilliyə aid olduğunu təsdiq edir. Bu baxımdan Kas türkləri haqqında ingilis alimi A.F.Elfordun fikirləri ilə də tanış olmaq elmi baxımdan əhəmiyyətli olardı. Müəllif, Vavilon dövlətinin Kas türkləri tərəfindən işğalı dövründən əvvəl onların Urmiya dağlarının şimal şərqində (əsərdə Saqros dağı) "gözəgörünməz" xalq kimi məskun olduqlarını onların dəmir əritmələrinə görə "varvar" adlandıqlarını yazır. Müəllif, bu sözün "vəhşi" mənası ilə heç bir əlaqəsi olmadığını və "özgə dildə danışan", "yadelli" kimi mənalar daşıdığını qeyd edir. Bundan sonra o, əslində bu kəlmənin Şümer dilində "VAR"-"metal" mənasında olduğunu, Kas prototürklərinin e.ə. III minillikdə metal əritmə ilə məşğul olduqlarını yazır. A.F.Elford bir müəllifin (əsərdə adını göstərmir) kasları Mesopotamiyaya ilk bronza və dəmir məmulatları gətirən xalqlar olduqlarını, qədim Elamda onların Kuşan adlandıqlarını bu ərazidə kassiter-dəmir çıxardıqlarını da göstərir. Daha sonra o, kasların dəmir məmulatlarını Mesopotamiyaya Suz şəhərindən gətirdiklərini, bu şəhərin isə onlara aid olmaqla e.ə. IV minillikdə mövcudluğunu qeyd edərək onu Meksikada arxeoloji araşdırmadan ortalığa çıxan, dəmir istehsalı ilə məşğul olan Tiauanako şəhəri ilə eyni dövrə aid edir. Əsərdə Suz şəhərinin e.ə. IV minillikdə tarix səhnəsinə inkişaf etmiş mədəniyyət mərkəzi kimi çıxması, bu şəhərin kaslarla bağlı olması məsələləri də geniş yer alır (488, s. 63, 147-149 c).

A.F.Elfordun yazılarına diqqət edən bəzi tədqiqatçıların fikrincə bu tayfaların ilkin məskəni Qafqazın Cənub yamacları, Araz çayı hövzəsi olmuşdur (563). Bu da Kas boylarının qədim Naxçıvan ərazisində avtoxton sakinlər olduğunu bir daha sübut edir. Əgər A.F.Elfordun bu konsepsiyasını qəbul edəriksə, Elam dövlətinin şimal qərb sərhəddində

Diyala çayı hövzəsində yerləşən Kas prototürklərindən başlamış metaləritmə ənənəsi sonralar Kaspi, Kaşk, Xəzər, Savromat, Qiksos (gok As), Hun və b. prototürklərə də adlamışdır ki, bir çox mənbələr bu tayfaları da "var-var" adlandırmışlar. Biz qədim Roma tarixçisi Qay Sallyustiy Kricpin yazılarında da bu ifadənin Yunan və Romalı olmayan bir xalqa aidliyinə təsadüf edirik (22, s. 17, 610; 563). Son nəticə olaraq onu deyə bilərik ki, oturaq həyata ilk dəfə keçən qədim türklər atı və digər heyvanları əhilləşdirməklə yanaşı hələ e.ə. IV minillikdə metaləritmə ilə də ilk dəfə məşğul olan tayfalar olmuşlar (-F.R.).

Aşağıda tərəfimizdən qədim tarix nəzərə alınmaqla yenidən üzərində işlədiyimiz bu xəritədə Kassi türkləri ilə Şu türklərinin birgə yayıldığı Dəclə və Fərat çaylarının aşağı axarlarında Şuşa şəhər adını da görürük. Bu ərazilərdə Şu türklərinə məxsus bu şəhər adı bizim qədim Qarabağın heç zaman erməni torpağı olmadığını bir daha sübut edir. Qeyd edək ki, xəritənin ilk variantı Avropa alimləri tərəfindən əsasən də A.F.Elfordun rəhbərliyi altında tərtib edilib (ətraflı bax 488) və ərazidəki Şuşa şəhər adı da tarixi faktlar əsasında onlar tərəfindən qeyd olunub. Biz bura yalnız Kassi və Şu türklərini əlavə etməklə onların təsiri altında olan əraziləri qeyd etmişik.

Kas-Şu prototürk ittifaqının Mesopotamiyada hakimiyyəti dövrü (m.ö. III minilliyin əvvəlləri)



Kasların digər ərazilərə yayımı tarixi prosesi təbii ki, Cənubi Azərbaycandan, o cümlədən də avtoxton sakinləri olduğu Naxçıvan-Naxərin ölkəsi ərazilərindən Şimala doğru başlamışdır. Bunu sübut edən tarixi faktorlardan biri də Cənub torpaqlarımızda Kızılüzən (əslində kas-il-ezən "güclu, sağlam kas eli"-F.R.) çay adında, Xudafərin qəzasının İlankoş, Mişkin yaxınlığında Tokeş, Tehran yaxınlığında Qəzvin, Kaşan, Kasrə, Kaşmer, Kusan (358, s. 468) kimi yüzə yaxın oykonimik adların kütləvi farslaşdırma müqabilində qalması, eləcə də Kas tayfa adı ilə yanaşı əski dil elementlərinin də bu adlarda mövcud olmasıdır. Buradakı İl+an+kas-"kaslara məxsus yurd", Ti+kas-"Kaslar tikdiyi", Kaş+an-"kaslara məxsus yer", Kaş+mer/ber - "Qurd kaslar" oykonimlərindəki Kas türk tayfa adına qoşulan yazıyaqədərki dövr qədim türk dili elementləri və əski türk mifik işarətlər fikrimizin doğruluğunu sübut edən tarixi dil və mifik, etnoqrafik faktorlardir. Göründüyü kimi, toponimik sistemdəki Kas tayfa adlı oykonimlər bu tayfaların yayıldığı ərazilərin geniş coğrafiyasını əks etdirən tarixi sübutlar olmaqla bərabər, o dövr dilimiz haqqında da əsaslı tarixi mənbə kimi mühüm əhəmiyyət daşımaqdadır.

Bir məsələni də ayrıca qeyd etmək istərdik ki, kasların kökündən ayrılan Kaspi, Xəzər/Kasər və Qazak boyları da sifarişlə yazılmış tarix-şünaslığın VIII-XI əsrə aid etdiyi tayfalar deyil, əski dövrlərdən tarix səhnəsində olan prototürk boylarıdır. Mənbə məlumatlarından və tədqi-qatlardan gətirilmiş nümunələr tarixi və dil müqayisəsi yönündən aydın görünür ki, bu tayfalar heç vaxt irandilli olmamış, qədim türk tayfaları olmaqla, ən azı e.ə. IV minillikdə eynidilli tayfa birlikləri kimi böyük bir xalqa çevrilmişlər. Məhz bu amil onların öz çarlıqlarını yaratması ilə nəticələnmişdir. Qəti söyləmək olar ki, qüdrətli Manna və Midiya dövlətlərinin etnik tərkibi məhz bu tayfalar, eləcə də digər turukku, hürrit, kuti, lulubi, subər, koman, bulqar kimi prototürklərlə yanaşı onların varisləri olan Kaspi, Xəzər, Qazax, Qazan, Kəbər, Kulas, Tərkə, Tərnə Bözal, Savir (Sabir) və s. boylardan formalaşmışdır (210, s. 125; 221, s. 32; 300, s. 226).

Qeyd edək ki bu tayfaların tanrı adlarındakı eyniliyi də təsadüfi deyil, onların vahid birlikdə bütöv bir türk tayfaları olmaqla eyni inanca sahibliklərı ilə də təsdiq olunan başlıca amil sayılmalıdır. Kas tayfaları ilə bərabər turukku, hürrit, kuti, lulubəy, subər, koman və b. prototürklərdə

də An/Anu, Şum/Şumakun, Şamaş, Umay, Şar, Kaş, Harbe, Kiur, Enlil, Şax kimi tanrı adlarının olmaları və eyni inanclara sahiblikləri də dediklərimiz fikirlərin doğruluğunda təkzibolunmaz tarixi sübutlardır (349, s. 130-134). Bundan başqa kas dilində "kin"-"qala", "yabku"-"hakim", "yanzi"-"hökmdar" "qik"-"göy", "tanq"-"dan", "umar"-"ummaq", "yaşu"-"parıltı", "kadaş"-"qardaş", "kandaş"-"qandaş, eyni qandan olan", "qal/kal"-"böyük, ulu" (ağsaqqal sözündə) və s. (yenə orada, s. 122, 137) yüzlərlə müasir leksikonumuzda belə işlənən sözlər də təsadüfi deyil, əski dilimizin 7 min il öncəki leksik dil elementləridir. Bundan başqa qədim Naxər-Naxçıvan ərazisinin arxeoloji maddi-mədəniyyət nümunələri də bu qədim tarixi təsdiqləməkdədir. Naxçıvan ərazisində e.ə. IV minillikdən I minilliyə doğru gələn qədim I və II Kültəpə, Oğlanqala. Xoşkeşin, Nəhəcir, Maxta və s. məntəqələrin kromlex qəbirləri və mədəniyyət nümunələri bu tarixi təsdiq etməkdə yetərlidir (ətraflı bax, 148, I c.; 257). Cənubi Azərbaycanda isə Təbrizin cənub-şərqindəki Göytəpə, Yanıqtəpə, Həsənulu və digər arxeoloji mərkəzlərdə aparılan qazıntılar nəticəsində tapılmış maddi-mədəniyyət əşyalarının türk xalqlarına mənsubluğu və Altay türklərinə qədər ortaqlığı bu mədəniyyətin qədim və ilk orta əsrlər türk mədəniyyəti olduğunu, çox böyük bir arealda türklərin avtoxton sakinlər olduğunu bir daha təsdiq edir (340, s. 27-31). Beləliklə bütün tədqiqat materialları və müqayisəli təhlillərin son nəticələri kasların sonuncu tarixi dövrünün e.ə. I minilliyin əvvəllərinə aidliyini göstərir. Bu dövrdə isə, farslar hələ tarix səhnəsinə çıxmamış, öz maddi-mədəniyyət abidələrini yaratmamışdılar. Digər bir tərəfdən Zəviyədən tapılan arxeoloji nümunələr Kuban və Şimali Qaradəniz ətrafı bölgələrdən tapılan qızıl və keramika əşyaları ilə eynilik təşkil edərək, Altay və Skif mədənyyətlərinin tam eynisi hesab olunur. Biz S.İ.Rudenko, A.Qoder və digərlərinin gəldiyi elmi nəticələrdə, o cümlədən B.B.Piotrovskinin araşdırmalarında da bu mədəniyyətin əsasında skif stilinin durduğunu görürük (434, s. 255). Bu ərazilərə isə farsların ayağı belə toxunmamışdır. Deməli bu qədim mədəniyyətin və tayfa dillərinin "iranmənşəli" konsepsiyası ilə heç bir əlaqəsi ola bilməz.

Bir məsələni də xüsusi olaraq qeyd etmək istərdik ki, bu araşdırıcıların elmi nəticələrindəki "skif stili" ifadəsi də elmi cəhətdən yanlışdır. Belə ki, kas skif tarixi dövrləri ilə müqayisədə bu mədəniyyət kaslardan

skiflərə adlayan bir mədəniyyətdir. Tarix bunun əksini təsdiq etmir. Çünki kasların tarix səhnəsində görünüşü skiflərdən 2 min il əvvələ söykənir (-F.R.). İstər ərazi, istər tarix, istərsə də dil və maddi-mədəniyyət abidələri bütövlükdə xalqımızın qədim tayfaları olan Kas türk tayfalarına məxsusdur və birmənalı olaraq bu mədəniyyət cənubdan şimala doğru yayılmışdır. Bu ərazilərdə isə heç vaxt irandilli tayfalar yaşamayıb. Azərbaycan toponimik sistemində Qars, Qas, Qasapat, Kaspi, Qasbinə, Kaso, Keştaz, Keşku (35, s. 30-31, 57) kimi yuzlərlə məntəqə, dağ, çay, göl adlarının nominasiyası-adlanması kas tayfa adı ilə yanaşı "bat"-"ölkə", "ku"-"şan-şöhrət, və "qismət pay", "taz/taş" "daş-qaya", "be/pi"-"bəy, cənab" (208, s. 56; 65, II c., s. 240, 607; 41, s. 582), eləcə də hazırdakı "binə" sözü kimi qədim və müasir türk sözləri ilə coğrafi ada çevrilmişlər. Burada yad dilə mənsub hər hansı bir qədim leksik vahidlə qarşılaşmırıq.

Bütün bundan sonra Naxçıvan və onun əzəli torpaqlarında Kas tayfa adı ilə bağlı etnooykonimlərin etimologiyasına da diqqət etməyi məqsədəuyğun hesab edirik. Bu siyahıya 1590-cı ildə Naxçıvan ərazilərində mövcud olan və hazırda insan yaşamayan, yalnız xarabalıqları qalan 44 etnooykonimi daxil etmişik.

**Keştaz.** 1590-cı ilə aid sənədlərdə "Keştosb" kimi Şərur nahiyəsinə daxil olan bu etnooykonim (77, s. 168), daha sonra 1728-ci ilin arxiv məlumatlarında yenə Şərur nahiyəsində "Keştaz" kimi yazılmışdır (110, s. 328). Qədim Kas türk tayfa adından formalaşan bu etnooykonimin ikinci "taz/tas/taş" tərkibi d≈t fonetik səsəvəzlənməsi ilə qədim türk dillərində müxtəlif mənalar daşımışdır. Əgər adda u≈o səs dəyişimi nəzərə alınarsa, biz türk xalqlarının əski dillərində bu tərkibin daz yazılış formasının "kecəl, daz" və "eşik, bayır", "töz" yazılışının "tayfa", "tirə", "nəsil", "tuz" şəklinin "qonaqlamaq", "duz", "gözəllik" mənaları ilə qarşılaşırıq (37, s. 676; 42, I c., s. 296; 61, s. 806). Bundan başqa tərkibin "tış" yazılışı M.Kaşğarinin sözlüyü, eləcə də digər sözlüklərdə də türk dilində olmaqla "eşik, bayır" və "xalq, soy-kök", "düşmək", "dayanacaq" kimi mənalar daşımışdır (44, III c., s, 676-677, 679; 64, I c., s. 379). Bütün dialekt variantlarının müqabilində arxiv sənədlərindəki təhriflərdə adın "Kastöz" yazılışını ilkin variant kimi qəbul edərək onun "Kas soyu" mənasına üstünlük veririk.

**Kosacan.** Maraqlı və mürəkkəb quruluşa mənsub bu etnooykonim

ik dəfə 1590-cı ildə Şərur nahiyəsində bir adı "Bədilu" olmaqla qeydə alınır (77, s. 168). İstər 1725-1728-ci illərin, istərsə də sonrakı dövrlərin arxiv sənədlərində ad "Kosacan" şəklində qeydə alınmaqla, (123, s. 7-11) günümüzün aktiv oykonimik fondunda da bu tərkibdə qalmaqdadır. İlkin variantda Kas+can/san yazılışında olan söz kökü sonralar -a "kiçiltmə mənalı" saitin artırılması ilə Kos+a+can şəklinə düşmüşdür. Əgər adı Kosacan-Kas+as+an yazılışında qəbul edəriksə, burada "as" tərkibi "güclü, qüvvətli" mənasını (212, s. 79), -an komponenti isə "mənsubluq" şəkilçisi, bəzən də "bənzətmə" mənasında işlənir (168, s. 251). Komponentlərin daşıdıqları mənalara əsasən etnooykonim Kas tayfa adından formalaşmaqla "Qüvvətli kaslara məxsus" yer mənasında izah olunur. Azərbaycan toponimik sistemində -an komponenti Şabran, Gilan, Kasan kimi tayfa adlarının sonlarında toponimik adlara qoşulmaqla bu boyların "məkanı" kimi də izah edir (168, s. 250-252). Əgər məntəqə adını Kas+ can/san variantında götürsək, o zaman tayfa adına qoşulan "can/san" tərkibi əski türk dilində "şan-şöhrət" mənasını ifadə edəcəkdir. Bu halda göstərilən komponentlə məntəqə adı "Şöhrətli kaslar" mənasında açıqlanır. Biz II variantın doğru olması qənaətindəyik. Məntəqə adı türk dialektləri üçün xarakterik olan a≈o, c≈s səsəvəzlənməsi ilə müşahidə olunur. Xüsusi olaraq qeyd etmək istərdik ki, adın müasir Kosa-"oyunbaz", sözü ilə heç bir əlaqəsi yoxdur. Bildiyimiz kimi məntəqə adı əsasən tayfaların adları ilə nominasiya olunur. Bütövlükdə bir məntəqə adının Kosa- "oyunbaz", sözü ilə yaranması inandırıcı deyil və məntəqə bir ailədən ibarət olmur. Fikrimizcə, ərazidə geniş arxeoloji araşdırma aparılarsa buradakı mədəniyyət nümunələri eramızın VIII-IX əsrlərini təsdiq etməklə yanaşı e.ə. III minilliyi və daha qədim dövrləri də təsdiq edə bilər (230, s. 144).

**Kosalar.** "Kosacan" məntəqə adı kimi eyni təhrifə məruz qalmış bu etnooykonim 1590-cı ildə Abaran nahiyəsi daxilində qədim lulubəylərin adını daşıyan Lalı, bir yazılışı da "Lalə" olan məntəqə ilə Xəzər türklərinin bir qolu Tərkə boylarının adını daşıyan Tərkə məntəqələri arasında göstərilir (210, s. 125; 77, s. 174). Heç şübhəsiz ki, ad ilkin varianta Kas+al+ar yazılışında olmuşdur. Fikrimizcə, bu addakı -a- "kiçiltmə" və -lar "cəmlik" ifadə edən şəkilçilər sonrakı dövrün ifadə formasıdır. Maraqlı, eləcə də, tarixi və dil əhəmiyyətli komponentlər hesabına yaranmış bu etnooykonim də müasir dövrdə aktiv oykonimik

fonda daxildir. Tərkibində Kas tayfa adını, "al"-"uca" (260, s. 299-301) və "ər" -"kişi, igid" koponentlərini saxlayan oykonim "Uca kas ərləri" mənasını daşımaqla etnooykonim kimi formalaşmışdır. Məntəqə adı "Kosacan" adı kimi sadəcə təhrif olunmuş bir yazılış formasıdır.

**Kosalı.** "Kosacan" və "Kosalar" məntəqə adı ilə eyni kökdən olan bu məntəqə adı da Kos /kas tayfa adı və "al"-"uca" sözlərindən formalaşmaqla "uca kaslar" mənasındadır. Adın sonundakı -ı samiti sözə sonradan artırılmadır. Etnooykonimə 1728-ci ildə Naxçıvan ərazisinə daxil olan Maku nahiyəsinin Muradverdi və qədim kutilərin adını daşıyan Qutlutavr məntəqələri arasında rast gəlirik (77, s.42).

**Kəsir.** Maraqlı leksik quruluşa malik olan bu etnooykonim 1590-cı ilə aid mənbədə Şərabxana nahiyəsində Qaracaqala və Gözəldərə məntəqələri arasında qeydə alınır (77, s.174). Məntəqə Kas tayfa adı və türk dillərinə məxsus "ur"-"məskən, qurmaq" kmponentləri ilə etnooykonim kimi formalaşmışdır. Adda ə≈i, a≈ə səsəvəzlənmələri müşahidə olunur. Adın bərpası məntəqə adını "Kas məskəni" mənasında izah edir. Ada sonrakı arxiv sənədlərində rast gəlmirik. Məntəqənin muharibələr zamanı dağıdıldığını ehtimal etmək olar.

**Keçil**. Naxçıvan qəzasına daxil olan nahiyələrdə bu adda üç etnooykonim mövcud olmuşdur. Onlardan biri 1590-cı ildə Ağcaqala nahiyəsində "Keçili" kimi Xirik və Qocakənd məntəqələri yaxınlığında (77, s. 169), ikincisi isə "Keçili Quzuculu" yazılışında Xınzirık nahiyəsində Almadərə və Xaçaparalı məntəqələri arasında göstərilmişdir (yenə orada, s. 46). Sonralar hər iki kənd dağıdılmış və fəaliyyətini dayandırmışdır. Hazırda aktiv fonda daxil olan üçüncü Keçili kəndi isə, bu illərdə qeydə alınmayaraq 1728-ci illərin sənədlərinə düşməklə Qırxbulaq nahiyəsində Sak türklərinin adını daşıyan Kənzək və qədim As türklərinin adını özündə yaşadan İmadi-Asur məntəqələri arasında qeydə alınır (77, s. 36). Sonrakı dövr arxiv sənədlərində Şahbuz rayon inzibati ərazisinə daxil olmaqla "Keçili" yazılışında müasir günümüzə gəlib çatmış bu məntəqə adı hazırda da fəaliyyətini davam etdirməkdədir. Biz yuxarıda bir neçə dəfə "il"-"yurd, vətən" komponenti haqqında danışmışıq. Adın "il" komponentinə qoşulan -ı samiti sözə təbii ki, sonrakı dövrlər artırılmışdır. Oykonim Keç+il yazılışında sənədlərə düşsə də, a≈e, ç≈s fonetik səsəvəzlənməsi ilə (266, s. 40) ilkin variantında Kas+il-"kas yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Keçezor.** 1590-cı ildə "Keçəzor" yazılışı ilə (77, s.167), bundan sonra isə 1728-ci ilin məlumatında "Keçezor" kimi yazılmaqla hər iki tarixdə Dərəşahbuz nahiyəsində qeydə alınan bu etnooykonim də Kas tayfa adını daşıyan məntəqədir (110, s. 27). K.N.Smirnov bu adı və məntəqəni ermənilərə aid edir (454, s. 134) Lakin A.Bağırov haqlı olaraq adın ermənimənşəli hesab olunması üçün heç bir elmi əsasın olmadığına dair xeyli elmi sübut göstərir. Bununla belə müəllif sözün "zor" tərkibini fars dilində "dərə" sözü ilə izah edərək məntəqə adını "yay vaxtı dərəyə düşən köç" mənasında, daha sonra isə Cavanşir tayfasının Gecəgözlü qolu ilə izah edir (154, s. 137-138, 333 s). Fikrimizcə, ad ilkin variantda Kas+sir şəklində olmuş, daha sonra isə -e saitinin artırılması və a≈e, i≈o, s≈z (266, s. 40) səsəvəzlənmələri ilə təhrif olunaraq mövcud şəklə düşmüşdür. Biz Kas tayfa adına qoşulan "sır"-"işıq" tərkibinə "sır/yır", "çır", "çıraq-uca işıq" yazılışlarını bir çox türk dillərində müşahidə edirik (54, III c., I h., s. 103). Bu halda söz "İşıqlı kaslar" kimi mənaya malik olur və bunu doğru etimoloji izah kimi qəbul edirik.

**Qızılca** (6 kənd adı). Naxcıvanla bağlı qaynaq və arxiv sənədlərində bu adda 6 yaşayış məskəni qeydə alınır. Ad 1590-cı illərə dair sənədlərdə Məvaziyi-xatun nahiyəsində "Qızılca məzrəsi", Bazarçayı nahiyəsində "Qızılcakilisə", Karni nahiyəsində "Qızılca", Ərmus nahiyəsində "Qızılcalı", Zar, Əlincə nahiyələrində "Qızılca", və "Qoyluca" yazılışları ilə arxiv sənədində qeydə alınır (77, s. 165, 167, 170, 180).

Bəzən tədqiqatlarda bu adları ərazidəki torpaq layının qırmızı rəngi ilə bağlayıb, eləcə də "qızıl", "keyfiyyət" və "bərəkət" sözləri ilə izah etməyə çalışmışlar (154, s. 159). Biz bu haqda əvvəllər də öz məqalələrimizdə geniş yazmışıq (239, s. 62). Fikrimizcə, bu elmi cəhətdən əsaslandırılmamış bir versiyadır. Çünki sadalanan ərazilərdəki məntəqələrdə heç də bütün torpaqlar qırmızı rəngdə deyil və "qızıl" sözü də metal mənasını ifadə etmir. Digər bir tərəfdən bu ərazilərin arxeoloji qazıntılarından əldə olunan maddi-mədəniyyət nümunələri e.ə. III-II minillikləri, kasların yaşadığı tarixi dövrləri də təsdiqləyir ki, (258, s. 68-71) bu da elmi nəticəmizin doğruluğunu sübut edir. Fikrimizcə, məntəqə adının ilkin forması türk dillərinə məxsus q≈k, a≈i, s≈z fonetik səsəvəzlənməsi ilə Kas+il+sa şəklində qədim türk leksik vahidləri "il"-"yurd", "sa"-"zəkalı" sözləri hesabına formalaşmaqla "Zəkalı kasların yurdu" mənasını

daşıyır. Məntəqə adının tərkibindəki "il, sa" yazıyaqədərki dövr türk dili elementləri də torpaq rəngini izah etmir. Bu amil də fikrimizin doğruluğunu təsdiq edir.

**Kisək.** Ada ilk dəfə 1728-ci ilə aid arxiv sənədlərində bir adı da "Kənşək" olmaqla Naxçıvan qəzasının Dərələyəz nahiyəsinin Başgöy və Yenicə kəndləri arasında rast gəlinir (77, s. 59; 110, s. 283). Məntəqə adı a≈i, a≈ə fonetik səsəvəzlənməsi ilə təhrif olunaraq (Vətən-Vatan, acı-əci-ici kimi ) bu yazılışla qeydə alınsa da ilkin variantda Kas+ak yazılışında olmuşdur. Tayfa adı və ak-"uca" leksik vahidindən formalaşan etnooykonim "Uca kas" mənasında açıqlanır. Laki əgər biz türk dillərinə məxsus u≈ə fonetik səsəvəzlənməsini də ul-il-el-əl variantlarını, eləcə də "utancaq" sözünün uyut, uyat, oyat, uyət kimi Özbək, Qırğız, Uyğur, Başqırt dillərində işlənmə arealını (39, s. 916-917, 920-921) nəzərə alsaq, məntəqə adındakı "ək/uk" tərkibi "oğul, varis" mənalarında da işlənir (64, I c., s. 759; 208, s. 143). Qeyd edək ki, yer adlarının sonunda işlənən "aq, ıq, iq, eq, uq" komponentlərini M.Seyidov araşdırmalarında Qum+ıq, Qın+ıq, Çor+uq, Em+eq, Sar+ıq kimi etnooykonimləri nümunə göstərməklə çoxluğu ifadə edən şəkilçi kimi qəbul etmişdir (260, s. 105). Lakin biz bu tayfa adları sonunda tərkibin "oğul, varis" mənalarında olduğunu və adların "Qam/şaman varisi", "Qala varisləri", Çor, Sar "Şar tanrısının övladları", "Mənim varisim" mənaları daşıdığını düşünürük. Bu baxımdan da məntəqə adının "Kas varisləri, oğulları" kimi izahına üstünlük veririk.

**Kəsiran.** 1590-cı ilə aid sənədlərdə Naxçıvana aid Azadcirən nahiyəsində "Kəsiran" yazılışında qədim As boyları ilə bağlı Unus-On As və Koçəri kəndləri arasında qeydə alınır (77, s. 179). Yuxarıda etimoloji izahı verilən "Kasir" məntəqə adı ilə eyni kökə malik olan məntəqə adı qədim dil imkanları hesabına Kas+ər+an şəklində tayfa adı, "ər" - "igid, kişi" komponenti və -an "mənsubluq", şəkilçisi və leksik vahidlərindən formalaşmışdır. Adı Kas+ərən variantında da qəbul etsək yenə də məntəqə adı "Kas əri-igidi" mənasında açıqlanacaqdır. Lakin biz məntəqə adının "Kas ərinin yurdu" məkanı mənasında olduğunu düşünürük.

**Küzüt, Güznüt.** Etnooykonimin adına biz ilk dəfə 1590-cı ildə Naxcıvan qəzası daxilində olan Ağcaqala nahiyəsində Əbuşeyx və Ənilər məntəqələri arasında "Küzüt" yazılışında təsadüf edirik (77,

s.169). Eyni tərkibli ada -n hərfi artırılmaqla 1728-ci ilin məlumatlarında "Güznüt" yazılışı ilə Əlincə nahiyəsində məntəqə olaraq rast gəlirik (110, s. 26). Qeyd edək ki, bu məntəqəni əhatə edən digər məntəqələr fərqli olmaqla tamamilə başqa ərazilər olduğundan bu adda iki məntəqə adının olması danılmazdır.

Qeyd edək ki, məntəqə adı tədqiqatlarda "Güznüt" yazılışında küz+nüt tərkiblərinə bölünərək "payız əkini üçün yer" mənasında izah olunmuşdur. Biz heç bir sözlükdə küz tərkibinin "payız" mənasına rast gəlmədik (154, s.142-143). Fikrimizcə, adın Kas tayfa adı və "ut/at" - "yer, məkan" bildirən leksik vahidindən (64, Ic., s. 197) formalaşdığı həqiqətə daha uyğundur. Məna baxımından bu tərkib qədim türk dillərində omonimlik xarakterinə malik olmaqla xeyli məna çaları daşımışdır. Biz M.Kaşğaridə "ut" sözü "oyunda yutmaq- zədələnmək", "at" şəklində "atmaq" (42, I, 21 170; 43, II, 103, 221), digər qədim sözlüklərdə isə, bu tərkiblərə "vurmaq", "ad", "qalib gəlmək, udmaq", "izləmək" kimi mənalarında da rast gəlirik (37, 65, 617). Məntəqə adının Kas+ut variantında olmaqla "Kas məkanı" mənasında olması fikrində qalırıq.

**Kaskalan.** Bu məntəqənin xarabalıqları 1963-cu ilə qədər Qıtqın dərəsinin sağ sahilində, Culfa rayon Xoşkeşin və Xanağa kəndləri arasında qalırdı. Ərazidə xaraba binalarla yanaşı ikimərtəbəli, qala istehkam formasında tikililər də movcud idi. Taxıl əkini üçün yer düzəltmək məqsədi ilə ərazi tamamilə dağıdılmışdır (şəxsi muşahidə-F.R.). Eyni adda Kaskalen qəsəbə adı hazırkı dövrümüzdə Qazaxıstanda, Daşkənd şəhərinin 20 kilometrliyində yerləşməkdədir. Kas tayfa adına birləşən kal-"ulu" tərkibi və an- mənsubluq şəkilçisi məntəqə adını "Ulu kas yurdu" mənasında açıqlayır.

**Ortukiş.** Qədim türk dili elementlərindən formalaşan bu məntəqə adı 1590-cı ilə aid mənbə məlumatlarında Naxçıvan ərazisinin tərkibində olan Sisyan nahiyəsində Əngləberd və Əxlətiyan kəndləri arasında qeydə alınır (77, s. 183). Adın ilk komponenti "ordu/urdi"- "məskunlaşmaq", "torpağa əyilmək" mənasını verir (42 I c., s. 164). Addakı "ur+du"- or+du komponentlərindən formalaşan bu tərkiblər qədim türk dillərində birgə yazılmaqla "ordu" şəklində "saray", "iqamətgah", "ordugah" mənalarını daşımışdır. Yuxarıda da qeyd etdiyimiz kimi biz bu məna ilə bərabər "ur" komponentinin ur+il+an –"yurda övlat gətirmək"

ur+paq- "geyim", "örpək" (bədənin məskəni yurdu-F.R.) kimi sözlərdə də eyni mənanı daşıdığının da şahidi oluruq (42, I c., s. 138; 37, s. 370, 614). Məntəqə adı qədim türk sözləri ilə "Kas ordugahı" mənasında etnooykonim kimi formalaşmışdır.

**Haksi.** Məntəqə adı ilk dəfə 1590-cı ilə aid mənbə məlumatında Naxçıvan ərazisi tərkibinə daxil olan Sisyan nahiyəsində Şeyxlər və Dəstəgird məntəqələri arasında qeydə alınır (77, s. 183). Ka-kas/Xa-kas-"şöhrətli kas" mənasında olan bu məntəqə adı zaman-zaman -a saitinin səsdüşümü (eleziyası) və -i saitinin sona əlavəsi ilə təhrif olunaraq "haksi" formasını almışdır. Birinci "ka"-"şöhrətli" əski türk dili leksik vahidi təbii ki, canlı ismə aiddir. Lakin ikinci "ksi" komponenti heç bir məna ifadə etmir. Bu baxımdan tərkibin təhrif olunduğu danılmazdır. Sözün Kas tayfa adı və "ka"-"şöhrətli" komponenti ilə etnooykonim kimi formalaşaraq "Şöhrətli Kas" mənasında olduğuna əminik.

**Xoşkeşin (2 kənd)**. Bu kəndlərdən biri 1590-cı ilə aid mənbə məlumatlarında Naxçıvan qəzasının Əlincə nahiyəsində Kırna və Berdik kəndləri arasında göstərilir (77, s.181). Eyni adda məntəqə adı 1728-ci ilə aid arxiv sənədlərində də həmin ərazidə qeydə alınır. Bu adda başqa bir məntəqə adı Naxçıvan qəzası tərkibində olan Dərələyəz nahiyəsində Morzav və Maliki kəndləri arasında da qeydə alınır (110, s. 26). A.Bağırov adın tərəfimizdən aparılan koş+kas+in bölgüsündə "koş" tərkibini doğru olaraq "köç yeri" mənasında qəbul etsə də, kas tərkibini etnos yox "dağ yamacında yağış sularının açdığı suxur" mənası ilə izah edir (154, s.146). Bildiymiz kimi qədim türk dillərində "dağ"- "tau", "yağiş"-"bu, bia" morfemləri ilə izah olunur və bu adda bu söz köklərinin heç birinə təsadüf edilmir. Digər bir tərəfdən Şamaxı dialektində sözün bu mənası müasir leksikonumuzdakı məna olduğu halda ərazidə e.ə. III minilliyə aid kromlex qəbirlərdən başlayaraq islam məzarlığına qədər 11 müxtəlif dövr qəbiristanlığı son zamanlar (min il hesab edək) dialektimizin bu günkü variantı ilə hansı zaman kəsiyində uzlaşa bilər? Təbii ki, bu etimologiyada söz kökləri bri-birini izləmir.

Biz yenə də bu etnooykonim Koş+kas+in leksik və qrammatik tərkiblərdən ibarət olduğunu, onun "Kasların köç yeri" mənası daşıdığına qəti əminik (242, s. 32-41). Yeri gəlmişkən onu da əlavə edək ərazidə qeyd etdiyimiz kromlex qəbirlərdən başlamaqla mövcüd qəbiristanlıqlar,

qədim türk dəfn adətləri ilə fərqlənir. Arxeoloq V.Əliyev və V.Baxşəliyevin tədqiqatları burada 5 min il müddətində daimi yaşayışın olduğunu təsdiq edir. İlan dağ adının İl+Anu -"Anu tanrısının yurdu" mənası verməsi də buna sübut ola bilər. Qəbir daşları üzərində ilan, toğan-qartal, insan və s. rəsmlərin olması, bunun islam dəfn adətlərinə qədər gəlib çatması da arxeoloqların elmi nəticələrinin doğruluğunu, 5 min illik tarixi dövrü tamamilə təsdiq edir.

**Ərgəz.** Etnooykonim ilk dəfə 1728-ci ildə Dərələyəz nahiyəsi daxilində Morzav və Məlikşah məntəqələri arasında qeyd olunur (110, s. 35). Əski türk tayfalarının "ər" komponenti ilə nominasiya-adlanma sisteminə uyğun olaraq etnooykonim kimi formalaşmışdır. Biz yuxarıda tayfa adlarının sub+ər, bulq+ar, kimm+er, xəz+ər, kanq+ər və s. (210, s. 125; 221, s. 32; 237, s. 125-127; 509, s. 17), nominasiya adlanma üslu olduğundan danışdıq və bu komponentin türk tayfa adlarının sonuna əlavə olunmaqla yanaşı ər+sak, ər+tus, ər+suk (avar hunlarında), ar+an (Anu ərləri-F.R.), ar+al, ar+alat, ur+yat kimi tayfa adlarının əvvəllərinə qoşulduğunu da qeyd etdik (30, I c., I kit., s. 71; 324, s. 54; 508, s. 91). Etnooykonim Kas tayfa adı və "ər" "kişi, igid, ər" komponentindən formalaşmaqla "Kas əri" mənasındadır.

**Böyük Xas, Kiçik Xas.** Məntəqə adına o dövr Naxçıvan qəzasının Maku nahiyəsində Maku qalası və Burhan kəndləri arasında rast gəlirik (77, s. 40). Birbaşa Kas tayfa adından yaranan bu etnooykonimlər sonradan toponimik nominasiya ilə əlaqədar "böyük", "kiçik" kimi fərqləndirmə əlamətləri ilə qeydə alınmışdır (168, s. 107).

**Kaşka.** Bir adı da "Qaşqa" yazılışında olan bu məntəqə adı təbii ki, heyvanları fərqləndirən əlamətlə nominasiya oluna bilməz və ad prototürk Kas tayfa adı ilə bağlıdır. Ada ilk dəfə 1728-ci ilə aid mənbə məlumatında Dərələyəz nahiyəsində Əngüri və Cəfərli kəndləri arasında təsadüf edirik (77, s. 58). Məntəqə adı Kas tayfa adı ilə yanaşı a≈u səsəvəzlənməsi nəzərə alınmaqla "ku"-"şöhrətli" sözü ilə etnooykonim kimi formalaşmışdır. Bu tərkibin -"şöhrətli" mənasına biz qədim yazılarda da "ku cav at tiləsə tuz etmek yetir"- "şöhrət qazanmaq istərsənsə duz-cörəkli olmaq yetər" ifadəsində də rast gəlirik (37, s. 322). Məntəqə adı "Şöhrətli Kas" mənasındadır.

**Kəsəngor.** Bir adı da "Kərəkor" olmaqla bu məntəqə adı 1728-ci ilə aid mənbə məlumatında Naxçıvan qəzasının Dərələyəz nahiyəsində

Qözluca və Çanaqçı kəndləri arasında rast gəlinir (77, s. 57; 110, s. 265). Maraqlı leksik-semantik quruluşa və mənaya malik olan bu məntəqə adında –an "mənsubluq" şəkilçisi ilə yanaşı qədim türk dillərinə məxsus "gor/gur/kur"- "görmək", "tabe olmaq", "təxmin etmək", "coşqun" "cəsur" və s. mənalı sözlərlə qarşılaşırıq (37, s.317, 328; 42, I c, s. 324). Fikrimizcə, son komponentdə g≈k, o≈u səsəvəzlənmələri müşahidə edilir. Tərkibin kür- "coşqun" "cəsur" mənasında olduğuna əminik. Bu halda məntəqə adı "Coşqun Kas əri" tərkiblərindən formalaşmaqla bu mənanı daşıyır.

**Əngus.** Maraqlı leksik quruluşa malik olan etnooykonim ilk dəfə 1590-cı ilə aid arxiv sənədində Karni nahiyəsində Axuşvəng və Qaqauz kəndləri arasında göstərilir (77, s. 170). Eyni adlı daha bir məntəqə adına "Əngiz" yazılışında Vedi nahiyəsi daxilində, Tizəkü və Musa Dərviş kəndləri arasında əhalisi azərbaycanlılardan ibarət kənd kimi rast gəlirik. Daha sonra bu ada 1728- ci ildə Xanəhməd kəndi yaxınlığında insan yaşamayan xaraba kənd kimi təsadüf edirik (77, s. 52, 173). Əsaslı təhrifə məruz qalan bu adlarda a≈ə, k≈g, a≈u kimi fonetik səsəvəzlənmələr müşahidə edilməkdədir. Hər iki məntəqə adı qədim kaslarda və şumerlərdə Anu tanrı adının iştirakı ilə formalaşmaqla "Anu kasları" mənasındadır. Əgər yadımıza salsaq Şar və Şuriyaş hər iki tayfada "ulu tanrı" kimi teofor ad idi (349, s.130-131). O zaman İslamda bu gün də Xuda, Tanrı, Allah adları işləndiyi kimi An tanrı adı da kaslarda və Subərti türklərində bərabər işlənə bilərdi. Əgər buradakı -ən/an tərkibini "mənsubluq" və ya "bənzətmə" mənasında qəbul etsək, o zaman adlar "kaslara mənsub" və "kaslara bənzər" mənalarında da izah olunur. Biz birinci "Anu kasları" mənasının doğru olduğunu düşünürük.

**Kəsiləк.** Bu ad 1728-ci ilə aid mənbə məlumatında Abaran nahiyəsində bir yazılışı da "Keçiləк" olmaqla Abaranoğlu və Əlimirək kəndləri arasında göstərilir (77, s. 54). Mürəkkəb quruluşa malik olan bu adda Kas tayfa adından sonra gələn "ilək" tərkibinə biz "İləki" yazılışında şəxsi adı-antroponim kimi rast gəlirik. Əgər xatırlasaq XIII-XIV əsrlərdə biz xeyli sayda "Hülaki" adında xan adına rast gəlirik. 1291-1295 - Keyxatu xan Hülaki, 1336-1338 - Məhəmməd xan Hülaki, 1339-1340, Suleyman xan Hülaki antroponimləri məhz belə adlardandır (468, s. 141-149) Bundan başqa "ilək" tərkibinə diqqət etsək iki hecadan ibarət olan bu komponent qədim türk dilləri üçün xarakterik deyil.

Adətən əski türklərdə iki-uç hecalı sözlər mürəkkəb quruluşlu iki-üç köklü sözlərdir. Bu nəzərə alındıqda tərkib Kas+il+ak şəkilindədir və bu tərkiblər haqqında da biz yuxarıda danışdıq. Məntəqə adı "Uca kas yurdu" mənasındadır.

**Gəlkəş.** 1728-ci ildə Zərzəmin nahiyəsində Əli Qışlağı və Əbdürrəzzaq kəndləri arasında heç kim yaşamayan xaraba kənd kimi göstərilir (77, s. 121). Qədim türk dilində kal-"ulu" söz köku ilə məntəqə adı kimi formalaşan bu oykonim "Ulu kas" mənasında izah olunur.

**Koş (2 məntəqə).** Mənbə və arxiv məlumatlarında bu tərkibdə iki məntəqə adı qeydə alınır. Onlardan biri 1590-cı ildə Karbi nahiyəsində Qızıləyrək kəndi yaxınlığında (77, s. 162), digəri isə "Koşlu" yazılışında 1728-ci ildə Naxçıvan qəzasının Qarabağ nahiyəsində bir adı da "Xoşlu" olmaqla Qaraçuq qışlağı və Ərəfsağı kəndi arasında göstərilir (110, s. 29). "Xas" məntəqə adlarının eyni olaraq Kas tayfa adından formalaşan bu adlardan ikinci addakı -lu fikrimizcə oykonimə sonralardan şəkilçi kimi əlavə olunmuşdur. Bu cür adlanma əski iltisaqi dil imkanları hesabınadır. Məntəqə birbaşa tayfa adı ilə adlanmışdır.

**Heks.** Naxçıvanla bağlı arxiv sənədlərində bu ad 1590-cı ildə Vedi nahiyəsində Bakir və Çaklu kəndləri arasında qeydə alınır (77, s. 172). Fikrimizcə, burada məntəqə adı Hekas, Hakas, Xakas şəklində olmuş, səsdüşümü-eleziya hadisəsi nəticəsində məntəqə adı ilkin formasını itirərək Heks yazılışında sənədlərə -a saiti olmadan düşmüşdür. Məntəqə adındakı h≈k, a≈e fonetik paralellik nəzərə alınmaqla ad "ka"-"şan-şöhrət" və Kas tayfa adından formalaşmışdır. Etnooykonim "Şöhrətli Kas" mənasındadır.

**Kurəkeşin.** Naxçıvanla bağlı qaynaq və arxiv sənədlərində bu ad 1590-cı ildə Karni nahiyəsində Göyağıl və Qaravəlli qışlaqları arasında bir adı da "Ağcaqışlaq" olmaqla göstərilir (77, s. 171). Yuxarıda qeyd etdiyimiz kimi "kur"- "coşqun" və -an-"mənsubluq" şəkilçisindən formalaşan bu məntəqə adı "Coşqun kasların yeri" mənasında izah olunur.

**Xazaviz.** Sənədləşmələr zamanı Kas+ev+uz yazılışından "Xazaviz" şəklinə düşən bu məntəqə adına 1590-cı ildə Naxçıvan qəzasının Karbi nahiyəsində Körpəli və Pal tayfa adını daşıyan Palu kəndləri arasında təsadüf edirik (77, s. 163). Qeyd etdiyimiz kimi adda k≈x, a≈ə, z≈s, u≈i səslərinin türk dillərinə xarakterik olan əvəzlənmələri baş vermişdir (266, s. 40, 39, s. 299). Adın tərkibindəki "uz"-"işıq" və "av/ev" kom-

ponentləri oykonimi "İşıqlı Kas evi" mənasında izah edir.

**Əraxus.** Qədim Naxçıvan ərazisi daxilində olan İrəvan nahiyəsində 1590-cı ildə Ərəmus və Qoca Əhməd kəndləri arasında qeydə alınan bu məntəqə adı (77, s. 160) k≈x, a≈u fonetik əvəzlənməsi nəzərə alınmaqla Ər+a+kas kimi bərpa olunur. Adın mənbə variantı şübhəsiz təhrif olunmuş şəklidədir. Tərkibdəki -a "kiciltmə" mənalı şəkilçi nəzərə alınmaqla oykonimi "Kiçik Kas ərləri" mənasında açıqlanır və bu onların azlıqda olması kimi izah oluna bilər.

**Xasbay.** Bu məntəqə adının bir adı da -a saitinin artırılması ilə "Xasabay" yazılışında olmaqla Naxçıvan qəzasının Şərabxana nahiyəsində 1590-cı ilə aid sənədlərdə Cərcəyis və Ağzıqanlı kəndləri arasında yerləşmişdir (77, s. 175). Oykonim- məntəqə adı Kas tayfa adı və "bay/bəy" titul bildirən leksik vahidlə oykonimləşmişdir. Yaşayış məntəqəsinin adı "Kas bəyi" mənasında izah olunur ki, belə nominasiyalara- adlanmalara biz digər türk boyları adlarında da təsadüf edirik. Qədim kasların Kaspi, skif-isskit türklərinin Traepi (221, s. 30-31), Goytürk tayfalarının Kabay, (212, s. 86-88), Doqquz Oğuz boylarının Bayurku (509, s. 17), Peceneq türklərininin Kulbay, Karabay, Avar hunlarının Bayan (508, s. 91), son dövr X əsrdə Səlcuq oğuzlarının Kurbay, Bəydil kimi tayfa adlarında da bu komponentlər nominasiyada iştirak etmişdir.

**Kususuz**. Etnooykonim ilk dəfə 1590-cı ildə qədim Naxçıvan qəzasının Vedi nahiyəsində Axurabulaq və Çardaqlı kəndləri arasında göstərilir (77, s.172). Məntəqə adının ilkin yazılışı a≈u fonetik paralelliyi nəzərə alınmaqla Kas+es/us+uz şəklində bərpa olunur. Bu halda tayfa adına qoşulan "es/us" –"ağıllı, zəkalı" və "uz"-"işıq, od" tərkibləri (355, s. 13) məntəqə adını "Zəkalı, işıqlı Kas" mənasında izah edir.

**Kəstənli.** Bu ad 1728-ci ilə aid mənbə məlumatında Vedi nahiyəsində Zimmi və Qarança kəndləri arasında göstərilir (77, s. 51). Kas tayfa adı təhrif olunmaqla a≈ə fonetik paralelliyi ilə qeydə alınmışdır. Tayfa adına qoşulan "tən/ten" tərkibi V.V.Radlov, M.Kaşğarı və digərlərinin sözlüklərdə qədim türk dillərində "can", "bədən", "vücud", "tən, ortaq" (37, s. 531; 43, II c., s. 307), "tan" yazılışında isə, "dan, sübh" mənalarında işlənmişdir (44, III c., s. 157). Lakin biz V.V.Radlovda bu yazılışda sözün "düzən" mənası ilə də qarşılaşırıq (55, III c., II h., s. 1616). Göstərilən leksik vahidlərlə məntəqə adı istənilən variantda türk dilində olmaqla "Kaslara tən" və "Kas düzü" mənasında açıqlanır.

Əgər tayfa adına qoşulan tərkibi "tanlı/tənli" yazılışında götürəriksə, qədim türk dillərində bu sözə "şəfəqli" mənasında rast gəlirik. Lakin oğuz dillərinə məxsus -nq qovuşuq samiti ilə "tanqla" komponenti "işıq saçmaq" mənasında işlənir (37, s. 533). Biz məntəqə adının "Kas düzü" mənasına üstünlük verərək -li şəkilçisinin sözə sonradan artırıldığını düşünürük.

**Qazxan.** Bu məntəqə adı bir adı da "Qazıxan" olmaqla 1728-ci ildə Naxçıvan ərazisinə daxil olan Karbi nahiyəsinin Dərvişlər və Apaça kəndləri arasında qeydə alınır. Arxiv sənədlərində məntəqə adının öncəki qeydə alınmada unudulduğu göstərilir. (77, s. 38). Ad k≈q, s≈z fonetik əvəzlənmələri ilə Kas tayfa adı və xan titul ifadə edən leksik vahidlə etnooykonim kimi formalaşmışdır. Tərkibdəki -ı saiti sözə sonradan əlavə olunmuşdur. Ad "Kas xan" mənasında ən qədim məntəqə adlarından biridir. Biz yuxarıda da qeyd etdik ki, qədim kaslar idarəçilikdə seçilənləri, rəhbər təyin olunanları "xian-xan" adlandırırdılar (318, s. 141, 237).

**Kusuh Şətili.** Naxcıvan qəzasının Vedi nahiyəsində 1728-ci ilə aid mənbə məlumatında Haramlı Şətili və Kiçik Merallar kəndləri arasında göstərilən bu məntəqə ad "Küsühlü" şəklində də qeydə alınır (77, s. 51). Maraqlı semantik quruluşa malik olan bu ad şübhəsiz ilkin variantda "Kas+uk" yazılışında olmuş sonralar təhrif olunaraq göstərilən şəkildə mənbələrə düşmüşdür. Adın ikinci tərkibi Şat/şad+il komponentləri də fikrimizin doğruluğunu təsdiq edir. Məntəqə adı "Kas Şadı övladının yurdu" mənasındadır.

**Keştasp.** Əski türk-Azərbaycan dili elementlərindən formalaşan bu məntəqə adı 1590-cı ilə aid mənbə məlumatlarında Naxçıvan ərazisinin əzəli torpağı olan Şərur nahiyəsində Oğuz türkləri ilə bağlı İlquzaqay və peçeneqlərlə bağlı Pekin məntəqələri arasında qeydə alınır (77, s. 168). Kas tayfa adına qoşulan "tasp" tərkibinin tas+pi tərkiblərindən olduğunu düşünürük. Bu zaman "tas/taş" tərkibinin daşıdığı mənalardan biri də "daxili, iç" anlamında, "pi" tərkibi isə yuxarıda da qeyd etdiyimiz kimi "bəy" mənasında izah olunur (37, s. 539). Əgər yadımıza salsaq Oğuz türklərində də "İc Oğuz", "Dış Oğuz" fərqləndirmə bölgüsünə rast gəlirik. Bunlar nəzərə alınmaqla oykonim "İç Kas bəyi" mənasında izah oluna bilər.

**Koş-Kabar.** Maraqlı morfoloji quruluşa malik olan bu məntəqə

adında biz a≈o, s≈ş fonetik səsəvəzlənməsini izləyirik. Ada 1728-ci illərə aid məlumatlarda bir adı da "Xoşxabar" olmaqla təsadüf edilir (77, s. 66). Onu formalaşdıran "kab/kap"- "yurd, vətən" tərkibi Kaf/kap+kas, As+af+kap (asəfkəf) kimi qaya mağara adlarında da təkrarlanır (-F.R.). Bu tərkiblər nəzərə alındıqda məntəqə adı Kas tayfa adı, "kab"- "yurd, vətən", eləcə də "ər" -"kişi, igid" koponentlərindən formalaşmaqla "Kas əri yurdu" mənasında etnooykonimə çevrilmişdir.

**Xazpuşnə.** 1590-cı ilə aid sənədlərdə Naxcıvan qəzasının Azadcirən nahiyəsinə daxil olan bu kənd adı (77, s. 170) o dövr Yaycı və Həsəncan məntəqələri arasında göstərilir. Adda k≈x, s≈z fonetik səsəvəzlənmə nəzərə alınmaqla Kas tayfa adına qoşulan "puş" tərkibi qədim türk dillərinə aid sözlüklərdə, M.Kaşğaridə "qəzəbli", "qızğın" kimi mənalarla açıqlanır (37, s. 127; 43, II c., s. 145). Biz sözlüklərdə "puşnə" tərkibinə də bütövlükdə, yalnız səslərin yerdəyişməsi ilə "puşan"-"narahat" yazılışında rast gəlirik (37, s. 545,). Bunlar nəzərə alınmaqla məntəqə adı "Qəzəbli, narahat Kas" kimi izah olunur.

Əgər diqqət etsək qədim Naxər ölkəsinin-Naxçıvanın oykonimik adlar sistemində fonetik əvəzlənmələr nəzərə alınmaqla təkcə Kas tayfa adı ilə bağlı 47 məntəqə adı qeydə alınır ki, bu da bir daha A.F.Elfordun kasların ilkin məskənlərinin Araz vadisi boyu Urmiya ərazilərinə qədər olduqlarını təsdiq edən tarixi faktlardır. Bir daha xatırladaq ki, müəllif, Vavilon dövlətinin Kas türkləri tərəfindən işğalı dövründən xeyli əvvəl onların Urmiya dağlarının şimal şərqində, Araz çayı vadisində Kuşan adlandıqlarını, bu ərazidə kassiter-dəmir çıxardıqlarını göstərir. (488, s. 63, 147-149).

Ümumiyyətlə əgər biz bura Bütöv Azərbaycan (Şimal və Cənub) o cümlədən Şimal Azərbaycan ərazilərindəki Kas, Kasapat, Qas, Qasap, Qasbinə, Qasapet, Keş, Keşkü, Keşər, Keşkir kimi yüzlərlə yalnız məntəqə adlarını, (35, s. 31, 56-57), eləcə də Cənub Azərbaycandakı kütləvi ad dəyişimindən sonra belə Kasre, Qəzvin, Kasaran, Kaşqam, Kaşak, Kaşan, Kəşmir, Kusan, Kasar, Kaşkay kimi şəhər və kənd adlarını əlavə etsək (510, s. 77, 85; 358, s. 569), bu tayfaların ərazilərimizdə ilkin kompakt şəkildə məskun olduqlarının şahidi olarıq. Bura qədim Azərbaycan torpaqları olan Kərkük türklərinin ərazilərindəki Qazanay, Kasal, Kaskul və s. adları (103, s. 116; 515, s. 33) eləcə də Orta Asiya, Altaylar, Kazan Tatarları və s. türk xalqları ərazilərindəki

kasların adını daşıyan minlərlə toponimik adları da əlavə etsək, Mesopotamiyadan başlayan qüdrəti Kas boylarının məskunlaşma əraziləri heyrətamiz bir coğrafi ərazi ortalığa çıxarır. Əcnəbi araşdırıcıları bu tayfaları irandilli hesab etsə də, təbii ki, İran bu qədər geniş ərazini işğal etmək gücündə olmamışdır. İran tarixçisi Seyid Nəfisi yazırdı ki, Aranda arilərə məxsus tayfalar heç vaxt yaşamayıb (309, s. 88).

İstər mənbə, qaynaq məlumatları, istər tədqiqatların ümumi elmi nəticələri, istərsə də adlardakı yazıyaqədərki dövrdən xeyli əvvəllərə aid protoazərbaycan dili elementləri və s. elmi faktlar, kasların dil, ərazi və inanc baxımından prototürk tayfaları olduğunu sübut edir. Bütün bu istinad olunmuş mənbə məlumatları və tədqiqatların elmi nəticələrinin müqayisələri, eləcə də apardığımız müqayisəli təhlil və etimoloji, linqvistik araşdırmaları nəzərə almaqla Kas prototürkləri ilə bağlı elmi nəticələri aşağıdakı 9 əsas amillə ümumiləşdirə bilərik. Bu ümumiləşdirmədə ortalığa qoyulan tarixi amillər və faktlar kasların türk-Azərbaycan boyları olduğunu bir daha təsdiq edir.

1. "Kas" tərkibindən yaranan bu tayfa adının tədqiqatçı alimlər tərəfindən tədqiqat əsərlərinə "kaşşu, kassii, kasseu" şəkllərində fonetik dəyişikliklərlə düşmə səbəbi ayrı-ayrı mənbə və xalqların dil imkanları hesabına olmuşdur.

2. Kaspi, xəzər, qazan, qazak və xakas tayfaları bu tayfaların varisləri olmaqla tədqiqatlarda ayrı-ayrı tayfalar kimi qələmə verilsələr də, əksər tədqiqatlardakı çoxluğun elmi dəlilləri ilə türk tayfaları olduqları dəfələrlə təsdiqlənmişdir.

3. Adı çəkilən tayfaların inanc, adət və adlar sisteminin Kas tayfaları ilə eyniliyi onların ümumtürk mənşəyindən xəbər verir və onların türk olduğunu bir daha sübut edir. Bundan əlavə mənbələr də, onların adətlərində, dilində, mətbəxlərində tam bir eynilik olduğunu bir daha təsdiq edir.

4. Xəzər türklərinin qədim və ilk orta əsrlərdə Azərbaycanda yayımı haqqında M.Xorenlinin (11, II kit., 65 baş.), bu məlumatın davamı kimi M.İ.Artamanovun araşdırmalarında kasların Kaspi dənizi ətrafı çöllərdə məskun olmaqla köklü türklər olması haqqındakı fikri (289, s. 114-117), eləcə də Kasar, Qazan, Qazax türklərinin Xəzər türkləri, qıpçaqlar və göytürk tayfaları arasında olmaları (212, s. 98-108; 324, s. 141) onların əski prototürk boyları olmasına eyni dil,

məişət və adətlərə mənsubluğuna təkzibolunmaz sübutlardır.

5. Kas tayfa adı digər türk adlarının tanrı adlarından adlanma ənənəsinə uyğun onlardakı Kaşşu tanrı adından götürülmüş, bir çox qaynaqlarda öz təsdiqini tapan "kaşşu" - "işıq" mənasında günəşə işarə mənasını daşımışdır. Bu günədək başqırd, özbək, tatar, uyğurlarda "günəş" sözünün "koyaş", "güyaş", "kuyəş" yəni "kaşşu" kimi adlanmaları da (39, s. 292-293) bunu təsdiq etməklə sözlərin sadəcə türk dillərindəki dialekt fərqləri olduğunu göstərir.

6. Kaslarda "yaşı"- "parıltı", "kik"- "göy", "tanq"-"dan", "haşmar"- "şahin", "umar"- "arzu etmək" "xan"-titul komponentlərinin tədqiqatlarda göstərilən şəkillərdə işlənməsi (318, s. 141, 237; 208, s. 63-64), və müasir oykonimik sistemdə təkrarı, leksikonumuzda bu tərkiblərdən bir qisminin "ummaq"-"arzu" etmək, "dan"- "dan yeri", "yaşı"-"yaşıl", işıqlı mənalarında hələ də ümumişlək sözlər kimi qalması adi təsadüf deyil, kasların türk tayfaları olduğunun sübutudur.

7. Kas çar adlarının etimologiyası, onların daşıdığı mənaların qədim türk dili elementləri ilə eyniliyi bu adların türk-Azərbaycan dilində olduğunu sübut edir və adlar türk dili imkanları hesabına, bu tayfanın mifik təfəkküründən qaynaqlanmaqla formalaşmışdır.

8. Kas türklərinin yayım arealı və əsasən türk xalqları ərazilərində xeyli sayda etnonim-tayfa adi kimi mövcudluğu, oykonimik sistemdə yazıyaqədərki dövr türk dili leksik komponentləri ilə formalaşması da bu tayfaların prototürk-protoazərbaycan boyları olmasını bir daha təsdiq edən elmi faktlardır.

9. Kas tayfalarının qaynaqlar əsasında Araz boyu məskunlaşmalarına dair tarixi faktlar, ərazidəki bu tayfa adı ilə bağlı 47 məntəqə adı və onlardakı yazıyaqədərki türk dili elementləri onların Naxçıvan ərazisində e.ə. V minillikdən avtoxton yerli sakinlər olduğunu sübut edən tarixi faktlardır.

## 8. SUBARLAR

Azərbaycan xalqının, eləcə də qədim Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi rolu olmaqla, tədqiqatlarda adı "Subər" tayfa birliyi kimi keçən bu boyların tarixi və dili haqqında sovetlər dönəmində əski prototürklərdə olduğu kimi rus, fars erməni siyasi ideologiyasına uyğun səthi təhlillər aparılmışdır. Bu cür fikirlər əsasən rus və erməni "tarixçi-

lərinin" yazdıqları uydurmalarda siyasi motiv kəsb etmişdir ki, bu da qeyri-obyektiv elmi nəticələrin söylənməsinə səbəb olmuşdur. Məhz buna görə də qaynaq və tədqiqatlara "subar, şubar, suvar, sabir, savir, savar" yazılışları ilə düşən bu tayfalar ayrı-ayrı tayfa birlikləri kimi təqdim edilmiş, onlar müxtəlif ərazilər və dillərin sahibləri misalında ayrı-ayrı ərazilərdə, başqa-başqa tayfalar kimi təqdim edilmişlər. Tarixin bir çox qədim qaynaq və mənbələrində bu tayfalar "savramat"-subar+mat-"subar ölkəsi", "subarti/şubarti"-şubar+ti "subərlərin tikdiyi, qurduğu" kimi türk dilində ölkə adları olaraq yer alsa da, onların dilləri Hind-Avropa dillərinə calanmış, tarixləri son dövrlərə aid edilmiş, mənşələri haqqında yanlış konsepsiyalar irəli sürülmüşdür. Lakin diqqət etsək bu adlarda b≈v, a≈u, ə≈i, a≈ə, s≈ş kimi türk dilləri üçün xarakterik olan fonetik dəyişikliklərə baxmayaraq (266, s. 40-41, 81-82) sözün tərkibi sub+ər şəklində dəyişilmədən sabit qalır. Bəs bu qədim türk boyları subərlər haqqında əcnəbi və ümumtürk tədqiqatçılarının elmi araşdırmalarında hansı konsepsiyalar irəli sürülmüş və hansı elmi nəticələr öz əksini tapmışdır?

Xeyli sayda əcnəbi və türk tarixçilərinin araşdırmalarında bu tayfaların tarixi haqqında müxtəlif fikirlər söylənilmişdir. Qədim dövr müxtəlif xalqların qaynaq məlumatları və salnamələrinə o xalqların dil imkanları hesabına fərqli yazılışlarla düşən tayfa adları mənşəcə bir kökdən gəlsələr də, yekun nəticədə ayrı-ayrı tayfalar olaraq tədqiq edilmiş, onların istər dili, istərsə də tarixi və məskun olduqları ərazilər haqqında ziddiyyətli fikirlər yaranmışdır. Bu məsələlərə aydınlıq gətirmək üçün bu yöndən öncə əcnəbi alimlərinin apardıqları tədqiqatların elmi istiqaməti və nəticələrinə diqqət edək.

Bir qrup araşdırmalarda subərlərin ərazilərimizə gəlişi gah hunlara bağlanmış, gah da xəzərlərin tarixi dövrlərinə aid edilməklə bu prosesin əsasən eramızın IV-VI əsrlərində baş verdiyi göstərilmişdir. N.Y.Merpert, V.F.Minorski, B.O.Dolqix və b. bu kimi araşdırıcıların müəyyən mənbələrə istinadən apardığı tədqiqatlar və yazdıqları monoqrafiyalarda yanlış konsepsiyalar irəli sürülmüş, savir-subərlərin Azərbaycana Şimaldan hun, bolqar boyları ilə gəldikləri, tarixi baxımdan isə bu tayfaların eramızın IV əsrində Kaspi dənizinin şimal-qərbində, orta əsrlərdən Qafqaz Albaniyasında yaşadıqlarına dair fikirlər söylənilmişdir (411, s. 109). Subər türklərinin mənşəyinə toxunan V.V.Bartoldun yazı-

larında isə, onlar Bolqar türklərinin bir qolu hesab edilməklə tarixləri yenə də yaxın bir dövrə, IV-VI əsrlərə aid edilmişdir (296, I, s. 209; 299, V, s. 357). Bu müəlliflərdən fərqli olaraq K.Kreçmer mövzuya başqa konsepsiyadan yanaşmış, o, savirlərin savromatlardan gəldiyi barədə fikirlərini tarixi mənbələr göstərməklə əsaslandırmışdır (324, s. 128). Belə yanlış tədqiqatlara və nəticələrə N.V. Piqulevskayanın da yazılarında rast gəlirik. O, Savir-subarlar haqqında verdiyi məlumatda Dərbənd ətrafında VI əsrlərin hadisələri ilə bağlı avar, bolqar, xəzər türkləri ilə bərabər savir-suvarlardan da bəhs edir və onların avar türklərinə məğlub olaraq Albaniya ərazilərində məskunlaşdıqlarını göstərir (432, s. 8-11). Subər-savirləri xəzərlərlə bir ittifaqda qəbul edən S.A.Pletnevanın yazılarında Subər türklərinə dair əlavə məlumatlara da rast gəlirik. O, Vizantiya tarixçisi Prokopi Kesarskidən VI əsrdə bu əsgərlərin hərbi mətinliyi, igidliyi və mərd yaşam vərdişləri, mənşəyinə dair maraqlı sitatlar gətirir: "Savirlər hun tayfalarıdır, Qafqaz dağlarında yaşamaqla ta qədimdən Roma və Parsua çarları ilə dostluq şəraitində yaşayırlar. Bu çoxsaylı tayfa müstəqil qollara ayrılırlar". Müəllifin Prokopidən gətirdiyi daha bir sitatında onun heyrət və təəccüblə yazdığı fikri xatırladır: "Bu varvarlar" müdafiə istehkamlarını asanlıqla dağıda bilirlər ki, bu üsul qədim Vizantiya mühəndislərinə belə məlum deyildi. (435, s.15-16). S.A.Pletnevanın Prokopidən gətirdiyi bu məlumatlara diqqətlə yanaşsaq, subərlərin tarixinin daha qədimlərə getdiyinin və onlarda qədim döyüş qaydalarının tarixi köklərə bağlı olduğunun da şahidi olarıq. Elə o dövr etnoqrafiyasından danışan A.Marsellin eramızın IV əsrinin sonunda hunların Meotid (Azov) gölündən Şimal buzlu okeanadək ərazilərdə suvarlarla birgə yaşadığını qeyd edərək, döyüşlərdə oxşəkilli düzümlərini təsvir edir, atlarının sürətli, özlərinin çevik olduqlarını yazırdı (3, XXIII, 6, 30, s. 236-243). Atların ilk dəfə türklər tərəfindən əhilləşdirildiyini bildiyimizdən onlarla istənilən formada davranışın da türklərə aid olduğunu söyləmək olar. Bu gün də türklər atlı ordunu "süvari" adlandırırlar. Bəlkə də bu söz 5 minillik bir tarixi adlayaraq günümüzə qədər gəlmiş qədim bir türk boyunun adı ilə bağlı döyüş düzümü olmuşdur. Türk hərb tarixində biz Turan ərazi adından "turan taktikası"- hərbi əməliyyat adının nominasiyasının-adlanmasının da şahidi oluruq.

Skif tarixini Herodota istinadən tədqiq edən A.A.Abraşkin özünün

bir neçə kitabında skifləri qədim ruslar hesab etməklə Subər türklərini də "rusların qədim əcdadları" sayaraq, onların e.ə. III minillikdə Mesopotamiyaya Şubartu-Subartu torpaqlarına gəlmə olduqlarını yazır. Bu tarixi hadisənin e.ə. IV minillikdə baş verdiyini elmi cəhətdən əsaslandırmağa çalışan müəllif, bu prosesi Rusiya ərazilərində baş verən buzlaşma ilə bağlayaraq onların həmin dövrdə cənuba doğru Kiçik Asiya torpaqlarına köçməklə bu ərazidə məskunlaşdıqlarını elmi cəhətdən əsaslandırmağa çalışır (278, s. 43).

Əgər Abraşkinin yazıları və gətirdiyi "fakta" diqqət etsək belə çıxır ki, ruslar hələ tarix səhnəsinə gəlməmişdən az qala 5 min il qabaq Mesopotamiyada mədəniyyət yaratmışlar. Bu "elmi konsepsiya" ermənilərin də qədim türk tarixinə sahiblənmək "konsepsiyalarından" heç nə ilə fərqlənmir. Halbuki rus tədqiqatçısı B.A.Rıbakov öz tədqiqatçıları S.B.Yuşkov, M.N.Tixomirov, Y.N.Şapov, N.A.Saxarov, M.O.Rapov kimi tarixçilərin əsərlərindən sitatlar gətirməklə ilk "Kiyev Rus" dövlətinin yaranmasını XII əsrə, Vladimir Monomaxın dövrünə aid edir (1113) və onun 12 il Rus dövlətini sülh içərisində yaşatdığını yazır (444, s. 12-17, 43, 48-51). Mənbədən də göründüyü kimi A.A.Abraşkinin skifləri qədim ruslar hesab etməklə Subər türklərini də "rusların qədim əcdadları" sayması konsepsiyasının heç bir elmi əsası yoxdur və ruslar bir xalq kimi XII əsrdə formalaşsalar da, hazırda "Rusiya deyilən" ölkənin ərazisi bütünlükdə TÜRK XALQLARININ əyalət və ölkələrindən ibarətdir. Bunun üçün keçmiş SSSR-nın inzibati ərazi bölgülü xəritələrinə baxmaq kifayətdir (-F.R.).

Tayfa adını "subarlar" kimi göstərərək onların Xəzər türklərinin etnogenezinin təşəkkülündə xüsusi rol oynadığından bəhs edən tədqiqatçılardan biri də R.Q.Faxrutdinovdur. Onun tədqiqatları və elmi yazılarında bu tayfaların ilkin əraziləri haqqında məlumat verilməsə də onların xəzərlərdən öncə tarix səhnəsində olduqları qeyd olunur (467, s. 16-17, 42, 187), lakin dəqiq tarix göstərilmir. N.Y.Merpert də bu tayfaların tarixi və dili haqqında tam olaraq qəti fikir söyləmir, özündən əvvəlki tədqiqatlara istinadən ümumi konsepsiyadan çıxış edir. O, subərləri "savar" adlandıraraq bu tayfaları köçəri tayfa kimi təqdim etməklə, nəticə etibarı ilə subər türk boylarını Kaspi dənizinin şimal-qərbində yaşayan hun mənşəli xalqlar olduqlarını yazmaqla, onların birgə yaşadıqlarını qeyd edir (406, s. 553). Bu mövzu daha bir rus alimi

A.E.Krımskini də maraqlandırmış, o da tədqiqatlarında Subər türklərini "savarlar" kimi V əsrdə Albaniyanın hakimiyyəti altında, onun şimal-qərbində Qəbələ rayonu ərazisində məskun olan xalq olaraq təqdim etmişdir (375, s. 295). Bir sözlə tarixşünaslıqda bəzən "hun" adı altında "savirlər" başa düşülmüş, onlar gah bolqar türkləri, gah hunlar, gah savramat ittifaqında göstərilmiş, gah da bolqar boylarının özü hunların bir qolu kimi göstərilməklə bu prototürklər tarixə ayrı-ayrı türk boyları kimi təqdim edilmişdir. L.Qumilyov və M.İ.Artamanovun araşdırmalarında da biz belə fikirlərlə qarşılaşırıq. Onlar Subər boylarını "savir-suvar" yazılışlarında qeydə almaqla bu tayfaların eramızın VI-VII əsrlərində Albaniyaya gəldikləri, Xəzər və Bolqar ittifaqı tərkibində isə, Zaqafqaziyaya gəldikləri haqqında məlumatlar verirlər. "Savir-suvarların" skif, sarmatlarla bərabər Dunay, Emba, Kaspi və Volqa ətrafında məskunlaşdıqlarını qeyd edən müəlliflər, bütün bu hadisələrin eramızın II-III əsrlərində baş verdiyini yazırlar (290, s. 82, 134; 337, s. 34-40). Bu ideyaların təkrarına rus tədqiqatçısı İ.M.Dyakonovun yazılarında da rast gəlmək mümkündür. Qeyd edək ki, bu müəllif də subar, savir türklərini ayrı-ayrı tayfalar kimi təqdim edir. O, savirlərin VI əsrdə (515-ci il) Zaqafqaziyaya daxil olaraq iranlılarla müharibə apardıqlarını, bunun Albaniyanın şimalında baş verdiyini, eləcə də savirləri savromatlarla müqayisə edərək onların savromatlar arasında yaşadıqlarını göstərir (351, s. 307). İrəli sürülmüş konsepsiyalardan da göründüyü kimi bu tayfaların məkanı və tarix səhnəsinə çıxdıqları dövr yanlış konsepsiyalarla "əsaslandırılmış" nəticədə fikir ayrılıqları ilə bir-birini təkzib edən nəticələr meydana çıxmışdır.

Ümumiyyətlə müəlliflərin apardıqları tədqiqatların istiqamətlərinə diqqət etsək, buradakı irəli sürülmüş fikirlərin əsasında aşağıdakı elmi nəticələrin yer aldığını görə bilərik:

1. "Subər, Savir, Savar" yazılışlarında mənbələrə düşən adlar ayrı-ayrı türk tayfalar kimi fərqli zamanlarda tarix səhnəsində olmuşlar;

2. Subərlərin tarixi və hadisələrdə iştirakı əsasən hun, xəzər, savromat, bulqar türkləri ilə bir ittifaqda verilməklə əsasən miladımızın II-VI əsrlərinə aid edilir;

3. Bu tayfaların fərqli tayfalar kimi təqdimatının əsas səbəbi, tədqiqatçıların bu adların mənbələrdəki müxtəlif yazılışlarına əsaslanması, dialekt fərqləri və aid olduqları dillərin fonetik və leksik imkanlarını

nəzərə almadıqları olmuşdur. Lakin onların hər biri tədqiq etdiyi tayfanın türk olduğunu birmənalı qəbul etmişdir;

4. Bütün bu əlamətlərlə yanaşı onların əsl tarixi, ərazisi və tarixi köçlərin olub olmamağı tam dəqiqləşdirilməmiş, tarix təhrif olunmuşdur.

Bu cür yanlış ifadə və konsepsiyalar adətlərinə uyğun olaraq "erməni alimlərinin yeni tədqiqatlarında" da öz əksini tapır. Erməni millətindən olan "tarixçilər" bu qədər alimlərin araşdırmalarına məhəl qoymadan bütün tarixi hadisələri və tarixdəki güclü tayfaları ermənileşdirməyə səy göstərməklə özlərinə "qədim tarix" uydurmaqda davam edirlər. Bu istiqamətdə xristian faktoru həmişə onların tərəfində olduğundan belə uydurma və yanlış konsepsiyalar hələ də erməni tədqiqatçıları tərəfindən "inkişaf etdirilməkdədir". Onlar bu tayfaların ən qədim tarixini mənimsəmək qəsdi ilə daha qədimlərə əl atırlar ki, bu da sonrakı dövr tarixini sahiblənmək yolunu asanlaşdırır. Qədim İkiçayarası mədəniyyəti və etnogenezi "tədqiq edən" ermənilər prototürkləri bu "ideologiyaya" daxil etməklə şumer tarixində hürrit boylarının ərazisinin "Subir", akkadlar tərəfindən "Subaru, Subar, Subarti" adlandırdıqlarından bəhs edərək ərazi və tayfaları Cənub Ermənistan adlandırmaqla guya hürri, subar, mitan boylarının ermənilərin qədim əcdadları olduğunu yazırlar. Bunlara qane olmayan erməni oyunbazları Mitan-Hürrü dövlətlərini də qədim erməni dövləti olduğunu iddia edirlər (546).

Təəssüflə qeyd edək ki, bəzi Azərbaycan alimlərinin də bu istiqamətdə apardıqları araşdırmalar bir qədər səthi olduğundan bu vəziyyət ermənilərin "fəallığına" şərait yaratmışdır. Azərbaycan xalqının etnogenezi tarixinə dair xeyli yeni elmi fikirlər söyləməklə ciddi araşdırmaları ilə yeni elmi nəticələrə nail olan Q.Qeybullayev Subər-savir-suvar boyları haqqında geniş araşdırma apararaq İ.M.Dyakonov, M.İ.Artamanov, V.F.Minorski, A.E.Krımski, L.N.Qumilyov və b. araşdırmalarına istinadən onların bir türk tayfası olduğuna, xalqımızın etnogenezində iştirakına dair xeyli elmi dəlillər göstərsə də, onların ərazilərimizdə məskunlaşması tarixini erkən orta əsrlərə aid etmişdir. Müxtəlif tədqiqatçıların araşdırmalarını təhlil edən Q.Qeybullayev onların bir neçə dalğa ilə hunlarla bərabər qədim Alban ərazilərinə gəldiyini göstərir (324, s. 127-128). Bu tayfaların tarixi və köçləri haqqında daha bir maraqlı məlumata biz Z.Bünyadovun yazılarında rast gəlirik. Onun,

Xosrov Ənuşirəvanın dövründə Azərbaycana 10 min Suvar türkünün köçürülməsi haqqındakı məlumatı da dolayısı ilə bu tayfaların ərazilərimizə gəlmə olduğunu göstərir (159, s. 179). Təbii ki, bu belə deyil və biz aşağıda bu barədə ətraflı danışacağıq.

Bu istiqamətdə Azərbaycan alimi S.B.Aşurbəylinin araşdırmaları əsasən rus tədqiqatçılarının elmi axtarışları ilə üst-üstə düşməklə bu araşdırıcıların irəli sürdüyü konsepsiyalara və onların monoqrafiyalarına uyğun məlumatlarla məhdudlaşır. Müəllif, savir-subarların Azərbaycana Şimaldan hun, bolqar boyları ilə gəldiklərini yazır (295, s. 105). Azərbaycanda yaşayan və mənbələrdə öz adını qoruyan tayfa adlarımız haqqında T.Əhmədovun da araşdırmaları elmi cəhətdən xüsusi əhəmiyyətə malikdir. O, savirləri savir-xəzər (Qıpçaq qrupu) tayfalarına aid etməklə bu tayfaların eyni mənşədən gəldiklərini yazır (168, s. 246). Azərbaycan xalqının soykökündən geniş bilgilər verən M.Seyidovun yazılarında isə, dəfələrlə bu tayfaların adı subar-suvar şəklində çəkilsə də, onların tarixi, ərazisi haqqında kitabda hər hansı bir məlumata rast gəlmirik. Lakin A.S. Bukşpana istinad edən müəllif, bir neçə kiçik türk qəbilələrində Sobiyyər-Sob adlı tanrının olduğunu göstərir (260, s. 11, 235, 389).

Azərbaycan xalqını formalaşması və onun etnogenezinə dair ayrıca monoqrafiya yazan A.S.Sumbatzadənin də yazılarında bir qrup tarixi və dil yönlü fikirlər qaranlıq qalmaqla yanlış nəticələr söylənilmişdir. O, Manna, Midiya, Atropatena, Albaniya dövlətlərinin etnik tərkibi və tayfaları haqqında məlumatlarda Hürri, Kuti, Lulubi (Lulubəy), Kas, Kadus, Mard, Omard, Kaspi kimi tayfalarla bərabər Savir türklərinin də adını çəkərək onları hunların içərisində yaşayan tayfa kimi göstərməklə eramızın VI əsrinə aid edir. Lakin bu tayfanın ilkin məskəni haqqında yeni bir məlumat vermir (457, s. 33-34, 82-83).

Biz Subər türkləri haqqında tədqiqatlara və elmi məlumatlara Türkiyə tədqiqatçılarının da yazılarında rast gəlirik. Bu tədqiqatlar Subər türkləri haqqında geniş məlumat verməklə yanaşı bu tayfaların tarixinin müəyyən dövrlərini də tədqiqata cəlb etməklə müxtəlif elmi faktlar göstərmişlər. Kiçik Asiya deyilən hazırkı Türkiyə ərazilərinin qədim dövr etnosları və onların məskun olduqları əraziləri, tarixi proseslərdə iştirakı haqqında əsaslı tədqiqatlar aparmış F.Kırzıoğlunun tədqiqatlarında bu istiqamətdən elmi cəhətdən xüsusi əhəmiyyətə malik yeni fikirlərə rast gəlirik. O, subər-savar boylarını qıpçaqların bir qolu

kimi təhlil etməklə bura Xəzər, Bulqar, Sıgnak, Kemek, Başqırd, Uran, Tokxısı kimi qolları da daxil etmiş, onların tarix səhnəsinə gəlişlərini e.ə. VII yüzilliyə, eramızın isə VI yüzilliyinə aid etmişdir (512, s. IX, 35). Bunun əksinə olaraq Şərif Bastavın yazılarında bu qədim türk tayfası haqqında araşdırmalar səthi aparılmış, yer almış, bu qədim ərazidə prototürk boylarını avtoxton - yerli sakinlər olmasına baxmayaraq, onun tədqiqatlarında yanlış elmi nəticələr yer almışdır. Ş.Bastav qədim Subər boylarını "sabir" adlandırmaqla onları türk kökənli olmadığını vurğulayaraq tarixi keçmişimizdə xüsusi yeri olan bu tayfaları naməlum xalqlar sırasına daxil etmişdir (516, s. 52-85, 89-96). Qeyd etmək lazımdır ki, belə fikirlər ermənilərin "uydurma tarixçilərinin" diqqətindən yayınmır və hər addımda bu cür fikirləri daha qabarıq şəkildə istinad nöqtələrinə çevirirlər.

Yuxarıda qeyd etdik ki, hər bir prototürk boyunun bir neçə adda salnamə yazıları və qaynaqlarda yer alma səbəbi bu tayfaların tarixi proseslərdə əlaqədə olduğu xalqların dil imkanları ilə bağlı olmuşdur. Təbii ki, burada o xalqların dillərinə məxsus fonetik, leksik, morfoloji prinsiplər əsas rol oynamışdır. Əraziyə "gəlmə" məsələsinə gəldikdə isə, tarixi yer dəyişmələr dünyanın bütün ölkələrindəki tayfa birliklərinə xas olmaqla, təbii hadisələr və tarixi proseslərlə bağlı olmuşdur. Burada ərazilərin işğalı, coğrafi məkanın əlverişli olması, təbii fəlakətlər və s. əsas amillər sayıla bilər. Biz elə son dövrlər Məhsəti türklərinin siyasi proseslərlə bağlı yerdəyişməsinin və ana yurdlarına dönüşünün şahidi olmuşuq. Bu prosesdə bir türk ərazisindən başqa türk ərazisinə köçmə bu zaman iqtisadi böhran və qarşıdurmalara şərait yaratma sözsüz ki, siyasi oyunların nəticələri idi. Geri dönüş isə tarixi şəraitin nəticəsidir.

Beləliklə zaman-zaman öz ölkələri, yurdları olmuş Subər türkləri İ.M. Dyakonov, L.N. Qumilyevi, M.I. Artamanov, B.O. Dolqix, Ç.X.Mir-zəzadə, S.B.Aşurbəyli, Ş.Bastav, V.F.Minorski, A.E.Krımski, N.Y.Merpert, N.V. Piqulevskaya və b. araşdırıcıların əsərlərində məhz bu amillərin təsirindən yanlış tədqiqat mövzusuna çevrilmiş bu tayfaların ərazilərimizə ilk orta əsrlərdə gəldikləri vurğulanmışdır. Tədqiqatlarda yer alan bu fikirlərdə Subər türkləri Azərbaycana şimaldan "gəlmiş", bu tarixi proses eramızın V-VI əsrlərində baş vermiş, onların bir tayfa kimi fəaliyyətləri Hun, Bolqar, Xəzər, Qıpçaq, Savromat türkləri içərisində göstərilmişdir.

Əgər diqqət etsək araşdırmaların nəticələrinə görə xalqımızın və

qədim Naxçıvan əhalisinin etnogenezində tarixi rolu olan Subər türk boylarının ərazilərimizə gəlişi e.ə. VII əsrdən başlamaqla, eramızın VI əsri arasında müəyyənləşdirilmiş, daha çox "gəlmə" konsepsiyasına üstünlük verilməklə onların Mesopotamiya ərazisindəki tarixi və bunun Naxçıvanla əlaqəsi haqqında fikir söylənilməmişdir. Təbii ki, elmi, arxeoloji axtarışların yeni-yeni tapıntıları qədim dünya tarixinə yenidən baxış və qaynaqlara yenidən müraciət zərurəti yaratmışdır. Yeni tapıntılar tarixi faktlar isə indiyədək yazılmış tarixi hadisələrin də bəzi məqamlarını yeni məlumatlarla zənginləşdirmişdir. Sübər türklərinə gəldikdə isə, əgər diqqət etsək bütün bu araşdırmalarda Subər-suvarların bir türk tayfası olması dəfələrlə təkrar olunmuş, Ş.Bastavın fikirləri nəzərə alınmazsa, onlar yalnız türk boyları ilə bir ittifaqda təqdim olunmuşlar. Bir məsələni də xüsusi olaraq qeyd etmək istərdik ki, bu tayfaların Azərbaycanın cənubunda, Naxçıvan, İrəvan, Təbriz, Urmiya ətrafında yayımı və bu tarixi proseslərə təsiri də tədqiqatçılar üçün geniş tədqiqat obyektinə çevrilməmiş, son dərəcədə tarixi əhəmiyyətə malik olan bir məsələ kimi diqqətə alınmamışdır. Biz bu tayfaların yayım arealını, tarixini və Naxçıvanla bağlılığının nə zamandan və hansı tayfalarla olmasına dair bəzi tarixi faktları da nəzərdən keçirməklə Subər türklərinin Naxçıvanda hələ e.ə. IV minillikdən avtoxton-yerli sakinlər olduğunu sübut edən bəzi tarixi faktlara da müraciət etmək istərdik.

Rus alimi İ.M.Dyakonov Suvar və Subi boylarını müxtəlif tayfa kimi qəbul etmiş, ciddi tarixi faktlara söykənərək bu tayfa adının Subi (suvbi) tərkibindən ibarət olduğunu yazmış, bu türklərin Manna və Matay (Maday) dövlətlərinin ilk ərazi və əyalətlərində fəaliyyət göstərməklə bu yerlərin əsl sakinləri olduğunu qeyd etmişdir. Müəllif onların mənbələrdə hələ e.ə. III minillikdən başlamış böyük tayfa icmaları və birlikləri kuti (quti), subar, lulubi, kaşşu, turukkilərlə yanaşı Manna, Matay Assur və Urartu ərazilərində qeydə alındığını tarixi faktlarla əsaslandırmışdır (349, s. 141, 157, 173).

Bu problem məsələyə milli konsepsiyadan yanaşan bir çox alimlərimiz çoxsaylı yanlış faktlara tutarlı elmi dəlillər gətirməklə onların tarix səhnəsinə çıxdıqları dövr və əraziləri haqqında yeni konsepsiyadan çıxış etmişlər. Görkəmli alimlərimiz Ziya Bünyadov yuxarıda qeyd etdiyimiz "gəlmə" konsepsiyasına düzəliş edərək Y.Yusifovla bərabər bu problemə yeni konsepsiyadan yanaşmış, daha dəqiq tarixi faktlar gös-

tərmişlər. Onların redaksiyası ilə 1994-cü ildə çapdan çıxan "Azərbaycan tarixi (ən qədim dövrlərdən XX əsrədək)" kitabında e.ə. II minillikdə İkiçayarasının şimalında böyük düzənlikdə yaşayan Subar/Subir tayfaları Urmiya ərafındakı suvbi/sumbi tayfaları ilə eyni kökdən gələn tayfalar kimi göstərilməklə "Savir, Subar" yazılışları ilə araşdırılmışdır. Bu adların Sub/suv kökündən gəldiyi qeyd olunan bu kitabda "Su ölkəsinə mənsub lulu", "Subar ölkəsinə mənsub lulu ifadələri"nə, eləcə də qədim türk Aratta ölkəsinin adının da bəzən "Su/Şu" kimi göstərildiyinə dair yeni tarixi faktlar göstərilməklə bütün bu məsələlər elmi cəhətdən əsaslandırılmışdır (72 s. 80-81). Göstərilən bu faktlar Lulubi tayfaları ilə Şu-Su tayfalarının eyni mənşəyə və dilə malik olduqlarını təsdiq edir. Subar boylarının Şu tayfalarının varisləri olması məsələsinin elmi faktlar əsasında təsdiqi, onların Urmiya, Göyçə və Van gölü ətrafında, eləcə də Araz hövzəsi boyu, yəni qədim Naxarin-Naxçıvan ərazilərində də yayıldıqlarını yetərincə tarixi faktlar sübut edir.

Hələ e.ə. III-II minilliklərdə baş vermiş tarixi hadisələri geniş araşdırmaqla yanaşı gərəkli elmi faktlara istinad edən F.Ağasıoğlu, öz yazılarında Subar (Sub ərləri) türk boylarının e.ə. IV minillikdə Fəratla Dəclə çayları arasında yaşadıqlarını, bu ərazinin eləcə də Bağdadın yuxarı hissəsinin Subartı adlandığını yazır. Daha sonra müəllif onların Türük, Quti, Lulu, Kuman və b. türk boyları ilə e.ə. II minillikdə Assur, Şürri-Mitanni, Babil və Elam dövlətlərinə qarşı vuruşlarından bəhs edir, Hett, Assur, Elam yazılarına istinad edən müəllif, onların Dəclənin yuxarı axarında Turxi-Türki adında şəhərlərinin olduğunu da qeyd edir (163, s. 39, 155). O, digər bir kitabında əsaslı elmi faktlara söykənməklə Subər türklərinin mitanların bir boyu olduğunu göstərir (164, s. 9).

Əgər F.Ağasıoğlunun bu elmi fikirlərini və göstərilən qədim dövlətlərin yazılarındakı məlumatları diqqətə alsaq, Mitan dövləti Hürrü boylarının ana yurdu olmuş, qədim Naxarin-Naxçıvan əraziləri isə Mitan-Matiena dövlətinin qüdrətli əyaləti olmuşdur. Daha sonra bu dövlət süqut etməklə Midiyanın şimal-qərb əyaləti kimi öz mövcudluğunu qorumuşdur (23, I, 189; V, 52). Bu tarixi faktlar müqabilində qədim Naxarin-Naxçıvan ərazilərinin etnik tərkibinin əsasən Naxər türklərindən ibarət olmaqla As, Türük, Hürri, Subar, Quti, Lulu, Kuman/Koman, Turdi və b. türklərdən ibarət olmaları faktı da danılmazdır.

Şərq tarixi haqqında qiymətli elmi fikirlərin müəllifi Y.Yusifov Su

-suvların türükkülərlə bərabər İkiçayarasının yuxarı axarlarında böyük güc olduqlarından bəhs edir. Müəllif, bu tayfaların e.ə. II minillikdə şərq və qərb qollarını birləşdirərək Subar dövləti yaratdıqlarını göstərməklə bu tayfaların Assur, Şuşarra kimi dövlətlərə güclü təzyiq etdiklərini, böyük gücə malik olduqlarını da elmi cəhətdən əsaslandırır (271, s. 138). Bu tayfalarla bağlı S.Kaşqayın məlumatları da tarixi baxımdan öz əhəmiyyəti ilə fərqlənir. Müəllif, e.ə. IX əsrin əvvəllərində İkiçyarasındakı Zamua xalq adının Subi türk boylarının adı ilə bağlılığını qeyd edir və onların Aşşurnasirapol II ilə vuruşmasından da ətraflı danışır. Daha sonra müəllif, göstərilən adın ərazidə həm də əyalət kimi fəaliyyət göstərdiyini də qeyd edir (368, s. 45). Bu məlumatı, eləcə də türk dillərinə məxsus m≈b fonetik hadisəsini nəzərə alsaq, sabu/subi etnos adı həm də xalqdır - (F.R). Tədqiqatların nəticələrinə istinad etsək, bu tayfaların tarixi proseslərə qatılması e.ə. IV minilliklərə aid olur ki, bu da Subər boylarının qədim İkiçayarası tayfa ittifaqı ilə bir dövrə düşməklə həmişə qədim Naxarin-Naxçıvan ərazisi ilə etnik eyniliyini bir daha sübut edir. Bəs qaynaq məlumatları bu haqda daha hansı bilgiləri verir?

Qədim tarixçi və coğrafiyaşünasların əsərlərindəki məlumatlar bu tayfaların dəqiq tarixi, dili və yerini müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyətə malikdir. Herodotun "Tarix " əsərində bir tayfa kimi Subar türklərinin adına rast gəlmirik. Lakin müəllif, skiflərdən və Don çayından (əsərdə Tananas) şərqdə Qara dənizin şimalında savramat və sarmatların yerləşdiyini qeyd etməklə (23, IV, 21) qədim dövr İtaliya haqqındakı tarixi prosesləri şərh edərkən, ərazidəki Krafis çayı üzərində Sibaris şəhərinin adını çəkir və burada yaşayan əhalini-tayfaları "sibaritlər" adlandırır. Buradakı "sibarit" yazılışlında olan tayfaların mənşəyi haqqında Herodotun məlumatlarında hər hansı bir izaha rast gəlmirik. Tarixçi şəhərin aid olduğu ərazinin Erikin (Ərkin-F.R.) torpaqlarına aid edir və burada çarın Tel (tal tayfa adından, -F.R.) olduğunu, Sibaris şəhərinin isə e.ə. 510-cu ildə İtaliyanın cənubunda yaşayan Ellin tayfaları krotonlar tərəfindən dağıdıldığı haqqında məlumat verir (9, V 44-47, VI 21, 127, VIII 47). Əgər buradakı Sibaris şəhər adından -is yunan dilinə aid adlıq hal şəkilçisini kənara qoysaq, təbii ki, söhbət qədim türk subərlərin tikdiyi şəhərdən gedir. Əsərdəki Erikin ərazi adına gəldikdə isə sözdə "Ərgənəkon" türk dastanı adının "ərgin" komponentini izləyirik ki, bu tərkib də ilkin komponent kimi F.Rəşidəddinin

tarix haqqındakı məlumatlarında "Ergine-Kun" (30, s.153-154), Xivə xanı Əbül Qazinin (1603-1664) əsərində isə "ergənə" şəklində yazıya alınır (2, s. 33-34). Bununla bərabər Midiya, Manna, Atropatena ad sistemindəki Qinzin, Kintau, Kinqaruki kimi toponimlərdə (208, s. 90) işlənən "kin"-"qala" sözünün təkrarı "ər"-"igid" leksik vahidinin türk tayfalarında ümumişlək forması təbii ki, təsadüfi oxşarlıq deyil, bu adların türk dilinin qanunları əsasında yarandığını, sözlərin eyni mənşədən gəldiyini göstərir. Əgər yadımıza salsaq Erikin sözü ilə Xəzər dənizinin əski adı Qirkan sözü sadəcə dilimizə xarakterik olan -q səs düşümü-eliziyası ilə fərqlənir (144, s. 225). Mənbələrə diqqət etdikdə göstərilən ərazidə qədim As türklərinin mövcudluğu və ərazinin Asiya adlanması və s. məsələlər qənaətimizə görə ciddi elmi nəticələr söyləməyə də əsas verir. Qətiyyətlə deyə bilərik ki, yuxarıda tərəfimizdən ilk dəfə təhlili verilən bu adlar türk subərlərə aid olmaqla qədim türk dili imkanları hesabına yaranmışdır.

Biz e.ə. I əsrin sonlarında Strabonun Qafqaz coğrafiyasına dair məlumatlarında da Sarmatiya və savramatlar haqqında məlumatlara rast gəlirik. O, Xəzər dənizi ilə Qara dənizin (kitabda Ponti) arasındakı şimal bölgədə savramatların yaşadığını və Sarmatiya düzənliyini qeyd edir, lakin, subər türklərinin adını çəkmir (31, XI, 2, 15). Təbii ki, buradakı tayfa adı kimi verilən "savramat" sözündə yuxarıda da qeyd etdiyimiz kimi subar+mat –"subar ölkəsi, yurdu"ndan bəhs olunur.

Eramızın II əsrində yaşamış K.Ptolomeyin əsərlərində subərlər Şimali Qafqazda qeydə alınmaqla, onların bu ərazidə çox erkəndən məskən saldıqları göstərilir (20, III, V, 10). Subərlərlə bağlı maraqlı bir məlumata VII, XII əsr müəllifləri Moisey Kalankatuklu və Mixtar Qoşun yazılarında da rast gəlirik. Onları məlumatlarında Savramatiyanın və Sarmatiyanın bütöv bir ölkə kimi adlandığı, burada savirlərin yaşadıqları qeyd edilir (24, s. 15). Lakin təəssüflə deməliyik ki, sovetlər dönəmində yazılan və Azərbaycanın qədim tarixi, eləcə də Manna, Midiya, Atropatena, Albaniya kimi dövlətlərimizlə yanaşı onların etnik tərkibi haqqında da məlumat verən "Azərbaycan tarixi üzrə qaynaqlar" kitabında Urartu yazılarından başlayaraq, Strabon, Ptolomey və b. antik müəlliflərin əsərlərinə qədər nümunələr göstərilmiş, azərbaycanlıların etnogenezi haqqında məlumat verilməklə bir çox tayfa adlarımızın adı sadalanmış, lakin, burada Subər türkləri haqqında heç bir məlumat ve-

rilməmişdir (73, s. 9-26). Buna baxmayaraq Assur, Hett, Elam və s. dövlətlərin tarixi ilə bağlı yazılarda Subər-Subar türkləri haqqında istər Azərbaycan, istərsə də Naxçıvan xalqının etnogenezi tarixinə dair yeni məlumatlara rast gəlirik. Təbii ki, bu məlumatların tarixi qədimdir, lakin, alimlərimizin tədqiqatlarından kənarda qalmışdır.

Qaynaq məlumatlarında II Aşşurnasirapolun Zamuaya hücum edərkən bu ordunun qarşısına Ameka (Abaka) adlı sərkərdənin öz dəstəsi ilə çıxması və Sabua dağında gizlənməsi haqqında məlumat verilir. Adı çəkilən Sabua dağı Etina ilə bir-birindən aralıda yerləşir (271, s. 46). Bundan başqa e.ə. II minilliyin sonlarında siyasi hadisələri şərh edən mənbələrdə Tiqr (indiki Dəclə) çayının şimalında adı çəkilən Şubir ölkəsi və Kuman dövlətinin yerləşdiyi ərazilərdə Böyük Zab, eləcə də Kiçik Zab çay adları qeydə alınır (120, I c., s. 515). Bu mənbə məlumatlarından belə bir elmi nəticəyə gəlmək olar ki, hələ e.ə. II minilliyin sonlarında Subər türklərinin sıx məskun olduqları ərazilər mövcud idi onların öz adları "Subi" adı ilə adlandırdıqları Şubir ölkəsi, həm çar şəhəri olan Zambi, eləcə də Sabua, Zab kimi dağ, qala şəhər və çay adları mövcud idi. Bununla bərabər bu tayfalar qədim türklər olmaqla Koman türkləri ilə kompakt şəkildə yaşayırdılar. Bunu deməyə bir neçə başqa elmi əsasımız da var.

Cənub bölgələrimiz Həsənulu, Dingətəpə, Zaviyə, Sakuz, eləcə də Naxçıvan ərazilərində arxeoloji qazıntıların elmi nəticələrinə diqqət yetirən M.N.Poqrebova, A.R. Qirşman, R.D.Barnet, A.Qodar, B.B.Piotrovski, S.İ.Rudenko və b. bütövlükdə bu mədəniyyət nümunələrinin "vəhşi skif stilində" olub bütöv Azərbaycan mədəni nümunələri ilə eyniliyi qənaətində dayanırlar (436, s. 43-47). Təbii ki, türk mədəniyyətinə qısqanclıqla yanaşan bu müəlliflər hazırda "vəhşi skif stilli" bu nümunələri-qədim türk mədəniyyətini Avropa muzeylərinə fars, erməni, rus, gürcü mədəniyyəti nümunələri kimi təqdim edirlər. Lakin fars "mədəniyyəti" dedikdə nədənsə bu "vəhşilik" nəzərdən yayınır. Təəssüflə qeyd etməliyik ki, mədəni mirasımızın bu talanını dünya dövlətləri və təşkilatlarına hələ də tarix, mədəniyyət oğurluğu kimi lazımi şəkildə tanıda bilməmişik.

Rus ideologiyasına uyğun olaraq təbii ki, bu tayfalar yerli sakinlər deyil, "gəlmə" kimi qəbul edilməli idi. Bildiyimiz kimi dünya tarixşünaslığında mütləq qəbul edilmiş "böyük köçlər", "şimaldan gəlmə"

kimi ifadələr xalqların etnogenezi, tarixi, və dilinin formalaşması tarixi prosesini yanlış yola istiqamətləndirməklə tarixi bir dolaşıqlıq yaratmışdır. Lakin qədim Naxçıvan ərazilərində son dövrlər arxeoloji araşdırmalardan aşkarlanmış maddi-mədəniyyət nümunələrinin e.ə. V-III minilliklərə aidliyi bu uydurma konsepsiyanı rədd edir. Bütün bu məlumat və maddi sübutların nəticəsi olaraq aşağıdakıları deyə bilərik.

1. Urmiya ətrafı, Arazboyu mədəniyyətlərin eyniliyi və bunun Şimal türklərinin ərazilərində də təkrarlanması bu maddi-mədəniyyətin eyni mənşəli, eyni mifik təfəkkürlü xalqlar tərəfindən yaradıldığını sübut edir.

2. Müxtəlif yazılışlı türk tayfaları subərlərin tarix səhnəsinə çıxdıqları "Hun, Bolqar (bulqar), Savromat dövrlərinin "Kiçik Asiya" dövründəki lulubi-subər, koman-subər və s. birlikləri ilə müqayisəsi "Kiçik Asiya" dövrünün daha qədim tarixə malik olduğunu ortalığa çıxarır.

3. Bu mədəniyyət nümunələri və etnos adlarının müəyyən fonetik dəyişikliklə ifadə olunmasına və eyni kökdən gəlməsinə baxmayaraq cənub türk mədəniyyət nümunələri də Şimal türk mədəniyyətindən tarixi qədimliyi ilə seçilir.

Bu amillər də rus siyasətində üzdə olan "gəlmə" konsepsiyanın yanlış olduğunu əsaslı surətdə təkzib etmiş olur. Beləliklə mövcud olan faktlar müqabilində tayfaların eyni kökdən gəldiyi, köçlərin isə öncə şimala doğru hərəkətini təsdiqləməklə BÖYÜK KÖÇLƏRİN- GERİYƏ BİR DÖNÜŞ olduğunu sübut etmiş olur. Şübhə yox ki, Subər türklərinə də bu konsepsiyadan yanaşılmış və tarixi dolaşıqlıq yaranmışdır.

Lakin xeyli sayda qaynaqlar, Şərq tarixi və rus dilində yazılmış "Ümumdünya tarixi" kitabları bu qədim türk boyları haqqında aparılmış tədqiqatlardan da fərqli olan xeyli sayda yeni tarixi faktlar göstərməkdədir. Bu mənbələrə istinadən demək olar ki, Subər türkləri hələ e.ə. IV-II minilliklərdən Şimali Mesopatomiyadan başlayaraq, Mitan dövləti ərazilərindən tutmuş Van gölü, Urmiya gölü ətrafı, Araz hövzəsi, Habur və Bəlx çayı yaxaları, Kərkük ellərinə qədər məskun olmaqla, bu ərazilərin avtoxton-yerli sakinləri olmuş bu torpaqlarda ortaq türk mədəniyyəti yaratmışlar (-F.R.).

Qaynaqlar Subərlərin Kiçik Asiya, Misir, Suriya, Qafqaz ellərinə qədər yayıldığını, güclü bir prototürk tayfaları olduğu haqda da geniş

məlumat verir (120, I c., s. 311; 271, s. 52-53). Bu mənbələr onları Hürri boylarının əcdadları, ərazinin ən qədim sakinləri hesab edilməklə, Qərb və Şərq subarlara bölür. Şumer yazılarında bu qədim tayfalar yaşayan ölkənin adı Subir, akkadlarda isə Subartu adlanmışdır (120, I c., s. 515-516, 521-524; 271, s. 338).

Yeri gəlmişkən bir məsələni də diqqətə çatdırmağı məqsədəuyğun hesab edirik. Əgər diqqət etsək Şumer yazılarında adı çəkilən "Subir" ölkə adı "şumer" sözü ilə eyni kökə malikdir. Türk dilləri üçün xarakterik olan və mən-ben, min-bin ilmi-elmi kimi işlənmə xüsusiyyətini daşıyan m≈b, b≈p, e≈i fonetik hadisələrini nəzərə alsaq (39, s. 382; 303, s. 255; 67, s. 231, 240), Şumer, Subir adlar "şuber", "sumir" kimi oxunacaq ki, bu da subərləri Şu tayfalarının varisi, şuların isə şumerlərin varisləri olduğunu, eyni tarixi dövrdə yaşadıqlarını sübut edir. Bu fikrimizi onların İkiçayarasındakı ərazi yaxınlığı, dilləri, eləcə də mifologiyalarındakı tanrı adlarının eyniliyi də təsdiq edir (-F.R.).

Lakin xüsusi qeyd etmək istərdik ki, Ermənilərin SUBƏR tarixinə sahiblənmək qəsdləri gələcəkdə ŞUMER- SUMƏR tarixinə də sahib olmağın başlanğıcıdır (-F.R.)!...

Bir çox mənbələr Subartu-Şubartu tarixi ərazisi haqqında fərqli fikirlər irəli sürürlər. A.M.Kobrinski Rus müəlliflərinin Subar etnoslarını qədim Akkad dilində Subartu-Şubartu əyalətinin yerli sakinləri hesab etməklə onların assur-vavilon dilində "hürrit" adlandıqlarını e.ə. III minillikdə Suriya, Finikiya, Fələstin ərazilərində kiçik çarlıqlar yaratmaqla Şimali Mesopotamiyada yaşadıqlarını, sözun isə "tzabar"-"yəhudi sakini" mənasında Yəhudi dilindən gəldiyini qeyd edir (547). Rus müəllifi V.D.Qladkinin yazıları və qədim mənbələr e.ə. IV-III minilliklərdə Subər boylarının qədim Şərqdə, Şimali Mesopotamiyaya aid olan Tiqr və Evfrat çaylarının (müasir Dəclə və Fərat) yuxarı axarlarında məskun olduqlarını göstərməklə bu adın e.ə. II minillikdə hürrü adı ilə paralel işləndiyini qeyd edir (328, I c., 351; 548). Akkad çarı Sarqonun (e.ə. 2316-2261-ci illər) tarixi yürüşlərindən bəhs edən bəzi yazılı mənbələr onun Avan, Suz, Ərbil, Kərkük şəhərlərini tutması zamanı onun Akkad dövlətinə Subərti-Şubərti ölkəsindən hücum edən tayfaları da, qovub ölkədən çıxardığını yazır. Burada Subərti-Şubərti ölkəsinin Dəclə və Fərat çaylarının orta axarlarında yerləşdiyi göstərilir (86, s. 74, 88).

Əgər biz Subər türklərinin tarix səhnəsinə çıxdıqları dövrü

mənbələrin məlumatlarına görə xronoloji ardıcıllıqla izləsək bu tayfa adına e.ə. IV minillikdə akkadların dilində ölkə adı kimi Şubartum-Subartumina-Şu-ba-ri, Amarna arxiv sənədlərində Subari, Şumer mifik dastanı "Enmerkarda" Subartu, Luqalannemund imperiyası tərkibində isə Subartu adında əyalət adı kimi rast gələcəyik. Bundan sonra Akkad çarı Sarqonun dövründə ad Subar, III Ur sülaləsinin Şalqu çarlığı zamanında Subartu və o dövrdən bir qədər sonra e.ə. III minilliyin ikinci yarısında Şumer və Utidən şərqdə "Şubur-Hamzi" yer adı kimi təsadüf edirik. Orta Assur (e.ə. II minillik), Urartu, Yeni Assur, dövrlərində (e.ə. IX-VII əsrlər) proto Subar türkləri azadlıqlarını müvəqqəti əldən versə də Yeni Babil, əhmənilər dövrü biz onu yenə müstəqil dövlət kimi tarix səhnəsində görürük (87, s. 239; 207, s. 261). Bu ardıcıllığın məntiqi nəticəsi isə Subər türklərinin nə yəhudi, nə də ermənilərlə heç bir əlaqəsi olmadığını ortalığa çıxarır.

Rus tarixçisi V.V.İvanovun yazılarında tarixi hadisələrin rus ideologiyasına uyğun ermənilərə və farslara açıq xidmətini görürük. Lakin bəzən tarixi faktları nə qədər gizlətməyə çalışsalar da tarix öz tarixiliyində qalır. Müəllifin göstərdiyi mənbə məlumatlarında e.ə. II minilliyin əvvəllərində Vavilon çarı Xamurappinin dövründə ölkənin adına Subartu, Het mənbələrində isə "Azzi" yazılışında rast gəlirik. Bu ərazi adı isə Subartu torpaqları ilə eyni coğrafi məkanı əhatə edirdi. (360, s. 31-33). Burada V.V.İvanov Het mənbələrində qeydə alınan "Vakaqn" himnini "erməni" yazısı kimi qələmə verməyə çalışsa da Subər torpaqlarının "Azzi" adlanması qədim As türk boylarının hələ e.ə. IV minillikdə bu ərazilərə sahibliyini bir daha təsdiq edir (-F.R.).

Əgər göstərilən məlumatlara diqqət etsək, bu məlumatlarda tariximiz üçün son dərəcə əhəmiyyətli olan bir məlumatla rastlaşırıq. Əsərdə "Onlar Hürri boylarının əcdadları, ərazinin ən qədim sakinləri idi" ifadəsini nəzərə alsaq bu ifadənin məntiqi nəticəsi Subar türklərinin Hürri boylarının əcdadları olmaqla bu boyların qədim Azərbaycan ərazisində miladdan 4 min il əvvəl yaşaması təsdiq olunur. Belə olan halda subərlərin tarixi hürrülərin tarixindən min il əvvələ, ən azı e.ə. V minilliyə təsadüf edir (-F.R.). Şübhəsiz Subar türkləri Mitan, Quti, Lulubi, daha sonra Manna, Midiya, Atropatena və Albaniya dövlətlərinin ərazisində də qədim dövrlərdən məskunlaşmış, bu dövlətçilik tarixi isə, təbii ki, elə həmin dövrlərdə, yəni e.ə. V minilliyin sonları, IV minilliklərin

əvvəllərində baş vermişdir.

Sual oluna bilər ki, bəs bu tayfaların Naxçıvan ərazisində mövcudluğu və yerli sakinlər olması hansı tarixi amillərlə şərtlənir? Yuxarıda göstərilmiş qaynaq məlumatlarına istinadən aşağıdakıları söyləyə bilərik:

1. As, turdi, hürri, türükki-türk, quti, lulubi, şu, naxər, koman, və b. boylarla siyasi proseslərə qoşulan bu tayfalar eyni geniş bir ərazidə ittifaqda olmuşlarsa onlar bütöv bu ərazilərin avtoxton-yerli sakinləri idilər və əraziyə nəzarət isə prototürk ittifaqı şəklində həyata keçirilirdi.

2. Subər və Şumər tayfa və yer adlarının eyni mənaya malik olmaqla yalnız fonetik səs əvəzlənməsi ilə fərqlənməsi Sub/Şub tərkibli sözlərin Naxçıvan toponimik sistemində təzahürü, bu ərazinin e.ə. V minillikdə Mesopotamiya ilə etnogenetik eyniliyini sübut edir.

3. Subər türklərinin adının m≈b, s≈ş, e≈ə fonetik paralelliyi onların elə Sumər-Şumər mənşəli olması, eləcə də hürrü boylarından öncə tarix səhnəsində olmaları, onların eyni kökdən gəlməklə e.ə. V minillikdən tarix səhnəsində olduqlarını təsdiq edir.

4. Mitan dövlətinin aparıcı tayfalarından olan Subər türkləri heç şübhə yox ki, mitanların bir bölgəsi olan "Naxər-Naxarin"-Naxçıvan əyalətinin də yerli sakinləri idi və bu bölgə Midiya, Atropatena dövrlərində də "qüdrətli əyalət" kimi mövcud olmuşdur.

5. Urmiya ətrafı bölgələrin arxeoloji mədəniyyət abidələrinin ümum Azərbaycan qədim arxeoloji mədəniyyət abidələri ilə eyniliyi bunların eyni tayfa ittifaqları tərəfindən yaradılmasının birmənalı sübutudur.

6. Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazilərində bu tayfa adını daşıyan etnooykonimlərdəki qədim türk dili elementləri və leksik vahidləri, nominasiya üslubu adların subərlərə aid olduğunu oykonimlərin o dövrə məxsus iltisaqi dil üslubu imkanları hesabına yarandığını tamamilə təsdiq edir.

Biz adların etimoloji, linqvistik və ekstralinqvistik təhlilləri zamanı bu barədə ətraflı danışacağıq. Eradan əvvəl V minillikdən bütöv Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan ərazisində məskunlaşmış bu boyların izləri 1590-cı ilin məlumatlarında keçmiş Əlincə, Şürəgel, Zebil, Talin və s. nahiyələrdə Subzadur, Şebran, Subalıq, Zaviyyə, 1728-ci ilin məlumatlarında isə, Suvralı, Səvalıq, Subərçi, Zebil, Zimmi,

Salbarton-Subarton, Şebran kimi məntəqə adlarında qalmaqdadır (77, s. 124, 168, 179, 182; 110, s. 27, 32, ).

Ərazimizin Babək, Ordubad, Şahbuz, Culfa bölgələrində hazırda da aktiv fonda daxil olan Subartan (kitablarda -r hərfinin eleziyası-səs-düşümü ilə Subatan kimi yazılmışdır) Sabirkənd - Subarkənd - Sumbatan, Şapurqala- Subarqala coğrafi məkanlarından e.ə. IV-II minilliklərə aid arxeoloji mədəniyyət nümunələrinin aşkarlanması ərazidə şəhər mədəniyyəti və məskunlaşma prosesinin V minillikdən öncə baş verdiyinin təkzibolunmaz sübutlarıdır (109, I c., s. 411,425; 229, s. 13-14).

Subər türk boylarının yayım arealı da elmi cəhətdən xüsusi əhəmiyyət daşıyır. Əgər türk xalqlarının onomastik sistemini izləsək orada Subər türklərinin izini qoruyan xeyli sayda Subarqapid, Savri, Savar, Şabran, Şibirxan, Sivviridir, Sabra Tarkan, Sabaran kimi coğrafi ad, antroponim və digər onomastik vahidlərə rast gələrik (304, s. 235; 392, s. 208-217; 338, s. 506-507). Bu onomastik vahidlər e.ə. IV-I minilliklərdən e.ə. IX əsrə qədər prototürk As, Türük, Suvar-Subər, Mitan, Quti, Skif, Manna, Midiya, Alban kimi dövlət və tayfa adlarında, eləcə də Orxon-Yenisey yazılarında çar, şəhər, dağ, çay, göl və s. coğrafi adlar sistemində qeydə alınır (23, IV, 76; 349, s. 144; 337, s. 101).

Bununla bərabər Cənubi Azərbaycan, Sibir, Altay, Bolqar torpaqları və b. türklərin ərazilərində yayılmış Şueberta, Sebalan, Sevare, Şabarkuduk, Şubarşi, Sabari, Siberut, Sibir, Şibil kimi minlərlə kənd, rayon, şəhər, yurt, aul adlarında bu boyların izlərinin mövcudluğu (103, s. 36, 54-55, 110, 117) təsadüfi deyil, onların məskunlaşma arealının, eləcə də digər türk boyları kimi subərlərin şimala doğru e.ə. II minillikdən başlayaraq ilk köçlərinin tarixi izləridir.

Hazırda Orta Asiya türklərinin coğrafi adlarında Sibir, Şubarkuduk, Subarte, Şubarxa, Suvarlı, Subarkale, Şubarşi və s. bu kimi adlar (103, s. 44, 54-55 ) bu gün də belə aktiv toponimik göstəricilərdir. Sibir ərazisində Sibir, Orta Asiyada Çuberkul, özbəklərdə Çumbay şəhərləri, qazaxlarda Çopau çay, Subeyta dağ adları da Subi tayfalarının günümüzə qədər çatan izləridir (yenə orada s. 54-55, 68). Eradan əvvəl V minillikdən bu günə 7 min illik bir zaman əhatəsində adlarını yaşadan subərlər böyük bir güc sahibi olmuş, 5 min ilə qədər tarixin ictimai-siyasi hadisələri axarına Subər, Savir, Sabar, Subir kimi adlarla təsir etmiş, gündoğan-günbatan ərazidə dövlətlərini qurmuş bu günkü türklərin

ululları, əcdadları olmuşlar. Azərbaycan toponimik sistemində Biləsuvar, Sabarlı, Şabran, Şabartı, Səbirit, Suvar, Sabiroba, Subarbağ kimi yüzlərlə məntəqə adları (35, s. 84-90) e.ə. V minillikdəki adları demək olar ki, təkrar edir. Bu adlar olan ərazilərdəki qədim arxeoloji maddi-mədəniyyət nümunələri də bu türk boyları ilə bağlı tarixi proseslərin maddi və canlı nümunələridir.

Naxçıvana aid qədim tarixi sənədlərdə, müasir coğrafi ad sistemində subərlərlə bağlı xeyli məntəqə adına rast gəlirik. Bu gün belə türk xalqlarının dili və ləhcələrində xarakterik ç≈s≈ş fonetik səsəvəzlənmələri Subər tayfa adının da ərazi və bölgələrdə, qaynaq və dialektlərdə "çubi, subi, şubi, subər, sibi" kimi yazılışlarla yayılmasına səbəb olmuşdur. Dilimizdəki "saç" sözünün qazaxlarda "şah", qırğız, tatar, uyğurlarda "çaç, çəç, siçan"sözünün qırğızlarda "çiçkan,"uyğurlarda "çaşkan", və ya əksinə "çadır, çağ "sözünün qazaxlarda "şatır, şağ, çaqqal"sözünün tatar, türkmən dillərində "şakal, şağal"və s. kimi işlənmələri və ümumtürk dialektinin bu tipli xarakterik göstəriciləri də deyilənləri bir daha təsdiq edir (39, s. 111, 113, 729).

Bəs özündə Maku, Poldəşt, Iğdır, Kars, Diqor (Dügər), Qağızman, bütövlükdə İrəvan xanlığı və b. əraziləri birləşdirən qədim Naxərin-Naxçıvan ərazisində öz izlərini yer adlarında yaşadan subilərin yaratdığı Zaviyə, Şuban, Zuvalıq, Subzadur, Sabir Dizə kimi məntəqə adları (77, s. 168, 183) hansı mənaları daşıyır. Bu adlarda hansı yazıyaqədərki dövr dil elementləri özünü qoruyub saxlamışdır və türk dillərinin hansı arxaik qatlarında bu leksik vahidlərə rast gəlirik? Bütün bu suallara cavab vermək üçün Naxçıvan ərazisində subərlərin yaratdığı 21 etnooykonimin etimoloji izahına və buradakı dil elementlərinə diqqət etməyin bu problemin həlli istiqamətində xüsusi elmi əhəmiyyət daşıdığını düşünürük.

**Şuban.** Ad sub+an şəklində Subi etnosunun adı, omonimlik xüsusiyyətli "an"- "ağıllı, həssas" və -an "mənsubluq" şəkilçisinin (168, s. 387, 390; 64, I c., s. 153) iştirakı ilə etnooykonim kimi formalaşmışdır. 1590-cı ilin arxiv sənədlərində Vəng məzrəsi və Gözlü kəndləri arasında qeydə alınan bu məntəqə adı o dövr Naxçıvan qəzasının Talin nahiyəsinə daxil idi (77, s. 175). Türk dillərinə məxsus "an"- "ağıllı, həssas" leksik vahidi və Sub tayfa adından ibarət olan etnooykonim "Ağıllı sub" mənasında izah olunur. Əgər tərkibdəki "mənsubluq" ifadə edən -an kom-

ponentini şəkilçi variantında qəbul etsək məntəqə adı "Subi yeri" mənasını ifadə edəcəkdir. Hər iki halda söz qədim türk dili elementi ilə məntəqə adı kimi sabitləşmişdir. Biz adın coğrafi məkan xarakterini nəzərə alaraq ikinci mənaya üstünlük verməklə "Sub yeri, məkanı" etimoloji mənasının daha düzgün olduğunu düşünürük.

**Suvarlar.** Qədim Naxçıvan ərazisinə daxil olan Naxçıvan qəzasının Şürəgəl livasının Şürəgəl nahiyəsində bir adı da Savralı olmaqla xaraba kənd şəklində 1728-ci illərin məlumatlarında rast gəlinir. Məntəqə qədim kimmer türklərinin adını daşıyan Gümru və Çubuqlu kəndləri arasında əhali yaşamayan xaraba kənd kimi qeydə alınır (77, s. 124). Sözün sonundakı cəmlik ifadə edən -lar şəkilçisi məntəqə adına sonralardan artırılmış, adın ilkin variantı Suv+ar, Sub+ər şəklində olmuşdur ki, bu da yuxarıda qeyd etdiyimiz kimi xeyli sayda türk tayfa adlarının nominasiya-adlanma üslubuna uyğundur. Məntəqə adı "Sub ər" mənasında etnooykonimə çevrilmişdir.

**Zimmi.** Bu məntəqə adı 1724-cü ilin məlumatlarında Naxçıvan sancağının Dərəşahbuz nahiyəsində Külüs və Nurs kəndləri arasında qeydə alınır (110, s. 27). Türk dillərinə məxsus z≈s, m≈b, u≈i, fonetik hadisələrinin müşahidə olunduğu bu etnooykonim (303, s. 224-226) quruluş formasına görə Sub+bi şəklində, Lulu+bi, Kas+bi, Tata+bi, Sil+bi kimi türk tayfalarının quruluş formalarını təkrarlayır. Qədim şumerlərdə biz "be/bi" sözünün "bəy", "cənab" rütbələrində işləndiyini görürük (65, II c., s. 97). Belə olan halda məntəqə adı "Sub bəyi" mənasında etnooykonim kimi formalaşmışdır.

**Zəviyyə, Zeyvə**. Xeyli mübahisə doğuran bu adların etimoloji izahları yad dil komponentləri ilə izah olunduğundan bu haqda bir qədər ətraflı danışmağı lazım bilirik. Məntəqə adları "Zəviyyə" yazılışında qədim Naxçıvan ərazisi tabeliyində olan İrəvan qəzasının İrəvan nahiyəsindəki prototürk Şu boylarının adını daşıyan Şuşad kəndi və Şələkkərək kəndləri arasında, "Zaviyə" yazılışında isə Karbi nahiyəsində Yataq kəndi və əhali yaşamayan Əbdürrəhman məzrəəsi arasında 1590-cı ilin arxiv sənədləri və onları əks etdirən kitabların məlumatlarında qeydə alınırlar (77, s. 160, 163). Bir çox tədqiqatlarda bu oykonimlərdəki dil vahidlərin izahını "guşə, künc, bucaq" mənalarında fars dilləri ilə izah edərək (38, s. 207) bunu ərazinin İranla həmsərhəd olması ilə bağlamışlar (168, s. 74). Lakin hörmətli alimlərimiz nədənsə Naxçıvanın

Cənubi Azərbaycan, İrəvan xanlığı və Türkiyə ilə həmsərhəd olduğunu, və bunun elə də uzaq bir tarix olmadığını unudurlar. Fikrimizcə oykonim ilkin variantda Sub+ay+ye formasında "Sub" tayfa adından və qədim türk mifində geniş yer alan "Ay"mifi və qədim "ye"- "sahib olmaq" türk sözləri ilə (37, s. 252) formalaşmışdır. Maraqlı və elmi cəhətdən xeyli əhəmiyyətli tərkibə malik olan bu coğrafi adda etnos adına qoşulan "ay" komponenti qədim türkllərin şəxsi ad-antroponimik, eləcə də yer adları sistemində Bak+ay, Kitbat+ay, Koloks+ay, Taurl+ay, Tan+ay As+ay, ölkə adı Mad+ay/Mat+ay, tayfa adı Pal+ay kimi yüzlərlə adda təsadüf edilir (23, III 128; 349, s. 91, 120, 176). Q.Qeybullayev "ay" komponentinin türk dillərinə məxsus qədim şəkilçi hesab edir (208, s.98). Lakin biz e.ə. II minillikdə tarix səhnəsində olan saklarda Aylis çar sülaləsi adına (163, s. 80), hunlarda Aytan, səlcuqlarda və türkmənlərdə Ayrum, Ayrım, X əsrdə səlcuqlarda Aymur, XV əsrdə oğuzların Yıva qolunda Aydın tayfalarının adlarında bu morfem-komponentlə rastlaşırıq (506, I c., s. 76; 221, s. 43-45, 192 s.). Qeyd olunan adlarda "ay" komponenti söz köklərinin əvvəllərində gəlir ki, bu da iltisaqi dillər üçün şəkilçinin söz önündə gəlməsi qanununa zidd hal sayılır. Türk dillərində yalnız -anti, -bi, -na, -a kimi dilimizə özgə dillərdən adlamış şəkilçilər söz önündə işlənə bilir (222, s. 161). Biz bu tərkibin qədim türk inancında Ay ilahəsi-totemi, mifi ilə bağlı olmasına qəti olaraq əminik. Araşdırmalarında Ay və Günəş mifinə ətraflı aydınlıq gətirən M.Seyidov onların tanrı kimi türk tayfalarının mifində iştirakına dair "Tonyuquq" abidəsindən, hun, Altay miflərindən nümunələr göstərmişdir (261, s. 222-223). Səthi etimoloji izahın hesabına ərəb-fars dili ilə izah edilmiş bu tərkiblərə bəzi fikirlərimizi də əlavə etmək istərdik. Eyniköklü bu oykonimlərin daha çox mübahisəli etimologiyalarla üzləşməsi, onların daha çox ərəb-fars dilləri ilə izah olunması fikrimizcə zahiri oxşarlığın nəticəsidir. Əski mənbələrdə və müəyyən tədqiqatlarda, o cümlədən müasir tədqiqatçıların əsərlərində (168, s. 74) "guşə", "künc", "bucaq" sözləri ilə (38, s. 207) etimoloji izaha cəlb olunan bu məntəqə adları tək deyildir. Yeri gəlmişkən onu da xatırladaq ki, Azərbaycan toponimik sistemində xeyli sayda Xanağa-xanəgah, Amsar-əmsar, Dər-deyr-"kilsə", Əbrəqunus-ahurakaniş- "kilsə dərə" və s. sözlər də səthi tədqiqatlar nəticəsində əsaslı tədqiqat aparılmadan yadmənşəli adlar sırasına daxil edilmişdir. Biz məqalələrimizin birində bu mövzuya toxunmaqla, bizə

ərəb-fars, erməni, talış, tat, ləzgi dillərində təqdim edilmiş yer adlarının türk dilləri ilə müqayisədə təhlilini vermiş, əsl həqiqətdə onların türk-Azərbaycan toponimləri olduğunu yazmışdıq (240, s. 85-94.). Bir məsələni yaddan çıxarmaq olmaz ki, tək tanrıya inanc və onu göydə axtarmaq ilk dəfə e.ə. VIII əsrdən qədim türk inamı və mifik təfəkkürü ilə başlamış, Gök Tanrı, Tenqri, Xuday kimi adlarla tanınmışdır. Təbii ki, tək allahlığı təbliğ edən ərəblərin işğalı zamanı qədim türk tanrısına məxsus məbədlərin adı cüzi dəyişikliklərlə ərəb dilinə çevrilmişdir ki, bu da hələ onların ərəblər tərəfindən yaradılması demək deyil. Digər bir tərəfdən sözlər köklərinə görə Xanağa-Xanəgah, Əbrəqunus-Ahura kanis, Zeyvə-Zaviyyə, Zirə-Cəzirə, Amsar-Əmsər və s. sözlərin ilkin variantları ərəb-fars mənşəli sözlər kimi tədqiq olunmuş ikinci variantlarından əsaslı şəkildə fərqlənir. Əgər zahiri oxşarlığı nəzərə alsaq, onda gərək "kam"-"ağız" və ya "arzuya çatmaq", fars sözünü türk tayfaları qam-şamanlarla, "kaş"-"arzu", "istək" fars sözünü qədim Kaş/Kas türk tayfa adları ilə, "masədəq"-"uyğun", "isbat" ərəb sözünü də qədim türk masagetlərlə və s. bağlayaq. Təbii ki, bu yanlış fikirdir və bütün dillərdə, o cümlədən də ərəb-fars dillərində göstərilən nümunələrə uyğun (38, s. 272, 276, 326) yüzlərlə omonim xarakterli söz bugünkü leksikonumuzda və orfoqrafiyamızda mövcuddur. Ona görə də Zeyvə məntəqə adının ərəb dilində olması fikrinin tam əleyhinəyik.

Bütün türk dillərinə məxsus z≈s, v≈b≈f, ə≈i, ç≈z≈s, kim fonetik hadisələr mövcuddur (266, s. 41-42, 81). Əgər bunları nəzərə alsaq Zeyvə məntəqə adını "subi" kimi də oxuya bilərik ki, bu da qədim Subər türklərində Zambii, Zamua, Zab kimi adlar sırasında olduğu kimi "subbi" tayfa adından bə/bi "bəy" tərkibi ilə formalaşan etnooykonimdir. Bu adlar tarixi qaynaqlara köçdüyü vaxtlarda isə (e.ə. III minilliklər) farslar hələ tarix səhnəsində yox idi. Addakı "bi"-"bəy" komponentinin yuxarıda etimoloji izahını verdiyimiz Zimmi-Sub+bi məntəqə adında da təkrarı subərlərin bir qolunun "Subbi" adlanmaqla daha qədimlərdə şumerlərlə bərabər eyni dövrdə tarix səhnəsində olduğunu sübut edir (F.R.). Türk tayfaları adında "bi/pi"-"bəy", leksik vahidi minillər boyu nominasiyada iştirak etmiş və günümüzdə də işlənməkdədir (64, I c., s. 97).

Tarixdə Manna qalalarından da birinin adı Zibia kimi çəkilir

(368, s. 12). İ.M. Dyakonov bu sözün İzribia-Uzbia şəklində II Sarqon və Aşşurbanapal tərəfindən xatırlandığını yazır (349, s. 247). Maraqlı məsələlərdən biri də budur ki, Zaviyə adlı bir məntəqə adı da Cənub Azərbaycanımızda Sakaz-Sak uz- "işıqlı saklar" adlı coğrafi məkanda yerləşir. Burada geniş qazıntı aparan R.Dayson ərazinin qala istehkam kimi qeyd edir. Tapılan əşyalar isə e.ə. II minilliyin sonu I minilliyin əvvəllərinə (IX-VII əsr) aiddir və bu əşyaları B.B.Piotrovski Şimali Qaradənizətrafi və Kubanətrafı bölgələrin mədəniyyət nümunələri ilə eyniləşdirir (368, s. 12, 45). Nə olub, yoxsa farslar hələ xalq kimi tarix səhnəsinə çıxmamışdan türk mədəniyyətini yaradırdılar? Təbii ki, bu belə deyil.

Subər türklərinin tədqiqinə biz Azərbaycan tədqiqatçılarından daha çox Q. Qeybullayev (208, s. 56), A.S. Sumbatzadə (457, s. 82-83), Y.Yusifov (489, s. 33.) və başqalarının əsərlərində rast gəlirik. Subilər hələ e.ə. III-I minilliklərdən Cənubi Azərbaycan və Albaniya ərazilərində mövcud idilər (284, s. 83). Bu tayfa adından yaranan Zeyvvə-Subbi yer adını ərəb fars dilinə salıb tarixdən silmək sadəcə işğalçıların məqsəd-yönlü siyasəti idi. Bütün qeyd etdiklərimizi nəzərə alaraq biz adın qədim türk mifindəki "Ay" tanrı və Sub tayfa adı ilə yanaşı "ye"-"sahib olmaq" qədim türk fel kökünə istinadən məntəqə adların "ay" mifi və "ye" fel kökündən yarandığını düşünməklə onların "Ay tanrısının subları", eləcə də Subbi-"sub bəyləri" mənasında olduğunu düşünürük. Doğrudur "ay" tərkibi qədim türk dili lüğətlərində "ayrı, aralı, haça" mənalarında da işlənmişdir (37, s. 16). Lakin oykonimin "Ayrı, parçalanmış Sub ərləri" mənasında izahı bir qədər məntiqsiz görünür. Buna görə də biz oykonimlərin ilkin "Ay tanrısının subları" və Subbi-"sub bəyləri" mənalarına üstünlük verməklə bu etimologiyanın daha düzgün olduğunu doğru hesab edirik.

**Zəviyyə.** Bu məntəqə adı "Zəviyyə" şəklində ərəb dilinə uyğunlaşdırılmaqla təhrif edilmişdir. Ad Zaviyyə məntəqə adından a≈ə səsəvəzlənməsi ilə fərqlənir. Oykonimin adına 1590-cı ilə aid sənədlərdə Şərur nahiyəsinin Qalacıq və Quşçu kəndləri arasında rast gəlirik (77, s. 168). Bu adı arxiv sənədlərində yenə də Naxçıvan qəzasının Şərur nahiyəsində 1728-ci ildə, lakin əvvəlki məlumatdan fərqli olaraq Düdəngi (müasir Düdəngə) kəndi və İshaqlı Yüzbaşı qışlağı arasında təsadüf edirik (yenə orada, s. 72, 168). Zaviyyə məntəqə adı ilə eyni

kökə malik olan bu etnooykonim də "Ay tanrısının subları" mənasındadır.

**Subxi.** 1590-cı ilin arxiv sənədləri və bu sənədləri əks etdirən kitablarda bir adı da Sübhi kimi qeydə alınaraq insan yaşamayan-"məzrəə" şəklində göstərilən bu məntəqə adının türk dillərinə məxsus k≈x, u≈i fonetik səsəvəzlənməsi ilə (266, s. 41, 86) qeydə alındığını, onun ilkin variantının Sub+ki yazılışında olduğunu düşünürük. Naxçıvan qəzasının Ərmus nahiyəsində Ərəku və Şəhriyar kəndləri arasında yerləşən bu məntəqə adının (77, s. 176) "Sub" tayfası və qədim Şumer mifindəki "Ki" tanrı adının təsiri ilə oykonim kimi formalaşdığını düşünürük. Əgər xatırlasaq əski türk tayfa adlarının yaranmasında teofor adlarla-tanrı adları ilə nominasiya xarakterik hal idi. Şumer türklərinin Ki, Utu, tanrı adları o dövrdə Kuti tayfa adına çevrilmişdir. Sonralar türklərin Ki tanrı adının yunan və slavyan miflərinə Kiy, Kibela kimi (105, I c., s. 647-648; 106, II c., s. 640) adladığının da şahidi oluruq (-F.R.). Ki tanrı adı ilə birlikdə işlənən Sub tayfa adı məntəqə adının nominasiyasında bərabər işlənməklə coğrafi məkan adına çevrilmişdir. Bu baxımdan məntəqə adının çox qədimlərdən mövcud olduğunu qeyd edə bilərik. "Ki tanrısının subları" mənasını daşıyan bu etnooykonim heç şübhəsiz ki, mifik təfəkkürün təsiri ilə etnooykonim kimi nominasiya olunmuşdur.

**Çematiyan.** Arxiv sənədlərində məntəqə adı anlaşılmayan ad kimi 1728-ci ilə aid arxiv sənədlərində Naxçıvan qəzasının Xınzirək nahiyəsində Güllücə və Korlavəng kəndləri arasında bir adı Ağgölü olaraq göstərilmişdir (77, s. 46). Heç şübhə yox ki, məntəqə adı Şu+mat+ay+an tərkiblərindən qədim türklərin Ay mifi ilə bağlı olan mifoloji inamla və türk dillərinə məxsus ç≈ş, u≈e, a≈i fonetik səsəvəzlənmələri ilə formalaşmışdır. Biz yuxarıda "mat/bat" tərkibinin "ölkə" mənasında işləndiyini qeyd etdik (284, s. 94). Bütün bu türk dili komponentləri daxil olmaqla ad "Ay ilahəsinin Şu ölkəsi" mənasında izah olunmaqla türk dili imkanları hesabına adlanması təkzibolunmazdır.

**Səbzədur.** 1590-cı ilə aid arxiv sənədləri və onun əsasında tərtib olunmuş kitablarda Naxçıvan qəzasının Sisyan nahiyəsində Us və qədim Tal türklərini adını daşıyan Tulus kəndləri arasında (77, s.183), 1728- ci ilin sənədlərində isə, yenə həmin nahiyədə Sisyan və Əlili kəndləri arasında yerləşdiyi göstərilir (yenə orada, s. 150). Fikrimizcə bu siyahıya alma zamanı qeyd edənlərin fərqli qeydiyyatlarıdır. Maraqlı tərkibə məxsus bu oykonimdə "Sub" türk boyu adı ilə yanaşı qədim

şumer və qədim türk boylarının leksikonunda ümumişlək söz olan "sa"- "ürək", "tur"- "oğul" bəzən də "törə-tayfa" sözlərinə rast gəlirik (208, s. 53, 82; 48, s. 550). Bu halda məntəqə adını Sub+sa+dur kimi etimoloji izaha cəlb etmək mümkündür. Türk dillərində a≈u, a≈o, u≈ı, ə≈i, və s. dilarxası və dilönü sait səslərin, eləcə də d≈t, m≈b, z≈s, s≈ş kimi samit səslərin əvəzlənməsi xarakterik haldır (266, s. 40-42, 81, 96; 243, s. 208-211). Bütün bu leksik və fonetik əlamətlər nəzərə alınarsa etnooykonim "Subi oğullarının ürəyi" mənasında açıqlanır. Belə tərkibli sözlərin Manna, Midiya toponimlərində Durdukka, Uaşdirikka, Tarvi, Saiaş, Zaziya kimi xeyli yer adlarında təkrarlanması da buna misal ola bilər (208, s. 75; 349, s. 179). Lakin sözü Sub+şad+ur tərkibləri ilə də etimoloji izaha cəlb etmək mümkündür. Məsələyə bu kontekstdən yanaşsaq o zaman oykonim Subi türk boyu adı ilə rütbə, titul bildirən qətim türk sözü "şad"və "ur"-qurmaq" fel kökü ilə formalaşmış olacaqdır ki, burada da yuxarıda qeyd etdiyimiz a≈u, z≈ş fonetik hadisələri müşahidə edilməklə ad Sub+şad+ur kökləri ilə fərqlənir. "Ur/uru"tərkibi qədim dövrə malik olan Şumer, Manna, Midiya, Skif, Alban türklərində "oğul, varis" ismi və "tikmək", "qurmaq" feli kimi işlənmişdir (64, I c., s. 599). Omonimlik xarakteri daşıyan bu söz skiflərdə Qnur, Ckilur, saklarda Paruyr çar adlarında (208, s. 143-153), albanlarda Urbat ruhani və İrik şəhər adlarında da geniş işlənmişdir (24,. s. 24). Bu adı F.Məmmədova Qəbələdən cənubda lokalizə edir (226, s. 210). "Bilqamıs" dastanında Uruk həm qala, həm də şəhər kimi verilmişdir (5, s. 8). Əski "Ərgənəkon" türk dastanında "Qiyat və Nüküzün ailələri hər biri bir Uruq idi" ifadəsi ilə də rastlaşırıq. L.N.Qumilyovun, B.Ögəlin, R.Özdəkin yazılarında Altayda, Yan Ulağan vadisində Pazırık- "baş Uruk" (-F.R.) yurd idi və subi-sabarların burada 5-7 yüzilliklər boyu dövlətinin olduğu göstərilmişdir (236, I c., s. 31, 125). "Şat" sözü isə e.ə. IX-VIII əsrlərdə midiyalıların Pirişat, Xarmeşand kimi adları ilə başlayaraq xəzərlərdə Moxoşad, türk antroponimiyasında Kürşad, Ulunq şad, Tölis şad, Tarduş şad kimi adlarda inzibati rütbə bildirirdi (208, s. 101; 214, s. 135, 146, 151).Tərkib günümüzdə Ərşad, Elşad kimi adlarda qalmaqdadır. Bu komponentlər nəzərə alınmaqla, məntəqə adının "Subi şadlarının qurduğu" mənasında izah etmək mümkündür.

**Suvarbənd.** 1728-ci ilin məlumatlarında Naxçıvan sancağının Xınzırək nahiyəsində Məhəmmədəli və Həlimxan kəndləri arasında

qeydə alınan bu məntəqə adı (77, s. 48) quruluşuna görə fərqlidir. Ada sonradan əlavə olunan "bənd" sözünün fikrimizcə müasir dilimizdə işlənən "bənd", "sədd", "istehkam mənalı sözlərlə heç bir əlaqəsi yoxdur" Bu sözə qədim türk dillərində "bənd"- "saxlamaq, mühafizə etmək, qorumaq" mənalarında rast gəlirik (37, s. 90). Belə olan halda etnooykonim əski türk dili leksik vahidləri ilə "Qoruyan Sub əri" mənasında izah olunur. Fikrimizcə, bu ad o dövr tarixi hadisələrdə xüsusi mühafizə dəstələrinin saxlandığı məntəqə olmuşdur.

**Xınsab.** Bir adı da Xıncab yazılışı ilə qaynaqlara düşən bu məntəqə adı 1724-cü ilin məlumatlarında Naxçıvan sancağına tabe olan Qışlağat nahiyəsində İznəberd və Qırdəş kəndləri arasında qeydə alınır (110, s. 29). Məntəqə adının birinci "xın/xan"tərkibi qədim türk dillərində "xan", "hökmdar", "ordu sahibi" mənalarında işlənmişdir (37, s. 636). Bu tərkibə biz eyni mənada e.ə. III minillikdə qədim Subər türklərinin Assuriyadakı ərazilərində "Xanaan", k≈x, a≈i fonetik səsəvəzlənməsi ilə "Kinaxxi", "Kinana" şəxs, tayfa və şəhər adlarında təsadüf edirik ki, semmit mənbələri də bu adların Fələstin, Finikiya dillərində olmadığını yazır (120, I c., s. 385). Sözün yuxarıdakı mənalarında olan tərkib M.Kaşğaridə də öz əksini tapır (42, I c., s. 427). Bu ada heç bir səs dəyişikliyi olmadan Naxçıvan şəhərində bir məhəllə adı kimi də rast gəlirik. Tarixi qədimliyə malik olan bu tərkiblə etnooykonimə çevrilmiş məntəqə adı "Sub xanı" mənasındadır.

**Subərçi, Subarqala.** Müxtəlif yazılışlarla arxiv sənədləri və onları əks etdirən kitablara düşən bu məntəqə adları 1728-ci ilin məlumatlarında Naxçıvan sancağına tabe olan Şürəgəl livasındakı Çubuqlu və Qırdəş kəndləri arasında qeydə alınır (110, s. 29). Bu oykonimlərin hər biri tərkib etibarı ilə Sub+ar/ər şəklində Sub türk tayfa adı və "ər" komponentindən formalaşmışdır. Məntəqə adlarına qoşulan -çı sənət bildirən leksik şəkilçi isə dilimizin miladdan sonrakı dövr təkamülündə yaranmış dil elementidir. İkinci oykonimdəki "qala"leksik vahidi də bu qəbildən olan söz köküdür. Azərbaycan toponimik sistemində geniş yayılaraq As, Bəydil, Cəyir, Dögər kimi türk-oğuz tayfa adlarına qoşulan bu şəkilçilər Azaplı, Asarlı, Bəydilli, Cəyirli, Düyərli, Quşçu, Kuerçu və s. tayfa adlarında, eləcə də adı çəkilən bu oykonimlərdə təkrarlanmışdır (35, s. 9, 12, 18, 42, 107). Alasalı, Asaklı, Bakalli, Burreli, Katanqlı, kimi mindən yuxarı belə məntəqə adları isə ümumtürk arealında Qazax,

Türkmən, Sibir türkləri, Altay, Türkiyə, Bulqar, Hunqariya torpaqlarına qədər yayılmışdır (103, s. 213, 219, 252, 277). Məntəqə adları "Sub əri" mənasında qədim türk dili imkanları hesabına etnooykonim kimi formalaşmışlar.

**Subalıq/Səvalıq, Zuvalıq/Zəvalıq.** Maraqlı və son dərəcə elmi əhəmiyyətə malik olan bu məntəqə adları 1590-cı ilin məlumatlarında Əlincə nahiyəsində Şeyx Səid və Cərəcur (Cıracur) kəndləri (77, s. 182), eləcə də həmin nahiyədə Göynük və Milaq kəndləri arasında qeydə alınır (110, s. 27). Sonralar sovetlər dönəmində Zuvalıq/Zəvalıq adları yenidən təhrif olunaraq "Zoğala" şəkini almışdır. Bu adın tarix kökünü araşdırmayan bəzi tədqiqatçılar isə məntəqə adını fitonim kimi "zoğal+a" şəklində izah etmişlər (168, s. 222). Bu qədim yaşayış yerində isə göstərilən meyvə ağacına təsadüf edilmir. Eyniköklü bu etnooykonimlərin ilkin variantını "Sub+al+uk" şəklində bərpa etmək daha doğrudur. Adlardakı s≈z, b≈v, ə≈u fonetik səsəvəzlənmələri nəzərə alınarsa etnooykonimlər Sub/Səv/Zuv yazılışlarında etnos adından və qədim türk leksik vahidləri olan "al"-"uca", "uk"-"oğul", "varis" komponentlərindən formalaşmışdır. Qədim türklərin mifik dünyagörüşündə biz "al"tərkibinə omonim söz kimi "uca, hiylə, su pərisi"və s. formalarda xeyli mənalarda rast gəlirik. Tərkib qədim şumerlərdə "şər ruh"mənasında işlənməklə pisliyə, şərə işarə idi (496, s. 259; 37, s. 31). Al tərkibinin müxtəlif mənalarını tədqiq edən görkəmli alim M.Seyidov, araşdırmalarında bu sözün yuxarıda göstərilən mənalarından geniş bəhs etmiş, "al"tərkibinin "uca"mənasına dair xeyli maraqlı və elmi faktlar göstərmişdir (260, s. 445). Əgər xatırlasaq əski türk dillərində tau, tu, tay, "dağ" mənasını ifadə edirdi (208, s. 73). Ümumtürk toponimik arealındakı Al+tay dağ adında bu tərkib "uca dağ", Şimali Qafqazda Al+aqir toponimində "uca oqur-oğuz", Yakutiyadakı Al+qam çay adında isə "müdrik qam-şaman" mənalarını daşımaqdadır. Bundan başqa "al"tərkibi qədim uyğur türklərinin yazılarında "ozyurur al çeviş bilga biliq qazyanç ertingü üküş qazyanmiş"cümləsinin tərcüməsindəki "o, xeyli elm öyrənməklə müdrikliyə çatmış" ifadəsində söz yenə "müdrik" kimi işlənmişdir. Biz bu sözün kumık, yakut dillərində də "ağıllı", "öncül" və "müdrik" mənalarında işləndiyini görürük (37, s. 31; 64, I c., s. 124). Bu gün leksikonumuzda işlənən "alqış-al+qış" sözündəki al tərkibi "uca" mənasını özündə saxlamışdır. Göründüyü kimi bu tərkib adı çəkilən toponimləri

göstərilən mənalarda coğrafi məkan adlarına çevirmişdir, istərsə də canlı isimlərdə "ağıllı", "öncül" və "müdrik" mənalarında işlənmişdir (-F.R.). Bu mənalara istinadən biz məntəqə adlarının "Uca Sub oğlu" mənasına üstünlük verməklə onların bu mənada etnooykonimə çevrildiyini düşünürük. Adların kökünə birləşməklə türk dillərində çoxluq ifadə edən -liq şəkilçisinin (almalıq, bataqlıq və s.) sonrakı minilliklərin dil hadisəsi olması qənaətindəyik.

**Zebil.** Mənbələrə həm nahiyə, həm də Baş Zebil məntəqə adı olaraq düşən bu etnooykonimin 1590-cı ilin məlumatlarında Naxçıvan qəzasının Zebil nahiyəsində Altunküşni və Yenicə məntəqələri arasında göstərilir (77, s. 180-181). Məntəqə adındakı "baş" nomen göstəricisi olan komponentə istinadən burada "orta" və ya "ayaq" nomen göstəricisi ilə işlənmiş Zebil məntəqə adlarının da olduğu şübhəsizdir. Oykonim Sub tayfa adı və "il"- "yurd, vətən, vilayət" sözündən formalaşmışdır. Biz F.Rəşidəddinin "Oğuznamə" sində də bu mənaya "Oğuz yurd tutdu, "il oldu" ifadəsində rast gəlirik (8, s. 30-31). Türkiyə türkcəsində də "il" sözünün "yurd, vilayət" mənalarında bu gün də işləndiyini görürük (39, s. 378). Dilimizdəki "el"sözünün bu mənanın daşıyıcılarından biri olmaqla "məkan", "yurd", "ölkə" kimi işlənməsinin daha qədimlərdən gəldiyini düşünürük. Əgər yadımıza salsaq M.Kaşğarlı el sözünü "il", "vilayət" kimi mənalarda izah edirdi (42, I c., s. 48, 106; 43, II c., s. 10-14, 25) Oykonim "Sub yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Səbəsil.** Bir adı da Çəbəcili kimi arxiv sənədləri və onları əks etdirən kitablara düşən bu məntəqə adı, 1590-cı ilin məlumatlarında Naxçıvanın ərazisinə tabe olan İrəvan qəzasında İrəvan nahiyəsindəki Damagirməz və Qızılviran kəndləri arasında qeydə alınır (77, s. 160). Məntəqə adı türk dillərinə məxsus ə≈u Sub+us+ il şəklində Sub tayfa adı, "us"- "zəka , ağıl" və il-"yurd, ölkə" qədim türk sözlərindən "Ağıllı subların yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Şebran.** Məntəqə adı Sebran, bir yazılışı isə Gebran olmaqla 1590-cı ilin arxiv sənədlərində Naxçıvan qəzasının Azadcirən nahiyəsinə daxil olan Yaycı və Biləv kəndləri arasında qeydə alınır (77, s.179). Oykonimin ilkin formasının "Sub+ər+an" şəklində olduğunu düşünürük. Tarixi proseslər zamanı məntəqə adı "ə" saitinin düşümü-eliziyası ilə təhrif olunmuş və oykonim Şebran, Sebran, Gebran yazılışlarında

sənədlərə düşmüşdür. Bu adlarda Sub tayfa adına qoşulan "ər, igid" komponenti və türk dillərinə məxsus -an mənsubluq bildirən şəkilçi coğrafi adı etnooykonim kimi formalaşmışdır (168, s. 157). Hazırda dilimizdə "ər", "ərən" sözləri bu mənanı daşımaqdadır. Oykonim Azərbaycan toponimikasında Şabran etnooykonimi ilə müqayisə oluna bilər və "Sub ərlərinə məxsus yer" mənasını ifadə edir. Fikrimizcə "Dədə Qorqud" dastanımızda tez-tez işlənən "ərən" sözü (19, s. 27, 41, 55) və bu gün leksikonumuza daxil olan "ər" leksik vahidi e.ə. IV minilliklərdən şumer, subər, hürrü türk tayfalarının dilində də işlənən "ər" söz kökü üzərində yaranmışdır. Oykonim Azərbaycan toponimikasında yuxarıda da qeyd etdiyimiz kimi Şabran, Savalan kimi toponimlərlə müqayisə oluna bilər.

**Subarton.** Oykonim Subi tayfa adından və "ton"- "təpə", "ər"- "ər, ərən, igid" komponentləri ilə formalaşaraq "Sub ərlərinin təpəsi" (ola bilsin ki, yaylağı) mənasını daşıyır. Məntəqə adı 1590-cı ilin arxiv sənədləri əsasında tərtib olunmuş kitabda Naxçıvan qəzasına daxil olan Zebil nahiyəsində Muz və Mərcimək məntəqələri arasında göstərilir (77, s. 179).

Bu qədim prototürk boylarının adı təkcə məntəqə adlarında deyil, eləcə də Naxçıvan ərazisinin çox uzun bir tarixdə özünün adını qorumaq qüdrətində olan oronim-dağ, təpə və hidronim adlarında da yaşada bilmişdir. Bu adlara biz Culfa və Şahbuz rayonlarında hazırda da xarabalıqları duran Koreymər kəndində Sibir dərə, Sibir təpə və Salvartı- Savartaq adlarında da təsadüf edirik.

**Sumbatan Dizə.** Müasir Sabirkənd yaşayış yerinin ilkin adı (357, s. 39). Məntəqə adını etnooykonim kimi formalaşdıran Sub tayfa adı və qədim "bat"-"ölkə" və -an mənsubluq şəkilçisi məntəqə adının "Subların ölkəsi" mənasında olduğunu sübut edir.

Azərbaycan toponimik sistemində Biləsuvar, Sabarlı, Şabran, Sabirli, Şabartı, Səbirit, Suvar, Sabiroba, Subarbağ kimi yüzlərlə məntəqə adları bu tayfa adlarından yaranmışdır (35 s. 84-90). Bununla bərabər Cənubi Azərbaycan, Qazax, Qırğız, Sibir, Altay və b. türklərin əraziləri ilə yanaşı Bulqar torpaqlarında yayılmış Şueberta, Sebalan, Sevare, Şabarkuduk, Şubarşi, Sabari, Siberut, Sibir, Şibil kimi minlərlə kənd, rayon, şəhər, yurt, aul adlarında öz izlərini qoymuşlar (103 s. 36, 54-55, 110, 117).

Təhlillərin yekunu olaraq deyə bilərik ki, subilər əski türk boyları olub e.ə. V minillikdən Naxçıvan diyarında məskunlaşmaqla yer adlarını öz adları ilə türk dilində yaratmış, Orta Asiya, Sibir və digər türk ərazilərinə tarixi köçlərini məhz bu qədim ərazilərdən başlamış, geri dönüşlərində "savir", "subar" adları ilə tarixin yaddaşına "gəlmə" kimi köçmüşlər. Bütün bunlar onların göstərilən ərazilərdə görünmə tarixləri ilə təsdiq olunmaqdadır. Qaynaq və tədqiqat materialları qədim Naxçıvan əhalisinin etnogenezi tarixində ayrıca yeri olan Subər türk boylarını e.ə. V minillikdən qədim Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpaqlarının, eləcə də Mesopotamiyanı şimalı və Urmiya gölü ətrafında əzəli sakinlər olmaqla, Qafqazlarda yaranmış Mitan, Manna, Midiya, Atropatena, Alban türk dövlətlərində yaşadıqlarını sübut edir.

Qaynaqların məlumatına əsasən Subər tayfalarının göstərilən ərazilərdə As, Hürri, Şu, Kuti-Quti, Lulubi, Koman, Türükkü-Türk, Turdi və b. türk boyları ilə bərabər V-I minilliklər arası yuxarıda da qeyd olunduğu kimi "Azzi Subar ölkəsi", "Hürri-Subar ölkəsi", "Kuti, Lulubi subərlərin yurdu", "Koman-Subar birliyi" və s. kimi adlanmalar və çar adları (456, s. 63-81.) bu prototürklərin eyni mənşə və dilə mənsub olduqlarının inkarolunmaz təsdiqidir. Bu prototürk adları ilə bağlı etno-oykonimlərin iltisaqi dil qanunları və imkanları hesabına formalaşması, onlardakı yazıyaqədərki dövr türk dili leksik vahidləri, şəkilçilər, mifik tanrı adları və mifoloji əlamətlərin mövcudluğu da təkzibolunmaz tarixi faktorlardır. Etnogenezimizin təşəkkülündə iştirakçı olmuş sadalanan bütün bu qədim türk boylarının, əzəli türk yurdu Naxçıvan yer adlarında zamanımıza qədər gəlməsi, eyni adların həm Mesopotamiyanın şimalı və Urmiya gölü ətrafında təkrarı, proseslərin eyni dövrdə baş verməsi bu ərazi ilə İkiçayarası mədəniyyətin eyni tayfalar və xalqlar tərəfindən yarandığını bir daha təsdiq edir.

## 9. ŞU-SU PROTOTÜRKLƏRİ

Tarixi keçmişimizdə xüsusi yeri olmuş elə prototürk boyları var ki, onlar nəinki Azərbaycan və onun bir parçası olan Naxçıvan ərazilərində tədqiqata cəlb olunmamış, bu tayfaların tarixi keçmişi, ittifaqda olduğu tayfalar, dili, eləcə də dövrü və yayım arealı da ümumtürk elmi səviyyəsində tədqiqat obyektinə çevrilməmişdir. Belə prototürk boylarından

biri də e.ə. III minilliklərin tarixi proseslərində ayrıca yeri olmuş qədim Su-Şu türkləridir. Haqqında heç bir araşdırma aparılmamış, ərazilərimizdə və ümumtürk arealında yayılma arealı tədqiq edilməmiş bu tayfaların yaratdıqları yüzlərlə coğrafi adların struktur-semantik xüsusiyyətləri də təbii ki, tədqiqata cəlb olunmamış, onlarda şəxs, coğrafi adlarda dil elementləri və üslublar araşdırılmamışdır. Baxmayaraq ki, Şu türklərinin mənşəyi, tarix səhnəsinə ilk dəfə çıxdıqları dövrlər haqqında qədim qaynaq məlumatları mövcuddur, lakin, bu boylarının bir türk boyu olub-olmadığı ətraflı və sistemli şəkildə öyrənilmədiyindən onların ümum Azərbaycan və onun ayrılmaz hissəsi olan qədim Naxçıvan ərazisi ilə bağlılığı da tarixi və dil kontekstindən izah olunmamışdır. Buna baxmayaraq apardığımız araşdırmalar nəticəsində antik mənbələrdə və tədqiqatlarda Su/Şu türklərinin istər azərbaycanlıların, istərsə də naxçıvanlıların etnogenezi tarixində xüsusi yeri olmasına dair xeyli elmi faktların mövcud olduğu ortalığa çıxmışdır.

Qədim tarixi qaynaqlara, antik tarixçi və coğrafiyaşünasların əsərlərinə "Şu", "Su", "Si" yazılışları ilə daxil edilmiş bu tayfaların müxtəlif şəkillərdə adlandırılmasına baxmayaraq tərəfimizdən aparılan müqayisələrin nəticələri, yəni onların tarixi proseslərdə iştirakının zamanı, aid olduqları region, müəyyən dövlətlərə yürüşlər və yayım arealları bu adların eyni bir tayfaya mənsubluğunu ortalığa çıxarır.

Tarixi qaynaqlara söykənərək öncə onu qeyd etmək lazımdır ki, Su/Şu əski türk tayfalarının tarix səhnəsinə çıxdıqları dövr e.ə. III minilliklərə aid edilsə də bəzi qaynaqlar onların təşəkkülümüzdə ayrıca və əsaslı şəkildə yeri olmuş Türükkü, Kuti, Lulubi, Mitan, Kassitlər kimi əski boylarından qabaq çıxdığını, əsasən Dəclə və Fəratın yuxarı axarlarında, Urmiya gölü, Araz sahili boyu ərazilərdə tarixi proseslərin iştirakçıları olduqlarını sübut edir. Heç şübhə yoxdur ki, göstərilən ərazilərə yaxın olan qədim Azərbaycan və onun tərkib hissəsi Naxçıvan əraziləri də o dövr böyük arealda məskun olan müxtəlif türk boyları ilə birgə tarixi hadisələrin içərisində olmuşdur. Bu tayfalarla bağlı proseslər isə təbii ki, torpaqlarımızda müəyyən izlərini saxlamaqdadır. Dilimiz və tariximizin qədim dövrlərinin elmi cəhətdən əsaslandırılmaqla öyrənilməsində coğrafi adların da başlıca mənbə olduqlarını nəzərə alaraq mənbələrə müraciət etməklə bu tayfaların tədqiqinin dilimiz və tariximiz üçün aktual bir məsələ olduğunu düşünürük.

Mənşə məsələsinə gəldikdə isə, bu tayfaların prototürklərlə ittifaqı, eləcə də coğrafi və antroponimik adlarda qeydə alınan yazıyaqədərki dövr türk dili elementlərinin iltisaqilik əlamətləri onların bir türk boyu olduğunu söyləməyə əsas verir. İstər ümumtürk arealında, istərsə də bütöv Azərbaycan ərazilərində Su/Şu boylarının yaratdıqları coğrafi adlar üzərində apardığımız elmi araşdırmalar, coğrafi adların formalaşmasına yardımçı olmuş söz kökləri qədim türk dillərinin ilkin inkişafı dövrü haqqında da müəyyən fikirlər söyləməyə və dilimizin tarixi təkamül yolunu izləməyə də imkan yaradır. Fikrimizi aşağıda elmi cəhətdən əsaslandırmağa çalışacağıq. Lakin bütün bunlardan öncə Su/Şu boylarının tarix səhnəsinə çıxdıqları dövrə, yayım arealına qısaca nəzər salmağı elmi cəhətdən gərəkli və əhəmiyyətli olduğunu düşünürük.

Qədim şumerlərlə bağlı bir sıra məlumatlarda e.ə. 2093-2046-cı illərin axırıncı Şumer dövləti Ur sülaləsində onların varislərindən biri olan Şulgi onun varisi isə Şu-Sin ("şöhrətli Şu"- F.R.) haqqında bilgi verilir. Bəzi qaynaqlar isə e.ə. III minillikdə (e.ə. 2003-cü ildə) Ur sülaləsi zəiflədikdən sonra bu ərazilərə və Ur şəhərinə elamlıların, eləcə də Su tayfalarının hücumu haqqında məlumat verir (120, I c., s. 219; 271, s. 89-91). Heç şübhə yoxdur ki, bu məlumat Su/Şu boylarının bir dövlət halında, güclü bir tayfa birliyi olmalarını göstərən əsaslı faktorlardan biri sayıla bilər.

Biz yuxarıda da qeyd etdik ki, Herodotun "Tarix" əsərində indiki İtaliyanın cənubuna çox qədimlərdən məskunlaşmış sibarlardan, onların Sibaris şəhərindən, eləcə də burada əsas güc olan Siqin (Şu+qun-" Şu knyazı, çarı" - F.R.) tayfalarından bəhs olunur. Daha sonra müəllif Xaospe çayı üzərində Sus, Sicilya adasında Sirakus şəhərlərinin olduğunu, buranın sakinlərinin "Sirak", indiki Don çayının "Sirqis", Siciliya adasının isə, "Sikel" adlandığını yazır. Herodot bu əraziləri əski Midiyanın bölgəsi kimi təqdim etməklə adı çəkilən tayfa və şəhər sakinlərinin qədimlərdə Midiya ərazisindən gəldiklərini də qeyd edir. Bundan sonra Herodotun məlumatlarında özünə yer alan tarixi coğrafi və antroponimik adlar sistemindəki Sikel, Siqin, Sibaris, Sisimaq, Sisam kimi xeyli sayda antroponimlərə - şəxs adlarına, eləcə də ada, tayfa, şəhər kimi coğrafi adlara rast gəlirik (23, I 24; III. 64, 128; V 9, 43-47, 121; VI 17, 83, 85; VII 66, 145, 154; VIII, 94).

Bu adlardaki Şu tayfa adına qoşulan "kal"- "ulu", "qin/kan"- "

kağan, knyaz" və omonum olan "qala", "börü"-"qurd", "es"-"zəka, ağıl" kimi sözlər yazıyaqədərki dövr türk dili elementi olmaqla tayfa adını etnooykonim kimi formalaşdırmış, əski dil elementləri isə tərəfimizdən aparılan araşdırma mətnlərində və E.M.Murzayevin yazılarında da linqvistik təhlilə cəlb olunmuşdur (48, s. 606; 247, s.36-40; 251, s. 163-173; 37, s. 532). Bu komponentlər isə göründüyü kimi "Si/Şu" sözünün canlı isim və ya tayfa olduğunu açıq aydın sübut edir. Bundan başqa müəllifin "Midiya əraziləri" ifadəsini də nəzərə alsaq bu adlar midiyalı tayfalar tərəfindən yaradılır, Midiya isə qədim Ur dövləti ilə bir regiona xas olan ölkələrdir. Qaynaqlarda Midiya ərazisi həm də qədim türk Mitan dövlətinin ərazilərini əhatə edirdi di ki, hazırkı və qədim Naxçıvan əraziləri bu dövlətin qüdrətli əyaləti olmuşdur. Su/Şu boyları da məhz bu ərazidən elamlarla birgə şumerlərin son dövləti Ura hücum etmişdilər (-F.R).

Şumer mətnlərinin III minilliyə aid məlumatlarına istinad edən rus dilində yazılmış "Ümumdünya tarixi"nin I cildi Su tayfalarını Su-bir kimi təqdim edərək Su tayfaları ilə subarların elə bir tayfa olduğunu yazıya almışdır. Biz Şu/Su boylarını tarix səhnəsində kuti, lulubi, türükkü, subar, kassi boylarından əvvəl görsək də onları Mesopotamiyanın şimalında bu tayfaların əhatəsində, onlarla bir ittifaqda görürük. Şuların dilinin hürrü boyları, Qafqaz xalqlarının dilləri ilə yaxınlığı da bu məlumatda öz əksini tapmışdır (120, I c., s. 311).

Bir çox qaynaq və araşdırmalar Şu tayfalarının ayrıca bir boy olduğunu da xüsusi olaraq qeyd edir. Şərq tarixi haqqında qiymətli elmi fikirlərin müəllifi Y. Yusifov Su tayfalarını "suvlar" hesab etməklə onların türükkülərlə bərabər Mesopotamiyada Dəclə və Fəratın yuxarı axarlarında böyük güc olduqlarını yazır. Burada tayfaların e.ə. II minillikdə "şubar", "şubarti" adlarında Şərq və Qərb qollarına ayrıldıqları göstərilməklə onların birləşərək Subar dövləti yaratdıqları da qeyd olunur. Bundan sonra müəllif bu tayfaların Assur, Şuşarra kimi dövlətlərə güclü təzyiq etdiklərini, böyük gücə malik olduqlarını da xüsusi qeyd edir. (271, s. 138).

Əgər diqqət etsək bu hadisələr e.ə. III minilliyin tarixi proseslərinə aiddir və şubar, şubarti tayfaları Şu boylarının varisləri kimi təqdim olunur ki, şübhəsiz onların dili də əski Şu-prototürk dili idi. O zaman bu tayfaların bir böyük güc kimi formalaşması tarixinin ən azı e.ə. IV

minillikdə başlanması danılmazdır.

Yeri gəlmişkən bir məsələyə də aydınlıq gətirmək istərdik. Bu günə qədər yuxarıda qeyd etdiyimiz Şuşarra dövlətinin yeri, kimə mənsubluğu, adın nə məna daşıdığı və ölkənin etnik tərkibi tam olaraq aydınlaşdırılmamışdır. Mənbələr e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərində prototürk türükkülərin bu ölkəyə iddiasından bəhs edir (271, s. 304). Şuşarra ölkə kimi Tiqr -indiki Dəclə çayının yuxarı axarları olub ona şərqdən qoşulan Böyük və Kiçik Zab çaylarının mənsəbində, Urmiya gölünün cənubunda yerləşirdi (120, I c., s. 310-311). Bir sıra araşdırıcılar hazırkı Tehran şəhərindən Urmiyaya qədər olan düzənliyini "Dəşti Bitivain" adlandırırdılar. Əsl həqiqətdə söz Dəştibat- "çöllər ölkəsi" mənasındadır. Əgər xatırlasaq "Dəşti qıpçaq" sözü "qıpçaq çölləri" mənasında idi (415, s. 127-129). Bu gün də Cənub Azərbaycanımızın Xəzər dənizinin sahillərindən cənuba doğru Dəşti Kabur- "kimmerlərin düzü", ondan cənub şərqə doğru qədim Nax tayfa adından olan Nax şəhəri ərazisinə doğru isə Dəşti lut adlanır (358, s. 469). Buradakı "Lut" sözü ərəb və fars sözləri içərisində qeydə alınmır (38, s. 320). Ola bilsin ki, söz qədim prototürk Lulu tayfa adının Lu və -t cəmlik şəkilçisi ilə yazılışıdır. Ölkənin etnik tərkibinə gəldikdə isə ərazidə hürrü, subar, kuti, lulubi, su və s. tayfalar məskun idilər. Su tayfa adına gəldikdə isə mənbələr onun subar tayfaları olduğunu və sadə formada "su-şu" kimi yazıya alındığını qeyd edirlər (271, s. 304; 120, I c., s. 310-311). Göründüyü kimi Şuşarra türklərin ölkəsi idi və Assuriya tərəfindən işğal olunduğu üçün də türükkülər torpağa iddialı idilər.

Tədqiqat və mənbə məlumatları Şu/Su türklərini onların qolu olan Subar boyları ilə bərabər bir qədər şərqdə, Urmiya gölü ətrafında kuti, subar, lulubi, türükki, kassilərlə bərabər göstərir (120, I, s. 311; 271, s. 339).

Su/Şu tayfaları haqqında əski Çin qaynaqları da yetərincə elmi məlumatlar verir. Burada e.ə. 255-210-cu illərdə Şərqi Türküstanda Yueci türklərinin Su adlı şəhərinin olduğu göstərilir. Daha sonra biz Türküstanın cənub qərbində e.ə. 72-ci ildə "Şa"-ce adı ilə həm Yarkənd hökmdarlığının, həm də paytaxt şəhərinin adlarına təsadüf edirik (147, I, s. 99). Türk araşdırıcısı F. Kırzıoğlu öz yazılarında qədim Çin qaynaqlarının Su, Şu adda türk tayfalarının adını çəkdiyini qeyd etməklə

yetərincə faktlar göstərir (512, s. 31.).

Bununla bərabər qaynaqlar türkmənlərin e.ə. IV yüzillikdə Şu adlı sərkərdəsindən və onun tikdirdiyi Şu qalasından da bəhs edir. M.Kaşğari Şu xaqanın Çinə doğru Uyğurlara yaxın ərazidə Makedoniyalı İsgəndərlə-Zülkarneyn ilə döyüşdüyünü və sonradan barışdığını, o, çəkilib gedəndən sonra isə, "Şu" adlı şəhər saldığını yazır (44, III, s. 413-416). Bu fikirlər və tarixi faktlar eynilə R. Özdəkin yazılarında da təkrarlanır (236, I, s. 49-52).

Yeri gəlmişkən qeyd edə ki, adı çəkilən mənbələr əski türk Şu (Saka) dastanından götürülmüş hadisələrdir. Lakin bir məsələni də xüsusi qeyd etmək istərdik ki, indiyə qədər bu dastanın niyə məhz "Şu (saka)" adlanması, bu birləşmənin nəyə işarə etdiyi tam olaraq açıqlanmamışdır. Mənbələrdəki tarixi prosesləri izlədikdə tərəfimizdən aparılan müqayisəli təhlillər Sak, Saka boylarının da Su/Şu prototürklərindən ayrılan bir qol olduğunu təsdiq edir (249, s. 233-242. ). Saklarin Subar, Kassi, Skif türkləri ilə ittifaqda olduğunu, bəzən skiflərin "sak", bəzən isə sakların "skif", "iskid" kimi qaynaqlara düşməsi Q.Qeybullayev tərəfindən geniş araşdırılmışdır (208, s. 149-152). Bildiyimiz kimi Skif-Sak boylarının çarlığı Bibliyada "Askenaz" kimi qeyd olunmuş və o Qəmərin-kimmerin "oğlu" kimi göstərilmişdir (4, 10, 3. s. 19). İstər bu tayfaların tarix səhnəsinə çıxdıqları dövr, istərsə də aid olduqları region, eləcə də Şu prtotürklərin Sak boyları ilə Su/ŞU (Saka) dastanında bərabər işlənməsi, fikrimizcə sakların Şu varisləri olmasına işarədir (-F.R.).

Əgər mənbələrə nəzər salsaq qədim Kassi prototürklərinin inancları ilə bağlı məlumatlarda biz Şixu tanrı adı ilə də rastlaşırıq (349, s. 129-132). Bu tanrı adının mənası indiyə qədər araşdırılmamışdır. Lakin biz "şu"tərkibinin "işu", "işi", "izi", "issi" şəkillərində qədim şumer və türk dillərində "işıq, günəş" (353, s. 211-213), "xu/ku"- morfeminin isə, türk dillərində titul bildirdiyini "şan, şöhrət" ifadə etdiyini (462,. s. 341) nəzərə alsaq, bu tanrı adı "Şöhrətli Günəş" mənasında açıqlanar. Biz bu tayfa adının Şixu tanrı adından götürüldüyünü kassi türklərinə isə Şixu tanrı adının Şu tayfa inancından gəldiyini və sak tayfalarının sonradan bu adı Suxi, Saki, Saka, Sak kimi qəbul etdiklərini güman edirik (-F.R.).

Şu tayfalarının dili məsələsinə gəldikdə isə, yuxarıda qeyd etdik

ki, N.Y.Marrın yazıları və bir çox qaynaqlar Su tayfalarının dilinin hürrü boylarının və Qafqaz xalqlarının dilləri ilə yaxın olduğunu yazmış (397, IV c., s. 131; 120, I c., s. 311), İ.M.Dyakonov isə bu dillərin fərqli olmaları barədə müxtəlif fikirlər söyləməklə qəti söz deməmişdir (353, s. 115-117). Bütün bu yanlış versiyaları izləyən Q.Qeybullayev onların vahid dil kökünə və eyni mənşəyə mənsubluğunu elmi cəhətdən əsaslandırmışdır (208, s. 15-19).

Ümumiyyətlə Şu və Hürri boylarının dil ortaqlığını xatırlasaq o zaman onların yaşadığı dövrlər də nəzərə alınmalıdır. Hürrü boyları e.ə. IV-III minilliklərdə tarix səhnəsində görünməklə II minilliyin əvvəllərində özlərinin Mitan dövlətlərini yaratmışlar ki, dünya tarixşünaslığı bunu qeyd etsə də, dövlətin yaranması haqqında heç nə bilmədiyini yazır. Lakin bu kitab hürrülərin "Ərmən dağlarında" məskunlaşmasını ən azı e.ə. II minilliyin əvvəllərinə aid olduğunu göstərir (120, I c., s. 315, 514).

Nədənsə rus müəllifləri tərəfindən qələmə alınan və rus dilində yazılan bu kitabda ərmənlərlə ermənilər fərqləndirilməmiş, ərmənlərin bir türk boyu olduğu, ermənilərin isə türklər tərəfindən assimilyasiya olunmaqla friq adından erməni adına məcburi keçmələri haqqında heç nə deyilməmişdir. Halbuki M.Xorenli, bu haqda geniş məlumat verməklə ərmənlərin türk olduqlarını, özlərinin yazıya sahib olduğunu açıq şəkildə göstərmişdir (11, s. 209). Bu məsələyə ətraflı toxunan F. Ağasıoğlu elmi dəlillərlə Ərmən türk tarixinin friq-haylar tərəfindən necə oğurlandığını ətraflı tədqiq etmişdir (164, s. 10, 14-21).

Ümumiyyətlə istər Hürrü boylarının, istərsə də Şu boylarının yaratdığı yer adlarındakı əski türk dili elementlərinin təkrarı da bu dillərin eyni mənşədən qaynaqlandığını sübut edir.

Su/Şu tayfalarının yayım arealı da son dərəcə maraqlı elmi faktlar ortalığa çıxarır. Biz Qafqaz regionunda, Orta Asiya, Altay, Sibir, türk torpaqlarında minlərlə bu tayfa adlı oykonim, oronim, hidronim və s. toponimik adlarla qarşılaşırıq ki, bunların əksəriyyəti əski yazıyaqədərki dövr dil elementi ilə zəngindir. Bura Yakutlarda Sobat, Sobek, Şubarşi, Qazaxıstanda Şuqa, Suram, Suqut, Şukurkal, Şuaxevi, Şubarkuduk, Şubarşi, Başqırdıstanda Şumixa, Şumşu, Şuçe, Suzun, Altayda Suqaş, Volqa boyunda Suan, Suak, Suqaş, Suday, Şimali Qafqazda Suyindik kimi yüzlərlə coğrafi adı misal göstərmək olar (103, s. 24-28, 32-33, 54-55).

Yeri gəlmişkən qeyd edək ki, Şu, Turukku, Subar, Naxər, Sak kimi tayfaların hələ e.ə. IV-III minilliklərdə Ön Asiya (Azərbaycan) və Kiçik Asiya (Hazırkı Türkiyə ərazisi) ərazilərində tarix səhnəsinə çıxmaları və II minilliyin əvvəllərində hazırda türk elləri olan Altay, Sibir, Orta Asiya ərazilərində görünmələri ilk Tarixi köçün Cənubdan Şimala doğru yayıldığını bir daha sübut edir (-F.R.).

Cənub Azərbaycan ərazilərimizdə də bu tayfanın adı ilə bağlı xeyli məntəqə adı ilə rastlaşırıq. Mənbələr hələ XI əsrdə burada Şundabad, Sus, Sanc kimi qəsəbə və məntəqə adlarını qeyd edir (220, s. 37, 41). Elə həmin dövrdə Şüştər şəhərinin də adı N.Tusi ilə bağlı yad edilir (10, s. 6) Bundan sonra XIV-XIX əsrlər bu qədim torpaqlarımızda Şu tayfa adı ilə bağlı Şuturban, Sisbəy-Şuasbəy, Şebalan-Şubilan, Şukarkənd, Suyanəv, Zunuz-Şunuz, Sevare-Şubari, Şal-Şul yazılışlarında 30-dan yuxarı məntəqə adına rast gəlirik (200, s. 15; 510, s.172-175; 523, s. 57, 70). Rus mənbələri 1877-1878-ci ilər Rus-türk müharibəsi zaman Qara dənizin qərb sahilində rus orduları tərəfindən ilk zərbələrə məruz qalan Şumen- Ulu Şu (-F,R) şəhərinin adını qeyd edir (95, II c., s. 69, 480). Rus qoşunları tərəfindən vurulan Türkiyə ərazisi ilə əski Naxər-Naxçıvan torpaqları həm qonşu, həm də eyni tarixi proseslərə meydan olduğundan bu ərazilərdəki şəhər, qəsəbə məntəqə adlarında etnik proseslərin eyniliyi və o cümlədən də Şu boylarının izi də təkrarlanmaqdadır. Sivaş, Muşu, Şukut kimi adlar buna misal ola bilər (521, s. 101-103).

Qeyd edək ki, şularla bağlı yer adları Azərbaycan coğrafi adlar sistemində daha geniş yayılmış, hazırda məntəqə adlar sistemində Şuşa, Şüvəlan, Sumağava, Suval, Şuduk, Şuvi, Suvat, Suma, Şüşün, Şuvaş kimi onlarla müasir adlarımızda belə təkrarlanmaqla aktiv coğrafi adlar sistemini əmələ gətirir (35, s. 89-90, 111-113). Burada tayfa adına qoşulan bütün komponentlər, eləcə də bu etnooykonimlərin adlanması-nominasiyası və formalaşmasında iştirakçı olan "bat"- "məkan", "bek"-"bəy", "bari/böri"-"qurd", "qa/ka"-"şanlı, şöhrətli", "mağ+ava"- "maq, şaman+obası", "av/ava"həm də oğuzlarda "ev" və "toplaşmaq" feli, is-"zəkali", "ma/mu"- "mənim", "zun/san"-"şan, şöhrət", "ak"- "uca", "as"- "qüvvətli", "yindik/yinğik"-"yenidən güclənmək" və "öncül" (43, II c., s. 32; 44, III c., s. 326; 284, s. 94; 208, s.79; 97, I c., s. 268; 64, I c., s. 153) kimi qədim, yazıyaqədərki dövr türk dili elementlərinin

ümumtürk arealında təkrarı adların həm türk tayfa adı Şu boylarından gəldiyinə, həm də bu tərkiblərin müasir türk dilləri qrammatikasından qat-qat qədimlərdə mövcud olduğuna əsaslı sübutudur. Bunu təsdiq edən digər amillərdən biri də e.ə. III-I minilliklərdə Kuti, Lulubi, Türükki, eləcə də Mitan, Midiya dövlətlərinin çar, ordu rəhbərləri, coğrafi adları içərisində Avaris, Sarlak, İnqeşuş, Laqaş, Amka, Arpad, İmaşkun, Sukka, Erisin kimi adlarda (271, s. 83; 120, I c., s. 370, 507; 349, s. 138; 48, s. 618; 284, s. 64), göstərilən tərkiblərdə qədim türk dili elementlərinin təkrarlanmasıdır. İstənilən aspektdən problemə yanaşıldıqda Su/Şu tayfalarının əski prototürk tayfaları olduğu göstərilən faktlar müqabilində təsdiq olunur.

Tərəfimizdən aparılan araşdırmalar zamanı qədim qaynaqlara və arxiv sənədlərinə istinadən Naxçıvana daxil olan əski və müasir ərazilərimizdə Şu tayfa adı ilə bağlı 25 məntəqə adı qeydə alınmışdır. Bu adlar türk dilləri üçün xarakterik olan u≈i, u≈a, u≈ü fonetik hadisələri ilə sənədlərə düşmüşdür.

Təbii ki, sonrakı araşdırmalarda bu tayfa adı ilə bağlı qaynaq məlumatlarında yeni adlar da ortalığa çıxa bilər. Hələlik biz burada tərəfimizdən yuxarıda adı çəkilən mənbələrdən əldə etdiyimiz Şu/Su tayfa adından yaranmış etnooykonimlərin quruluşu və etimoloji mənalarına diqqət yetirməyi elmi cəhətdən gərəkli hesab edirik.

**Şuşad.** Qədim Naxçıvan ərazisinin torpaqlarından olan İrəvan qəzasının İrəvan nahiyəsində Muradəli və Zəviyyə kəndləri arasında göstərilən bu etnooykonimin adı ilk dəfə 1590-cı ilə aid arxiv sənədləri məlumatlarında qeydə alınır (77, s. 160). Bu ad 1838-45-ci illərə qədər nahiyədə mövcud olmuş, ermənilərin əraziyə kütləvi köçləri prosesində dağıdılmışdır. Şu tayfa adı və "şad"-rütbə bildirən bu ad "Şu şad", yəni "Şu şad" mənasında etnooykonim kimi iki sabit söz kökündən formalaşmışdır. Adın "şad" tərkibi V-VII əsrlər Orxon-Yenisey yazılarında, Qərbi Göytürk xaqanlığında Ulun şad, Çab Şatun Tarkan, Kur-Şad kimi adlarda titul, rütbə bildirmişdir (235, s. 385-386; 236, I c., s. 98-99).

**Şurut.** Bu məntəqə adı 1590-cı ilə aid sənədlərdə ilk dəfə olaraq Naxçıvan qəzasına tabe olan Əlincə nahiyəsində Xoşkeşin kəndindən şimalda göstərilmişdir. Daha sonra ada 1728-ci ilə aid məlumatlarda (110, s. 26), 1749, 1833-cü illərin arxiv sənədlərində (124, s. 14; 25, s. 152-159) rast gəlirik. Bundan sonrakı 1924-1957- ci illərin arxiv

sənədləri məntəqəni Naxçıvan SSR Əbrəqunus rayonu ərazisi daxilində göstərir (127, s.11; 128, s. 7; 130, s. 9; 137, s. 14; 135,s. 23).

Məntəqə adı fars dilinə aid "rud"-"çay", "sur"- "şor, duzlu "sözləri ilə izah edilərək "şoran yer" , "ən yaxşı su mədəni" mənalarında izah edilmişdir (154, s. 196).

Biz bu etimologiyanı doğru hesab etmirik. Haliyədə fəaliyyətini davam etdirən kənd adının tərkibi etimoloji baxımdan qədim və maraqlı türk sözləri ilə etnooykonim kimi formalaşmışdır. Şu tayfa adına qoşulan ər -"kişi"sözü və -at "məkan" və cəmlik ifadə edən bu məntəqə adı "şu ərlərinin yeri" mənasında açıqlanır və hazırda Naxçıvan MR Culfa rayonunun ərazisində fəaliyyət göstərir. Ərazidə qədim Tenqri məbədləri mövcud idi və məbəddəki altarlar və atğılar günəş mifi işarətlərini təkrarlayırdı 1836-cı ildə bura zorla köçürülən ermənilər məbədləri sahiblənməyə çalışmış, lakin üstündəki qədim türk tamğa işarətləri silə bilmədiklərinə görə 1958-ci ildə zəlzələni bəhanə edərək məbədləri dağıdıb İrəvan xanlığının Çardaqlı kəndinə köçmüşlər (şəxsi müşahidəm -F.R.).

**Suyu.** Etnooykonimin adına ilk dəfə olaraq Naxçıvan sancağına tabe olan Dərəşahbuz nahiyəsində başqa adı "Qoyunlu" olmaqla Külüs və Kükü kəndləri yaxınlığında 1590-cı ilə aid sənədlərdə rast gəlirik (77, s. 166). Sonralar 1729- cu ilə dair tərtib edilmiş siyahılarda bu məntəqə adı qeydə alınmır. Ola bilsin ki, müharibələr və digər tarixi proseslərin nəticəsində yaşayış məntəqəsi dağıdılmışdır. Lakin qaynaqlarda göstərilən nahiyə və məntəqələr arasında biz indiyə qədər mənbələrdə qeydə alınmayan "Zimmi keçidi" adında məntəqə adına təsadüf edirik (110, s. 27). Fikrimizcə Suyu etnooykonimi təhrif olunmaqla oykonimlər sisteminə "Zimmi keçidi" kimi daxil edilmişdir. Çünki əvvəlki adlar təkrarlansa da orada yalnız bu ad əlavə edilmiş "Suyu" kənd adı isə qeyd olunmamışdır. Əgər türk dilləri üçün xarakterik olan z≈s səs əvəzlənməsini nəzərə alsaq (266, s. 81-83) Si+mi sözü də qədim Şu türklərinin adını daşımaqdadır. Birinci "Suyu" yer adında da biz s≈y səsdəyişimi ilə qarşılaşırıq. Türk xalqlarından qırğızlarda "yoldaş" sözü "soldaş, sildaş", yakutlarda "yaxa" sözü "saxa", "yal" sözü "sal", dilimizdə və özbək, qazax dillərində "yapışıq" sözü türkmənlərdə "şepıbik" kimi türk dillərinə məxsus y≈s≈ş fonetik paralelliyi ilə işlənir (39, I c., s. 992, 966; 260, s. 55). Qədim türk dillərində biz "yu=şu" sözünün "o, bu" işarə əvəzliyi kimi işlənməsini də görürük (208, s. 82).

Bu halda məntəqə adı "Bu Şu", yəni "bu şudur" mənası daşımaqla işarə əvəzliyi və isimdən I növ ismi birləşmə şəklində etnooykonimə çevrilmişdir.

**Şayi.** Qədim Naxçıvan qəzasının Dərələyəz nahiyəsində Şahyurd və Xors kəndləri arasında göstərilən bu etnooykonimin adı ilk dəfə 1724-cü ilə aid arxiv sənədləri məlumatlarında qeydə alınır (77, s. 59). Yuxarıda izahını verdiyimiz "Suyu" sözü ilə eyni kökə malik olduğunu düşünürük və sözün "Bu Şu", yəni "Bu Şudur" mənası üzərində dayanırıq.

**Aksu.** Maraqlı söz quruluşuna malik olan bu məntəqə adı 1874-cü ilə aid arxiv sənədlərində yenə də Naxçıvan qəzasının Dərələyəz nahiyəsində böyük bir məntəqə adı kimi göstərilir (126, s. 7). Onu da qeyd edək ki, ada nə 1590-cı, nə də 1724-27-ci illərin məlumatlarında təsadüf etmirik. Azərbaycan coğrafi adlar sistemində də "Ağsu" şəklində təkrarlanan bu ad T.Əhmədovun tədqiqatlarında "Ağsu" yazılışı ilə oykonim və hidronim formasında rəng və hidronim, ağ+su kimi izah edilmişdir (168, s. 97). Lakin qədim türk dillərində ak-"uca" mənasında da işlənmişdir. Biz "ak" tərkibinin "ağmaq", "yüksəlmək" "böyük" mənalarında M. Kaşğaridə (41, s. 9), M. Seyidovun araşdırmalarında (260, s. 143), eləcə də türklərdə "ağabəy" sözündə "böyük qardaş" (39, I c., s. 9), dilimizdə isə "üzünə ağ olmaq" ifadəsində təsadüf edirik (-F.R.). Sözün ak "Uca" və Su/Şu tayfa adından formalaşdığını və "Uca Şu" mənasında etnooykonimə çevrildiyini düşünürük.

**Şada.** Hazırda da fəaliyyətini davam etdirən bu məntəqə adına Naxçıvan sancağına tabe olan Dərəşahbuz nahiyəsində 1590-cı ilə aid sənədlərdə Zərnatun (yəqin ki müasir Zərnətün kəndi) və Qaraboyalıq kəndləri arasında görürük (77, s. 167). Daha sonra ada 1727-ci ilə dair məlumatlarda yenə həmin nahiyədə "Şadaq" (110, s.28), 1828-1833-cü illərin sənədlərində "Şaqda" (25, s. 140-149), 1840-1936-cı ilə aid sənədlərdə isə "Şada" yazılışında rast gəlirik (131, s.10; 132, s. 7; 130, s. 9; 125, s. 21). Bəzi sənədlərdə isə ad "Şata" kimi qeydə alınır. (128, s. 10). Ad tədqiqatlarda qədim türk sözü şad "ordu başçısı", həmdə çinlilərə qarşı vuruşan tayfa və Şato tayfa adı kimi izah edilmişdir (154, s.187.). Lakin bildiyimiz kimi çinlilərə qarşı vuruşan əsgərlər Kür Şadın başçılığı ilə 40 igid üsyana qalxmışdılar. Burada Kür Şad tayfa adı deyil antroponim-şəxs adıdır (236, I c., s. 98-99).

Etnooykonim olaraq qəbul etdiyimiz bu ad Şu tayfa adı və ta/ti- "tikmək" felindən formalaşmışdır. Məntəqə adı "Şu tikən" mənasında açıqlanır.

**Şiqad.** Yenə də Naxçıvan sancağına tabe olan Dərəşahbuz nahiyəsində qeydə alınan bu məntəqə adını 1590-cı ilə aid sənədlərdə Zərnatun və Qaraboyalıq kəndləri arasında görürük (77, s. 167). Bundan sonra ada 1724-cü ilin məlumatlarında Qarabağ nahiyəsində "Şiqab" yazılışında rast gəlirik (yenə orada, s.144). Sözdə Şu tayfa adından başqa onu formalaşdıran "kad" tərkibi a≈u, a≈e səs əvəzlənməsi ilə qədim türk dillərində "ked", "qud" yazılışlarında "güc, qüvvət" mənalarında işlənmişdir (37, s. 292). Bu sözü biz massaget tayfa adı, skiflərin Tarqitay, Marsaqet, Davket kimi şəxs adları (199, s. 203; 208, s. 146; 23, IV 5,7 ) və s. ilə müqayisə edə bilərik. Lakin Q.Məşədiyev bu leksemi "xoşbəxt" mənasında izah edərək, "Qutadqu-bilik", "Qorqud" sözlərini buna nümunə olaraq göstərir (227, s. 34). Lakin sözlərin mənalarına bu variantda baxarkən görürük ki "Xöşbəxt od-Qorqut", "Xöşbəxt bilik" olmur və izahlar yanlışdır. Sözlər "qut"-"qüvvə" morfemi ilə "Qüvvətli od-Qorqut", "Qüvvətli bilik" mənalarını daşıyır (-F.R.).

Məntəqə adının ikinci "Şiqab" formasında yazılışı b≈p səs əvəzlənməsi ilə işlənmişdir. Bu zaman məntəqə adını formalaşdıran "kab" morfemi "vətən, yurd" mənasında işlənir və biz bu leksik vahidin "Qafqaz" sözündə də təkrarlandığını görürük (160, s. 45-47). Adı formalaşdıran söz kökləri məntəqə adını "Güclü şular" və ya "Şu yurdu" kimi izah edir. Hər iki halda ad türk sözləri ilə yaranmış etnooykonimdir və biz birinci etimoloji mənanı daha qədim hesab edirik.

**Şahab.** Qədim Naxçıvan torpağı olan İrəvan qəzasının İrəvan nahiyəsində Zak və Kənəkər-Kəngər kəndləri arasında göstərilən bu məntəqə adı yuxarıda qeyd etdiyimiz Şiqat məntəqə adının "Şikab" yazılışı ilə eyni kökə malik olub, 1590-cı ilin arxiv sənədləri və məlumatlarında rast gəlinir (77, s. 159). Yuxarıda izahını verdiyimiz "Şiqab" tərkibində olduğu kimi b≈p səs əvəzlənməsi ilə "kab" yazılışında "vətən, yurd" mənasında işlənməklə adı "Şu yurdu" kimi formalaşdırmışdır. "Şahab" sözü bu gün də eyni etnonimik təkrarla Naxçıvanın qədim məhəllə adı kimi fəaliyyət göstərməkdədir.

**Şükar.** Maraqlı qədim türk dili elementi ilə formalaşan bu etno-

oykonimə Naxçıvan sancağının Dərəşahbuz nahiyəsində Məralıq kəndi yaxınlığında təsadüf edirik. Məntəqə haqqında ilkin məlumata 1590-cı ilə aid sənədlərdə rast gəlirik (77, s. 167). Daha sonra biz adı 1724-cü ilin məlumatlarında Sisiyan nahiyəsində "Şikar" yazılışında görürük (yenə orada, s. 151). Şu tayfa adından sonra adı formalaşdıran ikinci "kar" komponenti qədim, şumerlərdə və qədim türklərdə "sevimli", "əziz", "qiymətli" mənalarında, "qara" yazılışında isə "xalq", "vətən" mənasında işlənmişdir (462, s. 111) Biz "kar" tərkibinə e.ə. IX əsrdə midiyalıların Amakar şəxs adı və e.ə. VIII əsrdə Karzinu, Karakku kimi teoforik yəni əski türk Tanrısı adlarından yaranmış antroponimlərdə təsadüf edirik. Qeyd edək ki, qədim kasların, skiflərin, sakların, midiyalıların və b. prototürklərin Suriyaş, Kaşşu, Sin, Kiur, Harbe kimi tanrı adları xeyli sayda Harbaşipak, Kiurtaş, Kornak, Kuriqalzu kimi çar adlarında, Keravi toponimində işlənmişdir (208, s. 106, 176; Moisey Kalankatuklu, Alban tarixi I, 8). Göründüyü kimi "kar"–"sevimli", "xeyir verən" qədim türk sözü (353, s. 78) əsasən tanrı adından formalaşmış antroponimlərdə daha çox rast gəlinir. Məntəqə adının "Şu xalqı" mənasında etnooykonim kimi formalaşdığını düşünürük.

**Şişqara.** Bu ad Naxçıvan sancağına tabe olan Abaran nahiyəsində Əbülxeyir kəndi yaxınlığında qeydə alınır. Təbii ki, bu adda rəngin şiş olmasından deyil, haradasa bir sözün təhrif olunmaqla ilkin variantının itirilməsindən söhbət gedə bilər. Biz adı etnooykonim kimi qəbul edirik və bu ad haqqında ilkin məlumata 1724-cü ilə aid sənədlərdə rast gəlirik (77, s. 54). Məntəqə adında -u saitinin səsdüşümü-eliziya hadisəsinə uğradığını düşünürük ki, bu da türk dilləri üçün xarakterik dil hadisəsidir. Bu halda sözü Şi+us+kara kimi bərpa etmək mümkündür. O zaman "us" tərkibi türk dillərində "ağıl", "zəka" mənalarını daşıyır (355, s. 13), Sonuncu "kara" tərkibi omonim xarakterli olmaqla M.Kaşğaridə "qara"-rəng və "qaranlıq" kimi izah olunmuş (43, II c., s. 163; 44, III c., s. 33; 462, s. 111), əski türklərin "Yaradılış" dastanında "böyük", "əzəmətli" mənaları daşımış, qazaq, özbək və uyğurlarda "yaman", başqırd və tatarlarda "naçar, əlacsız", türkmənlərdə isə hazırda da "pis" mənalarında işlənməkdədir (39, s. 436-437). Bundan başqa biz bu sözü "Dədə Qorqud kitabında"kı "qara başım qurban olsun bu gün sana" ifadəsində "gənc, cavan", "qarlı qara tağlarun yıqılmasun" ifadəsində "uca" mənalarına da təsadüf edirik (19, s. 50, 114). Görkəmli

dilçi alim A.Babayev "qara" komponentinin omonim kimi xeyli sayda mənalarını nümunələrlə izah etmişdir (145, s. 139-140).

**Şaban.** Ada ilk dəfə 1590-cı ilə aid sənədlərin məlumatlarında Naxçıvan qəzasına tabe olan Talin nahiyəsində Gözlü və Bəng kəndləri arasında təsadüf edirik (77, s. 175). Bu etnooykonim 1832-ci ilə dair sənədlərə də daxil edilərək Şərur və Sürməli mahalları tərkibində (hansına aidliyi göstərilmir -F.R.) Şaban "məzrəə" kimi qeydə alınır (210, s. 70). Sonralar siyasi hadisələr və ya məcburi köçlər nəticəsində dağıdılmış, sənədlərə düşməmişdir. Qədim türk dilləri və "Dədə Qorqud" kitabımızda "ban" tərkibinə "...altun başlı ban ev vergil", "evin banında" ifadələri ilə rastlaşırıq ki (19, s. 36; 301, s. 212-214), burada "ban"-"uca" mənasını daşımaqdadır. Etnooykonim "Uca Şu" mənasında izah olunur və müasir dilimizin I növ təyini söz birləşməsinə uyğundur.

**Suaçur.** Elmi cəhətdən son dərəcə maraqlı leksik-semantik quruluşa malik olan və mənbələrdə həm də Göyçə adı ilə qeydə alınan bu etnooykonim 1590-cı ilə aid sənədlərdə Naxçıvan qəzasında Zebil nahiyəsində Əstük və Ərikli kəndləri arasında göstərilir (77, s. 181). Daha sonra biz bu adı 1727-ci ilə aid məlumatlarda Naxçıvan qəzasının Sisyan nahiyəsi daxilində yenə də Ərikli kəndi yaxınlığında "Sənkər" yazılışı ilə görürük (110, s. 33). Bundan sonra ad sənədlərdə qeydə alınmır. Hər iki deyim və yazılış maraqlı tarixi fakta və dil tarixinə aydınlıq gətirir. Biz "as" sözünün omonim xarakterli "qüvvətli" və "əziz" (243, s. 212-215), eləcə də "ur" sözünün "tikmək" mənalarını daşıması (208, s. 92) haqqında ətraflı danışmışıq. "Suaçır" sözü ilkin sözyaratma qanununa uyğun Su+as+ur şəklində "Qüvvətli Şu tikilişi" mənasında izah olunur.

İkinci "Sənkər" yazılışında isə etnooykonim yuxarıda qeyd etdiyimiz kimi Sak türklərinin Su boylarının varisi olmasını, "Şu-saka" dastanının adı ilə təsdiq edirlər. Ulu Şu boylarının varisləri olan sakların öz köklərinə sadiq qalaraq bu boy adını dastanda öz adları ilə bərabər çəkmələri, Şu türk boyları ilə bağlı "Suaçır" yer adının sonradan Sankar kimi sakların adı ilə əvəzlənməsi qanunauyğun tarixi prosesdir. Burada qədim türk dillərinə məxsus əski dil faktoru -nq qovuşuq-sağır nun samiti ilə Sank+ar/ər yer adı formalaşmışdır. Biz yuxarıda da qeyd etdik ki, bu hala "Tanrı-Tenqir, dəniz-dəngiz, donuz-donquz" kimi sözlərdə də təsadüf edirik. Bu isə əski dilimizin tarixi ilə bağlı hadisədir.

**Şələt.** Maraqlı semantik quruluşa malik olan bu etnooykonim qədim Naxçıvan ərazisinin Naxçıvan qəzası daxilində Sisyan nahiyəsində Bələk və Talibabad-Barğa kəndləri arasında, 1724-cü ilə aid arxiv sənədlərində göstərilir (77, s. 151). Sözdə
-u saitinin səsdüşümü hadisəsinə uğramasını düşünürük. Bu hadisə türk dillərinin fonetikası üçün xarakterik dil hadisəsidir (144, s. 225). Sözü "Şu+al+at" kimi bərpa etmək mümkündür. Şu tayfa adından sonra sözə birləşən "al" tərkibi türk xalqlarının leksikonunda "qırmızı" rəng mənasında işlənmişdir. Qazax türklərində "qırmızı", qırğız və özbək türklərində "kızıl", uyğurlarda "kıpkızıl", dilimizdə, Osmanlı türklərində və başqırdlarda "al" kimi işlənən bu söz rəng ifadə edir (39, I c., s. 12-13). Biz qədim türk dillərinin Altay, Alatau kimi coğrafi adlarda, eləcə də "alqış", "alay", "alaçıq" kimi sözlərdə "al" tərkibinin "uca" mənası ilə qarşılaşırıq. Bu sözlərin tərkibindəki "tau"-"dağ", "çauq"-"qala", "qış"-"qışqırmaq" fel kökü kimi əski türk sözləri "al" tərkibi ilə "uca" mənasını bir daha təsdiq edir (F.R.). M. Seyidov bu tərkibin "uca" mənası ilə yanaşı həm də "sər, pislik" mənalarında şər ruhu təmsil edən söz kimi işlənməsi faktına da dair xeyli misallar gətirmişdir (260, s. 299-301). Bəzi türk dillərində "al"leksemi "ulu", "güclü", "qüvvətli" və s. mənalarda da işlənir (68, s. 42).

Herodotun "Tarix" kitabı skif tayfalarından birinin adını "Paralat" kimi göstərir ki, biz burada da "alat" tərkibi ilə rastlaşırıq (9, IV, 6). Bundan başqa Azərbaycan toponimik sistemində ayrıca "Ələt" yer adı ilə də qarşılaşırıq (35, s. 44). Fikrimizcə Böri+al+at tərkibli tayfa adı "Ulu qurdlar" mənasını daşıyırdı. Bunu tayfa adındakı böri - "qurd" (486, s. 37), "al"-"uca" sözləri və "at"- "yurd, yer, məkan" (64, I c., s. 284; 168, s. 256), eləcə də cəmlik ifadə edən şəkilçi kimi (243, s. 221) işlənmə mənaları da sübut edir.

Bütün bunları nəzərə alaraq sözü "Ulu, uca Şu yurdu" və ya "Ulu, uca Şu" kimi izah edirik.

**Süzüt.** Biz yuxarıda mənbələrdən danışarkən siyahıya alınma zamanı xeyli məntəqə adının sənədlərə düşmədiyi haqqında da məlumat vermişdik. Süzüt kəndi və qalası ərazisində yalnız torpağın üst qatından aşkarlanan maddi-mədəniyyət nümunələri onların e.ə. II minillikdən I minilliyin sonu və miladdan sonra I əsrə aid olduğunu təsdiq edir (108, s. 427-428). Ola bilsin ki, kənd miladın əvvəllərindən dağıdılmışdır.

Burada uçmuş binaların xarabalıqları qalsa da, qəbiristanlığı aşkar etmək mümkün deyil. Əgər ətrafda arxeoloji araşdırma aparılarsa, onun maddi-mədəniyyət nümunələrinin e.ə. III-II minilliklərə aid olacağı qənaətindəyik.

Etnooykonim yuxarıda etimoloji izahını verdiyimiz Şuşad yer adı ilə eyni quruluşa malikdir. Burada Şu tayfa adı və "şad"- "zadəgan", "başçı" mənalarında rütbə bildirir. Qala və məntəqə adı "Şu şadı", mənasında etnooykonim kimi ilkin formada iki sabit söz kökündən formalaşmışdır və I növ ismi birləşmə şəklində olsa da II növ ismi birləşməyə uyğundur. Yuxarıda qeyd etdiyimiz kimi V-VII əsrlər Orxon-Yenisey yazılarında, Qərbi Göytürk xaqanlığında "şad" tərkibi Ulunq şad, Tarduş şad, bəzən isə "sat" şəklində Sati, Satoda kimi antroponimlərdə bu söz titul, rütbə ifadə edirdi (214, s. 131,135).

**Şuranuz.** Naxçıvan qəzasının Ağcaqala nahiyəsi daxilində Bıyıklı və Əyrək kəndləri yaxınlığında qeydə alınan bu etnooykonimin adı ilk dəfə 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında göstərilir (77, s. 170). Sözdə "Şu" tayfa adından sonra -u saitinin düşümü-eliziyası ilə qeydə alınmışdır. Etnooykonimi Şu+urun+uz kimi bərpa etmək mümkündür. Bu birləşmədə qədim türk "urun" sözü "yaraşan", "yüksələn" kimi mənalarda qeydə alınır (37, s. 615). Diqqət etsək müasir leksikonumuza daxil olan bu sözdə y+ara+şan "uru" tərkibi qorunmaqdadır (-F.R.). M. Kaşğari öz divan –lüğətində "urun" tərkibinin "oturulan yer", "ol meni urundun turqurdu" - "o, məni yerimdən qaldırdı" mənasından danışır (43, II c., s. 177). Bundan sonra M. Kaşğari "urun" sözünün "qalxmaq", "peşman olmaq" mənalarında işlənməsindən də bəhs edir (42, I c., s. 201).

Biz qeyd etdik ki, mənbələr oğuz türklərində "-n" hərfinin əksər hallarda "-nq/ng"- "səğir nun" səsi ilə bərabər işləndiyini göstərir (168, s. 261; 243, s. 221). Biz qədim türk antroponimlərində Urun, Urunqu sanqun, Urunqu Tudun çigşi, Urunqu kimi adlarla qarşılaşırıq (214, s. 151). Adın tərkibindəki "uz" sözü "oğuz, "işıq", "isti" və s. mənalarda geniş izah olunmuşdur (253, s. 151-159; 243, s. 137-139.). Biz İraq-türkmən ləhcəsində "uz" tərkibinin "ağıllı", "tədbirli" mənaları ilə də qarşılaşırıq (233, s. 24). Bu kimi araşdırmalara istinadən adı "Yüksələn işıqlı şular" və ya "Ağıllı şuların yurdu" kimi izah etmək mümkündür.

**Uşu.** İrəvan qəzasının Karbi nahiyəsində Maqta və Xızır İlyas

kəndləri yaxınlığında göstərilən məntəqə adı ilk dəfə olaraq 1590-cı ilə dair arxiv sənədlərinin əsasında tərtib olunmuş məlumatlarda rast gəlinir (77, s. 162). Sonrakı sənədlərdə öz əksini tapmayan bu məntəqənin tarixi proseslərdə dağıdılması ehtimal oluna bilər. Oykonimdəki "Şu" tayfa adından başqa əvvəldə gələn –u hərfi M. Kaşğaridə "uyqu", "gecikdirmək" və "qüdrətli" kimi üç mənada izah olunmuşdur (42, I c., s. 44, 93; 44, s. 247; 41, s. 681).

Türk dili sözlüklərində qazax, qırğız, başqırd, özbək dillərində "ev" sözünün "üy", "öy", "uy", "oy" kimi işlənməsi zamanı (39, s. 228-229) türk dillərinə məxsus e≈u fonetik paralelliyi ilə qarşılaşırıq. Bu hadisə nəzərə alınarsa –e saitinin tək işlənmə variantında onun "ev" və "olmaq" mənaları ilə də qarşılaşırıq (42, I c., s. 494). Maraqlı haldır ki, bu tək hərfli söz eynilə Urartu dilində də "ev" mənasında işlənmişdir (210, s. 58). Bu halda Uşu məntəqə adı hazırkı leksikonumuza uyğun "Qüdrətli Şu" və ya "Şu evi" mənasında açıqlanır. Biz ikinci variantı doğru hesab edirik.

**Pirsu.** Naxçıvan qəzasını Zar nahiyəsində Qarasaqqal və Yellidərə kəndləri arasında sənədlərə düşən bu etnooykonim də 1590-cı ilə aid məlumatlarda göstərilmişdir (77, s. 180). Ada sonralar Pirus yazılışında da təsadüf edirik ki, burada -u və -s hərflərinin yerdəyişməsi-metateza hadisəsinin (144, s. 225) mövcudluğu fikrindəyik. Sözü Piri-böri-"qurd" və Su tayfa adı ilə bərpa etmək mümkündür. Əgər sözü ikinci yazılışında Pirus tərkibi ilə etimoloji izaha cəlb etsək, buradakı "Piru" tərkibi təbii ki, müasir "pir" sözü ilə əlaqəli deyil, qədim türk mifologiyasında böri-"qurd" mifik sözü ilə bağlıdır (486, s. 37; 260, s.164). Başlanğıc, ana, nəsil ifadəli bu türk mifi haqqında ilkin məlumat qədim Çin qaynaqlarında verilmiş, sonralar bu mif İran-fars mifologiyasına da adlamış, bu haqda M.A. Şerbak, M. Seyidov, Q. Qeybullayev və b. geniş araşdırmalar aparmışlar (243, s. 216). Fikrimizcə bu məntəqə adı Şu türklərinin əski "qurd" mifi ilə bağlı olub (105, I c., s. 242) "Qurd Şu" mənasındadır.

**Sus.** Tədqiqatlar məntəqə adnın mənşəyinin bəlli olmadığını göstərir (154, s. 186). Bu etnooykonimin adına 1590-cı ilə aid arxiv sənədlərinin məlumatlarında Naxçıvan qəzasının Qarabağ nahiyəsi daxilində Fazil və Əlixangüney məzrəələri (insan yaşamayan xaraba kəndlər) yaxınlığında qeydə alınır (77, s. 166). 1728-ci ilə aid digər bir mənbə adı Qarabağ nahiyəsinə yaxın Məvaziyi-Xatun nahiyəsində Oğbin və Almalı

kəndləri arasında Sas kimi təqdim edir (110, s.28). Sonrakı mənbələrdə bu məntəqə haqqında məlumat verilmir. Məntəqənin köçürüldüyünü və ya dağıdıldığını ehtimal etmək olar. Adı –u saitinin səsdüşümünü nəzərə almaqla Su+us şəklində bərpa etmək mümkündür. Belə olan halda etnooykonimdəki us tərkibi "ağıllı, zəkalı" mənası ilə (355, s. 13) sözü "Zəkalı Şu" kimi etnooykonimə çevirir. Tərkiblər əski türk sözü və tayfa adından formalaşmışdır.

**Şatərmuğum.** Naxçıvan qəzasının Şuragel nahiyəsində Çanqıdərə, Karvansara kəndlərinə yaxın ərazidə göstərilən bu məntəqə adı 1728-ci ilə aid arxiv sənədləri məlumatlarında qeydə alınır. Ad Sudagen kimi də tanınır (77, s. 125-126). Sonrakı mənbələr ad haqqında heç bir məlumat vermədiyindən məntəqənin tarixi proseslərdə köçürülməsi və ya dağıdılması ehtimal oluna bilər. Maraqlı semantik quruluşa malik olan bu adda qədim türk inancı şamançılıqla bağlı muğ- "maq, qam, şaman" və um- "bu, budur" mənalı sözlə qarşılaşırıq (208, s. 52). "Um" tərkibi kuti türklərinin İmta və Kurum çar adlarında da təkrarlanır (350, s. 39). Şu tayfa adından sonra gələn "tər/törtur/turu" tərkibi qədim türk və müasir türklərin dillərində "törə, adət" (39, s. 900; 210, s. 55-56), "düşərgə", "evin ən gözəl yeri" kimi mənalarda işlənməklə qədim Manna dövlətində Durdukka qala adında qalmışdır (44, III c., s. 221). Bu qədim söz kökü eyni zamanda "ədalətli, düzgün" mənalarında da işlənmişdir (208, s. 59, 75). Etnooykonimi "bu şaman adətli Şu" və ya "ədalətli Şu şamanı" mənalarında izah etmək mümkündür. Qeyd edək ki, günümüzə gəlib çatan "Atabəylər türbəsi", "Naxçıvan xan sarayı", "Mömінə xatun türbəsi" və s. də belə onomastik vahidlər sırasına daxildir.

**Şudagen.** Bu məntəqə adına yenə də Naxçıvan qəzasının Şragel nahiyəsində 1728-ci ilə aid arxiv sənədlərində Daşbulaq və Kiçikli kəndləri arasında rast gəlirik. Lakin sonrakı qaynaqlarda ada təsadüf edilmir. Ad qaynaqlarda həm də Şatərmuğum kimi tanınır (77, s. 125-126). Maraqlı hal budur ki, bu adda da/di-"tikən"(208, s. 80) tərkibi və kan "kağan" rütbə bildirən qədim türk sözləri etnooykonimi "Şu kağanları tikən" şəkildə formalaşdırmışdı. Əgər burada adın ikinci yazılış formasını nəzərə alsaq, o zaman ad "Şatərmuğum" sözünün etimologiyası ilə yazıyaqədərki dövr eyni türk dili elementlərinə malikdir.

**Şollu.** Bu məntəqə adına qoşulan söz Mehmandarı-Şollu, Dəmir-

çiliye- Şollu şəklində iki kənd olaraq Naxçıvan qəzasının Qırxbulaq nahiyəsində Ərzkan və Xaçaparaq kəndlərinə yaxın ərazidə göstərilən bu məntəqə adları 1724-cü ilə aid arxiv sənədləri məlumatlarında qeydə alınır (77, s. 36). Fikrimizcə məntəqə adlarındakı "Şollu" tərkibində ümumtürk dialektində "yovşan-yuvşan-yuşan" kimi o≈u fonetik hadisəsi ilə yanaşı (336, s. 8; 266, s. 41) -y samiti düşmüş, sözün ilk variantı isə Şu+uluy yazılışında olmuşdur. Biz qədim türk dillərində "uluy" komponentinin "böyük", "ulu", "güclü" mənalarında M.Kaşğarinin "Qədim türk dili sözlüyü"ndə rast gəlinir (43, II, s. 95; 37, s. 610). Bu söz nəzərə alınarsa, etnooykonimi formalaşdıran "Şollu" tərkibi "ulu Şu" mənasında açıqlanır. Əgər diqqət etsək, sözə qoşulan Mehmandarı və Dəmirçiliye sözlərinin "Şollu" sözünə sonralardan adları fərqləndirmək üçün əlavə olunduğunu aydın görərik. Əgər sözü ayrıca Şu+lu şəklində olduğu kimi qəbul etsək, buradakı "lu" tərkibi "əjdaha" və "ilan", eyni zamanda "əjdaha çarı" mənalarında verilmişdir ki, (37, s. 334) bunun da qədim türk mifologiyası ilə bağlı olduğunu düşünürük (-F.R.). Bu halda məntəqə adı "Əjdaha şu" kimi oxuna bilər.

**Sut.** 1724-cü ilə aid arxiv sənədlərinin məlumatlarında o zaman Naxçıvan qəzasına daxil olan Maku nahiyəsində Saqat və Əndəlib kəndləri yaxınlığında qeydə alınan bu etnooykonim (77, s. 41) maraqlı və elmi cəhətdən xeyli əhəmiyyətli coğrafi addır. Birbaşa tayfa adı və -t- "cəmlik və məkan, yurd" ifadə edən söz şəkilçi ilə "Şular" və "Şu məkanı, yurdu" kimi mənalarda açıqlanır.

**Şenaz.** Zərzəmin nahiyəsində Toykümə və Quzey Hərkəz kəndləri arasında 1728-ci ilə aid sənədlərdə göstərilən bu məntəqə 1590-cı ilin sənədlərində bütün nahiyənin 64 kəndi ilə bərabər qeydə alınmamışdır (77, s. 121). Eyni adda məntəqə adına 1927-ci ilə aid məlumatlarda Cənub Azərbaycanımızın Mərənd bölgəsində də təsadüf edirik (200, s. 136,). Bu məntəqə adında e≈u səsəvəzlənməsi müşahidə edilməklə (168, s. 265) Şu şəklində Şunaz kimi bərpa edilsə də "naz" tərkibinə biz qədim türk dili sözlüklərində rast gəlmirik. Təbii ki, bu sözün müasir "naz-qəmzə" sözü ilə heç bir əlaqəsi yoxdur. Lakin tərkibin "nos/noş" yazılışında daşıdığı "həyat iksiri" mənası da (37, s. 360) tayfa adını tam olaraq izah etmir. Biz türk dilləri sözlüklərində -u saitinin qoşulduğu "una"- sözünə təsadüf edirik ki, bu da "sözündən dönməyən", "razılaşmayan", "inadkar" kimi "unaş" yazılışında isə "razılaşan" mənalarında

işlənmişdir (44, III c., s. 256; 37, s. 612;). Etnooykonimin yalnız "Dönməz, inadkar şular" mənasında olduğunu ehtimal etmək olar.

**Sumal.** Maraqlı və elmi cəhətdən əhəmiyyətli bir ad olan bu məntəqə adı 1724-cü ilə aid arxiv sənədlərində yenə də Maku nahiyəsində Çıqçı və Uzunbüyü kəndləri arasında balaca bir kənd olaraq həm də "Şimal" yazılışında qeydə alınır (77, s. 40). Etnos adına birləşən "mal" tərkibi "var", "varidat", "dövlət", m≈b səsəvəzlənməsi ilə "bal, balmaq" yazılışında isə "olmaq", "var olmaq" feli kimi işlənmişdir (37, s. 80, 335; ). Məntəqə adının "Varlı Şu" və ya "Əbədi Şu" kimi mənalarla formalaşdırdığını düşünürük.

**Şəbik.** Bu məntəqə adı digər adı Qarança, Qançı olmaqla Naxçıvan qəzasının Vedi nahiyəsində Kəstənli kəndi və Qarança məzrəəsinə yaxın ərazidə göstərilən bu məntəqə adları 1724-cü ilə aid arxiv sənədləri məlumatlarında qeydə alınır (77, s. 51). Biz "bik/bek"tərkibinə M.Kaşğari, Yusif Has Hacibin əsərlərində və "Qədim türk dili" sözlüyündə "möhkəm", "sağlam", "qaya kimi" mənalarında təsadüf edirik (44, III c., s. 11; 6, s. 82; 37, s. 92,). Bu mənaları nəzərə almaqla məntəqə adının Şu tayfa adından və "sağlam" sözündən formalaşmaqla "Sağlam şular" mənasında olduğunu söyləyə bilərik.

Beləliklə, Şu prototürklərinin adını daşıyan bu etnooykonimlərin iltisaqi dil qanunları hesabına formalaşması, başqa adlarda olduğu kimi bu adlarda da Assur, Het və s. mənbələrdə qədim türklərlə bağlı qeydə alınan türk dilində inanc, rütbə, çar, məişətlə bağlı sözlərdəki əski dil elementləri bu tayfaların tarixinin e.ə. IV minilliyə aidliyini və prototürk dili olduğunu sübut edir. Bu amillərin ümumprototürk arealında təkrarları eyni yazıyaqədərki dövr türk dili leksik vahidlərinin, şəkilçi və tanrı adlarının, eyni mifoloji əlamətlərin mövcudluğu da bu tayfaların eyni mənşədən gəlməklə eyni inanc və dilə mənsubluğuna təkzibolunmaz tarixi faktorlardır. Etnogenezimizin təşəkkülündə iştirakçı olmuş sadalanan bütün bu qədim türk boylarının və Şu türk adlarının bu qədim ərazidə-Naxçıvan yer adlarında zamanımıza qədər gəlməsi, eyni adların həm şimalı Urmiya gölü ətrafında və Mesopotamiyada təkrarı, proseslərin eyni dövrdə baş verdiyini bu ərazidəki mədəniyyətlə İkiçayarası mədəniyyətin eyni tayfalar və xalqlar tərəfindən yarandığını bir daha təsdiq edir.

## 10. TAL TÜRKLƏRİ

Azərbaycan xalqının, eləcə də Naxçıvan əhalisinin etnogenezi məsələsində indiyə qədər tarixi, dili və məskunlaşma əraziləri tədqiq olunmamış tayfalardan biri də Tal türkləri olmuşdur. Azərbaycan toponimiyasında qədim Tal boylar haqqında heç bir sistemli araşdırma aparılmamış, yalnız Dalay tayfaları ilə bağlı araşdırmalarında Q.Qeybullayev bu kökdən olan Tolos tayfalarının da adını çəkmişdir. Biz bu barədə aşağıda ətraflı danışacağıq. Bu tayfaların mənşəyi, yayım arealı, tarix səhnəsinə çıxma dövrü indiyədək heç bir tədqiqatçı tərəfindən tədqiq edilməmiş və digər xalqlarla mədəni siyasi bağlantıları öyrənilməmişdir. Azərbaycanlıların, eləcə də qədim Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi yeri olan Tal tayfalarının hansı soydan gəldikləri, həqiqətən qədim prototürk boyları olub-olmadığı ətraflı və sistemli şəkildə öyrənilmədiyindən, onlarla bağlı etnooykonimlər də etimoloji yöndən izah olunmamış, adlardakı yazıyaqədərki dövr dil elementlərinin, morfem və şəkilçilərin də mənşəyinə aydınlıq gətirilməmişdir. Beləliklə, tallar haqqında sistemli araşdırma ilk dəfə olaraq tərəfimizdən aparılmış, onların proto Azərbaycan tayfaları olması, xalqımızın və Naxçıvan əhalisinin etnogenezində iştirakı, ərazisi və dili məsələsi də ilk dəfə olaraq tarixi fakt və elmi dəlillərlə əsaslandırılmışdır.

Təbii ki, ümumən Bütöv Azərbaycan toponimiyasında (Şimal və Cənub Azərbaycan nəzərdə tutulur) bu problem araşdırılmadığından e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərində tarix səhnəsində olmuş tallar haqqında heç bir fikrə təsadüf etmirik. Yalnız Azərbaycan xalqının etnogenezi məsələsinin böyük tədqiqatçılarından olan Q.Qeybullayev Assur mənbələrində "dalaylar ölkəsi" adını çəkməklə, dalayların Xəzər ətrafında yaşadığına dair qısa məlumat vermiş, tolmat, teleut, tele etnonimlərinin Dalay adına uyğun olduğunu yazmış, lakin bunun bir ehtimal olaraq qaldığını söyləmiş, Tal tayfalarının adını çəkməmişdir (324, s. 249). Bütün bunlara baxmayaraq tərəfimizdən bu istiqamətdə aparılan tədqiqat nəticəsində istər tariximiz, istər də dilimiz üçün xüsusi əhəmiyyəti olan Tal prototürklərinə dair gərəkli məlumatlar əldə olunmuş, onların Azərbaycan xalqının, eləcə də Naxçıvan əhalisinin etnogenezindəki iştirakı ilə bağlı bir sıra elmi faktlar aşkar edilmişdir.

Öncə bir məsələni xüsusi qeyd etmək istərdik ki, istər Azərbaycan və Naxçıvan, istərsə də ümumtürk arealında yayılan coğrafi adlar

sisteminin formalaşmasında xeyli sayda məntəqə adları ilə rastlaşırıq ki, burada yazıyaqədərki dil elementləri ilə toponimik adların formalaşmasında "tal" komponenti tez-tez təkrar olunur. Bu əski dil vahidlərinin qədim türk dillərindəki mənaları adların nominasiyasında yardımçı olmuş "tal" söz kökünün bir canlı ismə, varlığa, daha doğrusu bir tayfa, tirə, boya mənsub olduğunu qeyd şərtsiz təsdiq edir. Azərbaycan, o cümlədən də Naxçıvan və ümumtürk toponimik sisteminə daxil olan coğrafi adlar üzərində əski qaynaq materialları əsasında apardığımız araşdırmalar zamanı bu tayfa adının "tal", "tol", "tel", "tul", "til" şəkillərində sənədlərə a≈o, a≈u, a≈i, a≈o, a≈e fonetik səs əvəzlənmələri ilə düşdüyünün şahidi oluruq. Bütün bu faktlara istinadən talların bir tayfa olduğunu, onların mənşəyi, dili, tarixi haqqında fikrimizi əsaslandırmaq üçün tədqiqatımızı aşağıdakı amillərin tədqiqi üzərində qurmağı doğru hesab edirik:

1. "Tal" komponentli coğrafi adların əsasən hansı ölkələrin ərazilərində yayımlandığını nəzərə almaqla, ərazilərdə prototürk boylarının olma ehtimalını aydınlaşdırmaqla, tarixi müqayisə aparmaq;

2. Bu coğrafi adları formalaşdıran komponentlərin etimologiyasını və dil elementlərinin mənşəyini, hansı dil qrupuna aid olduğunu, eləcə də hansı dövrün adlar sistemində nominasiyaya xidmət etdiyini müəyyənləşdirmək;

3. Ümumtürk arealındakı oykonimlər sistemində aşkarlanan "tal" tərkibli coğrafi birləşmələrə qoşulan yazıyaqədərki dövr dil elementlərinin canlı ismə, yəni hər hansı bir xalqa aid olub-olmadığını elmi cəhətdən əsaslandırmaq;

4. Tarixi qaynaqlarda belə bir tayfa adının təsadüf edilib-edilmədiyinə diqqət yetirmək;

5. Bu birləşmələrdə iltisaqi dillər-türk dilləri qanunlarının mövcudluğunu elmi yolla əsaslandırmaq.

Məhz bu tədqiqat üsulunu əsas götürərək biz talların bir söz və ya tayfa olduqlarını dəqiqləşdirməyi doğru hesab edirik.

Öncə bütün bunları və irəli sürülən şərtləri nəzərə alaraq xalqların toponimik sistemində bu tayfalarla bağlı bəzi coğrafi adların yayım arealına diqqət yetirməyi lazım bilirik. Bu konsepsiyada əsas məqsədimiz fikrimizi əsaslandırmaq, türk və əcnəbilərə məxsus ərazilərdəki "tal" tərkibli adların say fərqi və coğrafi adları formalaşdırmağa xidmət edən

söz köklərinin məna çalarlarına diqqət etməkdən ibarətdir. Beləliklə biz dünya xəritəsində ABŞ-da Tallaxassi şəhəri, Nilin yuxarı axarlarında Tala şəhəri, İspaniyada Talavera çayı, Estoniyada Tallin paytaxt şəhəri (cəmi 17 ada) kimi adlara rast gəlirik (103, s. 90-91, 126, 149). Təbii ki, bu səpkidə adlar sadəcə dillər arasında söz köklərinin zahiri oxşarlığı əlamətləri də ola bilir. Lakin bir çox hallarda bu cür oxşarlıq və tərkib təkrarı əsasən tarixi proseslərlə bağlı olmaqla, böyük türk imperiyalarının təsiri altında olan ərazilərdə türk tayfalarının həm də yayım arealının göstəriciləridir. Əgər xatırlasaq, As türkləri İtaliya ərazisində Asonoba, Finikiyada Askalon, Perimdə As şəhəri (160, s. 122-123), Ərəb Əmirliyində Mərva yaxınlığında Sincan toponimi və Azərbaycanda Oğuz rayonunda Sincan (413, s. 145) kimi adlar qədim türk cahan yürüşünün izləri sayıla bilər. Bu məsələ xüsusi araşdırma tələb edir.

Lakin biz türk toponimik sistemində bu adların yayımına və qeydə aldığımız "tal" tərkibli bir qrup sözlərin etimologiyasına qısaca da olsa nəzər salmağımızı, bu adlardakı yazıyaqədərki dovr dil elementlərinin etimoloji mənalarına diqqət yetirməyimizi daha doğru hesab edirik. Bu istiqamətdə biz Amur məmləkətində, Taldan, Talakan adda şəhər və çay adları-asteonim və hidronimlərə, o cümlədən Xabarovski vilayətində də eyni adlara təsadüf edirik (103, s. 42-43). Taldan coğrafi adında "tal" söz kökünə qoşulan "dan/tan" tərkibi əski türk dillərində "tən", "düzən" və "möcüzəli, heyrətli" mənalarını ifadə etmişdir (55, III c., II h., s. 1616; 64, I c., s. 607). İkinci Talakan sözündəki "Tal" tayfa adına qoşulan "kan" sözü isə, omonim olmaqla "yurd, məkan" mənalarında Beyləqan, Abakan, Namanqan, Kalakan kimi çoxsaylı müasir coğrafi adlarda təkrarlanır (103, s. 38-39, 58-59). Bu tərkib eyni zamanda eramızın V-VI əsrlərində kan-"kağan" kimi əski türklərdə titul, rütbə ifadə etmişdir. Orxon-Yenisey yazılarında Ərgən Kan Altuğa, Yağlakar Kan ata, Kara kan kimi antroponimlər bu qəbildən olan adlardır (235, s. 384) Bəzən belə adlar səğir nun -nq qovuşuq samitləri ilə müşahidə edilir (168, s. 247). Bundan sonra bu tərkib türk dillərinə məxsus k≈x≈h fonetik dəyişikliyi ilə (266, s. 86; 39, s. 419) "xan" yazılışında bir qrup türk dillərində də titul, rütbə ifadə etmişdir. Göründüyü kimi adları formalaşdıran söz - tərkiblər Taldan-"Tal duzu", Talakan isə "Tal kağanı" və ya "Tal yurdu" mənalarında əsasən canlı ismə, hər hansı soya, tirəyə işarətlər mövcuddur. Türk talların keçmiş Sovetlər

birliyində Orta Asiya, Altay, Sibir, Saxa, Kazan tatarları ərazilərini əks etdirən qısa toponimlər luğətində "tal" tərkibli Talan, Taldıkuduk, Talar, Taldısay, Talas, Taltan, Talkar, Talnax, Taldı-Kurqan, Tal, Talak, Talti kimi yüzdən yuxarı coğrafi adları da bu adların bir tayfa adı olduğunu sübut edir. Əgər adların miqdarını əcnəbi adları ilə müqayisə etsək bu adlanmaların ümumtürk arealında geniş yayımı, talların əsasən türk xalqları ərazisində-torpaqlarında məskun olduqlarını göstərir.

Yeri gəlmişkən qeyd edək ki, Gürcüstan ərazilərində gürcülərin özləri türk boylarının yaşadığı torpaqlarda Tela, Sitelmat şəhər və qəsəbə adlarının başqa dildən gəldiyini yazırlar (117, s. 307). Bundan sonra biz bu ərazinin coğrafi adlar sistemində Axtal- "Uca Tal" və Qiis-tol- "şöhrətli, zəkalı tal", şəhər adlarına, Talat –"Tal məkanı, yurdu" dağ silsiləsi adına da rast gəlirik (yenə orada, s. 25, 154, 180).

Biz Türkiyə dövləti ərazilərində də kənd, qəsəbə və şəhər adları içərisində Talas, Til, Tilek, Tuluk (521, s. 94, 102) kimi coğrafi adlarla rastlaşırıq. Adları formalaşdıran yardımçı morfemlər-sözlər bu adların bir tayfa adından yarandığını göstərir. Adı çəkilən toponimik arealın coğrafi məkanını izləsək, bu adların yaranmasında iştirakı olan "tal" komponentinin və ya tayfa adının əsasən ümumtürk arealında geniş yayıldığını görərik. Tal tayfa adının Cənub Azərbaycan ərazisində Xalxalda Tuleş, Sərabda Telab (510, s. 176), Talti kənd, Talbi bulaq və s. (358, s. 463) kimi onlarla müxtəlif toponimik adlarda, eləcə də etnooykonimlərdə mövcudluğu da fikrimizin doğruluğunu, talların bir tayfa olduqlarını təsdiq edir.

Azərbaycan ərazimizin coğrafi adlar sistemində bu tayfa adı Tal, Talman, Taladar, Talba, Talabu, Tel, Tələvar (35, s. 90-92) kimi təkcə 31 oykonimdə-məntəqə adında, eləcə də əllidən yuxarı digər toponimik adlarda qeydə alınır. Bəzən məntəqə adları xəritələrdə öz əksini tapmasa da, tədqiqatlarda da biz "tal" tərkibli adlarla qarşılaşırıq. S.M.Mollazadənin araşdırmalarında Beyləqan ərazisində Tala və Tulu kənd adları ilə rastlaşırıq (413, s. 38, 206 c). Qədim Naxçıvan ərazisində isə, Tal türklərinin adı Tutal, Tal, Catallar, Talin, Tilyak, Tulus adlarında tarixi sənədlərdə və arxiv materiallarında qeydə alınır (77, s. 164, 167, 171, 180). Ümumən istər arxiv sənədləri, istərsə coğrafi xəritə və səyyahların əsərlərini izləsək, Bütöv Azərbaycan toponimik sistemində 250-dən yuxarı coğrafi adda biz bu tərkibi izləyirik.

Bu tərkib türk dillərinə aid tarixi yazılı salnamələrdə də öz əksini tapmaqdadır. Orxon-Yenisey ərazilərində Taluy, Tola kimi hidronim və oronimlərdə "tel" tərkibinin mövcudluğu, Göytürk tayfaları arasında Toliş, Talas, türk boyu adlarında müşahidə edilməsi (235, s. 388-390), eləcə də areal türk ərazilərində Tula, Talakan, Talas, Talqar, Taldı, Telexan, Tel, Telşay kimi yüzlərlə coğrafi adda (103, s. 29, 42-43, 56, 60,) bu komponentin təkrarlanması şübhə yoxdur ki, adi bir təsadüf deyil, qədim bir türk boyunun türk torpaqlarında yayım arealının coğrafi göstəricisidir. Burada Toliş-"iç tollar", Tola-"kiçik tallar", Talas-"zəkalı Tal", Taldı-"tal tikən, tal quran", Talakan-"talın yurdu", Telexan-"tal xanı" mənalarını daşıyır. Qeyd edək ki, bu başlıqda bütün etimoloji izahlar tərəfimizdən ilk dəfə olaraq verilir (-F.R.). Əgər diqqət etsək adlardakı mənalar və onların tərkibindəki yazıyaqədərki dövr türk dili elementləri adın türk tayfa adı olduğunu, toponimik adların isə qədim türk dili elementləri və imkanları hesabına formalaşdığını tamamilə təsdiq edən amillərdir. Əski kuti, lulubəy, kas, turukku, subar və b. prototürklərdə də bu komponentlərin təkrarları Tal adlı tayfanın qədim türk tayfaları arasında mövcudluğunu bir daha sübut edir.

Bəs areal türk coğrafi adlar sistemində bu qədər coğrafi adda təkrarlanan bu tərkib hansı mənanı daşımışdır? Adların tədqiqində bu kimi digər məsələləri əsas götürməklə "tal" tərkibinin nə məna daşıdığına da qısaca diqqət etməyi məqsədəuyğun hesab edirik.

M.Kaşğarinin, V.V.Radlovun lüğətlərində bu tərkib "tal", "dal" yazılışında "budaq-ağacın budağı" mənasında izah edilmişdir (41, s. 563; 42, I c., s. 412). Daha sonra biz "tal" sözünün daşıdığı "budaq" mənasına areal türk dillərində, o cümlədən başqırt, özbək, uyğur, tatar, qazax, qırğız dillərində "botaq", "tal", "şak", "putak" yazılışlarında eyni mənada rast gəlirik (39, I c., s.144-145).

Qeyd etmək lazımdır ki, lüğətlərin izahlarından ortalığa çıxan nəticə bu tərkibin haradasa bir tayfa qolu olduğunu, onların çox qədimlərdən türk tayfa ittifaqlarında tarix səhnəsinə çıxdıqlarını və yer adlarının nominasiyasında, yəni adlanmasında isə, əski türk sözlərinin bu adlara iltisaqi dillər qanununa uyğun qoşulduğunu təsdiq edir.

Yuxarıda göstərilən bütün bu dəlil və məlumatları ümumiləşdirsək bu tayfaların bütün türk torpaqlarında mindən yuxarı oykonim, oronim, hidronim və başqa coğrafi adlarda öz izlərini yaşatmaları adi bir təsadüf

deyil, onların bir türk tayfa adı olmasının təkzibolunmaz sübutlardır.

Adların etimoloji izahları zamanı bəzi maraqlı məqamlar da elmi cəhətdən xüsusi əhəmiyyət daşımaqdadır. Oykonimlərdən Talan-"tala məxsus, tal məkanı", Talar- "tal ərləri", Talas-"güclü, zəkalı tal", Taltan- "tallara tən", "tal düzü", Talkar- "sevimli tal", Talnax-"nax talları", Taldı-Kurqan- "talların tikdiyi kurqan", Tal, Talak-"uca tal", Talti-"tallar tikən", Tala-"əsl tal, talın özü" kimi adların daşıdığı bu mənaları əmələ gətirən yazıyaqədərki türk dili elementləri tərəfimizdən bir çox yazılarımızda izah olunmuşdur (48, s. 606; 247, s. 36-40; 251, s. 163-173; 37, s. 532).

Nümunə üçün verilmiş adların tərkibindəki "kan", eləcə də "an"-"yurd, məkan", "kağan", "ər"- "igid, kişi", "ti"- "tikmək", "as/es"-"güclü, zəkalı", "tan"-"tən" bundan başqa omonim kimi həm də "möcüzəli", "heyrətli", "kar"-"sevimli", "qala", "möhkəmləndirilmiş yer" leksik vahidləri, eyni zamanda -a "kiçiltmə", -an - "mənsubluq" ifadə edən şəkilçilər qədim türk dilinə məxsus yazıyaqədərki dövr dil elementləri olmaqla Assur, Het, Yunan mənbələrində prototürk tayfalarının dillərindəki işlək sözlərdə, antroponom və toponimlərdə də təkrarlanmışdır.

Yeri gəlmişkən bir məsələyə də aydınlıq gətirmək istərdik. Diqqət etsək, ümumtürk arealındakı Tal tayfa adı ilə toponimik adları formalaşdıran yazıyaqədərki dövr türk dili elementləri bütövlükdə qədim türk dillərindədir və bəzən bunlardan bir qismini arxaikləşmiş formada olsa da, belə ümumişlək halında günümüzdəki leksikonumuzda da təsadüf edirik. Buna misal olaraq "abu/abi/apa"- "qardaş", "ata", "xan", "kaş"-"ləkəsiz ağ", "qaş"- "işıq, şüa", "san"-"şan-şöhrət", "qar/kar"- "əziz", "sevimli" və s. sözlərin hazırda ad-san, bu bizə kardır (xeyir, əziz), qaş qaraldı (işıq azaldı), "abi"müasir türk leksikonunda "qardaş" (37, s. 1; 43, II c., s. 32, 55; 44, III c., s. 152; 208, s. 146) və s. sözləri nümunə kimi göstərə bilərik. Biz aşağıda bu arxaik sözlər haqqında yeri gəldikcə əlavə məlumat verəcəyik.

Əgər diqqət etsək, ad qoşulan morfem-sözlər əsasən canlı bir quruma, insana, yəni tayfaya məxsus işlənən sözlər olmaqla, onları müəyyən tərəflərdən izah etmiş, onlara məxsus miqdar, yer, məkan və s. ifadə etmişdir. Bütünlükdə iltisaqi dillər üçün xarakterik olan müstəqil dil vahidlərini söz+söz, yəni mürəkkəb quruluşlu leksik vahidə-sözə çevrilə bilən (Tal+as, Tal+kar) və söz+şəkilçi yəni söz və qrammatik

əlaqə yaratma quruluşunun (Tal+an, Tal+a) (262, s. 42-43.) xüsusiyyətlərini özündə cəmləşdirən bu adlar türk dili qanunları əsasında formalaşsa da belə bu yazıyaqədərki dövr nominasiya-adlanma sistemidir. Odur ki, etnooykonimləri əmələ gətirən sözlərin mənalarını müasir dil üslubu və etimoloji izahlarında olduğu kimi qəbul etmək, onları Talak-"uca tallar", Talkar-"sevimli tallar" şəklində I növ, Talkan-"Tal kağanı", Talnax-"Nax talı" II növ, Talti- "tallar tikdiyi", Talkan-"talların yurdu" şəklində III nov təyini söz birləşmələrinə aid etmək doğru deyil. Çünki bu qədim nominasiyalarda fonem-morfem, səs-məna üslubları ilə müasir dil fonetikası və morfologiyasından fərqlənir ki, bu da dilimizin ilkin dövr dil hadisəsinin ibtidai forması sayıla bilər. Bundan başqa "tal" tərkibinin heç bir şəkilçi olmadan bu sözlərlə işlənməsində təbii ki, söhbət tayfadan-çoxluqdan getdiyi üçün biz adlara -lar "cəmlik" şəkilçisinin artırılmasını tərəfimizdən doğru hesab edirik. Lakin bütün bu əlamətlərə baxmayaraq bu toponimik adlar talların bir türk tayfa, tirə, boyu olduqlarını və İltisaqi dil qanunlarına əsasən əski dil imkanlarına məxsus adlar yaratdığını sübut etməkdədir.

Tarixi qaynaqlar adlara qoşulan prototürk dili elementlərinin miladdan əvvəl Mitan, Manna, Midiya, Atropatena, Albaniya kimi qədim dövlətlərimizin, eləcə də sak, kimmer və skiflərin şəxs və coğrafi adlar sistemində Qinz+an, Nikdi+ar, Uşak+kan, Ak+bat+an, Ama+kar, As+ti+ak, Tan+ay, Ar+an, Ər+bak (9, III, 92; 349, s.179; 208, s. 82, 97, 100; 31, XI, 4,13) və s. kimi yüzlərlə adda təkrarlandığını gostərir. Bu və digər amillər Tal tayfalarının bir qədim türk boyu olduğunu, e.ə. IV-III minilliklərdə tarixi proseslərə qatıldığını, adlanma sisteminin isə As, Kas, Turukku-Türk, Subər , Kuti, Hürrü, Koman, Lulubəy və digər boyları ilə eyni olduğunu sübut edir. Bununla bərabər sadalanan amillər "tal" tərkibinin tayfa adı olmaqla tarix səhnəsində olması haqqındakı konsepsiyamızın doğruluğuna da təminat verir.

Bəs mənbələrdə bu adda tayfa olması hansısa formada təsadüf edilirmi və ya tarixdə "Tal" yazılışında hər hansı bir tayfa adı olubmu? Fikrimizcə, bu istiqamətdə qədim türklərə aid olan yazılı mənbələrə diqqət yetirmək, bu ad və ya sözün bir tayfa adı kimi qaynaqlarda öz əksini tapıb-tapmadığını mənbələrə əsasən izləmək də elmi cəhətdən əhəmiyyətli olardı.

Belə bir maraqlı məlumata biz gürcü tədqiqatçılarının yazılarında rast

gəlirik. Gürcü alimi V.N.Qamrekeli nədənsə Tal tayfalarının adlarını "Val/Dval" yazılışında təhrif edərək Pliniy və K.Ptolomeyin yazılarına istinadən bu tayfaların e.ə. XV əsrin əvvəllərində Şimali Qafqazın mərkəzi düzənliklərində məskunlaşdığını göstərir və onları gürcülərin babaları hesab edir (320, s. 29). Söz yox ki, burada öz-özünü təkzib edən bir neçə maraqlı tarixi faktla qarşılaşırıq. Öncə qeyd edək ki, o dövr gürcülər hələ xalq kimi formalaşmamışdır və indi say tərkibinə görə azərbaycanlılardan qat-qat geri qalan gürcülərin Xəzər dənizinə qədərki ərazilərə yayılmaları sadəcə uydurmadır. İkinci o dövr kaspilərin bu ərazidə Kaspiana adlı böyük əyalətləri mövcud idi və onlar böyük güc hesab olunurdular (31 XI, 4,5). Bu məlumatlar Korneliy Tasit, İosif Flavidədə təkrarlanır (21, VI, 33; 13, I, .XVIII, 4, 98). Bu mənbələr isə yazılanları tmamilə təkzib edir. V.N.Qamrekelinin bu fikirlərini təkzib edən Z.İ.Vaneev Pliniydən nümunə göstərərək yazır ki, tallar Xəzər dənizinə qədərki ərazilərdə sublarla (subərlərlə) bərabər məskun idi, ancaq onlar tallar deyil dvallar idi və bu ərazidə başqa xalqlar olmamışdır (567).

Herodot özünün "Tarix" əsərində Siciliya adasında Sirakuz şəhər adını və burada yaşayan Tel-talları qeyd edir. Bundan sonra o, hökmdar Sirakusun ulu babası Telin, eləcə də Sibaris şəhərinin çarı Telisin adını çəkir (23, V 44; VII 153). Qeyd edək ki, o zaman, yəni e.ə. X və VIII əsrlərdə Siciliya adası İtaliyaya məxsus deyil, Yunanlara aid idi (120, I, s. 630). Daha sonra biz Sibaris və Sirakuz şəhərlərini İtaliyanın tərkibində görürük. Qəribə də olsa Mitan dövləti ərazilərində, Urmiya gölü ətrafında biz Subarti, Subaris, Şubar, Şubartu kimi türk subarların ölkə adları, həm də şəhər adları ilə qarşılaşırıq, (yenə orada, s. 311, 629). Bundan başqa biz Kiçik Asiya-Doğu Anadolu ərazilərində Sirakuz, "Dədə Qorqud" kitabında Şirakuz coğrafi adları ilə rastlaşırıq (19, s. 110, 264) ki, bu sözü V.Bartold, O.Gokyay və başqaları "Şerikuz", "Şeruk" kimi oxumaqla Sirak, şirakuzların prototük bulqar boyu, protooğuz tayfaları hesab etmişlər və biz yazılarımızda bu barədə fikrimizi açıqlamışıq (243, s. 98-114).

Bu məlumatlardan istər-istəməz belə bir sual ortalığa çıxır. Əgər Siciliyanın cənubunda Sirakuz şəhərində tallar yaşayırdılarsa və Telin Sirakusun ulu babası idisə və bu Subarların, Subartuların dövrü ilə səsləşirsə, (271, 138; 120, I c., s. 311, 515, 552) onda tallar hansı dövrün

tayfalarıdır? Təbii olaraq göstərilən tarixi faktlar elmi nəticə kimi bunu deməyə əsas verir ki, müxtəlif səsəvəzlənmələrlə qaynaqlara düşən "tal" adlarının yaradıcıları Tal prototürk boyları olmuş, onlar subarlarla eyni tarixi dövrlərdə, yəni ən azı e.ə. III minillikdə tarix səhnəsində olmuş, bu ittifaqda tarixi proseslərə qoşulmuşlar.

Bundan sonra biz Qay Yuliy Solinin yazılarında bir məlumatla rastlaşırıq: "Mitridata sığınacaq verən və Midiya əsilli, Asiyada yaşayan savromatlara görə Tal boyları şərqdə Kaspi dənizi sahillərində çay ağzında yaşayan tayfalarla həmsərhəd idi. Bu çay ağızları yağış yağanda heyrətamiz dərəcədə suyunu azaldır, istidə artırırdı" (526).

Bir sıra mənbə məlumatlarında Tal boyları ilə bağlı toponimik adlar, oykonim, oronim, eləcə də etnos və s. adlarla rastlaşırıq. XIII əsrdə Gəncədə doğulmuş Alban tarixçisi K.Gəncəli V əsr hadisələrini şərh edərək, "Alban tarixi" kitabında Buqa adlı sərkərdənin Simbatı həbs etdiyini, bu hadisələrin baş verdiyi Toran-Turan elində "Til" adda kəndin olduğunu yazır (18, I, s. 77).

İ.M.Dyakonov öz araşdırmalarında Assur mənbələrinin Təbriz ətrafında Talay-Dalay ölkəsinin adını qeyd etdiyini, bu adın isə Manna tayfaları arasında bir tayfa olduğunu yazır (347, s. 49). Bu məsələyə to-

xunan Q.Qeybullayev Tal və ya Dalay boylarının bir tayfa olmasının qaranlıq məsələ olduğunu vurğulamış, lakin onların türklərə çox bənzədiyi haqda fikirlər söyləsə də "tal" tərkibinin ayrıca bir tayfa olması haqqında heç bir fikir söyləməmişdir (324, s. 249).

Daha bir mənbə e.ə. VI əsrdə sakların Talas çayı hövzəsini tutduğunu qeyd edir (121, II c., s. 170). Təbii ki, e.ə. VI əsrdə Talas çayı adı var idisə, deməli hansı zamandasa bu hövzədə Tal tayfaları yaşamış və çayın adı onların adı ilə adlanmışdır.

Bu istiqamətdə digər bir məlumata F.Bayatın araşdırmalarında təsadüf edirik. O, Peçeneq türkləri arasında Tolmaç boylarının adını çəkir, eləcə də Var hunlarının arasında Talan, Tolu adlı tayfaların olduğunu da qeyd edir (508, s. 91). F.Bayatın fikirlərinin əksinə olaraq Q.Qeybullayev onların Tolmat boyu olduğunu yazaraq, bu tayfaların müasir Tolo, Tele, Teleut, Teles tayfalarına uyğun gəldiklərini yazır (324, s. 249).

Biz Ə.Rəcəbovun yazılarında eramızın VI əsrində qədim Orxon yazılı abidələrinin Ongin, Gül Tigin, Tonyukuk, Kuli Çor, Bumın,

Moyun Çor, eləcə də Yenisey kitabələrində Talas abidə adına və Çin dilində The-le kimi işlənməklə Göytürk xaqanlığına daxil olan Toliş qəbilə adına təsadüf edirik (235, s. 339-343, 390). Bu abidələrlə bağlı araşdırma aparan Ə.Quliyev isə abidələrdə adları keçən bu tayfa adını Tolus yazılışında təqdim etməklə fikrini elmi cəhətdən əsaslandırır (212, s. 98-108).

Qeyd edək ki, bəzi mənbələr bu istiqamətdə maraqlı və gərəkli tarixi faktlar göstərsə də yenə konkret fikirlə qarşılaşmırıq. Biz yuxarıda Subər türklərindən danışarkən Herodotun İtaliyanın cənubunda Sibaris şəhər adını göstərdiyini və onun aid olduğu ərazinin Erikin (Ərkin- "ər qalası" -F.R.) torpaqlarına aid etməklə, burada çarın "Tel" olduğunu və Sibaris şəhərinin e.ə. 510-cu ildə İtaliyanın cənubunda yaşayan Ellin tayfaları krotonlar tərəfindən dağıdılmasını qeyd etdiyini yazdıq (9, V 44-47;VI 21,127; VIII 47). Rus tədqiqatçısı Aleksandr Zoriç öz yazılarında İkicayarasında- Mesopotamiyada Lon-Meradan qərbdə, Kiad və Oris arasında (ərazinin hansı ölkəyə aid olduğu göstərilmir - F.R.) meşəlik ərazidə Talay düzənliyinin adını çəkir (571). Biz XVII əsr monqol istilasından bəhs edən V.D.Puzanov və Noqay ordası tarixindən bəhs edən V.V.Trepavlovun yazılarında Itık dağ rayonunda Talay ulus adına, eləcə də monqollara hücum edən sərkərdə Talay şəxs adı- antroponimə də təsadüf edirik (439, s. 64-76 ; 461, 47, 53 ). Bundan başqa Tal tayfa adı ilə bağlı daha bir məntəqə adına biz Çok-Tal yazılışında Kunqay-Alatauda, yüksəklikdə yerləşən kənd adı kimi rast gəlirik (572). Bəs Amu-Dərya və Sır dərya ərazisi ətrafında və ondan cənubda Tal boyları adı ilə adlanmış bu qədər məntəqə adı necə ola bilərdi? Təbi ki, bu eyni adda tayfaların ərazidə erkən dövrlərdən məskunlaşmaları ilə bağlı ola bilərdi. Bu ehtimalın cavabını, yəni talların bir tayfa olub-olmadığını və göstərilən coğrafi adların haradan gəlməsi ilə bağlı maraqlı məlumatı qazax tədqiqatçısı Şakarim Kuday-berdi-ulının yazılarından oxuyuruq. Müəllif türk, qazax, qırğız və Xan sülalələrinin mənşəyi haqqındakı yazılarında Balxaş gölünə tökülən Karatal (böyük, ulu Tal –F.R.) çayından Sır-Dəryanın cənubuna qədərki ərazidə Kəngər (əsərdə Kanqlı) və Dulat tayfalarının yaşadığını göstərir. O, bu tayfaların mənşəyinin Çuy tayfalarından gəldiyini yazmaqla, onların Qərbi Alatauya gəlib məskunlaşma tarixinin e.ə. 150-ci illərdə baş verdiyini yazır. Daha sonra Şakarim Kudayberdi-ulı bu ərazinin

qərbində, Böyük Juzda Dulat boylarından söhbət açmaqla bu tayfalar arasında ən qədim tayfa olaraq Sarı Uysın tayfalarını göstərir. Tayfa ittifaqının tərkibi məsələsinə də toxunan müəllif, bunların arasında Jolay, Kulek, Kırık tayfaları ilə yanaşı Talay boylarının da adını çəkir və onların böyük gücə sahib olduqlarını vurğulayır. Müəllifə görə Talay boyları Sır-Dəryanın cənubunda məskunlaşmışlar (481, s. 24, 55). Adın bu şəkildə Tal+ay yazılışında olması da elmi cəhətdən xüsusi əhəmiyyət daşımaqdadır. Yuxarıda da qeyd etdiyimiz kimi biz əski türk tayfaları arasında Aya sitayiş, Ay inancının mövcudluğunu yazdıq. Türk boyları içərisində As tayfalarının As+ay (Asiya ərazi adları Asay adının təhrifidir -F.R. ), Dor tayfalarının Dor+ay kimi adlanmalarının Tal+ay şəklində tallarda da təkrarı bunların qədim tarixi inanca, eyni kökə və dilə aidliyini bir daha sübut edən tarixi faktdır.

Daha maraqlı məlumatlardan biri də Tal sözünün tanrı adı kimi Yunan mifologiyasında və bu xalqa aid mənbələrdə səslənməsidir. Burada Tal tunc nəhəng kimi Tolos yazılışında qeydə alınır. Yuxarıda da qeyd etdiyimiz kimi, biz Göytürklərdə də bu ada eyni yazılışda təsadüf edirik. Bildiyimiz kimi tayfa adına qoşulan -os komponenti yunan dilində adlıq hal şəkilçisidir. Bu nəhəng Zevs tərəfindən Krit adasının keşikçisi kimi Minosa hədiyyə olunub. Yunan mifologiyasında biz eyni zamanda Arqos çarı-allahı Talay (kitabda həm də Tal, Talayon) adına, eləcə də baharda bitkilərin çiçəklənməsinə xidmət edən Tallo-bahar tanrısı adlarına da təsadüf edirik (104, s. 977-978). Bu məlumat irəli sürdüyümüz konsepsiya üçün bir neçə yöndən xüsusi əhəmiyyət daşımaqdadır. Öncə onu qeyd edək ki, Sır-Dərya hövzəsindən cənubdakı Talay tayfa adının Yunan mifində eynilə "Talay" yazılışında təkrarı bu tayfaların düşündüyümüzdən də qədimdə mövcud olduğunu göstərir. Digər tərəfdən isə, Talay adının Yunan mifində yer alması qədim proto-türklərin yunanların istər mədəniyyəti, istərsə də mifinə güclü təsirini də ortalığa çıxarır (-F.R.).

Koban arxeoloji abidələrini araşdıran R.R.Tilov ərazidəki at rəsmli baltaların e.ə. II minilliyə son tunc dövrünə aid olduğunu göstərməklə bu mədəniyyətin Saka tayfalarından gəldiyini qeyd etməklə, Saqa sözünün "maral" mənasında olduğunu yazır. O, daha sonra bu mədəniyyətin həm də Kaş və Talay tayfalarına aidliyini göstərməklə onları Qafqaz Koban mədəniyyətinə aid tayfalar hesab edir (460, s. 28-32).

Rus arxeoloqları B.V.Texov, S.B.Valcak, və A.Y.Skakov 1920-ci ilə qədər Naxçıvan ərazisi daxilində olmuş qədim Sürməli-Iğdir bölgəsində Talay-Tilay məzarlığını aşkar etmişlər. Tədqiqat zamanı buradan əldə olunan arxeoloji mədəniyyət nümunələrini skiflərdən qabaqkı dövrə aid edən müəlliflər burada Tal-Til adda hansısa bir tayfanın olmasını da ehtimal etmişlər (459, s. 131; 315, s. 114-122 ). Maraqlı haldır ki, eyni adda daha bir məzarlığa biz Şimal Sibir torpaqlarında rast gəlirik. Talların adını daşıyan bu qədim məzarlıq Ob çayı vadisində yerləşməklə, Topa Tal Artı rayonunda Tal məzarlığı adlanırdı. Rus arxeoloqları M.P.Qryaznov və L.Q.Naçaeva burada 200-dən yuxarı kurqan olduğunu yazaraq, bu məzarlarda cəsədlərin yandırılmış vəziyyətdə dəfn olunduqlarını da qeyd edirlər (335, XI, 3; 421, II, s. 108-142).

Tal türkəri haqqında daha maraqlı bir məlumata biz Orta Asiya tədqiqatçılarının tarixlə bağlı araşdırmalarında da rast gəlirik. Qırğız tarixi haqqında bəzi məqamlara diqqət edən O.C.Osmanovun "Qırğızıstan tarixi" kitabında "Tal" sözünün qədim bir tayfa adı olması fikri, irəli sürdüyümüz konsepsiyanın tamamilə doğruluğunu təsdiq edən maraqlı tarixi fakt sayıla bilər. Buradakı qədim yazılarla bağlı məlumatlarda TURUĤ TAL KUN ifadəsinə rast gəlirik ki, bu yazılışda hər bir morfem-söz kökü qədim türk dili leksik vahidlərindən yaranmışdır. Bu yazının e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərinə aid olduğunu göstərən müəllif qırğızların içərisində xeyli sayda digər türk tayfalarının olduğu haqqında da məlumat verir (425, s. 447-448). Qırğız tarixində qədim türk yazılarının linqvistik araşdırmasını aparan Azad Abdısadır uulu isə, bu kitabdan götürdüyü TURUĤ TAL KUN ifadəsinin doğru olaraq qədim türk dilində olduğunu yazsa da, onun tərcüməsini rus dilində "TERRİTORIYA TAL – TAL ƏRAZİSİ" kimi vermişdir. Bundan başqa o, əski türk yazılarından olan Cumuqun sözündə "cu"morfemini-söz kökünü "yaşayış yeri", "mu" sözünü "ağac", "qun" tərkibini isə "xalq" kimi izah etmiş, qazax dilində olan Cumuqun sözünü də müasir dildə "Qara Tal" kimi mənalandıraraq, onların Tyan-Şaṇdan qərbdə yaşadıqları fikrini irəli sürmüşdür (573). Əgər diqqət etsək, burada talların əraziləri haqqında tam bilgi verilmir. Bu cür maraqlı məlumata daha bir mənbədə təsadüf edirik. Burada isə, Tal tərkibinin Hind-Avropa mənşəli bir tayfa adı olduğunu, onların e.ə. II minilliyin sonlarında miqrasiya-

köcetmə yolu ilə osetinləri qovmaq üçün bu ərazilərə gəldiyi göstərilir (574).

Bütün göstərilən bu nümunələrdəki məlumatlarda bir neçə məsələyə diqqət etmək də, elmi baxımdan əhəmiyyətli olardı. "Qırğızıstan tarixi" kitabındakı TURUĤ TAL KUN ifadəsi fikrimizcə qədim türk sözləri "turu"-"tayfa", "tur"-"oğul", -n-fonem, morfem xüsusiyyətli "an, məkan, ünvan, nəsnə", Tal tayfa adı və "kun/qın"-"qala" sözlərindən yaranmaqla "Tal tayfalarının qalası" mənasındadır. Çünki bu komponentlər qədim türk dili sözlüklərində məhz bu mənaları daşımışdır (208, s. 83; 210, s. 55-57; 46, II c., s. 52, 210, 264; 37, s. 444, 587). Bundan başqa biz göstərilən morfemlərə e.ə. V-III minilliklərdə qədim türk boylarının adlar və toponimlər sistemində də rast gəlirik. Kutilərdə Tiri+gan, lulubəylərdə İmaşkun, kaslarda Turqu, midiyalılarda Kinzin, Kintau kimi adlar buna misal ola bilər (208, s. 57; 462, s. 316). Digər bir tərəfdən əgər onlar miqrasiya nəticəsində e.ə. II minillikdə bu ərazilərə hansısa bir gücü, yəni osetinləri qovmağa gəliblərsə, deməli onlar daha güclü tayfalar idilər və özlərinə məxsus ərazilərə malik olmaqla qədimlərdən tarix səhnəsində də siyasi hadisələrin iştirakçıları idilər. Yeri gəlmişkən yuxarıda biz Orta Asiyadakı "Taldı Kurqan" sözünün etimologiyasını verdik və bu mənaya bir qədər də geniş diqqət etmək istərdik. Əgər toponimi "Tal"-tayfa adı, "dı/ti"-"tikmək", Kiur tanrı adı və "qan/kan"-"məkan, yurd" mənasını nəzərə alsaq, o zaman coğrafi ad "Tal tayfasının tikdiyi Kiur yurdu" mənasında açıqlanır. Kiur tanrı adı isə, Kas və Quti tayfalarının tanrıları olmaqla adda Tal tərkibinin bir tayfa olduğunu tamamilə sübut edir. Yeri gəlmişkən qeyd edək ki, "kurqan" sözü başqa dildə deyil, türk dilində olmaqla türklərə məxsus dəfn adətidir. Onu uca şəklində dağa bənzətmək isə qədim türklərdə dağların müqəddəs, Tanrıya yaxın inancından irəli gəlirdi. M.Seyidov əski türk yazılı abidələrindən nümunələr gətirməklə Bodın-İnli, Altay, Saqac, Alaş kimi xeyli sayda dağları müqəddəs saymaqla onları türklərin "tos-tau"başlanğıc hesab etdiklərini göstərmişdir (260, s. 145, 253).

Biz mənbələrdən e.ə. II minilliyin əvvəllərində Hett ölkəsində bir neçə güclü tayfa olduğunu, bu tayfaların hakimiyyət uğrunda mübarizə apardığını və onların ayrıca Nesa, Kussar, Çalpa adda şəhərlərinin olduğunu görürük. Burada Tabarna, bir adı da Tlabarna-Talabarna olan çar adı ilə rastlaşırıq. Bu çardan sonra onu çar Telebuni

əvəz edir (120, I c., s. 368-369). Əgər məlumata diqqət etsək, hetlər ölkəsindəki Hesa-Haxa, Kuassar-Kasər, Çalpa-Talpa şəhər adları türk tayfaları Naxər, Kas və Tal tayfa adları ilə yaranmış şəhər adlarıdır. Biz burada adı çəkilən Nesa şəhər yazılışının eynilə "Nisay" şəklində Midiyada düzənlik adı kimi görürük və burada Heredotun məlumatına görə cins atlar yetişdirilir (9, VII, 40). Bildiyimiz kimi xeyli sayda məlumatlar Naxçıvan adının səyyah və coğrafiyaşünasların məlumatlarında bir adı da Nəşəva-Nesa yazılışında gostərir və bunun da başqa dillərdə bu cur tələffüz olunması, adlanması xüsusi qeyd olunur (223, s. 23; 428, s. 45). Çalpa şəhər adına gəldikdə isə, türk dillərində c≈s≈t fonetik hadisəsi barədə yuxarıda bəhs etdik və qeyd edək ki, bu tip yazılar salnamələr üçün xarakterik haldır. Buradan çıxan məntiqi nəticə Hett ölkəsinin türklər tərəfindən idarə olunduğunu və sonradan hakimiyyətə keçən çarın da Telbunu-Talbuni-"Tal bəyi" mənasında adlanması bunu sübut edən tarixi faktdır (-F.R.).

Bu məlumatlarla yanaşı ümumdünya tarixi haqqında rus mənbələrində də Tal türkləri haqqında dolayısı ilə gərəkli faktlarla üzləşirik. Rus dilində yazılmış "Ümumdünya tarixi"nin I cildində biz e.ə. III minillikdə qədim Hurri, Subar, Koman boylarının məskun olduqları Urmiya dağlarından şimal-şərqdə Tal-Arpaçiya (əsərdə Telˈl) qədim şəhər qalıqlarının olduğunu görürük. Burada elə həmin ərazidə Tal-Brak, Tal-Xalaf adlanan şəhər ərazilərindən e.ə. IV-III minilliyə aid arxeoloji mədəniyyət nümunələrinin aşkarlandığı yazılır (120, I c., s. 192, 311). Bu adların hər birində Tal tayfa adı təkrarlanmaqla burada müasir Arpaçay adı, eləcə də Brak- bori ak - "uca qurd" və Xalaf/Kalaf-kal-"ulu", af/əf/əv-"ev" "Ulu ev, yurd"mənalı qədim türk sözlərindən yaranmış coğrafi adlar da tayfa adı ilə yanaşı çəkilir. Təbii ki, bütün bunlar nə zahiri oxşarlıq, nə də adi bir təsadüf deyil talların bir tayfa olmasının tarixi qaynaqlarda qalmış təkzibolunmaz izləridir.

Qaynaq və tədqiqatlarda biz Peçeneq türkləri içərisində "Börü tolmaç" tayfa adı ilə də qarşılaşırıq (508, s. 91). Bu addakı "börü"-"qurd" morfemi türk dilində olmaqla, ondan sonra gələn "tol+maç"morfemləri "tol/tal"tayfa adını, "mac/maç/mas"leksemi isə, qədim türklərdə "baş" sözünü ifadə edir ki, bu da adı bütövlükdə "Qurd başlı tallar" kimi izah edir. Biz qurd mifini qədim oğuz türklərində daha geniş anlamda görürük. Göydən işıq içində gəln GÖY QURD "gök bori"

oğuzlara kömək üçün onların yanına yenir (486, s. 37). Türklərdə qurd mifinə dair araşdırmalar aparan M.Seyidov, Yaşar Kalafat və digərləri "Oğuznamə"nin Uyğur variantından qurdla bağlı nümunələr vermiş, Anadolu, Bodrum, Yözqat coğrafiyasında və Sandıklı əfsanəsində QURD totemi ilə bağlı ümumtürk kosmoqonik inancında "Ulu Kurt Baba mübarək zat" kimi dəyərləndirilməsi, "Gök Kurtun ilkin yaranışi ve tüm türk kişilerinin var oluşu" mifinə dair nümunələr və s. geniş şəkildə araşdırılmışdır (260, s. 164; 517, s. 11, 32-33). Beləliklə "Bori tolmac" tayfa adının etimoloji mənası talların bir tayfa olduğunu, Qurda inancı və türk mifi ilə bağlılığını tamamilə təsdiq edir.

"Tal" tərkibinin bir tayfa adı olmasını daha bir məlumat əsaslı şəkildə sübut edir. Biz hələ XIX-XX əsrlərin əvvəllərində Cənub Azərbaycanın Şəbustər şəhərində doğulmuş Mizə Əli Möcüzün yaradıcılığında "Ey, əhli Til..." ifadəsi ilə qarşılaşırıq ki, bu da Tal tayfaları varislərinin son dövrlərə qədər tayfa birliyi şəklində ərazilərimizdə qaldığını birmənalı təsdiq edir (200, s. 128).

Mənbə və tədqiqatlardan gətirilən bu nümunələrə istinadən deyə bilərik ki, qaynaq və tədqiqatlarda "tal", "tol", "tul", "tel", "til" və s. səs əvəzlənmələri ilə qeydə alınan tərkib əslində qədim türk boyu olmuş, onlar e.ə. IV-III minilliklərdə as, naxər, kas, kuti, lulubəy, turuk-ku-türk, subər və digər prototürklərlə bərabər tarix səhnəsinə çıxaraq bütün türk boyları kimi onların bir qolu da şimala doğru hərəkət etmiş, areal türk coğrafi adlar sistemində minlərlə adda öz izlərini qoymuşlar.

İndi isə Naxçıvan toponimik sistemində Tal türklərinin adını daşımış və tarixi sənədlərdə 11 adda qeydə alınan etnooykonimlərin (biz bunların etnos adından yarandığına qəti əminik) etimoloji izahlarına diqqət yetirək.

**Tilyak.** Naxçıvan qəzasının Dərənurgut nahiyəsində ilk dəfə 1590-cı ilin arxiv sənədlərini əhatə edən məlumatlarda "Tilyak" kimi qeydə alınan bu etnooykonim (77, s. 180), 1728-ci ildə yenə Dərənürgüt nahiyəsində "Tallaq" yazılışı ilə qeydə alınır (yenə orada, s. 149). Bundan sonra 1828-ci il Naxçıvan xanlığına daxil olan yer adları içərisində məntəqə adına yenə həmin nahiyədə "Gilək" yazılışında rast gəlirik (25, s. 218-251; 171, s. 49). Qeyd edək ki, etnooykonim 1926, 1928-cı illərin arxiv sənədlərində adı Parağa və Aza rayonlarında Tillək kimi qeydə alınmışdır (136, s. 19; 132, s. 7). Sonradan fəaliyyətini da-

yandırmış məntəqə, 1936-cı ilin sənədlərində qeydə alınmamışdır. Tədqiqatlarda ad Lek tayfasının adı ilə bağlanmış və "tila" komponenti "xəzinə", "qızıl" mənasında izah edilməklə adın etimoloji izahı "Leklərə məxsus qızılyer" mənasında açıqlanmışdır (154, s. 198). Biz adın çox qədimlərdən mövcud olduğunu düşünürük və türk dilləri ilə müqayisədə burada yalnız Til+ak şəklində iki komponent mövcuddur. Adda "til"-"dil" qədim türk dilində işlənən söz ak-"uca" morfemi ilə "uca dil" mənasında heç nə izah etmir. Burada "yer/jer" və -an-"məxsus" sözləri də yoxdur (37, s. 559, 674,). Tal tayfa adından və "ak"-"uca" sifətindən formalaşan bu ad "Uca tallar" mənasını daşıyır. Tayfa adına qoşulan "ağ" tərkibi yazıyaqədərki dövr türk dili elementi olmaqla M.Kaşğari və qədim türk dili lüğətlərində, M.Seyidov, İ.Əliyev və b. tədqiqatçıların araşdırmalarında "uca" sifəti və "ucalmaq" feli kimi izah olunmuşdur (41, s. 9; 260, s. 143; 284, s. 227). Müasir dilimizdə "ağ eləmk", "üzünə ağ olmaq" kimi ifadələrdə də bu məna qalmaqdadır (-F.R.). Məntəqənin xarabalıqları və qəbiristanı günümüzdə də Culfa rayon Bəyəhmət kəndindən 3 km. şərqdə qalmaqdadır.

**Tulud.** Ad Tal tayfa adının ümumtürk dillərinə xarakterik olan a≈u səsəvəzlənməsi ilə dialekt formasında təhrif olunmuş yazılışıdır. 1727-ci ilin arxiv sənədlərini əhatə edən məlumatlarda etnooykonim ilk dəfə Naxçıvan qəzasının Azadciran nahiyəsində Aşağı Əylis kəndi yaxınlığında qeydə alınır (110, s. 31). Bundan sonra ada 1856-cı ilin sənədlərində "Tunud" yazılışında (25, s. 218-251) məntəqə adına l≈n sonor səslərin əvəzlənmiş variantında rast gəlirik. Bundan sonra 1934-37-ci ilə aid Naxçıvan MR Dövlət arxivində ada Vənənd kənd sovetliyi ərazisində rus əlifbası ilə qaralanmış şəkildə "Tolsər" yazılışında rast gəlirik (135, s. 21). Sonrakı illərin sənədlərində artıq ad qeydə alınmır. Fikrimizcə adlar ruslar tərəfindən siyahıya alınarkən ya siyasi baxımdan, ya da ki, savadsızlıqdan tanınmaz, oxunmaz hala salınırdı. Etnooykonim dilimizə, eləcə də türk dillərinə məxsus dialektlərə uyğun a≈u səsəvəzlənməsi ilə (266, 39-41) Tal tayfa adı və
-ud/at "cəmlik bildirən" şəkilçi və "məkan" mənalı tərkib (168, s. 247) hesabına yaranmışdır. Əgər diqqət etsək türk tayfası olan skiflərin Paralat tayfa adında (208, s. 136), hun türklərindən Tibet, Oriyat, Tanqut adlarında (221, s. 36; 324, s. 56), Göytürk tayfalarından Tuput (212, s. 98-108) və s. adlarda da biz "at"- "məkan", eləcə də "cəmlik",

"çoxluq" ifadə etmiş, şəkilçi ilə qarşılaşırıq. Ad "Tallar", yəni "Tal boyları", və ya "Tal yurdu" mənalarını ifadə edir. Biz adın "Tal yurdu" mənasına üstünlük veririk.

**Çatallar.** Ada ilk dəfə 1590-cı ilin arxiv sənədlərinin məlumatlarında Naxçıvan qəzasının Karni nahiyəsində (Sonralar Aralıq nahiyəsi) rast gəlirik və məntəqə Musahacılı, Mustafalı kəndləri yaxınlığında göstərilir (77, s. 171). Eyni adlı qəsəbə adı Türkiyə cümhuriyyətinin Qaraman ilçəsi yaxınlığında yaşayış məntəqəsidir və burada aşkarlanmış qədim Kuti türklərinin qəbirləri abidə kimi qorunmaqdadır (2006-cı ildə şəxsi müşahidə-F.R). 1733- cu ildə isə, bu ada hələ o zaman Naxçıvan qəzasına daxil olan Iğdir nahiyəsində Cutulu-Cudulu yazılışlarında yenə də təhrif olunmuş şəkildə rast gəlirik (77, s. 68). Məntəqə sonralar fəaliyyətini dayandırdığından, sənədlərə düşməmişdir. Təbii ki, bu ada -lar cəmlik şəkilçisi sonralardan artırılmışdır. Biz qədim türk dillərində, eləcə də şumerlərdə "ca/sa"tərkibinə "ürək" mənasında rast gəlirik. Bu tərkib Lulubi çarı Satunu adında e.ə. XXIII əsrdə qeydə alınır (208, s. 57). Bundan sonra biz M. Kaşğaridə "sa"sözünə "sən" və "saymaq" sözləri kimi təsadüf edirik (41, s. 477). Tərkib hər iki variantda qədim türk dili leksik vahidi olmaqla sözü "Talların ürəyi", "Sən Talsan" mənalarında açıqlayır. Biz talların tarix səhnəsində olduğu dövrü əsas götürərək birinci mənanı doğru hesab edirik.

**Talin.** Qədim Naxçıvan ərazisinin Talin nahiyəsində həm nahiyə, həm də kənd adı kimi qeydə alınan bu etnooykonim, 1590-cı ilə aid məlumatlarda qeydə alınır (77, s. 171). Daha sonra 1724-cu ilə aid arxiv və qaynaq məlumatlarında Xınzirək nahiyəsində Kiçik Tallin kənd adı ilə qarşılaşırıq ki, bu məntəqə Molla Bəyazid və Kültəpə kəndləri arasında yerləşir (yen orada, s. 47). Toponimik adların adlanma-nominasiya prosesində təkrarlanmalar zamanı diferensiallaşdırıcı "baş", "orta", "ayaq", "böyük", "kiçik" kimi say və sifətlərin (əsasən I-II növ təyini söz birləşməsi quruluşunda) işlənməsi oykonimlər üçün xarakterik hallardır. Bundan sonra ada mənbələrdə rast gəlinmir. Ola bilsin ki, sonrakı tarixi proseslərdə məntəqə ya boşaldılmış, ya da ki, dağıdılmışdır. Məntəqə adı "Tal" tayfa adı və -in/an mənsubluq şəkilçisi ilə "tallara mənsub" mənasında etnooykonimə çevrilmişdir. Bu adın Estoniyada paytaxt şəhər adı kimi eynilə işlənməsi fikrimizcə türklərdən gəlir və xüsusi tədqiqat tələb edir.

**Tuluca.** Qədim Naxçıvan qəzasının Karni nahiyəsində həm məzrəə- adam yaşamayan xaraba kənd, həm də yaylaq adı kimi 1590-cı ilin arxiv sənədləri məlumatlarında qeydə alınır (77, 164). Tayfa adında a≈u səsəvəzlənməsi müşahidə edilməklə, məntəqə adı "uca"komponenti ilə oykonim kimi formalaşıb. Təbii ki, "uca"komponenti, müasir leksikonumuzdakı "uca" sifət bildirən sözlə bağlı deyil. Biz qədim türk dillərində sözün "kiçik koma", "kiçik taya", "yuxarı", "seçilən" mənalarında bəzən də "şəri xeyirdən seçən", "ayıq adam" mənalarına rast gəlirik (37, s.604; 64, I c., s. 623; 42, I c., s. 267). Fikrimizcə, etnooykonim "Seçilən, ayıq tallar" mənasındadır.

**Tulus.** İlk dəfə 1590-cı ilin arxiv sənədləri məlumatlarında Naxçıvan qəzasının Sisyan nahiyəsində qeydə alınan bu məntəqə adı (77, s. 171) sonralar, 1747-1828-ci illərin məlumatlarında yenə Sisyan nahiyəsində "Dulus" yazılışında təsadüf edilir (25, s. 218-251). Maraqlı leksik-semantik quruluşa malik olan bu məntəqə adının tərkibindəki "us" tərkibi M.Kaşğarinin "Divanında" omonim kimi işlənmə xüsusiyyətinə malik olmaqla "susmaq", "sanmaq" "kərkəz quşu", "xeyir" və başqa mənalarla göstərilmişdir (41, s. 699). Bundan başqa "us" tərkibi digər türk dili lüğətlərində yenə də omonim kimi həm "ağıl, zəkə", həm də, "müdrik" sözlərini ifadə etmişdir (355, s. 13; 64, I c., s. 606-608.). Göründüyü kimi komponent omonimlik xarakterinə malik olmaqla, oykonimi qədim dövr türk dili elementi hesabına etnooykonim kimi formalaşdırmışdır. Tayfanın tarix səhnəsinə çıxdığı dövrü nəzərə alaraq onun "Müdrik tal" mənasına üstünlük veririk və məntəqə adının mürəkkəb quruluşlu söz kökünə uyğun hesab edirik. Bir sözlə ad etnos adı və qədim türk leksik vahidi ilə formalaşmışdır.

**Tutul.** Qədim Naxçıvan ərazisinin bir bölgəsi olan İrəvan qəzasının İrəvan nahiyəsində Zar və Tacirbəy kəndləri arasında göstərilən bu etnooykonimin də adı ilk dəfə 1590-cı ilə aid arxiv sənədləri məlumatlarında a≈u səsəvəzlənməsi ilə "Tutul" yazılışında göstərilir (77, s. 160). Tal tayfa adına birləşən "tu" komponenti maraqlı yozumlarla izah olunmuşdur. Biz Q.Qeybullayevin araşdırmalarında bu tərkibin "su", "göl", və "dağ" mənaları ilə qarşılaşırıq (210, s. 19). Müəllif digər bir araşdırmasında tərkibi həm "yaxşı", həm də "tikmək" mənasında təqdim edir (208, s.80,82). M.Kaşğaridə isə bu leksik vahid "örtmək, bağlamaq"

mənalarında göstərilir (41, s. 648). Bununla bərabər uyğur, özbək, qazaq və digər türk dilləri sözlüyündə "tu" tərkibi "tau, to" yazılışları ilə "dağ" mənasını bildirmişdir (39, s. 142-143;). Başqırd dilində biz "su" sözünə "hıu", dağ sözünə isə "tau" deyilişində rast gəlirik (61, s. 92, 146). A.V.Ka ulbarsın 1873-cü ildə Amu və Sır dərya hövzəsinə aid tərtib etdiyi xəritədə Kibe və Burlu dağ adlarının sonuna "dağ" mənasında "tu/tau" komponentləri yazılmışdır (17, s. 1-3). "Tu" tərkibinin "su" mənasına gəldikdə isə, fikrimizcə bu gün dilimizdə işlətdiyimiz "tuluq" ismi və "tuluqlamaq"-sulanmaq felindəki "tu" komponenti bu mənanı qorumaqdadır. Bütün bunlarla yanaşı qədim türk dilinə dair bəzi sözlüklərdə "tu" komponenti sonuna -y hərfi artırılmaqla "bayraq", "qızıl" "tu" yazılışında isə, "sədd olan", "bağlayan", "tutan", "sahib olan" mənalarında işlənir (64, s. 716; 37, s. 584). Biz sonuncu mənaya üstünlük verərək məntəqə adının "Sahibkar Tal" mənasına üzərində dayanırıq.

**Tal.** İrəvan qəzasının Karbi nahiyəsində "Kətxuda Tal" yazılışında qeydə alınan bu etnooykonim arxiv sənədləri əsasında tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri" kitabında 1590-cı ilə aid məlumatlarda Hacı Qaralı və Hacılar kəndləri arasında məzrəə kimi (insan yaşamayan məntəqə) qeydə alınır (77, s. 162). Məntəqə adı birbaşa Tal tayfa adından etnooykonimə çevrilmişdir.

**Talcan.** Qədim Naxçıvan sancağına tabe olan Şürəgəl nahiyəsində qeydə alınan bu etnooykonim haqqında ilkin məlumata 1728-ci ilə aid sənədlərdə təsadüf edirik. Məntəqə adı 1590-cı illərin məlumatında qeydə alınmamış, yalnız bu tarixdə bir adı da Qaraqışlaq olmaqla sənədlərə düşmüşdür (77, s. 124).Tayfa adına qoşulan "can"-"şan-şöhrət" sözü məntəqə adını "Şanlı tal" mənasında izah edir.

**Telsin.** Naxçıvan sancağına tabe olan Dərələyəz nahiyəsində qeydə alınan bu etnooykonim haqqında ilkin məlumata 1724-cü ilə aid sənədlərdə təsadüf edirik (110, s. 34). Qeyd edək ki Osmanlı türklərinin ərazilərimizə nəzarəti zamanı müəyyən adlar ilkin siyahıya alınmaya düşməmiş, sonrakı siyahılarda qeydə alınmışdır (ətraflı bax, 77,110). Maraqlı leksik quruluşa malik olan bu adda biz çox əski inancların əlamətinin qaldığını görürük. Əgər xatırlasaq qədim şumerlərdə Sin- Zuən "Günəş və Ay allahı"nın adını daşıyırdı (106, II c., s. 437). Bu tanrı adı şumerlərdə iki adda, Sin və Nanna adları ilə günəşlə ay allahı idi və

ayrıca Kutu günəş allahını təmsil edirdi (207, s.109). Sonralar bu allah adı "Sin" şəklində akkadlara adlamışdır (106, II c., s. 437). Maraqlı hal budur ki, ad abxazlarda da Saun-ruzi bərəkət Allahı kimi sayılmışdır (yenə orada, s. 418). Bundan başqa "sin" qədim türk sözü M.Kaşğaridə "sayılmaq, sanmaq" kimi açıqlanmışdır, (41, s. 487). Əgər biz türk dillərinə xas olan y≈s səs əvəzlənməsini nəzərə alsaq (54, III c., I h. s. 103; 50, s. 2011-2015, 2059-2066), əski kas türklərində "san" tərkibi "yanq" yazılışında "şanlı, öndə duran" mənasında qədim türk sözü kimi də işlənmişdir (64, I c., s. 153). Bütün variantlarda ad tanrı, ucalıq, şöhrət və s. ifadə edir ki, bunun ilkin kökünün Sin tanrı adından gəlməsi fikrindəyik. O zaman söz "Sin talları" kimi teofor ad olmaqla, tarix səhnəsində olduqları dövrün (e.ə. IV-III minilliklər) tarixi ilə səsləşir.

Bu etnooykonimdən başqa biz Naxcıvan ərazisində həm də "Tuluca"-"tal varisləri" yazılışında yaylaq adına təsadüf edirik (77, s. 164). Bu sənəddə biz həm də "Tülkü təpəsi" kənd adı ilə rastlaşırıq (yenə orada, s. 167) ki, adın tamamilə təhrif olunmuş məntəqə adı olduğu qənaətindəyik. Çunki belə ada oykonimlər sistemində təsadüf edilmir və insan yaşayan bir kənd adı bu cür ifadə edilə bilməz. Yaşayış məntəqə adları əsasən tayfa adları və antroponimik adlarla adlanır. Fikrimizcə, ad "Talka" şəklində "Şöhrətli tallar" mənasını daşımışdır. Biz yüzlərlə oykonimin təpə üzərində yerləşdiyinin şahidiyik ki, onların heç biri zooykonim - heyvan adlı coğrafi ad deyildir. Bundan başqa Abnik nahiyəsində "Talinbulaq" yazılışında tayfa adlı hidronimə də təsadüf edirik və bunun da Tal tayfa adından yarandığını düşünürük.

Beləliklə e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərində tarix səhnəsinə çıxan Tal türklərinin Naxçıvan ərazisində də yerli sakinlər olması coğrafi adlar və etnooykonimləri əmələ gətirən yazıyaqədərki dövr "tu/ti"- "su", "göl", "tikmək", "ak"-"uca", "us"- "ağıl, zəka" həm də, "müdrik", "sa"- "sən", "san"- "şanlı, öndə duran" və Sin allahının adı, -in/an mənsubluq, -ud/at "cəmlik" bildirən şəkilçilərlə də sübut olunur. Bu leksik və qrammatik komponentlər e.ə. IV-III minilliklərdə prototürklərin yaşadığı ərazilərin toponimik sistemindəki adlara eləcə də antroonimlərə-insan adlarına da qoşularaq işlənmişdir.

Yekun olaraq tallarla bağlı bütün qaynaq məlumatlarından, eləcə də adların etimoloji mənalarından əldə olunmuş nəticələri aşağıdakı

kimi qruplaşdıra bilərik:

1. "Tal" adı ilə bağlı ümumtürk arealında yayılmış minə yaxın coğrafi ad və onları əmələ gətirən əski türk dili leksik vahidləri bu sözün bir tayfa adı olduğuna təkzibolunmaz sübutdur.

2. Türk xalqları ərazilərində (Qafqaz, Naxçıvan torpağı olmuş Iğdir və Sibirdə) böyük məzarlıqların "Tal" sözü ilə adlanması buradakı kurqan qəbirlər və arxeoloji mədəniyyət nümunələrinin e.ə. IV-III minilliklərlə səsləşməsi onların bir prototürk tayfaları olduğunu qeyd şərtsiz təsdiq edir.

3. Bu tayfaların qədim Naxçıvan ərazilərində məskun olmasını ərazidəki oykonimik adlarla yanaşı onların formalaşmasında iştirak etmiş yazıyaqədərki dil elementləri, eləcə də onu qədim torpağı olan Sürməli-Iğdır bölgəsində Dügər boylarının (müasir Diqor) ərazisindəki Tal məzarlığı da təsdiq edir.

## 11. KOMAN TÜRKLƏRİ

Tarixi keçmişimizdə və naxçıvanlıların etnogenezi tarixində ayrıca yeri olan daha bir prototürk boyu e.ə. II minillikdə Kiçik Asiyanın mərkəzində, eləcə də o dövrdə qədim Naxər ölkəsi-Naxçıvana daxil olan Göyçə gölü ətrafında özünün kiçik dövləti və ölkəsini yaratmış Koman türkləri olmuşdur. Qeyd edək ki, azərbaycanlı, türk və rus alimləri komanlar haqqında müəyyən məlumatlar versələr də, Naxçıvan ərazisində bu tayfaların yaşaması və yerli-aborigen sakinlər olması indiyədək heç bir tədqiqatçı tərəfindən tədqiq edilmədiyindən araşdırma tərəfimizdən ilk dəfə olaraq aparılır. Bu tayfaların hansı soydan gəlməsi, ilkin olaraq tarix səhnəsinə çıxdığı dövr və əraziləri haqqında tədqiqatçılar tərəfindən müəyyən araşdırmalar aparılmış, və gərəkli elmi fikirlər söylənilmişdir. Buna baxmayaraq onların hansı kökdən gəlməsi və tarixi proseslərdə hansı tayfa ittifaqına qatılması, ərazisi və sözün etimoloji izahı haqqında ciddi fikirlər söylənilməmiş, konkret elmi nəticələr göstərilməmişdir. Təbii ki, azərbaycanlıların və onun ayrılmaz hissəsi olan qədim naxçıvanlıların etnogenezi tarixində xüsusi yeri olan Koman boylarının yaratdığı məntəqə adları-etnooykonimlər də etimoloji araşdırmadan kənarda qalmışdır.

Bütün bunları nəzərə alaraq bu başlıqda biz komanların qısa tarixi, dili, yayım arealı, türk tayfaları ilə ittifaqı və əsasən qədim

Naxçıvan ərazisində onların yaratdığı yer adları etnooykonimlərin etimoloji izahlarını aktual və problem məsələ kimi tədqiq etməyi elmi cəhətdən lazımlı hesab edirik.

Azərbaycan və türk alimlərinin araşdırmalarında komanlar yaxın bir tarixdə, əsasən e.ə. IX əsrdə Qıpçaq boyları ilə bir ittifaqda göstərilmişdir.

Koman boylarının bu tarixi haqqındakı məlumatlara görkəmli türk alimi F. Kırzıoğlunun «Qıpçaqlar» əsərində rast gəlirik. Müəllif əsərdəki məlumatlarda komanların adını çəkməklə qıpçaqların fəaliyyətlərini e.ə. VIII əsrdən başlayaraq ilk və son Qıpçaq dövrlərinə bölmüş, ilk dövrü e.ə. VIII və eramızın VI əsrinə aid etməklə, "Uyğur", "Uzunkörpü", "Dədə Qorqud" və s. oğuznamə və Kartlis- Gürcü mənbələrindəki qıpçaqların Sak, Kuman (Koman), Beçeneq (Peşeneq), Barsil, Xəzər türk ittifaqlarında birləşdiyini geniş təhlil etmişdir (512, s. 3-5, 8-12, 13-16, 31-35). F. Kırzıoğlunun bu məlumatdan aydın göründüyü kimi, əski türk boyları olan komanlar türk-Azərbaycan tayfaları ilə bir ittifaqda olmaqla tarixi proseslərə Sak, Kuman/Koman, Beçeneq/Peçeneq, Barsil, Xəzər və b. tüklərlə birgə qatılmış və heç şübhə yoxdur ki, ünsiyyət forması olaraq doğma türk dilində danışmışlar.

Bir çox problem məsələyə yeni aspektdən yanaşmış Q.Qeybullayev "koman" adının kom+an şəklində yarandığını göstərsə də, elə həmin kitabda bir də bu tayfa adını ko+man kimi izah etmişdir (324, s. 55, 110, 117). Bundan sonra komanların tarixinə diqqət edən müəllif, qədim Syunikdə Kuman kəndinin olduğunu, komanların ilk dəfə Orta Asiyada Pliniy tərəfindən xatırlandığını, onların eramızın I əsrində Albaniya ərazisinə gəldiyini yazaraq tarixi daha da yaxına çəkməklə koman-qıpçaq birliyindən bəhs etmişdir (yenə orada s. 117).

Qədim mənbə olaraq eyni tarixi dövrün (VII əsr) hadisələrini şərh edən M.Kalankatuklunun "Alban tarixi" əsəri Yeliseyin ölümü ilə bağlı "Qomenk" adlı toponimin-coğrafi ərazinin adını çəkir. Bu hadisə və toponimik ad M. Kalankatlının Azərbaycan dilinə 1993-cü ildə tərcümə olunmuş "Alban tarixi" əsərində də öz əksini tapır (16, I kit., VI baş.; 24, s. 18). Daha bir Alban tarixçisi K.Gəncəli "Alban tarixi" əsərində e.ə. I əsr və eramızın I əsrindəki hadisələrdən məlumat verməklə yanaşı Koman adını şəhər olaraq göstərir, müqəddəs Saakın burada öldüyünü yazır (18, s. 53).

Yeri gəlmişkən qeyd edək ki, Alban tarixçiləri olan bu müəlliflərin adları və onların əsərlərinin adı erməni dilinə tərcümə edilirkən "erməni tarixçiləri" kimi qeyd olunmaqla yanaşı tarixi faktlar, ərazi, zaman və şəxs adları da tamamilə təhrif olunmuşdur. Elə göstərilən kitablarda bir qrup qədim türk adlarının Əsən - "Arçpuni", Bərkə xan- "Baraka", Zebel-"İzabella", Manqu-"Munkes", Dəspinə-xatun- "Mariya" (yenə orada s. 266, 271, 332, 335-336) kimi yüzlərlə adın təhrifi də bu cür erməni saxtakarlıqlarının canlı sübutlarıdır. Xalqımızın etnogenezinə dair görkəmli alim F.Məmmədova N.Adonsun "Erməni ədəbiyyatı" əsərindən faktlara və müəllifin öz ifadələrinə istinad etməklə bu təhriflərin bilərəkdən edildiyini elmi cəhətdən əsaslandırmışdır (226, s. 37).

Koman-Kuman türklərini dili, mənşəyi və tarixi haqqında Orta Asiya alimləri və rus araşdırıcılarının da fikirləri elmi cəhətdən maraqlı və əhəmiyyətlidir. Q.E.Qrum-Qrijimaylo və onun ardınca İ.Y.Biçurin Kuman-Koman türklərini Q.Qeybullayevin tədqiqinə uyğun olaraq kom+an şəklində araşdıraraq "kom" tərkibini bu tayfa adının başlanğıcı kimi götürmüş, onları "kiba/kob/kobı" yazılışında m»b fonetik hadisəsi ilə ket dialekti variantı kimi qəbul edərək, bu tayfaları qədim Tele türklərinin 15 tayfa birliyindən birinə aid etmişlər. Lakin burada "kom" tərkibinin nə anlam daşıması haqqında məlumat verilməmişdir (334, s. 247; 306, s. 301).

S.M.Axincanovun araşdırmalarında bu tayfalar qıpçaqların bir qolu Kimak /kiman tayfaları kimi göstərilmiş, daha sonra isə onların Şimal-Şərqi Monqolustanda qırğızlara məğlub olaraq Altay-Sayan ərazilərinə köç etməklə burada məskunlaşdıqları və "kumos" adlandıqları kimi fikirlər söylənilmişdir (294, s. 285-287).

Komanlar haqqında gərəkli elmi araşdırmalar aparmış Azərbaycan alimi F. Ağasıoğlunun "Azər xalqı" kitabında biz xeyli tarixi faktlarla qarşılaşırıq. Müəllif bu boy adını "Kuman" yazılışında göstərərək kumanları Subar konfederasiyasına daxil edərək onların Fərat çayının batı yaxalarında yerləşdiyini, çayın arxasına keçdikdən sonra yerli tayfalar arasında əridiyini, lakin yaşam dövrlərində ərazilərini Kumuq, Kuman adları ilə tanıtdıqlarını e.ə. II minilliyə aid prototürk tayfalar olduğunu qeyd edir. Bundan başqa əsərdə bu boyların tarixi hadisələrdə iştirakı və salnamələrdəki adlarına, eləcə də Urartu qaynaqlarında Göyçə gölü ətrafında "Kumani" (-ani burada Urartu dilində adlıq hal

şəkilçisidir -F.R.) ölkəsi kimi adlanmasına da rast gəlirik. Xeyli sayda salnamələrdən misallar gətirən müəllif, kumanların yayım arealına, eləcə də coğrafi və antroponimik adlarına da çoxlu nümunələr göstərmişdir (163, s. 45-53). Müəllif elmi və tarixi məlumatlara rəğmən sözün etimoloji izahına toxunmamışdır.

Tayfa adı "Koman" sözünün səthi etimoloji izahına biz M.A.Xabiçevin araşdırmalarında rast gəlirik. Müəllif, Kuman dilində sözyaratma formasını izləyərək "kumak" sözünün kum+ak yazılışına üstünlük vermiş, kuman dilində "ak" tərkibinin kiçiltmə mənası daşıdığını vurğulamaqla sözü "kiçik kum" mənasında açıqlamış, "kum" sözünün anlamına isə toxunmamışdır (473, s. 54-57). Bu müəlliflərin araşdırmalarında hadisələr eramızın VI-VIII əsrlərinə aid edilmişdir (yenə orada s. 55-56).

Biz M.Kaşğaridə "komın" sözünün "coşmaq" mənası ilə və burada "man" tərkibinin isə ayrıca "kuşanmaq"-"qurşanmaq", "banmaq"-"batırmaq" mənaları ilə rastlaşırıq (43, II c., s. 30, 324). Əgər xatırlasaq biz F.Kırzıoğlunun yazılarında da Altay, Sibir türkləri arasında komi, kumıq, kuman adlı tayfalarla rastlaşır, eləcə də Qıpçaq türklərində isə, biz kumanlı adda tayfa adını görürük (512, s. 31-35). Ümumiyyətlə Koman türklərinin araşdırmalardakı tarixinə diqqət etsək bu tarix e.ə. VIII əsrdən qabağa getmir. Lakin tarixi qaynaqlara yenidən nəzər saldıqda biz burada komanlara dair yeni məlumatlarla da rastlaşırıq.

Komanların tarixi haqqında "Ümumdünya tarixi"nin I cildində maraqlı və elmi əhəmiyyətli bir məlumata rast gəlirik. Mənbə e.ə. II minilliyin sonlarında (XI əsr) Cənub Azərbaycanın Urmiya dağları əhatəsində (kitabda "Ərmən dağları" kimi verilir) dövlət qurumlarının formalaşması prosesini göstərir. Məlumatda Şubar, Xubuşkiya kimi kiçik dövlətlərlə yanaşı Tanrı kultunun, daha doğrusu yağış və ildırım allahı kultunun mərkəzinə çevrilmiş Kumen dövlətinin də adı çəkilir. Bundan sonra isə kitab artıq e.ə. IX əsrdə Koman (kitabda kaman kimi verilir) və Kumaxa ərazilərini göstərməklə onları kaskeylərdən cənubda, şubarlardan isə şimal qərbdə qeyd edir (120, I c., s. 515-517). Mənbələr e.ə. IV əsrin əvvəllərində Qara dəniz ətrafında Koman məbədi və şəhərinin olduğunu, o bölgə əhalisinin isə qədim Kuman tayfalarının Ma allahına ibadət etdiyini göstərir. Lakin burada da rus siyasəti komanları iranmənşəli olaraq təqdim edir. (121, II c., s. 257).

R.Özdək araşdırmalarında qıpçaqların kumanlarla bərabər e.ə.

XI əsrdən tarix səhnəsində kuman-qıpçaq, xəzər-qıpçaq-uz ittifaqında birləşdikləri haqda məlumat verilir (236, s. 166-167).

Daha maraqlı və elmi bir məlumata rus tədqiqatçısı Q.V.Kostoçakoviçin rus dilində yazdığı "Kimak və qıpçaqların mənşəyi məsələləri haqqında" məqaləsində rast gəlirik. Müəllif L.N.Qumilyev, A.P.Dulzon, D.E.Yeremeyev, L.P.Potapov, D.Q.Savinov, S.A.Starostin kimi müəlliflərin çoxsaylı araşdırmalarına diqqət yetirməklə komanların tədqiqatlarda "koman", "kuman", "kimak" "komas", "kiman", "komi" kimi yazılışlarına etimoloji yöndən yanaşaraq adların mənasına diqqət yetirmişdir. O, komanların bu adlarının türk dillərinin dialekt fərqlərindən, yəni türk mənşəyindən gəldiyini, uyğur türklərinin içərisində 3 min il yaşadıqlarını göstərir. Daha sonra müəllif eramızın 601-ci ilində onların öncə İrtış çayı sahillərinə, sonra (VIII əsr) Turfan knyazlığına, 3-cü köçdə isə, yenə də İrtış çayı sahillərinə adlayaraq burada məskən saldıqlarını elmi cəhətdən əsaslandırmışdır. Bundan sonra müəllif bu adların bir kökdən -"kom" kökündən gəldiyini və sait səs əvəzlənmələrinin Ket türklərinin ləhcələrinə uyğun olduğunu göstərməklə bu fonetik hadisəni türk dilləri üçün bir qanuni hal olaraq dialekt, ərazi danışıq fərqi kimi izah etmişdir (538).

Bu məlumatda komanların uyğurlar arasında 3 min il yaşam tarixini və eramızın 601-ci ilində ilk köçünü nəzərə alsaq o zaman onların tarix səhnəsinə çıxdıqları dövr e.ə. III minilliyin ortalarına (2339-cu ilə) təsadüf edir. Əgər diqqət etsək yuxarıdakı mənbələrin də məlumatlarındakı bəzi faktorlar (onların dövlət yaratması) təqribən bu tayfaların e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərində tarix səhnəsində olduğunu təsdiq edir (bax, 120, I c., s. 515-516). Bundan sonra komanlar e.ə. II minilliyin sonu, I minilliyin əvvəllərindən Cənub Azərbaycanın Urmiya dağlarının ətəyindən başlayaraq Şimal Azərbaycanda Naxçıvan daha sonra Albaniya ərazisini, daha sonra isə Monqolustan, Altay Sayan, İrtış, Beş Balık, Komi, Kumık, Kumak, Kumen və s. əraziləri əhatə etməklə, 500-dən yuxarı əski və müasir coğrafi adda öz adlarını əbədiləşdirmişlər (103, s. 250, 257, 260). Komanların uyğurlar arasında "3 min il yaşaması" variantına gəldikdə isə onların, e.ə. II-I minilliklərdə Urmiya dağlarında yaşamaqla o dövr dövlət yaradana qədərki tarixi də nəzərə alsaq onların həm Urmiya, həm də Uyğur ərazilərində aborigen-yerli sakinlər olduğunu söyləmək olar (-F.R.). Bütün bunlara baxmayaraq bu tayfaların Naxçıvan ərazisində yerli sakinlər

olması və bunun e.ə. III-II minilliyə aidliyi məsələsi heç bir araşdırmada qeydə alınmır (-F.R.).

Koman türklərinin dili məsələsi və bu dilin mənşəyi haqqında da fikirlər tam və konkret deyildir. Biz Kiçik Asiya- Doğu Anadoluda proto Pala dilinin mövcud olması, onun e.ə. III minilliyin sonu II minilliyin əvvəllərində parçalanmasından meydana gəlmiş Luvi və Hett dilləri haqqında Pal-Pala türk boylarından danışarkən qısaca söhbət açmışdıq (271, s. 230). Het və Ket tayfa dillərinin prototürk dili olması və Pal-Pala prototürklərinin dilindən yaranması da problem məsələlərdəndir. Qeyd etmək lazımdır ki, Yenisey, Altay –Sayan, İrtış çayı boyu ərazilərdə Ket türklərinin kuman-qıpçaq dili ilə sadəcə dialekt fərqləri mövcud idi. Bu hadisəyə münasibət bildirən A.P.Dulzonun qeyd etdiyi kimi, onların parçalanması məsələsini bu türk xalqlarının etnik və siyasi müstəqilliyini əldə etmək, gələcəkdə hər hansı bir türk dövlətinin yaradılması istiqamətində bir tarixi proses, əlamət olmaqla qəbul etmək olar (345, s. 475, 478; 346, 177-178, 236).

E.S.Seleznov və T.A.Seleznovanın rus dilində yazdıqları "Tayşet-transsiblərin yaratdığı şəhər. "Qədim ketlərin torpağında" məqaləsində ketlərin qədim Sibir türklərindən biri olduğu, onların qədimlərdə "ostyak-xant", "yeniseylər" adlandığı, "ket" sözünün isə qədim türk dili və dialektlərində "adam" adlanması, dillərinin Uqro-Fin dil qrupuna daxil olmaqla Krasnoyarski, Turuxan, Yenisey axarlarında məskunlaşdıqları qeyd olunur. Ketlərin dil quruluşu və qohumluğu məsələsinə toxunan Q.Ramsted onu Uyğur mənşəli hesab etməklə bu dilin Yenisey, Altay, İrtış ərazilərində məskun olan Asan, Hun, Yastin, Buklin, Yarin, Bokatin türklərinin dilləri ilə qohumluğunu vurğulayır (539).

Ketlərin və ya hetlərin bir türk boyu olduğunu "ket", "qet" sözünün qədim türk dilində "güclü, möhkəm, sağlam, seçilmiş" mənalarında işlənməsi də sübut edir (37, s. 292). Yuxarıda da qeyd etdiyimiz kimi ola bilsin ki, bu gün dilimizdə işlənən "qut" - qüvvə sözü bu qədimliyin izini daşımaqdadır (-F.R.).

Burada bir məsələni xüsusi olaraq qeyd etməyi lazım bilirik. Fikrimizcə, Pala prototürk dilinin parçalanmasından yaranan Het dili sadəcə bir dialekt fərqi idi və Uyğur ərazisindəki Ket dili elə Het dilinin (burada sadəcə k≈h səs dəyişməsi mövcuddur - F.R.), yəni qədim prototürk dili və tayfalarının paralel mövcudluğu idi ki, onların tarixi,

türk tayfa ittifaqındakı yeri və ərazi eyniliyi də mənbələrlə sübut olunur (120, I c., s. 117).

İkinci tərəfdən doğrudanmı yuxarıda sadalanan türk dilləri, eləcə də Ket dili Uqro-fin və ya Fin-Uqor dil qrupuna daxil olmalıdır? Bildiyimiz kimi bu qrupa Macar, Fin, Voqul, Çeremis, Permyak, Votyak, Ostyak dillərini daxil edirlər (508, s. 39), və finlərin özləri Skif dil qrupuna aiddir (144, s. 449). Skiflər isə xeyli sayda araşdırmaların nəticələrinə görə isskit-oğuz türkləridir (178; 199; 343)

Əgər Koman türklərinin dili Altay Sayan, İrtış, Sibir Yakut ərazilərində Ket dilindən gəlməklə Uqro-fin qrupuna daxildirsə bu ərazidəki Yakut, Karaqas, Teleut, Tuva, Saqay, Beltir, Kumandi, Kalmık, Koybal, Tuba, Şor və s. dillər bildiyimiz kimi Xakas, Altay türk dili qruplarında cəmlənir. Bundan başqa qərbi Sibirin Çulum, Baraba, Tobol, İşim, Tümen, Tura türkləri, eləcə də 3 min il Uyğur ellərində yaşamış komanlar da daxil olmaqla Uyğur dili, o cümlədən türkmənlərdə Sarı Uyğur, qıpçaqlara aid Tural, Çuz, Mişer, Başqırd, Karakalpaq və s. türk boylarının dilləri də, türk dilləri ailəsində birləşir.

Bu prototürklərin Naxçıvan ərazisində yaratdığı etnooykonimlər mövcud olduğu halda ərazidə protoazərbaycan dilindən özgə bir dil qeydə alınmır. Deməli bu tayfalar sadəcə qədim türklər, azərbaycanlıların uluları idi ki, Naxçıvan ərazisində də məskən salmış, adlarda öz izlərini qoymaqla uzaq bir tarixi dönümdə şimala doğru yayılmışlar.

Belə olan halda köhnə Sovet ideologiyasından qopmaqla "Uqro-fin" sözünü "Ümumtürk qrupu" adı ilə adlandırmağın zamanı çatmayıbmı?

A.P.Dulzon konkret olaraq Sibirdə Tobol, İşim, Tar, Turin türklərini, V.V.Radlov isə, İrtış sahili boyu Tara, Tobol, Tura, və İşim, Sibir türkləri Barba, Turalık, Ayalı, Kurdak boylarını Altay teleutlarının dilinə doğma və eyni dil hesab edir (118, s. 199). Əgər biz Kazan tatarlarının dialektində "sınğar bulmasın"- "isti hava vurmasın", "ber"-ver, "kürək"-gərək (102, s. 30-31) kimi sintaktik və fonetik xüsusiyyətləri izləsək, burada sadəcə bəzi səs dəyişiklərini istisna etməklə bu dilin müasir Oğuz dil qrupundakı sözyaratma qanunları ilə eyniliyinin şahidi olarıq.

Altay dil qrupuna daxil olan tayfa adlar isə, Q.Ramstedin qeyd etdiyi tayfalarla bərabər qədim prototürk varisləri hesab olunurlar.

Bunu çoxsaylı tədqiqatlar da sübut edir. A.M. Şerbak da araşdırmalarında bu məsələyə toxunmaqla Kuman və Kumık tayfalarının eləcə də Altay tayfalarının türklər, dillərinin isə türk dili olduğunu yazır (487, s. 9-14). O zaman onların ululları sayılan Pala türkləri və onlardan ayrılan Ket dili türk tayfası və qədim proto Azərbaycan dili idi (-F.R.). Bu isə qədim Azərbaycan türklərini Urmiya, Ön Asiya və kiçik Asiya-Doğu Anadoluda kompakt şəkildə eyni ittifaqda yaşamalarının təkzibolunmaz sübutudur.

Bütün bunları nəzərə alsaq sayı 1 milyardı çoxdan adlamış türk xalqlarının dil qrupunun önündə "Fin" sözünü yazmaq türk xalqlarını kiçiltmək deyilmi?

Beləliklə Kumanların dili və onun tarixinə dair mənbə və araşdırmaların elmi nəticələrini ümumiləşdirsək, bu tayfa və dilin mövcudluğunun e.ə. III minilliyin ortaları və II minilliyin əvvəllərinə aid olmasının şahidi oluruq.

Kumanların yayım arealına nəzər salsaq biz Azərbaycan toponimik sistemində Koman, Komanlı, Komantərn, Kumani kimi onlarla ada (35, s. 59, 61), eləcə də əski yazı və tədqiqatlarda isə Şəki rayonunda Kam tərkibli məntəqə adı ilə qarşılaşırıq (413, s. 38).

Azərbaycandan zorla qoparılmış Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində də biz Kumisi (burada **–si** şəkilçisi Bolinisi, Kutaisi, Losi kimi adlara artırılan gürcülərə məxsus adlıq hal şəkilçisidir), Kumurdo, Qomar, Kobi (b≈m dialekt fərqini xatırlayaq mən≈ben), Kobul kimi adlar qədim koman boylarının izləridir (117, s. 43, 47, 64). Cənub Azərbaycanımızda da təkcə şəhər adlarında biz Kum, Kumuşe (bir adı da Şəhrəza) adlarına, eləcə də Xumu adda iki göl adına təsadüf edirik (358, s. 469). Bizim yuxarıda məlumat verdiyimiz ümumtürk arealının 500-dən yuxarı "Kom", "kum" tərkibli məntəqə adları isə onların böyük güc olduqlarının və yayım arealının göstəricisidir.

Yekun olaraq biz "koman" adının həm tarixini, həm də etimoloji izahını verməyi də lazım bilirik. Qeyd etdiyimiz kimi sözün etimologiyası tam olaraq verilməmiş, onların tarixi isə e.ə. XII əsrdən qabağa getməmişdir. Lakin Assur – Urartu yazıları, mənbələr və tədqiqatların elmi nəticələri e.ə. XIII əsrdə bu tayfaların ölkəsi olduğunu qeyd edir (163, s. 44-53; 120, I c., s. 515). Bu halda türk Koman boyları ən azı e.ə. II minilliyin əvvəllərindən tarix səhnəsində idilər.

"Koman" sözünün etimoloji mənasına gəldikdə isə yuxarıda qeyd etdik ki, əski türklərin nominasiya-advermə adətlərində teofor ad-lar-müqəddəslərin adları üstünlük təşkil edirdi. Bu yöndən yanaşıldıqda "koman" sözünün Kassit-kassi prototürklərinin allahı Şukamunadan (271, s. 105) gəlməsi qənaətindəyik. Ola bilsin ki, tanrı adındakı "Şu" komponenti zu/uzu/izi –"işıq, günəş" mənalarını bildirməklə günəşə işarət kimi götürülmüş, tayfa adı Kom isə, günəşlə bağlı olan "qam-şaman" sözündən gəlmişdir. Tərkibə qoşulan türk dillərinə məxsus -an "mənsubluq şəkilçisi" isə sözü "Günəş şamanları" mənasında izah edir. "Koman" söz tərkibini kom+an şəklində əski türk dilləri ilə müqayisə etsək tayfa adının "qamlara məxsus" mənasında olduğunu söyləmək olar.

Naxçıvan ərazisində qədim sənəd və qaynaq məlumatlarının komanlarla bağlı göstərdiyi 8 məntəqə adında qeydə alınan yazıyaqədərki dövr türk dili elementləri də bu fikrimizin doğruluğunu təsdiq edir. Adların tərkibindəki yazıyaqədərki dövr dil elementlərinin türk dilləri ilə müqayisədə tədqiq edilmişdir.

**Kürəküməz.** Naxçıvan qəzası daxilindəki Naxçıvan nahiyəsində Hacıvar kəndi yaxınlığında qeydə alınan bu məntəqə adına 1590-cı ilə aid arxiv sənədlərində rast gəlirik. Məlumatda məntəqə adının anlaşılmadığı göstərilir (77, s. 55). Buradakı adın birinci tərkibinin, u≈ü, u≈ə fonetk paralellikləri ilə (266, s. 54, 81) "kuru"yazılışında qədim türk dillərində "ləyaqətli", "dəyərli", mənalarında rast gəlirik (462, s. 35). M.Kaşğaridə biz bu tərkibin "kür" yazılışında "igid", "sarsılmaz" mənalarına rast gəlirik (42, I c., s. 147; 44, III c., s. 119). Qədim qaynaqlada şumerlərdə bu sözün "guru" yazılışında "xeyir verən" mənasında işləndiyini görürük (500, s. 90). Bu tərkibə e.ə. III minillikdə Kuti çar adları içərisində Kurum adında təsadüf edirik (350, s. 399). Adda Kum/kom tayfa adına qoşulan qədim as-"qüvvətli" türk sözü də nəzərə alınmaqla məntəqə adı "Sarsılmaz, qüvvətli Kum" mənasında etnooykonim kimi formalaş-mışdır.

**Kəmud.** Məntəqə adına 1590-cı ilə aid arxiv sənədlərində Naxçıvan qəzasının Vedi nahiyəsində Axirəs və Karvansara kəndləri arasında bir adı Xəmud olaraq çəkilir(77, s. 172). Burada adın birinci tərkibinin, o≈ə, k≈x fonetik paralelliyi ilə yazıya alındığını düşünürük.. Ada qoşulan "ut/at"- "yer, məkan" tərkibi haqqında biz yuxarıda

danışdıq. Tayfa adlarına "ut/at" komponentinin qoşulmasına biz qıpçaqlarda Kolmat, Göytürklərdə Tubüt, Abakan-Xakas türklərində Qoybat, daha sonra Teleut və s. tayfa adlarında da rast gəlirik (237, II c., s. 17). Məntəqə adı "Kom yurdu" mənasında izah olunur.

**Kümanbulaq.** Bu məntəqə adına Naxçıvan qəzasına daxil olan Göyçə nahiyəsində 1728-ci ilə aid arxiv sənədlərində Vardenes və Buğdayitəpə kəndləri arasında, Göyçə dağında Bir adı da "Kəməndbulaq" yazılışında rast gəlirik (77, s. 55). Şübhə yox ki, ad sonrakı yüzilliklərdə bu şəkildə təhrif olunub. Biz sonrakı qaynaqlada bu ada bir daha təsadüf etmirik. Qeyd etdik ki, Azərbaycan, o cümlədən də Naxçıvan və ümumtürk toponimik sistemində bu tayfa adı "kuman", "koman", "kumen", "kime" fonetik səs əvəzlənmə yazılışlarında tədqiqat və qaynaq yazılarına düşmüşdür. Buradakı -an "mənsubluq şəkilçisi" qədim şumerlərdə Tanrı adı Zuən adında, kutilərdə Tirigan (türük+an-türklərə məxsus-F.R.) çar adında, skiflərin Appian şəxs adında, eləcə də Mannada Qilzan, Midiyada Xarmeşand, Ekbatan, ölkə adı Atropaten (əslində Atropat+an-Atropata məxsus) kimi xeyli sayda adlarda təkrarlanmışdır (284, s. 94; 349, s. 201; 208, s. 51, 55, 77). Burada -t "cəmlik" şəkilçisindən sonra gələn "bulaq" coğrafi ad göstəricisi-nomen sonralardan artırılmışdır. Məntəqə adı birbaşa "Koman/Kuman" tayfa adı ilə nominasiya olunmuşdur.

**Kəməngəlül.** Məntəqə adının quruluşundan da göründüyü kimi oykonim heç bir məna ifadə etmir. 1728-ci ilə aid arxiv sənədlərində Naxçıvan qəzasının Dərələyəz nahiyəsində Ərdiş kəndi və Şahyurdu məzrəəsi arasında yerləşən bu məntəqə adının (77, s. 172) Koman+kal+il şəkilində olduğunu düşünürük. Ad 1590-cı ilin siyahısında qeydə alınmamışdır. Etnooykonim qədim türk sözləri "kal"-"ulu" və "il""yurd" komponentləri hesabına türk dili leksik vahidlərindən formalaşmışdır. "Ulu Koman yurdu" mənasında olan bu adda türk dillərinə məxsus a≈o, a≈ə, k≈q, i≈ü, fonetk paralellikləri qeydə alınır.

**Kamiyab.** 1724-cü ilə aid arxiv sənədlərinin məlumatlarında o zaman Naxçıvan qəzasına daxil olan Sisyan nahiyəsində qədim türk kimmerlərin adını daşıyan Gümür və Qızılca kəndləri arasında qeydə alınan bu etnooykonim (77, s. 150) 1728-ci ildə yenə Naxçıvan sancağına daxil olan Sisyan nahiyəsində həmin ərazidə göstərilir. Maraqlı və elmi cəhətdən xeyli əhəmiyyətli tərkibə malik olan bu coğrafi adda etnos

adına qoşulan "ay" komponenti qədim türklərin şəxsi ad-antroponimik, eləcə də yer adları sistemində Bak+ay, Kitbat+ay, Koloks+ay, Taurl+ay, Tan+ay As+ay, ölkə adı Mad+ay/Mat+ay, tayfa adı Pal+ay kimi yüzlərlə ada təsadüf edirik (23, III 128; 349, s. 91, 120, 176). Q.Qeybullayev "ay" komponentinin türk dillərinə məxsus qədim şəkilçi hesab edir (208, s.98). Lakin biz saklarda Aylis çar qolu (163, s. 80), hunlarda Aytan, türkmənlərdə Ayrum, Ayrım, X əsrdə səlcuqlarda Aymur, XV əsrdə oğuzların Yıva qolunda Aydın tayfalarının adlarında bu morfem-komponentlə rastlaşırıq (506, I c., s. 76; 221, s. 43-45). Qeyd olunan adlarda bu tərkib söz köklərinin əvvəllərində gəlir ki, bu da iltisaqi dillər üçün xarakterik hal sayılmır. Türk dillərində yalnız -anti, -bi, -na, -a kimi dilimizə özgə dillərdən adlamış şəkilçilər söz önündə işlənə bilir (222, s. 161). Biz bu tərkibin qədim türk inancında Ay totemi, mifi ilə bağlı olması qənaətindəyik. Araşdırmalarında Ay və Günəş mifinə ətraflı aydınlıq gətirən M.Seyidov onların tanrı kimi türk tayfalarının mifində iştirakına dair "Tonyuquq" abidəsindən, hun, Altay miflərindən xeyli nümunələr göstərməklə bu mifin türklərin inancında xüsusi yeri olduğunu elmi cəhətdən əsaslandırmışdır (261, s. 222-223). Burada söz sonuna qoşulan ab-"ev" sözü ilə birlikdə etnooykonim "Ay ilahəsi komanlarının evi" mənasında açıqlanır.

**Camaqat.** Ada 1724-cü ilə aid sənədlərdə o zaman Naxçıvan qəzasına daxil olan Xınzirək nahiyəsində Qaraqubad və Canbəyli kəndləri arasında təsadüf edirik (77, s. 47). "Dədə Qorqud" dastanında M. Kaşğari, Nəsimi, M. Seyidov əsərlərində, V.V.Radlovun sözlüyündə "aq"- "uca", "aqmaq"- "yüksəlmək", "ağmaq" mənalarında fel, "uca", "yüksək" mənalarında sifət kimi işlənən (42, I c., s. 173; 260, s. 143; 19, s. 35, 117-118) bu tərkiblə "at"- "məkan, yer" (60, I c., s. 284) tərkibinin formalaşdırdığı etnooykonim "Uca komanların yeri" mənasını daşıyır.

**Toyküməə.** Məntəqədə heç kimin yaşamadığı göstərilən bu ada 1728-ci ilin məlumatlarında Sultan xasslarına daxil olan Zərzəmin nahiyəsində rast gəlirik. Məntəqə siyahıyaalınmada qədim Şu tayfa adını daşıyan Şenaz və Saray kəndləri arasında göstərilmişdir (77, s. 121). Sözün etnooykonim kimi formalaşmasına xidmət edən "tey" komponenti o≈e fonetik səs dəyişimi ilə "toy" şəklində qeydə alınmışdır. Tərkibin etimoloji mənası E.M. Murzayev tərəfindən "təpə" (416, s. 47), Y.B. Yusifov tərəfindən isə, "tərəf" mənalarında izah edilmişdir (489, s. 21-

22). Bu tərkib M. Kaşğarinin sözlüyündə isə "tay" və "qaymak " kimi izah edilmişdir (44, III, s. 158, 244). Biz türk dillərində t≈s fonetik paralelliyi ilə də qarşılaşırıq. Azərbaycan dilində "taqqıltı"sözü tatarlarda "şakıldau", başqırdlarda "sakıldav, şakıldav", "sıçan" qazaxlarda "tıskan", tatarlarda tıçkan (39, s. 770, 840). Bu variant nəzərə alınarsa "tay/say" sözü "gənc, yeniyetmə" mənasında da işlənir (56, IV c., I h., s. 219). Fikrimizcə ad dialekt variantında qeydə alınmışdır. Əgər diqqət etsək bütün hallarda tərkib türk dilləri ilə izah olunur. Biz sözün "gənc, yeniyetmə" variantına üstünlük verməklə sondakı -a "kiçiltmə" şəkilçisini də nəzərə alaraq etnooykonimi "Gənc, koman" mənasında izah edirik.

**Kamura**. 1728-ci ilin məlumatlarında təsadüf edilən bu məntəqə adı Naxçıvan qəzasına daxil olan Xınzirək nahiyəsində siyahıda Kol türk tayfa adını daşıyan Koltəpə və Baratlı kəndləri yaxınlığında göstərilmişdir (77, s. 47). Kam/kom tayfa adı və türk dillərində "uru"-"bina etmək", "tikmək" (208, s. 92) söz kökü nəzərə alınmaqla etnooykonim "komanların qurduğu, tikdiyi" mənasında açıqlanır. Əgər xatırlasaq şumerlərdə də "uruq"-"tikinti", "şəhər" mənasını daşıyırdı (5, s. 8, 61, 63). Biz Opxon-Yenisey yazılarında da "Uruk urdu", "bodun erti" ifadələri ilə qarşılaşırıq ki, burada da "uru" tikmək, qurmaq həkk etmək mənalarını daşıyır (235, s. 381; 74, s. 20, 34)

Tarixi qaynaqlarda e.ə. III minillikdən tarix səhnəsində olan, qədim Naxçıvan-Naxər ərazisində, Göyçə gölü ətrafında e.ə. II minillikdə öz dövlətini quran, adlarda dilimizi yazıyaqədərki dövr leksik və qrammatik ünsürlərini qoruyan Koman boyları ərazimizin aborigen-yerli sakinləri olmaqla adlarda da öz izlərini əbədiləşdirmişlər. Adların etimoloji izahları, tarixi qaynaqlarla müqayisəli təhlillər bu adların prototürk dilində olduğunu sübut edir. Bu tayfaların hələ e.ə. III minilliyin sonları II minilliyin əvvəllərindən bu ərazidə ümumtürk ittifaqında olduğu qaynaq məlumatları ilə də təsdiq olunur. Onların Bütöv Azərbaycandan, eləcə də Naxçıvan ərazilərindən başlayaraq, şimala doğru, Orta Asiya, Altay, Sibir torpaqlarına qədər yayılmaqla məskunlaşdıqları yüzlərlə toponimik adla təsdiqlənir. Bu tayfaların Qafqazda və göstərilən ərazilərdə Kamon, Kumenı, Kumana, Kemkara, Kampi, Kemi, Kemçuq, Kamçi, Komaçu, Komin, Kumen, Kumentau, Kam kimi türk torpaqlarında 3 yüzə yaxın məntəqə, şəhər, dağ, çay və s. adlarda təkrarı da (103, s. 24-25, 42-43, 52, ) fikrimizin doğruluğunu sübut edir.

## 12. TURDİ TÜRK BOYLARI

Qədim qaynaqlarda tarixi kökü e.ə. VI-IV minilliyə dayanan, adı prototürk As boyları ilə yanaşı çəkilərək bu tayfaların varisləri olduğu vurğulanan qədim Naxər-Naxçıvan torpağının aborigen-yerli sakinlərindən biri də Turdi türkləri olmuşdur. Tərəfimizdən ilk dəfə olaraq bu tayfaların naxçıvanlıların etnogenezi tarixindəki yeri tədqiq edilmiş, onların tarixinə qaynaqların məlumatları həcmində aydınlıq gətirilmişdir. Bununla bərabər qədim Naxçıvan ərazisində qaynaqlarda adları qalan turdilərin öz adları ilə yaratdıqları məntəqə adlarının da ilk dəfə olaraq etimoloji izahları verilmişdir. Onu da qeyd edək ki, bu tayfaların dili və tarixi Azərbaycan xalqının etnogenezindəki yeri də geniş tədqiqat obyektinə çevrilməmiş, bu haqda elm adamlarımızdan bir neçəsi yalnız məlumat xarakterli məqalələrlə öz fikirlərini açıqlamışlar. Lakin əski mənbələr bu tayfaların yaşadığı ərazilər, onlarla ittifaqda olan tayfa birlikləri, tarixi proseslərdə iştirakı və s. məsələlərə aydınlıq gətirilməsi barədə müəyyən məlumatlar verməkdədir. Öncə Turdi boylarının bir türk tayfası olub-olmadığına, sözün nə məna daşıdığına qısaca nəzər salmaq istərdik. Bu sözün "Tur" və "ti" şəklində iki kökdən ibarət olduğunu düşünməklə tayfa adının "Tur" tərkibində olması qənaətindəyik.

Bildiyimiz kimi qədim şumer və əski türk dillərində "di/ti" söz tərkibi "tikən, tikmək" feli kimi işlənməklə (208, s. 80), eyni zamanda omonimlik xüsusiyyəti ilə "möhkəm", "inadkar", "əbədi" mənalarında qaynaqlara düşmüşdür (37, s. 558, 565;). Birinci yazılışda "di/ti"-"tikən, tikmək" tərkibi tamamilə canlı ismə aid olması ilə fərqlənir. Yəni, komponent burada "Tur" kökünə qoşulursa təbii ki, bu bir tayfa və ya şəxs adına işarətdir. İkinci omonimlik variantında isə "möhkəm", "inadkar", "əbədi" mənalarında olan bu tərkib həm canlı, həm də cansız isimlərə aid oluna bilər.

Təbii ki, bu məsləyə tam aydınlıq gətirmək üçün "tur" sözünün mənasına da diqqət etmək, burada hər hansı bir etnos, tayfa, tirənin və ya şəxsin iştirakını müəyyənləşdirmək də elmi cəhətdən gərəkli sayıla bilər. Biz M.Kaşğarinin sözlüklərində "tur" tərkibinin sinonim şəkildə "durmaq, qalxmaq" və ayrıca "toplanmaq" mənalı felləri ilə qarşılaşırıq (42, I c., s. 20, 334; 43, II c., s. 28, 49; 44, III c., s. 180, 233). Sözə "tör" yazılışından baxanda isə "evin və ya odanın önəmli sədri", daha doğrusu

toplumun rəhbəri (-F.R.), eləcə də bu yazılışda da omonim olaraq yenə də "hörmətli, sayılan", "mötəbər yer", "uca", "müdrik başçı" mənaları ilə rastlaşırıq (44, III c., s. 121; 37, s. 580).

Mənbələrdə bu qədim "tur" komponenti türklərə aid söz kimi "əbədi", "durmaq, qalxmaq, toplanmaq" mənalarını daşımış, "tura" yazılışında isə "möhkəm qala" mənasında işlənmişdir (37, s. 586; 64, s. 248). Sonuncu "möhkəm qala" mənasına biz XI-XII əsr türk yazılı abidəsi olan Yusif Xas Hacibin "Kutadqu bilik" əsərində də rast gəlirik. A.N.Rahmeti və B.Tuxmeevin tərcümələrində verilən kitablarda "qajusi çerigde qilic baldu jer, qajusi turada juluyda qarır" ifadəsi ilə qarşılaşırıq (499, s. 84; 465, s. 83- 86). Bu cümlənin Azərbaycan dilində "Kimi qılıncını döyüş cərgəsində sınayır, kimi qalada qocalır" tərcüməsində də "tura" morfemi "qala" mənasında işlənmişdir.

Bu söz kökü başqırdlarda "ümumi", "toplum" mənalarında təsadüf edirik. Dilimizdəki "ümumi yataqxana" sözü bu dildə o≈u səsəvəzlənməsi ilə "torlak yataq", "ümum adət, ənənə"- "yəməğət tormoşo", "ümumi həyat" – "gündəlek tormoş" şəkillərində yazılır (61, s. 470). Əgər diqqət etsək buradakı "tor/tur" tərkibi ümumilik və toplum ifadə edir (qədim türk dilləri ilə sözlərin etimoloji izahları tərəfimizdən aparılır -F.R).

Göstərilən bu variantlardan göründüyü kimi "tur", "tür", "tura" yazılışlarında "ti" komponenti ilə işlənən bu tərkib həm "uca yaranışın qurduğu", "müdrik yaranışın tikdiyi", "başçı tikən", "müdrik toplu tikən" kimi mənalarla həm də toplum anlamını bildirir ki, bu da ümumi birlikdən, tayfa birliyindən xəbər verir. Fikrimizcə hazırda Türkiyə türkcəsindəki "törə", dilimizdə "Novruz" bayramının qədim "Tura" adında toplumun- bir xalqın bayramı və "törəmək" kimi sözlər qeyd etdiyimiz "ümumi uca", "müdrik" topluma işarətdir. Bəs tarixi qaynaqlar bu tayfa haqqında hər hansı bir bilgi verirmi?

Herodotun "Tarix" əsərində Skiflər ölkəsində Tiras çay adı ilə yanaşı bu çay ətrafı vadilərdə tiritlərin, ellinlərin yaşadığı haqqında məlumatlarla rastlaşırıq və burada ellinlər də tiritlər adlanırlar (9, II 44, 112; IV 51). Məlumatda adı çəkilən "Tirit" boylarının kim olduğu açıqlanmasa da, bu ad bizim üçün elmi cəhətdən xüsusi əhəmiyyətə malikdir. Əgər türk mifindəki Qurd totemini yadımıza salsaq əski türk bayraqlarında qurdbaşlı- itbaşlı rəsmlər mövcud idi. Adın Tur+it yəni "it toplumu" və

ya "mötəbər qurdlar" tərkibində olduğu təkzibolunmazdır və biz bu adın türk mifologiyasına aid olduğunu düşünürük (-F.R.).

Turdi boylarının tarixi haqqında Strabonun "Coğrafiya" və İoqannes Fridrixin "Yazı tarixi" əsərlərinə istinad edən Azərbaycan alimi C.İ.Cəfərov e.ə. VI-IV minilliklərdə Turdetaniya adlı ölkədən, buradakı "Törtas", yəni Dörd As adlanan tayfadan, onların turdilər olduqlarından bəhs edir. Müəllif, bu qaynaqlara əsaslanaraq Dörd asların, yəni turdilərin tarix səhnəsinə e.ə. IV- III minilliklərdə çıxan türüklərin ulu babaları olmasını, onların iberlərdən daha sivil xalq kimi e.ə. VI minillikdə əlifbaya, qanunnamə və poeziyaya sahibliyini qeyd etməklə, əlifba işarələrinin də şərhini vermişdir. Müəllifin maraqlı fikirlərindən biri də onların ilkin olaraq Qafqaz İberiyasında yaşamaları haqqındakı fikridir (160, s. 91-95). İ.Cəfərov iberlər haqqında ayrıca danışaraq onların Tub el türk tayfa adından "iber" şəklinə düşdüklərini, Qafqazın ilk sakinlərindən birinin tiberlər olduğunu qeyd edir və İber ərazisinin türklərə məxsusluğuna dair xeyli elmi faktlar göstərir (yenə orada, s. 102-103). Lakin, Strabonun məlumatlarında bu fikir qeydə alınmadığından müəllifin hansı mənbədən qaynaqlandığı bəlli olmur. Bu məsələyə diqqət yetirmək üçün Strabonun məlumatlarına bir qədər də ətraflı baxmağı lazım bilirik.

Müəllif "Coğrafiya" əsərində Turdetaniya ölkəsinin yerləşdiyi ərazini İspaniyada, İber ölkəsində göstərir və Turdi ölkəsinin sərhədlərini Taqa, Ana və Beti çayları vadiləri arasında lokalizə edir ki, bu İspaniya torpaqlarıdır. O, ölkənin Beti çayının adını daşımaqla "Beti" adlandığını, lakin turdilərin bu ərazinin sakinləri olmasını nəzərə alaraq ölkənin Turdetaniya adı ilə məşhur olduğunu göstərməklə burada onları gah Turdetan, gah da Turdul adlandıqlarını yazır. Bu məlumatda Polibiyin bu tayfaları müxtəlif xalqlar sayması və onların heç nə ilə fərqlənmədikləri də qeyd olunur. Turdetan tayfalarının dilləri də İber əhalisindən fərqlidir, deyən Strabon, Turdetaniyaya aid Tinqiy, Kalpı, Qadir, Asti, Nabris, Ebur kimi tayfa, liman, şəhər və keçid adlarını da sadalayır (31, VI, s. 139, VIII, s. 139, IX, s. 141). Əgər bu adların qədim türk dilləri ilə müqayisəsini aparsaq Tanqay adında oğuz dillərinə məxsus -nq (səğir nun) qoşa samitini nəzərə almaqla Tanay, Dunay, Tuna adlarında, Kalpi-Kolpi adında Kaspi, Subi, Silbi, Tatabi tayfa adları, Kutur adında Utuqur (otuz oğuzlar) adları təkrarlanır. Digər Asti adı "Aslar tikən",

Nabri adı isə "qurdların verdiyi" mənalarında türk dili elementləri ilə açıqlanır ki, bu da ərazinin əski türklərin nəzarəti altında olduğunu birmənalı təsdiq edir (302, s. 13-18; 208, s. 80; 37, s. 558, 565; 103, s. 242, 306). Bütün sözlərin etimoloji izahları tərəfimizdən ilk dəfə olaraq verilir. Yuxarıda göstərilən adlar və onların əsas söz quruluşları Naxçıvan oykonimlərində Tinə, Tinas, Tinkan, Asti, Astap, Asay, Kültəpə, Karpi, Narbi kimi xeyli sayda oykonimik adlarda təkrarlanır (77, s. 167, 172, 182 və s.).

Azərbaycan toponimiyası, etnogenezi və s. haqqında zəngin məlumat mənbəyi olan bu əsərdə əlavə olaraq xeyli sayda türk etnoslarının adı ilə yanaşı turdilərin də adı çəkilir və onların bir tayfa olmaqla Etrusk, Bastul- turdetan, qarqarlarla birlikdə As soyundan gəldiyi göstərilir. Bu məlumatda C.Cəfərovun da qeyd etdiyi kimi turdilərin qonşu iberlərdən daha mədəni və sivil xalq olaraq e.ə. 6 minillikdə əlifbaya, qanunnamə və poeziyaya sahiblikləri, buradakı Turdetan ölkəsinin türkmənşəli On oba (Onoba), As on oba (Asson oba), Min oba (Menoba) kimi vilayətlərinin isə, aslara məxsusluğu vurğulanır (31, X I, XIV, s. 137-138, 500-572).

Məlumatdan göründüyü kimi Turdetaniya İspaniya ərazisindədir, bu Ön və Kiçik Asiya ərazilərindən xeyli aralıda yerləşir, lakin, onlar "İber" deyil, "Turdetan" və "Turdil" adlanırlar.

Bütün bu tarixi faktları nəzərə alsaq Asərlərin-Azərlərin əlifba tarixi və mədəniyyəti 8 minillik bir dövrə, Şumer mədəniyyəti dövründən də önə təsadüf edir və Turdi boyları türk boyu olmaqla onların varisləri hesab edilir.

Qaynaqların məlumatlarında təbii ki, bizim üçün son dərəcə əhəmiyyətli məsələlərdən biri e.ə. IV-III minilliklərdə yaşamış Turdi türklərinin ərazi məsələsidir. Tarixi qaynaqlardan bizə məlumdur ki, e.ə. I minilliyin əvvəllərində həm Qafqazda, həm də İspaniyada İberiy adında iki ölkənin adı çəkilir və hər ikisi dünya xəritəsində eyni vaxtda öz əksini tapır (107, III c., s. 2). "İberiya" adlı ərazilərin tarixi ilə turdilərin tarixi arasında 3 min illik fərq qeydə alınırsa o zaman Turdi türklərinin ilkin məskəni və vətəni hansı İberiya ərazisində və ya ərazisi yaxınlığında olmuşdur?

Biz As boyları - prototürkləri haqqında məlumat verirkən asların Ön Asiya-Bütöv qədim Azərbaycan, Kiçik Asiya- hazırkı Türkiyə cüm-

huriyyəti, Orta Asiya hazırkı Orta Asiya türklərinin ərazilərini öz təsiri altında saxlayan qüdrətli tayfa olduğunu qeyd etdik. Onların qədim Assuriya, Frakiya, Lidiya, Balkanlar, Misir ərazilərinə də nəzarət etməklə burada dövlətlərini belə yaratdıqlarını, turdilərin As türk boyları ilə kompakt şəkildə yaşadıqlarını da qaynaqlara əsasən təsdiq etdik. Yeri gəlmişkən Assuriya ölkəsinin adı bəlkə də "asların suriyası" mənasındadır (F.R.). Çünki biz Herodotun yazılarında Cənub Azərbaycan ərazisində də ayrıca Assiriya əyalət adına rast gəlirik (23, I 178; II 150; III 92).

Çoxsaylı qədim mənbələr Misirdə e.ə. III minillikdə (2480-ci il) bir As çarının Asukis (Asixis) adlandığı, Suriyada asların Askalon-As kalan şəhər adı olduğu haqqında məlumat verir. Yeri gəlmişkən qeyd edək ki, eyni toponimik ad quruluşuna biz bu gün Culfa rayonunun Xanağa kəndindən cənub-şərq ərazidə e.ə. III minillikdə yaşamış Kas türkləri ilə bağlı Kaskalan qədim qala şəhəri adında və Alma-Ata şəhərindən 17 km. şimala doğru yerləşən Kaskalen qəsəbə adında da rast gəlirik (103, s. 56; 242, s. 32-41). Bununla bərabər Liviyada Asbist tayfaları, Frakiyada Assa şəhəri, Misirdə Asmax şaman birliyi, Beotiya, və Traxində (Tarxanda-F.R.) Asop çay adlarıı, Spartada Astrabak (bu gün Astara p-n adı və bək-"bəy" sözü -F.R.), Astak (Midiyada Astiak çar adı-F.R.), kimi yüzlərlə ad (23, I 105; II 136; IV 170; VII 1224) As türklərinin gücü və yayım arealının göstəriciləridir. Təbii ki bu böyük ərazilərdə asların varisləri olmaqla onlarla bərabər tarixi proseslərə qoşulan Türdi boylarının da izləri qalmalı idi və biz həqiqətən də göstərilən ərazilərdə Tir, Tiras, Tirodizə (Dizə?) Turi, Tirit, Tirrsen (yenə orada I 163; II 44, 112; IV 51) və s. şəxs, tayfa, əyalət kimi xeyli sayda ada təsadüf edirik.

Əgər xatırlasaq qaynaqlar hələ e.ə. III minillikdə turdilərin aslarla bərabər Misir ərazisində Kiçik Asiyadan gələrək məskunlaşdıqlarını, ilkin ellad tayfalarının da onlarla qohum dildə danışdıqlarını və bu ərazidə onların adı ilə Tirin şəhərini olması haqqında məlumatlara rast gəlirik ki, ad Turan sözü ilə eyni kökdən gəlir. Burada qiksosların-gök asların arasında Turdi boylarının da olduğu göstərilir (120, I c., s. 286, 411, 421). Belə tarixi məlumatlara istinad etməklə Turdi boylarının ilkin vətənlərini yerini dəqiq lokalizə etmək istəsək bu e.ə. IV minillikdə hələ "İber" adlanan dövlətlər tarix səhnəsinə çıxmazdan öncə Ön Asiya- qədim Azərbaycan olan torpaqlar idi. Bu ərazilərin böyük bir qismi

isə Naxər türklərinə aid idi. Bu adda etnooykonimlər əsasən Naxçıvan, İrəvan xanlığı, Gürcü ərazilərinə qatılmış Başkeçid, Qarayazı, Kaspi və s. bölgələrimizdə eramızın 1830-cu illərinə qədər qaynaq məlumatlarında, eləcə də coğrafi adlarda qalmışdır (ətraflı bax, 117). Bundan başqa bir neçə tarixi faktlar da gəldiyimiz elmi nəticənin doğruluğunu təsdiq edir.


Numizmatika sahəsində geniş tədqiqatlar aparmaqla, araşdırmalarında yeni elmi nəticələr əldə edən M.M.Maksimov Turdi türklərinə məxsus qızıl pulların yayım arealı və tarixini izləməklə türdilərin başqa (?) ərazilərdən gəlməklə İspaniyanın cənubunu tutmaqla buranı "Turdetaniya" adlandırdıqlarını yazır (390, s. 27, 33, 79).

Turdilərin böyük güc kimi Avropa ərazilərinə yayılması faktları antik müəllif Tit Livinin yazılarında da qeydə alınır. O, e.ə. IV-III əsr hadisələrindən danışarkən "Romanın bünövrəsinin qoyulması tarixindən" kitabında Turi-Tavri tayfalarının adını çəkir və onların Turin şəhərinin adını qeyd edir (33, s.156-157). Məlumatlardan göründüyü kimi qeyd olunan bütün bu tarixi proseslər e.ə. I minilliyin son dövrlərinə təsadüf edir ki, bu da Turdi boylarının qədim Azərbaycan ərazilərində məskun olduqlarını, sonralar şimala doğru yayıldıqlarını və ən nəhayət ərazinin sonralar İberiya adlandığını birmənalı təsdiq edir. Adın İb+er (İbər) yazılışı da Sub+ər, Xəz+ər, Kəb+ər, Kəng+ər üslubunda türk tayfa adının nominasiyası formasındadır və biz qədim iberlərin türk kökənli xalqlar olduğunu düşünürük (-F.R.). Əgər xatırlasaq Şumər türklərinin "Bilqamıs" dastanında Utnapiştinin atasının da adı Ubar idi (272, s. 191).

Milli yöndən gərəkli və elmi əhəmiyyətli araşdırmaların müəllifi olan F. Ağasıoğlu As boyları haqqında məlumat verərkən Klavdi Ptolomeyə istinadən batı Kavkazda Asturikan türk boylarının adını çəkir (163, s. 12). Əgər diqqət etsək bu ad As və Turdi boylarının birgə ittifaqını və onların eyni bir mənşəyə mənsubluğunu təsdiq edir. Əgər biz "kan" tərkibinin "məkan" anlamlı mənasından başqa həm də "kağan" mənasına üstünlük versək o, zaman Asturkan türk boyları ali quruma aid bir tayfa birliyi sayıla bilər.

Daha bir tarixi qaynaq e.ə. XII-XI əsrlərdə Urmiya gölü ətrafı və Qara dənizdən cənuba doğru prototürk tayfalarının adlarını və yerləşdikləri əraziləri göstərir. Bu məlumatda dənizə yaxın sahillərdə Kaskey türkləri,

Fərat çayının yuxarı axarlarına doğru Sakma (Suxma) (-F.R.), Koman (Kaman), daha sonra Kumık (Kumaxa), onlardan şərqə doğru isə Turqu (Dirqu) və Şubar (Şubria) tayfalarının yerləşdikləri xəritə ilə qeyd olunur (Diqqətlə bax, 120, I c., s. 514-517).




*(Ətraflı bax, 120, s.517)*

Mötərizədəki adlar əsərdəki təhriflə verilmiş adlardır (-F.R.). Məlumatdan göründüyü kimi hələ e.ə. II minillikdə Kiçik Asiya-Anadoluda Turdi boyları müəyyən bir əraziyə-ölkəyə sahib idilər.

Bütün bu məlumatlardan sonra coğrafi adların yayım tarixləri və istiqamətlərinə istinadən demək olar ki, Turdi boyları e.ə. IV minillikdən As boylarının tərkibində böyük güc kimi Ön və Kiçik Asiyanın avto - xton- yerli sakinləri olmuş, sonralar Urmiya ətrafının qədim prototürkləri As, Kassit, Subar, Şu, Bulqar, Sak və b. türk boyları kimi şimala doğru hərəkət etməklə öz izlərini çoxsaylı coğrafi adlarda əbədiləşdirmişlər. Onların Turdetaniya adlanan ölkəsinin İspaniyadakı İberiyada yaranması e.ə. II-I minilliklərə təsadüf edirsə, onların bu ərazilərdə mövcudluğu şübhəsiz e.ə. IV-III minilliklərdə olmuşdur. Qaynaqlar da bu tarixi təqribi olaraq təsdiq etməklə iberlərin ilk tunc dövründə bu ərazilərə

gəldiklərini, e.ə. VI əsrdə karfaqenlərin İspaniyaya daxil olduqları dövrdə burada qədim Tur koloniyasının hələ də qaldığını ehtimal olaraq söyləyir (120 I c., s. 468, 502,).

Biz "Tur" tayfalarının yaratdığı yer adlarının arealına da diqqət yetirmək istərdik. Hələ XIII-XVII əsrlərdə qədim Azərbaycan şəhəri Təbrizin tarixi haqqındakı məlumatlarda onun ətrafında Türkman kənd və Turbat qalası kimi adlarla rastlaşırıq (232, s. 146). Burada ikinci adda "tur" tərkibinə qoşulan "bat" komponenti qədim türk dillərində "yurd", "ölkə", "məkan" mənalarında işlənmiş (65, II c., s. 79; 284, s. 94), o dövr Astabad, Ordubad, Aşqabat kimi adlarda da eyni mənanı daşımışdır. Bu halda "bat" morfemi tayfa adına qoşulmaqla "Tur ölkəsinin" qalası mənasında açıqlanır və turdilərin ərazilərimizdə qədimdə şəhər dövləti formasında mövcudluğunu da təsdiq edir (-F.R.). Biz Cənub Azərbaycanda bu tayfa adını daşıyan Turkanbur, Turkədari, Turqan (510, s. 176-177; 358, s. 469) kimi məntəqə adları və "tur" tərkibli xeyli sayda digər coğrafi adlara da təsadüf edirik. Şimal Azərbaycanda Turabad, Turəkun, Turjaçay, Turut, Türkan (35, s. 94), ümumtürk arealında Turin, Turbat, Tur, Turiy, Turka, Turan, Turtta, (103, s. 30-31, 48, 57,) kimi yüzlərlə məntəqə və çay adları bu gün də turdilərin adını daşımaqdadır.

Qədimlərdə Azərbaycan torpaqları hesabına "İberiya" şəklində qaynaqlara düşən hazırkı Gürcüstana qatılan torpaqlarımızda Sia+tura, Çoxa+turi, Tur+nauz, Lay+turi, Tur+avi (sonralar Telavi), Ka+turi, Tur+uso, Tur+alat kimi təkcə qəsəbə adları (117, s. 35, 138, 237,; 103, s. 52-53) Turdi boylarının çox əskilərdən qədim türklərə məxsus bu ərazilərdə sıx, kompakt şəkildə yaşadıqlarını bu ərazilərin bütövlükdə türk tayfalarına mənsub olduğunu da birmənalı təsdiq edən tarixi faktlardır.

İndi isə qədim qaynaqlarda Naxçıvan ərazisində Turdi türklərinin adını daşıyan etnooykonimlərin daxil olduqları mahal və qəzalara, eləcə də onların etimoloji izahlarına diqqət edək. Qeyd edək ki, Naxçıvan nahiyələrində Turdi türklərinin adından yaranmış 12 məntəqə adı qeydə alınır.

**Tərcanlı.** Qədim Naxçıvan ərazisi tərkibində olan İrəvan qəzasının İrəvan nahiyəsində 1590-cı ilə aid sənədlərdə Üçbulaq və Bədirvans kəndləri arasında, əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərilir

(77, s. 163). Sonrakı 1727, 1800-cü illərin məlumatlarında ada təsadüf edilmir. Onun tarixi proseslərdə dağıdıldığını və ya harasa köçürüldüyünü ehtimal etmək olar. Etnooykonim tayfa adı və "can/san"- "şan", "şöhrət" qədim türk sözlərindən formalaşaraq "Şanlı turlar" mənasında açıqlanır. Etnooykonimə qoşulan -lı "mənsubluq" şəkilçisinin ada sonradan əlavə edildiyini düşünürük.

**Turub.** Etnooykonimə ilk dəfə 1724-cü ilin məlumatlarında Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində o dövrün siyahısında Qoçubəy və Birək kəndləri arasında rast gəlirik (77, s. 59-60). Ad 1727-ci ildə, üç ildən sonra yenə də Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində "Turtun" yazılışında qeydə alınır (110, s. 36). Tur tayfa adından etnooykonimə çevrilən bu coğrafi ada qoşulan "ub" komponenti, eləcə də ikinci yazılışdakı "tun" tərkibi qədim türk dilləri ilə izah olunur. Birinci "ub" komponenti qədim türk dillərində "son" və "xırdalanmaq", eləcə də "gənc" mənalarında (37, s. 619; 64, I c., s. 561) işlənmişdir. Biz b≈m fonetik səs əvəzlənməsi ilə "um" söz kökünün "ummaq" feli, "uma" yazılışında isə Tibet dilində "ana" və "qonaq" mənalarında rast gəlirik (42, I c., s. 92, 169; 37, s. 611). Morfem b≈v, u≈o, u≈e fonetik paralellikləri ilə "ov"-"od" (260, s. 299), "ev" mənalarında da işlənmişdir (39, s. 228-229).

Qədim türk dili lüğətində "tun" sözü omonim kimi "ilk", "birinci" eləcə də "sakit", (könül tun boldi), "tün" yazılışında isə "qaranlıq, zülmət" mənalarında yazılı abidələrimizə daxil edilmişdir (37, s. 586, 596). Bu etimoloji izahların hər iki variantında Turub etnooykonimi "Tur evi", "Gənc turlar", "İlk turlar" mənalarında izah olunur. Biz adın "Turların evi" mənasına üstünlük veririk.

**Tərətum.** Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində o dövrün siyahısında Ağkilisə və Ağcavəng kəndləri arasında rast gəlinən bu etnooykonim ilk dəfə 1727-ci ilin məlumatlarında qeydə alınır (110, s. 35). Tərkib etibarı ilə bu adın "at" fərqini Tər+at+um istisna etməklə onun Turub adı ilə eyni mənanı daşıması qənaətindəyik. Burada "at" komponentinin həm "yer" (64, I c., s. 284), həm də "at jol" yazılışında "şöhrət" mənalarında qədim türk dillərində işlənməsini (37, s. 65) nəzərə alsaq ad "Şöhrətli tur evi" mənasında açıqlanır.

**Turkavil.** Qədim Naxçıvan sancağının Qarabağ nahiyəsində Qıvraq kəndi və Sənkam qışlağı arasında qeydə alınan bu kənd 1727-ci

ilə aid sənədlərdə əhalisi azərbaycanlılardan ibarət olmaqla bir adı da "Tuqavil" kimi göstərilir (110, s. 29). 1727-ci ilə aid sənədlərdə 16 məntəqə adı qeydə alındığı halda, 1590-cı ilə aid sənədlərdə bu nahiyədə cəmi 8 məntəqə adı qeydə alınır ki, (77, s. 166) buradakı digər adlar başqa nahiyələrin də tərkibində göstərilməmişdir. Bu isə 1590-cı il siyahıya alınmanın yarımçıq aparıldığını göstərir. Elmi cəhətdən maraqlı quruluşa malik olan bu adın Tur+kab+il şəklində "Tur ölkəsinin yurdu" mənasında olduğunu düşünürük. Biz qədim yazılı abidələrimizdə kab/kav- "ölkə", "yüksək" mənalarında geniş təhlil edildiyini müşahidə edirik (44, III c., s. 217; 160, s. 45-47). O zaman "il" komponentini "yurd", "vətən" mənasında qəbul etsək (bax, türklərdə il, ilçə) etnooykonim "Uca Tur yurdu" mənasında açıqlanır.

**Tərli.** Naxçıvan ərazisi tərkibində olan Sürməli nahiyəsinin Sürməli kəndi yaxınlığında 1727-ci ilə aid arxiv sənədlərində qeydə alınan və əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olan bu məntəqə (77, s. 65) adı Tur tayfasının adından və "il"- "bolgə", "yurd", "mahal" mənalarını daşıyan qədim türk dili elementi ilə etnooykonimə çevrilmişdir. Fikrimizcə burada ı=i səs və hərflərin yerdəyişməsi-metateza (vağzal-vazğal, İbrahim-İrbahım və s. kimi) hadisəsi baş vermiş, Təril yazılışında olan bu ad Tərli şəklində qaynaqlarda qeydə alınmışdır. Etnooykonim "Tur bölgəsi" və ya "Tur mahalı" mənasında açıqlanır.

**Tir.** 1728-ci ilin məlumatlarında təsadüf edilən bu məntəqə adı Naxçıvan qəzasına daxil olan Maku nahiyəsində siyahıda bir adı da "Dir" olmaqla Hacı Ustad və Bağçacıq kəndləri arasında göstərilmişdir (77, s. 42). Məntəqə adı başqa coğrafi nomen-ad göstəricisi olmadan birbaşa tayfa adından yaranmışdır.

**Ternevit.** 1727-ci ilə aid arxiv sənədlərində qədim Naxçıvan ərazisi tərkibində olan Sürməli nahiyəsində qədim Kol türklərinin adını daşıyan Qulp və Qatıruçan kəndləri arasında, əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərilən bu etnooykonim (77, s. 63) yuxarıda adları keçən Turub, Tərətum kəndləri ilə bərabər 1590-cı ilin siyahıya alınma prosesində unudulmuş, siyahıdan kənarda qalmaqla o dövr məlumatlarda adları çəkilməmişdir. Etnooykonim Tur tayfa adı, "ne/ni" yazılışlarında "verdi", "mükafatlandırdı" (208), eləcə də "vit/bat"- "ölkə, yurd" sözlərindən formalaşmaqla "Turlara bəxş olunmuş yurd" mənasında açıqlanır.

**Comaqtur.** Bu məntəqə adına 1590-cı ilin məlumatlarında siyahıda Naxçıvan qəzasına daxil olan Şərur nahiyəsində, bu gün də fəaliyyətdə olan Kiçik Qarqın (Qarxun) və Oğulşalı kəndləri arasında rast gəlirik (77, s. 168). Daha sonra ada iki kənd olmaqla Yuxarı və Aşağı Comaqtur kimi Maxta və Maqsudlu kəndləri arasında rast gəlirik. Son dərəcə maraqlı semantik quruluşa malik olan bu adın yaranmasında əski inanclarımızla bağlı Com/qam- şaman sözünün olduğunu düşünürük. Biz qədim sözlüklərimizdə "com" tərkibinin "suya baş vurmaq", "batmaq" (37, s.153), eləcə də altay, uyğur, çuvaş, tuvin, başqırd və b. dillərdə bu tərkibə "yemək", "müzakirə etmək", "nəfəs almaq", "yem" mənalarında təsadüf edirik (64, I c., s. 334). Bu sözlərin hər hansı biri ilə adın formalaşması mümkün deyil. Biz türk qam-şaman bilicilərinin siyasi hadisələrdə iştirakına, onlara müdaxiləsinə, bəzən şahların siyasətlərinə belə təsir etdiklərinə xeyli sayda mənbələrdə rast gəlirik. Türkün tarixində ucalıqla bağlı qam-şaman görüşlərinin ayin və düşüncələrinin geniş təhlilinə M. Seyidovun, türk araşdırıcısı Abdulkadr İnanın və digərlərinin əsərlərində də rast gəlirik (261, s. 291-293; 497, s. 26. 33-34). Bu baxımdan qam-şamanla bağlı adların oykonimik adlarda mövcudluğu danılmazdır. Comaqtur məntəqə adındakı "aq"-"uca" qədim türk sözü də daha çox ucalıq, tanrı mifi ilə bağlı işlənmişdir. Biz qədim türklərdə "akaş kökdəki tanqrilər" yəni "uca göylərdəki tanrılar" (393, s. 83; 37, s. 31), yəni "akasti" sözündə "Günəş və Ay allahlarının dayandığı ucalıq" ifadələrində də "uca" sözünün Tanrı ilə bağlılığını görürük. Türklərin antroponimik mifik adlar sistemində Harbak-"uca Harbe" elam və kaslarda Harve, Harbe tanrı adları, Ak Baş kimi adlar (349, s. 134; 235, s. 383) ucalığın izləri idi. Etnooykonim "uca Tur şamanı" mənasında mifik inanc və tayfa adından formalaşmışdır.

**Cantarlar.** 1590-cı ilə aid sənədlərdə Qədim Naxçıvan ərazisi tərkibində olan Karni nahiyəsində əhalisi azərbaycanlılardan ibarət olan Yolkəsən və o dövr xarabalıq olmaqla insan yaşamayan, torpaqlarından azərbaycanlılar istifadə edən Azərbaycan kəndləri olmuş Əhmədqulu, Xəlifəqulu və Eyvani kəndləri (məzrəələri) arasında, göstərilir (77, s. 163). Ad Santar- "Şanlı Tur" mənasında, San+tur tərkibində olmaqla qədim etnooykonimdir. Burada söz kökünə qoşulan -lar şəkilçisi şübhəsiz ada sonrakı dövrlərdə əlavə edilmişdir.

**Durmuş.** Təbii ki, "durmaq" feli ilə heç bir əlaqəsi olmayan bu

məntəqə adı Tur+muz şəklində qədim türk sözü və tayfa adından etno-oykonim kimi formalaşmışdır. Biz adda m≈b, a≈u, səslərinin əvəzlənmə hadisəsini müşahidə edirik. Bu halda "muş" tərkibi "baş" mənasında işlənir. Tur tayfa adı və qədim şumerlərdən, qədim türklərə qədər "muş=buş=baş" kimi morfemlərlə işlənən (37, s. 334) bu məntəqə adı "Baş Tur" mənasında açıqlanır. Ada ilk dəfə 1733-cü ilin məlumatlarında o dövr Naxçıvan qəzası daxilində olan Iğdır nahiyəsində əhalisi Şahablı camaatından olan Azərbaycan kəndi kimi Qaracarlı kəndi yaxınlığında rast gəlirik (77, s. 67).

**Qoturlu.** Məntəqə adının "qotur" xəstəliyi ilə heç bir əlaqəsi olmadığını, məntəqə adının ilkin variantda "Kutur" yazılışında olması qənaətindəyik. Etnooykonim "ku"-"şan, şöhrət" (64, I c., s. 607; 37, s. 322) və Tur tayfa adından yaranmaqla "Şöhrətli Tur" mənasını daşımış, təhrif olunmaqla "Qoturlu" şəklinə düşmüş, -lı "mənsubluq", "məxsusluq" ifadə edən şəkilçi (şəhərli qonaq, adamlı küçə və s. ) sözə sonralar artırılmışdır. Ada 1733-cü ilə aid siyahılarda Naxçıvan qəzasına daxil olan Aralıq nahiyəsində əhalisi Şeyikli camaatından ibarət olan Azərbaycan kəndi kimi Əmincə və Dərzili kəndləri arasında təsadüf edirik (77, s. 67).

**Abudərda.** Məntəqə adına ilk dəfə 1590-cı ildə, Naxçıvan qəzasına daxil olan Aralıq nahiyəsində Bəyzaman və İsmayılbəyli kəndləri arasında rast gəlirik (77, s. 178). Adın əvvəlində a≈u, o≈ə səsəvəzlənmələri ilə müşahidə olunan məntəqə adı heç şübhəsiz Aba+Dor+da yazılışında olmuşdur. Mənbədə adın anlaşılmadığı vurğulanır. Biz ada qoşulan ilk "aba" leksik vahidi qədim şumerlərdə, həm də qədim türk dillərində "əcdad", "ata", "qoca", "ulu" mənalarında işləndiyini görürük. Sondakı "da" leksik vahidi isə, qədim türklərdə "yaxşı" mənasını daşımışdır (208, s. 53, 82). Bunlar nəzərə alınmaqla məntəqə adı "Ulu yaxşı Tur" mənasını daşımışdır.

Yuxarıda istinad olunan Herodot, Strabon, Tit Livi kimi antik müəlliflərin və digər mənbə məlumatlarının ümumi nəticəsi Tur-Turdi boylarının böyük güc olduqlarını onların hələ e.ə. VI minilliklərdən tarix səhnəsində tarixi proseslərə qoşulduqlarını və az qala bütün Avropa və Asiyada hadisələrə nəzarət etdiklərini sübut edir. Əgər bu ərazilərin coğrafi ad göstəricilərinə diqqət etsək hələ e.ə. IV minillikdə Finikiyada Tir şəhəri, Egey dənizində Tira liman şəhəri, e.ə. VI əsrdə Dnestr sahilində Tir liman şəhəri, Alp ətəklərində Tiral şəhəri, Aralıq dənizinin

bir hissəsinin son dövrlərə qədər Tirren dənizi adlanması və bütün bunların mənşəyi "məlum olmayan" (tərəfimizdən seçilib, -F.R.) Tirren-Turan tayfaları tərəfindən yaradılması tarixi faktlardır. Bura Ukraynada Tor şəhər (XI Yekatrina dövründə Slavyanski adlandırılmışdır-F.R.), Rusiyada Torki şəhər (1917-ci ildə Trakiy adlandırılmışdır-F.R.), adlarını, Amu-dərya adının əzəlki adı Transoksiana adını, Fransada Tur şəhər, Turen əyalət adlarını, Qərbi Sibirdə Tura çay adı və Evenk Muxtar vilayətinin paytaxt şəhəri Tura adını, Orta Asiya və Qazaxıstanda Turan düzənliyi adını, Sverdlovski əyalətində XVI əsrə qədər mövcud olmuş Turin şəhər adını və s. əlavə etsək Tur-Turdi boylarının yayım arealı və təsir dairəsi göz önündədir (527;).

## 13. PAL-PALA TÜRKLƏRİ

Azərbaycan xalqının eləcə də Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi iştirakı olmuş, e.ə. III minillikdə tarixi qaynaqlarda adı keçən qədim prototürk-Azərbaycan boylarından olan Pal-Pala türklərinin istər tarixi, dili, istərsə də təşəkkülümüzdəki yeri alimlərimiz tərəfindən tədqiq olunmamış, onların kimliyi tədqiqat obyektinə çevrilməmişdir. Bu başlıqda tərəfimizdən ilk dəfə olaraq aparılan araşdırmaların elmi nəticələri əski dilimizin keçdiyi təkamül yolunun və prototürk etnoslarının tarixini izləmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək istərdik ki, toponimik adlar üzərində araşdırma aparan tədqiqatçı alimlərimizin heç biri Pal tayfaları haqqında hər hansı bir mövzuya toxunmamış, nəinki Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvanda, eləcə də ümumtürk arealında belə bu tayfaların hansı soydan gəldikləri, bir prototürk-Azərbaycan tayfaları olub-olmadığı qaynaqlara istinadən öyrənilməmişdir. Yalnız Doğu Anadoluda Pal adlı tayfaların olması və onların dil məsələsinə görkəmli tarixçimiz Y.Yusifov qısaca nəzər salmış, onların mənşəyi və türklərə bənzəməsi haqqında fikir söyləmişdir. Biz bu haqda aşağıda ətraflı danışacağıq. Ümumiyyətlə palların ərazilərimizdə yaratdıqları yer adları, bu etnos adlarından yaranmış etnooykonimlərin sistemli şəkildə linqvistik tədqiqi, mövzunun bir obyekt olaraq araşdırılması indiyədək tədqiqatlardan kənarda qalmışdır. Fikrimizcə müstəqilliyimiz dövründə bu tayfaların mənşəyinin, yayım arealının, tarix səhnəsinə çıxma dövrünün, tarixi keçmişimizin, eləcə də o dövr dilimizin yer adlarındakı izlərinin mənbələr əsasında öyrənilməsi

bu gün də aktuallığını itirməmişdir. Bütün bunları nəzərə alaraq Pal tayfalarının mənbələrdəki izləri tərəfimizdən məlumatların həcmi qədər təhlil olunmuş, dil və tarix yönlü müqayisələrlə bu tayfaların etnogenezimizdəki rolu mənbələr həcmində aydınlaşdırılmışdır. Bundan başqa onlarla bağlı etnooykonimlərin etimoloji yöndən izahları verilmiş, tarixi proseslərdə iştirakı və hansı dili qrupuna aidliyi elmi yönlü müqayisələrlə tədqiq edilmişdir. Fikrimizin təsdiqi üçün ilkin olaraq Pal boylarının coğrafi adlarda yayım arealına diqqət yetirməyi lazım bilirik

Doğu Anadolu torpaqlarında biz Palu, Palamut, Palateli, Pülümür, Pul, Bala, Balya, Balıkesir, Bolu, Bulancak və Bilecik kimi onlarla rayon, əyalət və qəsəbə adları ilə qarşılaşırıq (521, s. 41, 86, 93, 100-103). Buradakı Palu, Pul, Bala, Bolu kimi adlar b≈p, a≈u, o≈u kimi türk dili üçün xarakterik fonetik səs dəyişikliyi olmaqla (266, s. 40-41) birbaşa Pal-Pala türklərinin adını bildirir. Qalan məntəqə adlarındakı "mut/bat"-"yurd", "ölkə" (284, s. 94), "müri/böri"-"qurd" (486, s. 37; 260, s. 164), "çuq/çauq"- "qala", "at"-"yer, məkan" (64, I c., s. 284) və bu adlardakı -an-"mənsubluq", -at omonim olaraq həm də "cəmlik" ifadə edən (243, s. 221) prototürk dili vahidləri olmaqla sözləri Palamut-"Pal yurdu", Pülümür-"Qurd pallar", Bulancak-"palların qalası" və s. mənalarda açıqlayır (adların etimoloji izahları tərəfimizdən ilk dəfə olaraq verilir -F.R.). Əski dil elementləri oykonimlərin canlı bir ismə, şəxsə, birbaşa tayfa adına mənsubluğunu ifadə edir və bu adların tayfa adlı etnooykonimlər olduğunu təsdiq edir.

Pal tayfalarının Şimal və Cənub Azərbaycan ərazilərində yayımı Palıkəş, Pəlikeş, Pulut, Pulvar, Balbau, Biləsuvar, Balakən, Balan, Balik, Bulutan kimi məntəqə adları ilə sübut olunur (35, s. 15-16, 80; 510, s. 167; 358, s. 468). Bununla bərabər bu adlarda Pal tayfa adı ilə yanaşı "tan"-"tən" "bənzər", "ba/pi"–"bəy", "koş"- "köç yeri" (48, s. 277; 208, s. 56; 242, s. 32-41) kimi əski türk dili leksik vahidləri işlənmişdir. Adlara qoşulan "kan/qan/xan/kın"əski türk dili elementi isə, coğrafi nomen-ad göstəricisi kimi areal türk onomastik adlar sistemində Kadır+kan, Beylə+qan, Mağı Kur+ğan, Ötü+kən, Arda+han, Həştər+xan Bala+kən, Beyləqan, Kadırkan, Tarkan kimi adlarda "yurd" və omonim kimi "qala" mənalarını daşımışdır (235, s. 387; 35, s. 15; 103, s. 26-27). Bu isə palların bir tayfa olduğuna bir dil faktoru kimi elmi sübutdur. Bu elementlərin ümumtürk arealında yüzlərlə adda

təkrarı da Pal türklərinin dilinin qədim türk-proto Azərbaycan dili olduğuna yetərli sübut sayıla bilər. Yeri gəlmişkən qeyd edək ki kan- "məkan, yer" ifadəsi son dövrlər tarix yaratmağa cəhd edən erməni dilinə Leninakan, Axperakan şəklində türk dillərindən adlamışdır.

Bütöv Azərbaycanımızdan zorla qoparılaraq Gürcüstana verilmiş ərazilərimizdə də biz Pal tayfalarının izlərini görürük. Hazırkı ərazimizi Gürcüstandan ayıran Bali sıra dağlar, eləcə də azərbaycanlılar yaşayan ərazilərdə 900 metr dəniz səviyyəsindən hündürlükdə yerləşən Paldo Bolnisi, Bale, Tkibuli, Paleostom kimi kənd, qəsəbə və göl adları (103, s. 52, 331; 117, s. 153, 230) palların qədim Azərbaycan torpaqlarında geniş yayıldığının, bu torpaqlarda avtoxton-yerli sakinlər olduğunun da coğrafi göstəriciləridir.

Biz hazırda yakut, qazax, türkmən, uyğur və digər türklərin yaşadığı ərazilərdə də Palana, Palanqa, Palax, Pelutay, Polazna, Palay (103 s. 22-23, 38-44) kimi yüzlərlə şəhər rayon, məntəqə adları ilə qarşılaşırıq ki, bunların hər biri Pal türk tayfa adı və əski türk dili elementləri ilə formalaşmışdır.

Bütün bu adlara diqqət etdikdə, Pal boylarının yaratdıqları coğrafi adların arealı onların ümumtürk tayfa birliyində as, hürri, kuti, lulubəy, türük, bulqar, naxər, koman, şu, şubar və s. boylarla e.ə. II minilliklərdə cənubdan şimala doğru axınlarının olduğunu da təsdiq edir. Bu adlara elmi, etimoloji baxımdan diqqət edən hər bir türkoloq alim şübhə etmədən, istər Azərbaycan və Naxçıvan, istərsə də ümumtürk arealında yayılmış bu coğrafi adları formalaşdıran söz köklərinin qədim türk dillərinə aidliyini və qaynaqlarda adı az da olsa çəkilən Pal tayfalarının bir prototürk boyları olduğunu təsdiq edər. Qeyd edək ki, Azərbaycanın və onu ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazisinin etnogenezində palların iştirakı adı çəkilən bu tayfa ittifaqının tərkibində mövcudluğu bir neçə tarixi aspektdən təsdiqlənməkdədir.

1. "Pal" sözünə qoşulan prototürk dil elementlərinin ümumtürk onomastik arealında, o cümlədən də toponimik sistemin adlanma üslubunda təkrarları;

2. As, hürri, kuti, lulubəy, türük, bulqar, naxər, koman, şu, şubar kimi prototürklərin dövrü ilə eyni yayım arealına təsadüf etməklə onların yayıldığı ərazilərdə qeydə alınması;

3. Qədim qaynaqlarda bu tayfaların dilindən yeni dillərin forma-

laşması və bu dillərin inkişafı məsələsinə təsiri, onların həm güclü, həm də ümumişlək dilə sahibliyinin tədqiqatlarda təsdiqi.

Bu kimi amillərin sayını artırmaq da mümkündür və biz bu istiqamətdə qaynaqlara və tədqiqatlara istinadən aşağıda ətraflı məlumat verəcəyik. Qeyd edək ki, yalnız 1590-1836-cı illərə dair sənədlərdəki Naxçıvan oykonimik sistemi üzərində apardığımız araşdırmalar bu tayfa adının "Pal", "Par", "Pul", "Bil" şəkillərində sənədlərə b≈p, a≈u, o≈u fonetik səs əvəzlənmələri ilə düşdüyünü göstərir. Ümumiyyətlə istər palların yayım əraziləri, tarixi, istər onların ittifaqda olduqları tayfa və etnoslar, istərsə də dil elementləri əsasən türk dili, tarixi və ərazisi baxımından əski türk tayfalarını tarixi, ərazisi və dili ilə eynilik təşkil etməkdədir ki, bu da palların onlarla bərabər qədim Naxçıvarı torpaqlarında məskun olmalarını tamamilə təsdiq edir.

Bu baxımdan coğrafi adlar üzərində apardığımız araşdırmalar zamanı onları formalaşdıran dil elementlərinin mənşəyinə və hansı dil qrupuna aidliyinə də üstünlük verilmiş, hansı dövrün adlar sistemində nominasiyaya xidmət etdiyi müəyyənləşdirilmişdir. Fikrimizin təsdiqi üçün Pal türklərinin-protoazərbaycanlıların ilk öncə qaynaqlardakı izlərinə diqqət etməyi elmi və tarixi baxımdan əhəmiyyətli olduğunu düşünürük.

Tarixi qaynaqlara "Kiçik Asiya" adı ilə düşən Doğu Anadolu ərazilərində e.ə. III minilliyin sonu II minilliyin əvvəllərində Pal tayfaları və Pala dili mövcud olmuşdur. Qaynaqlar Luvi və Hett dillərinin Pala dilinin parçalanmasından meydana gəlməsi fikrini elmi cəhətdən təsdiq edir (271, s. 230). Bu məlumat və tarixi faktlar Pal/Palay tayfalarının Hett dövlətinin yarandığı tarixdən də əvvəl Naxçıvan-Naxər ölkəsində məskun olduğunu təsdiq edir. Bununla bərabər Pal prototürk dilinin parçalanması və buradan Luvi Hett dilinin yaranması məlumatı isə qədim prototürk-Azərbaycan dilindən bir qrup dillərin də formalaşdığına tarixi işarədir.

Biz Hett dilində olan şəxs, toponimik ad və ifadələrə diqqət etdikdə burada Hind –Avropa dilindən daha çox Türk leksikasına uyğunluq görürük. Hett dilində "tuli"-"yığıncaq" sözünün qədim türk dillərində "qatılmaq", "tilləmək" (üst-üstə tilləmək) fellərində təkrarı və sözlüklərdə "toplu", "bolluq", "topluluq", (42, I c., s. 42, 166-167; 43, II c., s. 23) mənalarında işlənməsi, "saxxan"-"günahkar" sözünün

dilimizdə "saxlanmış" felində də qalması (120, I c., s. 376), saylarda 1000 rəqəminin "min" ifadəsiylə olduğu kimi də yazılışı (yenə orada, s. 371-374) və s. yüzlərlə bu kimi göstəricilər təsadüf ola bilməz. Bundan başqa Xatus şəhər adında Het tayfa adına qoşulan qədim as/us/is yazılışlı türk sözünün "zəka", "ağıl" "müdrik" mənalarında (64, I c., s. 607; 355, s. 13, 228 c.) eyni forma və yazılışda Subar+us, Tal+us kimi türk tayfa adlarında, Xonax+is, Anaxars+is kimi skif çar və şəxs adlarında da (208, s. 141) təkrarı, qrammatik forma və leksik morfemlərin nominasiya-adlanma sistemindəki eynilik və s. bu kimi dil faktorlarının təzahürləri də bu dildə türk dilinin daha çox üstünlük təşkil etdiyini sübut edir (-F.R.).

Pal-Palay tayfaları e.ə. II minilliyin əvvəllərində birlik kimi mövcud idilər. Palların hələ e.ə. IV minillikdə fəaliyyətdə olması da qaynaqlarda dolayısı ilə öz əksini tapır. Mənbələr Azərbaycan türkləri olan Kərkük türkmənlərinin (Bağdad, Bəsrə, Mosul və b. bu kimi ərazilər qədim Azərbaycan torpaqları idi -F.R.) ərazisində Karim şəhər ərazisindən tapılan əşyaların onların uluları Paleqaurlardan qaldığını ehtimal edir (120, I c., s. 125). "Paleqaur" sözünün özü də etimoloji baxımdan maraqlı kökə malikdir. Əgər N.A.Baskakovun "başqırd sözünə verdiyi etimoloji izahı xatırlasaq (302, s. 13-18), o zaman ad Pal+ oqur "pal oğuzlar" və ya Pal+Kiur şəklində kaslardakı Kiur tanrı adından formalaşması görünməkdədir. Bu isə Pal və Kas boylarının eyni inanca sahibliyini təsdiq edir (-F.R.). Fikrimizcə, burada heç bir zahiri oxşarlıq ola bilməz və bu ümumtürk inancının tarixi faktıdır.

Pal boylarının adına fonetik dəyişikliklə e.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində biz Orxan-Yenisey yazılarında VII əsrin əvvəllərinə aid Şine-Uşu kitabəsində Buluk tayfalarının adında rast gəlirik. Ə.Quliyev bu adın "buluk" şəklində yazılsa da "Bulak" kimi oxunduğunu, onların doqquz oğuz boyları və qırğızlarla bir ittifaqda olduğunu qeyd edir (212, s. 83-84). Əgər diqqət etsək qədim türk dillərində "uk" tərkibi "oğul, varis" kimi işlənirdi (208, s. 143). Şumer və elamlarda isə "ikə" sözünə (özbəklərdə əkə-böyük qardaş - F.R.) "qardaş" mənasında rast gəlirik (210, s. 55-57).

Bütün bu göstərilən tarixi faktların bir qədər azlıq təşkil etməklə bərabər "Ümumdünya tarixi", "Şərq tarixi" kitablarında yer alması, Y.Yusifov, İ.A.Jukovskaya, İ.M.Dyakonov, N.A.Baskakov kimilərin

tədqiqatlarında ötəri də olsa qeyd edilməsi Palların bir prototürk boyu olmasını, dillərinin isə türklərə məxsusluğunu bir daha təsdiq edir. Bu amillərə və tarixi faktlara istinadən məntəqə adlarının da ümumən etnoslar tərəfindən yaradılmasına nəzərə alaraq biz qədim Naxçıvan ərazisində də "Pal" tayfalarının aborigen-yerli xalqlar olduğunu söyləmək istərdik. Bunun üçün əzəli və müasir Naxçıvan torpaqlarında palların yaratdığı məntəqə adlarının etimoloji mənalarına diqqət edək.

Onu da qeyd edək ki, qaynaq məlumatları və arxiv sənədləri 1590-cı il tarixdən günümüzədək Azərbaycanın tərkib hissəsi olan qədim Naxçıvan ərazisində müxtəlif səs əvəzlənmələrlə Pal tayfalarının adını özündə qoruyan 17 məntəqə adını bizə təqdim edir.

**Palaçı**. Bu məntəqə adına 1728-ci ilə aid arxiv sənədlərində Naxçıvan sancağına daxil olan Qarabağ nahiyəsində Qarabağ və İznəberd kəndləri arasında rast gəlirik (110, s. 29). Burada Pal tayfa adına qoşulan "aç/as" tərkibi yuxarıda qeyd etdiyimiz kimi qədim türk dillərində, "zəka", "ağıl" "müdrik" "güclü", "qüvvətli" mənalarında işlənir (355, s. 13), Orxon-Yenisey yazılarında isə ayrıca tayfa adı kimi göstərilmişdir (212, s. 79; 235, s. 345). Fikrimizcə etnooykonim "Müdrik pallar" mənasını daşıyır və brada komponentin "açı" şəklinə düşməsi sonrakı tarixi proseslərə aiddir.

**Bulqan.** 1590-cı ilə aid o dövr Naxçıvan qəzasına daxil olan Naxçıvan nahiyəsində, əhalisi azərbaycanlılardan ibarət olmaqla Qaraçuq və Yollu kəndləri arasında Bulğan yazılışında qeydə alınır (77, s. 164). Sonralar bu məntəqə adına 1724-cü ilə aid arxiv sənədlərində Naxçıvan qəzasında Qarabağ nahiyəsində, Qaraçuq kənd yaxınlığında (77, s. 144), daha sonra isə 1727-ci ilə aid arxiv sənədlərində yenə də Naxçıvan sancağına daxil olan Qarabağ nahiyəsinin Qaraçuq kənd yaxınlığında rast gəlirik (110, s. 29). Yuxarıda da qeyd etdiyimiz kimi tayfa adına qoşulan "qan/kan/xan" komponenti türk dillərində "məkan", "yer" bildirir. Tərkib həm də omonim kimi "qun" yazılışında "knyaz", "başçı" mənaları ifadə etmişdir (355, s. 13). Bu məntəqə adı "Pal yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Biləv.** Maraqlı leksik mənaya malik olan məntəqə adı 1590-cı ilə aid sənədlərdə Naxçıvan qəzasının Azadciran nahiyəsində başqa adı Ağacanlı olmaqla qeydə alınmışdır (77, s. 179). Məntəqə sənəddə əhalisi azərbaycanlılardan ibarət olmaqla Gebran və Xanəgah kəndləri

arasında göstərilmişdir. Daha sonra 1728-ci ilə aid arxiv sənədlərinin məlumatlarında o zaman yenə də Naxçıvan sancağına daxil olan Azadcirən nahiyəsində qədim türk asların adını daşıyan Ustupu və Bəhrud kəndləri arasında qeydə alınır (110, s. 31). Qənaətimizə görə məntəqə adları sadəcə sıralandıqlarına görə qeydiyyata uyğun müxtəlif variantlarda ayrı-ayrı kəndlər arasında göstərilmişdir. "Palların evi" mənasında olan bu etnooykonimdə yalnız b≈p, i≈a fonetik hadisəsi müşahidə edilir.

**Pul** (2 kənd). Eyniadlı məntəqə həm Sisyan, Həm də Dərəşahbuz nahiyələrində müxtəlif tarixlərdə qeydə alınır. Bu addakı məntəqə adlarının hər ikisi 1590-cı il ilkin tarixi sənədlərdə siyahıya alınmamışdır. Biz adın birinə ilk dəfə qədim Naxçıvan qəzasının Dərəşahbuz nahiyəsində 1590-cı ilə aid sənədlərdə Zoq və Məralıq kəndləri arasında rast gəlirik (77, s. 167). İkinci eyni tərkibdə ada biz 1724-cü ildə "İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan qəzasının Sisyan nahiyəsində (yenə orada, s. 151), 1727-ci ildə isə, yenə də Naxçıvan sancağının Sisyan nahiyəsində əski Sak türklərinin adını daşıyan Sənkar və Hürrü boylarının adını yaşadan Horenduz kəndləri arasında təsadüf edirik (110, s. 33). Etnooykonimlər heç bir coğrafi nomen-ad göstəricisi və əlavə söz olmadan birbaşa tayfa adından yaranmışlar.

**Palu.** Qədim Naxçıvan ərazisi tərkibində olan İrəvan qəzasının Karbi nahiyəsində 1590-cı ilə aid sənədlərdə göstərilir. Sənəddə məntəqə əhalisi azərbaycanlılardan ibarət olmaqla Xəzaviz və Xockəri kəndləri arasında qeydə alınır (77, s. 163). Sonrakı 1727, 1800-cü illərin məlumatlarında ada təsadüf edilmir. Onun tarixi proseslərdə dağıdıldığını və ya köçürüldüyünü ehtimal etmək olar. Etnooykonim tayfa adı və qədim türklərdə ayrıca olaraq -u hərfi ilə "dözümlü", "qüdrətli" mənasında (37, s. 603) işlənən morfemdən formalaşaraq "Qüdrətli pallar" mənasında açıqlanır.

**Arpalı.** 1590-cı ildə qədim Naxçıvan qəzasının Ağcaqala nahiyəsində əhalisi azərbaycanlılardan ibarət olan Ağcaqala və Qarabağ kəndləri arasında qeyd olunur (77, s. 168). Daha sonra heç bir mənbə bu kənd haqqında məlumat vermir və bu nahiyə adına rast gəlinmir. Məntəqə adı türk tayfa adlarının saklarda Ar+sak, Avar hunlarda Ar+suk (508, s. 91) digər türk boylarında Xəz+ər, Sub+ər, Kəng+ər Dög+ər, adlanma –nominasiya adətlərinə uyğun Ər+pal+ı formasında "Pal əri" mənasında etnooykonimə çevrilmişdir. Fikrimizcə söz fitonim-bitki adı

kimi təhrif olunarkən tayfa adı itmiş, "Arpa" bitki adı-fitonim və -lı çoxluq bildirən şəkilçi ilə oykonim fitooykonimə sonralardan çevrilmişdir.

**Debil.** Məntəqə adı 1728-ci ilə aid sənədlərdə Naxçıvan ərazisi olmuş, Sultan xasslarına daxil olan Zərzəmin nahiyəsində əhalisi olmayan kənd kimi qeydə alınır. Məntəqə yenə də heç kimin yaşamadığı Çodar və Barıtlı kəndləri arasında göstərilir (77, s. 121). Onu da qeyd edək ki, bu siyahıya daxil olan 66 məntəqənin heç birində insan yaşamadığı və müfəssəl dəftərə düşmədiyi qeyd olunur. Məntəqə adı p≈b, a≈i səsəvəzlənmə hadisəsi ilə təhrif olunmuşdur. Pal tayfa adına qoşulan "de/te"omonim tərkibli söz qədim türk dillərində "danışmaq", "adlandırmaq" mənalarında rast gəlinir (37, s. 545). Bundan başqa tərkib həm də "du"- "yaxşı" sifəti və "di/ti"- "tikmək" felləri kimi də işlənir (208, s. 80-82). Pal tayfa adından yaranmış etnooykonim hər iki variantda qədim türk dili elementləri hesabına formalaşmışdır. Biz adı "Yaxşı Pal" və ya "Pallar tikən" mənalarında izah edirik.

**Polatcıq, Polatlı, Polad.** Müasir "polad" sözü ilə heç bir əlaqəsi olmayan bu adlar maraqlı leksik məna çalarına malik olan məntəqə adlarıdır. Burada a≈o, d≈t fonetik hadisəsi izlənilir. Biz Polatcıq adına qədim Naxçıvan qəzasının Tal türklərinin adını daşıyan Talin nahiyəsində 1590-cı ilə aid sənədlərdə rast gəlirik (77, s. 175). Carullah və Axtaxana kəndləri arasında yerləşən bu məntəqə adı Pal tayfa adı, "at"- "yer, məkan" "ünvan" bildirən komponentdən (42, I c., s. 78-79) etnooykonim kimi formalaşmaqla "Pal məkanı, yurdu" mənasındadır. Sözdəki "cıq/caq"tərkibi qədim türk dillərində "qala" mənası da daşımışdır. Əgər yadımıza salsaq bir çox yazılı dastan və məlumatlarda Əlincə qala adı Erın+cak, Erin+cik şəkillərində yazılırdı ki, burada çıq/çauq-"qala" mənasında idi. Fikrimizcə tayfa adının sonuna qoşulan "əzizləmə" mənalı -cıq şəkilçisi coğrafi adın sonrakı dövr təhrifi ilə bağlıdır. Polatcıq məntəqə adı ilə eyni kökə malik olan Polatlı adı Pal tayfa adından və -at komponentindən etnooykonimləşərək "Pal məkanı" mənasındadır və -lı mənsubluq ifadə edən şəkilçi son dövrə aid şəkilçidir. Ada qədim Naxçıvan qəzasının Aralıq nahiyəsində 1590-cı ilə aid sənədlərdə Şeyxicanlı və Sak türklərinin adını daşıyan Cəkni kəndləri arasında rast gəlirik (77, s. 178). Sonuncu Polad məntəqə adına Yenicəyi-Polad yazılışında Naxçıvan qəzasının Zar nahiyəsində 1590-cı ilə aid sənədlərdə Xuregid və Ağcakənd məntəqələri arasında rast gəlirik

(yenə orada, s. 180). Fikrimizcə, "Yenicəyi" komponenti Yengicə tərkibi ilə eyni kökdən olmaqla təhrif olunmuşdur və burada y≈s a≈e, i≈a fonetik hadisəsi müşahidə edilir. Sözün türk dilləri üçün xarakterik -nq qovuşuq samitləri ilə hunlardakı "rəhbər" mənalı "yanzi" komponenti ilə işləndiyini, məntəqə adının "Pal rəhbərini yurdu" və ya "Böyük Pal yurdu" mənası daşıdığını düşünürük.

**Kapali.** Məntəqə adı 1590-cı ilə aid sənədlərdə Naxçıvan qəzasının Ağcaqala nahiyəsində Bazarcıq və Aşağı Daşdıqbaba kəndləri arasında bir adı da "Qapalı" yazılışında göstərilir (77, s. 170). Pal etnos adı və "ka/ku"-"şöhrətli" komponenti ilə etnooykoim kimi formalaşan məntəqə adı "Şöhrətli Pal" mənasını daşıyır. Adın "qapalı, bağlı" sifətləri ilə heç bir əlaqəsi yoxdur və ad bu şəkildə yalnız təhrif olunmuşdur.

**Balbarani.** Bu məntəqə sənədlərdə 1590-cı ilə aid qeydiyyatla Naxçıvan qəzasının Abnik nahiyəsində Nurəli kəndi və Sərdar, Hacılar, Çarıqlı xarabalıqları arasında göstərilir (77, s. 177). İstənilən araşdırıcı ada diqqət edərsə onun Pal tayfa adı ilə yanaşı qədim türk mifik təfəkkürünü ifadə edən sözlərdən yarandığını qəti olaraq söyləyə bilər. Etnooykonimin tərkibindəki qədim türk böri- "qurd" mifini bildirən söz M.Seyidovun araşdırmalarında təhlil olunmuş, onun "Oğuznamə"nin Uyğur versiyasında göstərildiyi və mifik inancla bağlılığı elmi cəhətdən əsaslandırılmışdır (260, s. 164). Biz M.Kaşğaridə də bu sözün "qurd" anlamı ilə rastlaşırıq (42, I c., s. 36, 106; 43, II c., s. 93, 281; 44, III c., s. 219, 255). Bundan başqa hazırda Qazax, başqırd, qırğız, özbək, uyğur və b. türklərin də dilində "qurd" sözünün "böri, börü, büri, böra" yazılışlarına rast gəlirik (39, I c., s. 518-519). Tarixi məlumatlarda Çingiz xanın nəvəsinin adının Buri olduğu göstərilir. XII əsrdə oğuzlarda Qok Boru XIII əsrdə isə Xorasanda Burabaş kimi antroponim və toponimlə rastlaşırıq (97, s. 268). Adlar bu tərkibin qədim türk mifoloji inancından gəldiyini göstərir Bu coğrafi ada qoşulan "ni" qədim sözü morfem kimi türklərdə "verir" və "mənim" mənalarında omonim kimi işlənmişdir (208, s. 80). Bu tərkiblərlə etnooykonim "Qurd verən, bağışlayan Pal" mənasında açıqlanır.

**Balban.** Qədim dövr Naxçıvan qəzasının Maku nahiyəsində 1728-ci ilə aid sənədlərdə bir adı da Balaban olaraq qeydə alınan bu məntəqə adı (77, s. 42) Pal tayfa adından və türk dillərində geniş işlənən "ban"- "uca", "yüksək" kimi söz tərkibindən formalaşmaqla "Uca Pal" mənasındadır. Bu tərkibi araşdıran Ə.Dəmirçizadə "ban" və

"van" sözünü nədənsə erməni dilinə aid etmişdir (166, s. 21). Fikrimizcə bu nəşrdə yanlış olaraq verilmişdir. Çünki biz "Dədə Qorqud" kitabında "Altun başlı ban ev vergil", Banuçiçək kimi söz və ifadələrdə (19, s. 20, 63), eləcə də dialektlərimizdə "evin banında", "xoruz banı" deyimlərində sözün "uca" mənasında olduğunu görürük. M.Seyidov da "Alban" etnosunun adının izahında bu barədə ətraflı məlumat verir (260,, s.80-83). Bütün bunlarla bərabər biz qədim türk dili sözlüklərində bu tərkibin kumıq dilində "ban/pan" yazılışı ilə "yazı üçün lövhə", say olaraq "min" və "bağlamaq" feli kimi də işləndiyini görürük (37, s. 80-81). Nümunələri ümumiləşdirərək Balban etnooykoniminin "Uca Pal" mənasında olmasına üstünlük veririk.

**Tunbul.** Bu məntəqə adında türk dillərinə xas olan d≈t, a≈u b≈p fonetik səsəvəzlənmələrini olduğunu və sözün "dan/tan"-"düzən" (210, s. 19) və Pal tayfa adından təhrif olunduğunu düşünürük. Bu halda ad "Pal düzü" mənasında açıqlanır. Məntəqə adına 1590-cı ildə qədim Naxçıvan qəzasının Naxçıvan nahiyəsində Yəmxana və lulubəy tayfalarının adını daşıyan Yollu məntəqələri arasında rast gəlirik (77, s. 164). Məntəqə hazırda da mövcuddur.

**Bələk.** İlkin yazılışının Pal+ak şəklində formalaşması qənaətində olduğumuz bu məntəqə adının b≈p, ə≈a fonetik səsəvəzlənməsi hadisəsinə uğradığını düşünürük. Ada sənədlərdə 1590-cı ilə aid qeydiyyatla Naxçıvan qəzasının Sisyan nahiyəsində qədim As türklərinin adını daşıyan Kabas və Şələt kəndlərinə yaxın ərazidə rast gəlirik (77, s. 1827). Burada tayfa adına qoşulan "ak"-"uca" və "ucalmaq" feli haqqında biz digər adlardan bəhs edərkən də danışmış və onun "kiçik, balaca" mənalarından (168, s. 277), eləcə də qədim yazılı abidələrimizdə "yüksəlmək", "ucalmaq", "aşmaq", "ağmaq" mənalarında işləndiyini qeyd etdik (42 I c., s. 173; 260, s. 143; 19, s. 35, 117-118). Tərkib "Uca Pal" mənasında açıqlanır.

Tayfa adı haqqında qaynaqların məlumatı və etnooykonimlərə qoşulan yaziyaqədərki dövr "ka/ku"-"şöhrətli", "ak"-"uca", "dan/tan"-"düzən", "ban"- "uca", "yüksək", "ni"-"verir" və "mənim" , "böri"-"qurd", "yanzi- " "rəhbər", "at"- "yer, məkan, "cıq/caq"-"qala", "di/ti"-"tikmək" , "qun" -"knyaz", "başçı", "aç/as"- "zəka", "ağıl", "müdrik" kimi əski türk dili elementləri-morfemləri Pal tərkibinin bir tayfa adı olduğunu birmənalı təsdiq edir.

Bu morfemlərin e.ə. V-III minilliklərdə as, hürri, kuti, lulubəy,

kassi, türük, bulqar, naxər, koman, şu, şubar və s. prototürklərin ad sistemində, eləcə də Manna, Midiya, Atropatena dövlətlərinin çar, şəhər və s. adlarında təkrarı bu tayfaların Həm tarixini, həm də prototürklüyünü sübut edir. Naxçıvan ərazisi oykonomik sistemində bu leksik vahidlərin mövcudluğu isə Mesopotamiya və Naxşıvan mədəniyyətinin eləcə də etnogenetik əlaqələrinin adlardakı izləridir. Bütün bunlar Pal boylarının e.ə. III minillikdən Naxçıvan ərazisində məskun olduqlarını, əski Turdi, As, tayfalarının nəslindən gəldiyini sübut edir.

## 14. QƏDİM TUS TÜRK BOYLARI

Qədim Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi yeri olan tayfalardan biri də indiyədək bu ərazi ilə bağlılığı tədqiqata cəlb olunmamış Tus türk tayfaları olmuşdur. Onların həqiqətən bir protoazərbaycan türkləri olub-olmadığı ətraflı və sistemli şəkildə öyrənilmədiyindən, onlarla bağlı etnooykonimlər də təbii olaraq etimoloji yöndən araşdırmamışdır. Lakin qədim yazılı mənbələrin məlumatları, aparılan müqayisəli təhlillər, arxiv sənədləri bu qədim tayfalarımızın Azərbaycan və onun bir parçası olan Naxçıvan ərazilərində yaşadıqlarını təsdiq etməkdədir. Bu tayfa adının ümumtürk onomastik vahidlər sistemində çoxsaylı məntəqə adlarına öz adlarını verdiyini və bu izlərin günümüzədək coğrafi adlarda yaşadığını son yüzilliklərdə (XV-XX əsrlər) tərtib edilmiş müxtəlif xəritələr də təsdiqləyir.

Bir məsələni də xüsusi olaraq qeyd etməyi lazım bilirik ki, prototürk boyları olmaqla qədim tarixi qaynaqlarda adı çəkilən Tus türkləri mənbə məlumatlarında əsasən "tuski" kimi qeydə alınsa da, "tuski" "turş", "tirsen" yazılışlarında salnamə, coğrafiyaşünas və antik tarixçilərin əsərlərində, tədqiqatlarda eləcə də e.ə. minilliklərin qaynaq məlumatlarında qeydə alınmışdır. Bu tayfaların azərbaycanlıların, eləcə də Naxçıvan əhalisinin etnogenezi tarixindəki rolu nəinki günümüzədək tədqiqatçı alimlərimiz tərəfindən sistemli şəkildə araşdırılmamış, bu haqda ümumi məlumat belə verilməmişdir. Tərəfimizdən ilk dəfə olaraq bu tayfa adı ilə yaranmış toponimik adlarda qorunan dil elementləri, eləcə də mənbələrdəki Tus-etrusk sözlərinin bir qisminin türk dilləri ilə müqayisəli təhlillərinin elmi nəticəsinə istinadən onların əski bir prototürk olduqları, dillərinin isə türk dilinə aid olması qənaətindəyik. Tərəfimizdən aparılan tədqiqatda bu tayfaların mənşəyi, yayım arealı,

tarix səhnəsinə çıxma dövrü, protoazərbaycanlıların hansı tayfalarının bu qolundan gəlməsi məsələsi də qaynaqların verdiyi məlumatlar həcmində müəyyənləşdirilmişdir.

Bütün bunları nəzərə alaraq bu tayfaların dili, tarixi dövrü və məskunlaşdığı ərazilərə, qaynaq məlumatlarının eləcə də tədqiqat materialları və toponimik adların dil elementləri ilə qısaca nəzər salmaq istərdik.

Yunan tarixçisi Herodot Tus tayfa adını "Tirsen" kimi göstərməklə bu adın etrusklara aid olduğunu, lakin yunanlar tərəfindən belə adlandıqlarını, ərazi baxımından isə, Pelasq tayfalarından cənubda yaşadıqlarını qeyd edir. Bununla bərabər müəllif onların ayrıca Tirseniya adlı ölkələrinin olduğunu da yazmışdır (23 I, 57, 94, 166; VI 17). Bu adla bağlı izahda isə bu ərazinin etrusklara mənsubluğu göstərilmiş, sonra onların İtaliya ərazilərinə köç etdikləri bildirilməklə orada dillərini qoruduqları, mənşəcə Kiçik Asiyalı xalqlar olduqları vurğulanmışdır (23 II, 63, s. 505). Verilən məlumatlara baxmayaraq Tus boylarının və onların bir qolu olan Etrüsk (Etrusk) tayfalarının ərazidən elliklə, son nəfərədək köçləri heç bir mənbədə qeydə alınmır. Deməli bu köçlərdə müəyyən bir qol iştirakçı olmuşdur.

Digər bir məlumat, qədim Misir mənbələrinə aiddir. Salnamə xarakterli bu qaynaq da Tus boyları haqqında ilkin məlumat mənbəyi sayıla bilər. Burada e.ə. XVIII əsrin ikinci yarısında Misir fironu Merneptaxenin "dəniz xalqları" haqqındakı yazıları ilə qarşılaşırıq. Əs-Səbua vadisindən tapılan salnamədə fironun Liviya ilə bağladığı müqavilə haqqında məlumat verilmiş, və bu müqavilədə iştirakı olan digər tayfalarla bərabər Turş-Tus tayfalarının da adı çəkilməklə onların Kiçik Asiyanın cənub qərbində məskunlaşmış etrüsklər olduqları göstərilmişdir (529; 85, II c., s. 415-421).

Lakin biz II əsr K.Ptolemeyin yazılarında Azərbaycanda Kür sahili bir əyalətin Tosaren-Tusaran yəni "Tus ərlərinə məxsus" əyalət adı haqqında verilən məlumatla qarşılaşırıq (29, V, 12, 9). Bu isə Tus boylarının Azərbaycan, o cümlədən də Naxçıvan ərazilərində məskun olduqlarını sübut edir.

Biz "Ümumdünya tarixi"nin I cildində yenə də eyni məlumata rast gəlirik. Lakin, burada fikirlər təkrarlansa da fironun adı "Merenptaxe" şəklində fərqli yazılışla verilmiş, Etrüsk tayfaları isə Tus boylarının

varisləri kimi təqdim olunmuşdur (120, I c., s. 384).

Etrüsk tarixini geniş araşdıran A.İ.Nemirovski etruskların Kiçik Asiyadan köçərək mərkəzi İtaliyada, Etruri ölkəsində məskunlaşdıqlarını, yunanlarda Tirren adı ilə adlandıqlarını və Roma imperatoru Klavdinin "Etrusk tarixi" yazdığı haqqında gərəkli məlumatlar verir. Bundan sonra müəllif İtaliyada oxunması mümkün olmayan bütün yazıların Etrusk yazısı olduğunu vurğulamaqla onların qədim Toskan ölkəsinin sakinləri olduğunu da göstərmişdir (419, s. 47-51; 420, s. 3-5).

Başqa bir yazısında Toskan ölkəsinin şimal ərazisindən aşkarlanan arxeoloji mədəniyyət nümunələrini diqqətə çatdıran müəllif, bu maddi-mədəniyyət nümunələrinin e.ə. IX-VII əsrlərdə etrusklara aid olduğunu yazmaqla, etrusk qrafitlərinin Monteric və Venel nümunələri ilə eyniliyini göstərmişdir (418, s. 237-244).

Ümumən mənbə məlumatlarına əsasən etrusklar İtaliyaya köç etdikdən sonra xəritədə göstərilən ərazilərə nəzarət etmişlər ki, bu da onların ululları olan turdilərin, daha sonra isə tusların ilkin köç etdikləri ərazilərdir.




*Xəritə türk müəllifi A.Aydanın "Etrusklar türk mi idi" kitabından götürülmüşdür*

Etrusklar haqqında alimlərin araşdırmalarında əsasən "Şərq" və "Şimal" teoriyaları, yəni konsepsiyaları daha çox tədqiqat obyektinə çevrilmişdir ki, burada bir qrup alimin onların şərqli, bir qrupunun isə şimaldan gəlmə olması fikirləri müzakirə obyekti kimi önə çəkilmişdir.

XVIII əsrə qədər "Şərq" teoriyasına üstünlük verildiyini və bu konsepsiyanın doğruluğunu müdafiə edən, bəzən isə öz fikirlərini belə təkzib edən Q.V.Nosovski, A.T.Fomenko, V.Ç.Vorovskaya, S.Ferri, E.V.Belova, kimilərin tədqiqatlarında ümumi fikir belə olmuşdur ki, etruskların əcdadları olan Tus boyları e.ə. XV əsrlərdə Kiçik Asiyada məskunlaşmış, onların qolları olan etrusklar bu ərazilərdən sonralar, e.ə. VIII-VII əsrlərdə İtaliyaya köç edərək orada 300 ilə yaxın hakimiyyətdə olmuşlar. Etrusklərin mənşəyi və dili məsələsinə gəldikdə isə onların özlərini "Tusk-sabin-rasen" adlandırmaları, dillərinin latın dilinə və italyan dillərinə yad olması, slavyan dilinə uyğunluğu kimi mübahisəli məsələlər də müəlliflərin yazılarında xüsusi yer almışdır (90, I c., s. 437-440; 470, s. 237; 471, s. 21-27, 139-141; 479, s. 13-17).

Göstərilən məlumatlardan göründüyü kimi Tusların tarixi və etnik kimliyi haqqında araşdırıcıların fikirləri xeyli mübahisəlidir. Məsələ ondadır ki, burada ən çox üstünlük Etrüsk boylarının tədqiqinə istiqamətlənmişdir. Lakin, bu tədqiqatçıların məlumatına istinad etsək etruskların özlərini "tusk" adlandırmaları tuslarin onların ululları, Kiçik Asiya xalqları olması fikirləri ümumən araşdırmaların əsas məğzini əhatə etməklə, Tus boylarının qədim bir türk tayfası olmasını da təsdiq etmiş olur (-F.R.)

Şərq teoriyasını dəstəkləyən digər bir qrup V.Brandenşteyn, A.Çertkov, V.Modestov, Y.Burian, B.Mouxova kimi araşdırıcıların tədqiqatlarında da etruskların dili və mənşəyi məsələsi ayrıca tədqiqat obyektinə çevrilmişdir. Bu tədqiqatlarda etruskların Apenin yarımadasının əksər hissəsinə sahib olduqları, onların dillərində türkizmlərin çoxluğu, Mərkəzi Asiyadan Kiçik Asiyanın şimal şərqinə, daha sonra isə İtaliyaya köçmə tarixi prosesləri və bu yöndən olan digər məsələlərin elmi cəhətdən əsaslandırılması geniş yer almışdır (310, s. 14, 72; 122, IV c., s. 14, 71, 287-293).

Əgər diqqət etsək bu məlumat onların tarixini bir qədər də qabağa aparmaqla, mənşəcə tusların Orta Asiya xalqları olması fikrini də ortalığa çıxarır ki, ərazi bildiyimiz kimi tarixən türk tayfalarına

mənsub olmuşdur.

Tuslar və onların varisləri etrusklar haqqında bir sıra maraqlı və elmi cəhətdən əhəmiyyətli məlumatlara biz həmmüəllif olan S.P.Markiş, A.F.Losevin, M.L.Qasparova və V.Q.Boruxoviçin, yazılarında rast gəlirik. Burada Yunan tarixçisi Plutarxın yazılarına və antik yazılı qaynaqlara istinad edən müəlliflər İtaliyaya köçən etruskların Romada Tarkvinlər adı ilə çar sülaləsini yaratmaları və Etrusk dövlətinin cənubunda "Tarkvin" şəhərinin mövcudluğunu qeyd edirlər. Bu əsərlərdə həm də etrusk yazılarında həqiqətən "Tarxun" şəxs adına rast gəlinməsi də vurğulanmışdır. Əsərlərdə iki Tarkon çar adından da bəhs olunmaqla, etruskların özlərini həm də "Tarxun" adlandırdıqları, çar Atilla dövründə onların "Hun", "Xun" olduqları xüsusi vurğulanmışdır (449, s. 72, 163; 323, 301; 81, s. 45-57; 383, s. 42-44, 123). Məlumatlardan göründüyü kimi istər dil və mənşə, istərsə də ərazi baxımından Tusların varisləri olan etrusklar türk soyundan gəlməklə qədim türk dillərini də köçdükləri ərazidə qoruya bilmişlər.

Plutarxın yazdığı tarix kitabının I cildi qədim dövr tarixi haqqında xeyli faktlar verməklə yanaşı Tarkvinlər haqqında da söz açmaqla Tarkvin nəslindən olan Kollatinin çar tərəfindən qovulduğunu, Tarkvin Qordının Kum şəhərindən keçmişi əks etdirən kitablar alması haqqında da danışılır. Eyni zamanda ərazidə Arqun adası haqqında da (ər Hun – F.R.) məlumat verilir (27, I c., s. 191, 207, 311).

Etruskların dili məsələsində də fərqli fikirlər və mübahisələr mövcuddur. Etruskların e.ə. I minilliklərdə yaşadığını yazan J.N.Rober, V.V.Qeorqiyev, V.P.Neroznak, A.İ.Nemirovski, V.A.Çudinov kimi xeyli sayda araşdırıcılar öz yazılarında onların dilini het-luvi, dravid, slavyan, hind-avropa, hürri və urartu dillərinə aid etmişlər (443, s. 226-230; 480, s. 146).

Daha bir rus alimi A.Aleksey isə Tus və etruskların dili haqqında öz fikrini başqa cür ifadə etmişdir. O, A.Korneyevin fikirlərinə istinad edərək "...etrusk yazılarını araşdıranların gəldiyi yekun nəticədən bir şey daha kəskin olaraq aydınlaşdı ki, etrusk yazıları rus dilində oxunmur!!!", - deyərək fikrini qəti olaraq bildirir (530).

Şamil Minqazov öz araşdırmalarında Qərbi Avropa elmində etrusklara dair yazılardan misallar göstərmiş, bununla bərabər xeyli etrusk sözlərinin etrusk, rus, tatar dilində müqayisələrini verməklə, onların Asiyada yaşadıqları haqqında da məlumat vermiş, bu barədə deyilmiş

bir yazıya da diqqət etmişdir: "Tuscos Asia sibi vindicat" – "Asiya belə hesab edir ki, o tuskları doğmuşdur" (410, s. 53-61). Bizim üçün maraqlı olan Avropa mütəxəssislərinin etruskları sitatdan da göründüyü kimi "Tusk" adı ilə təqdim etmələridir.

Bu məlumatlarda maraqlı və elmi cəhətdən əhəmiyyətli məsələlərdən biri də həmişə etruskların tarixinin e.ə. I minilliyə, Tusların tarixinin isə e.ə. II minilliyin əvvəllərinə və əgər Orta Asiya variantı nəzərə alınarsa e.ə. III minilliyin II yarısına aid edilməsi məsələsidir. Bu halda etruskların tusların varisləri olması məsələsi öz təsdiqini tapmış olur. Onların dili məsələsinə gəldikdə isə, əsasən burada türkizmlərin bolluğu və onun digər dillərdə oxunmadığı məsələləri bu dilin prototürk dili olmasını söyləməyə əsas verir (-F.R.)

Tus tayfalarının tarixi və dili haqqında deyil, yalnız onların varisləri etruskların dili və tarixi haqqında yazılara türk və Azərbaycan alimlərinin də əsərlərində rast gəlirik.

Türkiyə dövlətində türkoloji araşdırmalarda ciddi elmi nəticələr əldə etmiş A.Caferoğlu da etruskların Aandoludan köçüb İtaliyada məskunlaşdıqlarını Etrusk və Lidiya dilində isim təsrifinin Altay dilləri ilə eyniliyini vurğulamışdır. Bundan başqa müəllif, qədim şumer, hürrü, sak (iskit), etrusk dillərinin və xalqlarının Altay, Ön və Orta Asiya xalqları və dilləri ilə eyni kökdən gəldiyini də xüsusi olaraq qeyd etmişdir (506, I c., s. 59-61). Digər bir türk tədqiqatçı alimi Adila Ayda istər dil, istərsə də adətləri və məişətləri baxımından etruskları türklər hesab etmiş, onlarda qam-şaman adətlərinin qaldığını yazmışdır (501, s.7-13).

Görkəmli türkoloq F.Ağasıoğlunun araşdırmalarında da Etrusk yazıları tədqiqata cəlb olunmuşdur. Müəllif 7 yazılı mətni araşdırmaqla onların türk dili variantlarını göstərmişdir. Bununla bərabər müəllif Herodot, K.Tasit, Annales, V.Brandenşteyn və digərlərinin etruskların tarixi haqqındakı məlumatlarını da nəzərə almaqla onların bir qisminin İtaliyaya köçlərini, Roma şəhərini saldıqlarını və 250 il onlara rəhbərlik etdiklərini tarixi faktlar ilə əsaslandırır. Bununla bərabər müəllif bu birliyin daxilində subar, mitan, tursa, saqa-qamər boylarının olması və etruskların İtaliyada Qamer, Sibaris, Tarki, Kasper kimi toponim və Alpan, Turan, Tartar, Uni kimi teonimləri (müqəddəs məkan adları) yaratmasını əsas götürərək onların türk boyları olduğunu da ehtimal edir (163, s.188-193). Əsl həqiqətdə müəllifin mətinlərdən nümunə kimi


verdiyi sözlərin ümumtürk arealında olduğu kimi təkrarı və eyni məna çalarlığına malik olması bu tayfaların türk olduğunu tamamilə təsdiq edə biləcək dil faktlarıdır.


Tərəfimizdən bəzi Etrüsk yazılarının üzərində aparılan müqayisəli təhlillərin nəticələri də bu sözlərin bir qisminin bu gün belə müasir türk dillərində işləndiyini sübut edir. Antroronimik və teofor (müqəddəslərin adları) adlarda Tinq-Tenqr, Tarxan-Tarxan, Tarkan, Turan-Turan ümumtürk birliyi, ərazisi və Turan antroponimləri, Yna tanrıçası-Anu Altay mifində (- F.R.), Turmıs-Tomris, Azərbaycanın qadın massaget çarı, Kirin başını kəsən (120, I c., s. 171) bu kimi adların etrüsk dilində mövcudluğu təsadüf ola bilməz. Bundan sonra biz etrüsk dilində "turuce"- "vermək" və Osmanlı türklərində "tərciye etmək"- "məsləhət vermək", "lupuce"- lap ucda-sonda-"ölüm" "baltu"- bel tirməsi-şalı, "tupi"-təpilmək (alov təpti, su təpdi), "tin"-gün, "avil"-il, "turan"-törən, "zar"-sır-"işıq, od", yaranış, "zer"-"yer", "as"- "ağ", "tamasa"-"tamaşa", "tamax"-"damaq", "cus"-"quş", "han"-"qan", "set"-"süd", "ina"-"iynə" kimi sözlərlə qarşılaşırıq (Ətraflı bax, 307, s. 118,122; 356, s. 85-86, 114-124; 389, s. 153).

Nümunələrdən göründüyü kimi bu gün belə xeyli sayda etrusk sözləri türk dillərində paralel olaraq işlənməkdədir. Əgər etruskların əlifba sistemini də diqqətlə izləsək dilimizdəki sonor-burun samitləri olan l, m, n, r hərfləri eynilə bu dilin fonetikasında da təkrarlanmaqdadır və bir sıra səslərin səslənməsi də qədim və müasir türk dillərinin fonetik səslənmələri ilə eynilik təşkil edir (379, s. 13, 41-47).

Bu məsələyə bir qədər də aydınlıq gətirmək üçün biz Bütöv Azərbaycan ərazisindən aşkarlanan əlifba işarələrini də Etrüsk əlifba işarələri ilə qismən müqayisə etməyi lazım bilirik.

## BASTUL-TURDETAN ƏLİFBASI






## GƏMİQAYA İŞARƏLƏRİ



## ŞAMAXI İŞARƏLƏRİ



# GƏNCƏ, TƏBRİZ, ŞAMAXI, NÜVƏDİ, PİRALLAHI İŞARƏLƏRİ

ГЯНДЖИНСКИЕ ЗНАКИ

| | Гянджа | Гямигая | | | Гянджа | Гямигая | |
|---|---|---|---|---|---|---|---|
| 1 | | | | 15 | | | |
| 2 | | | | 16 | | | |
| 3 | | | | 17 | | | |
| 4 | | | | 18 | | | |
| 5 | | | | 19 | | | |
| 6 | | | | 20 | | | |
| 7 | | | | 21 | | | |
| 8 | | | | 22 | | | |
| 9 | | | | 23 | | | |
| 10 | | | | 24 | | | |
| 11 | | | | 25 | | | |
| 12 | | | | 26 | | | |
| 13 | | | | | | | |
| 14 | | | | | | | |

ТЕБРИЗСКИЕ ЗНАКИ

| | Тебриз | Гямигая |
|---|---|---|
| 1 | | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |
| 6 | | |
| 7 | | |
| 8 | | |

ЗНАКИ НЮВЕДИ

| | Нюведи | Гямигая |
|---|---|---|
| 1 | | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |
| 6 | | |
| 7 | | |
| 8 | | |

ЗНАКИ ПИРАЛЛАХЫ


| | Пираллахы | Гямигая |
|---|---|---|
| 1 | | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |
| 6 | | |
| 7 | | |
| 8 | | |
| 9 | | |
| 10 | | |
| 11 | | |
| 12 | | |
| 13 | | |
| 14 | | |

ШЕМАХИНСКИЕ ЗНАКИ

| | Шемаха | Гямигая | звуки | |
|---|---|---|---|---|
| 1 | | | piktograf: | iks |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |
| 5 | | | | |
| 6 | | | | |
| 7 | | | | |
| 8 | | | | |
| 9 | | | | |
| 10 | | | | |
| 11 | | | | |
| 12 | | | | |
| 13 | | | | |
| 14 | | | | |
| 15 | | | | |

Bu yazı işarələrindən Gəmiqaya işarələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun xüsusi təşəbbüsü ilə əraziyə təşkil olunmuş ekspedisiya zamanı oradakı rəsmli daşlarda müşahidə etdiyimiz işarələrdir. Qalan yazı işarələr C.Cəfərovun və Ə.Fərzəlinin tədqiqatlarını əks etdirən monoqrafiyalardan götürülmüşdür (160, s. 51, 89-98; 466, s. 17-19).

Etrüsk yazılarındakı xeyli işarələrin qədim Azərbaycan ərazisindəki işarə yazılarla oxşarlıq, hətta eyniliyini də diqqətə çatdırmaq üçün, bu əlifba - işarələrə də diqqət etmək sanırıq ki, elmi cəhətdən əhəmiyyətlidir. Nümunə üçün verilən I sıradakı hərf işarələr e.ə. VII - V yüzilliklərə, II sıradakı hərf işarələr isə, bir qədər yeniləşdirilmiş formada sonrakı dövrlərə, e.ə. IV-III yüzilliklərə aiddir







Biz yuxarıda qədim As türkləri haqqında danışarkən Strabonun yazılarına istinadən As və Bastul Turdetanların- türklərin ulu babaları olduğunu və e.ə. VI minillikdə bu əlifbalara sahib olduqlarını qeyd etdik. Əgər diqqət etsək qədim As ər-Azərbaycan əlifba işarələri ilə Etrusk yazı işarələrində A, E, F. İ, K, L, M, N, P, R, S, Ş, T, U, Ü (cəmi 15) hərfləri As və Turdi hərf işarələri ilə tamamilə eyni yazılışdadır. Bu işarələrin əksəriyyəti Gəmiqaya, Şamaxı, Pirallahı, Gəncə, Təbriz,

Nüvədi işarələrində də təkrarlanmaqla bu əlifba sisteminin eyni kökdən gəldiyini də sübut edir. Bütün bunlar nəzərə alındıqda etruskların bir türk boyları olmaqla qədim Tus-Tusk tayfalarının varisləri olması fikirləri də bir daha öz təsdiqini tapmış olur.

Təbii ki, bu günə qədər tədqiqatçılarımız tərəfindən Tus boylarının tarixi dili və yaratdıqları coğrafi adlar üzərində elmi istiqamətdə araşdırmalar aparılmadığından, istər Bütöv Azərbaycan və Naxçıvan, istərsə də ümumtürk arealında yayılan coğrafi adlar sistemində "tus" tərkibli adlar da araşdırılmamış, onlar üzərində etimoloji, linqvistik və ekstra linqvistik (dildən kənar elementlər) aparılmamışdır. Lakin "Tus" tayfa adı kökünə qoşulmuş yazıyaqədərki dil elementləri bu tərkibin qədim bir tayfa adı olduğunu və türklərə məxsusluğunu birmənalı olaraq təsdiq edir. Azərbaycan, o cümlədən də Naxçıvan və ümumtürk toponimik sistemi üzərində əski qaynaq materialları əsasında apardığımız araşdırmalar zamanı bu tayfa adının "tus", "tusku", "turşl" şəkillərində sənədlərə fonetik səsəvəzlənmələrlə düşdüyünü müşahidə etdik. Cənub Azərbaycanda hələ XI əsrdə sənədlərdə öz əksini tapan Tus şəhəri və Tusmanlı, Tuyustan, Şahantes məntəqə adları (510, s. 176-177; 10, s. 4; 358, s. 469 ), Şimal Azərbaycanda Tasmalı, Təsi, Tsur kimi məntəqə adları (35, s. 91-94), Türkiyənin Doğu Anadolu bölgəsində Tosya, Tarsus, Tuzla adları, (521, s. 94, 101), areal türk toponimik sistemində Tasbuk, Tastı, Tisman, Tusovo, Tisil kimi xeyli sayda məntəqə, kışlak, aul adları (103, s. 34, 54-55), əski Tus boylarının yaratdığı yer adları olmaqla onların yayım arealının da göstəriciləridir.

Areal türk onomastikasında Tus tayfa adına qoşulan "man"-"ulu", "tan" – "tən", "us"-"zəka", "ur"-"qur, qurmaq", "ti"-"tikmək", "ovo"-"oba", "il"-"yurd, vətən", "buk"-"bəy", "təpə" kimi isim, fel, sifət köklərinin (ətraflı bax, 243, s. 204-211; 246, s. 141-143; 247, s. 36-40; 251, s. 163-173) bu gün də belə areal türk dillərində işlənməsi, adların türk dili imkanları ilə formalaşması, tusların türk tayfası olmasına və dillərinin prototürk dili olduğuna dair dil və tarixi faktlardır.

Yuxarıda qeydə aldığımız mənbə və araşdırmalardan ortalığa çıxan ümumi nəticə Tus boylarının bir prototürk tayfaları olduğunu bir neçə elmi istiqamətdən təsdiq etmiş olur:

1. Antik mənbə, qaynaq və tədqiqatlar etruskların türk Tus boylarının varisləri olduğunu ortalığa çıxarır.

2. Tarixi baxımdan Tus tayfalarının Orta Asiyadan gəldikdən sonra Kiçik Asiyada e.ə. XVIII əsrlərdə qeydə alınması onların e.ə. III minillikdə tarix səhnəsində olması fikri digər faktlar müqabilində yanlışdır.

3. Tus boylarının Doğu Anadoluda subar, mitan, hürrü, kuti, lulubəy, tursa, saqa-qamər kimi boylarla bərabər tarixi proseslərdə iştirakı bu tarixin e.ə. III minillikdə olduğunu sübut etməklə, Orta Asiya versiyasını təkzib edir.

4. Yuxarıdakı tarixi faktlar nəzərə alınarsa bu prototürklərin ərazi olaraq qədim Azərbaycan torpaqlarında mövcudluqları, onların Naxçıvan ərazilərində məskun olduqları ən azı e.ə. III minilliyin I yarısından başlamışdır. "Tus" tərkibli yer adlarının ərazidə mövcudluğu bu tayfa adı ilə bağlılığı da fikrimizin qeyd-şərtsiz sübutudur.

5. Tus boylarının varisləri olan etruskların dillərində söz köklərinin formalaşma üslubunun türk -Azərbaycan dilinin istər morfoloji, istərsə fonetik, istərsə də qədim As, Turdetan və Mingəçevir, Nüvədi, Qobustan, Gəmiqaya ilkin əlifba işarələri ilə əksər cəhətdən oxşarlığı bu dilin prototürk-Azərbaycan dilinin bir qolu olduğunu sübut edir.

1590-cı və 1727-ci illər arasında qaynaq və arxiv məlumatları qədim Naxçıvan ərazisinə daxil olan mahal, nahiyə və qəzalarda 17 məntəqə adını qoruyub saxlamışdır. Eyni tərkibə, lakin müxtəlif səs əvəzlənmələrə malik olan adlar qruplaşdırılaraq tədqiq edilərkən, etimoloji izahlarda aşkarlanan qədim mif və dil elementləri tusların e.ə. III minilliklər versiyasını elmi cəhətdən bir daha təsdiq edir.

**Tus.** 1590-cı ilin qaynaq məlumatlarında o dövr Naxçıvan qəzasına daxil olan Karbi nahiyəsində Firəng və Molla Dursun kəndləri yaxınlığında qeydə alınır (77, s. 162). Ad heç bir coğrafi ad-nomen göstəricisi olmadan etnooykonim kimi siyahıya alınmışdır. Bu hal bir çox prototürk tayfalarının adlanma sistemində də salnamə yazılarında da müşahidə olunmaqdadır. Biz yuxarıda Urartu yazılarında Lulu və Naxər ölkə adlarının MAT LULU, MAT NAKRİ yazılışlarında, daha sonra Kimmer türklərinin yaratdıqları Qəmər, Kəmər kimi adlarda da birbaşa adlanmanı – nominasiyanı izləyirik.

**Tuç.** O dövr Naxçıvan ərazisinə daxil olan Iğdir nahiyəsində 1733-cü ilin arxiv məlumatlarında qeydə alınır. Məntəqə əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olmaqla Qızılqala və Kürkü

kəndləri arasında göstərilir (77, s. 69). Adda yalnız türk dilləri üçün xarakterik olan o≈ç səsəvəzlənməsi hadisəsi ilə müşahidə edilir. Ad etnos adı olmaqla nominasiyaya-adlanmaya xidmət etmişdir.

**Dis.** Ada ilk dəfə 1590-cı ilin arxiv sənədlərində rast gəlirik. Naxçıvan qəzasına daxil olan Azadcirən nahiyəsinin Dəsdək və Əylis kəndləri arasında yerləşmişdir (77, s. 179). Məntəqə adı t≈d, u≈i səsəvəzlənmələri ilə adlanmada iştirak etmiş, Tus tayfa adından yaranmışdır.

**Toz.** Heç bir coğrafi nomen göstəricisi olmadan yalnız tayfa adının daşıyıcısı olan bu etnooykonim də 1590-cı ilin qaynaq məlumatlarında Naxçıvan qəzasının Zebil nahiyəsində Həmzə və Saray yaşayış məntəqələri arasında qeydə alınır (77, s. 181). Bu adda da biz türk dilləri üçün xarakterik olan u≈o, s≈z səsəvəzlənmələrini izləyirik.

Bu 4 məntəqə adlarının quruluş formasından göründüyü kimi onlar birbaşa Tus etnosu adından yaranmaqla heç bir coğrafi nomen-ad göstəricisi olmadan məntəqə adına çevrilmiş, etnooykonimləşmişdir. Lakin adlarda yalnız d≈t, i≈u, o≈u, z≈s, ç≈s fonetik paralellikləri qeydə alınır ki, (266, s. 54, 81) bu da areal türk dillərində tez-tez rast gəlinən xarakterik fonetik hadisədir. Ola bilsin ki, adlar istər siyahıya alınmada, istərsə də dialekt fərqlərində təhrif olunaraq bu şəklə düşmüşdür. Biz Naxçıvan ərazisində Şirak türkləri ilə bağlı eyni adda 3 Anzır, Sak türkləri ilə bağlı 20-yə yaxın Dizak-Dizə, Yengicə kimi adlara təsadüf edirik. Bununla bərabər adlandırma ənənəsində antroponimlərin tayfa, tirə adlarına çevrilməklə oykonimlərə Bəyəhməd, Sultanbəy, Əxi Əhməd kimi adların verilməsi (77, 164-168) müasir dövr oykonimik sistemində də təkrarlanır.

**Dizis.** Məntəqə adına 1728-ci illərin məlumatlarında Naxçıvan qəzasının Sürməli nahiyəsində Kaldaş və Dirikən yaşayış məntəqələri arasında rast gəlirik (77, s. 63). Bu adda da biz t≈d, u≈i səsəvəzlənmələri ilə yanaşı, Tus tərkibinə us-"ağıllı", "zəkalı" morfemlərinin qoşulduğunu müşahidə edirik. Məntəqə adı "Zəkalı Tus" mənasında açıqlanır.

**Disər.** Məntəqə adını geniş, mənbələrə görə tədqiq edən A.Bağırov, onun rast gəlindiyi XVIII-XIX əsrlər bütün mənbələri diqqətlə araşdırmış, lakin sonda adı iranmənşəli hesab edərək onu "zirvədə, başda yerləşən kənd" mənasında izah etmişdirdi (154, s. 27). Biz yuxarıda bu adın "İki baş" kimi izah olunduğunu da yazdıq. Lakin adın quruluşundan da gö-

ründüyü kimi adda t≈d, u≈i səsəvəzlənmələri müşahidə olunmaqla adı Tus+ər kimi bərpa etmək mümkündür. O zaman ad türk tayfalarının "ər" morfemi ilə sub+ər, xəz+ər, dög+ər kimi nöminasiyası-adlanması ilə "Tus əri" mənasındadır.

**Ərdis.** 1590-cı ilin qaynaq məlumatlarında o dövr Naxçıvan qəzasına daxil olan Karbi nahiyəsində Daşlı və Körpəli kəndləri yaxınlığında qeydə alınan bu məntəqə adı (77, s. 163) "ər" -"igid, ər" morfemi ilə tayfa adından yaranmışdır. Məntəqə adında d≈t, i≈u fonetik paralellikləri adlanma-nominasiya hadisəsində eynilə aşağıdakı adlarda da təkrarlanır.

**Ərtus.** Naxçıvan qəzasına daxil olan Karni nahiyəsində Qaratəpə və Üzəngi kəndləri yaxınlığında yerləşən bu məntəqə adı ilk dəfə 1590-cı ilin arxiv məlumatlarında qeydə alınır (77, s. 171). Ərdis məntəqə adı ilə eyni kökdən gəlməklə "Tus əri" mənasındadır.

**Ərtuş.** Bu məntəqə adı Naxçıvan qəzasına daxil olan Məzrəə nahiyəsində 1728-ci ilin arxiv sənədlərində əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olmaqla Basarkeçər və Miraq kəndləri arasında qeydiyyata alınmış (77, s. 61), "Tus əri" mənasındadır. Onu da qeyd edək ki, 1590-cı ilin qaynaq məlumatlarında xeyli sayda məntəqə adı ümumən siyahıya düşməmişdir.

**Ərdiş.** Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində Kəmənkəlül və Şahyurdu xaraba kəndləri arasında yerləşən bu məntəqə adı ilk dəfə 1728-ci ilin arxiv məlumatlarında qeydə alınan bu ad da (77, s. 57) "Tus əri" mənasındadır.

Göründüyü kimi yuxarıda adları çəkilən bu 4 məntəqə adı eyni mənaya malik adlar olmaqla t≈d, s≈ş, i≈u fonetik səs əvəzlənmələri və "ər"-"kişi" komponenti ilə Tus tayfa adından etnooykonim kimi formalaşdırmışdır. Tərkiblər, məntəqə adlarını "Tus əri, igidi" mənasında izah edərək Şumer, Subar, Kimmer, Arsak, Aral, Xəzər, Kəngər kimi 50-dən yuxarı tayfa adının qədim advermə-nominasiya üslubunun təkrarıdır. "Ər" komponenti ilə türk tayfalarının adlanma üslubu hələ e.ə.VI- III minilliklərdən advermə ənənəsinə çevrilmişdir. Eyni coğrafi ada biz Van gölü ətrafında Ərdiş şəhəri adında da rast gəlirik və Əhlət, Ərdiş şəhəri sakinləri tamamilə Naxçıvan dialektində danışmaqla özlərinin oradan bu ərazilərə gəldiklərini söyləyirlər (şəxsi müşahidə-. F.R.)

**Ərdəşir.** Maraqlı leksik-semantik quruluşa malik olan bu ada Naxçıvan qəzasının Karni nahiyəsində 1728-ci illərin məlumatlarında rast gəlirik. Məntəqə Buzəvənd və Kiçik Ayaslı kəndləri arasında qeydə alınır (77, s. 49). Adda türk dilləri üçün xarakterik t≈d, s≈ş, u≈ə, u≈i səs əvəzlənmələri müşahidə edilir və oykonimin ilkin yazılışda Ər+Tus+ur şəklində olduğunu düşünürük. Məntəqə adına qoşulmuş "ur/uru"-"bina etmək, qurmaq, tikili" mənasındakı morfem (208, s. 90) oykonimi "Tus əri quran" mənasında izah edir.

**Ketus.** 1728-ci ildə Naxçıvan ərazisində Naxçıvan qəzasına daxil olan Karni nahiyəsində bir adı da Gülbudaq olmaqla Qaiməli kəndi yaxınlığında qeydə alınır (77, s. 50). Qədim türk dillərində omonim kimi "qismət, pay" və "şan, şöhrət" mənaları ifadə edən "ka/ku" qədim türk sözü (208, s. 82; 64, I c., s. 607) bu adı "Tus payı, qisməti" və ya "Şöhrətli Tus" mənalarında formalaşdırmışdır.

**Teskarap.** O dövr Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində 1590-cı ilin qaynaq məlumatlarında bir adı da Tesxarap şəklində qeydə alınır. Məntəqə əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olmaqla Qızqalası və Bədrvanıs kəndləri yaxınlığında göstərilir (77, s. 159). Etnooykonim Tus tayfa adından yaranmaqla "Tusların sevimli evi", "Tusların əbədi evi" mənalarındadır. Tayfa adına qoşulan "kar/karu" tərkibi əski türk dillərində "əziz", "sevimli" mənalarında monqol türklərində (208, s. 146), "həmişəlik, əbədi durmaq", "daşmaq", "yalnız" mənalarında qədim oğuzlarda (42, I c., s. 432; 43, II c., s. 197; 44, III c., s. 182) işlənmişdir. Sözə qoşulan "ap" tərkibinin "ev" anlamında olmasını a≈e, p≈v səsəvəzlənməsi ilə yazıldığını düşünürük. Bu gün də türklərdə ev "ep" yazılışı ilə işlənməkdədir. Bununla bərabər E.V.Sevortyan bu tərkibi "əb" yazılışında "bacarıqlı", "qüvvətli" kimi də mənalandırır (65, III c, s. 240). Bu halda etnooykonim "Əbədi, qüvvətli tuslar" mənasını daşıyır. Biz "Tusların əbədi evi" mənasını daha doğru hesab edirik.

**Ağdost.** Ada 1590-cı ilin qaynaq məlumatlarında o dövr Naxçıvan ərazisinə daxil olan İrəvan qəzasının İrəvan nahiyəsində başqa adı Çatıqıran olmaqla rast gəlirik. Məntəqə adı adlarımızı daha çox təhrif olunduğu bu qəzada Donuzyeyən (təbii ki bu ad belə olmamışdır və bir kəndin hamısı donuz yemir -F.R.) və Sak tayfa adını daşıyan Saki qışlağı yaxınlığında təhrif olunmaqla göstərilmişdir (77, s. 160-161).

Tus tayfa adından yaranmış bu coğrafi ad "ağ"-"uca" sifəti ilə etnooykonim kimi formalaşaraq "Uca tuslar" mənasında qədim yazıya-qədərki türk dili morfemi ilə birgə işlənmişdir. Bu komponenti T. Əhmədov "kiçik, balaca" mənalarında izah etsə də (168, s. 277), biz qədim yazılı abidəmiz "Dədə Qorqud" dastanında M.Kaşğaridə, Nəsimi əsərlərində, V.V.Radlov, M.Seyidov və digərlərinin yazılarında, eləcə də sözlüklərində "ağqaya", "ağban", "ağdı" ifadələrinin "yüksəlmək", "ucalmaq", "aşmaq", "ağmaq" mənalarında fel, "uca", "yüksək" mənalarında sifət kimi işləndiyini görürük (19, s. 35, 117-118; 42, I c., s. 173; 260, s. 143;). Firimizsə məntəqə adı ilkin variantında "Ağtust" yazılışında olmuş, burada **-t** cəmlik şəkilçisi (243, s. 221), bəzən isə "at" yazılışında "yer, məkan" ifadə edən söz kökü olmaqla (64, I c., s. 284), ağ-"uca" sifəti ilə bərabər oykonimi formalaşdırmışlar. Məntəqə adının etimoloji izahı "Uca Tus yurdu" mənasını daşıyır.

**Dəstək** (2 ad). İlk dəfə 1590-cı ildə Naxçıvan qəzasının Azadcirən nahiyəsində Azad və Səhrayi-Əylis kəndləri arasında (77, s. 179), daha sonra isə bu ad 1727-ci ilin qaynaq məlumatlarında o dövr Naxçıvan qəzasına daxil olan Azadcirən nahiyəsində Gühnar və Sal kəndləri yaxınlığında Dəstaq yazılışında göstərilir (110, s. 31). Daha sonra Naxçıvan MR Dövlət arxivində 1936-cı ilə dair məlumatlarda ada "Molotovabad" yazılışında rus siyasi oyunu ilə rast gəlirik (137, s. 28). Eyni ada 1590-cı ilin məlumatlarında həm də "Dəştək" yazılışında Naxçıvan qəzasının Zar nahiyəsində Kələvaçar və Çərigni kəndləri arasında rast gəlirik (77, s. 180). Fikrimizcə, hər iki adda türk dillərinin t≈d, s≈ş, u≈ə, u≈ə səsəvəzlənmələri müşahidə edilir. Hər iki söz ilkin variantlarında "Tustaq" yazılışında olmuş, "dağ" coğrafi nomeni-adı ilə "Tus dağı" anlamında etnooykonimə çevrilmişlər. Fikrimizcə, bu gün aktiv oykonimik sistemdə, Ordubad rayonu ərazisində mövcud olan Dəstə məntəqəsi, məhz o dövr Azadcirən nahiyəsi daxilindəki məntəqə adıdır.

**Dəstgird.** Məntəqə adı 1727-ci ilin arxiv sənədlərində Naxçıvan qəzasına daxil olan Sisyan nahiyəsində qədim türk Tal tayfalarının adını daşıyan Tulus və Maq türklərinin adını daşıyan Mahrus kəndləri arasında göstərilir (110, s. 33). Əsaslı təhrifə uğramış bu məntəqə adının ilkin variantda "Tuskert" yazılışında olduğunu ehtimal edirik. Tus tayfa adı, qədim türk dillərində kur/kür-"qüvvətli, əzəmətli" və türk dillərinə məxsus -at/t həm "yer, məkan" həm də "cəmlik" ifadə

edən şəkilçi ilə formalaşmış (210, s. 23-27; 64, I c., s. 284) bu ad "Qüvvətli Tus" və "qüvvətli Tus məkanı" mənalarında türk dili elementlərinin imkanları hesabına yaranmışdır.

Adların etimoloji təhlilləri zamanı tayfa adında qədim türk "ər"- "igid", "ər" "aç/as/us"- "zəka", "ağıl", "müdrik", "ur/uru"-"bina etmək, qurmaq, tikili", "ka/ku"-"qismət, pay" və "şan, şöhrət", "kar/karu" "əziz", "sevimli", "əb"- "bacarıqlı", "qüvvətli", "ağ"-"uca", "ucalmaq", "taq"-"dağ", "at"- "yer, məkan" kimi leksik vahidlər qeydə alınır. Əgər diqqət etsək yuxarıda haqqında danışdığımız prototürklərlə bağlı adı keçən etnooykonimlərdə də bu morfemlər təkrarlanmaqdadır. Bu isə haqqında danışdığımız bütün tayfaların eyni mənşədən gəldiyini bütünlükdə təsdiq edir.

## 15. DORAY (DORAYTİ ) TÜRK BOYLARI

Biz qədim türk tayfalarından danışarkən Azərbaycan xalqının etnogenezinin təşəkkülündə iştirakı olmuş xeyli sayda prototürk tayfalarının ərazilərimizdəki tarixinin və yerinin hələ də tədqiq olunmadığını söylədik. Təbii ki, uzun müddət Rusiyanın işğalı altında olduğumuzdan onların siyasətində önə çəkilmiş məsələlərdən biri də əsarəti altına aldığı xalqların, o cümlədən də azərbaycanlıların tarixi təşəkkülündə iştirakı olan prototürk boylarını əsl tarixdən uzaqlaşdırmaq idi. Daha sonra bu tayfalar əsasən azlıqda olan xalqların adına yamanmalı tarixi dolaşıqlıq yaratmaqla böyük xalqları assimilyasiya olunmalı idi. Bu faktor xeyli sayda türk boylarının Azərbaycan tarixindən kənarda qalmasına, bu tayfalarla heç bir əlaqəsi olmayan xalqların tarixində yer almasına səbəb olmaqla milli tədqiqatlardan yayındırılmışdır. Tarixi kökümüzdən qoparılaraq gah "yunan", gah da "iranmənşəli" hesab olunan belə qədim türklərdən biri də Doray türk-Azərbaycan tayfaları idi. Azərbaycan xalqının, onun tərkib hissəsi olan naxçıvanlıların etnogenezi tarixində ayrıca yeri olan Doray tayfaları yuxarıda adlarını çəkdiyimiz As, Turdi, Naxər, Tal, Tus, Pal, və b. prototürk boyları kimi əsaslı tədqiq edilməmiş, kimlikləri, tarixi və əraziləri elmi yöndən qəti olaraq təsdiqlənməmişdir. Şübhəsiz tədqiqat obyektinə çevrilməyən bu etnosların ərazilərimizdə yaratdıqları məntəqə adları-oykonimlər də araşdırılmamış, onların bu torpaqlarda mövcudluğu haqqında da hər hansı bir məlumat verilməmişdir.

Bəs Doray boyları kimdir, hansı tayfaların varisləridir, hansı ərazilərdə və neçənci minilliklərdə yaşamış, "Doreyti" kimi qaynaqlara düşən bu tayfa adının mənası nədir? Bütün bu və digər suallara cavab vermək üçün ilk olaraq bu adın mənasına diqqət edək.

Qeyd etdiyimiz kimi bu tayfalar tarixi qaynaqlarda "yunan" və "iranmənşəli" tayfalar hesab edilmişlər. Rus tədqiqatçısı V.Naydış e.ə. XIV əsrdə (II minillik) şimal Balkan xalqları friq və illiriylərin adını çəkərkən dorayları "yunan-doray" kimi təqdim edir. Bunun ardınca isə müəllif Yunan ərazilərinin Doray tayfaları tərəfindən işğal olunduğunu, bununla bağlı yunanların "qaranlıq əsri"nin başlandığını yazmaqla onların "varvar" olduqlarını xüsusi vurğulayır (417, s. 21-27, 46, 77). Yuxarıda göstərdiyimiz mənbə və tədqiqatların yekun məlumatları hələ e.ə. III minillikdə Bütöv Azərbaycan ərazisində "varvar"-"metal əritmə" sənayesinin təşəkkül tapdığını sübut edir. Friqlərin bu dövr Balkanlarda olması məlumatı isə bir daha erməni tarixinin uydurma olduğunu onların əsl yurdunun Azərbaycan əraziləri olmadığını bir daha təsdiq edir. Çünki onların Hayasa əyaləti və Ərmən yaylasına gəlmələri və assimliyasiya olunub Friq-Hayasa-Apman adlarını alması tarixi prosesi e.ə. VII-V əsrlərdə baş vermişdir. Bunu erməni alimlərinin özləri yazırlar (394; 427).

Qədim dünyanın antik tarixi və adları haqqında xüsusi sözlük tərtib edən və burada doraylar haqqında məlumat verən İ.A.Lisova və K.A.Revyako, onları yunan tayfaları kimi təqdim edərək Dorayların "yunan" mədəniyyətinin inkişafında xüsusi rolundan da bəhs edirlər (532).

Yuxarıdakı bu iki məlumatdan göründüyü kimi müəlliflərin qeyd və fikirləri bir qədər ziddiyyətlidir. İşğalçı xalq öz ölkəsini deyil kənardan gəlib başqa bir ərazini işğal edir və yerli-aborigen xalq olmur. Məlumatdan da göründüyü kimi Doray tayfa adı da yunan dilində deyil, öz yurdlarından bu adla Yunanıstana gəlmişlər. Deməli, ad yunan dilində ola bilməz, Doray adı o xalqın öz dilindən gələn bir söz olmaqla aid olduqları ərazi və xalqa məxsusdurlar. Xüsusi olaraq qeyd etmək istərdik ki, yalnız işğalçı xalqlar öz güclərinə arxalanaraq öz mədəniyyətlərini sahibləndikləri ərazilərə yaya bilir. Bu məlumatlarda isə, doraylar Yunan ərazilərini işğal edən "varvar" tayfalardır. Deməli onlar Yunan deyil.

Tədqiqatlarında Doray və Yunan məsələsinə diqqət yetirən, qədim Yunan tarixi haqqında danışan B.S.Lyapustin və İ.E.Surikov öz məlumatlarında e.ə. XVI-XIII əsrlərdə yunanlarda tunc dövrü Miken mədəniyyətinin süqutunu əraziyə hücum etmiş doraylarla bağlayaraq tənəzzülün bu hadisə nəticəsində baş verdiyini yazırlar (385, s. 49, 81). Bu məlumatdan əldə olunan məntiqi nəticə də dorayların əraziyə başqa ölkədən gəldiyini, ərazi üçün yad tayfalar olduğunu göstərir.

Biz bir çox mənbələrdə dorayların e.ə. II minillikdə Yunan ərazilərinə gəldiklərinin, I minilliyin əvvəllərində isə, oranın etnik tərkibinin təşəkkülündə ayrıca xidmətləri olduqlarının da şahidi oluruq (533). Bu istiqamətdə L.Q.Peçatnovanın da tədqiqatları maraqlı məlumatlarla zəngindir. Özünün "Sparta dövlətinin formalaşması" kitabının I fəslində müəllif, bu dövlətin yaranmasını dorayların gəlişi ilə, Yunan tarixinin iki istiqaməti Afina və Spartanın Peloponnesdə dövlətə çevrilməyini doraylarla bağlayaraq onların bu "yeni əraziyə", (tərəfimizdən seçilib, -F.R.) Lakoniyaya ilk hücumu və məskunlaşmasını e.ə. II minilliyin I yarısına aid edir, ərazinin işğal edilməsindən sonra onların yeni əraziləri də işğalından danışır (430, s. 105-116). Bundan sonra müəllif, özünün "Sparta tarixi" adlı daha bir kitabında Yunan xalqlarının o dövrki vəziyyətini təsvir edərək dorayların onlarla kölə kimi davrandıqlarını, bu modelin bütün işğalçılara xas olduğundan dolayı o dövr bütün, yunan tayfalarına məxsus bütün əhalini bir qul kimi satdıqlarından bəhs edir (431, s. 215).

Bütün bu məsələlərə bir qədər geniş aspektdən xronoloji ardıcıllıqla yanaşan R.V.Şmidt, E.Meyerin "dori köçü həll olunmamış məsələdir" ifadəsini əsas götürərək bu hadisənin yazı hələ meydana gəlməmişdən baş verdiyini vurğulayır. Daha sonra Plutarx, Strabon, Engels, Marqon, N.Y.Marr, K.M.Kolobova, K.O.Müller və digər xeyli adda müəlliflərin əsərlərindən nümunələr gətirən müəllif, onların kimlik məsələlərinə də toxunaraq bu problemin hələ də həllini tapmadığı haqqında fikirlər söyləyərək ilkin məskənlərinin-Vətənlərinin də haqqında qəti söz demir (485, s. 38-50).

Bu sadalanan məlumatların elmi nəticələri Doray boylarının Yunanıstanda yerli xalq deyil, işğalçı bir xalq olduğunu və əraziyə başqa ölkədən gəldiklərini birmənalı təsdiq edir. Əgər yadımıza salsaq qədim yunanlar həmişə özlərinin əsas İnoy, Axey, Eoli adlı 3 tayfalarının adını

qeyd edir və onları öz kökləri hesab edirlər (120, I c., s. 411). Belə olan şərtdə bəs doraylar hansı ərazilərdən Yunan və digər ərazilərə gələrək onları işğal etmişlər? Bu sualın cavabını antik mənbələrin məlumatlarında tapmaq olur.

Heredot "Tarix" kitabında verdiyi məlumatlarda bu tayfa adı "aziat doriyləri", yəni Asiya dorayları (-F.R.) adlanmaqla onların yaşadığı ərazi Ön Asiya-Azərbaycan ərazisi olaraq göstərilir (23, I 6, 56). Müəllif, daha sonra dorayları bir qədər fərqli fikir söyləməklə ellinlərin güclü tayfası kimi qeyd edir və onların ərazilərinin Lidiya əsilli Krez (e.ə. VII-VI əsr) tərəfindən işğal olunması haqqında məlumat verir (23, I , 56). Bundan sonra Herodot pelasqların da sonradan "doray" adlandıqlarını, Sak türk boylarından məlumat verməklə Midiya ərazisində onların XI mahalda kaspi, pavsik və pantimaflarla qonşuluqda yaşadıqlarını göstərir (yenə orada I 57; III 92, 93). Bu ərazi isə bildiyimiz kimi Təbriz ətrafı və Xəzər hövzəsi ərazilərində idi və Assur mənbələri dorayları "teurlay" kimi göstərirdi (531). Herodot yenə bir məlumatında onları Midiya sakinləri kimi farslarla bərabər göstərir (23, I 139).

Herodotun bütün bu məlumatlarını müqayisə etdikdə bu tarixin təxminən e.ə. IX-VII əsrlərə aid olduğunu görürük. Bundan başqa burada doraylar qədim Azərbaycan ərazisində yerli sakinlərdir, onların qədim türk Sak, Kaspi tayfaları ilə ittifaqda, qonşuluqda yaşamaları bu birliyin eyni dövrdə, yəni hələ e.ə. II minilliyin I yarısından tarix səhnəsində olmalarını sübut edir. Daha sonra Herodot Dor adını Ellinin oğlu adlandırmaqla onu dorayların eponimi- nəsil adı kimi yazır, lakin, sonrakı kitablarında isə, onları gah yunan-ellin tayfaları, gah lakedemon, gah da epidavrilər nəsli hesab edir (9, I 56, 146; II 171; VII 102). Göründüyü kimi bu məlumatlar bir qədər biri-birini təkzib xarakteri daşıyır. Ola bilsin ki, bu fərqli məlumatlar müəyyən tarixi dövrlərdə dorayların ayrı-ayrı ərazilərdəki məskunlaşmaları ilə bağlıdır. Bununla bərabər məhz bu tarixi dolaşıqlığa istinad edən bəzi rus müəllifləri Doray boylarını "yunan tayfaları" kimi qələmə almışlar.

Antik mənbələrə diqqət etdikdə burada hələ e.ə. II minilliyin əvvəllərində Kiçik Asiya (hazırkı Türkiyə) ərazilərinə ellin tayfalarına aid doriylərin yeni hücumları haqqında məlumatlarla rastlaşırıq (120, I c., s. 411). Əgər göstərilən bu tarixi məlumatı diqqətlə izləsək e.ə. II

minilliyin əvvəllərində "doriylərin"-dorayların bu əraziyə basqını "yeni hücum" şəklində işlənirsə deməli bu onların əraziyə əvvəllər də basqınından xəbər verir. Bu halda dorayların tarixi səhnəsində e.ə. III minilliklərdən mövcud olduqları fikri də təsdiqlənmiş olur (-F.R.). Bundan sonra Afina ərazisindəki arxeoloji nümunələrin elmi nəticələri də e.ə. II minillikdə (1190-1165) Troyanın süqutundan sonra dorayların bu ərazidə məskunlaşdığını, Assuriya, Finikiya, və Misirə belə yayıldıqlarını Peleponnesdə Axaya və Elida ərazilərində məskunlaşdıqlarını göstərir (yenə orada, s. 421, 637, 640). Bütün bunlar dorayların qarşısıalınmaz güc olduqlarından da məlumat verir.

Doray tayfalarının ərazi baxımdan qədim Azərbaycan ərazilərində məskun olmaqla yerli-aborigen xalqlar olmasını təsdiq edən bir neçə tarixi məlumata da nəzər salmaq istərdik.

Mənbələr Doray boylarının Yunan ərazilərinə yayıldığını və burada onların Doridoy adda əyalət yaratdıqlarını, e.ə. II minillikdə isə, Kiçik Asiya tayfa koloniyalarının da onların ardınca Yunan ərazilərinə adladıqlarını göstərir (534). Məlumatdan göründüyü kimi doraylar Kiçik Asiya koloniyalarından öncə yəqin ki, e.ə. XV əsrlər bu ərazilərdən Yunan ərazilərinə adlamışlar. Bu fikri daha başqa bir mənbə də təsdiq edir. Burada e.ə. XIII-XII əsrlərdə Doray tayfalarının Elladaya hücumundan, ərazidəki bütün tayfaları özlərinə tabe etdiklərindən danışılır və məhz onların yeni Yunan mədəniyyətinin baniləri olduğundan söhbət açılır (535).

Doraylar haqqında bəzi məlumatlara Strabonun yazılarında da rast gəlirik. O, Şimali Qafqazda Azov dənizi kənarında Toreat-Doray tayfalarının adını çəkir, onların dondarlarla qonşu olduqlarını qeyd edir (31, XI, II, 10-12). Doray boylarının skiflərlə bərabər Araz çayını keçərək kimmerlər ölkəsinə gəlişini M.İ.Artamanov e.ə. IX əsrə aid edir (287, s. 23). Bu məlumatlar isə, dorayların öncə Şmal Azərbaycanda, o cümlədən Naxçıvan ərazilərində məskun olduğunu da sübut edir.

Azərbaycan xalqının etnogenezinin öyrənilməsi istiqamətində xüsusi xidmətləri olmuş Q.Qeybullayevin tədqiqatlarında bəzi mənbələrdə və Herodotun məlumatlarında Doray boylarının "doreyti" adlandıqlarını göstərir. Bundan sonra müəllif, Assur mənbələri və Pliniyin yazılarındakı "taurlay", "toret" kimi adı keçən tayfalarla dorayların eyni olduğunu da elmi cəhətdən tarixi faktlarla əsaslandırır. Bu adları quruluş formasına

görə geniş təhlil edən Q. Qeybullayev, dorayların Midiya ərazilərində yaşadıqları haqqında, adların Sibirdə "tarı, toro, torı" kimi tayfa adlarında qaldığına dair də xeyli sayda tarixi faktlar göstərir (324, s. 249, 257). Bütün bunlara baxmayaraq müəllif Azərbaycan və onun bir parçası olan Naxçıvan ərazilərində doraylarla bağlı hansı adların olması məsələsinə və əgər varsa bu adların etimologiyasına və naxçıvanlıların etnogenezində onların iştirakı məsələlərinə toxunmamışdır.

Təəssüflə qeyd edək ki, 1994-cü ildə müstəqilliyimiz əldə olunandan sonra nəşr edilən "Azərbaycan tarixi" kitabında da etnogenezimizdə iştirakı olmuş Doray türkləri ilə yanaşı As, Turdi, Tal, Naxər, Pal, Paralat kimi prototürklər haqqında da heç bir məlumat verilməmişdir (70, s. 77-87).

Bəs "Doray" sözünün mənası nədir, bu söz hansı dillərə məxsus olmuşdur? Dorayların adının nə məna daşımasının təsdiqi elmi cəhətdən hansı problemi həll etmiş olur? Bu suallara da aydınlıq gətirmək üçün mənbələrə diqqət etdiyimizdə qaynaqlar və Assur mənbələrində ad "doreyti", "dorayt", "taurlay", "toret" yazılışları ilə rast gəlirik. Əgər diqqət etsək bu tayfa adının müxtəlif yazılışlarına baxmayaraq onun "Dor+ay" tərkibində olması göz önündədir. Biz yuxarıda qədim türklərdə Ay mifi haqqında danışdıq. Lakin burada Dor tərkibinin nə məna daşıdığı problem məsələ kimi ortalığa çıxır. Biz Turdi türk boylarından danışarkən "dor/tor", "tur", "tor" tərkiblərinin M.Kaşğarinin sözlüklərində "durmaq, qalxmaq" və ayrıca "toplanmaq" (42, I c., s. 20, 334; 43, II c., s. 28, 49; 44, III c., s. 180, 233), "tör" yazılışında isə sözün "evin və ya odanın önəmli sədri", daha doğrusu toplumun rəhbəri, eləcə də "hörmətli, sayılan", "mötəbər yer", "uca", "müdrik başçı" (44, III c., s. 121; 37, s. 580) mənalarından danışdıq. Daha sonra bu komponentin türklərə aid söz kimi "əbədi", "durmaq, qalxmaq, toplanmaq", "möhkəm qala" (37, s. 586; 64, I c., s. 248) başqırdlarda "ümumi", "toplum" mənalarında işlənməsindən də ətraflı bəhs etdik (61, s. 470).

Biz sözün ilk komponenti "dor" yazılışının "tor", "tələ" "hörümçək toru" mənalarına da rast gəlirik (37, s. 578). Onu da qeyd edək ki, ümumən istər M. Kaşğarının sözlükləri və qədim türk dili lüğətlərində, istərsə də digər qədim yazılı qaynaqlarda türk dilində -d hərfli sözlərin ilkin dövrlərdə azlıq təşkil etdiyinin, bu cür sözlərin əsasən -t hərfi ilə işləndiyinin şahidi oluruq. Ona görə də sözün "tor" tərkibinin mənalarına

daha çox üstünlük verməklə yuxarıda ilk olaraq bu mənaları qeyd etdik. Bundan başqa qədim türk tayfa adlarının nominasiyaları-adlanmalarında əsasən tanrı mifinin rolunu nəzərə almaqla sözün türk tanrısı Dor adından gəldiyini düşünürük. Biz "Dünya xalqlarının mifi" kitabında Yunanıstanda Dor tanrı adı ilə qarşılaşırıq. O, Doray türklərinin ərazini işğalından sonra Yunan mifinə öz inancını aşılamasının elmi nəticəsidir. Əgər xatırlasaq Tenqri-Tanrıçılıqda olan türklərin ərazisinə ərəblərin yürüşü 4 minillik "Tanrı" sözünü "Allah" kəlməsi ilə əvəzləşdirdi. Deməli dorayların öz adlarını götürdükləri Dor tanrı adı da yunanlara türk mifindən adlamış, yunan dilindəki -os adlıq hal şəkilçisi ilə Doros şəklində Ellinin oğlu kimi göstərilmişdir (105, I c., s. 392). Biz e.ə. III minilliklər prototürklərin öz inanclarındakı tanrı adları ilə adlandığını görürük və heç şübhəsiz türk dili lüğətlərində yuxarıda qeydə alınan "uca", "sahib" kimi kəlmələr də tanrıya xasdır və tayfa adı Dor qədim türklərin Dor tanrısının adı ilə adlanmışdır. Əgər qədim türk dillərində "dor" tərkibinin həm də omonim kimi "nəsil" mənalarını da nəzərə alsaq (55, III c., II h., s. 1712) o zaman bu adlanma-nominasiyanın qədim türk mifi ilə bağlı olmaqla "Dor nəsli" mənasında olduğunu qətiyyətlə söyləmək olar.

Sözün ikinci "ay" tərkibinə gəldikdə isə, qeyd etdiyimiz kimi bu türklərin mifik dünyagörüşləri ilə bağlı olmuşdur. Əgər xatırlasaq qədim hunlarda Ay tanrıdır və o, Günəşlə bərabər Meteni hakim təyin edir (502, s. 99). Biz qədim türk tayfa adlarının bir qismində də "Ay tanrı" adı ilə Mat+ay, Ay+qur (uyqur), Sak+ay (saqay), Tal+ay, İskut+ay (işquz+ay), Taurl+ay, Kol+ay və s. "ay" tərkibi ilə qarşılaşırıq (324, s. 54, 247, 472; 261, s. 154; 349, s. 242). Bütün bu adlar türk inancında Ay mifinin göstəriciləridir. Bundan başqa "Manas" dastanındakı Altınay, Ay xan, Ayçiçək, Aykoca kimi xeyli antroponimik adlarda da biz "ay" komponenti ilə qarşılaşırıq (520, s. 434, 890-894). Heç şübhəsiz ki, buradakı "ay" komponenti Ay Tanrısının adı ilə, daha doğrusu qədim türk mifik təfəkkürü ilə bağlıdır. Göründüyü kimi hər iki tərkibi qədim türk dili elementi və mifindən formalaşan Doray tayfa adı "Tork Ay nəsli", "Uca Ay", "Müdrik Ay" mənasında qədim inanclarımızla bağlı nominasiya olmuşdur ki, bu türk ad sistemində tez-tez qarşılaşdığımız qədim advermə ənənəsidir. Bəzən məntəqə adlarında yalnız "Dor" komponenti işlənmiş və ya digər əski dil elementləri bu tərkibə qoşularaq

"ay" komponenti olmadan işlənmişdir. Biz bu adlanmanın o dövr bu tayfaların qədim Tork tanrı adına üstünlük verməsi ilə bağlı hal hesab edir və bunun qədim mifologiyadan irəli gəldiyini düşünürük.

Bütün antik müəlliflərin yazıları, qaynaq məlumatları və tədqiqat əsərlərinin elmi nəticələrini ümumiləşdirsək istər Herodot, Pliniy, Strabonun, istərsə də rus tədqiqatçılarının əsərlərindəki məlumatlardan əldə olunan nəticələri aşağıdakı kimi şərh etmək mümkündür:

1. Doray boyları yunanların yerli xalqı deyil II minilliyin əvvəllərində bu ərazilərə Kiçik Asiyadan adlayaraq, onları xalq kimi formalaşdıran və ilk yunan mədəniyyətini yaradan xalqlardır.

2. Herodot, Strabon və digər müəlliflərin məlumatlarında onların Asiya xalqları olmaqla Yunan ərazilərinə Kiçik Asiya ərazilərindən keçərək gəlmələri onların Ön Asiya-Azərbaycan ərazilərində aborigen xalqlar olduğunu sübut edir.

3. Herodot və Strabonun yazılarına istinadən onlar Midiya ərazilərində Sak türk boyları ilə yanaşı yaşayan Midiya tayfa ittifaqına daxil olan türklərdir və ilkin məskənləri Azərbaycan əraziləri olmuşdur.

4. Azərbaycanın qədim dövlətləri Mitan, Aratta, Manna, Midiya, Atropatena ərazilərinin həm tərkib hissəsi, həm qüdrətli əyaləti olan Naxçıvan ərazisində də doraylar avtoxton- yerli sakinlər olmuşlar.

5. Ad qətim türk mifologiyasının tarixi izi olmaqla qədim Tork (Tor+ak-"uca Tor nəsli") türk Tanrısı adından "Doray" boy adında etnonim kimi sabitləşmişdir və "Tor Ay nəsli" mənasını daşıyır.

6. Dorayların yunanlar tərəfindən "varvar" adlanmaları bu tayfaların da kassi dövründən-e.ə. IV-III minillikdən dəmir əritmə ilə məşğul olduğunu təsdiq edir.

Bütün bu sadalanan faktlar dorayların bir türk boyu olduğuna təkzibolunmaz sübutdur. Tayfaların tarixi qaynaqlar və mənbələrdə yayım arealının göstəriciləri də bu tayfaların qədim prototürklər olmaqla Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan ərazilərində məskun olduqlarını sübut etməkdədir. Biz Monqol türkləri arasında Turbabin (221, s. 45-46), Xəzər tayfaları arasında Tərkə, Tərnə (210, s. 125), Avar-Var hunları arasında Tarkan (508, s. 91), qeyd etdiyimiz kimi Sibir tayfaları arasında Tarı, Tarak, Toro, Torı (324, s. 249, 257) kimi tayfa adlarının sözsüz ki, Doray türkləri ilə bağlılığı olmuşdur və bunlar bu tayfaların varisləri olmaqla yayım arealının göstəriciləridir.

Xüsusi olaraq qeyd etmək istərdik ki, Doray türklərinin adını daşıyan etnooykonimlər Azərbaycan toponimik sistemində olduğu qədər digər türk xalqlarının coğrafi adlar sistemində yayılmamışdır. Qədim qaynaq məlumatlarında Doray türk boyları ilə bağlı etnooykonimlərə K. Gəncəlinin "Alban tarixi" əsərində Albaniya ərazisində Daranax vilayət, Daran-dəşt çöl adlarında təsadüf edirik (18, s. 27, 237). Tarixi qaynaqlarda Qarbağda Doraqoç məntəqə, Daron-Taron vilayət adı da qeydə alınır (24, s. I, X s. 23; XXXIII s. 72). Qədim Qarabağ ərazisində Dersim şəhər adı (427, s. 140). Bundan başqa Q.Qeybullayevin araşdırmalarında qədim Albaniyanın adlar sistemində Daranak, Daruran adlarına da rast gəlirik. (324, s. 524). Fikrimizcə Dərbənd şəhər və qala adları birbaşa "Dopların ölkəsi" mənasında bu tayfanın adını daşıyır (-F.R.). Qədim Naxçıvan ərazisində qeydə alınan eyni ad haqqında aşağıda danışacağıq.

Azərbaycan toponimik sistemində doraylarla bağlı Dıryan, Dormbon, Duray, Durqa, Duriyə Darvizbine, Darquba, Darılıq, Dərikvar, Dəryavən adda 10 məntəqə qeydə alınır (35, 38- 43). Biz Cənub Azərbaycanımızın ərazisində də Dərbəkli, Sarı Derg, Dergenli, Durud, Şuşdər, Bəndər, Darab, kimi xeyli sayda şəhər, qəsəbə və məntəqə adlarına rast gəlirik (358, s. 469).

Dopay tayfalarının Naxçıvan əhalisinin etnogenezindəki yeri, toponimik adlardakı izlərini araşdırmaqla onların etimoloji izahlarını da vermək fikrimizcə bu tayfaların dili və tarixi baxımından xüsusi əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, qaynaqlar və arxiv sənədləri Naxçıvan ərazisində Doray türkləri ilə bağlı 12 etnooykonim haqqında məlumat verir.

**Dorşad.** Osmanlı qaynaqlarında 1587-ci ilə aid arxiv sənədləri bu məntəqəni əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərir (111, s. 24). Məntəqə adındakı şad morfemi türk dillərindəki antroponimik adlara qoşularaq adlarda titul, rütbə ifadə edirdi. Türk yazılı abidəsi Orxon-Yenisey yazılarındakı Kürşad, Ulun şad, Ulunq şad, Tarduş şad (213, s. 82; 214, s. 8; 235, s. 385), hazırda dilimizdəki Ərşad, Elşad kimi adlarda rütbə ifadə edirdi. Etnooykonim "Doray şadı" mənasında açıqlanır.

**Candar.** Bu məntəqə adına 1590-cı ilə aid sənədlərdə Qədim Naxçıvan ərazisi tərkibində olan Abaran nahiyəsində siyahıda əsasən Qaraburun və Yarbaşı kəndləri arasında, əhalisi azərbaycanlılardan

ibarət olmaqla rast gəlirik (77, s. 174). Etnooykonim "Şanlı Dor" mənasındadır. Mənbələrdə qədim türk dillərində Can/San sözü həm "sanamaq-saymaq" kimi miqdar, say, həm "bədən", "bel", həm "ad-san", "şöhrət" həm də "düşünmək" mənalarını ifadə etmişdir (37, s.483). Müasir "can/san" söz köklərində də bu mənalar işlənmə yerinə görə qalmaqdadır.

**Dirnıs**. 1590-cı ilə aid sənədlərdə qədim Naxçıvan ərazisi tərkibində olan Azadcirən nahiyəsində qədim As türkləri ilə bağlı Azad və Danaqırd kəndləri arasında, əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərilir (77, s. 179). Bu məntəqə adını A.Bağırov fars mənşəli hesab etsə də, mənasının anlaşmadığını qeyd edir. Daha sonra bu adın ermənilərə aid edilməsinə doğru olaraq təkzib verən müəllif, A.Babayevə istinadən məntəqədə yuxarı məhəllənin "Dor məhəlləsi" adlandığını yazır (154, s. 27-28). Biz adın ilkin variantda Dor+an+us şəklində olduğunu və burada -a saitinin düşdüyünü düşünürük. Bildiyimiz kimi qədim türk dillərində bir neçə mənada işlənən "an" komponenti həm də "coğrafi məkan", "ərazi" mənalarında işlənmişdir (37, s. 43). Sözü formalaşdıran ikinci "us" sözü də yazıyaqədərki türk dili elementi olmaqla "zəkalı", "ağıllı" və "üst" mənalarında işlənmişdir (37, s. 616; 64, I c., s. 191). Başqırd dilində biz "ağıl, huş" sözünün "iç/is,"çuvaş dilində isə "astan" yazılışına da rast gəlirik (61, s. 804 ; 62, s. 707) Fikrimizcə ad "Zəkalı Dorların məkanı" mənasındadır.

**Dərkəmərik**. 1590-cı ilə aid sənədlərdə Qədim Naxçıvan ərazisi tərkibində Naxçıvan qəzasının Əlincə nahiyəsində qədim Lek türkləri ilə bağlı Ləkətaq və Kabud kəndləri arasında, əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərilir (77, s. 182). Daha sonra 1727-ci ilin arxiv sənədində "Dərgəmərək" yazılışında Dərənürgüt nahiyəsində (yenə orada, s. 149), 1830, 1880-ci illərin məlumatlarında isə əhali yaşamadığından qeydə alınmamışdı. Lakin, məntəqə xarabalıqları və bağçaları yenə də keçmiş Əlincə və müasir Culfa r-n ərazisində Şurut kəndindən yuxarı qalmaqdadır. Təəssüflə qeyd edək ki, "Naxçıvan abidələri ensiklopediyası" nəşr edilərkən bu ərazidəki abidələr tədqiq edilməmişdir. onların tarixi haqqında, ərazidəki xristianlıqdan əvvəlki dövrə aid Tenqri-Tanrı məbədi də tədqiqatdan kənarda qalmışdır. Tədqiqatlarda Adın etimoloji izahı fars dilində "Mələyin sarayı" kimi izah edilmişdir (154, s. 125). Bizim fikrimizcə, etnooykonimin etimoloji izahını qədim türk dillərində

axtarmaq lazımdır. Diqqət etsək ad son dərəcə maraqlı və gərəkli semantik quruluşa malik olmaqla qədim miflə, şamançılıqla bağlı etno-oykonimdir. Fikrimizcə ad Dor tayfa adı, "kəm/qam"-şaman, "ar"-"igid", "kişi", "uk"- "varis", "oğul" qədim türk dili morfemlərindən formalaşmış, lakin a≈ə saitlərinin əvəzlənməsi - dissimilyasiya nəticəsində (144, s. 225) təhrif olunmaqla "Dərkəmərik" şəklinə düşmüşdür. Ad "Dor ərlərin şaman varisləri" kimi açıqlanır. Ərazidəki əski məbədlər də bunu sübut edir.

**Dorəkçi.** 1728-ci ilin məlumatlarında təsadüf edilən bu məntəqə adı Naxçıvan qəzasına daxil olan Xınzirək nahiyəsində bir adı da "Uzunqşlaq" olmaqla siyahıda Başkənd və peçeneq türklərinin Çoruk qolunun adını daşıyan Çərəkli kəndləri yaxınlığında göstərilmişdir (77, s.48). Etnoy-konimin lkin variantda "Dorayçı" olması qənaətindəyik. Əgər etnooy-konimi olduğu kimi etimoloji izaha cəlb etsək, Dor tayfa adı "ak"-"uca" qədim türk dili elementindən formalaşmaqla "Uca dorlar" mənasında açıqlanır. Fikrimizcə "peşə, sənət" mənalı -çı şəkilçisi sözə sonralardan əlavə edilməklə sözü də təhrif edərək onu "Dirəkçi" formasına salmışdır. Təbii ki, "dirək və dirəkçi" peşəsi bir kənd adına şamil edilə bilməz. Sözə bərpa olunduğu variantdan yanaşsaq o zaman məntəqə adı birbaşa "Doray" şəklində olmuş, –çı şəkilçisi isə qeyd et-diyimiz kimi sözə sonralardan artırılmışdır.

**Dərəalbak.** "Doralbak" tərkibindən təhrif olunmuş bu məntəqə adına 1590-cı ilin məlumatlarında Naxçıvan qəzasına daxil olan Naxçıvan nahiyəsində hazırda məntəqə kimi fəaliyyətini davam etdirən Qahab və o zaman Seyyidi- Sirav kəndləri arasında ola bilsin ki, yaxınlığında rast gəlirik (77, s. 165). Maraqlı semantik quruluşa malik olan bu ad Dor+al+bak söz tərkibləri ilə bütövlükdə qədim türk leksik vahidlərindən formalaşmışdır. Al tərkibinə biz qədim sözlüklərdə demək olar ki, bütün türk dillərində "almaq", "götürmək", "qarışmaq", "başlamaq", "uca" kimi 18-ə qədər mənasına rast gəlirik. Etnooykonimin quruluşunda daşıdığı semantik mənaya daha çox uyğun olan sözlərdən biri də "cəsarətli", "cəld", "qalib gəlmək" sözüdür ki, biz bu mənaya üstünlük veririk (64, I c., s. 128; 37, s. 32). Belə ki, bak/bek sözü qəddim türk dillərində "başçı", "kall" (ağsakkal sözündə kal-"ulu" mənasını xatırlayaq) "varlı", titul olaraq "bəy" mənalarında işlənmişdir (37, s. 79; 64, I c., s. 107, 1978; 42, I c., s. 22; 43, II c., s. 249; 44, III c., s. 271). Bu qədim

leksik elementlər Dor tayfa adına qoşularaq "Cəsarətli Dor bəyi" və ya "Ulu Dor bəyi" mənasında açıqlanır.

**Dürrənli.** 1724-cü ilin məlumatlarında Naxçıvan qəzasına daxil olan Aralıq nahiyəsində siyahıda adı keçən bu yaşayış məntəqəsi Səfər qışlağı və Gedas kəndləri arasında göstərilir (77, s. 71). Dor tayfa adı və "mənsubluq" ifadə edən şəkilçi, həm də "coğrafi məkan", "ərazi" mənalarında işlənmiş "an" tərkibi sözü (37, s. 43) "Dor məkanı" və ya "Dorlara məxsus" kimi izah edir. Yer gəlmişkən qeyd edək ki, bu şəkilçi -ans şəklində erməni dilinə də "məkan" mənasında adlamaqla eyni məna ifadə etməkdədir (-F.R.). Sözə qoşulan "li" tərkibində səslərin yer dəyişməsi-metateza hadisəsinin olduğunu düşünürük və sözün "li"- "yurd", "məkan" sözü olmaqla (144, s. 223; 243, s. 217) təhrifə uğraması qənaətindəyik. Etnooykonim "Dorlara məxsus məkan, yurd" mənasındadır.

**Dərbənd.** Naxçıvan qəzasına daxil olan Şürəgəl nahiyəsində siyahıda Hərəmdərə və Göyçə kəndləri arasında Livadə kəndinə yaxın ərazidə adı təsadüf edilən bu məntəqə 1728-ci ilin məlumatlarında əhalisi azərbaycanlılardan ibarət olmaqla göstərilir (77, s. 125). Qədim şəhərimiz Dərbənd adı ilə eyni kökdən olan bu məntəqə adı Dor tayfa adı və türk dilləri üçün xarakterik a≈ə saitlərinin əvəzlənməsi ilə "bat"- "ölkə", "əyalət", "yurd" mənasında olan yazıyaqədərki dövr türk dili elementi ilə işlənmişdir (284, s. 94) Komponentlər birlikdə "Dor vətəni, ölkəsi" mənasında etnooykonimi formalaşdırmışlar. Bu cür nominasiya-adlanma Ordubad, Aşqabad, Astabad kimi qədim və müasir şəhər adlarında işlənmiş, Nigeriya dövlətində oğuzlar yaşayan ərazidə də Oqurabad şəhər adında bu gün də qalmaqdadır. Sözdəki –n samiti ola bilsin ki, sonralardan artırmadır. Biz tərkibin "band" yazılışında "bulandırmaq" və "oturacaq-kürsu" "bağlanmaq" mənalarına da rast gəlirik (37, s. 81; 65, II c., s. 79). Buradakı fel kökü "bulandırmaq" Dor tayfa adını yer adı kimi izah etməsə də "oturacaq-kürsu" "bağlanmaq" mənaları adı "Dorların bağlandığı, oturduğu yer" kimi izah edə bilir. Lakin biz sözün "Dor ölkəsi" mənasında olduğunu qəbul edərək, sözlərin hər ikisinin eyni kökdən gələn sinonim söz olduğunu düşünürük.

**Dərələyəz.** Naxçıvan qəzasına daxil olan bu nahiyə adı özündə əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olan 97 kəndi birləşdirməklə 1727-ci ilin məlumatlarında qeydə alınır (77, s. 146). Bəzi mənbələr bu

adı "dərə"- oronim və ələyəz –fitonim ilə, bitki adı kimi izah etməyə çalışmışlar (154, s. 127). Bizə görə bu tamamilə yanlış fikirdir. Əgər diqqət etsək "dərə" sözündən sonra yerdə qalan "ləyəz" tərkibi nə qədim, nə də müasir dilimizdə hər hansı bir semantik yükə malik deyil. Biz sözün Dor+al+ ay+as şəklində mürrəkkəb quruluşa malik etnooykonim olduğunu düşünürük. Yuxarıda bu tərkibdə işlənən "al" tərkibinin "cəsarətli", "cəld", "qalib gəlmək", mənalarından (37, s. 32; 64, I c., s. 128), "ay" tərkibinin isə türklərin mifik dünyagörüşləri ilə bağlı olduğundan, hunlarda Ay tanrı adı olmasında (502, s. 99) bəhs etdik. Bundan başqa fonetik səs əvəzlənməsi ilə işlənən "əs/as/us" tərkibinin də yazıyaqədərki türk dili elementi olmaqla bir çox türk dillərində "zəkalı", "ağıllı", "üst", "ağıl, huş" mənalarında işləndiyini söylədik. Bu söz göstərilən semantik vahidlərlə etnooykonimə çevrilərək "Cəsarətli, ağıllı doraylar" mənasındadır.

**Dərənürgüt.** Naxçıvan qəzasına daxil olan Dərənürgüt nahiyəsində qeydə alınan bu məntəqə əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olan kənd kimi Xurs və Tilyak məntəqələri arasında 1590-cı ilin məlumatlarında qeydə alınır. Qeyd edək ki, bu ad həm də nahiyə adı olmaqla özündə 5 kəndi birləşdirmişdir (77, s. 186). Ad tədqiqatlarda monqol dilində "Dərə dayanacaq" kimi izah olunmuşdur (154, s. 129). Fikrimizcə, ad Dor tayfa adı, "an"- "məkan", "ur"- "qurmaq", "qut"- "qüvvə" qədim türk sözlərindən formalaşmaqla "Qüvvətli Dor quran məkan" mənasını ifadə edir.

**Darkənd, Dərəkənd (2 kənd).** Araşdırmalar birinci Dar kəndinin ora əsrlərdə dağıdıldığını göstərir. 1590-cı illərə aid məlumatlarda qeydə alınmır. Ola bilsin ki, məntəqə o dövrlərdə artıq fəaliyyətini dayandırmışdır. Çünki 1590-cı ilə aid məlumatlarda Aza kəndi qeydə alınır, lakin ondan 2 km. aralı olan bu məntəqə qeydə alınmır (77, s. 179). 1828-ci ildən sonra əraziyə ermənilər köçürülməklə məntəqə adının "Dar" yazılışını "Der" şəklinə salaraq onu "keşiş" mənasında ermənileşdirmişlər. Milli müstəqillik əldə edilməklə kəndin adı Darkənd kimi bərpa olunmuşdur. Bundan başqa Şərur rayon ərazisində də biz Dərəkənd məntəqə adı ilə qarşılaşırıq və məntəqə hazırda da fəaliyyət göstərir. B.Budaqov, Q.Qeybullayevin araşdırmalarında və mənbələrdə keçmiş İrəvan xanlığı ərazilərində də Dor tayfa adı ilə bağlı xeyli sayda belə adlar mövcud olmuşdur və bu adlar da ermənileşdirilərək Der- "kilisə", "monastr" mənalarında təhrif olunmuşdur. Lakin azərbaycanlı

alimlər adı "dərədə yerləşən kənd" sözü ilə izah etmişlər (158 s. 216, 234-237; 34, s. 195).

Bir məsələni də xüsusi qeyd etmək istərdik ki, coğrafi adların relyef qurulusu ilə adlanması əsasən oronim, hidronim və s. tipli adlar sisteminə aiddir. "Yarğan başı", "Dərə çəmən", "Kollu çeşmə" məhz belə adlardır. Lakin məntəqə adları əsasən tayfa və antroponimik adlardan formalaşır. Yuxarıda da qeyd etdiyimiz kimi A.Bağırov Darkənd məntəqə adını fars dilində "Dar keçiddə yerləşən kənd", A.İmanlı isə Dərəkənd oykonimini təsviri izahla "Dərədə yerləşən kənd" kimi izah etmişlər (154, s. 123; 205, s. 28). Ərazidə aparılan tədqiqatlar oradakı yerüstü keramika mədəniyyət nümunələrinə istinad etməklə buranın tarixini X əsrə aid edir (108, s. 208). Lakin məntəqə ərazisində əsl arxeoloji qazıntılar aparılarsa buranın tarixinin qədim olduğunu və adın birbaşa Doray boylarının adından yaranmasını təsdiq edəcəyinə əminik.

Dor tayfalarının adını daşıyan bu məntəqə adlarındakı yuxarıda göstərdiyimiz yazıyaqədərki türk dili elementləri e.ə. III-II minilliklərdə coğrafi adlarda qeydə alınan antroponimik və coğrafi adlarda da təsadüf edilir (Ətraflı bax 324).

Beləliklə istər qədim qaynaq məlumatları və tarix, cöğrafiyaşünasların əsərləri, istərsə də arxeoloji və tarix yönlü tədqiqatların elmi nəticələri bu tayfalar haqqında aşağıdakı elmi nəticələri söyləməyə əsas verir.

1. Doray türkləri tarix səhnəsinə e.ə. IV minilliklərin sonu, III minilliklərin əvvəllərində tam güc halında bir ölkə kimi çıxmışlar.

2. Bu tayfalar ümumtürk ərazilərindən As, Hürrü, Naxər, Koman, Quti, Lulubəy, Şu, Subar, Türük və s. prototürk boyları ilə şimala hərəkət etmiş, çoxsaylı coğrafi adlarda öz adlarını əbədiləşdirmişlər.

3. Naxçıvan Mesopotamiya mədəniyyəti ilə sıx əlaqəli olmaqla digər əski türklər kimi bu prtotürklərin də ana yurdu olmuş və bu ərazinin oykonimik sistemində öz izlərini saxlamışlar.

4. Adlardakı "kəm/qam"-şaman, "ar"- "igid", "kişi", "uk/ok"- "varis", "oğul", "ak"-"uca", "al"- "almaq", "uca" "cəsarətli", "cəld", "qalib gəlmək", "bak/bek"-"başçı", "bəy", "il"- "yurd", "bat"- "ölkə", "əyalət", "band"- "oturacaq-kürsu" "bağlanmaq", "əs/as/us"- "zəkalı", "ağıllı", "üst", "ağıl, huş", "ur"- "qurmaq", "qut"- "qüvvə" kimi yazıyaqədərki türk dili leksik vahidlərinin göstərilən bütün türk adlar sistemində də təkrarı Naxçıvan ərazisinin bu türklərin ana yurdu olduğunu təsdiq edir.

# III Fəsil

# NAXÇIVAN PALEOTOPONİMLƏRİNDƏ YAZIYAQƏDƏRKİ DÖVR PROTO AZƏRBAYCAN DİL ELEMENTLƏRİ

## 1. LEKSİK VAHİDLƏR

*(Sözlük türk dillərini əhatə edən 34 müxtəlif sözlüklərlə müqayisəli tərtib edilmişdir)*

Naxçıvan yer adlarında aşkar edilən aşağıdakı yazıyaqədərki dövrün bu sözləri protoazərbaycanlılara məxsus qədim söz kökləri və şəkilçilər olmaqla dilimizin əski dövrlərindən günümüzə çatan leksik vahidlər və şəkilçilərdir. Məhz bu leksik vahidlər, eləcə də bunları öz dillərində ümumişlək formada istifadə edən As, Türükkü, Hürrü , Kuti, Lulubəy və s. tayfalar ərazinin qədim Azərbayçan xalqına aid olduğunu birmənalı təsdiq edən dil və tarixi faktlardır.

**Aba/apa.** Morfem qədim türk-Azərbaycan dilində "ata", "ulu baba" mənalarında işlənməklə yanaşı Altay, Teleut, Saqay, Şor, Cağatay dillərində də işlənməkdədir (37, s. 138; 42, I c., s. 1; 52, I c., I h., s, 26). Bu söz kökünə Manna hakimi Abeka/Ameka, Midya hakimi Abakar/Amakar, Amamaş və s. adlarda (208, s. 79, 100) təsadüf edirik. Müasir teleut, qazax, qırğız və s. türklərin antroponimik sistemdə Abak, Abay, Abaku, azərbaycanlılarda isə Abilayxan, Abakay, Apa (524, s. 388) kimi adlarda qalmaqdadır. Əgər rus dilinin formalaşma tarixini (XVII-XVIII əsrlər) nəzərə alsaq, onlardakı "otes"-"ata" və "papa"-"apa" sözləri də, qədim türklərdən bu dilə adlamışdır.

**Ağ.** Bu komponent omonimlik xüsusiyyətinə malik olmaqla "kiçik, balaca" mənalarında işlənmiş(168, s. 277), sözlüklər, qədim yazılı abidəmiz "Dədə Qorqud" dastanı, M.Kaşğaridə, Nəsimi əsərlərində, V.V.Radlov, M.Seyidov və b. yazılarında "ağqaya", "ağban", "ağdı" ifadələri "yüksəlmək", "ucalmaq", "aşmaq", "ağmaq" kimi fel, "ak"-"uca", "uca", "yüksək" sözləri isə sifət kimi işlənmişdir (42, I c., s. 173; 260, s. 143; 19, s. 35, 117-118). Sözün qədim hunlarda Sol+ak, göytürklərdə Soqd+ak tayfa adlarında (508, s. 91; 212, s. 98), Kas türk adlar sistemində Harbaşip+ak, Şaqar+ak+tu, Manna, Midiya şəxs adlarında Am+ak+ar, Kar+ak+ku (208, s. 60-61, 104) kimi etimoloji izahları ilk dəfə Q.Qeybullayev tərəfindən verilmişdir. Bir neçə fərqli

izahlar tərəfimizdən qədim türk dili sözlükləri ilə dəqiqləşdirilmişdir. Müasir dilimizdə "Üzümə ağ olma", "ağ elədin", "çox ağartma" ifadələri bu qədimliyi özündə qorumaqdadır (-F.R.).

**Ada.** Bu sözə qədim türk dillərində "təhlükə", "bədbəxtlik" mənalarında rast gəlirik (37, s. 7-8). M.Kaşğari sözlüklərində bu söz "adha" yazılışında isə "yaxşılıq, uğur" mənalarında ilkin mənaya antonim olaraq göstərilir (42, I c., s. 5). M.Resenen bu sözün başqa dillərdən türk dilinə adladığını göstərir (64, I c., s. 88). Lakin biz bu gün dilimizdə və bir qrup türk dillərində sözün "su arasında quru sahə-ada" mənasında işləndiyini və sözlüklərdə də bu mənanı daşıdığını izləyirik (39, s. 4). Bununla bərabər bu gün biz hər hansı bir təhlükədə "ədə çəkil, ədə qoyma " ifadələrində bu arxaik türk-Azərbaycan sözünün təhlükə ifadə etdiyini a≈ə səs dəyişməsi, dialekt variantı ilə işləndiyini görürük.

**Al.** Bu söz tərkibinə omonim söz kimi "uca", "hiylə", "su pərisi" və s. formalarda xeyli mənalarda rast gəlirik. Tərkib qədim şumerlərdə "şər ruh" mənasında işlənməklə pisliyə, şərə işarə idi (496, s. 259; 37, s. 31). Biz bu sözün kumık, yakut dillərində də "ağıllı", "öncül" və "müdrik" mənalarında işləndiyini görürük (37, s. 31; 64, I c., s. 124). Bu gün leksikonumuzda işlənən "alqış-al+qış" sözündəki "al" tərkibi "uca" mənasını özündə saxlamışdır. Bununla yanaşı "məni al dilə çəkmə" ifadəsində "al" -"məkr, hiylə" mənalarında işlənir. Bu leksik vahid qədim Xəzər tayfa qolu Boz+al (210, s. 125), skif tayfalarından Par+al+at (208, s. 136), Doqquz Oğuz boylarından Esk+al/Eskel, Ar+al (509, s. 17) adlarında da "uca, şöhrətli" mənalarında təsadüf edirik.

**Am.** Omonimlik xarakterinə malik olan bu leksik vahid qədim şumer və türk dillərində "bu, budur" mənalarını ifadə edirdi (208, s. 52). Bununla bərabər "am" leksemi "sadə xalq" və "heç nəyə sahib olmayan" mənalarını da daşıyırdı. Biz türk dialektlərini izləyərkən "Al" lekseminin b≈m səsəvəzlənməsi və -a, -i saitlərinin artımı ilə "aba/abi" yazılışlarında həm "ana", həm də "böyük qrdaş" mənaları daşıdığını da görürük (37, s. 1, 41). Alban şəxs adlarından Spar+am+a, Göytürklərdəki Am+aş, Um+ay bəy, (235, s. 383, 385; 208, s. 183) bu sözü olduğu mənada daşımaqdadır. Fikrimizcə, qədim türk sözü bu gün türk və Azərbaycan dilindəki "hami" yəni "xalq" sözlərində də özünü qorumaqdadır.

**As.** Bir çox məna ilə yanaşı tayfa adını da ifadə edən bu söz tərkibi Orxon yazılarında tayfa adı kimi "Az bodun yağı bolti", ifadəsində rast gəlinir (74, s. 20). Orxon-Yenisey yazılarında müxtəlif daş kitabələrdə ayrıca tayfa adı kimi göstərilən bu ad (212, s. 79; 235, s. 345), eyni zamanda qədim türk dillərində omonim kimi sifət yerində işlənmişdir. Biz bu sözün "zəka", "ağıl" "müdrik" "güclü", "qüvvətli" mənalarına da qədim sözlük və tədqiqatlarda rast gəlirik (355, s. 13).

**Ap/af.** Bu söz "av/ava" yazılışında oğuzlarda "ev" və "toplaşmaq" feli olmuşdur. "Ev" anlamında olan bu sözün a≈e, p≈v səsəvəzlənməsi ilə yazıldığını düşünürük. "Əf/ef" sözü M.Kaşğari sözlüyündə "ol efke bardi"- "o evə gəldi" ifadəsində də "ev" mənasında işlədilmişdir (44, III c., s. 212).Bu gün də türklərdə ev "ep" yazılışı ilə işlənməkdədir. Bununla bərabər E.V. Sevortyan bu tərkibi "əb" formasında "bacarıqlı", "qüvvətli" kimi də mənalandırır (65, II c., s. 240). "Ab" söz kökünə "möhkəm, mahir" mənasında, eləcə də "qüvvətli" mənalarında da rast gəlirik (64, I c., s. 287). Göstərilən mənalarda sözə lulubəy, kas və skif türklərində Olk+ab, Saralq+ab, Yaralq+ab, Turan hakimi Əfrasiy+ab adlarında özünü doğruldur. Adların türk dilində olması və bu mənalara malik olması Q.Qeybullayev tərəfindən elmi cəhətdən əsaslandırılmışdır (208, s. 53).

**Apla.** Bu əski türk sözü qədim leksikonda "vəhşiləri ram edən", "vəhşiləri ovlayan" mənalarında işlənmişdir (37, s. 3, 576). Söz kök və leksik şəkilçidən ap+la yazılışında "ap" isim və qədim türk dilinə məxsus -la şəkilçisi ilə felin əmr formasını "ovla" şəklində formalaşdırmışdır. Bundan başqa "ap" " söz kökü ap bu-"nə bu?", ap ol-"nə o?" ifadələrində "nə?" sualı kimi də işlənmişdir (42, I c., s. 30).

**At.** Komponent leksik mənaya malik olmaqla qədim türk dillərində həm coğrafi nomen-ad göstəricisi "yurd, məkan" mənasında, eləcə də "ad", "şöhrət", "işıq saçmaq" mənalarında işlənmişdir (64, s. 197-200; 37, s. 64-65). Bu söz qədim türk dillərində "məkan" ifadə edən söz kimi əsasən hun, oğuz, skif, qıpçaqların Bay+at, Paral+at, Massaq+at və b. tayfa qollarında məkan, yurd ifadə etmişdir (237, I c., s. İ25; 221, s. 31).

**Ay.** Hunlarda Mete dövrü Ay tanrı adı olmuş, əfsanəyə görə Günəşlə Ay tanrıları birlikdə onu hakim təyin etmişlər (500, s. 99). Bu ad Mat+ay, Ay+qur (uyqur), Sak+ay (saqay), Tal+ay, İskut+ay (işquz+ay) kimi türk tayfa adlarında da mifoloji anlamda təkrarlanır (324, s. 54,

247, 472; 261, s. 154; 347, s. 242). Biz skif, Midiya yer adları və antroponimik sistemdə də Bak+ay, Kitbat+ay, Koloks+ay, Taurl+ay, Tan+ay As+ay, ölkə adı Mad+ay/Mat+ay, Göytürk tayfalarında Kab+ay, saklarda Aylis (163, s. 80; 31, XI, 4, 13), səlcuqlarda və türkmənlərdə Ayrum, Ayrım (506, s. 76), Abakan xakas boylarında Saq+ay, Pal+ay kimi yüzlərlə ada təsadüf edirik (238, s. 86-88; 236, I c., s. 17). M.Seyidov onun tanrı kimi türk tayfalarının mifində iştirakına dair "Tonyuquq" abidəsindən, hun, Altay miflərindən nümunələr göstərmişdir (261, s. 222-223).

**Ban.** Bu söz türk dillərində geniş işlənməklə "ban"- "uca", "yüksək" kimi mənalar daşımış, türk dillərindən rus və Avropa dillərinə "pan" tələffüzü ilə eyni mənada adlamış "ağa", "böyük" mənalarını ifadə etmişdir (36, III c., s. 16). "Dədə Qorqud" kitabında "Altun başlı ban ev vergil", Banuçiçək kimi söz və ifadələrdə (19, s. 20, 63), eləcə də dialektlərimizdəki "evin banında", "xoruz banı" deyimlərində də söz "uca" mənasında işlənmişdir.

**Band.** Biz bu qədim türk sözünə "saxlamaq, mühafizə etmək, qorumaq" mənalarında rast gəlirik (37, s. 90). Daha sonra sözə "bağlanmış", "ağacın budağı" mənalarında əski türk dili sözlüklərində təsadüf edirik (37, s. 81). Bulqar türklərində Vund sərkərdə və tayfa adının, eləcə də müasir dilimizdəki "bənd" morfeminin, da bu kökdən gəldiyi danılmazdır.

**Bari/böri.** "Qurd", Böri-Kurt mənasını daşıyan bu leksik vahid (37, s. 118) qədim türk dillərində Oğuz və Uyğur inanclarında daha geniş yer alır. "Oğuznamə"də "böri"-"qurd" leksik vahidi ilə dəfələrlə qarşılaşırıq (486, s. 37). Qədim türk şəxs adları–antroponimik sistemində Böri Alp, Böri (235, s. 383), "Dədə Qorqud" dastanımızdakı Bəybura, Burlaxatun adlarında da bu mənalar özünü doğruldur.

**Bat.** İstər qədim, istərsə də müasir dövr adlar sistemində "ölkə, yurd" mənalarında ancaq türklər yaşayan ərazilərdə mövcud olmuş və olmaqdadır. Əgər diqqət etsək ümumtürk toponimik sistemində mat/bat komponenti b»m, b»p fonetik paralelliyi ilə işlənmişdir. Biz İ.İ.Meşşaninovun Urartu dilinə aid sözlüyündə bu sözün "ölkə, yurd" mənalarında işləndiyini və Urartu yazılarında Mâtu Lulu–"Lulubəy yurdu" və Mâtu Nakru-"Naxər yurdu" ifadələrində də bu mənanın daşındığını görürük (402, s. 21-29). Bu söz Atropatena şəxs adlarından Orontobat adında

"mətin", "igid" mənasında işlənmişdir (208, s. 213). Qədim qaynaqlarda biz e.ə. III minillikdə kassilərin sıx yaşadığı Elam dövlət adını Elammit, e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərində Midiyanın paytaxtı Ekbatan –"ucaların ölkəsi", e.ə. VIII əsrdə Midiyada Saqbat yer adı, (120, I c., s, 192; 330, s. 230), qədim Midiya dövlət adının Matay – "Ay tanrısının yurdu", eləcə də Midiya toponimik adlar sistemində Kilimbat, Aratbat, Kitbatay adlarında işlənmişdir (208, s. 97). Biz bu əski söz haqqında digər yazılarımızda da ətraflı məlumat vermişik (243, s. 143).

**Berd.** Söz "qala" mənasında areal türk dillərində geniş işlənməklə sonralar eyni mənada türklər tərəfindən assimilyasiya olunan ermənilərin də dilinə adlamış (-F.R.), İrəvan xanlığı ərazilərimizdəki dəyişdirilmiş Aşağı Ağcaqala - Vazmaberd, Aşağı Qanlıca-Vağramaberd, Daşqala-Karaberd kimi adlarda işlədilərək nədənsə ermənilərə aid edilmişdir (270, s. 9). Biz hələ e.ə. VIII əsrdə Midiyada Badr/Bard, Partagen tayfalarının adlarını, bu adda antroponimin də olduğunu görürük (23, IV 167; VII 77; 349, s. 148). Eranın I-II əsrlərində Peçeneq türklərində Bartolmat (508, s. 91) tayfa adı da bu komponentdən yaranmışdır. XIII əsr Azərbaycan adlar sistemində Gəncəli Kirakos qədim türk mifini yaşadan Xanberd-"tanrı qalası", Anuberd-"Anu qalası", eləcə də Aranberd-"Ərən qalası" (18, s. 342, 348) toponimlərinin adını göstərir. Bu gün Bərd+ə adı da "Uca qala" mənasındadır. Biz XIX əsrdə İrəvan xanlığı ərazisində As türklərinin adını daşıyan və əhalisi azərbaycanlılardan ibarət olan Bart+az məntəqə adı ilə rastlaşırıq və bu "As qalası" mənasındadır. Ümumən berd-qala sözünün erməni dili ilə heç bir bağlılığı yoxdur.

**Bil/vil".** Bu leksik vahidə qədim türk dillərində "görən", "bilən", "düşüncəli" "tanınan" mənalarında rast gəlirik. Bu mənalarda söz qumuq, uyğur, türkmən, tatar, qazaq, başqırd və s. türklərin arxaizmlərində də qalmaqdadır (65, t. II, s. 137; 37, s. 98). Qədim Mesopotamiyada, skif, peçeneq, eləcə də göytürklərdə Bolqar, Bulqar, Bula Çoban, Buluk kimi tayfa adlarında (508, s. 91; 212, s. 99), o cümlədən göytürklərdə Bilik Sanun, Bilgə Taçam, Elbilgə kimi xeyli şəxs adlarında bu məna özünü qorumaqdadır (235, s. 383-384).

**Bun.** Bir çox qədim yazılarda bu leksik vahid "kök, nəsil" mənasını ifadə edirdi. Qədim hun türk tayfa qolu Buntürk adında (37, s. 125) bu sözü "Türk nəsli" kimi izləyirik. Midiyada Kizilbunda çay

adının etimoloji izahı da Kas+il+bun+da "Kas kökünün tikdiyi yurd" mənasında özünü doğruldur (271, s. 93). Bundan başqa Midiyada Zabun/Zaban, daha sonra b≈m, b≈v səsəvəzlənmələri nəzərə alınmaqla yenə Midiyada Munsuarta çar adında (208, s. 103-104), bolqarlarda isə Vund sərkərdə adlarında da bu məna qalmaqdadır (210, s. 104).

**Burun.** Qədim türk sözü olan bu qədim leksik vahid "öncə", "əvvəl", "başlanğıc", "burun", və "öncül", "öndə olan" mənalarında işlənmişdir (37, s. 126; 42, I c., s. 398). Sözə əski türk dillərində şəxs adları və məntəqə adlarında təsadüf edirik. Biz Kas türklərində Burnaburiaş (208, s. 58), yəni "Öndəki güclü qurd" iki çar adında da rast gəlirik. Orta əsrlər Azərbaycan şəxs adları sistemində də biz Burunqi, Burundüz, Burunbay (524, s. 578) kimi adların olduğunu görürük.

**Cab.** Maraqlı məna çalarına malik olan bu leksik vahidə biz Alban çarı Çaber/Zober, Zaban-"tanınmış", "tanınmış ər, igid" (208, s. 176-177), göytürklərin şəxs adlarında Çab Şatun (235, s. 386) yazılışında "Tanınmış şadın-şahzadənin" mənasında rast gəlirik. Bundan başqa qədim türk sözlüklərində də söz "adlı-sanlı", "tanınmış" mənalarında qədim türk dillərinə mənsub bu söz kimi təqdim olunur (37, s. 138). Biz Çingiz xanın sərkərdələrindən birinin adının da Cabi, digərini Subutay olduğunu görürük (32, s. 89) və adlar özündə "Tanınmış" mənasını daşıyır. Söz qədim Azərbaycan dilindədir. Bu gün də vətənimizdə xeyli sayda Çabaz,, Caban, Çobman kimi yer adlarında bu məna geniş şəkildə işlənməkdədir (35, s.103-107).

**Can/san.** Bu komponent qədim söz tərkibi kimi istər prototürklərdə, istərsə də müasir türk dillərində omonimlik xarakter daşımaqla M. Kaşğaridə "anuq utru tutsa joqqa sanmas" (42., Ic., s. 68)- "hər şey ortalıqdadırsa yox sanılmaz" (-F.R.) şəklində "say, miqdar, hesab", "bükün buldunq emti kişiler sanu" (37, s. 483)- "sən bu gün hörmət qazandın" (-F.R.) şəklində isə "hörmət, şöhrət, ad-san" mənasında işlənmişdir. Bu gün biz "ad-san sahibi", "ada-sana çatdı", "şan-şöhrət qazandı" ifadələrimizdə də bu komponentdən istifadə edirik. Mannada Şarsin, Telusin, Ullusin, Erisin kimi çar adlarındakı "sin" leksemi də "Şöhrətli Şar tanrısı" və "Şanlı Tel", "Şanlı Lulu" (Tal, və Lulu türk tayfaların adıdır) və "Şanl ər, igid" yazılışlarında (284, s. 64; 208, s. 83-84) bu mənanı qorumaqdadır. Etimoloji izahlar tərəfimizdən ilk dəfə olaraq verilir (-F.R.).

**Çauq.** Bu qədim dil vahidinə Oğlanqala qədim yaşayış məskəninin ilkin adının Çauq yazılışında "qala" mənasında rast gəlirik (260, s. 85)". Söz bir çox hallarda həm də qədim türklərdə "çaq" yazılışında ayrı "böyük qüvvətli" mənalarında da təsadüf edilir (208, s 140-166). M.Kaşğaridə isə bu leksik vahid "özü", "əsli" mənalarında izah olunmuşdur (37, s. 138, 322 ; 42, I c., s. 335). Bəzi tədqiqatlarda türk dillərinə məxsus ç≈s fonetik səsəvəzlənməsi nəzərə alınmaqla sözü "sak" yazılışında qədim elamca və türkcə "uşaq" mənasında izah etmişlər (353, s. 103).

**Çı.** Omonim xarakterli olan bu əski proto türk-Azərbaycan sözü "tayfa" mənasında işlənmişdir. V.A.Astalov və R.D.Arsanukaevin araş-dırmalarında bu söz tayfa kimi izah olunur (ətraflı bax, 291; 293). Bu komponent həm də şəkilçi kimi işlənmişdir. Biz peçeneqlərdə Kuerçu tayfa adında bunun şəkilçi kimi (508, s. 91), Bulqar türklərində Qazançı (300, s. 226) Alban tayfalarından Quşçu, Türkəçi (168, s. 149) və s. tayfa adlarında isə "tayfa" mənasında rast gəlirik.

**Dada**. Bu söz qədim türklərdə "ulu", "ağsaqqal", "müdrik" mə-nalarında işlənmiş və Dədə Qorqud adında da bu mənanı daşımışdır. Ustadlara "dədə" titulu ilə müraciət son dövrlərə qədər qalmaqdadır. Oğuzlarda dede-"baba" mənalı söz kökü də geniş işlək söz olmuşdur (44, III c., s. 220). Fikrimizcə, göytürklərdə Tatabi-"Ulu bəy", hunlarda Tudin-"Ululara məxsus" (212, s. 99; 509, s. 17) kimi bu adlar göstərilən mənaları daşıyır. Qədim Mannada bu söz olduğu kimi Dada çar adında təkrarlanır. Q.Qeybullayev bu ada və sözə misal olaraq uyğurlarda Daday, türk runi yazılarında Dad və Datan adlarını göstərir (208, s. 82).

**Dam/tam.** Biz qədim yer adlarımızda bu tərkiblə də qarşılaşırıq. Mənbələr sözü üzərində bürclər olan "qala", "dam", "divar" isimləri və "qazmaq" fel kimi qədim türk dili leksik vahidləri olaraq təqdim edirlər (42, I c., s. 153, 176; II c., s. 22, 108; 37, s. 529). Orxon yazılarındakı Bilgə İşbara Tamğan, Tamğan Çor, Altun Tamğan kimi antroponimik adlarda da (235, s. 383) "qla" mənası qalmaqdadır. Biz Azərbaycan xalqının qədim adlar sistemində də Qalabəyi, Kalac, Kalaqay (524, s. 764).

**Da/ta.** Bu söz qədim türk dillərində "insaf, xeyirxah, yaxşı" mə-nalarında işlənmişdir (37, s. 158). Qəddim türklərdə "kaş" sözü işığa işarət kimi işlənirdi. Bu "qaş qaraldı" işıq azaldı mənasında dialektlərdə

və günümüzdəki danışıqda işlənməkdədir. Bəzən söz "ulduz" mənasında da işlənmişdir. O zaman qədim dilimizdəki Dakaş- "ulduz" sözü "zərər verməyən, xeyirxah işıq" anlamına gəlir (208, s. 67). Biz türk dillərində "ta" tərkibinin – n samiti ilə "tan" yazılışında "dan yeri" mənasında da işləndiyini görürük. Biz "da" sözünün "du" yazılışında da sifətlilik əlaməti daşıdığını, qədim türk dillərində "yaxşı", "rəhmli" mənasında işləndiyini görürük (208, s. 80-82). Təəssüflə qeyd edək ki, bir qrup tədqiqatçının əsərlərində qədim türklərə məxsus Didivar, Disər, Düdəngə kimi məntəqə adlarını formalaşdıran "du/di" komponenti fars dilindəki "iki", bəzən də "divar" sözləri ilə izah olunmuşdur (168, s. 74; 448, s. 60-69; 77, s. 53). Bu söz kökünə biz qədim Midiyada Ti+tamaş+ka- "yaxşı, şöhrətli igid ", Zar+du+ku – "rəhmli, şöhrətli Sar" allahı kimi şəxs adlarında (353, s. 50) da eyni mənada rast gəlirik. Etimoloji izahlar tərəfimizdən ilk dəfə yeni konsepsiyadan verilir.

**Duk/doq.** Bu söz kökünə də prototürk dillərində "əzib doyan", "döyüb doyan", "doymuş", "sakitləşmiş" mənalarında rast gəlirik (37, s. 3, 576). Eyni söz kökü oğuz qolu Düg+ər tayfa adında "Döyüşkən ər" mənasını daşıyar (-F.R.). Biz qədim göytürk tayfa adları içərisində Tok+ar, Soğ+dak, Tonq+ut adlarında da eyni məna ilə qarşılaşırıq (212, s. 98-108). Əgər bu gün "göy-gök, yaymaq-yakmaq" kimi türk dillərinə məxsus k≈y, o≈ö səsəvəzlənmələrini nəzərə alsaq (39, s. 278) biz komponentin döy mənası ilə qarşılaşırıq ki bu da dilimizdəki felin əmr forması olmaqla eyni mənanı saxlayır.

**Ər.** Komponenti "ər, kişi, igid" mənalarında etnosların, eləcə də toponimik adlar sisteminin adlanması-nominasiyasında həm tayfa adlarını həm də oykonimləri məna çalarına uyğun olaraq etnooykonim kimi formalaşdırır. Biz bu leksik vahidin sub+ər, bulq+ar, kimm+er, quq+ar, xəz+ər, kanq+ər, düg+ər, kəb+ər, tonq+ər kimi tayfa adlarının sonuna əlavə olunduğunu (210, s. 125; 221, s. 32; 236, s. 125-127; 509, s. 17), həm də ər+sak, ər+tus, ər+suk (avar hunlarında), ar+an (Anu ərləri-F.R.), ar+al, ar+alat, ur+yat kimi tayfa adlarının əvvəllərinə qoşulduğunu görürük. Bu söz antroponimlərin yaranmasında, o cümlədən də "ərqune" yazılışında Xivə xanı Əbül Qazinin (1603-1664) əsərindəki məlumatlarda da təkrarlanır. O, Kayan və Nukuz ailəsinin 400 illik gizləndikləri yerdən-Ergənəkondan yurd yerlərinə döndüklərini qeyd edir (2, s. 33-34).

**Əznə/əsən/esen.** Türk dillərində "qüvvətli, sağlam" mənalarında geniş işlənən bu leksik vahid Alban çarı Əsən Cəlalın adında (208, s. 185) uyğur və digər türk xalqlarının antroponimik sistemində Asan, Asan-tiqin, Esen-Buqa, Esen-Tuqay şəxs adlarında bu mənada ifadə olunmuşdur. Orxon-Yenisey yazılarında "esenliqde kuç kara bodın"-"sağlamlığı olanın gücü xalqda, olur", "esensizde küç kara sub ermiş"-"nasaz adamın gücü qara sudur" kimi ifadələrdə də "esen"-"güclü, sağlam" mənalarında işlənmişdir (74, s. 74).

**Gor/gur/kur.** "Görmək", "tabe olmaq", "təxmin etmək", "coşqun", "idarə edən", "cəsur" və s. mənalarda işlənən bu qədim türk sözü (37, s. 317, 328; 42, I c, s. 324) qədim türk-azərbaycanlıların Kiur tanrı adında, Kurum yazılışında kutilərdə bir çar adında (350, s. 399), Kür çayı adında, göytürklərdə Kür Şad adında (237, s. 201-205) və bu gün dilimizdə "kür uşaq" ifadəsində eyni mənanı daşımaqdadır.

**Hür.** Bu qədim sözümüz "mərtəbə, rütbə", "qurmaq" mənalarında işlənmişdir. Bu izahlara və mənalara çoxsaylı türk dili lüğətlərində, tədqiqat əsərlərində rast gəlirik (500, s. 105; 208, s. 51; 37, s. 322, 328; 41, 213, 378-380). Əgər diqqət etsək bu söz Hürrü tayfa adının yaran-masında da hür+rü şəklində iştirak etmiş, onu "qazanılmış rütbə" və ya "rütbəyə çatmış" mənalarında izah edir. Qeyd edək ki, qədim türklərdə söz önündə -h samitinin işlənməsi çox az, demək olar ki, ümumən iş-lənmirdi. Bu cür sözlər adətən öndə -x və -k samitləri ilə müşahidə olu-nurdu.

**Xarv.** Bu qədim Azərbaycan türk tərkibi qədim türk dillərində "axtarıb tapan", "qazanmış", eləcə də "dartılmış yay", "lənətlənmiş" kimi mənalarında işlənmişdir (43, II s. 274; 37, s. 426). Biz Mannada Xarmeşand, Xarşa, skiflərdə Xarsin adlarında da bu komponentə təsadüf edirik (275, s. 309; 331, s. 195).

**Lax/laq** tərkibinin qədim türk dillərində "əlamət", "nişan", "bəlgə" mənalarında işlənməsindən yuxarıda bəhs etdik. Mənbələrdə bu tərkib "san"-"şan-şöhrət" sözünü də özünə birləşdirməklə "lakşan" yazılışında "tanrıya, buddaya xas əlamətlər" mənasını daşımışdır (37, s. 332). Qədim skiflərdə bir çarın adı Liq idi (37, s. 170). Q.Qeybullayev bu sözü "eliq" yazılışında "məğrur", "vüqarlı" mənalarında izah etmişdir.

**İl.** "Yurd, vətən, vilayət" söz kökünü izah edən bu morfem F.Rə-şidəddinin "Oğuznamə" əsərində də bu mənaya "Oğuz yurd tutdu, il

oldu" şəklində rast gəlirik (8, s. 30-31). "yurd, ilçə " mənalı söz kökləri bu gün də Osmanlı türklərində eyni mənanı daşımaqdadır. Bu morfemin "ul" yazılışında Sibir tayfaları və xakas, şor, tuvin dillərində "ulus", "aul", "kənd" mənalarında işləndiyini də görürük (52, I c., I h., s. 350, 357).

**İk/uk** türk dillərində "oğul, varis" (208, s. 143), "ike" yazılışında isə "sahib" və "böyük qardaş", "qardaş" mənalarını daşıyır (37, s. 204). Bu gün özbək, eləcə də uyğurlarda kiçik qardaş "ükə" və "uka" adlanır (39, s. 441). Biz Ok+uz/Oğuz tayfa adında da bu sözlə qarşılaşırıq və tayfa adını "İşıq, od övladları" kimi izah edirik. Doqquz oğuz birliyinə daxil olan tayfalar içərisində Ku+lun+vuku, Ki+pi (509, s. 17). Adlar Ku+lun+vuku- "Buğa nişanlı oğul", Ki+pi "Bəy oğul" adları mənalarındadır.

**İnim.** Biz qədim dilimizə dair sözlüklərdə bu söz kökünə -m samiti olmadan ini yazılışında "kiçik qardaş" mənasında rast gəlirik (37, s. 210). Lakin sözə tam yazılışında "qərarına görə", "razılığına görə", "nam" yazılışında isə "allah" mənalarında təsadüf edirik (353, s. 430). Qədim türk boyu kutilərin bir çarı İnimabakeş adlanırdı (353, s. 430). Oğuz hakimlərindən İnal Sır Yavquy adında da biz bu söz kökü ilə qarşılaşırıq və bütün bu adlarda mənalar özünü təsdiq edir.

**-İ.** Bu sait M.Kaşğari, V.V.Radlov, Cafəroğlu və b. tədqiqatçıların yazılarında qədim türk dillərində əsasən "ir" yazılışı ilə qeydə alınır. Ayrı-ayrı sait səslərin məna ifadəsi Orxon-Yenisey yazılarında da müşahidə edilmiş və -i saiti "iç" mənasında işlənmişdir. Bundan başqa -bş səs birləşməsini ifadə edən iki yanakı üçbucaq işarəsi "baş" mənasını da ifadə edirdi (235, s. 39). Bir çox qaynaqlarda –i morfemi hərəkət bildirən fel kimi "irdi, erdi" formasında zaman şəkilçiləri ilə yazılı mətnlərdə, şifahi nitqin dialekt və şivələrində ümumişlək fel olmuşdur (42, I c. 164).

**Kad.** Bu söz qədim türk dili lüğətində d≈t səsəvəzlənməsi ilə "keti" yazılışında demon, şeytan adlarından biri kimi təqdim olunur (37, s. 290). Təbii ki, bu sözün istər yer, istərsə də antroponimik adların yaranmasında o qədər də aktivliyi yoxdur. Lakin biz M.Kaşğaridə sözün "yamac" mənası ilə qarşılaşırıq (41, s. 246). Bəzi mənbə və tədqiqatlarda d≈z fonetik səsəvəzlənmə nəzərə alınarsa sözə "kaz, qaz" və "qazmaq" feli, "kad" yazılışında isə "dağın gündüşən tərəfi" kimi mənalarına təsadüf edirik. Altaylarda Uluq-Kat, Kadır-Kat adlarında bu

leksem "dağ yanı, tərəfi" kimi izah olunur (208, s. 92).

**Kal/qal.** Bu komponent haqqında ətraflı məlumat verməklə onun "böyük", "ulu" (ağsaqqal sözündə) və s. mənalarından yuxarıda bəhs etdik.

**Kan.** Biz "kan" komponentinə qədim türk dillərində "məkan", "yer", "bölgə" mənalarında rast gəlirik. Naxçıvan toponimik sistemində qədim Midiyanın 6 tayfa adından biri budilərin adını daşıyan Badaşkan, peçeneqlərin bir qolu Bula tayfa adını daşıyan Bulqan kimi adlar, Azərbaycan toponimik sistemində Astraxan, Beyləqan, Balakən, Mərdəkan (35, s. 11, 15, 71), Orxon-Yenisey yazılarında Kadırkan, Ötükən və s. adlar (235, s. 387) bu qədim komponentin daşıyıcılarıdır.

**Kaf/kap.** Bu qədim söz kökünə V.V.Latışev, R.K.Uslar, İ.Miziyev və b. öz əsərlərində "Kavkaz" sözünü formalaşdıran söz kökü kimi baxmışlar. Yuxarıda da qeyd etdiyimiz kimi "Kavkaz" sözü e.ə. VI əsrdə K.Miletski tərəfindən "Kap akas" şəklinə salınmışdır. Lakin sözün etimoloji mənası barədə heç nə deyilməmişdir. Biz qədim türklərdə-azərbaycanlılarda "kap" sözünün "yurd", "vətən", "beşik" mənalarında olduğunu, sözlük və tədqiqatlarda da bunun təsdiq olunduğunu görürük (160, s. 46). C.Cəfərov "Kavkaz" sözünü "Kap ak+as"- "Uca As yurdu" mənasında açıqlamış və "kap" leksik vahidini "yurd", "vətən", kimi izah etmişdir. Onu da qeyd edək ki, bu istiqamətdə ilk elmi uğur S.Əlizadəyə məxsus olmuşdur. O, "kap" tərkibinin "yurd, vətən, beşik" mənaları üzərində ilk dəfə geniş tədqiqat aparmış, sözün İran-fars, slavyan, german və s. dillərə türk dilindən adlamasını elmi dəlillərlə sübuta yetirmişdir (161, s. 216-218).

**Ka/ku.** Qədim türk dillərində omonim kimi "qismət, pay" və "şan, şöhrət" mənaları ifadə edən "ka/ku" qədim türk sözü olmaqla (208, s. 82; 64, I c., s. 607), Herodotun dövründə türklərin Kuuri şəhər adında (23, V 113), kutilərdə Kuurum çar adı və Kiur tanrı adlarında da (350, s. 399) "şöhrətli yaradan", "şanlı tikiliş, yaradılmış" mənalarını daşıyırdı.

**Kar.** Bu tərkib əski monqol türklərinin dillərində "əziz", "sevimli" mənalarında (208, s. 146), qədim oğuzlarda isə "həmişəlik, əbədi durmaq", "daşmaq", "yalnız" mənalarında (42, I c., s. 432; II c. 197, III c. 182) işlənmişdir. Biz sözün "xar" yazılışında buna nümunələr göstərdik. Kaslarda da biz Kara-Xardaş, Karain-taş kimi antroponimik

adlarda bu mənanı görürük.

**Kara.** Morfem omonim xarakterli olmaqla "qara"-rəng və "qaranlıq" (43, II c., s. 163; 44, III c., s. 33; 462, s. 111), "Yaradılış" dastanında "böyük", "əzəmətli", qazaq, özbək və uyğurlarda "yaman", başqırd və tatarlarda "naçar, əlacsız", türkmənlərdə "pis" mənalarında işlənmişdir (39, s. 436-437). "Dədə Qorqud" kitabında "gənc, cavan", "uca" mənalarına da təsadüf olunur (19, s. 50, 114). Görkəmli dilçi alim A. Babayev "qara" komponentinin 16 omonimlik xüsusiyyətindən bəhs etmişdir (145, s. 139-140).

**Kaş.** Sözə qədim dilimizə dair məlumatlarda "ləkəsiz ağ", "keş"-"parıltılı qızıl ox qabı", qaş- "işıq, şua" mənalarında da rast gəlirik (44, s. 152, 224; 37, s. 303, 431). Burada "parıltılı", "işıq, şüa" mənalarının daşıdığı "kaş, keş, qaş" yazılışlı söz kökünə Kas türklərində Kaşşu "işıq allahı" tanrı adında da rast gəlirik (208, s. 62; 349, s. 130-131). Biz onun günəşə işarə anlamında "işıq" mənası daşıdığını düşünürük (-F.R.).

**Komın.** Sözə "coşmaq" mənasında fel kökü (43, II c., s. 30), hələ e.ə. IV minillikdə Koman (120, I c., s. 515-517), eləcə də qıpçaqlarda Kumanlı türk tayfalarının adları kimi rast gəlirik (324, s. 355). Göstərilən tayfa adlarında söz öz mənasında işlənmişdir.

**Koş.** Morfem əski dövrlərdə "köç yeri" mənasında işlənmiş (48, s. 277; 208, s. 56; 242, s. 32-41), hazırda "koşmaq"-yerini dəyişmək, köç etmək sözlərində Osmanlı türklərinin dillərində də qalmaqdadır.

**Kun/kın** F.Rəşidəddin Ərgənəkon dağ adındakı "kon/kun" sözünü "dağ döşu", sözün özünü isə "şiş, sivri dağ" mənasında izah edir (30, s. 153-154). Lakin yuxarıda da ər+gənə+kon söz köklərinin sözlüklərə əsasən "Seçilən ərlərin qalası" mənasında olduğunu yazdıq. Buradakı "kun/qın" sözü bir çox sözlüklərdə "qala", eləcə də "şəhər" mənalarında işlənmişdir (37, s. 297). Biz Midiya və Manna toponimlərində də bu sözün Kintau, Kuntaşpi kimi çoxsaylı toponimik adlarda "qala" mənasında işləndiyini görürük (208, s. 90).

**Kuru.** Yalnız -u saitinin artımı ilə yazılışında bu söz qədim türk dillərində "ləyaqətli", "dəyərli", mənalarında rast gəlinir (462, s. 35). Bundan başqa qədim şumerlərdə bu söz "xeyir verən" mənasında da işlənir. Sözə kaslarda Urziqurumaş, Kuriqalzu kimi çar adlarında təsadüf edirik (208, s. 52, 60). Biz Oğuz xanın nəslindən olan Koru Yasaq

Yavquy adında da bu sözü izləyirik və hər bir adın etimoloji izahı mənanı olduğu kimi saxlayır (243, s. 133).

**Qam.** Bu əski türk sözü qədim türklərin qamçılıq-şamançılıq inancından gəlməklə, "önü görən", "peyğəmbər", "lənətləyən", şaman, eləcə də türk dillərində "yıxan", "aşıran" mənalarını daşıyırdı. "Köz qamar" ifadəsində isə bu söz "işıq saçan" mənasını verir (37, s. 413-414). Çeçenlərin mifində sözü nağıllarda müsbət ruh kimi görürük. Turdi türkləri tərəfindən Romaya aparılan bu mif e.ə. III əsrdə Roma mifinə "Kamen" kimi daxil olur və o burada bir nəğməkardır (105, t.I, s. 262, 619). "Kəm/qam/maq/manq-şaman" leksik vahidi Azərbaycan mifik təfəkküründə geniş yer almaqla e.ə. IX əsrdə Midiyada Maq, Maqtar, Armanqu, Maqta tayfa və şəxs adlarında qalmışdır (208, s. 92; 284, s. 93).

**Qut.** Bu yazıyaqədərki dövr türk dilinə məxsus komponent "qüvvə" və "güc" anlamında sözlərə qoşulmuşdur. Bu gün də biz "canında qut yoxdur ifadəsində" sözü "güclü" mənasında işlədirik (242, s. 32-41). M. Kaşğari öz sözlüyündə "qut" sözünü "kut" yazılışında "var - dövlət", "uğur" kimi mənalarla izah edir (44, III c., s. 60).

**Lan/lanq.** Bu söz qədim türklərdə "tanrıya xas əlamət", "nişan", "bəlgə" (37, s. 332), eləcə də "ayıran", "seçən" mənalarında işlənmişdir. Söz Kumlanqu-"ayıran seçən şaman" mənasında Altay toponimində, eləcə də qazax, qırğız, uyğur toponimlərində, eləcə də Azərbaycan toponimlər sistemində Şüvələn, Savalan kimi onlarla adda işlənmişdir. Ərazimizdə bu tərkib İlan dağa söykənən Lanq/Lanc təpə adında qalmaqdadır.

**Lax/laq.** Sözün qədim türk dillərində "əlamət", "nişan", "bəlgə" mənalarında işlənməsindən yuxarıda bəhs etdik. Mənbələrdə bu tərkib "san"-"şan-şöhrət" sözünü də özünə birləşdirməklə "lakşan" yazılışında "tanrıya, buddaya xas əlamətlər" mənasını daşımışdır. Sözə həmdə "hazırlanmış", "bişirilmiş" mənalarında rast gəlirik (37, s. 332-333). Göytürklər arasında Yağ+lak+ar-"Sak bəlgəli ərlər", Kar+luq/laq- "Ulu nişanlı, bəlgəli", Bu+luq-"Bəlgəli nəsil" (212, s. 102; 37, s. 125) kimi tayfa adları bu mənalarla işlənmişdir. Etimoloji izahlar tərəfimizdən ilk dəfə olaraq verilmişdir.

**Lulu.** Biz qədim türk dili lüğətlərinə də nəzər saldıqda burad "lu/ulu" tərkibinin "böyük", "əzəmətli", "nəhəng" , "sərt", "güc-qüvvət"

və "əjdaha" mənaları ilə qarşılaşırıq (37, s. 334; 64, I c., s. 593). Fikrimizcə, Lulu+bəy tayfa adı "əzəmətli bəylər" mənasını daşıyırdı.

**Man.** Bu leksik vahid qədim türk dillərində "ulu, qədim, qoca", eləcə də "yüksəlmək" mənalarında işlənmişdir (41, s. 406). Biz bu gün də danışığımızda bu əski türk sözünü "azman", "uzman", "qocaman" kimi işlətməkdəyik və burada söz "qədim, ulu, qoca" mənalarını ifadə edir. Lulubəy türklərinin antroponimik-şəxs adları sistemində Kadaşman Turqu, Kadaşman Harbe (349, s. 134), Midiyada Armanqu, Uzumanda, Mandauk kimi məntəqə və şəxs adlarında da bu söz "qədim, ulu, qoca" mənalarını daşıyırdı (208, s. 92, 105).

**Ma/mu-,Əm/em.** Bu sözün qədim türk dillərinin də "mən", "mənim" və "xalq" (37, s. 41), M.Kaşğaridə və demək olar ki, 45-dən yuxarı müasir türklərdə "əmmək" "yaşamaq" feli kimi müxtəlif mənalarda işləndiyini görürük (41, s. 178; 64, I c., s. 271; 62, s. 712).Qədim skif türklərinin Arimaspir tayfa adında da biz bu sözün Ar+im+as+pir yazılışında "Mən işıqlı As əri" mənasında yeni mənada işləndiyini görürük.

**Maş/muş.** Dilimizin qədim dövrlərində "baş", "igid", "qəhrəman" kimi prototürk-protoazərbaycan dili elementləri bu gün də arxaik formada həm bizim, həm də uyğur, qazax bir sözlə ümumtürk dillərində işlənməkdədir (37, s. 81, 334; 66, s. 541; 462, s. 57). Biz qədim Azərbaycan-türk tayfalarından kutilərdə Elulumeş, kas türklərində Urziqurumaş (349, s. 128, 156) kimi çar adlarında bu sözün eyni mənada işləndiyini görürük. Qədim şumer "Bilqa+mıs" dastanı adı və Peçeneq tayfalarından Tol+maç adında bu leksem eyni mənalarda təkrarlanır (508, s. 91).

**Nu.** Maraqlı etimoloji mənalara malik olan "nu" sözü də e≈u≈o fonetik səsəvəzlənməsi ilə ne/nu/no yazılışlarında "var olan, mövcud olan", "nabi/nəbi" yazılışında isə-"var olanın elçisi, peyğəmbər" mənalarında qədim dilimizin leksikonuna daxil olan söz idi (37, s. 355-356). Yuxarıda da qədim Urmiya ətrafındakı tayfalarda Nabu- "əbədi su", "su allahı" olduğunu, sonra onun Şamaş, Nerqal, Belu tanrıları kimi Misirdə yaşayan yəhudi, eləcə də vavilon və digər xalqların tanrı panteonuna daxil olduğunu (341, s. 301) yazdıq. Bu sözə dair göstərdiyimiz nümunələrlə yanaşı bura Midiya şəxs adlarından Adadanu, Karzinu, Altayda türk xaqanı Tulunu adlarını da əlavə edə bilərik (208, s.106, 124).

**Ni/na.** Qədim dilimizdə omonim xarakterli olmaqla "verdi,

bağışladı" və "mənim" mənalarında təsadüf edilən bu sözə daşıdığı mənada Midiya şəxs adlarından Zanasana qədim Kaspi türklərində Anani kimi xeyli sayda adlarda rast gəlirik (ətraflı bax 208; 349). Bundan başqa bu söz Oğuz boylarının bir qolu olan Çəpni, Xəzər tayfalarından Tərnə tayfa adlarının nominasiyasında da özünü göstərir (210, s.125; 236, I c., s. 127).

**Nek.** Qədim sözümüz olan bu leksik vahidə "nek/nak" yazılışlarında "böyük", "nük" yazılışında "varis" və "döyüş dostu" mənalarında qədim türkdili lüğətlərində və M.Kaşğari sözlüklərində rast gəlirik (37, s. 354, 357, 361; 41, s. 418-420). Bu söz Oğuzlarda Kiniq, eləcə də Peçeneq qədim tayfa adlarımızda (236, I c., s. 125), Midiya toponimlərindən Danaku, alban türklərində Ərnək, Kornak, Parnak şəxs adlarında (208, s. 96, 176), skiflərdə Xonaxis adında (275, s.168) bu mənaları doğruldur.

**Nosi.** Bu qədim türk sözünə yalnız bir sözlükdə "nosi" yazılışında "əbədiyyət, ölməzlik iksiri" mənasında rast gəlirik (37, s. 361). Lakin söz qədim yazı nümunələri və adlar sistemində tez-tez təsadüf olunur və əsasən "ölməz" mənasında işlənir. Göytürklərdə Yinçü/yinsü, Ügüz çay adında (235, s. 387) bu sözə türk dillərində söz önünə **y** samitinin artımı ilə (ulduz-yıldız) təsadüf edilir. Bu cür yazılışa eyni söz kökünü tərkibində qoruyan kassilərə məxsus yanizi/yanisi "hökmdar" , "çar" sözlərində də rast gəlirik (208, s. 84). Azərbaycan toponimik sistemində biz Nusnüs, Nosi, Nic məntəqə adlarında bu sözlə qarşılaşırıq (35, s. 77). Sözün qədim sözlərdə çox az təsadüf edilməsinə əsasən onun toponim yaratmada passiv leksem olduğunu düşünürük.

**Oçır.** Qədim toponimlər və antroponimlərdə qeydə alınan bu söz, kas türklərinin tanrı panteonunda Mirizir "İldırım Allahı"nın adında təsadüf olunur. O.Oeybullayev tərkibi ocir-osir - "ildırım şəxs" kimi izah etmişdir. Bu tərkibi biz qədim türk adlarından Manq+acur, Bayan+cur, İmad+ucur, Kuluq-cur kimi adlarda izləyirik (324, s. 272; 208, s. 62, 82, 144). Sonralar göytürklərdə Kuli Çor, Benü Çor, Külüg Çor adlarında (235, s. 383-384) bu komponent -o saiti olmadan həmin mənanı qoruyur.

**Pal.** Bu tərkibə həm qədim türklərdə, həm də uyğur, altay, tatar dialektlərində "bal/mal"-"oğul", "varis" mənalarında rast gəlirik (64, t. I, s. 48, 349). Yuxarıda qeyd etdik ki, qədim Naxçıvan ərazisində yaşayan tayfalardan birinin adı da Pal idi. Kiçik Asiyada Miliada-"Pal

yurdu" adlı ərazi mövcud idi (23, I 173). Biz III əsrdə albanlarda Balasakan-"Sakların varisi", Balk-"şöhrətli oğul, varis", turklərdə Bal+as+aqun-"uca as oğlu" Bal+bars-"Şir oğlu", göytürklərdə Bal Çor-"İldırım övladı" (235, s. 383) kimi adlarda da bu sözlə qarşılaşırıq. Etimoloji izahlar tərəfimizdən ilk dəfə olaraq verilir (-F.R.).

**Pi.** Yazıyaqədərki dövr protoazərbaycan leksik vahidləri sistemində, eləcə də prototürk və şumerlərdə "bi/pi" yazılışı ilə "bəy" mənasında işlənmiş, çoxsaylı türk tayfa adlarını formalaşdırmaqla onların türk-Azərbaycan tayfası olduğunu sübut edən danılmaz dil faktı olmuşdur. Bu komponent yalnız qədim türk tayfalarının adlanma - nominasiyalarında Lulu+bi, Su+bi, Kas+pi, Sil+bi, skif tayfalarından Tras+pi, Arimas+pi bunlardan sonrakı minilliklərdə Kom+bi, Göytürk tayfalarından Tata+bi Dokuz oğuz birliyinə daxil olan Ki+pi XVII əsrdə monqol türklərindən Turba+bi və b. tayfa adlarında iştirak etmişdir (Ətraflı bax 212, s. 98-108; 243, s. 215; 509, s. 17.).

**Puşan.** Qədim türk sözü olan bu leksik vahidə adlar sistemində az işlək söz olmaqla "narahat" yazılışında rast gəlirik (37, s. 545,). Söz -an mənsubluq şəkilçisi olmadan "puş" yazılışında M.Kaşğari lüğətlərində "sis, duman", "pusmaq" kimi də izah edilmişdir (41, s. 475). Əgər türk dillərinə məxsus q≈ç≈s≈z fonetik əvəzlənmələri nəzərə alsaq, o zaman hunlarda Buqan/Bagan tayfa adının da (508, s. 91) buradan gəldiyini düşünmək olar. Fikrimizcə, göytürklərdə Buzaç Tutuk antroponimi (235, s. 383) bu sözdən-"pusmaq və tutmaq" mənasından formalaşmış addır.

**Rəm/ram.** Söz qədim türk dillərinə məxsus leksik vahid olmaqla "ilk" mənasında işlənmiş, soqdi uyğur təqvimində isə "ilin ilk ayı", "ilk ay" (37, s. 476) kimi mənalar daşımışdır. Digər qədim sözlüklərdə bu sözə təsadüf edilmir. Lakin tədqiqatlarda sözə "su burulğanı", "çaylaq", "subasar ərazi" mənalarında rast gəlirik. Q.Qeybullayev Midiya toponimlərindən Urimzan adındakı "urim" komponentini su ilə bağlı göstərilən mənalarda izah edir (208, s. 94). Ola bilsin ki, müasir Osmanlı türklərindəki irm+ak-"çay" sözü bu kökdən gəlir.

**Sin.** Bu qədim dil elementi türk dillərində titul kimi işlənmiş və qədim şumerlərdə Sin tanrı adı olmuş, Rim-Sin, İbbi-Sin, Ur-Suen kimi allah adlarında təkrarlanmışdır (120, I c., s. 215, 221, 304; 208, s. 51). Onun qovuşuq -nq samiti ilə (191, s. 131), "sinq" kimi yazılışı

M.Murzayev tərəfindən "şiş, çətin alınan zirvə" mənasında izah edilmişdir (48, s. 397). Türk sərkərdəsi Timurçin adında "çin" komponentinin "rütbə" ifadə etdiyini düşünürük.

**Saq.** Həm Sak şəklində tayfa adı, həm də M.Kaşğari lüğətində "saymaq" mənasında fel olan bu sözə "qonuq körüp qutqa saqar"- "Qonaq görmək (qəbul etmək) xoşbəxtlik sayılar" ifadəsində rast gəlirik (42, I 85 ; 37, s. 486). Bəzi qədim sözlüklərdə "diqqətli", "ehtiyatlı", "məğrur", "yüksək", "həssas", "fikirləşmək", "saqa" yazılışında isə "dağın ətəyi" mənalarını ifadə etmişdir (37, s. 486-487). Fikrimizcə, Sak tayfa adı kasların Sax tanrı adından "yüksək", "məğrur" mənalarını ifadə edən inancdan götürülmüşdür. Sözə Midiyada Saqbat- "Sak yurdu" toponimində, peçeneqlərdə Saka-Kat-"Qüvvətli Sak" qala adında rast gəlirik. Adları "çay ağzı" və "dağ qolu" mənasında izah etmişlər (300, s. 256; 331, s. 230) və biz adların etnotoponim olduğuna əminik. Bunu söz tərkiblərindəki türk dilindəki canlı isimlərə aid "bat"- "yurd", "kat/kut" "qüvvətli" sözləri də təsdiq edir.

**Ye.** "Sahib olmaq" qədim türk sözü olan bu komponent (37, s. 252) xeyli sayda qədim şəxs və məntəqə adlarında təkrarlanır. Biz oğuzlarda Yeva, Yığdır, hunlarda Yegruş/Yugruş göytürklərdə Yatız/Yetiz (236, I c., s.125-127) kimi tayfa adlarında rast gəlirik. Alban şəxs adları içərisində Yeqani, Yunsatax adlarında da bu söz adları formalaşdırmışdır. Adların türk dilində etimoloji izahları Q.Qeybullayev tərəfindən verilmişdir. Fikrimizcə, türk dillərində fellərin ilkin variantda "de, at, get" kimi birhecalı olma variantları nəzərə alınarsa, "ye" fel kökü də hazırda dilimizdə işlənən "yiyələnmək" felinin ilkin forması olmaqla elə "sahib olmaq" mənasını ifadə etmişdir.

**Taf/tab.** "Şöhrətli", "şanlı" mənasında olan bu söz az işlək leksik vahid olmaqla qədim türk dillərində əsasən tayfa adlarının yaranmasında As+taf-"Şöhrətli As", Tab+ay-"Şanlı Ay tanrısı" mənalarını ifadə edirdi (208, s. 102). Göytürk tayfa adlarından Tatabi, Tüpüt (212, s.107), Abakan xakas boylarından Tuba (236, s. 17) kimi tayfa adlarında bu söz "şöhrətli", "şanlı" mənalarını özündə saxlamışdır.

**Tal.** M.Kaşğarinin, V.V.Radlovun lüğətlərində bu tərkib "tal", "dal" yazılışında "budaq-ağacın budağı" mənasında izah edilmişdir (41, s. 563; 42, I c., s. 412). Daha sonra biz "tal" sözünün daşıdığı "budaq" mənasına areal türk dillərində, o cümlədən başqırd, özbək,

uyğur, tatar, qazax, qırğız dillərində "botaq", "tal", "şak", "putak" yazılışlarında rast gəlirik. Eyni zamanda bu sözə qədim türk tayfası Tal, peçeneqlərdə Tolmaç, eləcə də Sibir türklərində Teleut kimi tayfa adlarında da (508, s. 91) rast gəlirik.

**Tap.** Komponent əski türk dillərində "azad", "hörmətli", eləcə də "durmadan vuruşan", "xidmət edən" mənalarında işlənmişdir (37, s. 533). Bu söz kaslarda Tiptakzi (349, s. 130), Midiyada Tabay adlarında öz mənasını saxlamışdır (bax, 208, s. 102). Sözə göytürklərdə Tabğac, Tüpüt, Tatabi (212, s. 98-108), xakaslarda Tuba/Tapa (236, Ic., s. 17) tayfa adlarında da rast gəlirik.

**Tar/tör.** Bu söz qədim türklərdə "tayfa, törə, duracaq" kimi mənalarla əski türk dilindədir (52, I c., s. 666; 208, s. 75). Söz başqırdlarda "tormoşo"- "ümumi həyat" "tormoş" şəkillərində yazılır (61, s. 470). Buradakı "tor/tur" komponenti "ümumilik" və "toplum" ifadə edir. Hələ e.ə. VIII əsrdə Təbriz yaxınlığında Tarvi məntəqə adı, eləcə də Tal tayfalarının yurdu olan Təbriz şəhər adının da Assur dilində Tavrakis, Tarmakis yazılışları da (208, s. 99) adları "toplumun evi" mənasında açıqlayır.

**Tavr.** Bu söz qədim türk dillərində "var-dövlət", "düşərgə", "möhkəmləndirilmiş qala" mənalarında işlənmişdir (37, s. 542; 208, s. 98). M.Kaşğari söz sonuna -a saiti artırmaqla onu "tavar" yazılışında "mal", "mülk" kimi izah edir (41, s. 586). Əgər xatırlasaq qədim türklərin yaşadığı Krım ərazisi Tavr, onun dağları isə Tavr dağları adlanırdı (23, IV 99-100). Bu nəzərə alınarsa sözün "möhkəmləndirilmiş qala" mənası daha çox həqiqətə uyğundur.

**Tay.** Bu morfem, M.Kaşğari lüğətində "tay" və "qaymak " kimi izah edilmiş (44, III c., s. 158, 244), daha sonra bu komponent E.M. Murzayev tərəfindən "təpə" (48, s. 548), Y.B. Yusifov tərəfindən isə, "tərəf" mənalarında izah edilmişdir (489, s. 21-22). Biz bu söz skiflərdə Tarqitay adında (23, IV 5, 7), monqol türklərində Cığatay, uyğurlarda Xatay tayfa adlarında təsadüf edirik. Q.Qeybullayev Manna və Midiya toponimlərində Ereşteyana, Arsita, İzirta, Meista kimi xeyli toponimdəki "ta" sonluğunu "tay" kimi qəbul edərək onu "yer", "tərəf" mənasında izah etmişdir (208, s. 76). Fikrimizcə, sözlərdəki bu sönlüq sözlərin ilkin köklərinin məna çalarına görə "yer" və "aidlik ifadə edir.

**Taz.** Bu tərkib "taz/tas/daz" yazılış formasında "keçəl, daz" və

"eşik, bayır" və s. Mənalar daşımışdır. Biz sözə "töz" yazılışında "tayfa", "tirə", "nəsil", "tuz" şəklində "qonaqlamaq", "duz", "gözəllik" (37, s. 676; 42, I c., s. 296; 61, s. 806), "tıs" yazılışında "eşik, bayır" və "xalq, soy-kök", "düşmək", "dayanacaq" (44, III c., s., 676-677, 679; 64, I c., s. 379) və s. mənalarda rast gəlirik. Komponentə tüş yazılışında isə "mötəbər" mənasında təsadüf edirik (37, s. 590; 210, s.19). Bu soz qədim türk onomastikasında Tuzmış, Tuzbay, Tusman, Turktaz kimi adlarda ( 235, s 385; 208, s. 60) göstərilən mənaları təkrarlamışdır.

**Tinq** tərkibi "düz dayanan", "məğrur" mənasını daşıyırdı (37, s. 561). Adın tərkibində "tinq" komponentini oğuz dillərinə məxsus -nq qovuşuq samiti ilə işləndiyini düşünürük (168, s. 261). Doqquz oğuzlarda Tonqra, göytürklərdə Tanqut, Tonqra kimi tayfa adları (212, s. 509, s. 17) bu söz daşıyıcılarıdır.

**Tu.** Komponent qədim türk dillərində "su", "göl", və "dağ" kimi mənalar və yozumlarla izah olunur (210, s. 19). Bundan başqa sözün "sədd olan", "bağlayan", "tutan", "sahib olan" mənaları ilə də qarşılaşırıq (64, s. 716; 37, s. 584).Biz yuxarıda bu sözün "dağ" mənası və digər mənalarına dair nümunələr göstərdik. Biz qədim Kuti türklərində İmta, lulubəylərdə Satuni şəxs adlarında (208, s. 52, 57) "sahib olan" mənasında işlənmişdir.

**Tun.** Söz omonim kimi "ilk", "birinci" eləcə də "sakit", (könül tun boldi), "**tün**" yazılışında isə "qaranlıq, zülmət" mənalarında yazılı abidələrimizə daxil edilmişdir (37, s. 586, 596). Bu gün Dunay, Tuncay, Tunay kimi adlarda da bu məna qalmaqdadır. Qədim antroponimik sistemdə Alp ər Tonqa "Uca işıqlı, şöhrətli ər", Cəm Tonra- "Yerin işıqlı əri", Tuncər- "İşıqlı zəkalı ər" kimi adlarda biz sözün "işıqlı", "parlaq" mənalarında olduğunu düşünürük (-F.R.).

**Tur/tura.** Sözə "duracaq", "düşərgə"mənalarında rast gəlirik (208, s. 75). Qədim mənbələrdə "tur" komponenti türklərə aid söz kimi "əbədi", "durmaq, qalxmaq, toplanmaq", "tayfa" mənalarını daşımış, "tura" yazılışında isə "möhkəm qala" mənasında işlənmişdir (37, s. 586; 64, I c., s. 248). XI-XII əsr türk yazılı abidəsi olan "Kutadqu bilik" əsərində "tura" morfemi "qala" mənasında açıqlanır (499, s. 84, LIX). Qədim türklərdə "tur" - "sürətli atlı tayfalar" kimi adlandıqlarını görürük (382, s. 150). Oğuzlarda Yığdır, başqırdlarda Tirgeş (236, s. 126; 300, s. 14) tayfa adlarında söz bu mənada işlənmişdir.

**Tuy.** Bu qədim türk dilinə aid söz simvolik məna daşımaqla tuy- "bənzər" və "tuğ" yazılışında "bayraq", "qızıl" mənalarında işlənmişdir (64, s. 716; 37, s. 584). Əgər yadımıza salsaq qədim şumerlərdə Utu/Uutuy günəş allahı idi. O, zülmətlə mübarizə aparır və insanlara işıq bəxş edirdi (ətraflı bax 207). Bundan başqa bu söz kökünə Kitay türk tayfa adında da rast gəlirik. Bəzi araşdırmalarda Kitay/Kituy qədim türk tayfaları "ənənəvi" irandilli hesab edilsə də, biz bu tayfa adına göytürklərdə də təsadüf edirik ( 212, s. 98-99). Bu gün dilimizdəki "özünü tay tutmaq" ifadəsində "bənzərlik" mənası qalmaqdadır.

**Uca.** Müasir leksikonumuzdakı "uca" sifət bildirən sözlə heç bir əlaqəsi olmayan bu leksem, qədim türk dillərində "kiçik koma", "kiçik taya", "yuxarı", "seçilən" mənalarında, bəzən də "şəri xeyirdən seçən", "ayıq adam" mənalarında işlənmişdir (37, s. 604; 64, I c., s. 623; 42, I c., s. 267). Biz göytürklərdə Ucun Buntatu, Üçin Külüg şəxs adlarında (235, s. 386), hazırda ölkəmizin toponimik sistemində Ucar rayon adı, Ucar şəxs adlarımızda bu sözlə və məna ilə qarşılaşırıq. Bu gün dilimizdəki "o uca adamdır" ifadəsində uca sözü boyun ucalığı mənasında deyil, "seçilən" mənasında qədim mənanı qorumaqdadır (-F.R.).

**Ulm/ulam.** Qədim türk dillərində "arxa, dayaq" sözündən (37, s. 608) və -a kiçiltmə şəkilçisi ilə birlikdə "məkan" mənasını ifadə edir (256, s. 40). Qədim kas çarlarından biri Ulamburiaş idi. Q.Qeybullayev bu ad və məna ilə bağlı elmi cəhətdən xeyli faktlar göstərmişdir (208, s. 58). Göytürk yazılarının tədqiqatçılarından olan Ə.Rəcəbov da kitabələrdəki şəxs adlarından birinin Ulun Şad olduğunu göstərir (235, s.385). Əgər türk dillərində sonor samitlərin bir-birini əvəzləməsi hadisəsini əsas götürsək söz kökü bu adda da təkrarlanır.

**Um.** Qədim türk dilinə məxsus bu söz omonim xarakterli olmaqla "güvəncli", "etibarlı", "mən" mənalarında işlənmiş, "uma" yazılışında isə, "yolçu", "qonaq" mənalarını ifadə etmişdir (37, s. 611). Sözün türk dilləri üçün xarakterik olan m≈b səsəvəzlənməsini nəzərə alaraq "ub" yazılışında mənasına diqqət etsək, bu qədim türk dili leksik vahidi əski türk tayfalarının dillərində "son" və "xırdalanmaq", eləcə də "gənc" mənalarında da işlənmişdir (37, s. 619; 64, I c., s. 561). Ümumən bu yazılış və mənalar qədim Altay türk mifində Umay tanrısı, şumerlərdə isə Umma şəhəri adlarında təsadüf edilir (ətraflı bax, 5; 106, II c.). Qədim göytürklərin Umaç, Umay bək, Umsue şəxs adlarında da biz bu

sözə təsadüf edirik (235, s. 385).

**Unq.** Bu qədim söz dilimizdə "mümkün olan", "fərz edilən" mənasını daşımışdır (37, s. 612; 42, I c., s. 238, 44, III c., s. 102; 65, II c., s. 597 ). Omonim kimi işlənən bu söz Midiyada bir qala, Armanqu adında (208, s. 92) qeydə alınır. Daha sonra göytürklərdə Bayna Sanunq, Urunqu, Ulun Şad (235, s. 383-385) kimi adlarda işlənmişdir. Bu sözün oğuz dillərinə məxsus -nq qovuşuq samiti ilə işləndiyini, -q samitinin bu sözə "səğir nun" kimi qoşulduğunu düşünürük (168, s. 261).

**Ur.** Biz bu tərkibin "uri" şəklində "oğul, varis" mənasına "urim uç erti"-"mənim uç oğlum var" kimi ifadədə rast gəlirik. "Ur" komponenti o≈u səsəvəzlənməsi ilə də eyni mənanı daşımaqla ona qoşulan xeyli sayda "ur+am/or+am" "kuçə", "ur+du/or+du"-"saray", "iqamətgah", "ur+ay+ut" –"evin işığı- qadın", "ur+il+an" –"yurda ovlat gətirmək" "ur+paq"- "geyim" (örpək, bədənin məskəni, yurdu -F.R.) kimi və s. sözlərdə də bu mənanı daşımışdır (42, I ç., s. 138; 37, s. 370). "Uru/ur"-komponenti qədim türk dillərində "qurmaq, tikmək" feli kimi də işlənmişdir (208, s. 92). Bu tərkib şumerlərin "Bilqamıs"dastanında Uruk yazılışı ilə "şəhər" (5, s. 8, 42, 44, 90), prototürklərdə ur-"məskən, qurmaq" mənaları ilə, -di şəkilçisi artırılmaqla işləndikdə isə, "urdi"-"məskunlaşdı", "torpağa əyildi" mənasını verir (42, Iç. s. 164). Sözün "urdi" məna ifadəsi bəlkə də ilkin oturaq həyat işarəsi olmuşdur (-F.R.).

**Urum/irim.** "Nişanə", "əlamət" kimi əski türk dilində işlənən bu komponent (52, I c., s. 666; 208, s. 75) fikrimizcə, "ur+um" leksik vahidlərinin birləşməsindən yaranan mürəkkəb sözdür. Bu gün də biz çuvaş, başqırd dillərində "saray" sözünun "urum"-"mənim qurduğum, evim", "urt"-"tikili yurd", "ku+ur+ak"- "şöhrətli uça ev", saray gözətçisinin "xeraram" adlandığını görürük (62, s. 125; 61, s. 160).Bundan başqa bu söz qədim türklərdə həm də rütbə mənası daşımışdır (37, s. 615). Sözə kaslarda Urziqurumaş- "Mən sayılan zəkalı ər" (208, s. 52, 60), eləcə də kutilərdə Kurum çar adlarında (350, s. 399) bu söz kökü göstərilən mənalarda işlənmişdir.

**Urpaq.** Bu söz qədim türk dillərində "urpaq, orpaq" yazılışları ilə "geyim" (bədənin məskəni yurdu -F.R.) mənasında işlənmişdir (42, I c., s. 138; 37, s. 371, 614). Bu gün dilimizdəki "örpək" sözümüz ilə eyni fonetik quruluşda olan bu leksik vahid həm də eyni mənaya xidmət etməkdədir. Bundan əlavə orfoqrafiya lüğətimizə daxil olan

"örtük" ismi, "örtmək" feli də bu sözlə eyni kökdən gəlirlər.

**Us.** Söz kökü M.Kaşğarinin "Divanında" omonim kimi işlənmə xüsusiyyətinə malik olmaqla "susmaq", "sanmaq" "kərkəz quşu", "xeyir" və başqa mənalarla göstərilmişdir (41, s. 699). Bundan başqa "us" sözü digər türk dili lüğətlərində yenə də omonim kimi həm "ağıl, zəka", həm də, "müdrik" sözlərini ifadə etmişdir (355, s. 13; 64, I c., s. 606-608). İ.L.Jukovski bu sözü "es" yazılışında da "ağıl, zəka", "müdrik" mənalarında izah etmişdir (355, s. 13). Əgər biz Kuti, Lulubəy tayfalarında Elulumeş, İnimabakeş, İnqeşuş, kaslarda Suriaş kimi şəxs adlarının (349, s. 128; 353, s. 430), Manna dövlətlərində Uauş dağ adı və Midiyada Buriaş kimi çar adının sonuna diqqət etsək bu söz həm sonluq, həm də leksik vahid kimi ümumişlək söz olmuşdur (349, s. 290).

**Van.** Naxçıvana aid çoxsaylı toponimdə sonluq kimi işlənən bu söz adlara qoşulmaqla "yer", "məkan" ifadə edir. Əgər qədim türk dilləri üçün xarakterik olan b≈v fonetik hadisəsini nəzərə alsaq "van" tərkibi "bun", "ban" yazılışlarında həm "nəsil, tayfa, tirə, soy", həm də "uca" mənalarını ifadə etmişdir (19, s. 94; 57, IV c., 2 h., s. 1813; 37, s. 81, ). Göründüyü kimi bu söz kökü istənilən səs əvəzlənməsi ilə türk dillərinə aid olmuş və bu söz erməni dilinə onlar türklər tərəfindən assimilyasiya olunduqdan sonra adlamışdır. Bunu sübut edən amillərdən biri də Turk+a+van, Şe/Şu+van Şir+van Minc+i+van kimi çoxsaylı toponimlərdə prototürk Türk, Şu, Şir, Manq kimi tayfa adlarının mövcudluğudur. Bundan başqa Ay+qa+van, Zər+gə+van, İce/izi+van kimi toponimlərdə isə, sözün başlanğıc köklərinin ay, izi-"istiq", zər-"işıq" kimi qədim türk leksik vahidlərindən ibarət olmasıdır. Yuxarıda da qeyd etdiyimiz kimi Sözdəki "van" tərkibi yalnız türklər yaşayan ərazilərdədir (ətraflı bax, 103; 521, s. 102-103; 358, s. 469).

**Yindik/yinğik.** Qədim türklərin leksikonunda "yenidən güclənmək" və "öncül" (43, II c., s. 32; 44, III c., s. 326; 284, s. 94; 208, s.79; 97, I c., s. 268; 64, I c., s. 153) mənalarını ifadə edən bu söz bu gün də "yenmək" felində eyni köklə, eyni mənanı daşıyır. Bu qədim türk sözünə həm də "Ulayundık" Oğuz tayfa adında da təsadüf edirik. Qeyd edək ki, müasir "öndə" sözü də bu kökə çox yaxındır.

**Yol.** Göstərilən komponent "bəxt tanrısı", bəzi hallarda isə "qurtarmaq", "yardım etmək", "yul/yulu" şəklində isə "işğal etmək"

mənalarında işlənmişdir (37, s. 271, 277; 44, III c., s. 811). Göytürk adlar sistemində biz Yol Ana-"Bəxt tanrısı Anu", Yolığ tigin "Uca bəxt tanrısının təgini- şahzadəsi" mənalı şəxs adlarına rast gəlirik (235, s. 384). Bu adlarda qədim dil leksik vahidləri öz mənalarını qorumaqdadır. Q.Qeybullayev "monqol" tayfa adındakı "ol" sözünü "yol" sözünün y samiti artırılmaqla yazılışı forması kimi qəbul edərək onu "ol/ul" yazılışında şəkilçi qəbul edir (208, s. 68). Lakin biz qədim Manna adını əmələ gətirən "maq/manq" söz kökünü elmi cəhətdən birmənalı təsdiq olunmuş "şaman" qəbul etsək, o zaman "ol/ul" komponenti ilə monq+ol sözünün etimoloji izahı "yardım edən şaman" mənasında açıqlanır. Fikrimizcə, bu komponent hər iki halda şəkilçi deyil, leksik məna daşıyan morfemdir və bunu sözlərin daşıdığı məna da təsdiq edir.

**Yu/şu.** Bu qədim tük leksik vahidi y≈s≈z səsəvəzlənmələri nəzərə alınmaqla "su/şu/zu" yazılışında "o, bu" işarə əvəzliyi kimi işlənmişdir. Bununla bərabər biz qədim şumerlərdə Zuən "Günəş və Ay Allahı"nın adını görürük (208, s. 51, 82). Əgər bu adda "zu" komponentini "o, bu" işarə əvəzliyi qəbul etsək, ən/an komponenti yenə də şumerlərdə An tanrısının adıdır. O zaman Zu+ən-"bu Anudur" mənasında açıqlanır (-F.R.). Bu müasir türk dillərində "şu adam", "şunu ver" ifadələrində də eyni məna ilə təsdiqlənir. Biz komponentin bu mənalarını döğru hesab edirik.

**Zat/şat.** Prototürklərdə "zadəgan" mənasında işlənən bu leksik vahidə Mannada Zata-"böyük şad, zadəgan", kaspilərdə isə Şatibarzan-"Şöhrətli gənc sad ər" adında rast gəlirik. Bu adı şat+ub+ar+san formasında "ub"- "gənc", "ər"- "ər, kişi", "zan/san" (ad-san)-"şöhrətli" komponentlərinə əsaslanmaqla mənaları ümumiləşdiririk (ətraflı bax, 37, s. 619). İzahlar tərəfimizdən ilk dəfə verilir. Q.Qeybullayev bu adları "za"- "ürək", "ta"-"allahın köməyi ilə", "şat"- "zadəgan, şahlığa layiq və riməxsus olan, "bar"-"parıltı", "zan/sanq"- "başçı" kimi anlaşılmaz şəkildə izah etmişdir (208, s. 105, 124). Bu halda Zata-"allahın köməyi ilə ürək", Şatibarzan- "məxsus olan parıltı başçı" mənalarında anlaşılmır. Biz verdiyimiz izahları daha doğru sayırıq. Bu leksik vahid Ulun Şad, Kür Şad adlarında da eyni mənada təkrarlanır (349, s. 130-131; 235, s. 385; 208, s. 124).

**Zun/san/sin.** Bu qədim "san" türk dili leksik vahidi-"şan-şöhrət", "sayılıb seçilən" "hörmətli" mənalarında izah olunmuşdur (43, II c., s.

28; 37, s. 483). Biz yuxarıda Şatibarzan adında bu leksik vahiddən danışdıq və Midiya şəxs adlarından Zanzar, Zanasana, Sanqibuti Mannada Qilzan çar adları və toponimlərdə də bu leksik vahidlə qarşılaşırıq (331, s. 213; 208, s. 197).

**Ze/sa.** Dilimizi yazıyaqədərki dövrünə aid olan bu komponent qədim türk dillərində "ürək" mənasında, bəzi hallarda isə "zu" yazılışında "bilikli", "müdrik" mənalarında da işlənmişdir (353, s. 78). Biz e.ə. III minillikdə qədim Lulubi türklərinin bir çarı Satuni adında bu komponentlə rastlaşırıq (208, s. 57). Bəzən bu leksik vahid "sa" yazılışında "saymaq", və "sən" mənalarında da işlənmişdir (37, s. 478). Manna hakimi İranzu, Midyada Silxazi, Tiptakzi, Zata, Anzi kimi çoxsaylı şəxs adlarında göstərilən mənalar qalmaqdadır (353, s. 78; 208, 103). Biz peçeneqlərdə Suru Kulbey tayfa adında da bu komponentlə rastlaşırıq (508, s. 91).

## 2. QRAMMATİK VAHİDLƏR – ŞƏKİLÇİLƏR

**-An.** Əsasən tayfa adları və bu adlarla yaranmış toponimlərə qoşulan bu şəkilçi "mənsubluq", bəzən də "bənzətmə" mənalarını ifadə edir (168, s. 251). Peçeneqlərdə Yazı Kapan, Avar hunlarda Tohan, Bayan, Talan, (508, s. 91), qədim Mesopotamiyada və qıpçaqlarda Koman, Kuman kimi tayfa adlarında (ətraflı bax, 120, I c.; 324, s. 335), eləcə də Manna və Midiya toponimlərindən Qilzan, Urimzan kimi adlarda (349, s. 88) bu mənalar qorunur. Biz bu komponentə Şabran, Gilan, Kasan kimi onomastik vahidlərdə də rast gəlirik.

**-Çı.** Türk dillərində "məxsusluq", "sahiblik" şəkilçisi kimi işlənən bu şəkilçi (53, II c., I h., s. 1451) massaget türklərində Massaçi, (221, s. 30), peçeneqlərdə Kuerçi Çur (508, s. 91), Bulqar türklərində Qazançı (300, s. 226), Alban tayfalarından Quşçu, Türkəçi (168, s. 149) və s. tayfa adlarında rast gəlinir.

**-La.** Umumişlək xarakterli bu şəkilçi demək olar ki, dilimizin ən qədim dövrlərindən isimdən felin əmr formasını yaradan və müasir dilimizdə də işlək şəkildə tumar+la, baş+la, duz+la, yağ+la düzəltmə fellərində təkrarlanan şəkilçidir. Qədim türk dili sözlüyü şəkilçinin həm eyni yazılışda ədat, həm də "lo", "lua" yazılışlarında "arzu" ifadə etdiyini də göstərir (37, s. 332). Göytürk tayfaları Yağlakar, (212, s. 105), hunlarda Tolu tayfa adlarında bu şəkilçi işlənmişdir (508, s. 91).

**-Ut, at.** Qədim türk dillərində həm "yer, məkan", həm də

"cəmlik" ifadə edən -at şəkilçisi bəzən də -t samiti ilə ayrıca şəkilçi kimi işlənmişdir (64, I c., s. 284). Biz prototürklərin dillərində bu şəkilçinin paralel olaraq "cəmlik" və "məkan" mənalarının ifadə etdiyini də görürük (168, s. 247). Qədim Kas tayfa adının Kassit yazılışında, skiflərin, oğuzların Paralat və Bayat tayfa adlarında (208, s. 136) bu şəkilçi "cəmlik" ifadə edir. Naxçıvan ərazisinin Kur+ut-"Kiur yurdu", Kil+it-"Kol yurdu", Kom+at-"Kam/Qam yurdu", Şur+ut-"Şar tanrısının yurdu" kimi adlarda isə bu şəkilçi göründüyü kimi "yurd, vətən" mənalarında işlənmişdir.

## 3. FONETİK HADİSƏLƏR

### 3. 1. SƏSƏVƏZLƏNMƏLƏR-PARALELLİKLƏR

Türk dillərinə məxsus fonetik hadisələr e.ə. V-III minilliklərə aid olan Naxçıvan etnooykonimlərdə də müşahidə edilməklə öz izlərini o dövr yazılı abidə mətnlərindəki türk sözlərində də qorumuşdur. Ümumtürk dialektləri üçün xarakterik olan səsəvəslənmə hadisəsi haqqında geniş məlumatlara N.Məmmədov, A.Qurbanov, A.Axundov, A.Babayev, T.Hacıyev, M.Şirəliyev, və b.tədqiqatlarında rast gəlirik. Bu araşdırmalarda arxasıra və önsıra saitlərin o cümlədən kar, cingiltili və burun-sonor samitlərin bir-birini əvəzləməsi hadisələrinin şərhləri və dialektlərdən nümunələr geniş yer alır. Azərbaycan, eləcə də türkmən, başqırd, tatar, qazax, qırğız, uyğur və s. dillərdə fonetik təzahürlərdən biri də sait, samit və sonor səslərin əvəzlənmələri hadisələridir. Naxçıvan oykonimləri də bu hadisələrdən kənarda deyil və geniş şəkildə ümumtürk fonetikasının təzahürlərini qorumaqdadır.

**-a≈e.** Qədim Kas və Tal türklərinə aid Keçil, Keçezor, Xoşkeşin (2 kənd), Kurəkeşin, Keştasp, Telsin məntəqə adlarında bu fonetik hadisə arxasıra və önsıra saitlərin bir-birini əvəzləməsi ilə müşahidə edilir. Azərbaycan, o cümlədən də Naxçıvan ərazisində bu səsdəyişimi Culfa və Ordubad dialektlərində xalça-xəlçə, qəmiş-qamış-kamış və s. şəkillərdə rast gəlinir (266, s. 40).

**-a≈ə.** Ümumtürk arealında əsasən türkmən, başqırd, tatar dillərində "vatan", "zarar" "adalat", "ədam" , "xalça-xəlçə" kimi işlənən bu səs əvəzlənməsi (39, s. 4-5), Naxçıvan ərazisində yaşamış qədim As, Koman, Kas, Doray türklərinin adlarını daşıyan Əşnək, Əsni, Kəsir,

Ərgəz, Kəsiran, Kəsəngor, Kəsilək, Gəlkəş, Kəstənli, Dərgəmərik, Dərbənd kimi məntəqə adlarında qeydə alınır.

**-a≈i.** Arxasıra saitlərin önsıra saitləri əvəzləməsi fonetik hadisəsi qədim Tal və Kas türklərinin adını daşıyan Kisək, Kəsiran, Ortukiş Tilyak məntəqə adlarında müşahidə olunur. Türklərdə "aşk" sözü türkmən, uyğur dillərində "işk" kimi işlənir (39, s. 30-33).

**-a≈o.** Qədim türk boyları As, Kas, Koman, Doray türklərinin adını daşıyan Oşakan, Kosacan, Koş, Kosalar Koş-kabar, Kamura məntəqə adlarında qeydə alınan önsıra saitlərin bir-birini əvəzləməsi hadisəsi uyğur, özbək və digər türk dillərində "darğa-dorğa", "naxoş-noxoş", "camış-comuş" kimi sözlərdə müşahidə olunur (39, s. 42).

**-a≈u.** Əngus Lulubəy Kususuz, Kuşuh Şətili, Şada Tulud, Pul kimi məntəqə adlarında təsadüf edilən bu fonetik hadisəsi ilə yanaşı oy-konimlərdə o≈u, a≈u, b≈p, i≈a səsəvəzlənmələri də müşahidə edilir. Dodaqlanan və dodaqlanmayan saitlərin "yuvan-yavan", "Cuvad-Cavad", "kilisə-kalisə" şəklində əvəzlənmələri tatar, türkmən, o cümlədən də Qazax, Göyçə, Corat dialektlərində daha çox müşahidə olunur (266, s. 41-43, 80).

**-a≈ü.** Üstüpü, Astap, Astafna. Birinci ad Naxçıvan qəzasına daxil olan Azadcirən nahiyəsi daxilində 1590-cı ilin məlumatlarında Parağa və Çənnəb (bir adı da Səlnab) kəndləri arasında, 1728-ci ildə yenə həmin ərazidə bu dəfə Biləv və Çənnəb məntəqələri arasında qeydə alınır (77, s. 179; 110, s. 31). Bu adla eyni tərkibə malik olan Astap məntəqəsi isə, yenə də Naxçıvan qəzasına daxil olan Dərələyəz nahiyəsində Ələyəz və Ərdiş kəndləri arasında qeydə alınır. Astafna adına gəldikdə isə, bu ad Naxçıvan qəzası daxilindəki Sürməli nahiyəsinin Əvəzqışlaq və Tovuzgönlü kəndləri arasında 1590-cı ildə adı siyahıya alınmamış kənd kimi verilmiş, 1728-ci ilin məlumatına isə İstəfna yazılışında düşmüşdür (77, s. 64).

**-i≈ə.** İtlicə məntəqə adında müşahidə olunan bu fonetik səsəvəzlənmə Uti+il+izi yazılışındakı məntəqə adını ilkin variantından təhrifi səbəbi ilə İtlicə yazılışına düşürmüşdür. Culfa, Ordubad və b. ərazi dialektlərindəki şikil-şəkil, xəyanət-xiyanət, xingəl-xəngəl kimi sözlər bu fonetik hadisənin daşıyıcılarıdır.

**-o≈u.** Arxasıra saitlərin bir-birini əvəzləməsi fonetik hadisəsi Mehmandarı-Şollu, Dəmirçiliye-Şollu , Şollu Dis, Ağdost məntəqə ad-

larında qeydə alınır (266, s. 41). Burada həm də -y samiti düşmüş, sözün ilk variantı isə Şu+uluy yazılışında olmuşdur.

**-o≈ü.** Türk dialektlərində az təsadüf olunan bu səsəvəzlənmə hadisəsi Kürəküməz, Kümanbulaq, Toykümə Dürənli kimi etnooykonimlərdə müşahidə edilir. Biz qırğız, özbək, tatar, türkmən dillərində "oraq", "meşə" kimi sözlərin "orak-urak-ürak", "orman-urman-ürman-örmən" yazılışlarında rast gəlirik (39, s. 663-666).

**-u≈e.** Bu cür səsəvəzlənmələri Zebil, Şebran, Şenaz, Sumal Ternevit, Teskarap etnooykonimlərində müşahidə edirik. Türk dilində "xəbərdarlıq" sözümüzə qazax, uyğur, tatar dillərində "işkərtü- uşkertüv- eşkertüv-eskertü" yazılışlarında bu səsəvəzlənmə ilə təsadüf edirik (39, s. 920-921). Qeyd edək ki, ümumən bu fonetik hadisə dodaqlanan və dodaqlanmayan saitlər arasında çox az təsadüf edilən fonetik hadisədir.

**-u≈ə.** Səbzədur, Səbəsil, Tərcanlı, Şələt, Şəbik, Tərətum, Tərli, Dəstək etnooykonimlərində müşahidə olunan bu fonetik hadisəyə qədim türklərdə Budın-Vətən sözlərinin ifadəsində Göytürk və Azərbaycan türklərinin dialektlərində rast gəlirik. Kül Tigin abidəsi yazıları və M.Kaşğarinin sözlüklərində "budın, budun, budhun" yazılışlarında (74, s. 20; 42, I c. s. 155, 238) rast gəlirik. Əgər diqqət etsək bu adlarda u≈ə səsəvəzlənməsindən əlavə b≈v, d≈t, ı≈ə səsəvəzlənmələri də mövcuddur.

**-u≈i.** Bu fonetik səsəvəzlənmələr Kuti, Türükur Şiqad Şişqara, Tir məntəqə adlarının Kiti, Tİrikir şəklində təhrif olunmasında müşahidə olunur. Əsasən Bakı, Muğan, Qarabağ dialektlərində "buçaq-biçaq", "bucaq-bicaq" kimi sözlər bu cür səs dəyişməsi variantında rast gəlinir (266, s. 41) .

**u≈ü.** Bu kimi fonetik hadisə "Şükar, Süzüt" oykonimlərində olduğu kimi Naxçıvan dialektlərində də kola-kula-külə variantlarında heyvana aid "buynuzsuz" sözünün, Suqra-Süqrə insan adları antroponimlərin ifadəsi kimi Culfa rayon şivələrində rast gəlirik (-F.R.). Bu fonetik hadisə eyni zamanda Anadolu türklərində "gül-gul" variantında da təsadüf olunur (266, s. 43-44).

**-ü≈i.** Oykonmlər sistemində bu cür səsəvəzlənmə Tirkeş məntəqə adında müşahidə edilir. Azərbaycan dialektlərində bu fonetik hadisə Muğan, Ordubad dialektlərində "hindüşqa-hündüşqa" kimi sözlərdə

təsadüf olunur (266, s. 41).

**ü≈ə.** Bu səsəvəzlənmə hadisəsi Tərkəli və Tərəkə İtlicə oykonimlərində müşahidə edilir. Culfa dialektində "küçəyə-küçüyə çıxdım" kimi ifadələrdə bu hadisəni izləyirik.

Bu cür fonetik hadisələr samit səslərdə də müşahidə olunur kar və cingiltili, eləcə də sonor-burun səslərinin bir-birini əvəzləməsi türk dilləri üçün xarakterik haldır.

**-b≈m.** Zimmi, Çematiyan, Sumbatan Dizə məntəqə adlarında qeydə alınan bu fonetik paralelliklər qədim Qıpçaq və bu qrupa aid dillərdə, o cümlədən qazax dilində "boyun-moyun", "mən" sözümüz Osmanlı türklərində "ben" və s. şəkillərdə rast gəlinir (303, s. 255).

**-b≈p.** Bulqan, Debil, Biləv, Balbarani, Balban Tunbul, Bələk kimi xeyli sayda məntəqə adlarında bu fonetik paralelliklər qeydə alınır ki, tatar, türkmən dialektlərində də bunlar "biçən-piçən, bıçaq-pıçaq" kimi müşahidə olunur (67, s. 238-240).

**-b≈v.** Bu cür fonetik paralelliklər Suvarlı, Zəviyyə, Zeyvə kimi məntəqə adlarında müşahidə olunmaqla qədim və müasir türk dillərində "vardı-bardı" , "barbar-varvar" şəklində başqırd, tatar, Osmnalı türklərində işlənməkdədir (19, s. 32; 39, s. 48-49).

**-ç≈ş.** Etnooykonimlər içərisində Tus tayfa adını daşıyan Tuç məntəqə adı və Kas türklərinin adını daşıyan Keçil, Keçezor, etnooykonimlərində qeydə alınan bu səsəvəzlənmə hadisəsi demək olar ki Qıpçaq və Oğuz dilli türklərin əksəriyyətində qeydə alınır və üç-üş, açmaq-aşu kimi xeyli sözlərdə müşahidə olunur (266, s. 92-99).

**-c≈z.** Yalnız İtlicə məntəqə adında Kuti tayfa adının Uti yazılışı ilə qeydə alınan bu adda qırğız dialektinə mənsüb "zəncir-cincir, çincir" (39, s. 1018-1019) kimi c≈z fonetik səsəvəzlənmə hadisəsi ilə yanaşı, -k hərfinin səsdüşümü- eliziya hadisəsi də qeydə alınır (222, s. 77). Burada ad Uti+il+izi yazılışından mövcud ada təhrif olunmuşdur.

**-c≈s.** Kosacan, sözündə "can/san" tərkibi əski türk dilində "şan-şöhrət" mənasını ifadə edən leksem Osmnalı Türkmən türklərinin dillərinə xas "cıvık-sıvık" kimi c≈s səsəvəzlənmə hadisəsi ilə işlənmişdir (39, s. 100-101).

**-ç≈k.** Çətan, Cudulu məntəqə adlarında izlənən bu fonetik səsəvəzlənmələr türk dilləri üçün xarakterik olan "çəlik-kəlik", "cay-kay" ifadələrində, Osmanlı türklərinin Ərzurum dialektində isə "keçə-çeçə"

şəkillərində təsadüf olunur (507, s. 183-187).

**-d≈t.** Tus, Toz, Tuç kimi 4 məntəqə adlarında bu fonetik paralelliklər qeydə alınır ki, bu da areal qazax, qırğız, tatar, türkmən dillərində "dövrə-tevre", "tikkançı-dükançı" kimi tez-tez rast gəlinən xarakterik fonetik hadisədir (266, s. 54, 81; 67, s. 123, 130-133). Eyni hal Ərtus, Ərtuş, Ərdis, Ərdiş məntəqə adlarında da müşahidə edilir.

**-k≈q.** Bu səsəvəzlənmə hadisəsi Qutbi Qazxan, Camaqat, Qızılca məntəqə adlarında izlənilir və Naxçıvan dialektində də biz bu hadisəyə "küçə-qüçə" şəklində rast gəlirik (266, s. 84). Ümumtürk dialektində biz özbək, qırğız, türkmən dillərində "qonşu-konşu", "qoltuk-koltuk" variantlarını izləyirik (39, s. 494-495).

**-k≈x.** Türk dillərinə məxsus bu fonetik səsəvəzlənmə hadisəsi Xazpuşnə Böyük Xas, Kiçik Xas, Xudabad, Xazaviz məntəqə adlarında qeydə alınır (77, s. 70 ). Əgər diqqət etsək, bütün hallarda etnooykonim qeydə alınarkən türk dilləri üçün xarakterik olan d≈t, h≈k, a≈u, a≈i fonetik hadisələri də müşahidə edilmişdir (266, s. 41, 86). Biz qırğız, özbək, uyğur türkcələrində "kisə" sözünə "kalta-xaltə-xalta, qonşu" sözünə "xoşna" kimi rast gəlirik (39, s. 468-469, 494-495).

**-k≈h.** Bu fonetik paralellikləri Hati, Hato, Xudulu, Əraxus, Xasbay məntəqə adlarında türk dillərinə məxsus k≈h səsəvəzlənmə hadisəsi ilə Naxçıvan dialektlərində "səksən-səhcən" ifadələrində rast gəlirik (266, s. 41, 86) Bu adlar Kuti tayfa adının birbaşa ifadəsidir. Bu fonetik hadisə eyni zamanda Osmanlı, kazak, qırğız, başqırd, uyğur, qumık, çuvaş, özbək və digər türklərdə "hakan", "kağan", "kan", "halk", "kalk", "hatun", "katın", "kotun" yazılışlarında da izləmək mümkündür (39, s. 299, 301, 321, 442-443; 342, s. 15).

**-x≈h.** Türk dillərinə məxsus bu fonetik səsəvəzlənmə hadisəsi (266, s. 86), Xorni, Xirik, Xordegir, Qara Xorzatlı, Xuregid məntəqə adlarında qeydə alınır. Biz Azərbaycan bölgələrini Ordubad və Cəbrayıl dialektlərində xırman-"hırman", başqirt, qazax, türkmən və b. dillərdə isə "xanım", "haram", "xarab", "xərclik" kimi sözlərin "hatın", "hanım", "xaram", "harap", "harclık" kimi səsəvəzlənmələrlə işləndiyini görürük (266, s. 86; 39, 309-311).

**-t≈d≈y.** Türk dillərinə məxsus bu fonetik səsəvəzlənmə hadisəsinə Dürəkir, bir adı da Yürəkir etnooykonimlərində rast gəlirik. Maraqlı leksik mənaya malik olan məntəqə adı özünün qədim "türük-yürük"

yazılışını təkrarlayır. Qazax dialektində "yumruq-dumrux", qaraqalpaq, qazax, türk balkar dillərindəki "tulduz-yulduz", "dulduz-ulduz", şəkillərini xatırlasaq (266, s. 85-86; 39, s. 454-455) bu etnooykonim "türük- turk-türk" tayfa adı ilə yaranmış adın təhrifidir.

**-y≈s.** Yır/sır-"işıq, od" tərkibi şumer, akkad və kutilərdə Sar/Şar Günəş tanrısının adı idi və bu səsəvəzlənmə ilə müşahidə olunurdu (353, s. 49-51). Biz y≈s fonetik dəyişməni Yollu-Su+Lulu məntəqə adında izləyirik. Ümumtürk dialektində "yay-say", "ulduz-yıldız-sıldız", "il-yıl-sıl" şəklində qazax, qırğız dillərində müşahidə edirik (39, s. 760, 978).

Biz ümumtürk dillərində l≈n, n≈m, r≈n sonor samitlərinin bir-birini əvəzləməsi hadisəsi də oykonimik adlarda təsadüf olunur. Bu sonor-burun samitlərinin "qəhrəman-gəhnaman", "mübarək-nübarək", "gilənar-gilələr", "enli-enni" və s. şəklində əvəzlənməsi hadisəsi ilə qarşılaşırıq (266, s. 86; 39, s. 991).

**-s≈z.** Ərgəz, Xazaviz məntəqə adlarında qeydə alınan bu səsəvəzlənmə hadisəsi də türk dilləri üçün xarakterik haldır.Özbək, tatar, qazax və s. dillərdə "zəli" sözü "sülük-zülük" kimi qeydə alınır (39, s. 800-801).

**-s≈ş.** Türk dillərinə məxsus bu cür səsəvəzlənmələrə xeyli sayda Şuban, Şebran, Suyu, Suaçur Kaşka, Aksu, Sut, Sumal, Ərdiş, Ərtuş, Ərdəşir kimi məntəqə adlarında təsadüf edirik. Şumer türklərindən günümüzə demək olar ki bütün türk dillərində "şalvar-salvar", "şan-san", "cingilti-sanğır-şanğır", "şırıltı-sırıltıy" və s. kimi işlənməkdədir (39, s. 810-814).

Ümumiyyətlə fonetik hadisə türk dilləri üçün xarakterik hal olmaqla minillərdən günümüzədək gələn dil hadisəsidir. Bu hal prototürk adlar sistemində də müşahidə olunur ki, biz bu barədə yuxarıda yetərincə nümunələr verdik.

## 3. 2. SƏSDÜŞÜMÜ HADİSƏSİ

Dilin fonetik quruluşunda tez-tez təsadüf olunan hadisələrdən biri olan səsdüşümü hadisəsi (222, s. 73-81) xarakter etibarı ilə bir neçə formada müşahidə edilir:

1. Burun (sonor) samiti yanında "fəsil-fəsl", "nəsil-nəsl" kimi –i sait səsin düşümü hadisəsi. Xeyli dilçi alimin diqqətini çəkən bu hadisə

dilçilikdə əsasən qapalı, örtülü hecalar arasında səsin sıxışması-absorbsiyası zamanı baş verir. İtlicə məntəqə adında bu səs düşümü hadisəsi qeydə alınır. Ad Kuti+il+izi yazılışında Kuti-Uti tayfa adından yaranmış addır. Bundan başqa qoşa samitlərdən bir burun-sonor səs olduqda da sonor səsin düşümü müşahidə olunur. Oykonimlərin əsasən tayfa adlarından yarandığına üstünlük versək "Tinkan" məntəqə adında -r hərfinin səsdüşümü hadisəsini izləyirik. Biz adın "Türkan" yazılışında olduğunu düşünürük. Əgər xatırlasaq Oğuz, Qıpçaq dillərində əsasən -nq qovuşuq yazılışı, sözə qoşulan "lan/lanq" tərkibi isə qədim türklərdə "tanrıya xas əlamət", "nişan", "bəlgə" mənalarında işlənmiş (DTS, s. 332). Türk dillərində tez-tez rastlaşdığımız -nq/nk qovuşuq (səğir nun) samitləri Tanqrı-Tanrı, denqiz-dəniz, donquz-donuz və s. sözlərdə adətən sonor səs -q/k samitinin düşümünə səbəb olur. "Türkan" məntəqə adında isə bunun əksi ilə qarşılaşırıq.

2. Bir qrup samit səslərin söz sonunda düşümü- apokopasiysı hadisəsi də bu hadisələrdəndir və ümumdilçilikdə də geniş şərh olunur. Bu fonetik hadisədə əsasən xəbər şəkilçisində (-dır, -dir, -dur, -dür), -r və -l samitlərinin "gəl"- "gə", bir-"bi", bahardır "bahardı" kimi düşümü ilə müşahidə edilir. Belə fonetik hadisələr dialekt xarakterli olmaqla əsasən şifahi nitq üçün xarakterik haldır.

Lakin -l, -k hərflərin səsdüşümü hadisəsi Uti, Ulucan, İləçi, İlar İliçaq məntəqə adlarında söz önündə müşahidə edilir. Bu adların bərpası zamanı Kuti, Lulucan, Luluçı, Lular, Luluçaq məntəqə adlarını yaradan etnos adları ilə yanaşı işlənən -i bir çox qaynaqlarda morfem, hərəkət bildirən fel kimi "irdi", "erdi-"nail oldu, çatdı" formasında zaman şəkilçiləri ilə yazılı mətnlərdə, şifahi nitqin dialekt və şivələrində ümumişlək fel olmuşdur (42, I c. 164). Bu halda -i saiti ilə işlənən Kuti tayfa və məntəqə adları "Kuti gücə nail oldu, gücləndi, çatdı", -l samitinin bərpa etdiyi Lulu tayfa adı isə, "can"-"şan- şöhrət", -çı "mən-subluq" şəkilçisi, "ar/ər"- "igid və ya ər", "çaq/çauq"-"qala" morfemləri ilə "şanlı Lulu", "Lulu qalası", "Luluya məxsus" mənalarını ifadə etmişdir. Göründüyü kimi hər səsin-hərfin belə ayrıca mənaya malikliyi nəzərə alındıqda bu adların tayfa adından yarandığı qeyd-şərtsiz ortalığa çıxır. Biz bu barədə yuxarıda danışdıq.

3. Əvvəl gələn sözün son səsi təsirindən arxada gələn sözün ön səsini düşürməsi-aferezis hadisəsi də Azərbaycan dilçiliyində və ümum-

dilçilikdə də təsadüf edilir. Oykonimik adlarda bu çox az təsadüf olunan fonetik hadisədir. Hürrü tayfa adından yaranmış Hork məntəqə adında da biz -r səsinin düşümü hadisəsini görürük. Məntəqə adı Hürrü+uk şəklində, "Hürrü varisi" mənasında bərpa edilir. Ola bilsin ki, Hürrüuk məntəqə adının tələffüzündəki ağırlıq adın bu cür təhrifinə yol açır. Biz dilimizdəki "yarımsökülmüş, dardüşüncəlilik" kimi sözləri "yarısöküк", "dardüşüncəlik" şəkillərində səslərin düşümü ilə işlədirik.

4. Yan-yana gələn iki eyni hecadan birinin ixtisarı-heca düşümu fonetik (həm də qrammatik) hadisəsi də türk dilləri üçün xarakterik haldır. Bu dilçilikdə "qaplologiya" adlanır. Bu əsasən fellərdə "baxacağam-baxacam", "oturacağam-oturacam" şəkillərində müşahidə olunur. Bu da dialektlərə daha yaxındır və yazılı ədəbiyyatda, eləcə də məntəqə adları-oykonimlər sistemində müşahidə olunmur.

5. Türk dilləri üçün xarakterik səs hadisələrindən biri də qoşa kar və cingiltili samitlərdən birinin düşümü-"diereza" hadisəsidir. Dilçiliyə dair tədqiqatlarda burada iki müxtəlif səsdən birinin düşümü hadisəsi diereza ilə bağlı hesablanır və "dost-dosdur", "sərbəst-sərbəsdir" sözləri nümunə olaraq verilir (222, s. 78). Lakin diqqət etsək, bu hadisə kar və cingiltili samitlərin qoşa yazılışında daha çox müşahidə olunur və -d=t samitlərində cingiltili samit kar samiti düşməyə məcbur edir.

6. Sait səslərin düşümü hadisəsi- "eliziya" türk dillərində daha çox təsadüf olunan fonetik hadisələrdəndir. Düzdür, burada sait səslərin düşümünə misallar ancaq alınma sözlərdən (Əli Əkbər-Ələkbər, Əli ağa-Ələğa) seçilib (222, s. 79). Lakin biz qədim türk sözləri və tayfa adlarından yaranmış Su türklərinin adını daşıyan Sus məntəqə adında birinci söz sonunun –u saiti ilə bitməsi və ardınca gələn sözün -u saiti ilə başlanması nəticəsində ikinci -u saitinin düşümünü müşahidə edirik. Şu+us şəklində məntəqə adı "Zəkalı Şu" kimi məna daşımaqla mürəkkəb quruluşdadır. Eyni səs hadisəsi Kütüs oykonimində müşahidə olunur. Kuti+us yazılışında bərpa olunur və burada "us"-"zəka, ağıl" qədim türk sözü Kuti tayfa adında sondakı -i saitinin təsiri iə özünün -u saitini itirir. "Haksi" məntəqə adında isə -a saitinin səsdüşümü iki samitin saiti sıxışdırması nəticəsində baş verir. Ümumən səs düşümü və əvəzlənməsi hadisələri hələ e.ə. minilliklərin ifadə formalarında yer alır ki bu əsasən dialektik variantlar amili kimi ortalığa çıxır.

## 3. 3. SƏSARTIMI

Dilçilikdə fonetik hadisələrdən biri olan səs artımı hadisəsi söz önünə-proteza, söz daxilinə-"epenteza", söz sonuna-"epiteza", saitli söz sonu və başlanğıc saitli sözlər arasına-"lyezon" formalarında artırmalar müşahidə edilir. Biz Tribul-"turu düzəni" sözünün Triphyl kimi təhrifində bu hallara təsadüf etmirik. Bunların qədim salnamələrdə yer alan sözlərin tədqiqatçıların dil imkanları hesabına təhrifləri nəticəsində baş verdiyini düşünürük. Tədqiqatçılar isə adın tərcümə variantını əsas kimi qəbul etməklə əski dil kökümüzdən və gərək olan tədqiqatdan uzaqlaşmışlar. Mətnlərdə "agetas"-"uca atəş, od" sözünün (şamanlarda od, atəşi yadımıza salaq -F.R.) "aketraşi"-"başçı", "Türeik"-"türk" sözünün -ei artımı ilə "tayfa", "oba" sözünün -"obai"-"qəsəbə", "koma" sözünün "komai"-daxma, "daş koma" sözünün "tasik komai" kimi tərcümələr (495, s. 3-14) müasir dil qanunlarından kənar təhriflərdir.

Əgər diqqət etsək burada sözlərə -i, -u, -e, saitlərinin və -y samitinin artırılması təhrifləri öncə mətnlərin bu yazı dilinə məxsus xalqın, daha sonra tərcüməçinin mənsub olduğu dil imkanları hesabına baş vermişdir. Eblait, Urartu, Boğazköy, Dügər-Diqor və s. mətnlər məhz bu yöndən ortalığa çıxmışdır. Biz K.Riemşnayder, Q.Melikişvili, V.P.Yaylenko Q.Qeorqadze, N.Merpert, A.Elford, C.Myürrer, V.Erenberq, kimilərin tərcümələrində də belə yanlışlıqlarla qarşılaşırıq.

## 3.4. SƏSLƏRİN YERDƏYİŞMƏSİ – METATEZA

"Kətli" məntəqə adında i=ı səslərinin yer dəyişimi "vağzal-vazğal, yatsıq- yastıq" sözlərində olduğu kimi yerdəyişmə hadisələrindəndir (144, s. 225). Metateza adlanan bu fonetik hadisə "Pirsu" məntəqə adında da u=s şəklində müşahidə olunur. Şu tayfa adını yaşadan bu oykonimdə -u və -s hərflərinin yerdəyişməsi hadisəsi və ö≈i səsəvəzlənmə hadisəsinin mövcudluğu qədim türk dili qanunlarından irəli gəlirdi.

Bu fonetik hadisələrə diqqət etdikdə dilimizin hələ qədim dövrlərdə dialekt və fonetik variantlarında müşahidəsi bu dilin kök və flektiv dillərdən daha öncə, ən azı 5 min il qabaq tarix səhnəsində olduğunu sübut edir.

# NƏTİCƏ

Tərəfimizdən Naxçıvan-Naxər ölkəsinin antik müəlliflərə, tarixi qaynaqlara istinadən e.ə. VI-III minilliklərə aid etdiyimiz etnooykonimlər sistemində aparılmış, etimoloji təhlillər və adlar sisteminin qədim qaynaqlar və areal türk dili imkanları ilə müqayisəli təhlilləri xeyli yeni elmi faktlar ortalığa çıxarır. Öncə onu qeyd edək ki, ərazi əhalisinin etnogenezinin təşəkkülündə iştirak etmiş bu prototayfa dilləri tarixi faktların elmi nəticələrinə görə prototürk-proto Azərbaycan dili olmuşdur. Coğrafi adlar sisteminin əsasını təşkil edən etnooykonimlər məhz bu tayfa adlarından adını götürməklə onların dil imkanları hesabına yaranmışdır. İstər etnooykonimlərdə, istərsə də digər coğrafi adlarda qədim şumer-akkad, eləcə də türk mifik təfəkküründən irəli gələn tanrı adlarının Naxçıvan adlar sistemində təkrarı, ərazidəki prototayfaların eyni kökə və dilə mənsubluğuna inkarolunmaz tarixi faktlardır.

Qədim Mesopotamiya və Naxər ölkəsi ərazilərindəki prototayfaların inanc ortaqlığının adlarda təkrarı və tarixinin e.ə. VI-III minilliklərə təsadüf etməsi Naxçıvan ərazisinin qədim mədəniyyət mərkəzi olduğunu göstərir. Bu qədim ərazidə e.ə. V-III minilliyə aid An/Anu, Kiur, Şar, Tork, Nisay və b. qədim türk tanrı adlarının Şarur-"Şar tanrısının qurduğu", Şurut-Şar tanrısının yurdu" Kiurna (Kırna)-"Kiurin verdiyi", Nisə piri-"Nisay məbədi", İl An dağ (İlandağ)-"Anu yurdunun dağı" kimi toponimik adlarda təkrarı bir təsadüf deyil ulu bir tarixin bu torpaqlardakı izləridir. Bundan başqa Şumer "Bilqamıs" dastanı adlar sisteminin eynilə ərazinin toponimik adlar sistemində təkrarı buradakı tayfa birliklərinin Şumer mədəniyyəti ilə bağlılığını siyasi proseslərdə iştirakını, mifik inancını da təsdiq edir. Nuhla bağlı Nəbi yurdu, Qaranquş yaylağı, Qəzər yurdu, dastandakı Nisir dağı və Nəsirvaz zirvəsi, Kudur Enlil tanrı adı və Qudu yurdu, Bilqamıs dastan adı və Bilbil yer adı, İrnini tanrı məkanı və Nəbi yurdunda İrni yer adı, dastanda Saria dağ adı və ərazidə Sarı dağ kimi adların "Bilqamıs" dastanındakı adları təkrar etməsi buna canlı sübutdur.

Qədim Naxçıvan ərazisində etnooykonimləri formalaşdıran An/Anu, Koyaş, Kiur, Şar, Tork, Kudur Enlil, Nisay kimi xeyli sayda tanrı adları həm də ümumtürk mifinin burada hələ e.ə. VI-III minilliklərdən ümumxalq inancındakı ortaqlığının göstəriciləridir. Yuxarıda adları çəkilən tayfaların adlardan yaranması, qədim türk dili leksik vahidləri

və dili elementlərinin müasir dilimizdə belə arxaik və ümumişlək şəkildə təkrarı, dilimizin çox qədimlərdə ümumtürk tayfalarının işlək dili olduğunu sübut edir.

Heç şübhəsiz adlar Naxçıvan Mesopotamiya mədəniyyətlərinin bağlılığından xəbər verməklə, bu əski mədəniyyətlərdə eynilik həqiqətinin tarixi izlərini qoruyur. Əgər adların şumerlərdəki tarixi ilə yanaşı həm də bu tayfaların tarix səhnəsinə çıxdıqları ilk dövrlər nəzərə alınarsa, qədim Naxçıvanın adlar tarixinin e.ə. VI minilliyə söykənməsi ərazi mədəniyyətinin 8 min illik tarixini təsdiq edir.

Naxçıvan oykonimik sistemindəki aşkarlanan qədim dil elementləri, türk sözləri və tanrı adlarının Şumer, Akkad, Assur, Hett, Urartu, Misir salnamə və mixi yazılarında prototürklərlə bağlı təkrarlanması da bir təsadüf deyil, Bütöv Azərbaycan tarixi və dilinin bir hissəsidir.

Naxçıvan ölkəsinin adına NAXARain yazılışında (burada -ain Misir dilinə məxsus şəkilçidir-F.R.) e.ə. II minillikdə Misir fironu III Tutmosun dövründə (e.ə. 1504-cü il) tarixi siyasi hadisələrlə bağlı yazılmış salnamələrdə çəkilməsi, ümumqafqaz dilinə bu tayfaların təsiri ərazidə ən qədim şəhər mədəniyyətinin və dövlətçiliyin mövcudluğunu da birmənalı təsdiq edir. Daha sonra Urartu yazılarına MÂTU NAKRU yazılışında düşən bu qədim diyarın-Naxçıvanın Urartuya "düşmən ölkə" kimi Lulubəy ölkə adı ilə yanaşı çəkilməsi də bu ölkənin proto Azərbaycan tayfaları ilə bir ittifaqından xəbər verir. Tarixi baxımdan xüsusi əhəmiyyətə malik olan bu məlumatda ermənilərin Urartuları özlərinin ulu babaları hesab etmələri elmi faktlar əsasında təkzib olunur. Bu yanlışlıq və Naxər ölkəsinin onlara düşmən olması faktı, erməni uydurmalarının əsassız olduğunu, tarixdə erməni tarixinin olmadiğini göstərir.

Qədim Şumer-Akkad, Assur, Hett, Boğazköy və Dügər yazılı tabletləri və buradakı məlumatlar Naxçıvanın ilkin yazili mədəniyyət beşiklərindən biri olduğundan da xəbər verir. Gəmiqaya piktoqrafiki yazı işarələri, Naxçıvan ərazisi olmuş Nüvədi və Dügər (Diqor) yazıları, Naxçıvan ərazisində "Oğlanqala" qədim yaşayış yerindən aşkarlanan mixi yazı və onun qədim As əlifbası ilə müqayisədə "As kın"- "As qalası" kimi oxunuşu bu yazılı mədəniyyətin inkarolunmaz təsdiqidir.

Salnamələrdə Naxçıvanın adının çəkilməsi və buradakı coğrafi adların salnamə və yazılarda təkrarı ərazinin böyük ölkə-dövlət halında

qədimdən mövcudluğunu üzə çıxarır.

Qədim Naxər-Naxçıvan ölkə ərazisinin arxeoloji tapıntıları da bu diyarın protonaxçıvanlı-azərbaycanlılarla bərabər ulu bir tarixi dövr yaşadığını bir daha təsdiq edir. Araşdırmalarda e.ə. II minilliyə dair Sum qalası, Şərurun Qarabulaq düzənliyində e.ə. III minilliyə aid kurqanlar, Şahbuz bölgəsinin Biçənək ərazisində e.ə. II minilliyə aid qədim şəhər yerləri bu protoazərbaycanlıların məskəni və mədəniyyətinin izləridir.

Naxçıvanın Xələc, II Kültəpə, Ovçular təpəsi, Şortəpə və digər ərazilərində məskunlaşma tarixinin maddi-mədəniyyət nümunələri əsasında tədqiqi bu mədəniyyətin IV-III minilliklər Kür-Araz mədəniyyəti olduğuna dair əsaslı elmi faktlar üzə çıxarır. Sərur, Şahbuz, Culfa, Ordubad və digər ərazilərdə aparılan arxeoloji tədqiqatlardakı dəfn adətləri, kromlex qəbirlər, əldə olunmuş maddi mədəniyyət nümunələri Naxçıvan ərazisinin tarixi qədimliyinə, onun etnoqrafiyası, etnogenezinin təsdiqinə aid qiymətli tarixi dəlillərdir. B.A.Kuftin, K.X.Kuşnareva, Q.N. Lisiçina, RM.Munçayev, N.Y.Merpert kimi rus, gürcü alimləri, eləcə də V.V.Əliyev, V.B.Baxşəliyev, B.İ.İbrahimov, Ə.İ.Novruzlu, S.H.Aşurov və başqalarının Naxçıvanda apardığı arxeoloji tədqiqatdan əldə olunmuş materialların e.ə. V-III minilliklərə aid edilməsi də dediklərimizə tarixi sübutlardır. Bu tarixi faktların ümumtürk arealında eyni mədəniyyəti təkrarlaması və tarixi baxımdan onlardan öncəki minilliklərə aidliyi tarixşünaslıqda yer almış "Şimaldan gəlmə tarixi köçlər" konsepsiyasını da birmənalı rədd edir və ilk köçlərin bu ərazilərdən digər ərazilərə yayıldığını təsdiq edir (-F.R.).

Mitan, Şuşarra, Aratta, Kuti, Lulubi dövlətlərindəki as, quti, lulubi, su-şu, hürrü, subar, koman, tal, turdi, türükkü və b. boylarla birgə tarixi proseslərə qatılan Naxər boyları Urmiya gölü, Araz hövzəsi, Dəclə və Fəratın yuxarı axarları, Van gölü ətrafına qədər qarşısı alınmayan güclü tayfa birliyi kimi qaynaqlara düşmüşdür. Yuxarıda da qeyd etdiyimiz kimi onların əski prototürk boyları olaraq bu böyük ərazidə tarixi proseslərə təsiri çoxsaylı elmi araşdırmalar, monoqrafiya və məqalələrdə də öz əksini tapmışdır.

Qədim Naxər ölkəsinin ərazisi Azərbaycan torpaqları daxilində protoazərbaycanlılara mənsub olmaqla, hazırkı Naxçıvan ərazisindən 10 dəfədən artıq ərazini əhatə etmişdir. Tarixi mənbələr bu torpağın sər-

hədlərinin yuxarıdakı xəritələrdən də göründüyü kimi Arazboyu əraziləri əhatə etməklə Göyçə, Van, Urmiya gölləri arasında hazırkı Gürcüstanın cənub bölgələrinə qədər dayandığını göstərir.

Bu gün e.ə. VI-V minilliklərə aid arxeoloji tapıntıların, qədim Duz mədəninin, ibtidai insan mağaralarının aşkar olunduğu Naxçıvan ərazisi ən qədim bir mədəniyyət mərkəzi olmuş, bu mədəniyyət qədim Mesopotamiya mədəniyyəti ilə sıx bağlı olmaqla bərabər o mədəniyyətə belə təsir etmişdir. Bunu Hürrü, Kuti, Lulubəy, Kas və s. prototayfalarımızın Ikiçayarasına axınları haqqındakı tarixi faktlar da sübut edir. Ərazidəki mədəniyyəti yaradan prototayfaların siyasi proseslərdəki yeri Assur, Hett, Eblait, Boğazköy, Urartu yazılarında öz izlərini saxlamaqdadır. Bütün bunlar Naxçıvanın qədim mədəniyyətinin məhz bu tayfalar tərəfindən yarandığını təsdiq edir. E.ə. VI-I minilliklərə dair xeyli sayda qaynaqlar ərazinin istər tayfa ittifaqları, istərsə də onların yaratdığı mədəniyyəti haqqında məlumatlarla zəngindir. Son dövrlər əcnəbi alimlərinin araşdırmaları da bu həqiqətləri üzə çıxarmaqdadır.

Qədim salnamə mətnlərinə gəldikdə isə tərəfimizdən aparılan müqayisəli təhlillər "Assur, Hett dilli mətnlər" konsepsiyasını da təkzib edir. Bu mətnlər də mütəxəssislər tərəfindən qərəzsiz araşdırılmalı, orada qədim türk dilinin izləri yenidən tədqiq olunmalıdır.

Bütün bunlar Azərbaycan tarixinin, etnoqrafiyasının, etnogenezinin və etnosların dilinin sistemli şəkildə öyrənilməsi istiqamətində böyük siyasi, təcrübi və xüsusi elmi əhəmiyyətə malik problem məsələlərdir. Naxçıvan oykonimlərinin tədqiqi zamanı buradakı etnosların yazılı mənbələr əsasında aborigen-yeli xalqlar - tprotoazərbaycanlılar olmasının elmi təsdiqi, Azərbaycan elmində bu ərazilərdəki adları qruplaşdıran "irandilli", "qafqazdilli", "ermənimənşəli" kimi konsepsiyaları tamamilə rədd edir. Göstərilən tarixi faktlar rus və fars şovinizmin 200 ilə yaxın bir dövrdə xalqımızı assimilyasiya etmək məqsədi ilə apardığı siyasi oyunun mahiyyətini də ortalığa çıxarır.

İnanırıq ki, gələcək tədqiqatlarda bu yanlışlıqlar və səthi etimoloji izahlar nəzərə alınmaqla, əsl tarixi faktlara qərəzsiz müraciət olunacaq, qədim Naxçıvan-Naxər ərazisində e.ə. minilliklərə aid arxeoloji, etnoqrafik, toponimik və s. araşdırmaların davamı nəticəsində ərazi əhalisinin etnogenezi, onların dili və tarixi haqqında yeni elmi faktlar üzə çıxarılacaqdır.

# ИЗ ИСТОРИИ ЭТНОГЕНЕЗА НАХЧЫВАНСКИХ НАСЕЛЕНИЙ

*(VI-III тысячелетия до нашей эры)*

## (Резюме)

Книга, «Из истории этногенеза Нахчыванских населений», посвящена к изучению ойконимов до нашей эры, на территории в древнем Нахчыване. Из сведений античных авторов и источников явствует, что фундамент образования этих ойконимов был заложен в древности на основе имен прототюркских этносов. Надо отметить, что этносы как Асы, Турукки, Хурриты, Нахары, Кутийцы, Команы, Лулубейцы и др., которые, сыграли важную роль при формировании этногенеза Нахчыванских населений, до нынешнего дня не были исследованы. Чтобы решить эти проблемы в книге сперва исследуется исторические процессы VI-III тысячелетий до н.э. связанными этими прототюркскими этносами. Одновременно в книге исследованы ойконимы, наименованные языковыми единицами этих этносов.

Источники явствуют что, древний Нахчыван ещё до нашей эры с названием Нахарин-Нахаран были известны Грецким фараонам Тутмоса третьего как страна древней Митанни. Все эти в связи с историческими процессами сообщается в летописях фараона. Многие сведения о Нахчыване, о его этносе и географических имен встречается и в Хеттских, Сирийских и Урартских летописях. Нахчыван как МАТУ НАКРУ- «страна вражеская» упоминается и в урартских клинообразных надписях. Все эти исторические факты были отстранены советскими учеными по политической цели и история Азербайджана, в том числе и история неразделимой части его Нахчывана не были исследованы объективно. Итак, в книге «Из истории этногенеза Нахчыванских населений», этногенез этого древнего региона и этимология этноойконимов исследуется как важная проблема в связи изучении исторических процессов до нашей эры.

Рассматривается также этнический состав этой древней земли по источникам и сведениям древних историков, географов и подтверждается, что население этой земли состоялись только из прототюрков-протоазербайджанцев. Об этом направлении учтены сообщения книги Геродота, Страбона, К.Птоломея, Аммиан

Марцеллин, Иосифа Флавий, Плутарха, М.Хоренского, М.Каланкайтукского и др. Следует особо отметить что, происхождение и семантика отдельных этноойконимов интересовали античных авторов и из их произведений обнаружены многие географические материалы, связанные с топонимическими системами древнего Нахчывана. Кроме того, для точного этимологического разбора этноойконимов в книге, которой, названы с именами прототюркских племен, сопоставлены историческими периодами археологических находок ископанных из Нахчыванских территорий. Сопоставление периода исторических процесс этносов и даты выкопанных находок выявил объективные даты свыше 300 этноойконимов. Для полного этимологического анализа каждого этноойконима были учтены около 40 древнетюркские и современные словари и летописи.

В монографии обращены внимания к культам и бытием этих древних этносов. При исследовании этого проблема выявлены что, культура, бытие и верование этих древне Азербайджанских этносов в Нахчеване были тесно связаны с шумерской культурой в древней Месопотамии. В эпосе «Билгамысе» известны имен шумерских богов как Киур, Шар, Ан, Кудур Енлил, Нисай и оронимов как Нисир Сария, Ирнини жилища бога. Распространение и повторение этих имен в Нахчыванских географических называниях как Куду йурду, Киурна, Шарур, Шурут, гора Несирваз, Билбил, Ирни, гора Сария, Ниса пири (место святин) не были простое совпадение, а подтверждение древней истории и культуры Нахчывана, и его культурные связи с древней Месопотамией. Все эти данные были уточнены античными сведениями и летописями древних государств.

Выявленные исторические факторы и сходность археологических находок общетюркской древней культурой, подтверждают новые научно-исторические и топонимические новизны, которые ценны не только для истории Азербайджана и для всемирной истории.

В книге при изучении этноойконимов была учтена древняя территория Нахчывана и его географических называний до разделения этой территории между Ираном и России. Связи с тем исследованы сведения арабских источников раннего средневековья, сочинении

Йакута Хамави, Рашид-ад-Дина, Хамдаллаха Казвини, Абд-ар-Рашид ал-Бакуви и т.д. Одновременно всесторонне анализированы архивные материалы Турции и Нахчывана. Были сопоставлены и уточнены нужные факты, встречающие и в статистических документах, переписях населения, актах и др. официальных документах, написанных и опубликованных в XVI веку и в начале XX вв., а также в работах видных кавказоведов.

Выявлено, что полную массу ядра этноойконимов древней страны Нахчывана-Нахара составляют тюркские-азербайджанские этнонимы. Они являются самыми древними, самыми разветвленными и повсеместно распространенными не только в Азербайджане, но и одновременно на территории Малой Азии (нынешней Турции), Средней Азии, в Сибири, Якутии, Закавказье, Кяркюке и на других территориях тюркских народов.

При лингвистическом исследовании, сопоставлены лексические единицы, составляющие основу этноойконимов древнего Нахчывана с лексическими единицами других тюркских народов и выявлены важные научные результаты. Были выявлены что, большинство названия населенных пунктов этого региона образованы от имени древнетюркских племен асов, турукки, нахаров касситов, кутийцев, лулувейцев, хурритов, шу, шубарти, команов, тусов, талов и др. проживших в VI-III тысячелетиях до новой эры. В системе обнаружены и многие ойконимы и этноойконимы, которые образовались мифическими рассудками и мышлениями этих прототюрков.

Исследуя по новым аспектам проблем этногенеза Нахчыванских населений, выявлены исторические факты, что вышеуказанные племена в союзе не только были автохтонными этносами этой древней земли, они одновременно со своими культурами и мифическими верованиями могли действовать и культуру древней Месопотамии. Потом следы этих этносов как асы, турукки, шубары, команы и др. появились в Орхоно-Енисейских памятниках. Этот факт уже окончательно отвергает одну существующие концепцию, что эти племена не были пришельцами на территории Азербайджана, в том числе и Нахчывана. Большинство источники и археологические находки явствуют, что эти прототюркские этносы из земли древнего

Азербайджана и Малой Азии ещё в середине III тысячелетии до н.э. двинулись на север и в этих памятниках оставили свои следы. Нет сомнения, что их возвращение на родную древнюю земли входили в истории как «кочевание» и тюрков назывались «пришельцами». Вероятно, эта концепция была выгодно для русской политики, из-за своих управлений оккупированных ими стран, и при ассимиляции тюркских народов.

Сотни исторические факты в летописях, сведения источников и древних античных историков подтверждает выдвинутыми нами концепцию. Результат этого исследования одновременно отвергает и выдумки армянских, персидских и русских нацистов о притязании территории Азербайджана и Нахчывана. Исторические факты, античные источники, археологические находки, относящихся к древним тюркам, проживающим около VI тысячелетия до новой эры на земле древнего Нахчыванна, не соответствуют требованиям армянских дашнаков. Они на территории Фракии в V веку до новой эры, ещё не формировались как народы вроде бриги, фриги и т.д. А нынешняя территории Нахчывана, которая туда входили земли Иреванского ханства и Зенгезур, Ыгдыр, Агры, Дигор, Карс, Полдешт, Салмас, Хой и тд. были земли прототюркских племен. Все эти исторические процессы, начиная VI тысячелетия до н. э. двинулись до XIX века нашей эры. Армяне, которые в нищете жили на территории Сирии, Турции, Ливане XIX веку под натиском царской России были переселены на нашу территорию. А между этих двух исторических процессов происходило ровно 8 тысяче лет.

В книге, кроме изложенных вопросов впервые широко изучены древнетюркские-палеоазербайджанские языковые элементы, которые сюда входили лексические, лексико-семантические, фонетические, отчасти и грамматические элементы дописьменного и письменного периода азербайджанского языка. Следует, отметит что, эти языковые элементы, сохранившиеся по сей день в составе палео и мезоойконимов древнего Нахчывана распространены и на ареале обшетюркских языках. Анализы этих древних языковых элементов имеют большое значение для изучения земли Нахчывана по историческим, географическим и языковым аспектам. Исследование

этих фактов свидетельствует о значительном месте палеоойконимов тюркского, Азербайджанского происхождения в данном этноойкосистеме. Языковые единицы, активно участвующие в образовании и формировании палеоойконимов древнем Нахчыване, и сегодня сохраняют в своих корнях языковые единицы азербайджанцев относившихся к VI тысячелетию до нашей эры. Все эти письменные памятники имеют немаловажное значение для изучения исторической фонетики, лексики, грамматики и диалектологии азербайджанского языка, этногенеза, этнографии и т.п. населения данного региона. При всесторонних исследованиях выявлены, что тюркские, Азербайджанские этносы в союзе прототюркскими этносами, на данном огромном регионе, были аборигенными населениями, начиная с VI тысячелетия до н.э. до нынешнего дня. С другой стороны, эти факты показывают, что система этноойконимов Нахчывана не является продуктом последних столетий, а сложилась и формировались восьми тысячелетий тому назад.

# MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI

## QƏDİM MƏNBƏLƏR


1. Абд ар-Рашид ал- Бакуви. Китаб талхис ал-асар и аджаиб ал-малик ал -каххар. Москва: Наука, 1971, 162 с.
2. Абуль-Гази. Родословное древо тюрков. Пер. и предисл. Г. С. Саблукова, послесл. И примеч. Н.О.Катанова. Казань: Типо-литогр. Император. Ун-та, 1906. 336 с.
3. Аммиан Марцеллин. История // ВДИ, № 3, XXIII,, 1949, с. 236-243
4. Библия. Ветхий завет. Москва: Российское Библейское Общество, 1994, 303 с. XXXVI с.
5. Bilqamıs dastanı. Bakı: Gənclik, 1985, 104 s.
6. Balasaqunlu Yusif. Qutadqu Bilik. Tərcümə edənlər: K.Vəliyev, Ramiz Əskər. Bakı: Azərnəşr, 1994, 492 s.
7. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987, 244 s.
8. Fəzlullah Rəşidəddin. Oğuznamə, Bakı: Azərnəşr. 1992, 72 s.
9. Herodot. Tarix. I hissə, Bakı: Azərnəşr, 1998, 329 s.
10. Xacə Nəsrəddin Tusi. Əxlaqi-nasiri. Bakı: Elm, 1980, 256 s.
11. Хоренский Моисей. История Армения. Пер. Н.О.Эмина, Москва: Яуза, СПб., 1893, 323 с.
12. Ибн Хордадбех. Книга путей и страну. Баку: Элм, 1986. 428 с.
13. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г. Генкеля, т. I, СПб., 1900 716 с.
14. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г. Генкеля, т. II, СПб., 1900, 420 с.
15. История Армении Фавстоса Бузанда. Перевод с и комментарии М.А. Геворгяна. Ереван: АН Армянской ССР. 1953, 358 с.
16. История Агван Моисея Каганватци, писателя X века. СПб. 1966, 376 с.
17. Каулбарс А.В. В низовях Аму-Дарьи и Сыр-Дарьи. Атлас Проморьев. Санкт-Петербург, 1833, 3 лист.
18. Киракос Гандзакеци. История Армении – Албании. Пер. и комментарий Л.А.Ханларяна. Москва: Наука, 1976, 357 с.
19. Kitabi-Dədə Qorqud.Bakı:Yaziçi, 1988, 265 s.
20. Клавдий Птолемей. Географическое руководство. См. Латышев В. В. Известия, ВДИ, 1948, XXIV, №2 с. 252, 254.
21. Корнелий Тацит. Анналы. Книга 2/ Историки античности. Т.II, Москва:Правда, 1989, 640 с.
22. Гай Саллюстий Крисп. О заговоре Катилины /История античности, т. II. Москва: Правда, 1989, с. 640 с.
23. Геродот. История. Перевод и примечания Г.А Стратановского. Ленинград: Наука, 1972, 599 с.
24. Moisey Kalankatuklu Alban tarixi, Mixtar Qoş Alban salnaməsi. Bakı: Elm, 1993, 270 s.
25. Описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 226 с.
26. Правицкий К. Экономический быть государственных крестьян Новобаязитского уезда Иреванской губернии. МИЭбГКЗК, т. IV, Тифлис, 1886, с.60-64.
27. Плутарх. Избранные жизнеописания. Т. I, Пер. с древне-греческого М.Томашевской; И.В. Медведева. Москва: Правда, 1990, 592 с.

28. Плутарх. Избранные жизнеописания. Т. 2, Пер. с древне - греческого М.Томашевской; И.В. Медведева. Москва: Правда, 1990, 608 с.
29. Птолемей Клавдий. Руководство по географии / Пер. К. С. Апта и В. В. Латышева//Античная география. Москва: Географиздат, 1953, 368 с.
30. Рашид ад-Дин. Сборник летописей Т. 1, кн.1, перевод с персидского Л.А.Хетагурова. Москва- Ленинград: Изд. АН СССР, 1952, 253 с.
31. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г. А. Стратановского. Москва: Наука,1964, 941 с.
32. Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны, Баку:Элм 1973, 450 с.
33. Тит Ливий. История от основания Рима / История античности, т. II. Москва:Правда, 1989, 640 с.

## SÖZLÜKLƏR

34. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı:Azərb.Ensiklopediyası. 1999, 588 s.
35. Azərbaycan SSR-nin qısa toponimlər lüğəti. Bakı:ASE Baş redaksiyası. 1986, 114 s.
36. Даль В.И. Тольковый словарь живого великорусского языка. Т.3. Москва: Русский язык, 1981, 555 с.
37. Дрвнетюркский словрь. Ленинград: Наука.1969, 676 с.
38. Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı,1985, 1026 s.
39. Karşılaştırmalı Türk Lehceleri Sözlüğü I cild, Ankara: Kültür Bakanlığı, 1992, 1183 s.
40. Гладкий В.Д. Древний мир. Энциклопедический словарь. В 2-х томах Т.1., Москва: Центрполиграф, 1998, 510 с.
41. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Dizini "ENDEKS", Ankara: Basımevi, 1985, 887 s.
42. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. I c., Ankara: Basımevi, 1985, 530 s.
43. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. II c., Ankara: Basımevi, 1985, 366 s.
44. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. III c., Ankara: Basımevi, 1985, 452 s.
45. Махмудов Х. Мусабаев Г. Казахско-русский словарь, Алма-Ата: Изд-во АН Каз. ССР, 1954, 575 с.
46. Мещанинов И.И. Аннотированный словарь урартского (биайнского) языка. Т. II. Москва: Восточная литература 2010, 536 с.
47. Мифы Древней Греции. Мифологический словарь. Москва: Изд. Falcson-Technology, 2004, 1000 с.
48. Мурзаев Е.М. Словарь народных географических терминов. Москва:Наука, 1985, 606 s.
49. Ожигов С.И. Словарь русского языка. Москва:Русский язык, 1984, 816 с.
50. Пекарский Э.К. Словарь якутского языка. 2-е издание, Москва: Наука, т. III, 1959, 3028 с.
51. Подольская Н.В.Словарь русской ономастической терминологии. Москва: Наука, 1978, 198 с.
52. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. I, ч. I, Москва: Госиздат, 1893, 508 s.
53. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. II, ч. I, Москва: Госиздат 1899, 527 с.
54. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. III, ч. I, Москва: Госиздат, Сп̀б., 1905, 1260 с.

55. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. III, ч. II, Москва: Госисдат, 1893-1911, 377 с.
56. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. IV, ч. I, Москва: Госиздат, 1893-1911, 1260 с.
57. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. IV, ч. II, Москва: Госиздат, 1893-1911, 2230 с.
58. Rusca Azərbaycanca lüğət. I c., Bakı: Maarif, 1982, 607 s.
59. Rusca Azərbaycanca lüğət. III c., Bakı: Gənclik, 1983, 555 s.
60. Русско-Азербайджанский словарь. Т.II, Баку: Элм,1979, 712 с
61. Русско-Башкирский словарь. Москва: Советская Энциклопедия, 1964, 985 с.
62. Русско-Чувашский словарь. Москва: Госиздат. Иностранных инациональных словарей, 1951, 896 с.
63. Русско-Уйгурский словарь. Москва: Госиздат, 1956, 1138 с.
64. Севортян Э.В. Этимологический словарь тюркских языков.Т. I, Москва:Наука,1974, 777 с.
65. Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. II, Москва:Наука,1978, 349 с.
66. Сравнительный словар тунгусо-маньчжурских языков. Т. I, Ленинград:Наука, 672 s.
67. Турецко-русский словарь. Москва:Изд. ОГИЗ, 1945, 728 с.
68. Туркменско-русский словарь. Москва: Изд. Советская Энциклопедия, 1968, 832 с.

## ÜMUMİLƏŞDİRİLMİŞ TARİXLƏR VƏ ƏDƏBİYYATLAR

69. Azərbaycan tarixi. I cild, Bakı: Elm, 1998, 476 s.
70. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1994, 687 s.
71. Azərbaycan tarixi. Bakı: Az. SSR EA nəşr. 1964, 1002 s.
72. Azərbaycan tarixi (ən qədim dövrlərdən XX əsrədək). Bakı: Azərnəşr, 1994, 687 s.
73. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
74. Əski türk yazılı abidələri müntəxəbatı. Bakı: Universitet nəşriyyatı, 1993, 279 s.
75. Хрестоматия по истории древнего Востока. Москва: Восточная Литература, 1963, 544 с.
76. Хрестоматия по истории СССР (с древнейших времен до 1861 года). Москва: Просвещение, 1987, 400 с.
77. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
78. Историческая география Западного Азербайджана. (Дополненное, переработанное издание на русском языке). Баку: Азербайджан, 1998, 560 с.
79. История Азербайджанской философии. Т.1, Баку: Элм., 2002 136 с.
80. История Азербайджана с древнейших времен до начала XX в. - Баку: Элм, 1995, 432 с.
81. История древнего Рима./ Под ред. В. И. Кузищина. Москва: Высшая школа, 1994, 366 с.
82. История Древнего Востока.т.1, Месопотамия. Под ред. И.М.Дьяконова. Москва: Наука, 1983, 534 с .
83. История Древнего Востока. От ранних государственных обрарований до древних империй. Москва : ИФ "Восточная литература" РАН, 2004, 895 с.
84. История Востока. Т. 1. Восток в древности. Москва: «Восточная литература», РАН, 1997, 688 с.
85. История древнего Востока. Т. 2. Москва: Госполитиздат, 1988, 563 с.

86. История Древнего Востока. Под ред. В.И. Кузищина, А.А. Вигасина. Москва: Наука, 1991, 198 с.
87. История Древнего Востока. Под редакцией И. М. Дьяконова. Кн. 1, ч. 1., Москва: Наука, 1983, 534 с.
88. История Древнего мира. Т.1. Под ред. И.М.Дьяконова. Москва: Наука.1989, 470 с.
89. История Древнего мира. Древний Восток, Минск: Харвест, 1999, 848 с.
90. История всемирной литературы Т 1. (Под ред. Белова Е.В., Воровская В.Ч.) Москва: Наука, 1983, 584 s.
91. История всемирной литературы. Под редакцией И.С.Брагинского и др.В 9 томах, том 1, Москва: Наука, 1984 , 593 с.
92. История Казахской ССР. Алма-Ата: Академии Наук Казахской ССР, 1957, 375 с.
93. История Казахской ССР (С древнейших времен до наших дней). В 3-х томах, т. II, Алма-Ата: Наука, 1979, 424 с.
94. История письма: Эволюция письменности от Древнего Египта до наших дней /Пер. с нем. Mjcrdf. : Эксмо; СПб. : Terra Fantastica, 2002. 400 с.
95. История СССР 1861-1917, т. II, Москва: Просвещение, 1984, 480 с.
96. История Сибирь. Т.I, Ленинград: Наука, 1968, 456 с.
97. История Туркменской ССР. Т. 1, Ашхабад: Ылым, 1955, 268 с.
98. История Туркменской ССР. Т. 1, кн. 1, Ашхабад: Ылым, 1957, 270 с.
99. История Узбекской ССР (С древнейших времен до наших дней). Ташкент: Фан, 1974, 583 с.
100. Каулбарс А.В. В низовях Аму-Дарьи и Сыр-Дарьи. Атлас Проморьев. Санкт-Петербург, 1833, 3 лист.
101. История письма: Эволюция письменности от Древнего Египта до наших дней / Пер. с немецкого Mjcrdf. : Эксмо; СПб. : Terra Fantastica, 2002, 400 с.
102. Материалы по татарской диалектологии. Казан: Татарское книжное издательство, 1974, 252 s.
103. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
104. Мифы Древней Греции. Мифологический словарь. Москва: Изд. Falcson-Technology, 2004, 1000 с.
105. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
106. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
107. Морской атлас Министерство Обороны СССР, Москва: Главный штаб военно-морского флота, 1958, т. III, 24 с.
108. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan-İstanbul: Bakanlar Medya, 2008, 521 s.
109. Naxçıvan Ensiklopediyası. I c. Çamlıca-Üsküdar/Istanbul, 2005, 360 s.
110. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
111. Osmanlı Arşiv Belgelerinde Nahçıvan. İstanbul: Seçil Ofset, 2011, 568 s.
112. Очерки по древней истории Азербайджана, Баку: АН Азербайджанской ССР, 1956, 161 с.
113. Очерки истории СССР. В 9 томах, (III-IX вв). Том 3. Москва: Наука, 1953, 998 с.
114. Перекрестный анализ «Очерков истории стран Южного Кавказа». Статьи ученых-историков и экспертов из Азербайджана, Армении и Грузии/ под редакцией Рауфа Раджабова, Степана Григоряна и Вахтанга Колбаи. Ереван: Эдит Принт, 2011, 288 с.

115. Советская историческая энциклопедия. В 16 томах, Том 8. Кошала – Мальта, Москва: Советская энциклопедия, 1965, 509 с.
116. Советская историография Киевской Руси. Ленинград: Наука, 1978, 279 с.
117. Советский союз Грузия. Москва: Мысль, 1967, 318 s.
118. Структура и история тюркских языков. Москва: Наука, 1971, 311 с.
119. Türk tarihi. I c. Ankara: Türk Tarihi Kurumu Basımevi, 1993, 205 s.
120. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.
121. Всемирная история. Т. II, Москва: Госиздат, 1956, 899 с.
122. Всемирная история: эллинистический период. Т. 4, Москва: Литература, 1997, 630 с.

## ARXİV MATERİALLARI

123. Naxcıvan MR MDA, f. 23, sy. 2, iş № 43/44, 1874-cü il, 11 s.
124. Naxçıvan MR MDA, f. 23, sy. 1, iş № 344, 1749-cu il, 16 s.
125. Naxçıvan MR MDA, f. 23, sy. 1, arx. 43/44, iş № 27/20, 1926-cı il, 28 s.
126. Naxçıvan MR MDA f. 23, sy. 2, arx. 9, iş № 4344, 1874-cü il, 11 s.
127. Naxçıvan MR MDA, f. 32, sy. 1, arx. 9, iş № 87, 1924-cü il, 13 s.
128. Naxçıvan MR MDA, f. 32, sy. 1, arx. 24/20, iş № 19, 1925-ci il, 10 s.
129. Naxçıvan MR MDA, f. 32, sy. 1, arx. 25, iş № 95, 1925-ci il, 8 s.
130. Naxçıvan MR MDA, f. 32, sy. 1, arx. 44/62, iş № 18, 1926-cı il, 11 s.
131. Naxçıvan MR MDA f. 32, sy. 1, arx. 9, iş № 87, 1924-cü il, 13 s.
132. Naxçıvan MR MDA, f. 32, sy. 1, arxiv 25, iş № 95, 1925-ci il, 8 s.
133. Naxçıvan MR MDA, f. 40, sy. 1, arx. 133, iş № 27/20, 1926-cı il, 28 s.
134. Naxçıvan MR MDA, f. 40, sy. 1, arx. 348/38, iş № 16, 1936-cı il, 48 s.
135. Naxçıvan MR MDA, f. 40, sy. 1, arx. 417/716, iş № 88, 1937-ci il, 28 s.
136. Naxçıvan MR MDA, f. 40, sy. 1, arxiv 133, iş № 96, 1928-ci il, 28 s.
137. Naxçıvan MR MDA, f. 40, sy. I, arxiv 348/39, iş № 17, 1937-ci il, 18 s.
138. Naxçıvan MR MDA, f. 40, sy. 1, arxiv 417/ 716, iş № 88, 1937-ci il, 28 s.
139. ЦГВИА, ф.38, спис.30-286, сб. 286-839, дело 98 а, лист № 7, 49 лст.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR AZƏRBAYCAN DİLİNDƏ

140. Axundov A.A. Naxçıvan sözünün mənşəyi. // Naxçıvan tarixinin səhifələri Bakı: ADPU, 1996, s. 47.
141. Allahyarov K. Naxçıvan sözünün mənşəyi və mənası. Naxçıvn: NDU, Qeyrət, 2002, № 14. s. 27-30.
142. Alıyev N.İ. Müqəddəs peyğəmbər gəmisi.//Folklor-edebiyyat dergisi, Ankara: Omay Matbaacılıq, 2007, № 3, s.115-121.
143. Babayev A.M. Azərbaycan dilçiliyinin tarixi. Bakı: Universitet nəşr, 1996, 276 s.
144. Babayev A.M. Dilçiliyə giriş. Bakı: Maarif, 1992, 504 s.
145. Babayev A.M. Naxçıvan MSSR toponimiyasında "qara" komponenti.// Azərbaycan Onomastikası problemləri. Bakı: Onomastik Elmi mərkəz, 1988, № 11, s. 139-140, 307 s.
146. Babayev A.M. Türksoyun birlik səsi. Bakı: Təhsil, 2006, 364 s.
147. Bahəddin Ögəl. Böyük Hun imperatorluğu. I c., Bakı: Gənclik, 1992, 408 s.
148. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. I c., Bakı: Elm, 2007, 240 s

149. Baxşəliyev V.B.Gəmiqaya təsvirlərinin poetikası. Bakı: Elm, 2002, 128 s.
150. Baxşəliyev V.B., Lauren Ristvet, Hilariy Gopnik, Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Naxçıvan: Əcəmi 2010, 119 s.
151. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
152. Bağırov A.N. Ad da tarixdir// Elm və həyat, Bakı: Bilik, 1991, №2., s. 28-29.
153. Bağırov A.N. Naxçıvan MR onomastik vahidlər sözlüyü. Bakı: Nurlan, 2003, 231s.
154. Bağırov A.N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
155. Bağırov A.N. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı:Elm, 2002, 288 s.
156. Bağırov A.N. Onomalogiya problemləri.I c. Bakı: Elm və təhsil, 2010, 436 s.
157. Budaqova Q.B. Naxçıvan Muxtar Respublikasının toponimləri. Bakı: Elm, 1998, 148 s.
158. Budaqov B.Ə., Qeybullayv Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 454 s.
159. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlər. Bakı: Azərnəşr, 1989, 336 s.
160. Cəfərov C.İ. Milli etnik yaddaşın izi ilə. Bakı: Səda, 2005, 171 s.
161. Cəfərov C.İ. Qafqaz nə deməkdir?//Azərbaycan onomastikası problemləri Bakı: APİ, №2, 1988, s. 216-218.
162. Cəfərov N.Q. Azərbaycan türklərinin təfəkküründə Nuhun tufanı. / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009, s. 40-43, 300 s.
163. Cəlilov F.A.. Azər xalqı. Bakı: Zıraq, 2005, 432 s.
164. Cəlilov F.A. Haylar Ərmənistanı necə oğurladılar, yaxud N.Gəncəvinin Şirini Erməni qızıdırmı. Bakı: Kür, 2000, 28 s.
165. Cəlilov F.A. Azərbaycan dilinin morfologiyası. Bakı: Maarif, 1988, 285 s.
166. Dəmirçizadə Ə.M. 50 söz. Bakı: Gənclik, 1968, 104 s.
167. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1972, 308 s.
168. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s.
169. Əhmədli S.A. Səfərnamə. Bakı: MBM, 2008, 256 s.
170. Əliyev Ə.İ. Əlincə yaddaşı. Bakı: Elm və həyat nəşr, 2004, s. 23, 316 s
171. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı:Elm, 1996, 106 s.
172. Əliyev V.V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: Yeni nəşrlər evi, 2002, 320 s.
173. Əliyev V.V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: İqtisad Un-ti, 2002, 201 s.
174. Əliyev V.V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi. // «Naxçıvan tarixinin səhifələri". Bakı: Elm, 1996, s.53-58.
175. Əliyev V.V. Gəmiqaya (rus və İngilis dillərində). Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 148 s.
176. Əsgərov N.Ə. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2005, 486 s.
177. Əsgərov N.Ə. Qullar etnotoponimi areallarda.//Pedaqoji Universitet Xəbərləri. Bakı: ADPU, 2012, № 2, s. 242-245.
178. Faruq Sumər. Oğuzlar.Bakı: Yazıçı, 1992, 423 s.
179. Fazili A.H. Atropatena e.ə. IV, e. VII əsri, Bakı: Elm, 1992, 216 s.
180. Fərzəli Ə.Ə. Gəmiqaya-Qobustan mədəniyyətinin işığında. Bakı: Şəms, 2010, 118 s.
181. Fərzəli Ə.Ə. Gəmiqaya-Qobustan əlifbası. Bakı: Azərbaycan milli ensiklpediyası, 2003, 292 s.
182. Fərzəli Ə.Ə. Gəmiqaya-Qobustan mədəniyyəti. Bakı: Nurlan, 2008, 366 s.
183. Hacıyev İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012, 192 s.

184. Hacıyev İ.M., Rzayev F.H. Bir daha "Naxçıvan" sözünün etimologiyası haqqında //Tarix və onun problemləri. Bakı: AMEA, 2007, № 2, s. 303-312.
185. Hacıyev İ.M., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
186. Hacıyev İ.M.Tarixi mənbələr Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009, s. 40-43, 300 s.
187. Hacı Qadir Qədirzadə. Ashabu-kəf: müqəddəslik, tarixilik də inancların genezisi. Bakı: Elm, 2002, 112 s.
188. Hacı Qadir Qədirzadə. Naxçıvan: Nuh baba və Türk atadan gələn yol. Naxçıvan: Əcəmi, 2011, 192 s.
189. Hacı Qadir Qədirzadə. Nuh peyğəmbər dünya tufanı və Naxçıvan. Naxçıvan: Qızıldağ,MMC nəşri, 2008, 192 s.
190. Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Bakı: Maarif, 1983, 187 s.
191. Hacıyev T.İ. Azərbaycan paloetoponimikasından.//Azərbaycan onomastikası problemləri. Bakı: ADPU, 1966, s. 131.
192. Hatəmi N.Z. Fars dili. Bakı: Maarif, 1984, 374 s.
193. Həbibbəyli Ə.İ. Sivilizasiyaların kəsişməsində Türk dünyası. Bakı: Elm və Təhsil, 2011, 256 s.
194. Həbibbəyli İ.Ə. Qafqaz mənbələrində Naxçıvan // Naxçıvan tarixinin səhifələri Bakı:ADPU, 1996, s. 120.
195. Həbibbəyli İ.Ə. Nuh tufanı və Nuhun gəmisi haqqında yeni elmi versiya // AMEA NB, Xəbərlər, №1, Naxçıvan: Tusi, 2005, s. 9-13.
196. Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-5 min il // Naxçıvan Muxtar respublikasını yaranması: tarix və müasirlik. Bakı: Nurlan, 2007, s. 20-28, 406 s.
197. Həbibbəyli İ.Ə. Nuh peyğəmbər və dünya tufanı toplusu. / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009, s. 55-68, 300 s.
198. Həsənoğlu H.M. Dünyanın mənfur milləti: Erməni. Bakı: "Əbilov", "Zeynalov və oğulları" 2003, 256 s.
199. Həsənov Zaur. Çar skiflər. Bakı: "Əbilov, Zeynalov və oğulları", 2005, 480 s.
200. Xəlilov F.Y. Cənubi Azərbaycan şairi Mirzəli Möcüz. Bakı: Elm və təhsil, 2010, 420 s.
201. Xələfli Ə.R. Dilimiz varlığımız. Bakı: MBM, 2009, 160 s.
202. Xudiyev N.M. Yurd sevgisi və borc duyğusu // "Naxçıvan tarixinin səhifələri". Bakı: ADPU, 1996, s. 17.
203. İbrahimova E.Ə. Orxon-yenisey abidələrinin leksikasina dair (Azərbaycan dili dialekt və şivələri ilə müqayisə)//Baki Universitetinin xəbərləri, № 4, humanitar elmlər seriyasi. Baki: BDU, 2010, s. 14-20.
204. İmanlı A.K. Onomastika məsələləri. Naxçıvan: Məktəb, 2011, 314 s.
205. İmanlı A.K. Şərur və Iğdır bölgələrinin yer adları.Naxçıvan: NDU Qeyrət nəşr., 2008, 159 s.
206. İsayev E.S. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan.Naxçıvan: Əcəmi, 2012, 88 s
207. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.
208. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
209. Qeybullayev Q.A. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990, 248 s.
210. Qeybullayev Q.A. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
211. Qədim A. Haxçıvan Nuhun yurdudur. Bakı:Elm, 2003, 172 s.

212. Quliyev Ə.A. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004, 128 s.
213. Quliyev Ə.A. Əski türk onomastik sözlüyü.Bakı: Elm,1999, 124 s.
214. Quliyev Ə.A. Qədim türk onomastikası. Bakı: ADPU nəşriyyatı, 2007, 184 s.
215. Quliyev Ə.A. "Nxçıvan" sözünün mənşəyi haqqında// Naxçıvan jurnalı, Naxçıvan: Əcəmi, 2000, №2, s. 27, 30.
216. Quliyev Ə.A. Qədim türk onomastikasının leksik-semantik sistemi I c.Bakı: Elm 2001, 127 s.
217. Qumilyev L. N. Qədim türklər. Bakı: Gənclik,1993, 536 s.
218. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 140 s.
219. Mahmudov Y.M. Dünya tarixində Naxçıvan: Yer kürəsində həyatın başlandığı yer// Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009, s. 17-30, 300 s.
220. Məhəmmədəli Tərbiyyət M. Danişməndani-Azərbaycan. Görkəmli elm və sənət adamları.Bakı: Azərnəşr, 1987, 464 s.
221. Məmmədhəsən Vəliyev (Baharlı). Azərbaycan. Bakı: Elm, 1993, 192 s.
222. Məmmədov N.N., Axundov A.A. Dilçiliyə giriş. Bakı: Maarif, 1980, 315 s.
223. Məmmədov R.S. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı:Elm, 1977, 157 s.
224. Məmmədov A.Y. Oğuz səltənəti. Bakı: Azərnəşr, 1992, 300 s.
225. Məmmədova F.C. Bir xalqın taleyindən.// Elm və həyat. Bakı:Elm, 1989, № 9, s. 4-5.
226. Məmmədova F.C. Azərbaycanın (Albaniya) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr, er. VIII əsri). Bakı: Azərnəşr, 1993, 262 s.
227. Məşədiyev Q.A. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 148 s.
228. Novruzlu Ə.I., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 106 s.
229. Novruzlu Ə.I., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
230. Novruzlu Ə.I., Baxşəliyev V.B. Şərur arxeoloji abidələri. Bakı: Elm, 1993, 182 s.
231. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009, 300 s.
232. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.
233. Paşayev Q.M. Dilimiz-varlığımız. Bakı: Ozan, 2011, 208 s.
234. Piriyev V.Z. «Giran»yoxsa «Gilan»// Elmi əsərlər, Bakı: AMEA Tarix Institutu, 2008, s.16-23.
235. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
236. Rəfiq Özdək. Türkün qızıl kitabı I cild. Bakı: Yazıçı, 1992, 184 s.
237. Rəfiq Özdək. Türkün qızıl kitabı. II cild. Bakı:Yazıçı, 1993, 232 s.
238. Rzayev F.H. Bir daha «Xanağa» toponimii haqqındı // Filologiya məsələlərinə dair tematik toplu, № 1-2 (13-14), Bakı: Nurlan, 2001, s. 6-10.
239. Rzayev F.H. Əlincə çayı vadisi toponimlərində türk layı. Namizədlik dissertasiyası. Naxşıvan: Qeyrət, 2003, 179 s.
240. Rzayev F.H. Ərəb, fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri// Azərbaycan onomostikası problemləri. Bakı, 2002, № X, s.85-94.
241. Rzayev F.H. Gəmiqaya təsvirlərinin və toponimlərinin ümumtürk çağırışı // AMEA NB Xəbərlər, Naxçıvan: Tusi, 2005, №1, s. 113-122.
242. Rzayev F.H. Xoşkeşin kəndi və onunla bağlı toponimlərin etimologiyası. // Filologiya məsələlərinə dair tematik toplu, № 1. Bakı: Zaman-3 , 2000, s. 32-41.
243. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
244. Rzayev F.R. Məmmədağa Şahtaxtılının əlifba lahiyələrində türkçülük / Məmmədağa Şahtaxtlı.Taleyi və sənəti. Bakı: Nurlan, 2008, s. 61-80, 166 s.

245. Rzayev. F.H. Muəyyən dövrlərdə Şimal və Cənub Azərbaycanımızın tarixi mənşəyinin və dilinin saxtalaşdırılması //Filologiya məsələlərinə dair tematik toplu, № 3-4 (45-46), Bakı: ADPU, 2002, s. 10-15.
246. Rzayev F.H. Naxçıvan yer adlarında dilimizin tarixi təkamülünün izləri /Müasir dilçiliyin problemləri. Beynəlxalq elmi konfrans. Bakı:Slavyan Universiteti, Kitab Aləmi, 2005, s. 141-143.
247. Rzayev F.H. Naxçıvan toponimlərində əski dil elementləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, № 2, Bakı: Mütərcim, TM, NPM, 2006, s.36-40.
248. Rzayev F.H. Naxçıvan, Nuh tufanı, tarixi faktlar və ermənilərin növbəti oğurluğu // NDU, Xəbərlər, № 17, Naxçıvan:Qeyrət, 2005, s. 6-14.
249. Rzayev F.H. Naxçıvanın və onun ətraf bölgələrində qədim Sak türkləri / Azərbaycanda elmin inkişafı və regional problemlər. Bakı: Nurlan, 2005, s. 233-242.
250. Rzayev F.H., Naxçıvanda "Qazaq" tayfa adı ilə bağlı toponimlərin etimologiyası // AMEA NB Xəbərlər, Naxçıvan: Tusi, 2006, № 2, s. 78-83.
251. Rzayev F.H. Naxçıvanda Kas türkləri ilə bağlı etnooykonimlərdə yazıyaqədərki dövr dil elementləri.//AMEA Humanitar elmlər seriyası № 1, Bakı: Elm, 2008, s. 163-173.
252. Rzayev F.H. Naxçıvan tarixində Gel tayfaları./NDU Elmi əsərlər № 4 (24) Naxçıvan: Qeyrət, 2008, s. 178-184
253. Rzayev F.H. Naxçıvan tarixində Oğuz tayfalarının izi, onların tarixinə və "oğuz" sözünün etimologiyasına yeni baxış / AMEA NB Xəbərlər, Naxçıvan: Tusi, 2008, №3, s. 151-159.
254. Rzayev F.H. Nuh adı ilə yaranmış qədim türk tayfası naxərlər.//Naxçıvan: ilkyaşayış və şəhərsalma yeri kimi. 20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Naxçıvan:Əcəmi, 2012, s. 300-308.
255. Rzayev F.H.. Oykonimlərin dəyişdirilməsi, səthi etimoloji izahlar dilimiz və tariximizin oğurlanmasına yol açır// Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı: BDU, 2009, s. 126-128.
256. Rzayev F.H. Söz. Bakı: Maarif-Təhsil, 2012, 244 s.
257. Seyidov A.Q. Baxşəliyev V.B. Sədərək.Садарак.Sederek. Bakı: Elm, 2011, 184 s.
258. Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ, Babayev V.M. Naxçıvanın və Babək bolgəsinin arxeoloji abidələri. Bakı: Azərnəşr, 1995, 96 s.
259. Seyidov A.Q, Baxşəliyev V.B, Məmmədov S.M., Aşurov S.H. Cənubi Qafqaz arxeologiyası. Qədim Şərur. Bakı, 2012, 466 s.
260. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
261. Seyidov M.M. Azərbaycan mifik təfəkkürünün qaynaqları Bakı: Yazıçı, 1983, 326 s.
262. Seyidov Y.M. Azərbaycan dilində söz birləşmələri. Bakı: BDU nəşriyyatı, 1992, 408 s.
263. Səfərli F.Y. Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. Bakı: Elm, 2003, 392 s.
264. Səfərli F.Y. Epiqrafika.Bakı: MBM, 2010, 144 s.
265. Səfərli F.Y., Cəfərli M.A. Əshabi-kəhv//Folklor və etnoqrafiya №2, Bakı: Uğur, 2004, s. 47-55.
266. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif, 1967, 420 s.
267. Tağıyeva Şövkət, Əkrəm Rəhimli, Bayramzadə Səməd. Güney Azərbaycan. Bakı: Orxan nəşr. 2010, 516.s.
268. Talıbov V.Y. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2009 . Beynəlxalq simpoziumun materialları. s.10-16, 300 s.

269. Talıbov V.Y. Tarix boyunca Naxçıvan və müasir dövr. / Naxçıvan tarixinin səhifələri. Bakı: ADPU, 1996, s. 12.
270. Tarixi adlara qarşı soyqrımı. Bakı:Təhsil, 2006, 91 s.
271. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.
272. Yunis Oğuz, Bəxtiyar Tuncay. Türkün gizli tarixi. Bakı: Apostrof, 2009, 496 s.
273. Zeynalov F.R. Türkologiyanın əsasları. Bakı: Maarif 1980, 345 s.

## RUS DİLİNDƏ

274. Абаев В.И. Скифо-европейские изоглоссы Москва: Наука.1965, 168 s.
275. Абаев В.И. Скифо-сарматские наречия. В.кн. Основы иранского языкознания. Древнеиранские языки. Москва: Наука, 1979, 364 с.
276. Абибулаев О.А. Энолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
277. Аббас-Кули-Ага Бакиханов. Гюлистан- и Ирам. Баку: Элм, 1991, 304 с.
278. Абрашкин Анатолий. Скифская Русь. От Трои до Киева. Москва: Вече, 2008, 337 с.
279. Авдиев В.И. История древнего Востока. Ленинград: Госполитиздат, 1953, 703 с.
280. Авдиев В.И. История древнего Востока. Москва: Высшая школа, 1970, 612 с.
281. Аветисян Г.М. Хурриты на рубежах Малой Азии до установления могущества Митанни. // Древний Восток, №3, Ереван, 1978, с. 10.
282. Агбунов М.В. Путешествие в загадочную Скифию. Москва: Наука, 1989, 210 с.
283. Аджаматов Б.А. Святыни Дагестана. Махачкала :СМОМПК, 2005, 336 с.
284. Алиев И.Г. История Мидии. Баку: Элм, 1960, 317 с.
285. Алиев И.Г. Мидия – древнейшее государство на территории Азербайджана.- «Очерки по древней истории Азербайджана». Баку: АН Аз. ССР, 1956, 161 с.
286. Алиев И.Г., Погребева М.Н. Об этнических процессах в областях Восточного Загафгфзья и Западнего Ирана в конце II- в начале I тыс. до н.э.// «Этнические проблемы истории Центральной Азии в древности». Москва: Наука, 1981, с.136.
287. Артамонов М.И. Киммерийцы и скифы. Ленинград: Ленинградский университет, 1974, 155 s.
288. Артамонов М.И. Вопросы истории скифов в советской науке // Вестник древней истории. 1947. № 3. с.68-82.
289. Артаманов М.И. Истории Хазар. Ленинград: Изд-во Гос. Эрмитажа., 1962, 523 с.
290. Артамонов М.И. Очерки древнейшей истории хазар. Ленинград: Соцэкгиз, 1936, VIII +140 с.
291. Арсанукаев Р.Д. "Вайнахи и Аланы" Баку: Абилов, Зейналов и сыновья, 2002, 270 с.
292. Арутюнян Н.В. Заметки по урартской эпиграфике. // Древний Восток и мировая культура, Москва, 1981, с. 76-78.
293. Асталов В.А. Материальная культура чеченцев и ингушей в XVIII - XIX вв. (Историко-этнографическое исследование), Грозный: Отечественная история, 2004, 186 с.
294. Ахинжанов С.М. Кыпчаки в истории средневекового Казахстана. Алма- Ата: Наука, 1989, 292 с.
295. Ашурбейли С.Б. Государство Ширваншахов Баку: Элм, 1983, 341 с.
296. Бартольд В.В. Сочинение. Т. I, Москва: Издательство восточной литературы,

1963, 1019 с.
297. Бартольд В.В. Сочинения. Т. II, ч 1, Москва: Издательство восточной литературы, 1963, 662 с.
298. Бартольд В.В. Сочинения. Т. 5, Москва: Издательство «Наука», 1968, 757 с.
299. Бартольд В.В. К вопросу о погребальных обрядах турков и монголов // Сочинения. Т. IV, Москва:Наука, 1966, 495 с.
300. Баскаков Н.А. Введение в изучении тюркских языков. Москва: Высшая школа, 1969, 384 с.
301. Баскаков Н.А. Историко-типологическая морфология тюркских языков. Москва: Наука, 1979, 273 с.
302. Баскаков Н.А. О происхождении этнонима «башкыр».//Этническая ономастика. АН СССР, Москва: Наука, 1984, с.13-18.
303. Баскаков А.Н. Ногайский язык и его диалекты. Москва-Ленинград: Наука,1940, 431 с.
304. Баскаков Н.А. Тюркские языки. Москва: Восточная литература, 1960, 244 с.
305. Бернштам А.Н. Историко-археологические очерки Центрального Тянь-Шаня и Памиро- Алтая //МИА. 1952. № 26. с. 87-89.
306. Бичурин И.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Т.1, Москва- Ленинград: Изд-во АН СССР, 1950, 380 с.
307. Блок Р.И. Этруски. Предсказатели будущего. Москва: ЗАО Центрполиграф, 2004, 189 s.
308. Буниятов З.М. Обзор источников по истории Азербайджана. Арабские источники Баку: Азернешр, 1964, 36 с.
309. Буниятов З.М. Государство атабеков Азербайджана (1136-1225 годы). Баку: Элм, 1978, 278 с.
310. Буриан Я., Моухова Б. Загадочные этруски. Москва: Наука, 1970, 229 s.
311. Бругш Г.К. Все о Египте. (Пер. Властова Г.К.). Москва: Золотой век, 2000, 672 с.
312. Вагапов Я.С. Проблема происхождения нахского этноса в свете данных лингвистики // Сб. Проблемы происхождения нахских народов. Махачкала- СМОМПК, 1996, с. 174-182.
313. Вагапов Я.С. Проблема происхождения нахского этноса в свете данных лингвистики.//Проблемы происхождения нахских народов. Материалы. науч. конфции проведенной в Шатое в 1992 г., Махачкала-1996, с.170-182.
314. Валиханов Ч.Ч. Собрание сочинений, т.I, Алма-Ата: АН Каз ССР, 1961, 776 с.
315. Валичак С.Б., Скаков А.Ю. Дигорские "пекторали" предскифского периода. //Российская археология. Москва: АН России, Изд. Наука, 2003, № 3. с.114-122.
316. Вильхельм Г.Г. Древний народ хурриты. Москва: Наука., 1992. 155 с.
317. Виноградов В.Б. «Сиракский союз племен на Северном Кавказе// Советская археология 1965, №1, с. 108.
318. Властители Азии. Москва: Восточная литература РАН. 2004, 632 с.
319. Габиев С.И. Лаки, их прошлое и быт. Махачкала: СМОМПК. 2002, 192 с.
320. Гамкрекели В.Н. Двалы и Двалетия в I пол. XV вв. н.э. Тбилиси: АН Груз. ССР, 1961, 153 с.
321. Гафуров Б.Г. Цибукидис Д.И. Александр Македонский и Восток. Москва: Наука, 1980, 456 с.
322. Гасанов З.И. Царские скифы. Liberty Publishinq Houze, Nev York, 2000, 486 с.
323. Гаспарова М.Л, Борухович В.Q. Ораторское искусство древней Греции. Москва:

Наука, 1994, 334 с.
324. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
325. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку: Элм, 1986, 192 с.
326. Георгадзе Г.Г. Хетты и хурриты по древнехеттским текстам. // Вестник древней истории №1, 1969, с. 71-168.
327. Гиндин Л.А. Троянская война и аххиява хеттских клинописных текстов.// Вестник древней истории, 1991, №3 , с. 28.
328. Гладкий В.Д. Древний мир. Энциклопедический словарь. В 2-х томах, Т.1., Москва: Центрполиграф, 1998, 510 с.
329. Граков Б.Н. Скифы. Москва: Изд-во МГУ, 1971, 202 с.
330. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва: Наука, 1970, 393 с.
331. Грантовский Э. А. Ранняя история иранских племен Передней Азии. Москва: Восточная литература, 2007, 510 с.
332. Грей Джон. Ханаанцы. На земле чудес ветхозаветных. Пер. с англ. С.И. Федорова. Москва: Центрполиграф, 2003, 224 с.
333. Грозный Б.Ф. Хеттские народы и языки. //Вестник древней истории, 1938, № 2, с. 28-29.
334. Грумм-Гржимайло Г.Е. Западная Монголия и Урянхайский край. Т. 2, Ленинград: Наука, 1926, 896 с.
335. Грязнов М. П. История древних племён Верхней Оби по раскопкам близ с. Большая Речка //МИА. Москва: Наука 1956. № 48. табл. XI, 3, 225 с.
336. Гукасян В.Л. Взаимоотношения азербайджанского и удинского языков: Автореф. дис. д-ра филол. наук. Баку: Элм, 1973, 40 с.
337. Гумилев Л.Н. Тысячелетие вокруг Каспия. Баку: Азернешр, 1990, 312 с.
338. Гумилев Л.Н. Древние тюрки. Москва: Наука, 1967, 504 с.
339. Гумилев Л.Н. Открытие Хазарии. Москва: Наука, 1966, 191 с.
340. Гусейнов М.М. Древний палеолит Азербайджана (по материалам пещерных стоянок) Баку: Тек Нур, 2010, 220 с.
341. Дандомаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. Москва: Наука, 1980, 417 с.
342. Дмитриев Н.К. Грамматика кумыкского языка. Москва–Ленинград, Изд. АН СССР, 1940, 205 с.
343. Доватур А.М., Каллистов Д.П., Шишова И.А. Народы нашей страны в «Истории» Геродота. Москва:Наука, 1982, 455 с.
344. Долгих Б.О. Родовой и племенной состав народов Сибири в XI веке. Москва: Труды. Ин-та этнографии АН СССР, 1960, 590 с.
345. Дульзон А.П. Древние передвижения кетов по данным топонимики.// Изв. ВГО., т. 94, № 6, Москва: Гос. Политиздат, 1962, с. 474-482.
346. Дульзон А.П. Кетский язык. Томск: ТГУ, 1968, 632 с.
347. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту//ВДУ, 1951, № 2, с. 265- 266.
348. Дьяконов И. М. Восточный Иран до Кира: (К возможности новых постановок вопроса) //История Иранского государства и культуры. Москва: Наука, 1971, 350 с.
349. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s.

350. Дьяконов И.М. Люди города Ура. Москва: Наука, 1990, 429 с.
351. Дьяконов И.М. Очерки истории древнего Ирана. Москва: Восточ. литературы, 1961, 441 с.
352. Дьяконов И.М. Предыстория армянского народа. Ереван: Изд. АН Арм. ССР, 1968, 266 с.
353. Дьяконов И.М. Языки древней Передней Азии. Москва: Наука, 1967, 277 с.
354. Емельянов В.В. Ритуал в древней Месопотамии. СПбЛ: Петербургское востоковедение, 2003, 320 с.
355. Жуковская И.А. Заметки о монгольской антропонимии /Ономастика Востока. Москва: Наука, 1980, с. 13, 228 с.
356. Закиев М.З. Происхождение тюрков и татар. Москва: ИНСАН, 2003, 496 с.
357. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: Мос. типография, 2000, 176 с.
358. Иванов М.С. Очерки истории Ирана. Москва: Гос. Политиздат, 1952, 469 с.
359. Иванов В.В. Хеттская и хурритская литература./История всемирной литературы. Т. 1. Москва: Наука., 1983, с. 118-130.
360. Иванов В.В. "Выделение разных хронологических слоев в древнеармянском и проблема первоначальной структуры текста гимна Вахагну", ИФЖ, N 4, Ереван 1983, с. 31-33.
361. Иванов Р.Н. Нашествие. Москва: Герои отечества, 2009, 447 с.
362. Фридрих Иоганнес. История письма. Москва: Наука. 1979, 911 с.
363. Иосад П.В. Касситский язык // Языки мира: Древние реликтовые языки Передней Азии / РАН. Институт языкознания. Москва: Academia, 2010. с. 184-187, 233 с.
364. Казиян А.С. Хаттский язык// Языки мира: Древние реликтовые языки Передней Азии / РАН. Институт языкознания. Москва: Academia, 2010. с. 168-184.
365. Кайдаров А.Т., Койчубаев Е. К лингвистическому объяснению топонима «казак» // Вестник, АН. Каз. ССР, № 2 (310), Алма-Ата, 1971, с. 47.
366. Капанцян Г.А. Историко-лингвистические работы (Хайаса — колыбель армян. Этногенез армян и их начальная история). Ереван: Изд. АН Армении 1956. 152 с.
367. Капанцян Г.А. Хайаса — колыбель армян. Этногенез армян и их начальная история. Ереван: АН. Арм. ССР 1947, (1948), 287 с.
368. Кашкай С.М. Из истории Маннейского царства. Баку : Элм, 1977, 112 с.
369. Киселев С.В. Древняя история Южной Сибири // МИА, 1949. № 9. с. 277-314.
370. Климишин И.А. Календари и хронология. 2-е изд. Москва: Наука, 1985, 320 с.
371. Кляшторный С.Г., Лившиц В.А. Открытие и изучение древнетюркских и согдийских эпиграфических памятников Центральной Азии // Археология и этнография Монголии. Новосибирск, 1978.№ 3 (7) с. 40.
372. Константинов Н.А. Черноморские загадочные знаки и глаголица.//Ученые записки ЛГУ, 1957, № 197, серия филологических наук, вып.23, с.110-146.
373. Колобова К.М., Глускина Л.М. Очерки по истории древней Греции. Ленинград: Учпедгиз, 1958, 348 с.
374. Козлова Н.Б., Казиян А.С., Коряков Ю.Б.. Клинописи // Языки мира: Древние реликтовые языки Передней Азии / РАН. Институт языкознания. Москва: Academia, 2010. с. 197-223.
375. Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана. Кабала. / Сб. статей, Ленинград: Изд. ЦРК., 1934, 305 с.
376. Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку : Элм, 1970,

264 с.
377. Кызласов Л.Р. История Южной Сибири в середине века. Москва: Высшая школа. 1984, 167 с.
378. Ладынин И.А. Древний Восток. Москва: Дрофа, 2009, 640 с.
379. Латыпов Ф.Р. Исследование древних языков Средиземноморья на основе фоноэволюционной гипотезы и комбинаторно-частотных методов. Уфа: Гилем, 2003, 64 с.
380. Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Латинские писатели. Выпуск 1. Том 2. СПб. 1904 278 с.
381. Латышев В.В. Вестник древней истории. Москва: Академия Наук СССР, 1947, 185 с.
382. Литвинский Б.А. Древние кочевники «Крыши мира». Москва:Наука, 1972, 270 с.
383. Лосев. А.Ф. Плутарх. Очерк жизни и творчества., Москва:Наука, 1999, 345 с.
384. Лурье И.М.. Немху в Египте нового царства// Вестник древней истории. 1953, №4, с. 9-18.
385. Ляпустин Б.С., Суриков И.Е. Древняя Греция. Москва: Дрофа, 2007, 528 с.
386. Лятиф Маммад. Кардуена –колыбель кюрдского народа.// Дружба (Dostani). Москва: Администратор,2003 г., № 22. с. 70-71.
387. Лятиф Маммад. Мидийцы в этногенезе курдского народа. // "Дружба" (Dostanî), №12. Москва: Администратор,2001. с. 35-37.
388. Лятиф Маммад. Хроника «Карки де Бет Селох» – история древнего курдского города Киркук. //Дружба («Dostani»). Москва: Администратор,2003 г. № 24. с. 65.
389. Макнамара Э. Этруски. Быть, религия, культура. Москва: ЗАО Центрполиграф, 2006, 192 s.
390. Максимов М.М. Очерк о золоте. Москва:Недра, 1977, 128 s.
391. Малов С.Е. Уйгурский язык. Москва-Ленинград : Изд. АН СССР, 1954, 203 с.
392. Малов С.Е. Памятники древнетюркской письменности. Москва-Ленинград: Наука, 1951, 142 с.
393. Малов С.Е. Уйгурские наречия Сюньцзяна: Тексты, переводы, словарь/АН СССР. Институт языкознания. Москва: ИВЛ, 1961, 183 с.
394. Манандян Я.А. О торговле в горадах Армении в связи с мировой торговлей древних армян. Ереван: Айастан, 1944, 269 с.
395. Марджанлы М. Армянство. Россия. Кавказ. Москва: Флинта, 2011, 96 с.
396. Марр Н.Я. Избранные работы. Т. 5, Этно - и глоттогония Восточной Европы. Москва-Ленинград: Изд. ГАИМК, 1935, 668 с.
397. Марр Н Я. Основные вопросы истории языка. Избранные работы, т. 4. Москва-Ленинград: Гос. соц.-экон. изд-во, 1937, 372 с.
398. Марр Н. Я. Расселение языков и народов и вопрос о прародине турецких языков// Под знаменем марксизма, Москва – Ленинград: Изд. ГАИМК, 1927, № 6, с. 18–60.
399. Матье М.Э. Из истории семьи ирода в древнем Египте //Вестник древней истории. 1954, №3, с. 45-75.
400. Махортых С.В. Скифы на Северном Кавказе. Москва: Наукова думка, 1991, 136 с.
401. Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья, т.I, Наири-Урарту. Тбилиси: Изд. АН Грузинской ССР, 1954, 446 с.
402. Меликишвили Г.А. К вопросу о древнейшем очаге урартских племен//Вестник Древней Истории № 1, 1947, с. 21-29.

403. Меликишвили Г.А., «Наири–Урарту», Тбилиси: АН Грузинсой ССР, 1954, 446 с.
404. Меликишвили.Г.А. Урартские клинообразные надписи. Москва: Изд. АН СССР, 1960, 504 с.
405. Мерперт Н.Я. Очерки археологии библейских стран. Москва: Библейско-Богословский институт святого Апостола Андрея, 2000, 352 с.
406. Мерперт Н.Я. Кочевые племена в степной полосе Восточной Европе. / В кн.: Очерки истории СССР, (III-IX вв.). Москва: Изд-во СпбГУ, 1996, с. 137, 431 с.
407. Мещанинов И.И. Загадочные знаки Причерноморья. Ленинград: Соцэкгиз-ГАИМК.1933, 88 с.
408. Мещанинов И. И. Аннотированный словарь урартского (биайнского) яҫыка. Ленинград: Наука, 1978, 388 с.
409. Мизиев.И.М. Шаги к истокам этнической истории центрального Кавказа. Нальчик: Эльбрус, 1986, 184 с.
410. Мингазов Ш.Р. Этруски и тюрки. //Клио в объятиях национализма. История в контексте национализма, националистического вооброжения и новейшего мифотворчества. Воронеж: НОФМО, 2008, с.53-61, 205 с.
411. Минорски В.Ф. История Ширвана и Дербента. Москва:Наука., 1963, 140 с.
412. Молчанова О.Т. Структурные типы тюркских топонимов горного Алтая. Ярославл: Саратовский Университет, 1982, 256 с.
413. Моллазаде С.М. Топонимия северных районов Азербайджана. Баку: Маариф, 1979, 206 с.
414. Мунчаев Р.Д. Раннебронзовый век Северного Кавказа и проблема этногенеза вайнахов// Проблемы происхождения нахских народов. Материалы науч. конф. 1992, года в Шатое. Махачкала :СМОМПК. 2008. № 31. с. 94–101.
415. Мурад Аджи.Полынь Прлевецкого поля. Москва: ОАО Типографии Новости, 2000, 455 с.
416. Мурзаев Э.М. География в названиях. Москва: Наука, 1979, 168 с.
417. Найдыш В. Концепции современного естествознания: Учебник. Москва: Альфа, 2004, 622 с.
418. Немировский А.И. Археологические музеи Тосканы// Вестник древней истории, Москва: Русский язык, 1992. № 1. с. 237-244.
419. Немировский А. И. История раннего мира и Италии. Воронеж: Изд. Воронежский Университет, 1962, 247 с.
420. Немировский А.И. Идеология и культура раннего Рима. Воронеж: Изд. Воронежский Университет, 1964, 228 с.
421. Нечаева Л.Г. Погребения с трупосожжением могильника Тора-Тал-Арты.// Труды ТКАЭЭ. Т. II. Москва-Ленинград:Восточная литература, 1966, 364 с.
422. Новосельтсев А.П., Пащуто В.Т., Черенин А.В. Пути развития феодализма. Москва: Наука, 1972, 364 с.
423. Обнорский С.П. Язык договоров русских с греками./ Язык и мышление. Ленинград: АН СССР, 1936, вып. V-VII, с. 403
424. Омаров М.М. Бог грозы (бог бури) в мифах древних народов// Вестник дагестанского научного центра. Махачкала: СМОМПК. 2008. № 31. с. 94–101.
425. Осмонов О.Дж. История Кыргызстана (с древнейших времен до наших дней): Учебник для вузов. Бишкек: Раритет- Инфо, 2008, 606 с.
426. Опарин А.А. Древние города и Библейская археология. Харьков: Факт, 1997, 176 с.

427. Парсамян В.А.История армянского народа. Ереван: Айастан, 1972, 398 с.
428. Пахомов Е.А. О Сассанидских монетных знаках. ДАН Азерб ССР, 1945, № 1. с. 45.
429. Петухов Ю.Д., Васильева Н.И. Евразийская империя скифов. Москва: Вече, 2008, 400 с.
430. Печатнова Л.Г. Формирование спартанского государства (VIII- VI вв. до н.э.) Ленинград: Изд. Санкт-Петербургского университета, 1997, 251 с.
431. Печатнова Л.Г. История Спарты (период архаики и классики) Санкт-Петербург: Гуманитарная Академия, 2001, 510 с.
432. Пигулевская Н.В. Сирийские источники по истории народов СССР. Москва-Ленинград: АН СССР, 1941. 170 с.
433. Пиотровский Б.Б. История и культура Урарту. Ереван: АН Арм ССР. 1944, 364 с.
434. Пиотровский Б.Б. Ванское царство (Урарту) / Орбели И.А., Москва: Изд. Восточной литературы, 1959, 286 с.
435. Плетнева С. А. Хазары. Москва: Наука, 1976, 192 с.
436. Погребева М.Н. Иран и Закавказье в раннем железном веке. Москва: Наука, 1977, 184 с.
437. Потапов, Л. П.. Очерки по истории алтайцев. Новосибирск : Новосибгиз, 1948, 504 с.
438. Потапов Л.П. Очерки истории Ойротии. Новосибирск: : Новосибгиз 1933, 200 с.
439. Пузанов В.Д. Русско-ойратские отношения на юге Сибири в первой трети XVII в.// Известия Уральского государственного университета. 2010, № 2 (76), с. 64-76.
440. Радлов В.В. Из Сибири. Страницы дневника. Москва: Наука, 1989. 749 с.
441. Рахманин А.А. Азербайджан в конце XVI-XVII веке. Баку: Элм, 1981, 239 с.
442. Рзаев Ф.Г. Протоэтносы Асы в этногенезе Азербайджанцев. (На основе Нахчыванских этноойконимов). // Актуальные проблемы гуманитарных и естественных наук.Москва: Литера, 2012, №3 (38), ISSN 2073-0071, с. 132-136
443. Робер Ж.Н. Этруски. Москва: Вече, 2007. 368 с.
444. Рыбаков Б.А. Рождение Руси. Москва: АиФ Принт, 2003, 447 с.
445. Рыбаков Б. А. Язычество древних славян. Москва: Наука, 1981, 606 с.
446. Садри Максуди Арсал. Тюркская история и право. Казан: Издательство ФЭН, 2002, 412 с.
447. Сагадеев А.В. Бахманйар ал-Азербайджани и его энциклопедический труд «ат-Тахсил». Баку: Элм., 1983, 168 с.
448. Сеидов Г.А. Памятники Куро-Араксской культуры Нахичевани. Баку: Билик, 1993, 226 с.
449. Сигизмунд Герберштейн. Записки о Московии. Москва: МГУ, 1988, 430 с.
450. Симоненко А.В., Лобай Б.И. Сарматы Северо-Западного Причерноморья в I в. н.э. Киев: Наукова думка, 1991, 128 с.
451. Синило Г.В. Древние литературы Ближнего Востока и мир Танаха (Ветхого Завета). Минск: «Экономпресс». 1998 474 с.
452. Смирнов А.П. Скифы. Москва: Наука, 1966, 522 с.
453. Смирнов К.Ф. Сарматы и утверждение их политического господства в Скифии. Москва: Наука, 1984, 184 с.
454. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
455. Стивен Бертман. Месопотамия. Москва: Вече, 2007, 416 с.

456. Струве В.В. Подлинный Манефонский список царей. Египта и хронология нового царства// Учёные записки Ленинградского университета, 1941, № 78, Вып. 9, с. 63-81.
457. Сумбатзаде А.С. Азербайджанцы, этногенез и формирование народа. Баку: Элм,1990, 304 с.
458. Теплоухов С. А., Опыт классификации древних металлических культур Минусинского края. Сборник: Материалы по этнографии. Т. IV. Вып. 2. Ленинград: Этнографический отдел Гос. Русского музея, 1929, 214 с.
459. Техов Б.В. Центральный Кавкас в XVI-X вв. до н.э. Москва: Наука, 1977, 240 с.
460. Тилов Р.Р. Говорящая бронра Кавказа. Этническая интерпретация племен кобанской культуры.По материалам книги «Сага о Кавказе». Нальчик: Полиграфсервис, 2005, 80 с.
461. Трепавлов В.В. История Ногайской Орды, Москва: Восточная литература РАН, 2002,752 с.
462. Тугушева Л.Ю.Фрагменты уйгурской версии биографии Сюан-Цзана. Москва:Нука,1991, 176 s.
463. Тураев Б.А. История Древнего Востока. Т. 2, Тексты и документы: Учеб. пособие Под ред. В.И. Кузищина, Минск: Харвест, 2002, 749 с.
464. Тураев Б.А. История Древнего Востока. История культуры Минск: Харвест, 2004, 752 с.
465. Тухмеев Б. Вопросы поэтики «Кутадгу-билик» Юсуфа Хас Хаджиба. Ташкент: Фан, 2004, 119 с.
466. Фарзали Аждар. Ноев Ковчег и Гямигая- Гобустанский алфавит. Баку: Полиграф, 2005, 302 с.
467. Фахрутдинов Р. Г. Очерки по истории Волжской Булгарии. Москва: Наука, 1984, 216 с.
468. Фен Цзя-шен, Э.Р.Тенишев. Три новых уйгурских документа из Турфана. Проблемы востоковедения, Уфа, ул. Кирова, 1960, № 3, с. 141-149.
469. Филин Ф.П. «Н.Я. Марр и изучение русского языка»./ Язык и мышление. Москва-Ленинград: АН СССР, 1937, № VIII, с.1-19, 343 с.
470. Фоменко А.Т. Методы статистического анализа нарративных текстов и приложения к хронологии. Москва: Издательство МГУ, 1990, 439 стр.
471. Фоменко А.Т. Носовского Г.В. Начало Ордынской Руси. Основание Рима. После Христа. Троянская война. Москва: Астрель, 2005, 750 s.
472. Фрай Р.Н. Наследие Ирана. Москва: Наука (ГРВЛ), 1972, 468 с.
473. Хабичев М.А. Именное словообразование и формообразование в куманских языках. Москва: Наука, 1989, 217 с.
474. Хачатурян В.А. Урарты или урартийцы – кто они? Ереван: Гителик 1991, 79 с.
475. Хачикян М. Л. Хурритский и урартский языки. Ереван: АН Арм ССР, 1985, 195 с.
476. Хачикян М.Л. О соотношении хурритских и урартских диалектов// Советское востоковедение. Проблемы и перспективы. Москва 1988. с. 137, 489 с.
477. Хачикян М.Л.. Еламский ясык// Языки мира: Древние реликтовые языки Передней Азии / РАН. Институт языкознания. Москва: Academia, 2010. с. 95-168 .
478. Циркин Ю.Б. Мифы Угарита и Финикии. Москва: Астрель, 2003, 478 с.
479. Чертков А.Д. «О языке пелазгов, населивших Италию и сравнение его с древнесловенским». //Временник Московского Общества истории древностей Российски. Книга 23, Москва 1855, s. s. 13-17.

480. Чудинов В.А. Вернем этрусков Руси. Расшифровка надписей древней цивилизации. Москва: Поколение, 2006, 664 с.
481. Шакарим Кудайберды-улы. Родословная тюрков, киргизов, казахов и ханских династий / Пер. Б.Каирбекова, Алма-Ата: Жазушы, 1990, 118 с.
482. Ширалиев М.Ш. Кыпчакские элементы в Азербайджанском языке. Исследование по грамматике тюркских языков. Москва:Наука, 1965 с. 5-17.
483. Шишлина Н.И. Северо-Западный Прикаспий в эпоху бронзы (V - III тысячелетия до н.э.). Москва: Наука, 2008, 523 с.
484. Шишлина Н.И.. Заметки о характере скотоводческого хозяйства в современной республике Калмыкия// Степь и Кавказ (культурные традиции). Тр. ГИМ. Вып. 97, Москва. 1997, с. 63-71.
485. Шмидт Р.В. Античное предание о дорийском переселении //Вестник древней истории, № 2, s. 38-50, 1938 г
486. Щербак А.М. Огуз-наме. Мухаббат-наме. Москва:Наука, 1959, 320 с.
487. Щербак А.М.. Сравнительная фонетика тюркских языков. Ленинград: Наука, 1970, 204 с.
488. Элфорд, А. Ф. Боги нового тысячелетия (Текст) / Пер. с англ. Ю. Лисовского. Москва: Вече, 1998, 528 с.
489. Юсифов Ю.Б. Ранние контакты Месопотамии с северо–восточными странами (Приурмийская зона).// ВДИ, 1987, №1 с. 21-22
490. Ямпольский З. И. Древнейшие сведения о тюрках в зоне Азербайджана. //Баку: Уч. Записи АГУ, сер. языка и лит., 1966. №2, с. 62-64.
491. Ямпольский З.И. К изучению летописи Кавказской Албании. //Изв. АН Азерб. ССР, 1957, № 9, с. 150-157.
492. Янковская Н.Б. Ашшур, Митанни, Аррапхэ./История Древнего мира. Ранняя Древность. Москва: Знание, 1983, с. 174-197, 386 с.
493. Янковская Н. Б. Хурриты в Канише.// Кавказско-ближневосточный сборник. Т. 8. Тбилиси, 1988, с. 133-138.
494. Янковская Н.Б.. Новые данные к вопросу о межобластном разделении труда в древнем Двуречье/ Культурное наследие востока. Ленинград: Наука, 1985, s. 80-84,383 с.
495. Яйленко В.П. Архаическая Греция и Ближний Восток. Москва: Наука, 1990, 271 с.

## TÜRK DİLİNDƏ

496. Abdulkadir İnan. Makaleler ve incelemeler. I c. Ankara: TTK Yayınları 1968, 465 c.
497. Abdulkadr İnan, Tarihte ve Bugün Şamanizm, II Baskı, Ankara: TTK Yayınları, 1972, VI, 233 s.
498. Ali M. Dincol "Hititler", Anadolu Uygarlıkları I c., Anadolu: Tarihi Ansiklopedisi, Gorsel Yay. 1982, 418 s.
499. Arat Reşit Rahmeti. Kutadgu Bilig. I c., İstanbul: Metin.1947, 656 s.
500. Atakişi Celiloğlu Kasım. Sümerce Kesin Olarak Türk Dilidir. İstanbul: MOR, 2001, 151 s.
501. Ayda A. Etrusklar türk mi idi. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü,1974, 240 s.
502. Bahaeddin Ögel. Türk kültürünün gelişme çağları. İstanbul: Milli eğitim bakanlığı, 1971, 306 s.
503. Baheddin Ögel.Türk mitolojisi, I c. Ankara: Türk Tarih Kurumu Basımevi, 2002, 644 s.
504. Baheddin Ögel.Türk mitolojisi, II c. Ankara: Türk Tarih Kurumu Basımevi, 2003, 610 s.

505. Balkan Kemal. Kars tarihinin ana hatlari. Cilt 12, Ankara: Genelkurmay Basımevi, 1984, 318 s.
506. Caferoğlu A.İ. Türk dili tarihi, I c., İstanbul: Alfa 2001, 446 s.
507. Caferoğlu A.İ. Doğu İllerimiz Ağızlarından Toplamalar, I c. İstanbul: İst. Universitesi neşri, 1942, 361s.
508. Fuzuli Bayat. Türk dili tarihi. Ankara:Genc,Ofset, 2003, 209 s.
509. Gömec S. Uyğur türkleri tarihi ve kültürü. Ankara: Bizim Büro Basımevi, 1997, 182 s.
510. Gültekin Qalibe. Azerbaycanın doğusundaki yer adları. Istanbul: 2001, 187 s.
511. Kırzıoğlu. F. Kars tarihi I c. İstanbul:Işıl Matbaası, 1953, 640 s.
512. Kırzıoğlu F.Yukarı Kür ve Çoruk boylarında Kıpçaklar.Ankara:Türk Tarih Kurumu Basımevi, 1992, 278 s.
513. Osmanlı Arşiv Belgelerinde Nahçıvan.İstanbul:Seçil Ofset, 2011, 568 s.
514. Stefano de Martino. Hititler. ceviren: Erendiz Özbayoğlu, Ankara: Dost Kitabevi, 2006, 127 s.
515. Suphi Saatçı. Tarihi gelişim içinde İrakta Türk varlığı. İstanbul: Milli Eğitim Bakanlığı, 1996, 353 s.
516. Şerif Bastav. Sabir tьrkleri. Ankara: Türk tarihi kurumu, 1941, 247 s.
517. Yaşar Kalafat. Türk Mitolojisinde Kurt. Ankara:Berikan Ofset Matbaa, 2012, 134 s.
518. Yaşar Kalafat. Türk kültürlü halklarda halk inancları. V-VI. Dedem Korkut yukarı elleri. Ankara: Lalezar Kitabevi, 2008, 324 s.
519. Yazılı belgeler ve arkeolojik kalıntılar ışığında Urartu Krallığının Batı yayılımı. Van: Keban Projesi Yayını, 2008, 214 s.
520. Yıldız N. Manas dastanı ve kırğız kültürü ile ilgili tesbit ve tahliller. Ankara:TDK yayımı,1995, 898 s.
521. Tuncer Gülensoy. Türkçe Yer Adları Kılavuzu. Ankara:Bizim Büro Basımevi 1995, 103 s.

## BAŞQA DİLLƏRDƏ

522. Hatəmi N.Z. Fars dili. Bakı:Maarif, 1984, 374 s.
523. Tohid Məlikzadə Dilməğani. Azərbaycan Pəhləvi dövranının əvvəllərində (fars dilində). Təbriz: Əxtər, 1388-2009, 128 s.
524. Fərhad Cavadi. Fərhənge namhaye türki (fars və Azərbaycan dillərində). II c., Təbriz: Əxtər, 2006, (1382), 812 s.
525. Delitzsch F. Die Sprache der Kossaer (Alman dilində). Leipzig: Hinrich. 2012 (Təkrar nəşr, ilk nəşr 1884), KZ, 38, p. 260 ff.

## İNTERNET MƏLUMATLARI

526. www. azerbaijan world.com.
527. www. radosvet.net/.../11157-drevnie-nazvaniya-gorodov-i-stran.html.
528. www. hrono.ru/etnosy/etnos t.html.
529. www. ru.wikipedia. org/ wiki/ Мернептах.
530. www. numbernautics.ru/content/view/534/31/.
531. www. history.az/pdf.php?itemid 20100105064912286&ext.
532. www. antmir.ru/html/l/limes.html.
533. www. sgu.ru/node/54608.
534. www. ru.wikipedia. org/wiki/ Микенская цивилизация.

535. www. isfic.info/urhis/teris 54.htm.
536. www. poiskslov.com/word/скифы/.
537. www. nauka.bible.com.ua/koleso/kol2-03.htm.
538. www. balkaria. info/library/k/kostochakov/kimkyp.htm.
539. www. taishet-rem-servis.ru/index/quot na zemle drevnikh ketov.
540. www. chronologia.org/xpon5/17.html.
541. www. hapiru.ru/Text3-3.html.
542. www. zadachi.org.ru/?n=7552.
543. www. Megabook .ru/Article. asp? AID= 685299.
544. www. annals.xlegio.ru/hetts/ het.hur.htm.
545. www. annals. xlegio. ru/urartu/ small/ur hurr.htm.
546. www. angelateryan. wordpress.com/.../митани-хурри-митани-древнее-арм..
547. www. amkob113.narod. ru/kobra/arh/.
548. www. Drevniy mir.academic.ru/5382/Субарту.
549. www. gerginakkum. ru/ geography/places.htm.
550. www. eleven.co.il.Древнейший период.
551. www .flnka.ru/print:maloaziyskie plemena i kavkazskie albancy.html.
552. www. shkolazhizni.ru/archive/0/n-13610.
553. www. miacum.ru/forum/database/history/268/?from=101.
554. www. kurd.su/dinastiya-sasanidy-i-kurdy-2/.
555. www. people.su/61309.
556. www. mesoeurasia.org/archives/4205.
557. www. zhaina.com//page, 11, neistoricheskie nah.
558. www. disput.az › История и этнография.
559. www. the-barbarians.ru/varvari.../lullubei. Html.
560. www. poiskslov.com/word/ касситы.
561. www. ru.wikipedia. org/wiki/ Касситы.
562. www. e-reading.org.ua/.../Hassnaiin-Vp.
563. www. the-barbarians.ru/varvari-drevnego-vostoka.
564. www. ischezli.ru/kassity.html.
565. www. forum.memurlar.net/konu/976432/?page=2.
566. www. istorya.ru/forum/index.php? showtopic=1635.
567. www. annals.xlegio...rtu/avi/001.htm.
568. www. az.wikipedia.org/wiki/Turukki.
569. www. osetins.com/.../print:page,1,k-voprosu-o-dv .
570. www. qarapapaqlar.borchali.net/index.php?cat=oxu&id=12.
571. www. zorich.ru/worlds//encyclopedia. Htm.
572. www. issyk-kul 2000.narod.ru/nauk50.html.
573. www. centrasia.ru/newsA. php? st=1344237180.
574. www. v-stetsyuk.name/ru/.. ./FUMigration.ht..

# MÜNDƏRİCAT

**Müəllifdən** *(giriş əvəzi)*..... 12

**I fəsil. Qədim Naxçıvanla bağlı tarixi faktlar və tədqiqatlar**

1. Əski mənbələr Naxçıvan haqqında..... 19
2. Naxçıvan etnooykonimlərinin tədqiqi istiqamətləri..... 28
3. Ərəb-fars mənşəli hesab edilmiş etnooykonimlər..... 30
4. Təsviri xarakterli etimologiyalar..... 36
5. Erməni mənşəli hesab edilmiş etimoloji izahlar yanlışlığı..... 39

**II fəsil. Naxçıvan ərazisində prototürk-Azərbaycan boyları**

1. As türkləri..... 46
2. Naxər türkləri..... 79
3. Turukku-türükkü boyları..... 111
4. Kuti boyları..... 128
5. Lulubəy tayfaları..... 154
6. Hürrü boyları..... 181
7. Kas türkləri..... 209
8. Subarlar..... 252
9. Şu-su prototürkləri..... 281
10. Tal türkləri..... 301
11. Koman türkləri..... 321
12. Turdi türk boyları..... 333
13. Pal-pala türkləri..... 345
14. Qədim tus türk boyları..... 355
15. Doray (dorayti ) türk boyları..... 370

**III Fəsil. Naxçıvan paleotoponimlərində yazıyaqədərki dövr proto Azərbaycan dili elementləri**

1. Leksik vahidlər..... 384
2. Qrammatik vahidlər-şəkilçilər..... 407

3. Fonetik hadisələr

3. 1. Səsəvəzlənmələr-paralelliklər..... 408

3. 2. Səsdüşümü hadisəsi..... 413

3. 3. Səsartımı..... 416

3. 4. Səslərin yerdəyişməsi-Metateza..... 416

**NƏTİCƏ**..... 421

Mənbə və ədəbiyyat siyahısı..... 426

**F.H.RZAYEV**

# Naxçıvan əhalisinin etnogenezi tarixindən
## *(e.ə. VI-III minilliklər)*

**I CİLD**

Yığılmağa verilmiş 27.11.2013.
Çapa imzalanmış 18.01.2014.
Formatı 70X100 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 28.0 ç.v.
Sifariş № 75 Tiraj 200 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi,1


əcəmi
NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİ